*Redaкtoru:* **Zəminə Cavanşir**

**Ə.Hacızadə. Əsərləri, X cilddə, V cild**, Bakı, «Nafta-Press», 2004, 476 səh.

Yazıçı Əlibala Hacızadənin bütün əsərlərini əhatə edən X cildliyinin V cildinə müəllifin «Vəfalım mənim» romanı və «Gündəliyimdən səhifələr» daxil edilmişdir.

$$H\frac{4702060000-5}{071(2004)}$$ **Qrifli nəşr.**

**© «Nafta-Press» nəşriyyatı, 2004**

# ROMAN

# VƏFALIM MƏNİM

# BİRİNCİ HİSSƏ

## BİRİNCİ FƏSİL

İnsan bəzən öləndən sonra da sevilə bilərmiş. Qəribə taleyi olan, gizli, təmənnasız, şirin, yandırıb-yaxan bir məhəbbətlə sevən, ancaq sevdiyi qadın tərəfindən oxşanıb əzizlənməyən Orxanın qismətinə belə məhəbbət yazılıbmış, sən demə. Bu sevgi Orxan dünyadan köçəndən sonra dünyaya gəlməliymiş, bu inanılmaz sevginin ömrü — arzuları da, eşqi də gül açmamış cahana əbədi göz yuman Orxanın cavan ömründən uzun olmalıymış, sən demə.

...Zaman hiss olunmadan yel kimi qanadlanıb tarixə, keçmişə, əbədiyyətə çevrildikcə Orxanın heç kəsin ağlına sığışdırmaq, inanmaq istəmədiyi qəfil ölümü və yoxluğu hamıdan çox Gülmirəni yandırıb külə döndərirdi. O özü də hiss eləmədən, artıq yox olmuş, çıraqla da gəzsən tapılmayan, ancaq quruca adı, yadigarları yaşayan Orxana daha çox bağlanır, onu heç cür ölmüş hesab eləyə bilmir, çox dirilərdən üstün sayırdı: nə qədər qəribə və inanılmaz olsa da, özünü tez-tez bu nöqtədə tuturdu ki, o, ərindən — təyyarəsində qəzaya uğrayıb həlak olmuş Əqdəmdən daha artıq Orxan haqqında düşünür, ondan sarı daha çox göynəyir və qəlbindən heç vəchlə qovub çıxara bilmədiyi bu anlaşılmaz fikirdən böyük qəbahət işləmiş bir qadın kimi utanır, xəcalət çəkirdi.

Belə hallarda həyatında silinməz izlər buraxmış, meteor kimi tez nur saçıb tez də sönüb getmiş bu iki kişini istər-istəməz bir-biri ilə müqayisə eləyirdi: Əqdəm dünyada ilk sevdiyi, könlünü, arzularını bağladığı, ömrünü etibar etdiyi adam olmuşdu, həlim idi, xoşxasiyyət idi, yanında olanda qadınını xoşbəxt eləməyə qadirdi. Əqdəm onun sanki gec gəlib tez gedən qonağı olmuşdu; gözüdolusu görə bilməmişdi, ürəyi dolusu sevə bilmə-

mişdi onu Gülmirə — işi, sənəti, vəzifəsinə hədsiz sədaqəti, necə deyərlər, bir ayağının yerdə, bir ayağının göylərdə, ulduzların yanında olması buna imkan verməmişdi. Sonra isə... aydan arı, sudan duru Gülmirəsini dünyadan nakam getmiş Orxanın ölüsünə belə qısqanmış, küsüb evdən getmiş, məhəbbətinii və nifrətinin doğurduğu dolaşıq, çalpaşıq hisslərinin qurbanı olmuşdu. Orxan isə... Gülmirəni sözsüz-dilsiz, sonsuz bir məhəbbətlə sevmiş, cavabsız, açılıb-ağardılmamış, dilə gətirilməmiş bir eşqin odunda yanıb getmişdi. Üst-üstə götürəndə, xoşbəxt dəqiqələri, saatları sayanda, istirahət günlərini çıxsan belə, Orxan Gülmirənin yanında Əqdəmdən çox yaşamışdı: şəhərin ayrı-ayrı küçələrində olsalar da, işdən sonra da, bir havadan udmuşdular, bir dənizə baxmışdılar: şənbə, bazar günləri Orxan bununla təsəlli tapmışdı ki, Gülmirə uzaqda deyil, bu şəhərdədi — bunun özü böyük səadət olmuşdu Orxan üçün. Doğrudur, Orxan Gülmirəni heç vaxt oxşayıb əzizləməmişdi, nəvaziş göstərməmişdi, ancaq odlu ahları ilə, kədərli baxışları ilə, hisslərini gizləmək dözümü və mətanəti ilə Gülmirənin qəlbində gəlinin özünün də anlayıb baş çıxarmadığı çox xoş, giziltili, şirin, sehrli duyğular oyatmış, onu əsrarəngiz bir aləmə aparıb bəxtəvər eləmişdi. Bəli, o zaman Gülmirə başa düşməmişdi bu dilsiz məhəbbəti, haradasa hiss eləmişdi, ancaq mənasına varmamışdı. Lakin sonralar — lələ köçüb yurdu boş qalandan sonra Orxanın bütün hərəkətlərini — baxışlarını, təmənnasız fədakarlıqlarını, dərdli-ələmli gəzib dolanmasını təklikdə götür-qoy eləmiş, hər şeyi tam aydınlığı ilə başa düşmüş və hər şeydən çox ona xüsusi ləzzət vermişdi ki, uğursuz və gecikmiş məhəbbət Orxanın qəlbinə yol tapıb gözlərini bağlayandan sonra o, bu nəhəng şəhərin azad, ancaq əslində əli-qolu bağlı dustağına çevrilmiş, Bakıdan heç yana çıxmamışdı. Gülmirənin yaxşı yadındaydı — tək bircə dəfə professor Salman Qurbanzadə yazıçıların plenumunda məruzə eləməkdən əli çıxsın deyə, onu al dilə tutub demək olar ki, zorla Tiflisə göndərmişdi. Vəssalam. Gülmirəni heç olmasa görmək, səsini eşitmək, işıqlı gözlərinə baxa bilmək səadətindən məhrum olmamaq xatirinə o,

ölən günəcən şəhərdən kənara qədəm basmamışdı: elə bil, rəsmi surətdə kimsə bu ixtiyarı onun əlindən almışdı. Hayıf, o vaxt Orxanın o böyük məhəbbəti kimi, Gülmirə bu fədakarlığı da görməmiş, başa düşməmiş, qiymətləndirməmişdi. Yox, belə demək düzgün olmazdı: görmüşdü də, başa düşmüşdü də; ancaq təkcə qiymətləndirməmişdi. Buna o zaman Gülmirənin haqqı və ixtiyarı yox idi. Orxanın Gülmirəyə bəslədiyi məhəbbət nə qədər böyük olsaydı da, Əqdəmin sağlığında bu sevgi cavabsız qalmalı idi: onda necə düşünürdü — demək çətindi — ancaq indi fikri qəti beləydi Gülmirənin. Eh, bir də nnsan ürəyinin anlaşılmaz sirlərini bilmək, onun dolaşıq-qarışıq müəmmalarını anlayıb axıra qədər dərk eləmək mümkündürmü? Hətta Gülmirənin özü də indi bilirdi ki, bütün bu müəmmalar, suallar o zaman necə həll oluna bilərdi.

Orxan indi də uzaqda deyildi, şəhərin lap qırağında — üç yüzdən çox şəxsi qaraj tikilmiş uzun və yaraşıqlı xiyabanın sağ tərəfindəki köhnə qəbiristanlığın ikinci cərgəsində, yaşıl akasiya ağaclarının altındakı məzarda uyuyurdu.

Gülmirənin mənzilindən oraya on-on beş dəqiqəlik yol vardı.

Təbii ki, Orxan daha onun yanına gələ bilmirdi, onun üçün daha fərqi yox idi ki, Əqdəm evdədi, yaxud səfərdədi; o indi həqiqətən bu şəhərin, əslində isə Gülmirənin əbədi dustağıydı və əgər danışmaq, söz demək qüdrəti olsaydı, heç şübhəsiz, Orxan bunun da özü üçün böyük, əvəzsiz bəxtəvərlik olduğunu söyləyərdi. Gülmirə ürəkdən inanmışdı ki, bu qara torpağın altından baş qaldırıb öz sevdiyinə söz söyləmək kimi bir möcüzə baş verə bilsəydi, Orxan yəqin ki, beləcə də deyərdi:

«Mən xoşbəxtəm ki, sənin yaşadığın, nəfəs aldığın, gəzib-dolaşdığın bir torpaqda dəfn olunmuşam, gülüm. Bu, həyatımda mənə nəsib olmuş sonuncu və ən ülvi bir səadətdi, inan, gülüm.»

Gülmirə dünyada heç kəsin belə möcüzə görmədiyinə və hələ heç kimsənin torpaq altından bircə kəlmə söz yox, pıçıltı belə eşitmədiyinə qəti əmin olsa da, Orxan onun dediklərini eşidəcəkmiş kimi: «Ay mənim azad dustağım, sən yəqin özün də

bilmirsən ki, indi mən sənin dustağın olmuşam: sən yalnız mənə görə dünya gözəli olan bu şəhərdən uzun illər heç yana çıxmadın — təyyarələrin, qatarların, uzaq-uzaq şəhərlərin gözəl-gözəl mehmanxanalarının qapılarını öz üzünə bağladın. İndi mən o qapıları öz əllərimlə öz üzümə bağlayıram, Orxanım. Ölənə kimi sənin dustağın olacağam, əzizim, buna əmin ola bilərsən, Orxanım.» — söyləmişdi. Ancaq bu da yadındadı ki, belə düşünməyindən dərhal qorxmuşdu da. Lakin bu qorxu yaz yağışı kimi tez də keçib getmişdi. Və elə həmin gün — isti, bürkülü avqust günlərinin birində Orxanın çox da böyük olmayan şəklini qızıl suyuna çəkilmiş çərçivəyə saldırıb evindəki yazı masasının üstünə qoymuşdu. Yenə elə həmin gün Əqdəmi dəfn elədiyi vaxtdan geydiyi qara paltarın artıq köhnəldiyini görüb İyirmi səkkiz Aprel küçəsindəki dərzixanaya gedərək müxtəlif naxışları olan qara parçadan üç dəst gözəl don sifariş vermişdi — cavan əri ölmüşdü, həmişə qara paltar geyməkdə heç kəs onu qınaya bilməzdi. Bu da çox qəribə idi ki, son vaxtlar Gülmirə açıq-aşkar ikiləşdiyini hiss eləyirdi — belə qəribə və məntiqi bir-sual onu yormuşdu ki, bu qara paltarı Əqdəmə görəmi çıxarmayacaq əynindən, ya Orxana görəmi? Divardan Əqdəm baxırdı ona, stolun üstündən Orxan. Sanki ikisi də Gülmirədən cavab gözləyirdi. Əqdəmin gözlərində dəruni bir qüssə yatırdı, hardasa bir giley, inciklik, etibara inamsızlıq gizlənmişdi o baxışlarda elə bil. Orxan isə şəkildən gülümsünürdü, sanki sözsüz-sovsuz bir yarışda, çəkişmədə şəksiz qalib gələcəyinə qəlbən inanırdı və bu da maraqlı idi ki, həmin inam Gülmirəyə də sirayət eləyirdi hər gün... Qəribə deyildimi, dünyadan getmiş iki kişi dünyada qalmış bir qadın ürəyində səssiz-səmirsiz, qılıncsız-qalxansız vuruşurdu. Kim daha güclü idi, kim qalib, kim məğlub olacaqdı bu gizli döyüşdə? Hakim Gülmirə idi və o, ürəyinin səsinə qulaq asa-asa hökm çıxarmalı idi, bu hökm də ədalətli olmalı idi. Burda güc lazım deyildi, pul, vəzifə, gərək deyildi, ancaq ürək-məhəbbət lazım idi, çünki bu, məhəbbət döyüşü idi. Və bu hökmü düzgün, qərəzsiz vermək üçün dünyanın ən adil hakimi-hökmranı olmaq gərək idi. Gülmirə bütün səyini,

vicdanını bu hökmü ədalətlə verməyə sərf etmək istəyirdi. Yavaş-yavaş inanırdı ki, ürəyinin, vicdanının tərəzisində Orxan üstünlük qazanırdı: çünki Gülmirənin gözlərini bu dolaşıq, mürəkkəb, bəzən anlaşılmaz adamlar gəzib dolaşan dünyaya ata-anasından da, müəllimlərindən də, az bir müddətdə bir yastığa baş qoyduğu Əqdəmdən də çox açan Orxan olmuşdu: o, zəhmətə, düzgünlüyə, dəyanətə, həqiqətə pərəstiş etməyi bir yerdə işlədikləri müddətdə hər an, hər saat, hər gün Gülmirəyə təlqin eləməyə can atmışdı. Doğrudur, bu yolda Orxan da hərdən çaşmışdı, büdrəmişdi; ancaq ömrünün son günlərində, bəlkə də lap son saatlarında sevdiyinin qəlbində elə bir düzlük və həqiqət şamı yandırmışdı ki, onu nə Salman Qurbanzadə, nə Əqdəmin xatirəsi, nə də sonradan Gülmirənin həyatına daxil olmaq istəyən ən məkrli adam belə söndürə bilməzdi. Bu da qəribə idi ki, Gülmirə harda, haçan Orxanı xatırlayırdı — yad eləmədiyi günlər, saatlar çox az olurdu — Salman Qurbanzadə istər-istəməz gəlib gözləri qabağında canlanırdı və elə düşünürdü ki, dünyadan vaxtsız, arzuları gözündə, neçə-neçə yazılmamış əsəri ürəyində gedən Orxanı Salman öldürüb, bəli, məhz Salman. Belə anlarda Salman qatilə çevrilirdi onun nəzərində — bıçaqsız, tapançasız qatilə. Bəli, Salman Qurbanzadə Orxanın ürəyini o zaman partlatmışdı ki, Gülmirənin haçansa Tarix muzeyində gördüyü o ovxarlı, tarixi qılınc kimi, öz bər-bəzəkli qınından sıyrılıb çıxmışdı. Bəli, məhz o zaman Salman Orxanı yaşıl ot kimi, hələ qolu-budağı bərkiməmiş körpə bir fidan kimi biçib doğrayaraq yerə tökmüşdü və sonra da, qəribə bir ustalıqla başının üstündə dayanıb əzizini itirmiş adam təki göz yaşı axıtmışdı.

...Səhər tezdən Gülmirə dəhlizdə Orxana rast gələndə qorxmuşdu: gözləri qan çəkmişdi, rəngi qaralıb boğulmuşdu, siqaretini aramsız sümürürdü.

— Sənə nə olub, Orxan?

— Necə məgər? — Kədərlə gülümsünmüşdü.

— Gözlərin qızarıb, rəngin birtəhərdi. Ürəyin ağrıyır?

— Gecə səhərəcən yatmamışam, Gülü.

— Niyə, nə olub ki? Yəqin sevindiyindən yatmamısan, eləmi? Həm televizorda Mirzə Yanar haqqında çıxışın, həm də... mənim yazımın müzakirə olunacağı yəqin səni həyəcanlandırıb, eləmi?

Orxan təzədən siqaret yandırmışdı və fikirli-fikirli demişdi:

— Onlar da var, Gülü. Ancaq məni yatmağa qoymayan başqa şey olub.

— Nədi ki? Yoxsa bir hadisə-zad üz verib, Orxan? — deyə Gülmirə təşviş içində soruşmuşdu. — Ürəyimi üzmə, sən allah, de görüm nə olub?

Orxan Gülmirənin qoluna toxunub onu pilləkənin başı tərəfə çəkmiş və axşamkı o gözlənilməz, inanılmaz əhvalatı olduğu kimi danışmışdı. Gülmirənin gözləri təəccübdən böyümüşdü:

— Elə şey olmaz, Orxan!

— Təəssüf ki, belədi, Gülü.

— Lap dəqiq yoxladın, hə?

— Hə. Eynilə öz adına çap elətdirib Mirzə Yanarın əsərini sənin Salman əmin.

— İlahi, necə vicdansız adam imiş bu?

— Hə. Ömrü boyu düzlükdən, təmizlikdən danışan bir adam…

Gülmirə çaşqın-çaşqın Orxana baxıb soruşmuşdu:

— Bəs... bəs indi neyləmək fikrindəsən, Orxan?

— Neyləyəcəyəm? Gözləyirəm, qoy gəlsin, hər şeyi deyəcəyəm.

Gülmirə qorxu içində tələsik dillənmişdi:

— Yox, yox, Orxan. Heç nə demə, sən allah. O səni məhv eləyər, Orxan. Sən bilmirsən o necə məkrli bir adamdır, sən bilmirsən o necə pambıqla baş kəsən bir adamdır, Orxan.

— Yox, mən bu boyda haqsızlığa susa bilmərəm. Bu, vicdansız olmaqdan əlavə, Mirzə Yanar kimi bir alimin xatirəsinə ən azı hörmətsizlikdi, Gülü. Belə çirkinləri, əli, ürəyi əyriləri ifşa etmək bizim borcumuzdu, Gülü. Bu iş ki Salman tutub, elm aləmində ən böyük cinayətdi, inan.

— Mən qorxuram, Orxan. Sənin üçün qorxuram.

— Heç nədən qorxma, Gülü. Bir də mən səndən səkkiz bayram böyüyəm, mənim bu sözlərimi yaxşı yadında saxla. Elmdə təmizlik — məhəbbətdə, sədaqətdə təmizlik kimi böyük səadətdi. Başqasının paltarını geymək olar, başqasının pulunu xərcləmək bəlkə də mümkündür, ancaq başqasının əsərini götürüb öz adına çap etdirmək ağlı olan adam üçün ömrü boyu əzabdır, işkəncədir, səksəkə ilə yaşamaq deməkdir. Sən hələ cavansan, bəlkə də belə şeyləri bilmirsən. Ömrünü vicdan ağrısı çəkmədən yaşamaq istəyən alim bu yoldan uzaq olmalıdı, Gülü.

Orxan keçən yuxusuz gecə Salmanın «Nəsiminin sənətkarlığı» kitabını Mirzə Yanarın bacısı oğlu Möhsünün gətirdiyi qovluqdakı saralmış əl yazması ilə tutuşdurandan və elmdə bu yolun necə də iyrənc bir yol olduğunu dərindən dərk eləyəndən sonra öz Gülmirəsi barədə xeyli düşünmüş, onun əsərinin bəzi hissələrini təzədən yazdığını xatırlamış, vicdan əzabı çəkmişdi. Bunu da xatırlamışdı ki, Gülmirə o vaxt Orxanın belə elədiyinə ciddi etirazını bildirmişdi, «Bunu mənim ürəyim götürməz, Orxan.» — demişdi, ancaq Orxanın təkidindən sonra susub təslim olmuşdu. İndi Orxan Salmandan danışdıqca Gülmirəyə elə gəlirdi ki, bu sözləri hardasa ona da aid etmək mümkündü və buna görə o, özünü yaman pis hiss eləyirdi, nə isə demək istəyirdi Orxana, lakin fikrini heç cür cəmləşdirə bilmirdi.

Elə bu zaman professor Salman Qurbanzadə pilləkənləri qalxıb tövşüyə-tövşüyə onların yanından kefi kök halda keçib gedərkən:

— Hə, salam, uşaqlar... Necəsiniz? — deyə mehribanlıq göstərib soruşmuşdu. Orxan da, Gülmirə də dünyada birinci dəfə heyrət doğuran bir şey görən körpə kimi təəccüb içində duruxmuşdu. Professor təzədən xəbər almışdı:

— Deyirəm necəsiniz?

— Yaxşıyıq, professor... — deyə Orxan həyəcanından titrəyən sağ əlilə eynəyini düzəltmişdi, sol əlilə böyrünə sıxdığı qovluq elə bil canlı imiş kimi çırpınmışdı. — Siz necəsiniz... —

Orxan həmişəki adəti üzrə «professor» sözünü də dilinə gətirmək istəmişdi, ancaq onu tanıdığı bu uzun illərdə ilk dəfə o kəlmə dişlərinin arasında ilişib qalmış, eşidilməmişdi.

— Mən əla. Bu gün lap əla. Qızımızın əsəri keçir. — Salman belə deyib Gülmirənin zərif, düz və yaraşıqlı burnuna bir çırtma vurmuşdu. — Qorxmursan ki?

...Gülmirə qayğılı-qayğılı çiyinlərini çəkib heç nə deməmişdi. Professor uzaqlaşarkən Orxan:

— Salman müəllim, beş-on dəqiqəliyinə məni qəbul edə bilərsinizmi? Vacib bir söhbətim var, — dedikdə Salman sol qolunu irəli uzadıb saatına baxaraq:

— O... Vacib söhbət? Yaxşı, on dəqiqədən sonra gələrsən, — söyləmiş və şəstlə keçib getmişdi. Gülmirə Orxana sarı dönüb:

— Mən sənin üçün qorxuram, Orxan! — demişdi, — Getmə, demə ona.

— Bu mümkün deyil, Gülü. İndi onun kefinə elə soğan doğrayım ki, özü də afərin desin. Bax, bu qovluqdadı onun canı da, şöhrəti də. — Orxan sarı qovluğu yuxarı qaldırıb Gülmirəyə göstərmiş, onun qorxu, həyəcan həkk olunmuş gözlərinə baxıb qəmli-qəmli gülümsünmüş və titrək bir səslə: — Sənin kimi qəşəng, ağıllı arxası olan adam heç kəsdən, heç nədən qorxmaz, Gülüm, — söyləmişdi. Bu sözlər həssas Gülmirənin ürəyini titrətmişdi, ona hədsiz bir ləzzət vermişdi və öz-özünə astaca pıçıldamışdı: «Mən onu özümə dayaq sayıram, o da məni. Qəribə deyilmi?» — deyərək Orxanın arxasınca qürur hissilə baxmışdı.

...Həmin bədbəxt hadisə baş verən gün, Gülmirənin əsərinin hazır fəsillərinin müzakirəsinə başlamamışdan yarımca saat əvvəl Salmanın kabinetindən son dərəcə əsəbi və pörtmüş halda çıxaraq qapının ağzında narahat-narahat gəzinən Gülmirəyə mərhum alim Mirzə Yanarın zamanın əsl rəngini soldurub saraltdığı qovluğunu verəndə ağır döyüşdə qüvvətli düşmənə qalib gəlmiş bir qəhrəman ədasıyla demişdi: «Salmanı diz çökdürdüm qabağımda, Gülü. Bu qovluğu yaxşı saxla, apar evə qoy, gəl, heç kəsə göstərmə və vermə. Axşam gələrsən bizə, ətraflı danışarıq. Gəl

ha, səninlə çox ciddi söhbətim var, Gülü».

Ancaq deyirlər, sən saydığını say, gör fələk nə sayır. Düz saat yarım sonra, Gülmirənin əsərinin müzakirəsinin şirin yerində, sevdiyinin yazısı barədə danışmağa iki-üç dəqiqə qalmış Orxan dəhlizdə, köhnə kreslonun üstündə, oturduğu yerdə qəfildən ölmüşdü. Gülmirənin həyatını da, ürəyini də, elmi işlərini də alt-üst eləmişdi. Orxanın ürəyi niyə partlamışdı? Salmanla mübahisədən əsəbiləşmişdimi? Bəli, əsəbiləşmişdi; bunu Gülmirə özü görmüşdü ki, o, Salmanın kabinetindən nə halda çıxmışdı. Ya bəlkə Orxan Gülmirənin əsəri barəsində danışmalı olacağı anın yaxınlaşmasından həyəcanlanmışdı — axı həmin əsəri alim vicdanının əleyhinə gedərək, amma sevən ürəyinin hökmünə qulaq asaraq o özü demək olar ki, təzədən yazmışdı. Bu suallar indi əlbəttə, cavabsız suallar idi və bunlara Orxanın özündən başqa kimsə cavab verməyə qadir deyildi. Orxan isə əbədilik susmuşdu. Amma yox, Orxan susmamışdı, Orxan yaşayırdı. Son zamanlar onun arxivindən, dostlarından tapılmış əsərləri qəzet-jurnal səhifələrində çap olunduqca Gülmirədə Orxanın ölməzliyi barədə böyük bir inam yaranırdı. Və məhz bu vaxt Orxan onun xəyalında, xatirəsində Əqdəmi daha da üstələyir, mənən qalib gəlirdi. Əqdəm də yaşamışdı, Orxan da yaşamışdı. Əqdəmin günəşin şüaları altında, ulduzların, ayın ağ ziyası altında, buludlar arasında sürdüyü təyyarə onun özü ilə birgə məhv olmuşdu: o dəmir qırıntılarından bəlkə yenidən təyyarə düzəltmək olardı, bəlkə də yox. Hər halda o dəmir-dümürdən başqa şəkildə olsa da, nə isə bir şey düzəldib təzədən dünyaya gətirmək olardı: ancaq nə Əqdəmin özünü, nə də onun fikirlərini, düşüncələrini geri qaytarmaq mümkün deyildi. İnsan ömrü boyu qazandığı pulu, qızılı, var-dövləti varisinə verə bilər, bağışlaya bilər — ancaq beynindəkiləri, ürəyindəkiləri, nə qədər dahiyanə və qiymətli fikirlər olsa belə, heç vaxt öz övladına, dostuna bağışlaya bilməz. Yazı yaşayır, yazıya pozu yoxdur, yazı ölməzdi— Əqdəm heç nə yazmamışdı deyə, nə bilirdisə, nə fikirləşirdisə, özü ilə aparmışdı. Nə apardığını kimsə bilmirdi, heç zaman da bilməyəcəkdi. Və bu, Gülmirənin fikrincə,

bəşəriyyətin ən böyük itkisiydi. Bunu o, təkcə Əqdəmə görə demirdi — ümumiyyətlə dünyadan ən ağıllı və dahi insanlar vaxtsız-vədəsiz son mənzilə gedərkən özləri ilə nələr, necə qiymətli söz və fikir inciləri aparırlar, aman allah. Bax, buna görə Əqdəm uduzurdu Orxanın qabağında, bax, buna görə Orxan Əqdəmdən güclü idi — çünki Orxan beynindəkilərin, ürəyindəkilərin heç olmasa bir qismini bu dünyada insanlar üçün qoyub getmişdi — kimsə, haçansa onun yazılarını oxuyacaqdı, kiminsə gərəyi olacaqdı onlar haçansa. Aliminmi? Sevəninmi? Nə biləsən kimin? Bax, bu məqamda, bu nöqtədə Orxan Gülmirənin nəzərində əbədiləşirdi. Çünki onun beynində, ürəyində belə bir fikir aydınlaşıb durulmuşdu ki, Orxan cavankən, elm aləmində hələ tam sözünü deməmiş dünyadan köçsə də, böyük istedad idi. Bunu bütün elm adamları — akademiklər, professorlar, adi elmi işçilər — bir sözlə, onu tanıyanların hamısı qəribə bir təəssüf və yanğı hissilə yeri düşəndən-düşənə, adı xatırlananda etiraf edirdi. O da Gülmirəyə çox qəribə görünürdü ki, sağlığında bu adamların heç biri o sözü Orxanın özünə deməmişdi, heç yerdə yazmamışdı: ona adi, sıravi bir gənc alim kimi baxmışdı hamı. Elə bil qorxmuşdular bu sözü deməyə, elə bil qıymamışdılar. Orxan ancaq öləndən sonra «istedadlı» olmuşdu, «böyük» olmuşdu. Və Gülmirə ürək ağrısı ilə indi daha çox başa düşürdü ki, Orxan sabah, birisi gün, illər keçəndən sonra daha qiymətli, daha əzəmətli olacaq. Bax, buna görə Gülmirə ondan yadigar qalan yazı-pozusunu, hətta o adi mizi də qoruyub saxlamaq istəyirdi. Ondan olsaydı, Orxanın ev-eşiyini də elə o səliqə-sahmanda saxlardı, o otaqları muzey edərdi, özü isə həmin muzeyin bələdçisi olardı, gələnlərə ağızdolusu, ürək ağrısı ilə Orxan haqqında danışardı — necə insan idi, necə alim idi, necə xeyirxah, nəcib, alicənab idi — hər şeydən danışardı, təkcə gizli məhəbbətindən başqa. Çünki məhəbbətindən o özü də kimsəyə bir söz deməmişdi, hətta sevdiyinə də deməmişdi.

Ancaq təəssüf ki, buna yəni Orxanın evini muzey eləməyə, mizini qorumağa Gülmirənin nə mənəvi, nə də hüquqi ixtiyarı var idi. İnstitut divarları arasında gəzən, kitabxanalarda başını aşağı

salıb mütaliə edən, yazıb pozan tanış adamlar içində əziz Orxanını görməyəndə, iclaslarda, ədəbi yığıncaqlarda həlim, ancaq qətiyyətli səsini-sözünü eşitməyəndə, şöbədə neçə ay sahibsiz qalmış stolunun arxasında lap bu yaxınlarda gəlib əyləşmiş, əyri, yöndəmsiz vucudunda yeganə öyünə biləcəyi uzun, qara saçlarını arıq barmaqları ilə tez-tez geriyə sığallayan kiçik elmi işçi İltifat Abışovu — iri gözləri olduğuna görə hamının xəlvətdə «Dombagöz» adlandırdığı, hələlik əl boyda şerlər kitabı çıxmış, professor Salman Qurbanzadənin, İltifatın akademik atasının könlü xoş olsun deyə ağız dolusu tərifləyib göylərə qaldırdığı (professor o məqaləsində yazmışdı ki, «Ədəbiyyatımıza istedad gəlir»), məhz bundan sonra özünü həqiqi «dahi» hesab eləməyə başlamış bu iddia dağarcığını görəndə Gülmirə az qala dəli olur, daxilən sınıb dağılır, bunu, məhz bunu taleyin və Salman Qurbanzadənin ən böyük haqsızlığı sayır, yerə-göyə üsyan eləmək istəyirdi. Gülmirənin imkanı, ixtiyarı olsaydı, İltifatın qolundan tutub kənara atar, «Bu stolun arxasında kişi oturub həmişə, sən onun dırnağı da ola bilməzsən, sən bu təmiz stolun dalında oturmağa qətiyyən layiq deyilsən, dur, dur, murdarlama bu müqəddəs stolu,» — deyərdi. İltifatı bu instituta Salman Qurbanzadə gətirmişdi və təbii ki, o, bu az müddətdə Gülmirəyə heç bir pislik də eləməmişdi. Lakin İltifatın danışığında, rəftarında, baxışlarında nə isə ürəyə yatmayan, adamı çimçəşdirən elə bir cəhət var idi ki, onunla kəlmə kəsən adam dərhal peşman olurdu. Bir xasiyyəti isə hamını iyrəndirmişdi: nədən, kimdən danışılmağından, lap ən zərif hisslərdən söhbət açılmağından asılı olmayaraq, yerli-yersiz təşbihlər işlədib mütləq bir heyvan adı çəkməli idi — bu, at da, pişik də, dəvə də, ceyran da ola bilərdi. Az sonra şöbədəki qızlar öyrənmişdilər ki, o vaxt, yəni uşaqlıq illərində atası ilə anası arasında ixtilaf düşdüyünə görə İltifat ucqar dağ kəndində yaşamalı olmuş, çoban babasının yanında böyümüş, yeri düşəndə, xüsusilə yay aylarında naxırçılıq da eləmiş, onuncunu bitirib şəhərə, atasının yanına oxumağa gələndə heyvanatın dilini analırının «dilindən» yaxşı bilirmiş, bütün bunları, əlbəttə, «zəngin həyat təcrübəsin-

dən» danışmağı sevən, «şairin tərcümeyi-halı olmalıdır» — kəlamına qəlbən inanan İltifat özü danışmışdı. Gülmirənin Dombagözə nifrət etməsi üçün hələlik onun Orxanın yerində oturması kifayət idi: əgər bu mizin arxasında İltifat yox, başqa birisi də əyləşsəydi, Gülmirə yəqin onu da sinirməzdi. Bu dərd necə ağır olsa da, dözülməli idi: dərdin ən böyüyü o idi ki, Gülmirəni ən sıxıntılı anlarında belə həyata, insanlara bağlayan, yaşadan adam daha yox idi, olmayacaqdı da. Heç vaxt bu dığır-dığır şüşəli qapını açıb içəri girməyəcəkdi, stolunun üstünə qoyulmuş ümumi telefonun aramsız zənglərinə cavab verməyəcəkdi, Gülmirəyə qızılgül gətirməyəcəkdi, ona həsrətlə baxıb gizlicə köks ötürməyəcəkdi: heç vaxt, heç vaxt...

Gülmirə Orxanın şöbədə divardan asılmış çərçivədəki iri şəklinə dərin bir niskil içində oğrun-oğrun baxır, qəlbində onunla səssiz-səmirsiz dərdləşirdi. Orxan Gülmirənin gecəli-gündüzlu xəyallarında, acılı-ağrılı xatirələrində, ürəyinin odundan yaranmış yazılarında canlı insan kimi yaşayırdı və bu, onun üçün böyük təsəlli idi: bu təsəlli Gülmirəni Salman Qurbanzadə kimi adamların müqabilində mərd-mərdanə dayanıb əsl kişi təki döyüşməyə, qılınc, əqidə vuruşuna çıxmağa, Orxanın ömrü kimi yarımçıq qalmış işlərini davam etdirməyə, institutda qalıb çalışmağa səsləmişdi. Burada o, Orxanlı günlərini təzədən yaşayırdı, elə bilirdi ki, Orxan elə burdadı, ona heç nə olmayıb, heç yerə getməyib Orxan. Bir də bax, bu saxlayırdı institutda Gülmirəni. Elə bu həvəs və əqidəylə də o, altı ay əvvəl uğurla müdafiə eləmiş, lap bu yaxınlarda diplomunu da almışdı. O bir parça kağız ona sonsuz bir cəsarət və inam bəxş eləmişdi sanki, indi Gülmirə daha əvvəlki müti və utancaq Gülmirə deyildi: bunun üçün o, hamıdan çox Orxana minnətdar idi, amma hayıf ki, o, Gülmirənin bu sevincini görə bilmədi.

Gülmirə hərdən təklik hiss eləyəndə şö bədə oturub bir yerdə işlədiyi adamları öz aləmində saf-çürük eləyirdi: Salman Qurbanzadə «əzəməti» və «böyüklüyü» ilə hamının gözünü qamaşdırmışdı, hamı ona ağsaqqal və görkəmli alim kimi hörmət

və ehtiram bəsləyirdi, çünki, Gülmirənin fikrincə, onlar Salmanın əsl əməllərindən xəbərsiz idilər və onun iç üzünü bilmirdilər. Bunu təkcə Gülmirə bilirdi, o da hələ ki susurdu. Salmanın arvadı Nadirə də, onunla az qala bir ömür yaşamasına baxmayaraq, ərini yaxşı tanımırdı və bu, Gülmirəyə çox qəribə körünürdü: «Gör nə ustalıqla maskalanıb ki, arvadı da tanıya bilməyib» Şöbənin ən yaşlı əməkdaşı Cəfər İsmayılzadə isə artıq öz kəsərini itirmişdi, qol çırmayıb professor Salman Qurbanzadənin dalı da, qabağı da kəsən qılıncının altına girəsi halı qalmamışdı. İltifata isə heç bir şeydə bel bağlamaq olmazdı, çünki açıq-aşkar görünürdü ki, Salmanın dəyirmanına su tökəndi, iclaslarda onu institutun «bir nömrəli alimi» deyə mədh edirdi və bu xasiyyətinə görə Nadirə xanımın da ondan zəhləsi gedirdi. Salman şöbəni Nadirəyə təhvil verəndən sonra İltifat  fürsət tapıb Nadirə xanıma da bir-iki dəfə girişib «söz çələngindən» bir yağlı pay ayırmışdısa da, təzə şöbə müdiri özünə xas bir kəskinliklə: «Mən kompliment xoşlamıram, İltifat, sözünü xahiş edirəm bəzəksiz-düzəksiz, təşbihsiz-filansız söylə mənimlə danışanda.» — demişdi. Gülalı heç, onun haqqında fikirləşməyə də dəyməz — o yenə əvvəllərdə olduğu kimi, gah nala vurur, gah mıxa, küləyin hayandan əsməyini gözləyirdi. Həmişə küncdəki stol arxasında əyləşən ucaboylu, üzündə kiçik çillər olan, xeyirdə-şərdə hər şeyin yolunu-yolağını yaxşı bilən və buna görə də hamının zarafatla «Böyükməmə» çağırdığı durna boğazlı — zərif və uzun, ağ dərili boğazı vardı — Ümmigülsümdən də Salmanın qarşısına çıxan olmazdı. O, həyat, məişət məsələlərində olduqca zirəkdi, işbiləndi, amma elm aləmində bir az süst idi, lazım olanda öz kəsərli sözünü deyə bilmirdi. Təkcə Böyükməməliyi ilə hamının hörmətini qazanmışdı. Qaldı ki, şöbənin təzə əməkdaşlarından olan Sarışın — əsl adı Elvira idi, ancaq saçları, kirpikləri, hətta dərisinin rəngi də sarı olduğundan belə çağırırdılar — onun nə yuvanın quşu olduğunu hələ heç kəs, o cümlədən Gülmirə də bilmirdi. Təkcə deyəsən Nadirə xanım onu yaxşı tanıyırdı, amma nədənsə heç kəsə bu barədə bir söz demirdi. Hələlik aydın olan bu idi ki, Universitetin məşhur

professoru İbrahim Sultanzadə Elviranın xatirini öz övladı kimi çox, lap çox istəyirdi və danışırdılar ki, onu bu inistituta işə düzəltmək üçün şəxsən özü direktor Aslan Aslanzadənin yanına xahişə gəlibmiş. Çöp kimi nazik, yaraşıqsız ayaqlarına geydiyi dikdaban çəkmələrini döşəmədə, pilləkənlərdə taqqıldada-taqqıldada gəzən Sarışına bəzən «Tıq-tıq xanım» da deyirdilər. Ağzında həmişə nanəcövhərli konfet olardı. Danışanda da, yazanda da. Çayı da o konfetlə içərdi həmişə, təəccüblənən rəfiqələri səbəbini soruşanda «xoşlayıram» — deyə müxtəsərcə cavab verərdi.

Universiteti bu il qurtaranlardan təkcə Fazilə adında qəşəng, qaragöz, çatmaqaş, zarafatcıl, deyib-gülməyi xoşlayan bir qız onların şöbəsinə gəlib düşmüşdu. Baş laborant işləyirdi və az müddət ərzində şöbə əməkdaşlarının sevimlisinə çevrilmişdi. Yaxşı adam yamsılamaq qabiliyyəti vardı. Hərdən ya acığı gələn, ya da xoşu gələn bir adamı elə yamsılayırdı, təqlidini elə çıxardırdı ki, deyirdin bəs elə həmin şəxs özüdü gəlib dayanıb qabağında, danışır. Bunu bir məharətlə eləyirdi ki, qulaq asanlar az qalırdılar uğunsunlar. Gülüşü, yumoru çox xoşlayan Cəfər kişi bir dəfə zarafata salıb demişdi: «Səndən yaxşı artist olardı. Səhnəyə, teatra getsəydin, az bir müddət ərzində xalq artisti ola bilərdin». Cəfər bu sözləri deyib gedəndən sonra Fazilə mizinin arxasından qalxıb ortalığa çıxmış və eynən Cəfərin səsini, üzünün ifadəsini yamsılayıb şöbədəkiləri güldürmüşdü. Gülmirənin nəzərində Fazilə hələ uşaq idi və gələcəyi necə olacaqdı — yəqin heç Fazilə özü də bilmirdi. Hər halda alim olacağına Nadirənin də, Gülmirənin də gümanı az idi. Şöbədə bir də Sakit Aranlı var idi; o da Orxan öləndən sonra gəlmişdi — yazıçıydı, neçə-neçə kitabı çıxmışdı, elmlər namizədiydi; elə bil bu dünyanın adamı deyildi, idarəyə hamıdan tez gəlib hamıdan da axırda gedər, danışdırsan danışar, danışdırmasan — danışmazdı, işi-peşəsi yazıb-oxumaqdı. Sanki nə isə ağır bir dərdi var idi: həmişə kədərli gəzib-dolanardı. Təbiəti adına uyğun idi. Elə bil, ata-anası əvvəlcədən övladlarının necə olacağını bilib bu adı vermişdilər ona. Çox saf idi, qətiyyən lovğalanmazdı. İnanmazdın ki, o qalın-qalın kitabları yazan bu

adamdı. İltifatın cəmisi bir dənə kitabçası çıxmışdı — dərisinə, qınına sığışmırdı. «Biz şairlər», «mənim şerim» kimi sözləri tez-tez onun dilindən eşitmək olardısa, Sakit Aranlı heç vaxt belə sözlər deməzdi və İltifatın dilindən bu cür ibarələr eşidəndə ona məzəmmətlə baxar, ancaq heç nə söyləməzdi. Bu sadəliyi, təvazökarlığı Sakiti yoldaşlarının gözündə çox ucaltmışdı. Üzünə deməsələr də, ürəklərində onunla bir yerdə işlədiklərinə fəxr edirdilər. O fəxr edənlərdən biri də Gülmirə idi. Gülmirə onun kitablarının hamısını oxumuşdu, ürəyi ilə tanış idi. Bilirdi ki, ürəyi gözəldi Sakitin hissləri şairanədi Sakitin. Bilirdi ki, həyatda, məhəbbətdə, dostluqda təmizlik, sədaqət və dəyanət, insanın bütövlüyü, çətinliklər önündə sınmamaq, doğulduğu torpağa sönməz məhəbbət bəsləmək, kişilik, mərdlik və s. Sakit Aranlının yazılarında təbliğ edilən əsas hisslərdi. Bilirdi ki, Sakit Aranlı həqiqətpərəst bir qələm sahibidi, ikiüzlülüyə, satqınlığa, xəyanətə, haqqın nahaqqa qurban verilməsinə dözə bilməyən bir ürəyə malikdi. Dəfələrlə istəmişdi ki, Orxanın taleyini, özünün dərdini ona danışsın — bəlkə yazdı. Ancaq qəlbinin məhrəm sirlərini kənar adama açıb deməyə ürəyi gəlməmişdi. Gülmirə bu ümiddəydi ki, əgər şöbədə haqla nahaq üz-üzə gələrsə, yəni Gülmirə Salman Qurbanzadə ilə söz döyüşünə çıxarsa, Sakit Aranlı onun tərəfində dayanar. Bu bir güman idi, Gülmirənin ürəyində yaşayırdı.

...Orxan öləndən sonra Salman yumurtası tərs gəlmiş toyuq kimi çox vurnuxmuşdu, onun evində, arxivində işləmiş, yoldaşlara üstüörtülü müraciət eləmiş, «kimdə Orxanın — bizim mərhum yoldaşımızın papkası, yazısı varsa, versin, əsərlərini buraxacağam» — demişdi, ancaq o sarı qovluqdan soraq verən, «gördüm» deyən olmamışdı. Sarı qovluq necə ola bilərdi? Axı o, Orxan ölən gün burdaydı, institutdaydı. Baş verən bədbəxt hadisədən camaat çaxnaşmaya düşəndə, ora-bura qaçanda Salman fürsəti fövtə verməyib o sarı qovluğu axtarmışdı, Orxanın — bir az bundan qabaq əzrayıl kimi sinəsinə çökmüş Orxanın gözlənilməz vəfatına, insanlıqdan uzaq olsa belə, nə qədər sevinmişdisə, sarı qovluğun

iynə olub itməsinə bir o qədər pərt olmuşdu. Sonralar da bu narahatçılıq onu tərk etməmiş, elə hey qovluq sorağında olmuşdu. Yeganə şübhələndiyi adam Gülmirə idi, çünki professor onların nə üçünsə bir-birinə yaxın olduğunu duymuşdu. Buna görə də neçə dəfə Gülmirəni dilə tutub dolayısı ilə bir şey öyrənmək istəmişdi, ancaq Gülmirə özünü o yerə qoymamışdı. Salman bu ötən aylar ərzində özünü nə qədər sakitləşdirməyə çalışmışdısa da, bacarmamışdı, tikan üstə yaşamışdı. «Olsa, Gülmirədə olacaq, o da məni satmaz. — deyə düşünmüşdüsə də — Ancaq uşaqdı, birdən ağzından qaçırdar, bir kəsə deyər» — qorxusu onu tərk etməmişdi. Bu nigarançılıq içində o, Gülmirəyə daha çox qayğıkeşlik göstərməyə çalışmış, müdafiəsinin təşkilini sürətləndirmiş, daha artıq mehriban olmuşdu: bu isə Gülmirədə ona qarşı nifrəti bir az da artırmışdı.

...Son günlər Orxan Gülmirənin yuxusuna tez-tez girir, ona sağlığındakından daha yaxın olur, röyalarda öpüb oxşayır, əzizləyirdi və gedəndə güclə eşidilə biləcək bir səslə deyirdi: «Sabah yenə gələcəyəm, Gülü. Məni gözlə, Gülü», «Yaxşı, əzizim» — cavab verirdi Gülmirə. «Yatma ha», «Yatmasam gələ bilməzsən axı, Orxanım». «Hə, doğrudan a. Sən yatmasan mən sənin yanına gələ bilmərəm. Demək, biz həmişə ancaq yuxularda görüşəcəyik». «Hə, əzizim, təəssüf ki, ancaq yuxularda...» «Onda yat, Gülü. Mən gələcəyəm, hökmən gələcəyəm». Belə deyirdi, ancaq sabah gəlmirdi, birisi gün də gəlmirdi, elə bil, gözləyirdi, Gülmirənin səbri lap tükənəndə süd kimi ağappaq yuxuların birində özünü yetirirdi. Gülmirə sağlığında Orxanın olmamışdı, amma indi, öləndən sonra, süd kimi ağappaq yuxuların qu tükündən olan ipək yorğan-döşəyində, bəzən çöldə-çəməndə, bəzən Xəzərin köpüklü dalğaları qoynunda bir-birinin vüsalına qovuşur, kama yetirdilər. Bəli, Orxan öləndən sonra Gülmirənin olmuşdu və onu daha heç kəs Gülmirənin əlindən ala bilməzdi. Və ona Orxandan başqa dünyada kimsə lazım deyildi.

Adətən belə şirin, dadlı, doyulmaz, bəzən də yarımçıq filmi xatırladan yuxulardan sonra Orxanı işdə, küçədə, evdə öz yanında

görə bilməyəndə Gülmirə çox pərişan olurdu, bütün günü itiyi itmiş kimi gözləri ilə adamların arasında onu axtara-axtara fikirli gəzib dolanırdı. Xəyalında onu axtarırdı, gözlərinin qabağında nəsə Salman gəlib dururdu; bu zaman qəlbində mələk donu geymiş bir iblisi xatırladan professora nifrəti coşub tüğyan eləməyə başlayırdı və günlərin birində bu nifrət hissi o qədər gücləndi ki, dama-dama yığılıb gölə çevrildi; Gülmirə Salmanı — atasının qayğıkeş dostunu, özünə hardasa çox yaxşılıqlar eləmiş Salmanı təkcə Orxanın yox, elmin, həqiqətin, ədalətin düşməni saydı, ürəyində qarşısıalınmaz bir hiss onu ifşa etmək, maskasını — illərlə arxasında gizləndiyi, adi gözlə görünməyən maskasını yırtmaq, elm və vicdan oğrusunu ictimaiyyətə tanıtdırmaq duyğusu baş qaldırdı. Bu zaman Orxan yenə onun dadına çatdı, əlindən tutdu: Gülmirənin yadına Orxanın həyatının sonuncu günü verdiyi o sarı qovluq düşdü. Axşam həmin qovluğu kitab şkafının alt gözündən axtarıb tapdı, səbir və diqqətlə mütaliə elədi, professorun çap olunmuş kitabı ilə tutuşdurdu, aralarındakı eyniyyəti görəndən, Orxanın bu barədə o zaman dediklərinin həqiqət olduğuna bir daha inanandan sonra xatirini böyük bacı kimi istədiyi Nadirəyə də heç nə demədən qorxulu bir addım atmağı qərara aldı. İki həftə ölçüb biçdi, götür-qoy elədi, nə qazanacağını, nə itirəcəyini göz qabağına gətirdi: bu təhlükəli addımı atsaydı, Gülmirəni dost-tanış qınaya bilərdi, onu qədirbilməz adlandıra bilərdi—eybi yoxdur, qoy kim nə deyir desin—Mirzə Yanarın ağır zəhmətinin məhsulunu özünə qaytarmaq, Orxanın intiqamını almaq, Salmanın iç üzünü açıb hamıya tanıtdırmaq, heç olmasa gələcək qurbanları onun qılıncından xilas etmək müqabilində bu, çox kiçik göründü Gülmirəyə. «Nə olur, olsun» — dedi nəhayət öz-özünə. Və hiss elədi ki, onu bu yoldan artıq heç kəs, heç nə döndərə bilməz.

Təsadüf elə gətirmişdi ki, Orxanın öldüyü gün (Gör illər nə tez gəlib gedir! İki il keçib?) şöbənin iclası çağrılmışdı. İnstitutun direktoru akademik Aslanzadə də burada idi. Nadirə soyuqlamışdı deyə, boğazı ağrıyırdı və buna görə də Aslanzadəyə Salmanın

yanında xırıltılı səslə:

— Mən, danışa bilmirəm, professor, qoyun iclası Salman aparsın. — demişdi. Aslan müəllim gülümsünüb:

— Qorxmursan? Birdən Salman öz köhnə vəzifəsindən bərk yapışdı, səni sonra yaxın qoymadı, onda neylərsən?—deyə zarafat eləyəndə Nadirə yenə xırıldaya-xırıldaya:

— Mən vəzifəpərəst deyiləm, professor! — söyləmişdi.

— Bilirəm sən vəzifəpərəst deyilsən, ancaq Salman ki vəzifəpərəstdi?

Hər üçü gülmüşdü.

Cəfər, Gülalı, Dombagöz, Sarışın, Fazilə, Sakit Aranlı — hərəsi öz stolunun arxasında əyləşmişdi. Gülmirə arxada, qapının ağzında oturmuşdu. Aslanzadə ilə Salman yuxarı başdakı iri mizin dalında yanaşı əyləşmişdilər. Nadirə pəncərə önündəydi. Gülmirə Orxanın divardakı şəklinə oğrun bir baxış fırladıb kədərlə köksünü ötürdü və fikirləşdi ki, görəsən Salman onun ölüm gününü yad edəcəkmi? Və bunu da düşündü ki, işdən sonra bazara gedəcək, iki dəstə gül alıb qəbir üstünə yollanacaq, əzizlərinin — Əqdəmin və Orxanın qəbrini ziyarət edəcək. O, mizinin üstündəki sarı qovluğa baxanda bədənini soyuq bir gizilti gəzib dolaşdı, elə bil çölün soyuq payız havası axıb içəri doldu və onu üşütdü: qeyri-iradi başını qaldırıb pəncərələrə nəzər saldı: yox, pəncərələr bağlı idi.

Salman Qurbanzadə ayağa qalxıb köhnə adəti üzrə oturanlara ötəri bir nəzər salaraq boğazını arıtdı, neçə ildən bəri vərdiş elədiyi sürtülmüş sözlərlə iclası açıq elan elədi və müzakirə olunacaq məsələni söylədi. Yox, Orxan yada düşmədi. Gülmirənin içəridə ürəyi yel vurmuş yarpaq kimi əsdi: ya indi başlamalı idi hücuma Gülmirə, ya da... ya da heç vaxt... Onun əli astaca yuxarı qalxdı — kənardan baxan olsaydı, əlinin titrədiyini dərhal görə bilərdi. Salman qara sağanaqlı, iri şüşəli eynəyini düzəldib bir də zala göz gəzdirəndə Gülmirənin əlini havada gördü və üzünü ona tutub:

— Deyəsən nə isə təklifin var, Gülmirə xanım? — deyə soruşdu.

— Bəli, professor. — Onun səsi titrəyirdi.

— Buyur, qızım.

Gülmirə asta-asta. qalxdı. Aslanzadəyə, Salmana və başqa oturanlara göz gəzdirdi, sonra başını aşağı salıb sarı qovluğa bir də baxdı və nəhayət, üzünü Salmana yox, Aslanzadəyə tutub titrək, həyəcanlı səslə dedi:

— Yoldaş Aslanzadə, mən çox xahiş edirəm, bir neçə dəqiqəliyə mənə qulaq asın. Yoldaşlar, sizdən də xahiş edirəm, mənə qulaq asıi. Sonra məsələni müzakirə edərsiniz.

Gülalı yanında əyləşib tez-tez burnunu çəkən İltifata astaca söylədi:

— Gülmirə müdafiə eləyəndən sonra yaman fəallaşıb ha. Hər iclasda bir nitq irad eləyir.

— Hə, —dedi İltifat . — Bülbülə dönüb zalımın qızı.

Akademik, bu başıaşağı, iclaslarda çox nadir hallarda danışan Gülmirənin səsindəki qeyri-adi titrəyişi dərhal duyub qamətini düzəltdi və maraqla:

— Buyur, qızım, — dedi, — biz səni eşidirik. Gülmirə boğazı qəhərdən tutula-tutula söylədi:

— Mənim çıxışım bir az qeyri-adi olacaq, yoldaş Aslanzadə, ona görə mən əvvəlcədən sizdən üzr istəyirəm. — O, yenə susdu, Salmana ötəri bir nəzər saldı: Salmanın dalağı o dəqiqə sancdı, nigaran-nigaran Gülmirəyə baxdı, onun baxışından bir şey ala bilməyərək dönüb Nadirədən işarə ilə: «Ona nə olub?» — deyə soruşduqda Nadirə çiyinlərini çəkdi. Otağa ölü bir sükut çökmüşdü.

Aslanzadənin gər səsi Gülmirəni tərəddüddən qurtardı:

— Buyur, qızım.

Gülmirə boğazını arıdıb sözə başladı:

— Mən hələ tələbəlik illərindən bu böyük elm ocağına müqəddəs bir məbəd kimi baxmışam. Mənə elə gəlir ki, elə siz də belə baxmısınız. Mən düşünərdim ki, sənət adamları, elm adamları dünyanın ən təmiz, ən müqəddəs adamlarıdı; harda, kimdə ədalətsizlik olsa da, sənət, elm ocaqlarında, yaradan adamlar ara-

sında hiylə, məkr, ədalətsizlik qətiyyən ola bilməz. Əgər burada, bu adamların arasında da dünyada ən böyük haqsızlıq olan ədalətsizlik, paxıllıq, xudpəsəndlik, oğurluq olarsa, onda dünya dağıla bilər. Mən çox yaxşı bilirəm ki, bizim qabaqcıl, ağıllı, səsi-sorağı dünyanın hər yerindən, hətta uzaq qalaktikadan gələn alimlərimiz, elm fədailərimiz var və onlarla biz fəxr edirik. Amma təəssüf ki, mən adi bir kiçik elmi işçi — bu müqəddəs elm ocağında işlədiyim bir neçə ildə bəzən elə şeylər görmüşəm ki, heyrətimdən ayağım, yerə yapışıb, yoldaşlar. — Salman bu ara qımıldanıb Gülmirənin sözünü kəsmək istədisə də, Aslanzadə susmasını işarə elədi: Salman artıq başa düşmüşdü ki, daş onun bostanına atılır və bu xına o xınadan deyil — ancaq dinləməkdən başqa çarəsi yox idi.

Gülmirə davam etdi:

— Yoldaşlar, sizin yadınıza salıram ki, düz iki il bundan qabaq, elə bax bu gün, bu divarlar arasırda bizim qələm yoldaşımız, hamımızın istedadlı bir alim kimi tanıdığı və sevdiyi Orxan vəfat eləyib. Mən bizim yoldaşlardakı bu biganəliyə, laqeydliyə heyrət etməyə bilmirəm, yoldaşlar. Orxan kimi qabiliyyətli, az ömründə «mənəm, mənəm» — deyən bəzi alimlərimizdən çox əsər yazmış istedadlı bir alim dünən ölüb bu gün yaddan çıxırsa, onda vay bizim kimi kiçik adamların halına. — O, bir anlığa susub Salmanın gözünün içinə baxa-baxa dedi: — Bu qədirbilməzlikdi, yoldaşlar. Xahiş edirəm, heç olmasa yoldaşlıq borcumuzu yerinə yetirərək, bir dəqiqəlik sükutla aramızdan vaxtsız getmiş Orxanın xatirəsini yad etmək üçün ayağa qalxın.

Otaqda pıçha-pıç gəzdi və hamı bir nəfər kimi ayağa qalxıb başını aşağı saldı. Gülmirə həyəcanlı nəzərlərlə Salmana baxıb tez də gözlərini yayındırdı — o, ağappaq ağarmışdı, deyəsən Gülmirənin bununla qurtarmayacağını hiss eləyib işarə ilə nə isə demək istədi, ancaq Gülmirənin baxışlarını tuta bilmədi. Aslanzadə başını qaldırıb ayaq üstə dayanmış, nə edəcəyini, nə deyəcəyini bilməyən Salmana nəsə söylədi, Salman aşağı əyilib qabaqda oturanların eşidə biləcəyi bir səslə: «Səhv eləmişəm, tamam yadımdan çıxıb, düz deyir» pıçıldadı.

— Xahiş edirəm, oturun — deyə Gülmirə iclasın sədri imiş kimi icazə verdi, hamı oturdu. Yenə araya sükut çökdü, baxışlar təzədən Gülmirəyə zilləndi.

Bu zaman Gülalı İltifatın qulağına nə isə pıçıldayıb ayağa durdu və icazəsiz-filansız üzünü direktora tutaraq söylədi:

— Professor, Gülmirə burda bir balaca səhv eləyir. Orxan ölüb — Allah rəhmət eləsin, necə deyərlər. Ta bu o demək deyil ki, biz ömrümüz boyu onun yasını saxlamalıyıq. Əgər Gülmirə onu çox istəyirsə, onun xatirəsinə istədiyi qədər yas saxlasın. Daha bu qədər adamı «Vankə-vıstankə» kimi oturdub-durğuzmasın.

İltifat yerindən dilləndi:

— Gülalı düz deyir, professor.

Aslanzadə onların ikisinə də mənalı-mənalı baxıb incik bir tərzdə dedi:

— Yox, Gülalı düz demir. Gülmirə haqlıdı. Siz Orxanın dostları, yoldaşları olubsunuz: hamıdan qabaq onun qədir-qiymətini siz bilməlisiniz. Yaşatmalısınız onu. Unutmaq lazım deyil ki, heç kəs dünyanı əbədi tutub durmayacaq. Mən biləndə ki mənim həmkarlarım, dostlarım qədirbiləndi, onda yaşamaq bir az da gözəl olur, onda heç ölmək də qorxulu olmur, bala.

Sakit Aranlı İltifatın domba közlərinə nəzər salıb ürəyindən keçirtdi: «Gülalı təbiətən qaba, köntöy, zəriflikdən uzaq bir adamdı: o, belə düşünə bilər. Amma sən... sən adını şair qoymusan axı. Əgər sən beləsənsə, onda sən həqiqi şair deyilsən, ola da bilməzsən.»

Aslanzadənin sözlərinin qabağında Gülalı da, İltifat da heç nə deməyə cəsarət eləmədi.

—Qurtardın, Gülmirə xanım? — deyə Salman kinayəli tərzdə ondan soruşanda Aslanzadə yerində qurcalandı və:

— Qoy sözünü desin, Salman! — dedi, — buyur, qızım. Mən görürəm ürəyin doludur, danış, burada özgə adam yoxdur, öz kollektivimizdir.

— Sözümün canı budur ki, yoldaş Aslanzadə, — deyə tir-tir titrəyən Gülmirə əyləşənlərə nəzər salıb davam elədi. — Sözü-

mün canı budur ki, bu müqəddəs elm ocaqında ancaq, ancaq təmiz adamlar, vicdanı pak, ürəyi büllur kimi saf adamlar işləməlidir, oğrular, intriqaninlar, vicdansızlar, pambıqla baş kəsənlər yox. Siz bu institutun direktorusunuz, üzünüzə demək olmasın, yaxşı alimsiniz, ancaq institutda baş verən bəzi işlərdən xəbəriniz yoxdur, bəzən bilmirsiniz dərdimiz nədir, azarımız nədir, kimi harda, necə «öldürürlər», kim kimin haqqını harda, necə tapdalayır – bunlardan sizin xəbəriniz yoxdur, yoldaş Aslanzadə, acığınız gəlməsin, xahiş edirəm, məni düzgün başa düşün, siz gərək kimin necə, nəynən nəfəs aldığını beş barmağınız kimi biləsiniz.

Akademik Aslanzadə mənalı-mənalı qımışdı, başını tərpətməklə onun sözlərini təsdiq elədi: zalda hamı bir-birinə dəydi, otağı ildırım sürətilə boğuq pıçıltı-uğultu gəzib dolaşdı. İndiyə qədər iclaslarda elmi mübahisələr olmuşdu, ucadan danışanlar, hövsələdən çıxanlar, biri digərinə ağır söz deyənlər də olmuşdu, ancaq bütün bunlar bu iclasın yanında necə deyərlər, toya getməli idi. İnstituta təzə qəbul olunanda sıxıla-sıxıla danışan bu qadının səsində bir hökm vardı, bir ittiham vardı və əsməyindən, ağ-əsmər üzünün pörtüb qızarmağından gün kimi aydın idi ki, o, nə isə çox mühüm bir mətləbi açıb ortalığa qoymaq niyyətindədi. Yoxsa indiyə qədər heç kəs cəsarət edib nə Aslanzadənin, nə də Salman Qurbanzadənin üzünə güldən ağır bir söz deyə bilməmişdi.

Akademik Aslanzadə hövsələli kişi idi, onun bütün məziyyətlərindən əlavə bir gözəlliyi də təmkinli, səbirli olması idi. O, əlindəki qələmin ucunu mizin üstündəki qrafinə tıqqıldadıb camaatı sakit olmağa çağırdı: otaqdakılar tezcə sakitləşdi, nəzərləri Gülmirənin qəşəng, ancaq səyriyən dodaqlarına dikildi. O danışmağa başlamamış Aslanzadə ayağa qalxdı və Gülmirəni mətləb üstünə gətirmək üçün dedi:

— Davam elə, qızım, Açıq danış, bəlkə doğrudan da elə şeylər var ki, sən haqlı olaraq dediyin kimi, kabinetə girmişəm, mənim heç xəbərim yoxdur? Açıq de, mən lazımi ölçü götürə bilərəm: heç nədən, heç kəsdən qorxmadan, çəkinmədən danış.

Açığını deyim ki, sənin cəsarətindən xoşum gəldi.

Aslanzadə ayağa durandan sonra lal-dinməz yerində oturub sarısını udmuş Salman astadan direktora pıçıldadı:

— Bənd olma o qədər, deyəsən, qız xəstələnib.

Salman bu sözləri nə qədər astadan desə də, otaqda qulaq batırıcı bir sakitlik olduğundan, onun dediklərini hamı, o cümlədən Gülmirə də aydınca eşitdi, qəzəb dolu bir səslə cavab verdi:

— Xeyr, professor, mən xəstə-zad deyiləm, tamamilə arxayın ola bilərsiniz.

—…

— Yaxşı, söz güləşdirməyin. Buyur, sözünü de. Kimdi bizdə oğru, intriqant, vicdansız, pambıqla baş kəsən? — deyə Aslanzadə, bu uzanan, hələ də mətləbi-mənası aydınlaşmayan əsəbi söhbətdən darıxsa da, mümkün qədər təmkinini saxlamağa çalışaraq, mülayim ədayla soruşdu.

Gülmirə Salmana baxmamağa çalışaraq:

— Mən... mənim indi dediklərim sizə qəribə gələcək, çünki haqqında danışacağım adam mənə dırnaqarası çox böyük yaxşılıqlar eləyib — ola bilər məni qədirbilməz hesab eləsin — ancaq mən məcburam bu həqiqətlərn sizin hamınıza çatdırım — mən vicdan əzabı ilə yaşamağı bacarmıram... — dedi.

— Gülmirə, qızım, özünü ələ al, sənə nə olub axı? — İndi artıq Salmana hər şey aydın idi: qovluq onda idi və daha üstünə dağ seli kimi axıb gələn bu fəlakəti, biabırçılığı saxlamaq mümkün deyildi; buna baxmayaraq Salmanın baxışında da bir yalvarış duyulurdu: — Nadirə, sən niyə oturub baxırsan, dur, onun qoluna gir, apar mənim otağıma, sudan-zaddan ver, -qoy bir az sakitləşsin. Sonra nə sözü-söhbəti var, ya mənə, ya da yoldaş Aslanzadənin özünə deyər. O qaçmır, biz qaçmırıq — necə deyərlər, ağa durur, Ağacan durur.

Nadirə yerindən tərpənmədi. Aslanzadə isə Salmana söylədi:

— Sakit, Salman...

Salman yerində yenə balacalaşdı. Gülmirə dedi:

— Bax, görürsünüz, yoldaşlar, Salman müəllim qarğa məndə qoz var deyir. Düz fikirləşirsiniz, Salman müəllim, mən sizin haqqınızda danışıram.

— Axı mən sənə nə pislik eləmişəm, Gülmirə?

—Şəxsən mənə heç bir pisliyiniz dəyməyib, mən bunu bayaq söylədim. Ancaq siz ümumən pis adamsınız, professor. Mən cəsarətlə deyirəm, siz pambıqla baş kəsənsiniz, siz qatilsiniz, siz oğrusunuz, professor.

Salman yerindən dik atıldı, gözləri böyüyüb eynəyinin şüşələri boyda oldu az qala:

— Nə? Nə deyirsən? Bir də təkrar elə o dediklərini?

— Məncə, çox yaxşı eşitdiniz, professor, təkrar eləməyə hacət yoxdur.

— Yoldaş Aslanzadə, bu ağzından süd iyi gələn uşaq məni təhqir edir, siz də durub baxırsınız! Belə biabırçılıq olmaz axı! — deyə Salman cibindən qatı açılmamış yaylıq çıxardıb geniş alnında muncuqlanan təri sildi. Nə edəcəyini bilməyən adam kimi, stuldan necə dik atılıb qalxmışdısa, eləcə də qəfil oturdu — stul yazıq-yazıq cırıldadı. Ancaq Salman quyruğu tapdanmış ilan kimi fısıl-daya-fısıldaya, gözlüklü başını sağa-sola dolandırdı və:

— Yox, belə olmaz! — deyib yenə ayağa durmaq istədikdə akademik Aslanzadə özü dikəldi və əlini Salmanın çiyninə qoyaraq:

— Səbirli ol, Salman! — dedi. — Səbirli ol. Qoy görək axı nə deyir? — Sonra Salmanı lap əsəbiləşdirə biləcək bir mülayimliklə Gülmirəyə üz tutdu — Qızım, sən nə isə çox əsəbi danışırsan, bayaqdan nə isə demək istəyirsən, ancaq hələ də mıs-mıs deyirsən, Mustafa demirsən. Mən məsləhət görürəm ki, sən danışanda bir az sözlərinə fikir ver, qızım. Sən hələ cavansan, ola bilər kimsə haqqını tapdalayıb, ürəyini incidib — amma bu, sənə əsas vermir ki, təhqiramiz sözlərlə öz haqqını tələb edəsən. Bura elmi idarədir, bazar deyil və burda oturanlar da alimdi, göyərti satan yox.

— Professor!.. — Gülmirə nəsə demək istədi, ancaq qəhər

boğazını kilidlədi. Amma Aslanzadə sanki onun çətinliyə düşdüyünü duyub yenə köməyinə çatdı, dilinə söz verdi:

— Qızım, sən bu dediklərini sübut eləyə bilərsən?

— Bəli, professor, mən uşaq deyiləm: nə dediyimi çox yaxşı bilirəm. — deyən Gülmirənin sıxıntısı keçib ketdi. Gərgin, sarsıdıcı bir vəziyyət yarandı.

— Hə, onda buyur, Gülmirə xanım. — dedi Aslanzadə — Sakit, yoldaşlar, sakit! — əlindəki qələmlə stolu taqqıldatdı. Gülmirə sinəsi qalxıb enə-enə dedi:

— Siz inanasınız deyə mən özümdən başlamaq istəyirəm, yoldaşlar! Əvvəlcə bunu deyim ki, mənim Füzulinin avtoqrafını tapmağım yalandır — onu mən yox, bizim bax bu ağsaçlı Cəfər tapıb. Ancaq bizim hörmətli Salman müəllim o kəşfin Cəfərin imzası ilə çap olunub ortalığa çıxmasını nə üçünsə istəmədi. Təcili məni çağırdı və mənim adıma dərc edilmiş, sizə məlum o məqaləni öz kabinetində tələm-tələsik diktə edib yazdırdı. Özü göndərdi redaksiyaya, zəng elədi, çap etdirdi. Məqalə çap olunmamışdan qabaq yanına gəldim, «mən istəmirəm, lazım deyil» — deyə çox israr etdim. Olmadı, dedi artıq gecdir. Məqalə mətbəədədir, yığılıb, çapa imzalanıb. Əlim heç yerə çatmadı. — Nəfəsini dərib üzünü eşitdiklərinə inanmaq istəməyən, çaşqın-çaşqın gözlərini qırpan Cəfərə çevirdi — Beləliklə, Cəfər müəllim, o kəşf sənindir, mənim deyil.

Oturanların pıçhapıçı səs-küyə, uğultuya çevrildi. Hamı dönüb saçları ağappaq ağarmış, beli azca donqarlaşmış, ancaq sifəti, baxışları həyat eşqilə yanıb-parlayan Cəfərə baxdı. Sevincindən idimi, həyəcanından idimi, haqqın-ədalətin gəlib öz yerini gec-tez tapacağına bütün ömrü boyu bəslədiyi inamın təntənəsindən idimi, ya nədəndisə, kişinin gözləri yaşardı. Küncdə əyləşib sakitcə, qımıldanmadan bu söz döyüşünə tamaşa eləyən, beynində yenicə düşünməyə başladığı romanın axarından ayrıla bilməyən Sakit Aranlı, iclas başlayandan bəri ilk dəfə olaraq ağzını açdı: «Bu ki vicdansızlıqdır!» — dedi. Və bu sözləri elə söylədi ki, Salman Qurbanzadə də eşitdi. Qıpqırmızı qızarmış

gözlərini dolandırıb Sakit Aranlıya zillədi — sanki baxışlarından üstünə od-alov töküb yandırmaq istəyirdi onu. Sakit, əslində çox hörmət elədiyi bu adamın nəzərlərindən utanıb başını aşağı saldı. Aslanzadənin növbəti sualı səs-küyü təzədən yatırtdı:

— O deyirdi deyirdi, bəs sən niyə razı oldun?

— Məni bnr növ məcbur elədi, yoldaş Aslanzadə, — dedi Gülmirə. Mən də təcrübəsiz idim, əvvəl mahiyyətini başa düşmədən razı oldum, ancaq sonra, hələ məqalə çap olunmamış çox çalışdım, mümkün olmadı.

—Yalan deyir, əlyazmasını saxlamışam, özü yazıb gətirmişdi. Əlyazması mənim seyfimdədir. İstəsəniz göstərə bilərəm! — deyə Salman durmaq istəyəndə Aslanzadə bu dəfə ona heç nə söyləmədən çiynindən basdı.

— Mən etiraz eləyəndə Salman müəllim deyirdi: «Onsuz da bu məqalə Cəfərə heç nə verməyəcək. Onun ələyi ələnib, xəlbiri də göydə fırlanır. O haranın alimidir? Amma sən hələ gəncsən, sənin gələcəyin var, mən istəyirəm ki, bu böyük kəşf sənin adınla bağlı olsun!» Nadirə xanım hər iki əlini yanaqlarına söykəmişdi. Sifəti od tutub yanırdı və sanki əllərilə bu odun üstünü örtmək, kimsənin onun necə xəcalət çəkdiyini görməməsini istəyirdi. Arada, söz-söhbətin Salmandan gedəcəyini biləndə durub otaqdan çıxmaq qərarına gəlmişdi. Ancaq nə isə bir maraq hissi onu qalxmağa qoymamışdı, stula yapışdırmışdı. O, bütün iclas boyu Gülmirədən gözlərini çəkə bilməmişdi və elə hey düşüşmüşdü ki, bu qız qəribə qızdı, taleyi də qəribədi, özü də qəribədi. Nə isə o, bu şöbədəkilərin heç birinə bənzəmir — arvadlı, kişili heç birinə bənzəmir. Dünən o, nə qədər müti idi. Amma bu gün Salman kimi adamla dör-dör döyüşür—qorxmur. Yəqin bu həmlənin ona necə ağır başa gələcəyini hələ kifayət qədər başa düşmür. Görünür, o, hələ Salmanı yaxşı tanımır. Ancaq indi bizə belə adamlar — qorxmaz, sözü üzə şax deyən adamlar lazımdı, bilirsən, necə lazımdı? Onda Salmanlar təklənər, qorxar, haqqı nahaqqın ayağına verməz. Mənə Salman indiyənəcən bu məsələni açıb deməyib. Görünür, inanmayıb. Bəs Gülmirə? O niyə bir söz söyləməyib?

Hə, bu, təbiidir. Deməməli idi.

Gülalı armud boğazını yana uzadıb böyründə oturan Dombagözə pıçıldadı:

— Çox namərd qızdı bu qız. Bilirsən professor ona nə qədər yaxşılıq eləyib? Elə haqq eləyir — bu kişi dostunu-düşmənini tanımır da. Saçı ağarıb, ancaq ağlı ağarmayıb.

Dombagöz Gülalının sözlərini dinləyə-dinləyə başını bulayır, təəssüf hissi ilə deyirdi:

— Heyf, kişinin infarkt vurmasa yaxşıdı. Ayağımın altına salıb nə it kimi ayaqlayardım bu it qızını? Salman kimi alimin qədrini bilməmək, ən azı, heyvanlıqdır. — İltifatın qulaqları Gülmirənin, Gülalının ağzında idi, gözləri isə Fazilədəydi. İri, domba gözlərini qızın ağ-əsmər sifətinə zilləmişdi. Bu həyasız və iyrənc baxışları o tutmuşdu. Ona görə, bacardığı qədər, nəzərlərini ondan yayındırmağa çalışırdı. Fazilənin laqeydliyini duyub küncdə əyləşən Ümmugülsümə sarı çevrildi. Ümmigülsüm də üzünü döndərdi. Bu zaman İltifat özünün qətiyyətinə inanan adam kimi «Bunların naz-qozuna bax. Sizi elə tilsimləyim ki, özünüz mələyə-mələyə yanıma gələsiniz. Şerin qabağında duruş gətirə bilən qadın yoxdu dünyada» — deyə ürəyindən keçirdi.

Sarışın susub dururdu, heç nə fikirləşə bilmirdi, çünki həyatında birinci dəfəydi ki, belə iclasa düşmüşdü, qulaqları guruldayırdı. Yenə konfet sorurdu.

Aslanzadə qələmi təzədən stola döydü:

— Yaxşı, bu bir! Sən deyirsən Salman Qurbanzadə qatildir, bunu nə ilə izah edərsən, Gülmirə xanım?!

Gülmirə doluxsunmuş halda, səsinin ahəngini aşağı salıb hüzn içində cavab verdi:

— Orxanı o öldürüb, yoldaş Aslanzadə. Xahiş edirəm məni düzgün başa düşün — o, Orxanı tapança ilə, bıçaqla vurub öldürməyib — onun tapançası, bıçağı yoxdur. Salman müəllim Orxanın sadəcə olaraq ürəyini partladıb. Süründürməçiliyi ilə, yalançılığı ilə, üzünə gülə-gülə. Salman Orxanın gələcək ad-sanından, şöhrətindən qorxurdu, özünün kölgədə qalacağından qorxurdu. Əlini-

qolunu bağlayırdı, meydan vermirdi ona. Bəli, bəlkə də cinayət işi qaldırılsa — mən bilirəm bu mümkün deyil — porfessor bu işdə özünü təmizə çıxara bilər. Ancaq mən nəyə desəniz and içərəm ki, Orxan kimi bir alimin qatili odur, bəli, odur.

Salman qeyri-adi, qətiyyən yerinə düşməyən bir gülüşlə:

— Sizə deyirəm bu qız xəstədir, inanmırsınız! — dedi. — Orxan xəstə adam idi, ürəyi partladı, öldü. Sizin hamınızın yadındadı ki, bunu həkim müayinəsi də belə təsdiq elədi. Bizim bu Gülmirə xanım Orxanı sevirdi, ona görə bu cür çərən-pərən danışır.

— Bəli, sevirdim — Gülmirə ani tərəddüddən sonra şax cavab qaytardı — sevirdim, gizləmirəm. Bir insan kimi, bir alim kimi sevirdim. O, gözəl, incə ruhlu bir insan idi. Onu istəyənlər də, istəməyənlər də bunu etiraf edə bilərlər. Madam ki, söz bu yerə gəlib çatdı, indi mənim sizə bir sualım var, professor.

—…

Salmanın hirslə əlini yellədiyini görən Gülmirə, buna məhəl qoymayaraq soruşdu:

— Siz, Orxan ölən günü, mənim əsərimin müzakirəsindən yarım saat qabaq, kabinetinizdə onunla kimin haqqında danışırdınız?

Salman bu sözləri eşidəndə dizləri bir-birinə elə sıxıldı ki, sifətinin əzələləri qabardı. «Hə, aydındı. Qovluq bundadı. Və hər şeyi bu bilir» — deyə ürəyindən keçirdi və çımxırdı:

— Sənin haqqında, Gülmirə xanım. Mən bu söhbəti burda demək istəməzdim qətiyyən. Ancaq sənin bugünkü — mən açıq deyirəm — bu günkü həyasızlığın məni vadar edir ki, bu sözləri mən dilimə gətirim. Düzünü bilmək istəyirsənsə, mən Orxana o gün deyirdim ki, Gülmirənin evini dağıtdın, əri dəli olub çıxıb getdi, yazıq havalı-havalı qəzaya uğrayıb məhv oldu — indi bu qız tək qalıb, yəni sən tək qalıbsan. Deyirdim alsın səni, saxlasın səni.

— Düz deyil, yoldaşlar! Orda mənim adım heç ortalığa da gəlməyib. Bundan daha mühüm, daha böyük bir məsələ haqqında danışıq gedib orda, yoldaşlar! — o, yenə üzünü Salmana tutdu. —

Siz orada, o gün, o saat Mirzə Yanar haqqında danışırdınız, professor.

Mirzə Yanarın adını eşidən kimi Salman yumağa döndü, gözləri qaraldı.

Aslanzadə Gülmirənin sözünü kəsdi:

— Mirzə Yanarın bura nə dəxli var, Gülmirə?

— Var, yoldaş Aslanzadə. Məsələ belədir ki, bizim bu möhtərəm Salman Qurbanzadə öz ustadının, dostunun, mərhum alimimiz Mirzə Yanarın «Nəsiminin sənətkarlığı» əsərini utanmadan, vicdansızcasına götürüb o zaman öz adına çap etdirib, elmlər doktoru olub, neçə illərdi də onun kölgəsi altında yaşayır... Mən «professor Salman Qurbanzadə oğrudur» deyəndə bax bunu nəzərdə tuturam, yoldaşlar!

Gülmirənin son sözləri otaqda ildırım kimi çaxdı. Aslanzadə döyükdü, dönüb Salmana baxdı. Salman elə haldaydı ki, bunu görmədi — çünki gözləri yumulmuşdu. Elə bil, bu boyda binanın üstünə bomba düşmüşdü, bina şaqqa-şaraqla uçub başına tökülürdü, uğultu, gurultu içində yerlərdən qopan sözləri, nidaları eşitmirdi. Nadirə gözlərini yummuşdu — qabağında balacalaşıb-balacalaşıb az qala stolun altına girən Salmana baxmaqdan qorxurdu sanki. Şöbə əməkdaşlarının hamısının gözləri heyrət içindəydi. Aslanzadə yamanca pərt olmuşdu — bura qədər Gülmirənin dedikləri ona elə də dəhşətli, qorxunc görməmişdi. Qız danışdıqca fikirləşmişdi ki, bunlar xırda-xuruş incikliklərdi--Salman, görünür, çaşıb, hansı mülahizəyə əsasənsə Füzulinin avtoqrafını Cəfər İsmayılzadənin adına çap olunmasını istəməyib, Gülmirə, ola bilsin, həqiqətən Orxanı sevirmiş — onun ölümü çavan gəlini sarsıdıb — keçib gedər, barışdırarıq. Ancaq Mirzə Yanarın əsərini Salmanın öz adına çap etdirməsi — bu, əgər doğrudan da belədirsə, ciddi məsələdir, çox ciddi məsələdir. Yenə inanmaq istəmirdi Aslanzadə. Ona görə soruşdu:

— Sən bunu sübut eləyə bilərsən? — Və bu sualı verəndə o, ürəkdən arzuladı ki, kaş eləyə bilməyə, kaş yalan ola, kaş belə bir iş baş verməmiş ola. Ancaq Gülmirənin cavabı onu büsbütün

məyus elədi:

— Bəli, yoldaş Aslanzadə, bunu sübut eləmək o qədər də çətin deyil. Bax, budur Mirzə Yanarın əlyazması, bu da Salman Qurbanzadənin kitabı... İnanmırsınızsa, baxın, müqayisə eləyin. Onda hər şey sizə aydın olar!. — Gülmirə stolun arxasından irəli çıxıb qovluğu və kitabı Aslanzadənin qabağına qoyanda... Salman Qurbanzadə taqətsiz halda ayağa qalxdı və beli büklümüş halda otağı tərk elədi. Hamıya elə gəlirdi ki, bu, onun sonuncu gedişidi. Bayaqdan özünü zorla saxlayan, tamam başqa bir aləmə düşdüyünü güman eləyən Gülmirə, Salman qapını çırpanda sanki birdənbirə ayıldı, elə ortalıqda, əlləri ilə üzünü örtüb uşaq kimi hönkürdü.

Bu iclas institut tarixində görünməmiş bir hadisə idi, bu, öz yerində. Ancaq ömrünün çoxunu akademiyada keçirmiş, saçsaqqalını burada ağartmış, şöbə müdirliyindəi direktorluğa qədər yüksəlmiş Aslanzadə də son otuz-otuz beş il ərzində belə yığıncaq gördüyünü xatırlaya bilmirdi. Adi yadetmə mərasimindən başlayıb bu mərtəbəyə qədər yüksələn bu qeyri-adi məclis Aslanzadəni elə çaşdırmışdı ki, ilk anlar nə edəcəyini kəsdirə bilmədi, gah Gülmirəyə, gah mizinin üstəki qovluğa, gah da artıq bir-birinə dəymiş şöbə əməkdaşlarına baxıb:

— Ay yoldaşlar, sakit! Sakit olun, ay yoldaşlar! — dedisə də, bunun heç bir nəticə vermədiyini görüb: — İclasımız qurtardı! — söyləyərək, qovluğu götürdü, otağın ortasında ağlayan Gülmirənin yanından sürətli addımlarla dəhlizə çıxdı.

## İKİNCİ FƏSİL

İistitutun təzə katibəsi — az bir zamanda kollektivin hörmətini qazanmış, ağıllı, mehriban, qaraşın Şərqiyyə akademik Aslanzadəni belə halda heç görməmişdi. Kişinin sifəti saçları kimi dümağ idi. Stolunun arxasında taqətsiz halda oturub başını divara söykəmiş, altı tuluqlanmış gözlərini yummuşdu. Şərqiyyə

direktoru bu vəziyyətdə görüb qorxuya düşdü və titrək bir səslə:

— Sizə nə olmuşdur, professor? —deyərək irəli yeridi. — Halınız xarabdır? Həkim çağırım?

Aslanzadə başını divardan ayırmadan gözlərini açdı, qəmli-qəmli gülümsünüb:

— Heç nə, qızım. Narahat olma, — dedi. — Mənə bir stəkan su ver.

Şərqiyyə dabanı üstə elə fırlandı ki, təzə dəb düşmüş cuna donunun ətəyi azca qalxdı, çiyinlərinə saldığı uzun qara hörükləri yel vurmuş kimi sağa yelləndi.

Aralıq otaqdakı soyuducunun qapısı açıldı, örtüldü və o, armudu stəkanda gətirdiyi «barjom»u direktora tərəf uzatdı. Aslanzadə dikəldi, uzun barmaqlı, dərisi artıq qırışıb qocalmış, göy damarları görünən titrək əlini qaldırıb suyu içdi. Stəkanı katibəyə qaytarıb:

— Çox sağ ol, qızım! — dedi.

— Yenə gətirim? — Şərqiyyə qayğıkeşliklə soruşduqda, o:

— Yox, bəsdi. Get Salmanı çağır bura!—söylədi.

Şərqiyyə kabinetdən çıxandan sonra… direktorun gözü sarı qovluğa sataşdı. Qəribə idi — elə bil o qovluğun içində nə isə partlaya biləcək bir şey vardı və Aslanzadə - ona qorxa-qorxa baxırdı. Azla bundan qabaq Gülmirənin dilindən eşitdikləri ona yuxu kimi gəlirdi. İnanmaq istəmirdi Aslanzadə, inanmaq istəmirdi. Qovluğa baxa-baxa uzaq illərin arxasından o vaxtlar tez-tez görüşdüyü, ümumi iclaslarda, yubileylərdə çox zaman yanaşı oturduğu, dindirsən danışan, dindirməsən öz daxili aləminə qapılıb düşünən, həlim, uşaqla uşaq, böyüklə böyük kimi davranan və günlərin bir günü, heç kəsin gözləmədiyi halda, «gedər-gəlməzə» gedib daha geri qayıtmayan, ancaq o çağlar nüfuzlu alim kimi izzət-hörmət sahibi olan, böyüklüyü ilə indi daha inkaredilməz həqiqətə çevrilmiş Mirzə Yanarı düşünürdü. Ona elə gəlirdi ki, qovluğun içində heç bir bomba-filan yoxdur — onu sadəcə qara basır — qovluqdan səs gəlirdi sanki indi. Bu səs Mirzə Yanarın səsinə necə də oxşayırdı. Yadında idimi o səs? Yox, yaxşı

xatırlaya bilmirdi. Lakin inanırdı, daxilindəki tüğyan eləyən bpr hiss pıçıldayırdı ki, onun səsidi; onun səsi elə belə idi — yumşaq idi, ürəyəyatımlı idi, şirin idi. Ancaq o vaxtdakından fərqli olaraq, bu səsdə deyəsən, bir küsgünlük, inciklik vardı. Nə isə deyirdi, amma o, başa düşə bilmirdi.

Aslanzadənin bu da yaxşı yadında idi ki, Mirzə Yanarı bu illər ərzində tez-tez xatırlamışdı. Yanarın vaxtsız-vədəsiz sıradan çıxması, bir çox başqaları kimi, onun da qəlbini gizli-gizli ağrıtmışdı. Özü yox, təmiz adı qayıdıb gələndə Aslanzadə lap uşaq təki kövrəlmişdi də.

İndi üzdə olan bir çox professorun, elmlər doktorunun, akademikin ustadı olmuşdu Mirzə Yanar. Elə Salman Qurbanzadənin də. Onun yetişməsində, namizədlik dissertasiyasının yazılıb ortaya çıxmasında həm bir məsləhətçi rəhbər, həm də bir dost kimi Salman da, əvvəllər pünhanda, sonralar, kişinin təmiz adı qayıdıb gələndə isə aşkarda onun tələbəsi olması, onun «şinelindən» çıxması ilə az fəxr eləməmişdi. İnişil alimin anadan olmasının yetmiş illiyi bayram tutulanda o, kövrələ-kövrələ öz müəllimi haqqında xatirə söyləmişdi, minnətdarlıqla dolu sözlər demişdi — həmin kecədə Aslanzadə də orada idi və Salmanın danışdıqlarını eşitdikcə düşünmüşdü ki, haqq-say, yaxşılıq, zəhmət heç vaxt itmir, geç də olsa, əzəli-əbədi borc kimi qaytarılır. Salman gör nə qədirbiləndir. «Kaş mənim də tələbələrim belə olaydı». Amma indi məlum olur ki, o, düşündüyü kimi deyilmiş Salman. Mirzə Yanarın qaraçuxası yatandan, Mirzə Yanar yoxa çıxandan sonra, Salman, öz ustadının yadigarlarını əsən sərt yellərdən qorumaq, saxlamaq, vaxtı gələndə nəşr etdirmək, beləliklə də müəlliminin «borcundan» çıxmaq əvəzinə, onun əsərlərini götürüb öz adına çap etdirmiş və nə boyda vicdansızlıq, ədalətsizlik eləmişdi. Əgər Gülmirə deyənlər həqiqətsə... «Aman allah, gör dünyada nələr olur. Bu da mənim alimim!» — deyə düşündü akademik.

Elə bu zaman Salman Qurbanzadə qapı ağzında göründü. Aslanzadə nə qədər elədi, onun qan çanağına dönmüş gözlərinin içinə baxa bilmədi — elə bil Salman yox, o özü nə isə böyük bir

qəbahət iş tutmuşdu. Salmanın qara, tutqun sifəti bir az da qaralıb boğulmuşdu. İri cüssəsi sanki kiçilmişdi; ilk baxışda ona elə gəldi ki, Salman bayaq, iclas başlamamışdan əvvəl gördüyü adam deyil və ümumiyyətlə onu heç tanımır — uzaq, yad, ilk dəfə gördüyü bir adamdı. Aslanzadə əlinin işarəsi ilə oturmasını xahiş etdi və qarşısındakı kreslonu göstərdi. Salman dərindən ah çəkib əyləşdi və direktorun üzünə baxıb zorla gülümsünməyə çalışdı. Ancaq Aslanzadə siqaret çıxarıb yandırmaqla məşğul kimi göstərdi özünü. Ayağa qalxdı. Pəncərənin qarşısına gəldi və oradan akademiyanın bağlı-bağatlı, yaşıl bir cənnəti xatırladan həyətinin ortasında düzəldilmiş fəvvarəli hovuzun göyə ucalan su sütunlarına tamaşa eləməyə başladı. Orada, hovuzun yanındakı ağacların arasında işləyən iki-üç cavan fəhlənin başı üstə dayanıb nəsə danışan Nəsirin qarabuğdayı sifəti, qara, nüfuzlu gözləri xəyalında canlandı. Nəsir akademiyanın baş aqronomu idi, ancaq heç kəs onun əsl vəzifəsini dilinə gətirmirdi, elə sadəcə, «Akademiyanın bağbanı» kimi tanıyırdı onu. Nəsir təbiət vurğunu idi, evindən-eşiyindən, balalarından çox, bu böyük elm ocağının yaşıllığı, ağacları, çiçəkləri üstündə əsirdi. Buranı yaşıl bir cənnətə, botanika bağına döndərmişdi Nəsir. Buna görə hamı onu çox istəyirdi. Aslanzadə isə ona xüsusi rəğbət bəsləyirdi. Səhərlər işə gedəndə, axşamlar evə dönəndə Nəsirlə tez-tez görüşər, hövsələsi, vaxtı olanda ayaq saxlayıb onunla söhbət eləməyi xoşlardı. Nəsir ixtisası etibarı ilə təbiətşünas olsa da, ədəbiyyatımızı, tariximizi əkib becərdiyi hər bir ağacın tərcümeyi-halı kimi süd əzbər bilirdi və bu, Aslan müəllimə xüsusi zövq verirdi. Bu adam təbiətlə—otla, güllə, çiçəklə yaşayırdı, nəfəs alırdı və Aslanzadəyə elə gəlirdi ki, Nəsir artıq təbiətə qovuşub, qaynayıb-qarışıb onunla: didişmələrdən, çəkişmələrdən uzaqdı, gecələr yatanda da ancaq ağaclarının dərdini çəkir: buna görə onun yuxuları da yaşıldı yəqin. «Ağaclar yaxşıdı, ağaclar giley-güzar eləmir. Ağaclar toxgözdü, paxıl deyil, şöhrətpərəst deyil, oğru deyil. Hərəsi öz qismətinə düşən bir qarış torpağı əmə-əmə yaşayır, səssiz-səmirsiz qocalır, səssiz-səmirsiz də ölüb gedirlər. Ağacların bağbanı olmaq yaxşıdı,

Nəsir, asandı. Kaş sənin yerinə olaydım, Nəsir».

Salmanın ürəyi elə şiddətlə çırpınırdı ki, ona elə gəlirdi bu döyüntüləri, guppultuları Aslanzadə də eşidir və bundan o, daha çox sıxıntı hiss elədi. Birdən gözü miz üstəki sarı qovluğa sataşdı. Tükləri ürpəşdi. «Budur o qovluq. Sənin adın da, taleyin də, şöhrətin də onun içindədi, Salman» — deyə kədərlə fikirləşdi və Aslanzadənin kürəyinə baxdı. O hələ susurdu, fikri bayırda idi. «Ya indi, ya da heç zaman!» — dedi öz-özünə Salman və bir göz qırpımında qalxıb əlindəki sarı qovluğu stolun üstə qoydu, oradakı qovluğu götürdü. Və gözlərini Aslanzadənin kürəyindən çəkmədi, səssiz-səmirsiz, kölgə kimi çəkilib kresloda əvvəlki sayaq əyləşdi. Alnına soyuq tər gəldi, ciblərini eşib dəsmalını çıxartdı, üz-gözünü sildi. Ağır yükaltından çıxmış adam kimi rahat nəfəs alıb öskürdü. Aslanzadə səsə səksənib geri döndü və Salmanı kresloda oturan görəndə sanki təəccübləndi də. Deyəsən onu özünün çağırtdırdığını, Salmanın otağa daxil olduğunu da unutmuşdu.

— Hə, gəlmisən? — xırıltılı səslə soruşdu və bu sual Salmanı hədsiz dərəcədə sevindirdi. Belə məlum oldu ki, Aslanzadə çox fikirlidi və onun gəldiyini də unudub. Deməli görməyib. Aman allah, doğrudanmı Aslanzadə Salmanın qovluğu dəyişdiyini görməyib? Bu dəqiqə onun üçün bundan böyük səadət yox idi, ola da bilməzdi. Salman ömründə birinci dəfə özünün ağlına, uzaqgörənliyinə əhsən söylədi. Hələ o zaman — Mirzə Yanarın əsərini kağız-kuğuzlarının içindən tapanda, onu öz adına ortalığa çıxarmaq istəyəndə əlyazmasını bağa aparmış, düz bir ay gecəni-gündüzə qatıb üzünü köçürmüş, eynən o cür bir qovluğun içinə qoymuş və yalnız bundan sonra Mirzə Yanarın əlyazmasını bir payız axşamı kəsilmiş meynə çubuqlarından qaladığı tonqalın içinə atıb yandırmışdı. Həmin qovluq illər boyu Salmanın arxivində qalıb bir az da saralmış, köhnəlmişdi. Keçən il gözlənilmədən Orxan o əsərin əlyazmasını ortalığa çıxarıb Salmanın gözünə soxmaq istəyəndən sonra, Orxanın yeddisi çıxan günün səhəri Salman öz arxivini eşələmiş, öz xəttilə yazılmış həmin sarı qovluğu instituta gətirib yeşiyinin alt gözündə gizləmişdi. Salmanın ürəyinə

dammışdı ki, Mirzə Yanarın əlyazması institut əməkdaşlarının birinin əlinə keçib, bu gün olmasa sabah, sabah da olmasa birisi gün hardansa pırtlayıb meydana çıxa bilər. Elə də olmuşdu. Gülmirə namərdcəsinə o qovluğu o qədər adamın içində üzə çıxarmışdı. Salman Gülmirənin ittihamnaməsini eşidəndən sonra otağı tərk eləyəndə öz kabinetinə girib bax məhz bu gün üçün saxladığı qovluğu siyirməsindən çıxarmış, qabağına qoyub çaşqın-çaşqın ona baxmışdı.

— Hə, gəl.mi...şəmm! — deyə Salman siqaret yandırandan sonra direktorun sualına cavab verdi və qüssəli-qüssəli gülümsəyib əlavə etdi: — görürsən də necə cavanlarımız əmələ gəlib? Sən bəlkə də bilmirsən, mən o qıza o qədər yaxşılıqlar eləmişəm ki, başının tükü sanı. Gözündən gəlsin. Az qala infarkt olmuşdum. Çörəyimin duzu yoxdu da. Allah göstərməsin, belələrinin əlinə imkan düşə, adamın lap uf demədən başını da kəsərlər!

Salman danışdıqca Aslanzadə onun gözlərinin içinə baxırdı. Ürəyində neçə illər bir yerdə işlədiyi, etibar eləyib şöbə tapşırdığı bu adama olan inamı, hiss edirdi ki, çiliklənib yerə, ayaqları altına tökülür — bunu o, istəmirdi, bu fikri özündən uzaqlaşdırmağa çalışırdı, ancaq deyəsən bacarmırdı. Bu boyda yalan olmaz, böhtan olmaz!

— Yəni deyirsən bunların hamısı yalandı, Salman? — nəhayət Aslanzadə beyninin, düşüncələrinin düyün, qatmaqarışıq düşmüş kələfinin yavaş-yavaş açıldığını, fikrinin durulduğunu duyub mətləb üstünə gəldi.

Aslanzadənin bu sözlərini eşidəndə Salman qalxdı, eynək altında gözlərini qıyıb incidiyini bildirən bir tərzdə başını buladı və:

— Olmaya sən də ağzından süd iyi gələn, başdan xarab o qızın sözlərinə inanırsan, hə? — deyə ərklə otaqda var-gəl eləməyə başladı. — Yəni mən o günə qalmışam ki,.. — Nə düşündüsə demək istədiyini uddu və: — əgər belədirsə, mən tələb eləyirəm, komissiya yaradın, yoxlasın, hökm versin. Lap istəyirsiniz Orxanı da dirildin, gətirin, soruşun, görün onu mən öldürmüşəm ya yox. Mirzə Yanarı da gətirin! — deyərək çox ucadan, əsəbi-əsəbi

danışmağa başladı. — Mən bunu biabırçılıq hesab eləyirəm. Buna dözmək olmaz.

— Sakit, ay Salman. — Salmanın özündən çıxdığını görən Aslanzadə onu sakitləşdirmək istədi. Sən lap hövsələsiz olmusan son vaxtlar. Barıt çəlləyinə dönmüsən. Söz demək olmur.

— Bu sözlərin bircəciyini sizin haqqınızda desəydilər, dözərdiz? Yox, dözməzdiz. Özü də siz düzgün hərəkət eləmədiniz, yoldaş Aslanzadə. Gərək kollektivin içində qoymayaydınız o uşaq dişinin dibindən çıxanı mənə desin. İş elə görəndə gərək deyəydiniz gələrsən yanıma, orda qarnının nə ağrı-acısı var, deyərsən, ayırd eləyərik. Gərək siz belə eləyəydiniz. Amma siz hələ bir sorğu-suala da tuturdunuz. «Hə, de, birdən çəkinib eləyərsən, qorxma, de.» Amma sizin barənizdə belə bir söhbət ortalığa gəlsəydi, mən elə eləməzdim. — Aslanzadə qımışdı, nəsə demək istəyirdi ki, Şərqiyyə qapını açıb başını içəri uzatdı və:

— Professor, telefonu götürün! — deyib geri çəkildi, Aslanzadə tənbəl bir hərəkətlə dəstəyi qaldırdı:

— Bəli, eşidirəm. A, salam yoldaş prezident! Bəli, sağ olun, yaxşıyam. Elə indi? Prezidiuma? Hə, hə, bilirəm, az qala yadımdan çıxmışdı. Bu dəqiqə gəlirəm. O, dəstəyi asdı, ani fikrə getdi, təzədən bir siqaret yandırdı.

— Məni iclasa çağırır kişi. Mən aşağı düşməliyəm. Qoy bu söhbətimiz qalsın sonraya, Salman, - deyib stolun üstündəki siqaretini götürüb cibinə qoydu.

— Mənim də elə bu barədə danışmağa indi hövsələm yoxdu. — Aslanzadə stolun başına fırlanıb çıxmaq istəyəndə Salman qovluğa işarə elədi:

— Onu xahiş eləyirəm seyfə qoy. İtib-batar. O, bizə lazım olacaq. Burda mənim ləyaqət məsələm həll olunur.

— Hə, hə, lap yadımdan çıxmışdı. — Qayıdıb küncdə qoyulmuş dəmir seyfi açdı və o qovluğu içəri atıb kilidlədi. Salman siqaretinə dərin bir qüllab vurub seyfin açarını cibinə qoyan Aslana baxdı:

— Deyəsən prezidentin yanına gedirsiniz?

— Hə, prezidiumun iclası var...

— Aslan müəllim, sizdən çox xahiş edirəm, bu məsələ barədə hələ prezidentə, bir söz deməyin. Necə olsa, yaxşı söhbət deyil. Deyir, milçək bir şey deyil, amma ürək bulandırır. Qoy su durulsun, sonra...

Aslan fikirli-fikirli gülümsündü:

— Yaxşı, demərəm hələ.

Salman ondan qabaq kabinetdən çıxdı və tənəffüs vaxtı olduğundan koridorda ikibir-üçbir dayanıb söhbət eləyən — yəqin indi hamı ondan danışırdı — adamların üzünə baxmadan pilləkənləri ağır-ağır düşməyə başladı.

Qəzetin arasındakı qovluq əlini yandırırdı elə bil.

## ÜÇÜNCÜ FƏSİL

Gülmirənin ürəyi çoxdan dolmuş, uzun müddət gözünün yaşını torpağa səpələyə bilməyən bulud kimi yağıb boşalmışdı. Amma elə süst və halsız idi ki, hətta danışmağa heyi-hərəkəti yox idi. Hamıya küt və laqeyd baxışlarla baxır, yoldaşlarının suallarına cavab vermirdi. Stolun arxasında donmuş halda oturmuşdu. Bu ara Nadirə xanım əlində bir stəkan su yaxın gəldi, xırıltılı bir səslə:

— İç, toxta, Gülmirə, — dedi. — Çox həyəcanlısan.

Gülmirə başını qaldırıb stəkandan əvvəl Nadirəyə baxdı, sanki sifətindən, gözlərindən çıxışının ona necə təsir etdiyini öyrənmək istəyirdi. Nadirə hamamdan çıxmış adam kimi pörtmüşdü. Gözlərində bir dalğınlıq vardı. Ancaq qəzəbli deyildi — qəzəblənəndə Nadirənin nazik, qəşəng dodaqları titrəyirdi həmişə. Gülmirə ani olaraq düşündü ki, Nadirənin necə böyük ürəyi var, necə ağıllıdı, təmkinlidi—ayrı qadın olsaydı, əri haqqında bu cür öldürücü, sarsıdıcı ittihamlar irəli sürən Gülmirənin indi tükünü didmişdi, əsib-coşmuş, ağzına gələn artıq-əskik sözü söyləyib əlavə bir qan-qaralıq da əmələ gətirmişdi. Hayana dönsəydi də əri idi, uzun illərdi ki, bir yastığa baş qoyurdular, bir damın altında

yaşayırdılar. Gülmirə onların evində az olmamışdı!. Nadirənin onun elmi qabiliyyəti barədə o qədər də yaxşı fikirdə olmadığını yaxşı bilirdi — Nadirə xanım onun istedadına əvvəldən nə isə inanmamışdı və bunu açıq-saçıq Salmana da söyləmişdi. Gülmirə müdafiə eləyəndə də Nadirə xanım elmi şurada ona yarıkönül səs vermişdi. Əsəri əla olmasa da, pis, əsər də deyildi. Orxan dünyadan köçəndən sonra bütün xarici aləmdən əlaqəsini kəsib fikrini-zikrini elmə, kitaba, yazı-pozuya vermişdi Gülmirə. Elə bil, silkələnib ayılmışdı, elmin, alimin nə demək olduğunu dərk eləmişdi. Və bu, Nadirə xanımı sevindirirdi. Dünən onun qabiliyyətinə, istedadına inanmayan, şübhə ilə baxan Nadirə xanımda indi ona qarşı çox da böyük olmayan bir inam yaranmışdı. Bütün bunlardan Gülmirənin xəbəri vardı. Lakin buna baxmayaraq, Gülmirə Nadirə xanımı çox istəyirdi. Ona hərdən lap böyük bacısı kimi sığınar, ağır-çətin anlarında ona pənah aparar, dərdini-sərini danışardı. Bu məsələdə isə — yəni Salmanın Mirzə Yanarın əsərini öz adına çap etdirməsi məsələsini açıb ağartmaq fikrinə düşəndə isə ona sirr gəlməmişdi — səbəbini dəqiq özü də ifadə eləyə bilməzdi yəqin — nə isə dili var gəlməmişdi. Və indi, iclasdan sonra, Nadirə xanım ona su gətirəndə Gülmirə Salman haqqında danışmağından çox, Nadirəyə məsləhət eləyib gənəşməyindən utanırdı.

Nadirə xanım onu başa düşürdü — Gülmirənin içində hələ onun özünün də dərk eləyib tanımadığı, ipə-sapa yatmayan, haqsızlığa üsyan eləmək istəyən təzə bir varlıq, təzə bir Gülmirə doğulmuşdu və bu Gülmirə hələ yolun başlanğıcında idi, irəlidə nələr olduğunu yaxşı təsəvvür eləyə bilmirdi; o yıxıla bilərdi. Qabağında süst, halsız-hərəkətsiz əyləşmiş Gülmirənin içində doğulmuş yeni Gülmirənin indi də ən böyük gözəlliyi, məziyyəti — cəsarəti idi. Bu cəsarət Nadirəyə hardasa çox ləzzət eləmişdi. Döyülənin, söyülənin əri olduğunu bilsə də çox ləzzət vermişdi. Ona görə idi ki, Nadirə xanım Gülmirəyə «niyə məsləhət eləmədin mənə, bu işi belə eləməzdilər»də demək istəmirdi. Nadirə son vaxtlar elə bil ayılıb birdən-birə hiss eləmişdi ki, şöbənin

adamlarında, lap elə institutun bir çox əməkdaşlarında qəribə, anlaşılmaz bir mütilik əmələ gəlib və bu mütilik bəzən yaltaqlığa çevrilir, ikiüzlülüyə çevrilir; adamlar elə bil müstəqilliyini, fərdiliyini itirir, hardasa robota, qoyuna bənzəməyə başlayır. Direktor dedi — qanundur. Şöbə müdiri dedi — qanundur. Axı onlar da sənin kimi adamdı — onlar səhv eləyə bilməzlərmi!? Bilərlər. Lakin kimsədə o cəsarət qalmayıb elə bil ki, iclasda qalxıb desin ki, yoldaş Salman Qurbanzadə, ya yoldaş Aslanzadə, filan məsələ siz deyən kimi deyil, belədir. Heç kəs demir, deyə bilmir və beləliklə də, nəticədə əvvələn, Salmanlarda, Aslanzadələrdə özlərinin «dahiliyi», sözlərinin «qanuniliyi» haqqında zərərli güman doğur, ikincisi, bu səhvlər, yanlışlıqlar gilə-gilə, zərrə-zərrə üst-üstə yığılıb ümumi işə əngəl törədir. Ən ümdəsi isə, fikir ölgünlüyünə, düşüncə ətalətinə gətirib çıxarır. Bax, bu qorxuludur, çox qorxuludur.

Nadirə xanım düşünürdü ki, Gülmirəni indi söhbətə tutmağın, dediklərinin həqiqəq olub-olmadığını soruşmağın heç bir mənası yoxdur — o, hardasa, sorğu-sualsız, faktsız-dəlilsiz də inanırdı ki, Gülmirənin söylədiklərində həqiqət olmamış deyil — çünki o, öz ərini, Salmanı artıq hamıdan, bəlkə Salmanın özündən də yaxşı tanıyırdı, onun nəyə qadir olduğunu gözəlcə bilirdi. Ona görə, qət eləmişdi ki, bu məsələlər barədə sonra — Gülmirənin qəlbinin tufanı yatandan, hissləri, hirsi soyuyub səngiyəndən sonra, səhər, biri gün, ya başqa bir münasib vaxtda söhbət eləmək daha yaxşı olar.

Gülmirə, Nadirənin baxışlarında heç bir qəzəb və məzəmmət ifadəsi görməyib stəkanı əlindən aldı, ciyəri yanırmış kimi, axıracan başına çəkib:

— Çox sağ ol, Nadirə xanım, — deyərək stəkanı ona qaytardı.

— Sənə nə olub, Gülmirə? — deyərək Nadirə xanım, xalaxətrin qalmasın deyə ondan soruşanda, Gülmirə stolunun üstündəki kağızları səliqə-sahmana salaraq:

— Heç nə! — dedi. — Sən narahat olma, Nadirə xanım!

— Yox, sən dur get evə, dincəl, bir az özünə gəl! — deyə Nadirə xanım stəkanı mizin üstünə qoyaraq yorğun-yorğun əsnədi, elə bil ki, çox ağır bir iş görmüşdü, yorulmuşdu; Gülmirə birdən ayağa qalxdı, şöbədə ikibir-üçbir yığışıb söhbət eləyən yoldaşlarına baxaraq qəmli-qəmli gülümsündü, heç nə demədən otaqdan çıxanda Nadirə xanım onun qolundan ehmalca yapışdı, özünü, tox tutmağa çalışaraq yavaşcadan pıçıldadı:

— İstəyirsən səni ötürüm?

— Yox, sağ ol, Nadirə xanım, özüm gedəcəyəm...

...Qırmızı darvazalı həyətdə sakitlik idi. Maşa xalanın qapısı qıfıllı idi; yəqin bazara getmişdi. Təkcə Sahibə öz həmişəki yerində oturub əri üçün yun köynək toxumaqla məşğul idi. Payız günəşinin ılıq nəfəsi canını qızdırır, xəstə-solğun sifətinn allandırır, daim ağrılı, zəif olan bədəninə xoş bir gizilti yayırdı.

İki nəfərdən — ər və arvaddan ibarət olan bu kiçik ailə səkkiz-doqquz ay bundan qabaq buraya köçmüşdü və Maşa xalanın mətbəxinin sağındakı təkgözlü otaqda kirayənişin kimi yaşayırdı. Mir Sahib fəhlə idi. Paris Kommunası zavodunda işləyir, axşamlar isə universitetdə, qiyabi oxuyurdu. Gülmirə Mir Sahibin üzünü çox az görürdü — istirahət günlərində, bayramlarda. Amma Sahibə heç yerdə işləmədiyindən bütün günü evdə olur, bazara-dükana gedir, xörək bişirir, lazım olanda özünə, ərinə bir şey toxuyur, qalan vaxtlarını isə kitab oxumağa sərf edirdi. Deyəsən, şəkər xəstəliyi vardı və buna görə, yeddi il qabaq ərə getdiyinə baxmayaraq, uşağı da olmurdu. Çox mehriban, xoşsifət, xoşqılıq bir gəlin olan Sahibə Gülmirə ilə tez dostlaşmışdı. Gülmirənin başına gələn müsibəti — ərinin təyyarə qəzasına düşüb həlak olmasını Maşa xala ürək yanğısı ilə, demək olar, ağlaya-ağlaya danışandan sonra ona yazığı gəlməyə başlamışdı. Gülmirənin həmişə qara paltarda gəzməsi Sahibənin yaman xoşuna gəlirdi. Bunun mənasını yaxşı başa düşürdü — o, ərinə yas saxlayırdı. Ancaq axı Əqdəmin ölümündən gör nə qədər keçmişdi? hələ də onu qara paltarda görəndə Sahibə bir az təəccüblənmişdi, həmişə qəmli-kədərli gəzib dolanan Gülmirəyə ərklə demişdi:

— Allah rəhmət eləsin, bacı. Çox vaxt keçib. Çıxart bu qara paltarı. Cavan gəlinsən. Həmişə qara paltarmı geyəcəksən?

Gülmirə ah çəkib cavab vermişdi:

— Yox, Sahibə. Mən ömrümün axırınacan qara geyinəcəyəm.

— Niyə ki? Məgər bu müsibət tək sənin başına gəlib? Bu torpaq o qədər elə cavanlar udub ki... Deyir, ölənlə ölmək olmaz, qalanla yaşamaq gərəkdi, Gülü!..

— Yox, Sahibə. Mənimki getdi...—deyə o, əsl mətləbdən xəbəri olmayan mehriban qonşusuna qəmli-qəmli baxıb gülümsünmüş və: «Birini bilirsən, birini yox, bacım və heç vaxt da bilməyəcəksən, başa düşməyəcəksən!» — deyə ürəyindən keçirtmişdi.

Sahibə isə onun kefini açmaq üçün:

— Yəni heç ərə də getməyəcəksən? — deyəndə o:

— Yox, Sahibə. Heç vaxt!—söyləmişdi.

— İndi elə deyirsən, hələ yaran istidi, bacı. O qədər sənin kimi gəlinlər beləcə söz veriblər! Amma elə ki qabağına bir yaxşı kişi çıxdı, sevdi, hər şeyi unudub gedib! Tək yaşamaq dəhşətdi. Hələ cavansan, bilmirsən. Bir az yaşdanandan sonra başa düşəcəksən, onda da gec olacaq. Sizin o Akademiyada yəni elə bir yaxşı kişi yoxdu səni alsın? Gözləri görmür bəgəm? Sən elə gözəlsən, qadınlığımnan mən az qalmışam sənə vurulam. Bədən səndə, boybuxun səndə, yaraşıqlı ayaq səndə, göz-qaş, hörük səndə. Özün də ki alim!

Ancaq sonralar Sahibə başa düşmüşdü ki, Gülmirə ayrı təbiətli qadındı. Həyatın mənasını nə isə hələ anlamadığı, dərk eləyə bilmədiyi şeylərdə görürdü və bu, Sahibəni ona daha çox bağlayırdı. Söhbətləri yamanca tuturdu: ən çox kitablardı onları bir-birinə yaxınlaşdıran. Sahibənin demək olar ki, oxumadığı kitab yox idi. Mir Sahib işdən gələndə mütləq kitab mağazasına girərdi, təzə çap olunmuş əsər olanda hökmən alar, arvadını sevindirərdi. Sahibə özü də bazara-dükana çıxanda «Bənövşə»yə baş çəkərdi, mağazaçı qızlar ona yeni kitablardan birini-ikisini satardılar: onlar

Sahibəni — «kitab xəstəsi» sayırdılar və o, «Bənövşə»nin daimi müştərisi idi. Hərdən Gülmirə öz-özünə etiraf eləyirdi ki, Sahibə qədər kitab oxuya bilmir. Mir Sahib Sahibəni çox sevirdi — onun gözündə sanki dünya gözəliydi Sahibə. Tez-tez xəstələnsə də, ilin az qala iki-üç ayını xəstəxanalarda yatsa da, uşağı olmasa da — o, arvadının nazı ilə körpə kimi oynayır, qayğısını çəkir, qulluğunda dururdu və qadın ərindən yerdən göyəcən razı idi, xoşbəxt idi. Sahibə həyatını Gülmirəyə danışmamışdı — Mir Sahibə necə rast gəldiyini, evlənmələrini, bu kəndçi oğlanın hardan ürcahına çıxdığını söyləməmişdi. Gülmirə də soruşmamışdı. Ancaq hiss eləyirdi ki, bu yetim qızla yetim oğlanın qəribə bir həyat tarixçəsi olmalıdı, bu tarixçəni Sahibə hərdən-bu və ya digər kitabı, filmi Gülmirə ilə «müzakirə» eləyəndə ordan-burdan vərəqləyir, bəzi əhvalatları dilinə gətirirdi. Gülmirə bilirdi ki, haçansa bu kitabı oxuyacaq.

İndi, günortaçağı, Gülmirə həyətə girəndə təklikdən darıxmış Sahibə sevindi — çünki Gülmirə nadir hallarda günorta naharına evə gələrdi. Lakin onun sevinci üzündə donub qaldı — çünki Gülmirə hədsiz dərəcədə yorğun və kədərli idi; əlində bir dəstə qəşəng qərənfil vardı; güllər payız günəşinin altında adamın gözünü oxşayırdı. Sahibə o dəqiqə hiss elədi ki, Gülmirəyə nəsə olub. Üstünə döşəkcə qoyub oturduğu kətildən tələsik qalxdı, yarıyacan toxuduğu köynəyi, milçəni yerə atıb onun qabağına gəldi:

— Nə olub, bacı?..

Gülmirə bu qəfil sualdan səksənən kimi oldu və başını bulaya-bulaya:

— Heç nə! — dedi. — Necə məgər?

— Rəngin-ruyun ağarıb, bacı. Lap kətan kimi. Qorxdum.

— Yorğunam. Gecə pis yatmışam. İdarədə heç otura bilmədim. Dedim gedib bir-iki saat yatım, bəlkə özümə gəldim. Sonra da qəbir üstünə gedəcəyəm, — dedi və qara redikülündən otağının açarını çıxarıb qapını açmaq istəyəndə Sahibə qayğılı bir tərzdə:

— Nahar vaxtıdı, yaxşı dolma bişirmişəm, gedək bizə yeyək. Mən də təkəm, tək iştaham çəkmir, — söylədi.

Gülmirə gülümsündü:

— Çox sağ ol, bacı. İştahım yoxdu. Yuxudan ötrü ölürəm. Sən get ye, mən yatacağam. Amma sən ye ha, sən yeməyinin vaxtını keçirtmə. Meylin çəkdi-çəkmədi, gərək yeyəsən.

Sahibə incik halda geri döndü, gedib kətilin üstə əyləşdi və yenə toxumağa başladı.

Gülmirə qapını açıb içəri girdi. Gülmirə idarədə olan söz-söhbətlərin heç birini evdə nə Maşa xalaya, nə Sahibəyə danışmazdı. Xoşlamırdı. Əqdəmə də nadir hallarda bəzi qeyri-adi şeylər olanda söylərdi, qalan şeyləri adi hesab eləyib dilinə gətirməzdi.

Otaq alaqaranlıq idi, soyuq idi. İşığı yandırmadı — Gülü girəcəkdə bədənnüma güzgünün qabağına qoyub ayaqqabılarını çıxartdı və içəri keçib elə pallı-paltarlı çarpayının üstünə uzandı. Üzüqoylu. Bir anlığa iki-üç saat bundan qabaq şöbədə olmuş bütun əhvalat kino lenti kimi gözlərinin qabağından gəlib keçdi. Kənardan, kənar adam nəzəriylə baxdı o filmə və əti ürpəşdi. Danladı özünü. Salmanın düşdüyü ağır vəziyyətin mənasını orada, iclasda dərk edə bilməmişdi, amma indi anladı və ürəyi sancdı. «Nahaq elədim, nahaq elədim. Aman allah niyə belə elədim» — deyə qınadı özünü — «Nə olacaq, neyləyəcəklər Salmana? Heç nə! Heç nə!» Düşünürdü, isti göz yaşları ixtiyarsız axıb ağ balışı isladırdı. «Mən onun üzünə necə baxacağam, aman allah. Necə də yazıq olmuşdu o boyda Salman. Yumağa dönmüşdü. Ürəyi partlamasa böyük işdi. Yox, bu biabırçılıqdan sonra mən institutda qala bilmərəm. Gərək başıma çarə qılam. Ya tamam çıxıb gedəm, ya da başqa şöbəyə keçəm».

Başı çatlayırdı, ürəyi hövl eləyib sinəsindən çıxmaq istəyirdi. Unutmağa çalışırdı olub-keçənləri, ancaq unuda bilmirdi. «Haqlıyammı, haqsızammı?» — sualı bütün içini gəmirirdi. «Görəsən Orxan sağ olsaydı, beləcə camaatın gözü qabağında Salmanı ifşa edərdimi? Hə, edərdi. Bəlkə bir az ayrı cür edərdi bu işi, ancaq mütləq edərdi. Orxan bu boyda haqsızlığı heç vaxt ört-basdır etməzdi. — buna onun vicdanı razı olmazdı». Hardansa, beyninə, ürəyinə axıb dolan bu fikir Gülmirəni azca toxtatdı —

onun sinirləri boşalıb yumşaldı, rahatlandı. Elə bil kimsə gözünün önündən çəkilib getməyən o iclasın söz-söhbətinin üstünə qalın, qara bir pərdə çəkdi və o, daha heç nə görmədi, heç nə eşitmədi — o müdhiş aləmdən ayrıldı... Sonra elə bil sehrli bir əl, qu tükü kimi yüngül olan Gülmirəni ehmalca yuxarı qaldırdı, harasa, indiyə qədər görmədiyi, qırmızı lalələrdən od tutub yanan yaşıl bir çəmənliyə gətirdi. Hava yaz havası idi, bildirçinlər səs-səsə verib oxuyurdu, qanadları zərli-xallı kəpənəklər çiçəkdən-çiçəyə uçub qonurdu. Gülmirənin əynində lalə rəngli qırmızı don vardı, ayaqları şehdən islanmışdı. Dərdsiz-qayğısız bir qız olan Gülmirə zər qanadlı kəpənəyi qovurdu — kəpənək onun yaxınlaşdığını hiss edən kimi zərif qanadlarını çırpıb uçur, azca irəli gedib başqa külün üstünə qonurdu... Birdən od tutub yanan çəmənliyin içində, uzaqdan dümağ paltar keymiş, qollarını geniş açaraq, demək olar ki, ayağı yerə dəymədən lalələrin üstü ilə uça-uça ona sarı gələn Orxanı gördü — Orxan nəsə qışqırırdı, nəsə söyləyirdi, ancaq Gülmirə ayırd eləyə bilmirdi. Kəpənək yadından çıxdı — o da qanad açıb Orxana tərəf süzməyə başladı. Çatdılar bir-birinə. Orxan qollarını Gülmirənin boynuna doladı, açılıb çiyinlərinə tökülmüş tellərini oxşadı. Həsrətmiş kimi o ipək, o ətirli tellərini ovuclayıb burnuna yaxınlaşdırdı, iylədi. Sonra Orxanın iri, qara gözlərindən ixtiyarsız yaşlar axmağa başladıqda Gülmirə ağ, yumşaq əlini onun üzündə gəzdirdi. «Sən ağlayırsan, Orxan? Bu nədir, sən ağlayırsan?» «Hə, sevindiyimdən ağlayıram, Gülü. Gör neçə vaxtdı səni görə bilmirəm». «Bəs o dəfə demişdin gələcəyəm. Amma gəlmədin. Gözüm yolda qaldı, gəlmədin.» «Hə, Gülüm, gələ bilmədim. Yolum bağlı idi — daş qapını qaldırıb gələ bilmədim, Gülü! Necəsən, Gülüm?» «Belə də... gördüyün kimi. Yaxşı oldu gəldin, bu gün səni elə görmək istəyirdim ki! Bu gün sənin sözünə, məsləhətinə çox böyük ehtiyacım vardı, Orxan. Bu gün Salman Qurbanzadəni şöbə iclasında rüsvay elədim. Oğrusan, dedim, qatilsən, dedim. Mirzə Yanarın əlyazmasını — sən verdiyin o əlyazmanı hamının qarşısında verdim Aslanzadəyə. Öldü, yerə girdi». «Yaxşı eləmisən, Gülü». «Yaxşı eləmişəm, doğrudan

deyirsən yaxşı eləmişəm, Orxan?» «Belə eləmək lazımdı, Gülü. Qoy heç olmasa başqalarına dərs olsun. Mənə qismət olmadı, sən elədin bu işi, sağ ol. Mirzə Yanarın da, mənim də ruhumu şad elədin, Gülü».

Nagəhan bir külək qopdu, lalələrin qırmızı ləçəklərini yolub apardı, kəpənəklər yox oldu... Orxan da yox oldu.. Gülmirə dəhşət içində qışqırdı: «Orxaan, Orxaan!»… Ancaq səsinə səs verən olmadı.

Gülmirə gözlərini açanda özünü çarpayıda, tək-tənha görüb vahimələndi. «Yuxuymuş, yuxuymuş...» — deyə astaca pıçıldadı. Çevrildi, tavana baxdı. Divar saatı yeknəsəq mahnısını oxuyurdu — çıq, çıq, çıq... Bayaq, evə gələndə bu səsi eşitməmişdi. Alaqaranlıqda baxışlarını dolandırıb əqrəblərə nəzər saldı — dördə qalmışdı. Qəbir üstünə getmək vaxtıydı.

...Əvvəl Əqdəmin qəbrini ziyarət elədi. Qəbir sadə idi, üstü və yanları ağ daşdan götürülmüşdü. Baş daşından hərbi geyimli, sinəsində bir neçə nişanı olan, poqonları par-par parıldayan Əqdəmin şəkli ona tamaşa eləyirdi — Əqdəm nə üçünsə burada, bu əksində kədərli çıxmışdı. Elə bil kimdənsə küsmüşdü, elə bil ürəyində kiminləsə mübahisə eləyir, kimisə qınayırdı. Gülmirə, səssiz-səmirsiz, yanaqlarından yaş axa-axa Əqdəmin qəmli üzünə xeyli baxdı, keçən ay qoyduğu, indi quruyub qaralmış kül çöplərini götürərək kənara atdı, əlindəki qərənfil dəstəsini yarı bölüb sinə daşının üstəki yarım kiloluq bankanın içinə qoydu. Qəbrin ətrafındakı qurumuş ot-ələfi yolub-təmizlədi.

Yenə sükut içində dayanıb Əqdəmin şəklini süzdü. Qəribə idi — qulağına yenə təyyarə səsi gəldi. Qeyri-iradi başını qaldırıb göylərə göz gəzdirdi — təyyarə-filan uçmurdu. Təyyarə səsi beynində öləziyib eşidilməz olanda sanki Əqdəmin tanış-doğma sədası içərisini titrətdi:

«O gülləri kimin üçün gətirmisən, Gülmirə? Yenə Orxan üçün?»

Az qala hər dəfə verilən bu sualdan Gülmirə yenə üşüdü, sıxıldı. «Bilirsən ki, onun üçün gətirirəm, niyə soruşursan, Əq-

dəm? Həmişə soruşursan. Nə olar, Əqdəm, dünyadan sənin kimi vaxtsız köçüb getmiş bir insandı, dostumdu, nə olar bir dəstə güllə onu yad eləyəndə? Nə olar, axı, Əqdəm?» «Mən istəmirəm, Gülü. İstəmirəm sən onun qəbrinin üstə gül gətirəsən? Ürəyim sıxılır». «Eh, Əqdəm, Əqdəm. Sən yaman qısqanc imişsən. Öləndan sonra da qısqanırsan. Bir də belə desən, sən bu gülü görüb dərd çəkməyəsən deyə, əvvəl onu ziyarət eləyərəm. Belə demə, Əqdəm, yaxşı?!»

Əqdəmin səsi sanki qırıldı. Gülmirə onun dodaqlarına baxdı — yox, onlar tərpənmirdi. Demək, Əqdəm yenə küsmüşdü. Sonra, hardansa, sağ xərəfdəki qəbirlərin yanından danışıq eşidildi. Gülmirə dönüb səs gələn səmtə boylandı. Beş-altı kişi dayanmışdı.

Gülmirənin ürəyi sıxıldı. Son dəfə Əqdəmin şəklinə baxdı, ondan icazə istəyirmiş kimi, astaca «mən gedim» — deyə pıçıldadı, ancaq Əqdəm dillənmədi. Gülmirə ağır addımlarla uzaqlaşanda öz-özünə danışırdı: «Mənim taleyimə baxırsanmı, ilahi! Nə günahım var axı mənim? Gəlmiyə bilmirəm. Gəlirəm də ki, belə. Yox, mən dəli olacağam deyəsən! Hələ Əqdəmin yuxu görüşlərindən xəbəri yox idi». Bir də gördü ki, Orxanın qəbrinin yanındadı. Çoxlu təzə gül qoyulmuşdu məzarın üstünə. Ağ mərmərdən düzəldilmiş baş daşına həkk edilmiş şəkildən Orxan gülümsünə-gülümsünə ona baxırdı. Və hər dəfə Gülmirə bura gələndə, bu şəkli görəndə elə sanırdı ki, Orxan onun gəlişindən belə şad olub gülümsünür. Sevindiyindən gülümsünür ki, onun Gülmirəsi gəlib.

Demək, Şirin arvad, bacıları gəlib gediblər. Kaş bir-az tez kələydi, Şirin arvadı—Orxanın sinəsi dağlı qoca anasını görəydi, söhbət eləyəydi. Adı kimi, özü də şirin arvad idi. Orxan öldüyü vaxtlar burada göründüyü gün yadına düşdü, arvadla olan danışığı qulaqlarında səsləndi: «Ay bala, sən kimsən?», «Mən...» «Yoxsa sən mənim toy görməmiş Orxanımın toy görməmiş istəklisisən, ay bala?»—deyə o zaman Şirin arvad qollarını Gülmirənin boynuna dolayaraq üzündən öpə-öpə hönkürmüşdü — «Gör sən bizi harda görüşdürdün, ay oğul!» «Sakit ol, ana, sakit ol!» «Bəs sən indi-

yəcən niyə üzə çıxmamısan, ay bala? Mənim muradımı niyə gözümdə qoydunuz, ay qurbanınız olum! Hər dəfə tifilimin yanına bu ümidlə gəlirdim ki, mənə xeyir xəbər verib deyəcək: «Hazırlaşın, filankəsin evinə elçiliyə gedəcəksiniz». Demədi, arzusu gözündə qalanım, arzumu gözümdə qoydu. Hər şeyi hazır idi. Alt paltarından tutmuş sırğasına, saatına, boyunbağısınacan.»

«Mən Orxanın iş yoldaşı idim, ana». «İş yoldaşı?» «Hə, ana» «Bu gülləri sən qoyursan bura?» «Mən qoyuram, ana!»

Heyf, Şirin arvad gəlib gedib. «Görəsən idarədən də gələn oldumu — axı mən hamının yadına saldım, bu gün Orxanın öldüyü gündü. Eh, inanmıram gələn olsun. Çalış bu dünyada ölmə. Öldünmü, tez unudularsan. İnsanlar indi unutqan olublar, Orxan. Sən heç kəsi qınama, heç kəsdən küsmə. — O, dönüb Orxana nəzər saldı: — Aşıq yaxşı deyib — canıyanan ya bir olar, ya iki.»

Gülmirə əlindəki qərənfilləri güllərin lap üstünə, Orxanın şəklinin altına qoydu. Və elə bu zaman, bir az əvvəlki yuxusunu xatırladı. Şirin yuxu idi, güllü-çiçəkli, laləli, kəpənəkli ətirli yuxuydu. Ancaq heyf sonra tufan qopdu — hər şeyi alt-üst elədi — yuxuda da ayrı düşdülər onlar. Onda, yuxular dünyasında Orxanı əməlli-başlı görə bilməmişdi. İndi gözü dolusu baxırdı ona, doyumluq baxırdı ona. Bugünkü o dəhşətli iclası danışmışdı, Orxan onun hərəkətini bəyənmişdi—daha bu barədə söz salmaq istəmirdi. O bəyənmişdi — bəsiydi. Orxan onun hakimiydi, yol göstəreniydi, bələdçisiydi, inamı, dayağıydı. Gülmirəyə kimsənin məsləhəti gərək deyildi, mühakiməsi gərək deyildi.

Orxanın xəyalı dilləndi sanki: «Niyə qanın qaradı, Gülüm? Sənə deməmişəmmi mənim yanıma gələndə kədəri, qəmi qoy evdə gəl. Axı səni belə görəndə mən də qüssələnirəm!» «Əqdəm qaraltdı qanımı, Orxan! O məni sənə yenə qısqanır, Orxan!» «İncitmə onun könlünü, yazıqdı, Gülü!» «Hə, düz deyirsən, yazıqdı Əqdəm, Orxan. Ancaq mən sonralar başa düşdüm — sən məni ondan çox istəyirmişsən, Orxan. O, indiyəcən bir dəfə də olsa yuxuma girməyib. Yox, bir dəfə görmüşəm — onda da qaşqabaqlıydı, heç danışmadı da, eləcə baxıb-baxıb çıxıb getdi. Amma

sən tez-tez gəlirsən yanıma, Orxan. Mənə xoş sözlər deyirsən, oxşayırsan, əzizləyirsən, Orxan!» «Nə qədər ömrüm var, gələcəyəm, Gülüm. Yox, yox, mənim ömrüm qurtarıb, sənin nə qədər ömrün var, kələcəyəm, mehribanım. Sağlığımda deyə bilmədiyim bütün gözəl səzlərimi, şirin sözlərimi sənə deyəcəyəm, Gülüm. Heç kəsə yox, ancaq sənə». «Çox sağ ol, əzizim».

Bu sözsüz, ürək söhbəti bəlkə də çox davam edəcəkdi. Birdən Gülmirə Orxanın qəbrinin yanında təzə bir məzar da görüb heyrətləndi. Necə olmuşdu ki, buna bayaqdan fikir verməmişdi. Onun da üstünə tər güllər qoyulmuşdu. Gülmirə torpaqdan hiss elədi ki, lap təzə qəbirdi. Kimdisə Orxangilin ailə üzvlərindən — çünki Orxan üçün ayrılmış sahənin — dəmir hasarlı sahənin içindəydi. Səksəkə ilə irəli yeridi və qəbrin baş tərəfində torpağa sancılmış dördkünc taxtanın üzərinə yazılmış: «Əlizadə Şirin Əli qızı — təv. 10.10.1915 — vəf. 10.10.1975-ci il». sözlərini oxuyanda heyrətindən donub qaldı. «Demək Şirin arvad da vəfat eləyib. Oğlunun ölümündən sonra çox yaşaya bilmədi yazıq. Dözmədi, köçdü yanına. Yollar yorğunu olmaq istəmədi — birdəfəlik, həmişəlik yığışıb sevimli oğlunun yanına gəldi».

Gülmirə əli dodağında xeyli beləcə dayandı, yenə ixtiyarsız gözlərindən yaş axmağa başladı. Dilsiz sükut içində dəqiqələri yola salandan sonra Orxanın başdaşına tərəf dönüb: «Yazıq Orxanım, anasız qaldın!» — deyə ürəyindən keçirtdi və canlı adama başsağlığı verirmiş kimi;

— Son qəmin olsun, Orxan,— dedi. —Qəbri nurla dolsun. Elə bil Orxan başını tərpədib astaca dilləndi:

— Yox, Gülüm. İndiyəcən anasız idim burda. İndi analı olmuşam, Gülüm.

Gülmirənin gözlərində yaş gilələndi.

## DÖRDÜNCÜ FƏSİL

Yara hələ isti imiş, sən demə: ona görə ağrısı-acısı bilin-

mirmiş! Nadirə Gülmirəni yola salandan, Salmanın kabinetinin qapısını açıqca açıb baxmadan, qəfil zərbə yeyib karıxmış adam sayağı, key kimi evə gələndən sonra bu gün, üç-dörd saat bundan qabaq, institut divarları arasında baş vermiş o müdhiş hadisənin nə demək olduğunu bütün çılpaqlığı ilə anlayıb sarsılmışdı. Bəlkə də ömründə ilk dəfə idi ki, özü-özünə heyrət eləmişdi. Hər şeyi ayıq-sayıq ölçüb-biçməyə, yerli-yerində qiymət verməyə adət eləmiş Nadirə xanım necə olmuşdu ki, bu boyda söz-söhbət zamanı işin nə yerdə olduğunu layiqincə anlaya bilməmiş, kənar, tamam yad bir insan mühakimə edilirmiş kimi, susub durmuş, hətta iclasdan sonra da Gülmirədən, yaxud Salmanın özünün yaxasından yapışıb «bütün bunlar nə deməkdir?» — deyə silkələməmişdi. Bu, səbir idimi? Bu, Salmana qarşı biganəlikdənmi irəli gəlirdi? Ya bir çox başqaları kimi, həyatında heç vaxt belə «divan-məhkəmə» görmədiyindən çaşıb qalmışdı? Və yaxud Gülmirənin oturanların hamısının ürəyini lərzəyə salan cəsarətli çıxışı ona ilk baxışda hədsiz ləzzət elədiyindən Salmanı unutmuşdu — bu söhbətlərin özgəsi haqqında yox, məhz Salman — onun əri barəsində getdiyindən fərqinə varmamışdı?! Qəribə idi ki, ilk təəssüratı — son dərəcə maraqlı, dramatik bir tamaşadan alına biləcək gözəl təəssüratı evə gələndən sonrakı ilk dəqiqələrdə də sönüb getməmişdi, onun ürəyini, bütün varlığını doldurmuşdu. Əlli iki il yaşamışdı, ancaq heç bir filmdən, heç bir əsərdən bu qədər sözlə ifadə oluna bilməz zövq aldığı yadına gəlmirdi. Ceyhun evdə yox idi, Salman yəqin ki, hələ idarədə olardı — güman ki, o hamının işdən çıxıb getməsini gözləyirdi — heç kəslə üz-üzə gəlməmək üçün! Bu gün belə elədi. Bəs sabah? Birisi gün? O, adamların gözünə necə baxa bilərdi belə ağır və öldürücü ittihamdan sonra? Yox, baxa bilməzdi. Bilməyəcəkdi!

Yandırıcı bir hiss içini göynətdi — Salman özgə adam deyildi, Salman onun ömür-gün yoldaşı idi, uşağının atası idi! Bu biabırçılığın — namərdliyin, nakişiliyin, oğurluğun, əclaflığın — nə desən yaraşır — bir ucu da onu — başını aşağı salıb elmin namuslu fəhləsi kimi gecə-gündüz bilmədən, kirpiyi ilə od götürə-

götürə çalışan, imkanı, qüvvəsi dairəsində var gücünü, həvəsini, eşqini sənətinə verən Nadirə xanımı da tutmurdumu, onun təmiz adının üstünə kölgə salmırdımı?

Bu suallar onu hövlləndirdi—bayaqdan taqətsiz halda oturduğu divandan qalxıb otaqları bir-bir açıb baxdı, Salmanın kabinetiiə girdi. Yox idi. Kaş o indi burada — yanında olaydı — soruşardı—hiddətlə, qəzəblə, qışqıra-qışqıra, sonra da lap bəlkə də ağlaya-ağlaya soruşardı: «Bu, sənsən, Salman? Bu deyilənlər doğrudurmu? Niyə belə eləmisən, Salman? Niyə, niyə?» Təəssüf ki, o burada deyildi və bu qışqırıqlı-hıçqırıqlı suallar onun ürəyindən qopub dilinin ucunda bənd alırdı və Nadirənin hirsini-hikkəsini soyutmurdu. Havalanmış adam təki otaqları vurnuxdu, eyvana çıxdı, geri qayıtdı. İşıqları yandırmamışdı, içəri qaranlıq idi. Yemək otağının çilçırağını yandırdı — pianonun üstündəki elektron saat altı tamamı göstərirdi. Salman həmişə bu vaxt evdə olardı. Qeyri-iradi dəhlizə keçdi — divar güzgüsünün qabağındakı kiçik kətilin üstünə qoyulmuş telefonun dəstəyini götürərək Salmana zəng çaldı. Telefon susdu. Demək, otağında deyil, çıxıb. İndi harda olsa gələr. Dözməyib direktorun kabinetinə də zəng çaldı — orada da heç kəs yoxdu. Hə Aslanzadə prezidiumun iclasına getməli idi. Şərqiyyə də qalmaz indiyə. Gülmirə görəsən hardadı? Evdə olar. Onunla söhbət etmək indi çox maraqlıdı. Yəqin hirsi-hikkəsi soyuyub. Nömrəsini yığdı. Maşa xala götürüb dedi ki, evdə yoxdur, bilmir də hara gedib. Bundan da ümidsiz olan Nadirənin birdən gözü güzgüdə özünə sataşdı. Və qorxdu — bayaq, iclasda od tutub yanan sifəti indi də yanırdı. Yanırdısa, demək, qırmızı olmalıydı. Ancaq onun üzü kağız kimiydi indi. Yaraşıqlı, nazik, alınmış qaşları altından həmişə parıltıyla baxan gözlərində sonsuz bir bədbəxtliyə düçar olmuş adamın baxışlarındakı kədərə bənzər dərin bir hüzn vardı. Birdən ona elə gəldi ki, saçlarının ağı da çoxalıb — xına qoyardı başına — sanki ağ tüklər xınanın qızartısını da udub bir az da bozarıb. Qəşəng sifətində qırışlar çoxalıb deyəsən. Səhər işə gedəndə də o, bu güzgüdə özünə baxmışdı — onda belə deyildi axı! Bir neçə saatın

içində insan da belə qocala bilərmi? Yanıqlı ah çəkdi — nəfəsindən güzgünün bir parçası dumanlandı. Elə bu zaman kimsə qapının zəngini basdı. Qeyri-iradi düşündü ki, — Salmandı gələn. Və bədənində qəribə sızıltı gəzib dolaşdı. Ancaq gələn Salman deyildi, Ceyhun idi. Ceyhun pilləələri qaça-qaça çıxmışdı deyə tövşüyürdü. Qabaq-qənşər, gələn kimi Nadirəni araq iyi vurdu və Salman da, ona demək üçün hazırladığı sözlər də büsbütün yadından çıxdı. Ceyhunun qıvrım tüklü başı açıq idi — yay-qış başına papaq qoymazdı. Əynindəki dəri plaşın da, ağ köynəyinin də yaxası açıq idi. Nadirə araq iyini alan kimi geri çəkildi, heyrətdən böyümüş gözlərini oğluna zilləyib nəsə demək istəyirdi ki, Ceyhun köhnə adəti üzrə sağ əlini saçına çəkib:

— Ma, — dedi və anasının təəccüblü baxışlarını görüb sözünün dalını uddu. Nadirə fikirləşdi ki, qapı ağzında danışmaq yaxşı olmayacaq, söz-söhbəti qonum-qonşu eşidə bilər, qoy soyunsun, içəridə danışaram. Amma Ceyhun deyəsən soyunmaq fikrində deyildi. Nadirə acışan boğazına əl gəzdirdi. Gər, xırıltılı səslə:

— Soyun, keç içəri, Ceyhun! — deyə zərbə üstündən zərbə almış adam təki astaca dillənəndə Ceyhun yenə başını qaşıyıb:

— Yox, ma, mən gedirəm. — söylədi.

— Hara? — Öskürək tutdu. O qədər öskürdü ki, gözləri yaşardı. Fürsətdən istifadə eləyən Ceyhun onun sualını cavabsız buraxıb soruşdu:

— Paxan hanı?

Bu sözdən Nadirənin zəhləsi gedirdi, neçə dəfə oğlunu belə dediyinə görə məzəmmət eləmişdi. Yenə «paxan» kəlməsini eşidəndə onsuz da hövsələsi təngimiş Nadirə çımxırdı:

— Sənə nə qədər deyərlər ki, o sözdən mənim xoşum gəlmir? Sən yenə «paxan» deyirsən?

— Eh, ayma. Hamı «paxan» deyir də. Sən də...

— Hamı kimdi?

— Mənim yoldaşlarım. Hamısı anasına «maxan», atasına «paxan» deyir. İndi tək mən durum «ana» deyim, «ata» deyim?

— Qələt eləyirsən sən də, sənin yoldaşların da! Axırıncı dəfə deyirəm sənə, bir də o sözü eşitməyəcəyəm səndən. Bildin?

— Hə, yaxşı, bildim, bildim. İndi de görüm pax... e... ata hanı?

Ceyhun içmişdi deyə anasının halındakı, sifətindəki dəyişikliyi görə bilmirdi, görəsi, duyası halda deyildi. Qabaqlar, uşaq olanda o, içəri girən təki anasını öpərdi, nasaz, kefsiz görəndə səbəbini soruşardı. İllər keçib böyüdükcə, Salmanla Nadirənin arasında əmələ gəlmiş anlaşılmaz soyuqluğu, mübahisələri hiss elədikcə Ceyhun yavaş-yavaş dəyişməyə, evə, dərsə biganələşməyə başlamışdı. Və bu biganəlik getdikcə çoxalırdı. Nadirə bir ana kimi bunun səbəbi üzərində çox düşünmüş və belə fikrə gəlmişdi ki, onu Salman korlayır — qətiyyən sıxmır, nəzarət yetirmir, istədiyi vaxt pul verir, geyimdən-kecimdən korluq çəkməyə qoymur. Ən başlıcası isə, onunla kişi kimi rəftar eləyir, oğlu kimi, uşağı kimi yox! Bu barədə söz düşəndə də əlini yelləyib:

— Qoy uşaq kişi kimi böyüsün, —deyirdi, — nə deyirsən yəni, istəyirsən Salman Qurbanzadənin oğlunun bacının yetimçəsi Rəhim kimi gözü onun-bunun əlində, əynində-başında olsun? Sən onunla elə rəftar eləyirsən ki, elə bil doğma balan deyil, ögey uşağındı elə bil. Bu, tərbiyə deyil, Nadirə xanım, yox! Mən kimdən əskiyəm ki, mənim uşağım kiminsə uşağından əskik olsun? Lakin Nadirə Salmanla qətiyyən razılaşmırdı, vaxtı, imkanı olanda Ceyhunla qaynayıb-qarışmağa, aradakı soyuqluğu yox eləməyə can atırdı, sevirdi, oxşayırdı boyunu. Çox vaxt sıxırdı, danlayırdı — bu da istədiyindən idi. Amma Ceyhun bunu başa düşmürdü — elə bilirdi anası onu istəmir. Atası qədər istəmir. İndi yox, bir il, iki-üç il bundan qabaq Ceyhunun beyni, ürəyi, əxlaqı elə bir dünya idi ki, iki adam—bir evin içində yaşayan iki müxtəlif təbiətli adam—ata-ana hərəsi onu öz tərəfinə çəkmək üçün dəridən-qabıqdan çıxırdı. İkisi də doğma idi — ancaq biri — ata onu sevirdi, müstəqillik verirdi, pul verirdi, korluq çəkməyə qoymurdu, yanına salıb məclislərə də aparırdı, o biri isə — ana — elə hey «dərsini oxu!», «haradaydın?», elə oturma, belə oturma»

deyirdi — bir sözlə, Ceyhunun indi hərdən dediyi kimi — onu «yaşamağa» qoymurdu. Ceyhun üçün, əlbəttə, birinci yaxşı idi və son vaxtlar arzulayırdı ki, kaş bir az da tez böyüyəydi, «bu arvadın» qanadının altından çıxaydı.

Salman o dünyanı — Ceyhunun ürək, beyin, əxlaq dünyasını «işğal» eləmişdi və Nadirə xanım, gözü baxa-baxa yeganə uşağının «əlindən çıxdığını» görüb ha əlləşir, vuruşurdusa, istəyinə nail ola bilmirdi, yanıb-yaxılırdı. Salmanın «tərbiyə üsulunun» birinci «xeyrini» Ceyhun artıq görmüşdü — atasının adına-sanına arxayın olub «xala xətrin» qalsın deyə Nadirənin «gözündən pərdə asmaq» üçün «oxuyan» uşaq instituta girə bilməmişdi. Bu, Salmanı çox pərt eləmişdi. Dost-tanışdan küsüb incimişdi. Nadirə isə, içəridən yanıb-yaxılsa da, ərinə də, oğluna da: «Gördünüz? Baş olmasa, iş aşmaz!» — demiş, ürəyini boşaltmışdı. Onda Ceyhun heç nə olmamış kimi:

— Eh, ayma. Guya girənlərin hamısı başıyla girir? — deyə arxasını yerə verməmişdi. — Odey mənimlə bir sinifdə oxuyan Natiq hüquqa girdi — mən onun yanında professoram. Atası kooperativ texnikumunda adicə müəllimdi. Heç kandidat da deyil. Ya... eh, hansını deyim. Adınızı qoymusunuz professor, alim. Bir uşağı da qəbul elətdirə bilmədiniz! Rəhimi qəbul elətdirdiniz — nə var, nə var, yetimdi.

— Rəhim özü girib, bala. Çünki Rəhimin başı var — özündən başqa heç kimə arxayın olmadığına görə oxudu uşaq — deyə Nadirə oğlunun Rəhim barədə belə haqsız danışdığından odlanıb alışmışdı — İşlədi də, oxudu da. Amma sən!..

— Yaxşı, yaxşı, Rəhim professordu, akademikdi, əl çək məndən.

— Bu nə danışıqdır, Ceyhun? Sən ananla necə danışırsan? — Nadirə hikkəsindən az qala çatlamışdı və daha oğlu ilə danışmağı mənasız sayıb o biri otağa keçmişdi. Belə hallarda o Ceyhundan qəlbən inciyib küsürdü. Danışdırmaq istəmirdi. Yanıb-yaxılırdı ki, niyə onun oğlu adi şeyləri başa düşmür, yaxud başa düşmək istəmir. Sonra başı daşdan-daşa dəyəndə anlayacaq, onda

gec olacaq. Aman allah, necə gec olacaq!!

İndi budur, içib gəlib. Kimlə içib, harda içib? Nadirənin dərdi az idi — bu da üstəlik belə!

— İçmisən?

Ceyhun başını qaşıdı:

— Hə. Məni indi sorğu-suala tutma, ma. Yoldaşlarım gözləyirlər məni. Mənə əlli manat pul ver!.. Bilirsən bu gün maaş almışdım—uşaqları qonaq elədim — ancaq görürəm çatmayacaq pulum. Onları qoymuşam kababxanada, məni gözləyirlər. Mənə əlli manat ver. Gələn maaş verərəm — Ceyhun bu sözləri birnəfəsə söylədi. Çünki vaxtı az idi, aşağıda taksi gözləyirdi. Nadirə isə qulaqlarına inanmırdı elə bil. Qabağındakı onun əziz oğlu deyildi sanki. Haradansa gəlmişdi — tanımırdı onu.

— Mənim pulum yoxdur!

— Məni yoldaşlarımın yanında pərt eləmə, ma!

— Yoxdur! Yoxdur! — Nadirə özünə yad bir səslə qışqırdı, elə qışqırdı ki, Ceyhun səksəndi, mat-mat anasının üzünə baxıb bir anlığa susdu. Sonra birdən əlini atıb anasının asılqandan sallanan qara çantasını götürdü, cəld açıb bir dəstə onluq çıxartdı və əsəbi halda:

— Bəs bu nədir? Bu, pul deyil? Yığıb goruna aparacaqsan? — söyləyərək pulları Nadirənin gözü qabağında əsdirdi. — Goruna aparacaqsan?

Daşdan səs çıxdı, Nadirədən yox. Yaşlı gözlərini Ceyhunun ağarmış sifətində gəzdirib dərindən köks ötürdü və çevrilib mətbəxə keçdi. Qapı zərblə çırpıldı.

Üçüncü mərtəbədə, daş pillələrdə Ceyhunun ayaq səsi eşidilməz olanda nədənsə birdən ona elə gəldi ki, oğlunu həmişəlik itirdi, o, daha geri qayıtmayacaq. Qayıtsa da, həmin Ceyhun olmayacaq, ola bilməyəcək. Qırıldı onların arasındakı tellər. Dalıycan qaçmaq, onu geri qaytarmaq istədi — ancaq artıq gec idi — həyətdə uğultu ilə yerindən götürülən taksinin uzaqlaşan səsini eşidib süstəldi, stula çökdü və taqətsiz halda başını üstü boz müşəmbəli stolun qırağına söykədi. «İlahi, bu gün nə ağır gündü?

Mən dəli olmasam yaxşıdı — neçə də bədbəxt qadınam mən. Ər elə, oğul belə. Çölüm özgəni yandırır, içim özümü. Mənim günahım nədi görəsən, ilahi?» Və Ceyhunla indi, içmiş vəziyyətində sərt davrandığına peşman oldu. «Gərək verəydim o pulu. Onsuz da pulu yəqin ki, apardı. Pul cəhənnəm. Mən pul üçün danışmıram». Bu anda fikri qırıldı, Ceyhunun bayaq dediyi sözlər təzədən qulağında səsləndi: «Goruna aparacaqsan? Goruna aparacaqsan?» «Yox, oğul, goruma aparmayacağam. Nəyim var, sənindi... Ancaq oxu, təmiz, ləyaqətli insan ol, sonra. Ye də, iç də. Kimdi sənə mane olan? Amma hələ tezdi. Tezdi, bala. Sənin sümüklərin, ciyərlərin bərkiməyib hələ. Bu yol ki, indi sən tutubsan —axırı yoxdu. İnan ki, yoxdu. Mən pul üstündə əsmirəm, sənin üstündə əsirəm, Ceyhun. Sən indi başa düşmürsən, məndən acığın gəlir. Neynək, elə. Vaxt gələr, başa düşərsən, anlarsan, görərsən ki, anan düz deyirmiş,»

Dikəldi, mətbəxin pəncərəsindən həyətə boylandı, əlinin içiylə gözlərinin yaşını sildi. Evin qənşərində uşaq bağçasının qabağındakı üstü şiferli çardağın altında məhəllə uşaqları toplaşmışdı, deyir-gülürdülər, kimdisə neçə il bundan əvvəlki kimi yenə gitara çalırdı. Yəqin bu, ayrı oğlan idi — o gitara çalan əsgər getmişdi deyəsən. Çardaq həmin çardaq idi, ancaq o uşaqlar — Ceyhungilin dəstəsi dəyişmişdi, əvəzində həddi-büluğa çatan başqaları gəlmişdi indi.

Qabaqlar Ceyhunun getdiyi yeganə yer ora idi — o çardağın altı. Nə vaxt axtarsaydın, ordaydı. Eyvana çıx, səslə. Üç dəqiqədən sonra evdəydi. Amma indi kababxanalardan, restoranlardan sorağı gəlir Ceyhunun. Böyüyüb, pərvazlanıb. Görünür, həyatın qanunu belədi. Nadirə nə qədər istəsəydi də Ceyhun elə o çardağın altında oturub söhbət eləyən, oynayan, çalan-çağıran olmayacaqdı həmişə. Yəqin bir vaxt bax indi orada toplaşmış cavan uşaqlar da harasa pərvazlanıb gedəcəklər, əvəzində başqaları gələcək.

Nadirənin fikri dolanıb yenə oğlunun üstünə qayıtdı: «Nahaq ondan küsürəm. Gərək dilə tutaydım, yalvaraydım, qaytaraydım.

Onun indi elə vaxtıdı ki, sərt danışmaqla işi bir az da qəlizləşdirmək olar. Onu pişim-pişimlə bu yoldan çəkindirmək mümkündür, zorla yox! «Məni yoldaşlarımın yanında pərt eləmə, ma!» — Bu, bayaq Ceyhunun az qala yalvara-yalvara dediyi sözlərdi — «Kimdi onun yoldaşları? Yoldaş! Deyirlər, yaxşı yoldaş adamı bay eləyər, pis yoldaş zay... Nadirə elə həyətə baxa-baxa, Ceyhunun ara-sıra haqlarında danışdığı, bir-iki dəfə evə gətirdiyi yoldaşlarını xatırlamağa çalışdı: — Hə, biri akademik Əlişirin oğludu — o, qara arıq oğlan. Gözü-başı qaynayır. Özü də yaşda Ceyhundan xeyli böyükdü. Anasız-baxımsız böyüyüb deyəsən. Yox, Ceyhunu o Salikdən ayırmaq, uzaqlaşdırmaq lazımdı. Nəyin bahasına olursa-olsun... O biri dostu... Hə, rəssam Süleymanın oğludu — özü də rəssamlıq məktəbində oxuyur. Əli qızıldı—yaxşı şəkillər çəkir. Ceyhunun da portretini çəkib».

Telefon səsləndi, Nadirə hövlnak dəhlizə cumdu. Yenə Salman deyildi. Bu dəfə zəng eləyən Gülmirə idi.

...İkisi də həyəcanlı idi. Gülmirə günahkar kimi danışırdı, Nadirə dərdli, bədbəxt adam kimi. Telefon söhbəti deyildi. Nadirənin, təkidlə dəvət etməyinə baxmayaraq, Gülmirə onların evinə gəlməkdən qəti surətdə imtina eləyirdi, bir də heç vaxt onlara ayaq basmayaçağını ağlamsına-ağlamsına söyləyirdi. Salmanın hələ də işdən qayıtmadığını eşidəndə və Nadirənin bundan yana nə isə həyəcanlı-təşvişli olduğunu biləndə Gülmirənin peşmançılıq hissi daha da artdı. «Kişi özünə bir şey eləyər!» fikri soyuq üşütmə kimi vücudunu titrətdisə də, Nadirədən gizlədi və onu görmək istədiyini bildirdi. Nadirə dəstəyi asıb duruxdu — boş, suyu sovulmuş dəyirmana bənzəyən otaqlara göz gəzdirdi — divarlar elə bil üstünə gəlirdi, məngənə kimi sıxmaq istəyirdi onu sanki. Qulaqbatırıcı sükut-sükunət Nadirəni dəhşətə gətirirdi. İndiki halında Gülmirənin onu söhbətə çağırması bu ürək sıxan aləmdən müvəqqəti də olsa uzaqlaşması üçün ən münasib çıxış yolu idi. Tələsik geyindi, işığı söndürüb qapını çırparaq çıxdı.

Gülmirə Nadirəni Akademiyanın qənşərindəki qoşa hovuzlu bağda gözləyirdi. Dirəklərin üstəki yumru fənərlər bağı ağ süd

işığına bələmişdi. Oturaçaqlarda ikibir-üçbir əyləşən, qoşa-qoşa gəzişən adamların arasına göz gəzdirəndə Gülmirənin hovuzun qırağında dayanıb sulara baxdığını görüb sevindi Nadirə. Ancaq bu sevincdə bir tutqunluq, çaşqınlıq da vardı. Nadirə Gülmirəni çoxdan tanısa da, xasiyyətinə, ürəyinə bələd olsa da, bugünkü hadisədən sonra ona yaxınlaşmağa çətinlik çəkirdi. Ona elə gəlirdi ki, yox o, Gülmirəni tanımırmış. O, ya əsl ürəyini, içini indiyəcən gizləyib, ya da gözlənilmədən, hansı qəfil sarsıntıdan sonra tamam dəyişib başqalaşıb. Nadirənin tanıdığı Gülmirə artıq yox idi, qarşısında yeni, yaxşı tanımadığı Gülmirə durmuşdu. Və onunla necə, hansı istiqamətdə söhbət aparacağı, danlayaçağı, ya təqdir edəcəyi hələ özünə də məlum deyildi.

— Böyründə hənirti hiss edib çevrildi və Nadirəni görən kimi ona sarı gəlib ani olaraq alaqaranlıqda güclə seçilən sifətinə, gözlərinə baxıb uşaq anasına sığınan təki başını sinəsinə söykədi və ağladı:

— Məni bağışla, Nadirə xanım! — içini çəkə-çəkə söylədiyi bu sözlər Nadirəni də kövrəltdi. Lakin o, özünü tox tutaraq Gülmirənin çiynini sığallaya-sığallaya:

— Ağlama, Gülmirə! — dedi. — Niyə ağlayırsan? Və sonra qoluna girib baxışları ilə boş yer axtardı, sağ tərəfə meyllənərək onu keçidin yanındakı oturacağa tərəf çəkdi.

— Ürəyim partlayır, Nadirə xanım! — deyə hıçqıra-hıçqıra böyründə əyləşdi — redikülündən dəsmalını çıxarıb gözlərini sildi. — Həyat nə mürəkkəb imiş, ilahi! İnsanlar necə də anlaşılmaz, qəliz məxluq imiş. Mən... mən heç belə təsəvvür eləməzdim. Həmişə düşünərdim ki, hamı bir-birinə dost, qardaş, bacı — mehriban olmalıdı. Adamların nə şərikli malı düşüb axı? Niyə onlar bir-biriylə vuruşmalı, çəkişməlidi, nəyin xatirinə? Amma indi görürəm yox. Ad, şöhrət, mənsəb üstündə çəkişənlər, öz halal zəhmətilə yaşayanlarla yanaşı, müftəxorlar, oğrular, vicdansızlar da varmış bizim aramızda.

Gülmirə bu sözləri odlu-odlu deyirdi, yana-yana deyirdi. Kövrəkliyi ötüb getmişdi, yerində qəzəbi-kini baş qaldırmışdı.

Nadirə xanım onu dinləyirdi və qızın bu sadəlövh mühakimələrini eşidib ürəyindən keçirirdi ki, hər insanın həyatında belə bir ayılma, özünü, insanları, cəmiyyəti dərk etmə məqamı olur — bu ayılma birində tez, birində gec baş verir: biri düşüncələri, təsəvvürləri və kitablarda oxuduqları ilə içində yaşadığı mikroaləm arasında təzadları görüb sarsılır, heyrətlənir və az sonra buna adət eləyib susur, özü də o aləmin içində əriyib qarışır, yox olur. Başqa biri isə heyrət məqamını yaşayandan sonra xeyli müddət nəyin necə olacağını aydınlaşdırıb haqqı nahaqdan ayırıb haqqın tərəfinə keçir və nahaqqa qarşı mübarizəyə qalxır. Bəzən belələrini tez sındırırlar, döndərirlər — ancaq bu, iradəsi zəif olanların başına gəlir. Səbatlı, sabitqədəm, məsləkli, ürəkli adamlar isə bu meydanda axıracan duruş gətirir, mərdliyi, dözümü, mətanəti ilə hamının heyrətinə səbəb olur, rəğbətini qazanır, əfsanəviləşir. Gülmirə deyəsən məhz belə bir ayılma məqamını yaşayırdı. Ancaq onun hərəkətlərində təmkin az idi. Əsəbilik, çılğınlıq baş alıb gedirdi — sözlərini kəsərdən, qiymətdən salırdı. Bunun səbəbi Nadirəyə aydın idi — cavan idi, dünyadan arzusunu, muradını götürməmiş ərini itirmişdi; sevən, həyanı olan, hardasa arxasında dayanan Orxanını itirmişdi və bunlar kiçik zərbələr deyildi — Gülmirənin hələ möhkəmlənib bərkiməmiş ürəyinə dəyən ağır zərbələr idi. Bu azmış kimi o, Salmanın ədalətsizliyini də öz gözləri ilə görmüşdü — Cəfərin tapıntısını onun adına çap etdirmişdi, Mirzə Yanarın əsərini öz adına çıxmışdı Salman. Və Gülmirənin nəzərində böyük alimliyin, xeyirxahlığın, ədalətin mücəssəməsi kimi cilvələnən Salmanın şöhrət heykəli birdən-birə uçub dağılmışdı. Salman kimi adlı-sanlı, inandığı, pərəstiş, hörmət elədiyi bir adam — bir alim belə olanda daha onda kimə inanmalı, kimə sığınmalı, kimin dalınca getməli idi Gülmirə?!

— Sən elə bilirsən Amerika kəşf eləyirsən, Gülmirə? — deyə nəhayət, Nadirə sözə başladı — bunlar, sənin dediyin şeylər elə dünən də var idi. Ancaq sən hələ cavan idin, həyatın bu mürəkkəbliyini, təzadlarını, eniş-yoxuşlarını görə bilmirdin, bacım. Salman dünən də vardı, bu gün də var. Ancaq, mən inanıram ki,

Salmanlar sabah olmayacaq. Bəlkə də sənə qəribə gəlir mənim belə deməyim. Bəlkə də sən — bunu deməsən də açıq hiss eləyirəm məndən xəcalət çəkirsən, utanırsan bugünkü çıxışına görə. Hayana dönsə, Salman mənim ərimdi. Yox, sən məni düzgün başa düş, Gülmirə. Mən Salmana pis arvad olmamışam. Özüm də sevib getmişəm ona. Ancaq mən neyləyim ki, o, mənim istədiyim, arzuladığım adam olmayıb. Mən bütün bu illər ərzində, kənardan baxanlara nə qədər qəribə görünsə də, evdə də, institutda da, mətbuatda da onu düz yola çəkməyə, hiss elədiyim nöqsanlarını islah eləməyə çalışmışam. Lakin o dönməz olub — sözüm təsir edə bilməyibmi, inandıra bilməmişəmmi? — Bilmirəm. O, öz fikrindən, xasiyyətindən dönməyib — bu, hardasa yaxşı xasiyyətdi — sözündən, fikrindən dönməzlik gözəl keyfiyyətdi. Mənim gündə bir dona girən, əqidəsini, məsləkini ayaqqabısı, köynəyi, nə bilim, dəsmalı kimi tez-tez dəyişdirən adamlardan zəhləm gedir. Amma gərək səndə o ağıl, o dərrakə ola ki, tutduğun yolun yanlış olduğunu başa düşəsən, sənə deyilənləri saf-çürük eləyə biləsən, əsl həqiqəti tapasan və ona sığınasan. Bunu bacarsan, yaşamağa qadirsən, bacarmasan, axırın yoxdur. Salman kimi... Əgər bu gün sənin iclasda dediklərin... — Nadirə azca duruxub əsl mətləb üstünə gəlmək istədi — dediklərin tam həqiqətdirsə, onda Salman ölsə yaxşıdı... Bu faktlar, xüsusən Mirzə Yanar məsələsi sübuta yetsə, dəhşətdi... Aman allah!!

Nadirə köks ötürüb susduqda Gülmirə dilləndi:

— Həqiqətdi, Nadirə xanım. Hələ o vaxt ölən gün Orxan mənə demişdi. Sonralar, lap bu yaxında mən kitabı da, əlyazmasını da səhifə-səhifə yoxladım. Eynilə Mirzə Yanarın əsəriydi. Demək olar ki? heç nəyi dəyişməyib. Yoxladıqca dəhşətə gəlirdim, inanın, Nadirə xanım. İstədim ikisini də götürüb sizin yanınıza kələm. Ancaq nə isə ürək eləmədim.

— Onu səhv eləmisən, düzü. Gərək gələydin, danışaydıq... Sən gərək elə o vaxt, Cəfərin tapıntısını sənin adına çap etdirmək istəyəndə məsələdən məni agah eləyəydin. Mən qoymazdım. Dünya dağıla qoymazdım — həm Cəfərin haqqı tapdanmazdı,

həm Salman, həm də sən bu biabırçılıqdan qurtarardın. O məqalə sənin adına çap olunub — sən bunun altından qaça bilməzsən. Özü deyirdi ki, sənin əlyazman onun seyfindədir.

— Axı o məqalə qaragəlmişin bircə sözü də mənim deyil?

— Nə olsun? Xətt ki sənindi. Bunu o sübut eləyə bilər, ancaq sən xəttinin dalından qaça bilməzsən...

Gülmirə duruxdu, udqundu.

— Mən qaçmıram da. Mən etiraf eləyirəm. Bunun üstündə məni asmazlar, kəsməzlər — elə bilirəm. Ancaq qoy o da etiraf eləsin... Mən Cəfərin haqqını qaytarıram özünə, qoy o da iyirmi beş ildən sonra biçarə Mirzə Yanarın haqqını qaytarsın. Acığın gəlməsin, Nadirə xanım, Salman müəllim pis adam imiş. Sən onunla necə yaşamısan — başa düşə bilmirəm.

Nadirə ah çəkdi:

— Eh, Gülmirə... Mən Salmandan həyatda hər şey gözlərdim, ancaq belə alçaqlığı yox. «Nəsiminin sənətkarlığı» çox yaxşı əsərdi — sən bilirsən. Mən həmişə düşünürdüm ki, Salman heç nə yazmasa daha, elə bir o əsərlə Nəsimi durduqca yaşar. Və bu da, məni hərdən düşündürürdü ki, niyə Salman daha bu səviyyədə, bu kamillikdə, dərin, mükəmməl əsər yazmır?! Hətta bir dəfə bunu onun özünə də demişdim. Gülüb söyləmişdi ki, onu cavan vaxtı, enerjili, həvəsli vaxtımda yazmışdım — həmişə adam yaxşı əsər yaza bilmir, Nadirə! Sən demə... belə!

Nadirə susdu. Gülmirə onun ağarmış sifətində iz salmış dərin kədəri alaqaranlıqda da görüb çox pərişan olmuşdu. Yazığı gəlirdi ona. Nadirə təmiz idi, həssas idi, bu dərd onun belini bükəcəkdi. Bunu Gülmirə çox yaxşı bilirdi. Olan isə olmuşdu. Daha geriyə yol yox idi.

— Bəs indi nə olacaq, Nadirə xanım?

— Nə nə olacaq?

— Bu işlərin axırı da...

— Bu işlərin axırı çox pis olacaq, Gülmirə! Aslanzadə yəqin komissiya ayıracaq, yoxlatdıracaq, sonra.. Əgər həqiqətən sən deyən kimi olsa, gərək Salman bütün ədəbi-elmi ictimaiyyət

arasında ifşa olunsun... Və gərək.. o, harasa çıxıb getsin... ya...

Nadirə sözünün dalını deməsə də... Gülmirə başa düşdü: «Ya... gərək özünü öldürsün!» Və bu fikir onu güclü bir tufan kimi silkələdi; Gülmirənin içərisində elə bil külək əsdi — payız axşamının ayazı bayaqdan onu belə üşütməmişdi. Ola biləcək böyük fəlakəti təsəvvürünə gətirəndə büzüşüb balacalaşdı, başını çiyinləri arasına qısdı və kədərli səslə:

— Mən... mən sənin ailəni dağıtdım!.. —söylədi...

— Ailəmi? — deyə bayaqdan fikir dəryasına qərq olmuş Nadirə acı bir təbəssümlə gülümsündü, — mənim... ailəm yoxdu, Gülmirə. Mənim ailəm artıq dağılmaq üzrə idi — bu məsələ isə olsa-olsa onu sürətləndirə bilərdi azca.

— Necə yəni mənim ailəm yoxdu? Dağılmaq üzrə idi... Başa düşmürəm... yoxsa...

— Salman, düzü ki, çoxdan gözümdən düşmüşdü, Gülmirə. Belə, xala-xətrin qalmasın, el-oba gözünə, atama, bacıma dərd verməmək üçün səsimi içimə salıb susurdum indiyəcən. Daha dözəsi halım qalmayıb — bu biabırçılıqdan sonra mən... çətin ki, daha onun üzünə baxa biləm. Elə adam mənə lazım deyil.

— Bəs Ceyhun?.. Ceyhun...

— Ceyhun mənim yaralı yerimdi, Gülmirə! Salman onu da bədbəxt eləyib — heç özü də başa düşmədən bədbəxt eləyib. Bayaq gəlmişdi. Lül-qənbər idi. Yenə pul götürdü, harasa getdi. Sözümə baxmır mənim.

Gülmirə ayağa qalxdı. Saat ona işləmişdi. Çox oturardı, ancaq Nadirənin yanında qaldıqca dərdinin üstünə təzə dərdlər gəlirdi — halbuki o, bura qəlbinin ağrısını, hövlünü bir az yüngülləşdirmək üçün gəlmişdi.

— Mən elə bilirdim sən dünyanın ən xoşbəxt qadınısan. Sən demə, sənin dərd-sərin mənimkindən də böyük imiş, bacı, — deyə bu dəfə o, Nadirənin qoluna girdi. Onlar daha gəl-get seyrəlmiş bağdan çıxdılar. Nərimanov prospektinin sol küçəsi ilə ağır-ağır addımlaya-addımlaya «Ceyran» restoranına sarı getdilər. Binanın kəlləsindəki pəncərələrdən işıq gəlmirdi. Nadirə xanım tində ayaq

saxlayıb hüznlü bir səslə pıçıldadı:

— Gəlməyiblər...

Gülmirə də başını qaldırıb çoxdan ona tanış olan qaranlıq pəncərələrə baxaraq:

— Darıxma bacı, harda olsalar gələrlər! — dedi və yas yerindən çıxan, ölü sahibinə təsəlli vermək istəyən adam kimi əyilib Nadirənin üzündən öpdü.

## BEŞİNCİ FƏSİL

Sən demə, Ceyhun gəlibmiş. İşıqları yandırmadan öz otağına keçmiş, plaşını, kostyumunu soyunaraq döşəməyə atmış, köynəyini, corabını çıxarmağı unudaraq çarpayısına uzanıb yatmışdı. Nadirə işığın düyməsini basdı — oğlunu bu halda görcək ürəyinin başı soyuldu. İçib, sərxoşdu — anasının gəlişindən heç xəbəri də olmadı.

Ceyhunun rəngi qızarmışdı. Xoruldayırdı. Sifətinə işıq düşəndə kirpik də çalmadı. Deməк, bərk yatıb. Nadirə xanım yaş içində boğula-boğula xeyli oğluna tamaşa elədi; əvvəl istədi qolundan tutub qaldırsın, dişinin dibindən çıxanı desin, lap bir-iki şillə də çəksin. Sonra bu fikrindən daşındı — bunun heç bir xeyri olmayacaqdı, çünki özündə deyildi Ceyhun.

Ana qəmli-qəmli köks ötürüb yerə atılmış plaşı, paltarı götürdü, aparıb mıxçadan asdı... Qayıdıb oğlunun yataq otağının qapısını ehmalca örtdü. Divanda oyləşdi. Saat artıq on idi — Salman hələ də yox idi. «Bu hara getmiş olar?» — sualı beyninə çəkic kimi tıqqıltı ilə dəyib cavabsız qayıdırdı. Neçə dəqiqə xəyalən dağı-aranı gəzəndən, Salmanın gedə biləcəyi yerləri ağlında götür-qoy eləyəndən sonra birdən yadına bağ düşdü. Hə, bağ!.. Salman bu neçə illər ərzində ən gərgin, sarsıntılı, anlarında özünü bağa salardı həmişə. İkimərtəbəli bağ evinin eyvanından ovuc içi kimi görünən gömgöy dənizə tamaşa edər, həyət-bacada qurdalanar, başını bir işlə qarışdırar və dərdini unudardı. Belə hallarda iki-üç

gün bağda qalıb özünə gələndən sonra şəhərə gümrah dönərdi. Bugünkü iclas doğrudan da sarsıdıcı idi. Lap əgər Salman bütün deyilən sözlərə layiq olsaydı da, ən daşürəkli adamın belə ona, salonu tərk etdiyi anda yazığı gələrdi. Nadirənin də ürəyi yanmışdı onun halına. Ancaq durub dalıyca çıxmağı, bir söz soruşmağı, ya təsəlliverici bir şey deməyi qüruruna sığışdırmamışdı. İlk təəssürat çox güclü idi — o anlarda Nadirənin ürəyində Salmana rəhmdən çox, qəzəb hissi tüğyan eləyirdi. Amma gör üstündən neçə saat keçmişdi — Nadirə bir qadın kimi, elmlə, idarə ilə bağlı duyğuları, söz-söhbəti kənara qoyandan sonra, Salmanın başına gələ biləcək qəzavü-qədəri götür-qoy etmiş və hardasa canına anlaşılmaz bir vahimə çökmüşdü. Rüsvayçılıq dalınca rüsvayçılıq gələ bilərdi. Bu təşviş hissilə o, bağa getməyi qərarlaşdırdı. Ancaq necə? Gecə, saat on birə işləyir. Ceyhun keflidi, yatıb. Yenə oyaq və ayıq, olsaydı, taksi tutardı, düz birbaşa Bilgəhə sürdürərdi. Tək, qadın xeylağı... Necə gedəydi?!

Birdən Sakit Aranlı yadına düşdü; onun maşını vardı — Nadirənin xətrini çox istəyirdi Sakit. Elə Nadirənin də həm yazıçı, həm elmi işçi kimi ondan çox xoşu gəlirdi. Neçə-neçə romanın müəllifi, elmlər namizədi olan Sakit öz sadəliyi, mehribanlığı, qayğıkeşliyi ilə az bir müddətdə bütün şöbənin, eləcə də institutun, o cümlədən Nadirə xanımın da dərin rəğbətini qazanmışdı. Uşaqla uşaq idi, böyüklə böyük. Dedi-qodu ilə, qeybətlə qətiyyən arası yox idi. Səhərlər hamıdan tez gələr, hamıdan sonra çıxıb gedərdi. İclaslarda danışmağı sevməzdi. Məcbur olanda, əsər müzakirəsində, iclasda, elmi şurada fikrini soruşsaydılar, çox müxtəsərcə mülahizələrini söyləyərdi. Yaşadığı, gəzdiyi aləmdən çox, yazdığı aləmdə olardı. Dünyası ağ kağızlar idi, stolu idi, qələmi idi və bir də şirinli-acılı xəyallarıydı. Heç nəyə baxmazdı, amma hər şeyi görərdi və bir müddətdən sonra onun zahirən görmədiyi, bilmədiyi, eşitmədiyi əhvalatları hekayədə, povestdə, ya romanda oxuyanda təəccüblənərdilər.

Sakit Aranlının bu xislətinə və təbiətinə hamıdan çox Nadirə diqqət yetirmişdi, onun bu instituta, şöbəyə gəlməyinə çox

sevinmişdi. Söhbətlərində, görüşlərində ona aydın olmuşdu ki, Sakit əsl sənət adamıdı— görməsələr də, başqa qələm sahibləri kimi, gündə-ayda tərifləyib göyə qaldırmasalar da o, sənətkardı. Şərt deyil ki, prezidiumlarda oturtsunlar, televiziyaya çıxartsınlar, qalın-qalın jurnalların, qəzetlərin redaksiya heyətinə seçsinlər— bu, heç vaxt böyüklük əlaməti olmayıb, sayılmaq əlaməti olub, ancaq böyüklük əlaməti-ölçüsü olmayıb! Şair beş-on ilə camaatın ürəyinə girə bilər, sevilə bilər — ancaq yazıçının qəlblərdə özünə yurd-yuva salması üçün neçə onilliklər lazımdır, bəlkə bütün ömür lazımdır — o da sənə nəsib ola, ya olmaya! Sakit bu məhəbbəti qazanmışdı—hara getsəydi, hamının əzizi idi. Az qala ən ucqar kəndin ən ucqar evində də bu sakit və həlim adamın heç olmasa bir kitabı vardı — əldən-ələ keçmiş, sökülüb cırılmış, cildi rəngini dəyişib bozarmış bir kitabı. Nadirə yay aylarında, məzuniyyəti vaxtı rayonlara, kəndlərə gəzməyə, istirahətə gedəndə dəfələrlə bunun şahidi olmuşdu, sevinmişdi. Qayıdıb gələndən sonra isə ona bəslənən bu əvəzsiz, böyük məhəbbətdən söz açanda Sakit gülümsünməklə kifayətlənmiş, əsla lovğalanmamışdı. Təvazökarlıq timsalı istəsəydilər, Nadirə xanım, çəkinmədən, düşünmədən Sakiti nişan verərdi.. Nadirənin gözündə Sakitin başqa bir bəzəyi də vardı — bu, kimsəyə yaltaqlanmaması, yarınmaması idi. Direktor olsun, şöbə müdiri olsun — Sakit üçün fərqi yox idi — hamı onun üçün yoldaş idi. Sakitin bu bəzəyinin gözəlliyini Nadirə xanım onu adını şair qoymuş və bir vaxtlar da Salmanın tərifləyib göyə qaldırdığı İltifatla müqayisə eləyəndə daha aydın görürdü və onda Sakit gözündə nə qədər qalxıb ucalırdısa, Dombagöz bir o qədər alçalıb çılızlaşırdı, murdarlaşırdı. Dombagözün aləmində, indi Salmandan böyük alim yox idi və neçə dəfə də iclasda sözü hərləyib-fırlayıb belə yekunlaşdırmışdı ki, Salman kimi mötəbər və adlı-sanlı bir alimin rəhbərliyi altında işlədiyinə görə özünü xoşbəxt sayır! Çünki Salman onun haqqında xoş sözlər yazmışdı, çünki Salmanın elmi dairələrdə böyük nüfuzu var idi. Kişinin yaltağından Nadirənin zəhləsi gedirdi, üstəlik bu «kişiciyəz» adını şair qoyandan sonra da yaltaqlıq eləyəndə — elə adam daha yox

idi Nadirə üçün!!

Nadirə xanım heç bilmədi Sakiti xatırlayanda niyə İltifat gəlib yadına düşdü, bu müqayisələri, təfərrüatları onsuz da qatma-qarışıq fikirlər, suallar əlindən çatlamaq dərəcəsinə gələn beynindən qovmağa çalışaraq telefona sarı cumdu, göy cildli kitabçadan Sakitin nömrəsini tapıb barmağı əsə-əsə zəng çaldı. Dəstəyi Sakit özü götürdü və adətincə:

— Eşidirəm! — söylədi.

Nadirə salam verməyi də unudaraq:

— Sakit, mənəm, Nadirədi, — dedi, — maşının sazdı?

— Hə. Nə olub ki? — deyə dəstəyin o başından Sakitin o dəqiqə həyəcanlı səsi eşidildi, — Yoxsa... bir hadisə-zad baş verib?

— Yox. Narahat olma. Salman axşam evə gəlib çıxmayıb. Yaman nigaranam. Deyirdim bir Bilgəhə — bağa baş çəkəydik... Əgər vaxtın, imkanın varsa...

Nadirə xanım Sakitin tərəddüdsüz cavabını eşitdi:

— Bu saat gəlirəm. Siz aşağı düşün. Beş-on dəqiqəyə ordayam. Plaşını geyinib cəld addımlarla, pilləkənləri demək olar ki, qaça-qaça həyətə endi və küçəyə çıxdı. Gediş-gəliş azalmış, camaat seyrəkləşmişdi. Avtobus dayanacağında da iki nəfər dayanmışdı. Başı silindirli cavan oğlan hövsələsizliklə ayağının birini götürür, o birini qoyurdu. Siqaretini aramsız tüstülədir, gözünü avtobus gələcək səmtdən çəkmirdi. Qoca kişi isə nazik boğazını çiyinləri arasına qısıb büzüşmüşdü, görünür, üşüyürdü.

— Gərək bunların hamısını tutub güllələyəsən. Bu qədər yazırlar, deyirlər, düzəlmir ki, düzəlmir. Adamları dəli eləsə bu transport eləyəcək — deyə cavan oğlan söylənirdi.

— Hövsələn olsun, bala. Hər belə şey üstə bu qədər əsəbiləşsən, səndə can qalmaz. Onsuz da düzələn deyil, — dedi qoca. — Bilirsən bu havaxt düzələr? O zaman düzələr ki, bu şəhərin böyüklərini, vəzifəli adamlarını AQF-lərdən düşürdəsən, mindirəsən bu şeytan arabalarına. Bax, onda düzələr.

— Heç onda da düzəlməz, bala. Camaata ixtiyar verməyincə

ki, gecikən, yolundan çıxan sürücünü qulaqlayıb elə oradaca cəzasını verə bilsin—düzəlməyəcək.

Abı rəngli «Jiquli» dayanacaqdan azca aralı toxtayıb duranda Nadirə irəli yeridi, dal qapını açıb oturdu.

Maşını tərpədə-tərpədə Sakit geri qanrılıb:

— Axşamınız xeyir, Nadirə xanım! — söylədikdə o:

— Ah, bağışla, sən allah, elə haldayam ki, salam-kəlam da yadımdan çıxıb, — dedi. — Axşamın xeyir, Sakit. Səni də bu gecə gözü işindən-gücündən elədim. Sən allah, bağışla!

— Nə danışırsınız, Nadirə xanım. Nə iş-gücbazlıqdır. Mən özüm də düzü, bu gün çox pərt olmuşam. Elə istəyirdim sizə zəng çalıb əhval tutam. Qızın sözləri bomba kimi partladı. Bu nə söz-söhbətdi. Başım çıxmadı. Həqiqətdi, yuxudu.

— Bu gün mənim üçün bir ömrə bərabər gün oldu, Sakit. Gülmirə aləmi qatdı-qarışdırdı bir-birinə. Heç ağlıma gəlməzdi!!!...

— Hə, mən də gözləməzdim. Gülmirə çox odlu-alovlu danışırdı. Qız olasan, belə cəsarətli olasan? Nadirə xanım kədərli-kədərli gülümsündü:

— Müsbət qəhrəman axtarırsan, hazır gözünün qabağında cəsarətli, qorxmaz... Daha nə istəyirsən? Adamlar indi o qədər müti və laqeyd olublar ki, bir balaca düz söz deyən, həqiqət danışan, cəsarət göstərən insan görən kimi təəccüblənirik. Halbuki, hamımız belə olmalıyıq — prinsipial, cəsarətli. Onda Osmanzadələr, Salmanlar da əyri-yarımçıq iş tutmağa ürək eləyə bilməz, qanunsuz addım ata bilməz, kiminsə haqqını tapdalamağa heç kəsin hüququ-ixtiyarı olmaz.

— Yəni deyirsiniz ki, Gülmirənin dediklərinin hamısı həqiqətdir? — deyə Salman, maşını bağ yoluna salıb Nadirənin fikrini öyrənmək istədi.

Nadirə xanım ani sükutdan sonra:

— Salman mənim həyat yoldaşım olsa da, deməliyəm ki, Gülmirənin dediklərində həqiqət olmamış deyil. Mən inanmıram ki, əlində əsas olmayan bir adam belə ürəklə danışa bilsin. Yalan adamı qorxaq və cəsarətsiz eləyər, düz söz, həqiqət isə adama küc

verir, qüdrət verir. O qızı yaxşı tanıyıram. Sən bəlkə də bilmirsən, o, bizim gözümüzün qabağında böyüyüb; Salmanın mərhum dostunun qızıdı. Salman özü gətirib onu bu instituta. Deyim ki, elə də sən deyən dərin savadlı adam deyil. Əvvəllər çox mütiydi, elm aləmində piyadaydı. Ancaq sonralar, bu son illərdə elə bil dəyişib tamam, inada düşüb sanki. Ona inanmayanlara elə bil öz gücünü, qabiliyyətini, savadını göstərmək üçün dəridən-qabıqdan çıxır. Görünür, geçə-gündüz öz üzərində çalışır, oxuyur, mütaliə eləyir. Elmi müzakirələrdə fəallaşıb—ağıllı, məntiqli mülahizələr söyləyir. Bu, mənim çox xoşuma gəlir. Bugünkü çıxışı isə—mənim üçün nə qədər ağır olsa da — etiraf etməliyəm ki, çox cəsarətli çıxış idi. — dedi.

— Mən inanmıram ki, Salman kimi bir alim elə çirkin işlər tuta bilsin. Əgər eləyibsə...

— Kaş sən deyən olaydı, Sakit. Mən də inanmaq istəməzdim, heç inanmaq istəməzdim. Ancaq səndən qabaq Gülmirə ilə görüşdüm, söhbət elədim, dedi təəssüf ki, həqiqətdi, Sakit — deyə Nadirə qarşıdan gələn maşınlardan gözünü çəkməyərək qüssəli-qüssəli cavab verdi.

Sonra araya sakitlik çökdü. Sakit bugünkü iclası və indi Nadirə xanımdan eşitdiklərini ürəyində götür-qoy eləyə-eləyə sürəti artırdı. O iclas hazır əsər idi. Qəhrəmanları, problemləri olan bir əsər. Gülmirəni xeyli vaxtdı tanıyırdı — bu sakit, taleyikəm qadının zahirindən, oturuşundan-duruşundan xoşu gəlirdi— ağır idi, şit-şit deyib-gülməyi yox idi; ancaq həmişə qayğılı-kədərli idi ki, bunun da səbəbini yoldaşları ona danışmışdı. Sakit Salmana böyük ehtiram bəsləyirdi və birdən-birə onun haqqında Gülmirənin söylədikləriki eşidəndə çox heyfsləndi. Nadirə xanım düz deyirdi — Sakit fikirləşdi — Gülmirə də, Salman da kağız üzərinə köçürülməli, yazılmalı adamlar idi. Ancaq öyrənmək, hadisələri, əhvalatları dəqiq, təfərrüatı ilə mənimsəmək, özününkü etmək lazımdı. Tələsmək olmaz. Və bunuda fikirləşdi ki, bundan qabaqkı romanı — «Palıd kölgəsi» kitabı çıxanda Sakiti oxucular, tənqidçilər çox tərifləsələr də, öz qəhrəmanları yaman incitmiş-

dilər — məsələ burasında idi ki, onun köhnə direktoru da şöbə müdiri də kitabda özlərini əməlli-başlı tanımış, ancaq üzə vurmamışdılar; gülə-gülə, dostcasına rəftar edə-edə, müdafiə eləməsinə baxmayaraq, düz on bir il baş elmi işçi keçməyə qoymamışdılar. Prezidentə məktubla müraciət etdikdə isə o, ərizəsinin üstünü yazıb direktorun üstünə göndərmişdi. Direktor da, şöbə müdiri də ondan küsmüşdülər. «Sən bizdən şikayət eləyirsən. Biz sənin xətrini çox istəyirik, yazıçı kimi səni çox qiymətləndiririk. Ancaq neynəyək, hələlik maddi imkanımız yoxdur. Olan kimi... — demişdilər, — düzəldəcəyik». Aradan on bir il sovuşmuşdu.

Bəli, Sakiti öz qəhrəmanları belə «sıxışdırmışdılar». Bir də o cür əsər yazmayacağına söz vermişdisə də, təbiəti ilə bacara bilməmişdi — yenə yazırdı. Hərdən deyirdi öz-özünə: «Bunun da ayrı ləzzəti var. Deməк, gülləm hədəfə dəyir, demək, həyatdır yazdıqlarım. Bu mənim ən böyük müukafatımdır». Bu gün bu instituta gəlib düşməyinə yamanca sevinmişdi. Yazmalı, deməli mətləb çox idi. Neçə vaxtdan bəri düşündüyü, qəlbində, ürəyində dolandırığı, üç-dörd ay qabaq qələmə almağa başladığı əsərin yeni-yeni qəhrəmanları, yeni-yeni fəsilləri gözünün qabağında doğulur, yaranır, «gəl məni yaz!» — deyirdi. Daha burada quraşdırmaq, uydurmaq lazım deyildi — bu yüz əlli nəfərlik institutun divarları arasında qaynayan həyat öz gözəlliyi, ziddiyyətləri, ağı-qarası ilə Sakitin fikrini, xəyalını elə cəlb eləmişdi ki, saat beşdə hamı çıxıb gedəndən, institut bağlanandan, o, evinə qayıdandan sonra da, həmin aləmdən, adamlardan ayrıla bilmirdi, ürəyində, düşüncələrində onları öz iş ötağına gətirir, saf-çürük eləyib kağız üzərinə köçürürdü. Elə bayaq Nadirə xanım zəng çalanda da yazı masası arxasında əyləşib Gülmirənin, Salmanın barəsində fikirləşirdi, Mirzə Yanarın yarıda qırılmış həyatı, itib-batmış, onun-bunun adına çap olunmuş əsərləri haqqında fikirləşirdi. Xəyalında, təsəvvüründə çox-çox irəli gedərək bunu da gözünün qabağına gətirirdi ki, «gedər-gəlməzdən» xəstə, qoca, düşgün halda olsa da, sağ-salamat qayıdan bir çoxları kimi, birdən Mirzə Yanar özü də gəlib çıxaydı. Onda nə olardı? Salmanla onun görüşü necə dəhşətli

bir dram ola bilərdi!! Salman öz müəlliminin, dostunun gözünün içinə necə baxardı! Mirzə Yanar Salmana—bu naxələf tələbəsinə, namərd dostuna nələr, nələr deyərdi?! Ya bəlkə heç nə deməzdi, onu mənən öldürmək vicdan əzabı vermək üçün eləcə, gözləri yaşara-yaşara susub durar, «həyatda hər şey olur!» — deyərək çıxıb gedərdi? Nadirənin onu çağırmağına da, o hardasa sevinirdi — indi Salmanı bağda tapacaqlar—şübhəsiz o bağdadı—ya diridi, ya özünü asıb — və Sakit ər-arvadın söhbətinə şahid olacaq, Salmanın gözlərinin içinə baxa biləcək, sözlərini eşidəcək.

— Burdan sağa dön! — deyə Nadirə dilləndi, Sakitin düşüncələrinin düzümü pozuldu, sapı qırıldı. Yolun sağ tərəfində böyük, nəhəng dənizin çalxantısı duyulur, hənirtisi eşidilirdi. Xəzri əsirdi.

Maşın sağa dönüb daş hasarlar arasıyla uzanan qum yola düşdü, ağ darvazanın qabağına dirənib dayandı.

— Bizim bağ budur, — Nadirə tələsik maşından çıxdı. Darvazaya sarı cumdu. Sakit gəldi. Nadirə qoşa lay qapının arasından əlini içəri uzadıb cəftəni çəkdi, kiçik qapı açıldı. Maşın həyətdə yox idi. İşıqlar yanmırdı. Deməк, Salman burda da deyildi. Nadirə elə həyətin ortasında donub qalmışdı. Qaranlıq idi deyə Sakit onun gözlərini, sifətini görə bilmirdi. Ancaq ona gün kimi aydın idi ki, indi Nadirə xanım nə haldadır. Qorxurdu ki, yıxıla birdən. Odur ki, lap yanında durmuşdu, nəfəsinin istisi üzünə vururdu.

Nadirə xanım irəli getmədi, ikinci mərtəbəyə çıxmadı, haraylamadı. Mənasız idi, «Gəlməyib!» —fikri üşütdü onu. «Bəs onda... necə oldu, hara getdi bu kişi!» — sualı ürəyini çəkib üzməyə başladı. Bu zaman Sakit sevincək dilləndi:

— Gəlib! — dedi.

— Hanı? — Nadirə səksəkə ilə ona sarı çevrildi. — Budur, bax — o, yerə əyildi — təzə maşın izidi. Lap təzə. Buradaymış. Yəqin bizdən bir az qabaq çıxıb...

Nadirə də azca əyilib torpağa baxdı — qumun üstündəki təkər izləri aydın seçilirdi.

Nadirə xanım demək olar ki, qaça-qaça daş pillələri yuxarı

çıxdı, həyəcanla:

— Salman! Ay Salman! — deyə çağırdı. Ancaq səsinə cavab verən olmadı: taxta qapının dəstəyindən tutub dartdı, açılmadı. «Yoxdu» — deyə pıçıldadı öz-özünə. Aşağıda dayanmış Sakit də dedi:

— Yoxdu, Nadirə xanım. — Nadirə süst addımlarla pillələri endi, hovuzun qırağına gəldi: ağzı açıq hovuzun suyu qatran kimi qara görünürdü. Nadirə ürəyində min fikir hovuza baxdıqdan sonra evin arxa tərəfinə keçdi və gözlərinə inanmadı. Yanıb öləzimiş tonqal sönmək üzrə idi. «Demək, gəlibmiş. Sakit düz deyir. Ancaq tonqalı niyə qalayıb? Hə, burda nə isə yandırıb.» Qayıtdı, Sakitə də heç nə demədən darvazaya sarı addımladı.

— Gedək. Gəlibmiş, gedib. — deyə Sakit yavaşca dilləndi.

— Hə... — səsini uzada-uzada dilləndi Nadirə.— Gəlibmiş. — Azca sükutdan sonra əlavə elədi: — Gedək. Daha burada durmağın mənası yoxdu.

Sakit geri döndü. Darvazanın ağzında, maşının yanan işıqları altında da təkər izləri görünürdü. Nadirə xanım darvazanı bağlayıb maşına mindi. Qapını elə çırpdı ki, səsinə Sakit də, özü də səksəndi.

...Nadirə xanım içəri girəndə gözlərinə inanmadı. Salman ev paltarındaydı, mətbəxdə stol arxasında əyləşmişdi. Əməlli-başlı süfrə açmışdı, soyuducudan kotleti götürüb qızdırmışdı, səliqə ilə çörək doğramışdı, turşu, göy-göyərti düzmüşdü. Uzunboğaz qrafində qırmızı bağ çaxırı vardı. Qabağındakı tək fujer şərabla dolu idi. İştahla yeyirdi. Nadirəni görən kimi qızarmış sifətini ona tərəf çevirib gülümsər baxışlarını ona zillədi. Nadirə xanım elə qapının ağzındaca, heyrətdən donmuş təki dayanmışdı, deməyə danışmağa sanki sözü yox idi, matı-qutu qurumuşdu. Salman elə arxayın və həvəslə yeyirdi ki, Nadirə aclığını, səhər yediyinin üstündə olduğunu indi xatırladı. Yeməklərə, süfrəyə baxıb udqundu — ağzı sulandı. Aradan keçən bir neçə gərgin və təəccüb doğuran anın içində Nadirə xanım düşündü ki, ilahi, bu, necə insandır? Belə bir sarsıdıcı, dəhşətli hadisədən sonra, özünu

öldürmək əvəzinə, gör nə səliqə ilə süfrə açıb necə də iştahla, acgözlüklə çörək yeyir? Elə bil heç nə olmayıb! Ya o, dəmir iradəli, polad əsəbli insandır, ya da heç ürəyi, vicdanı, heysiyyəti olmayan, adam paltarı keymiş qeyri-adi bir varlıqdır. Gördüyü bu mənzərə Nadirə xanımı elə çaşdırmışdı ki, bayaqdan Salmanı görərkən deyəcəyi ağır, acı sözlərin hamısı yadından çıxmışdı. Bir anlığa ona da elə gəldi ki, doğrudan deyəsən heç nə olmayıb. Yəqin onu qara basırmış. Ah, kaş ki, bütün bunlar yuxu, zarafat olaydı, həqiqət yox. Amma təəssüf ki, yuxu zarafat deyildi.

Salman doğrudan da özünü heç nə baş verməmiş kimi çox sakit aparırdı. Nadirənin böht içində, qapı ağzında, plaşlı-papaqlı donub qaldığını sanki indi görürmüş kimi:

— Qapıda nə durub mat-mat gözlərini döyürsən? Məni görməmisən? Niyə soyunmursan? Acmamısan? — dedi və tikəsini udub əlavə elədi: —Yoxsa... yenə gedəsi yerin var?

Salman bu sözləri elə deyirdi ki, onun etinasızlığı, soyuqqanlığı Nadirəni lap dəhşətə salırdı. Çalıxıb-çapalayırdı içində, bilmirdi neyləsin, nə desin, necə desin!

Yavaş-yavaş gərginlik ötüb keçdi, Nadirənin heyrəti öləzidi və o, nəhayət, yerindən qopub geri döndü, dəhlizdə soyundu. Keçib hamamda əl-üzünü yudu, qurulandı. Acından başının ağrıdığını, ürəyinin bulandığını hiss-eləyib güzgüdə avazımış üzünə, qızarıb şişmiş gözlərinə baxaraq lal-dinməz mətbəxə gəldi. Stul çəkib oturdu.

— Hə, başla, görürəm sən də acsan. Ye! — deyib fujeri götürdü — Bunu içirəm sənin sağlığına, arvad. Bilirəm, qanın qaradı. Gülmirə xanım — səsindəki istehza açıq-aydın hiss olunurdu — sənin də kefinə soğan doğrayıb. Ancaq boş şeylərdi bunlar hamısı, qanını qaraltma. Elm aləmində belə-belə şeylər çox olur. Yel qayadan nə apara bilər? Heç nə. Qaya elə qayadı. O, sinəsini irəli verib fujeri birnəfəsə boşaltdı, bal udmuş adam kimi qalın dodaqlarını marçıldatdı.— Onu kimsə qızışdırıb salıb ortalığa — məni vurmaq, nüfuzdan salmaq istəyirlər. Heyf ki, Gülmirənin əlilə vururlar məni. Hə, nə gözlərini döyürsən, ye də! Dəvə

nalbəndə baxan kimi nə gözlərini zilləmisən mənə? Yoxsa deyilənlərə sən də inanırsan? — Nadirə xanım dişlərini bir-birinə sıxıb:

— Yoxsa... sən elə bilirsən Gülmirənin dedikləri yalandır, Salman? — dedi,

— Ba, əlbəttə, yalandır, Nadirə xanım! Sən guya kosmos-dan-zaddan gəlmisən, heç nədən xəbərin yoxdur?! Deyir Orxanı mən öldürmüşəm! Mən öldürmüşəm Orxanı? Hamı kimi sən də yaxşı bilirsən ki, yox! Füzulinin avtoqrafı məsələsi ağ yalandı — özü yazıb gətirib — əlyazması da məndədi. Gözünə soxacağam. Qaldı ki, Mirzə Yanarın əsəri... o da böhtandır. Mən hələ ağlımı, vicdanımı itirməmişəm, Nadirə! Mirzə Yanarın çörəyini yeyirəm mən. O mənim ustadım olub, dostum olub — bunları kim də bilməsə, sən yaxşı bilirsən. Mən ona xəyanət eləmərəm heç vaxt!!

— Bəs... Gülmirə deyir....

— Gülmirə çox şey deyə bilər. Kimdi onun sözünə inanan? Haqq var, divan var. Yoxlayarlar, baxarlar. Onda kimin haqlı, kimin böhtançı olduğu aydın olar.

— Bəs... Gülmirənin Aslanzadəyə verdiyi o qovluq nəydi elə? Mirzə Yanarın əlyazması deyildi?

Salman çaxır süzüb bir də içdi:

— Ha, ha. Ay sənin canınacan, Nadirə. Dünyaya avam gəldin, avam da gedəcəksən. Ay qız, mən uşağam, nəyəm sənin-çin? Burda bir kamediya olacaq, gəl görəsən. Baxarsan.

— Nə komediya, ay Salman? Bu, faciədi və mənim aləmim-də bundan böyük faciə ola bilməz. Səni ədəbi oğurluqda ittiham edirlər, sən də arsız-arsız gülürsən. Görünür, sən hələ dərk eləmirsən...

— Mən hər şeyi yaxşı dərk eləyirəm. Nadirə. Gülmirənin Aslanzadəyə verdiyi qovluq var ha, o qovluq ki, sənin kürkünə belə birə salıb, o mənim öz qovluğumdu.

— Necə yəni sənin öz qovluğundu?

— Çox sadə. O qovluq mənim «Nəsiminin sənətkarlığı» kitabımın əlyazmasıdı, başa düşdün? Məni çaşdıran bircə məsələdi

— o qovluq Gülmirənin əlinə hardan düşüb? Deyir mənə Orxan verib. Bəs Orxana hardandı bu? Bax, bunu bilmirəm, başımı ha sındırıram, yadıma sala bilmirəm. Sən bilirsən, Orxan mənim məhrəm adamım idi, bizə gəlib-gedərdi. Bəlkə onda götürüb? Niyə götürsün axı? Məqsədi nəymiş? - Görünür, — dərin bir ah çəkdi Salman — məqsədi elə məni rüsvayi-cahan eləmək imiş.

— Axı Gülmirə deyir ki, — bir az bundan qabaq onunla xeyli söhbət eləmişəm — deyir ki, əsər şübhəsiz Mirzə Yanarındı.

— Qələt eləyir Gülmirə.

Salman çox qətiyyətlə danışırdı. Bu qətiyyət eynən Gülmirənin sözlərindəki inama oxşayırdı. Görəsən bunların hansı düz deyirdi? Salmanmı, Gülmirəmi? Nadirə çaşıb qalmışdı. Kaş Salmanın söylədikləri həqiqət olaydı. Yoxsa bu boyda rüsvayçılığa Salman özü dözsə də, Nadirə dözə bilməyəcəkdi.

— De Ceyhun canı, o qovluq sənindi?

— Ba, sən mənə inanmırsan? Ceyhun canı, sənin əziz canın üçün Aslanzadədəki mənim öz əlyazmamdı. Sən nə danışırsan, Nadirə. Ürəyini buz kimi elə. Ancaq bu barədə heç kəsə heç nə demə. Eşitdin? Mən onların anasını ağlatmasam, onda Salman deyiləm. — O, qrafindən yenə şərab süzdü — Tak çto, quzu bala, belə şeylərdən sarı əhvalını qətiyyən pozma. Çörəyini ye. Ceyhun gəlməyib hələ?

«Heç xəbəri yoxdu ki, Ceyhun o biri otaqda, lül-qənbər yatır» — deyə düşünən Nadirə xanım:

— Ceyhun içib gəlib. Yatır. Dünyadan xəbəri yoxdur — dedi ürəyi ağrıya-ağrıya.

— İçib? Hə. Onda çağır gəlsin bura, bir az da atasıyla vursun.

— Sən nə danışırsan, Salman? — Nadirə çımxırdı — elə bir o qalmışdı ki, səninlə də içsin.

— Kişi içər də. Neyçün əsəbiləşirsən?

— Əsəbiləşərəm də. Hansı günümə sevinməliyəm? Sənin haqqında ağızlarına gələni danışırlar — bu bir dərd. Oğul gözümün qabağında pozulur — bu da bir dərd. Daha nə istəyirsən?

Daha nə olsun deyirsən, Salman?!

— Heç nə! Heç nə, Nadirə! Mən bu gün möhkəm içmək, axmaq adamları, mənasız dünyanı unutmaq istəyirəm, vəssalam. Başqa heç nə istəmirəm, — dedi və növbəti fujeri də başına çəkdi.

Nadirə bayaq nəsə danışan Salmanın sözlərinin içində ancaq bu son cümlələri yaxşı başa düşdü — ona elə gəldi ki, Salmanın dediklərinin içində ancaq bu sözlər səmimi idi, ürəyi vardı bu kəlmələrdə. Və yalnız indi ona yazığı gəldi Nadirə xanımın. Başa düşdü ki, özünü o yerə qoymasa da, laqeyd və biganə kimi göstərməyə çalışsa da, sarsılıb, üzə vurmur, içəridən çəkir. «Öyrədiblər» — deyir. Kimdi Gülmirəni öyrədib qızışdıran? Gülmirə yəni elə ağılsız idimi ki, onun-bunun sözüylə qollarını çırmalayıb ortalığa düşsün, Salmanı — həmişə xeyirxahı olmuş bir kişinin qəsdinə dursun, ürəyini partlatmaq istəsin?! Axı kimdən şübhələnir Salman?! Bax, gör nə qədər içib, aman allah! Bir qrafini boşaldıb! O, heç vaxt belə içməmişdi. Yəqin dərddən içir!» — Nadirə xanımın əsəbləri boşaldı, səhərdən boğazını tutub sıxan qəhər əridi, Salmana bəslədiyi qəzəb harasa uçub getdi. Heç nə deməməyi, danlamamağı qərara aldı. Onsuz da nə verəcəkdi bu, ona? Nəyi dəyişəcəkdi? Salman necəydisə elə də qalacaqdı — onu sözlə, şirin dillə dəyişmək mümkün idimi? Salman ipə-sapa yatan olsaydı, bu otuz il ərzində dəyişərdi. Nadirə xanımın taleyinə yazılan Salman belə Salman idi!!

Nadirə xanım əlini tikəyə uzatdı — yeməyə başladı. Az sonra gözünə işıq gəldi, başağrısı yox oldu. Kefi xeyli duruldu.

— Az iç, daha bəsdi, — deyərək qrafini ərinin qabağından götürüb kənara qoymaq istəyəndə Salman əlindən aldı.

— Bu gün mənimlə işin olmasın, arvad. Bu gün xətrimə dəymə, Nadirə! Məxsusi bunun üçün bağa getmişəm.

— Bilirəm. Mən də getmişdim dalınca.

— Sən? Haçan? — Salman səksənən kimi oldu.

— Elə indi ordan gəlirik.

— Gəlirik deyəndə kimnən getmişdin ki?

— Sakitlə. Gördüm yoxsan. Nigaran qaldım. Xahiş elədim

məni bağa apardı Sakit. Gördüm yoxsan bağda da. Evin dalına baxanda-gördüm ocaq qalayıbsan, tonqal çatıbsan. — Bu sözləri deyəndə Nadirə sınayıcı nəzərlərlə Salmanın düz gözlərinin içinə baxdı. Salman çaşan kimi oldu.

— Tonqal? Nə tonqal? Hə, hə. — Bir az duruxdu.— Birdən-birə yaman üşüdüm, Nadirə. Gördüm ev buz kimidi, o qızanacan mən donacağam. Yandırdım tonqalı, çır-çırpını, meynə çubuqlarını bir yerə yığıb yandırdım. Elə ləzzət elədi ki.

— Tək çır-çırpı yandırdın orda?

— Nə?

— Sənə nə olub? Pis eşidirsən? Deyirəm tək çır-çırpı yandırdın orda?

— Hə. Başqa nə yandıracaqdım ki?

Nadirə qəribə bir rişxəndlə gülümsündü və bunu Salman tutdu.

— Axı nə yandıra bilərdim ey?

— Heç. Deyirəm birdən vicdanını da yandırarsan o tonqalda.

— Əh. Mən də deyirəm görəsən bu nə deyir. — O, ayağa qalxdı, gəzinməyə başladı — Vicdan odda yanmaz, Nadirə. — Sonra pəncərənin qabağına gəlib qaranlıq həyətə baxa-baxa düşündü: «Mən vicdanımı çoxdan yandırmışam, Nadirə. Bunu sən bilmirsən, heç vaxt da bilməyəcəksən.» Ah çəkdi, qayıdıb təzədən öz yerində oturdu, öz təbiətinə uyğun olaraq Nadirəyə əks-hücuma keçmək məqsədilə içkidən şişib ağırlaşmış göz qapaqlarını qaldırıb:

— Sən Sakitlə bağa nahaq getmisən, Nadirə. — dedi. — Sakitə mənim böyük hörmətim var, ancaq indi mən daha heç kəsə etibar eləmirəm, Nadirə, mən bilmirəm ki, Sakit də, o biri nəmək-bəharam, namərd dostlarım kimi nə vaxt, necə bıçağı kürəyimə saplayacaq. Sən ki öz qulağınla eşitdin, Gülmirə avtoqraf məsələsini deyəndə, yerindən necə də qəzəblə: «Bu ki vicdansızlıqdı» — söylədi Sakit. Özü də bərkdən dedi, hamı eşitsin deyə. Sən hələ bilmirsən həqiqəti, kimin haqlı, kimin haqsız olduğunu bilmirsən,

yoldaş Sakit. Bəs niyə hökm verirsən? Bəs bu özü vicdansızlıq deyil? Gördün, İltifat da ağzına su alıb susdu, bir kəlmə demədi? Az yaxşılıq eləmişəm? Eh, Gülmirə — öz dostumun qızı, əlindən tutub bu instituta gətirdiyim, müdafiəsini təşkil elədiyim Gülmirə belə nəməkbəharamlıq, namərdlik eləyəndən sonra, nə İltifatdan, nə Sakitdən, nə də başqa birisindən heç nə ummağa haqqım yoxdu mənim, Nadirə. Bunu yadında saxla ki, indi heç kəsdə kişilik, dəyanət qalmayıb. Elə üzünü yana çevirməyini görürsən — vururlar. Vəzifədən düşdün—vururlar, bu, dəhşətdi. Kimsə yaxşı deyib ki, «yaxşı kişilər yaxşı atlara minib getdilər», Nadirə. Qalanlar zir-zibil, tör-töküntüdü.

— Sən nahaq hamının haqqında elə düşünürsən, Salman. Mirzə Yanar, Orxan pis kişi idimi məgər? Sakit pis kişidi məgər?

— Orxan — Salman piyalənin yarısını boşaltdı —yaxşı ata minib gedən kişilərdən idi. «Goru çatlasın — dedi ürəyində — odur məni bu hala salan. Ölüb gedəndən sonra da yaxamdan əl çəkmir. Gecələr yuxularımı mənə haram eləyib». — Sonra ucadan davam etdi. — Sakit də yazandı. Səhər bir də gördün bəzəyib-düzədi səni, məni. Gördün o kitabında necə yazmışdı? Adamların adını dəyiş-mişdi, vəssalam. Oxuyan kimi bilirdin ki, bu kimdi, o kimdi! Ona görə də o institutdan mitilini atdılar bayıra. İndi gəlib bura. Xımır-xımır yazır. Ona qətiyyən material vermək lazım deyil.

— Mən onun yaradıcılığına böyük hörmət bəsləyirəm — həqiqətin, həyatın özünü yazır. İnsan kimi də alicənab və xeyir-xahdır, Salman.

— Hər halda, mən sənə yenə deyirəm, onunla bağa getmək-də səhv eləmisən, Nadirə. Birdə belə şey eləmə.

— Gərək sən gedəndə mənə deyəydin. Mən nigaran qal-mışdım axı, Salman. Ürəyimə gəldi ki...

— Hə, ürəyinə gəldi ki, yəqin Salman getdi bağa, özünü öldürməyə, hə. Yox, düzünü de, belə fikirləşdin, hə?! Hm. Sən onda məni tanımırmışsan, Nadirə! Mənə Salman, Qurbanzadə deyərlər — hər uşaq-muşaq mənim arxamı yerə qoysaydı, onda mən mən olmazdım.

Salman çox içmişdi. Ancaq kefləndiyi qətiyyən hiss olunmurdu. Nə mühakiməsi, nə xasiyyəti dəyişmişdi. Elə bil şərab yox, su içirdi.

— Sən heç nəyin fikrini eləmə, Nadirə. Hər şeyi burax zamanın ixtiyarına — zaman ən müdrik kişidir. Vaxtı gələndə hər şeyi özü elə yerbəyer eləyir ki, heyran qalırsan. Nə mənim dərdimi çək, nə Ceyhunun. Alimi tənqid eləyərlər, vurarlar, gərək dözəsən. Oğul içər—qoy içsin Ceyhun. O mənim oğlumdursa, heç qorxub-eləmə; başını saxlayacaq, Nadirə! Sən alim də olsan, arvadsan. Arvadlar həmişə belə olublar, belə də olacaqlar. Arvad dahi də olsa, yenə arvaddı. Siz həyatı tam mənasıyla başa düşmürsünüz. Siz həyatın bir üzünü görürsünüz o biri üzündən xəbəriniz yoxdur. Ona görə, ərlərinizin, oğul-uşaqlarınızın iki ayağını bir başmağa tıxayıb özünüz istəyən kimi yaşamağa məcbur edirsiniz. Elə yaşamayanda, sizin ürəyinizcə ola bilməyəndə bunu faciə hesab edirsiniz. Qocalırsınız, dəli olursunuz, infarkt olursunuz. Amma lazım deyil, Nadirə, Salmanın ölmüşünə, vallah-billah, lazım deyil. O şey ki olacaq — sənin iradəndən asılı olmayaraq — baş verəcək. Buna sənin heç şübhən olmasın. Ona görə ye, kefini çək; beşgünlük dünyanı kişi kimi yaşamaq lazımdır.

Nadirə xanım başa düşdü ki, artıq Salman keflənməyə başlayıb. İndi filosofluq eləyəcək, nəsihət verəcək, özünün həyat «hikmətini» qiymətli boxça kimi açıb tökəcək ortalığa. Daha bundan o yana Salmanla söz güləşdirməyi yersiz-məqamsız sayıb ürəyindəkilərin heç birini dilinə gətirə bilmədiyinə dərindən təəssüflənərək mənalı-mənalı:

— Hə, düz deyirsən, dünyanı kişi kimi yaşamaq gərəkdi,— söylədi və sinəsində dərdli bir ürək qalxıb-yataq otağına keçdi. Elə yorğun, əzgin və süst idi ki, düşünmədən, fikirləşmədən, eləcə pallı-paltarlı, üzüqoylu yorğan-döşəyin üstünə yıxılıb yatmaq ən böyük istəyi idi. Ancaq o ürək ki, Nadirə xanımda vardı, gözünə çətin yuxu gedəcəkdi.

## ALTINCI FƏSİL

Səhəri gün, dünənki qeyri-adi iclasın doğurduğu çaxnaşma və təəssürat öləziyib səngiməmiş, hamını nigaran qoyan Gülmirənin çıxışının nəticələri aydınlaşıb durulmamış, institut divarları arasında başqa maraqlı, söz-söhbətə səbəb olan bir xəbər gəzib dolaşmağa başladı; dünən prezidentin prizidiumda geniş, ətraflı məruzəsindən və təklifindən sonra, akademik Aslanzadəni direktor vəzifəsindən azad etmiş, yerinə isə elə institutun öz əməkdaşı, şöbə müdiri, akademik Nurəddin Osmanzadəni qoymuşdular. Prezidiumun gedişinin təfsilatından institut işçilərinin heç birinin tutarlı, dəqiq məlumatı yox idi, təkcə xəbər özü gəlib çatmışdı və camaat arasında möhkəm pıçhapıça səbəb olmuşdu. Akademik Aslanzadə üzdə olan, sayılıb seçilən, bir neçə xarici ölkə Akademiyalarının fəxri üzvü intixab edilən nüfuzlu alim olmaqdan əlavə, institut kollektivinin də dərin hörmətini qazanmış ağıllı, tədbirli direktor kimi də tanınmış və sevilmişdi. Direktor işlədiyi on il ərzində də akademik Aslanzadə laborantdan tutmuş akademikinə qədər bir kimsənin xətrinə dəyməmiş, günahkar olanın üstünə belə səsini ucaltmamış, hamını — cavanı da, qocanı da şirin dillə dindirib işlətmiş, elə şərait yaratmışdı ki, burada çalışan alimlər instituta öz evi kimi, öz ailəsi kimi baxmış, gecəni gündüzə qatıb yazıb-yaradaraq Bakıda, Moskvada və xarici ölkələrdə çap etdirdikləri əsərlər, kitablar ictimai elmlər sahəsində nüfuzlu və mötəbər yer tutmuşdular. Əvvəllər, təzə yaranan vaxtı cəmicümlətanı iki-üç şöbədən ibarət olan institut, onun səyi, tələbi sayəsində xeyli böyümüş, kollektivi otuz nəfərdən artıb yüz əlli üç nəfərə çatmışdı. Ali məktəb bitirib təyinatını bura almış cavanlar, uzaq başı üç-dörd ilə müdafiə eləyir, elm aləmində öz sözünü deməyə başlayırdılar. Bu cavanlardan kimi dindirsəydin, Aslanzadənin atalıq qayğısından, mehribanlığından və qərəzsiz tələbkarlığından ağızdolusu danışardı. Elmlər namizədləri isə tez bir zamanda doktor olurdular. Elə indi onun yerinə təyin olunmuş Nurəddin Osmanzadə də Aslanzadənin köməyi və qayğısı nəti-

cəsinə demək olar ki, çox sürətlə elmlər doktoru, sonra müxbir üzv, iki il keçəndən sonra isə akademik olmuşdu.

Akademiyanın rəhbərliyi, şöbələrin əməkdaşları — böyükdən-kiçiyə ondan hədsiz dərəcədə razı idi. Hamıya elə gəlirdi ki, daha bundan yaxşı işləmək olmaz, o, ölənəcən bu institutun direktoru olacaq və dünyadan köçəndə isə böyük və tarixi şəxsiyyət kimi, yaranmasında, təkmilləşməsində, tanınmasında misilsiz xidmətləri olan Aslanzadənin adını bu instituta verəcəklər — çünki doğrudan da o, bu elm ocağı üçün can qoymuşdu, ömür çürütmüşdü. Saçlarını elm yolunda ağartmış, gözlərinin nurunu qədim və qiymətli əlyazmaları üzərində əritmiş, neçə-neçə sanballı əsərin müəllifi, neçə-neçə sanballı alimin ustadı olmuş akademik Aslanzadə görəsən niyə birdən-birə direktorluğa yaramamışdı? Bu sual bu gün hamını düşündürürdü — fikirlər haçalanırdı; kimi deyirdi prezndentlə arası dəyib — çünki onun qardaşı qızını işə götürməyib, daha doğrusu, şəxsi söhbətində başa düşüb ki, qız çox savadsızdır, bura qəbul eləsə, ancaq boş yer tutacaq, ondan alim olan deyil — buna görə də «mənim prezidentə çox böyük hörmətim var, ancaq səni qəbul edə bilmərəm — bu institut mənim atamın institutu deyil, dövlətindi, xalqındı, qızım. Onları isə aldatmağa nə prezidentin, nə mənim haqqım var! Bizim tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı bilməyənin burda işləməyə mənəvi ixtiyarı yoxdur!» — demiş və geri qaytarmışdı. Kimi deyirdi ki, yox, prezidium iclasında Aslanzadə prezidentin üzünə qabarıb; baş elmi işçilər konkursdan keçəndə guya prezident onlara qəribə-qəribə suallar verirmiş; məsələn, tarixçilərdən birinə deyib ki, «sən hansı musiqi alətində çala bilirsən?» Bir dilçiyə deyib: «Sən oxumaq bilirsən? Qarabağlılar hamısı oxuyan olurlar?» Başqa kimə isə söyləyib: «Sən rəqs etmək bacarırsan?» ...hamısı «yox!» — deyə cavab vermiş, bu zaman prezident hirslənib: «Bəs siz necə azərbaycanlısınız? Nə oxuya bilirsiniz, nə oynaya bilirsiniz, nə çala bilirsiniz!» — söyləmişdi. Onda akademik Aslanzadə, prezidentdə çoxdan müşahidə elədiyi bu «adətə» daha tab gətirməyərək ayağa qalxmış, «mən üzr istəyirəm, yoldaş

prezident, bura akademiyadır, filarmoniya deyil, biz konkursdan alim keçiririk, artist, aktyor yox. Belə suallar bizim bu alimanə məclisimizdə çox gülünc görünür. Bir də azərbaycanlılıq təkcə oxuyub-oynamaqla müəyyən olunmur məncə. Həm də bu cavan alimlər çalıb-oynamaq bilsələr də, durub bu qədər alimin-ağsaqqalın qabağında çalıb-çağırası deyillər ki? Siz onlara işlədiyi, tədqiq elədiyi sahələrə aid suallar versəniz daha yaxşı olmazmı?» — demişdi. Aslanzadədən gözləmədiyi bu hərəkətdən yamanca pərt olmuş prezident, deyirlər, bütün iclas boyu onun üzünə də baxmamışdı.

Bir ayrısı isə bu «fərziyyələrə» etirazını bildirib başqa cür izah edirdi:

— Yox, canım. Siz uşaq deyilsiz ki, belə nağıllara inanırsınız? Torbada pişik var, canım! Əsl həqiqət budur ki, prezident yaman qohumcanlıdı. Hərə bir şeyin bazı olan kimi, bizim prezident də qohumbazdı, bala. Məsələ belədir ki, Aslanzadənin işə qəbul eləmədiyi həmin gülməşəkər bacısı qızı bu yaxında akademik Nurəddin Osmanzadənin qardaşının böyük oğluna nişanlanıb. İndi bildiz su hayandan, hansı arxdan dolanıb gəlir?

Əlbəttə, bunlar ola da bilərdi, olmaya da bilərdi; camaatın ağzında gəzən söz-söhbət beləydi. Amma ağıl və məntiqlə fikirləşənlərin fikrincə bu, həqiqətə oxşamırdı. Çünki adam inanmaq istəmirdi ki, bacıqızını işə götürməmək, yaxud kiçik bir irad üstündə prezident Aslanzadə kimi bir alimi vəzifəsindən azad eləsin, direktorluqdan çıxarıb əvvəllər də ictimai əsaslarla idarə elədiyi şöbənin pullu müdiri qoysun və ya bacısı qızının Nurəddin Osmanzadənin qardaşı oğluna nişanlandığını nəzərə alıb onu o boyda instituta direktor təyin elətdirsin! Belə çıxır ki, prezident cılız və xırda hisslərlə yaşayan bir alimdi? Yox, buna inanmaq istəməyənlər çox idi.

Bu xəbəri eşidənlər istər-istəməz Aslanzadə ilə çoxdan tanıdıqları təzə direktoru müqayisə etməyə başlamışdılar. Hamının fikri bu nöqtədə birləşirdi ki, hər adamdan, hər alimdən direktor çıxmaz. Ola bilər biri yaxşı alimdi, amma pis inzibatçıdı; direktor

gərək işlədiyi sahəni yaxşı bilməkdən əlavə, yaxşı, obyektiv, qayğıkeş insan da olsun — bir sözlə, kollektiv atası olmağı bacarsın, idarəni öz evi, kollektivin üzvlərini öz ailə üzvləri saysın, hamını başa düşsün və dərdinə-sərinə qalsın, ancaq belə halda onun rəhbərliyi səmərə verə bilər. Və şübhəsiz, hər hansı bir şəxsi rəhbər vəzifəyə irəli çəkməyə səlahiyyəti olan və məsuliyyət daşıyan adamlar ilk növbədə bu məziyyətləri nəzərdə tutmalıydı və buna kimsə şübhə eləmirdi.

Lakin akademik Nurəddin Osmanzadənin adı ortalığa gələndə kollektivin fikri haçalanmışdı.

Dünənə qədər o, adi şöbə müdiriydi və hamı elə bilirdi ki, neçə illər bir yerdə işlədiyi bu ucaboylu, yaşının altmışı haqlamasına baxmayaraq, saçlarına hələ də dən düşməmiş, şax yerişli, uzunsifət və sallaqdodaq adamı yaxşı tanıyır. Səhərdən axşamacan yanında olan, əşya və insan adiləşdiyi kimi, o da hamının gözündə adiləşmişdi. Camaatla qaynayıb-qarışmışdı, öz şöbəsinin əməkdaşları ilə, başqa şöbələrdən olan yoldaşlarla tənəffüs vaxtları, kefi gələndə isə, nahar fasiləsindən qabaq da, sonra da nərd oynamağı sevirdi. Nizam-intizamın ona dəxli yox idi elə bil. Akademik Aslanzadənin hüsn-rəğbətindən sui-istifadə edib işə ürəyi istəyəndə gəlib gedən Nurəddin Osmanzadəni bir dəfə direktor nahardan qabaq oturub nərd oynayan görəndə yarızarafat-yarıciddi demişdi:

— İş vaxtı nərd oynamağı yığışdırın, Nurəddin. Cavanlar da sizə baxır... Oturun əsərinizi yazın... Nurəddin nərdi qatlayıb ayağa durmaq əvəzinə:

— Biz alimik, yoldaş Aslanzadə, stanok dalında duran, konveyer üsulu ilə işləyən fəhlə deyilik, — söyləmişdi. — Burada heç kəs elmi əsər yazmır. On adam bir otaqda nə yaza bilər?! Siz hansı əsərinizi idarədə yazmısınız? Heç birini. Alimdən sən planını tələb elə, vassalam. Nə vaxt gəldi, nə vaxt getdi, bununla işin olmasın. Məsələn, mən evdə səhər saat üçəcən oyaq qalmışam, yazıb pozmuşam. Yəni deyirsiniz indi mən saat doqquzda durub qaça-qaça bura gəlim? Niyə? Stanok gözləyir? Konveyer

gözləyir?

Aslanzadənin sözlərinə əhəmiyyət verməyərək zəri təzədən atmış, «şeş qoşa» deyib oynamağına davam eləyəndə direktor incik halda çıxıb getmişdi və o vaxtdan Nurəddin Osmanzadəyə heç nə deməməyi qərar almışdı. Aslanzadə belə qənaətə gəlmişdi ki, onu danışdırmasan, dindirməsən, daha yaxşıdı. Ölçüb-biçmədən söz demək, kiminsə xatirinə dəyməkdən ehtiyat etməmək Nurəddin Osmanzadənin Aslanzadəyə çoxdan məlum olan xasiyyəti idi. Nurəddinin dəftərində böyük-kiçik yeri bilmək sözləri yazılmamışdı. Aslan onu qınamırdı, incimirdi ondan. Çünki Nurəddinin ilk gənclik illəri gözünün qabağında keçmişdi. Onda Aslan Gəncədən təzə gəlmişdi, «Sovet» küçəsində kirayənişin qalırdı. Tezdən işə gedəndə — onda pedaqoji institutda dərs deyirdi — axşamlar evə dönəndə məhəllə cavanlarının bir tinə yığışıb söhbət elədiklərini, top-top oynadıqlarını görürdü: onların arasında ucaboylu, qonurgöz bir oğlan da vardı ki, qonşulardan eşitdiyinə görə, adı Nurəddin idi və bu oğlan həmin dəstənin «atamanı» sayılırdı. O, yoldaşlarının hamısından güclü və canlı olduğuna görə, uşaqların gözünün odunu almışdı. «İpə-sapa» yatmayan hər kəsi o, çox asanlıqla əzişdirib «muma» döndərirdi. Heç kəs onun bir sözünü iki eləyə bilmirdi və bu, təbiətən qəddar uşaq olan Nurəddinə əvəzsiz bir həzz verirdi. Onda hələ müharibə başlamamışdı, dünyanın düz vaxtıydı və dünyanın bu düz vaxtında burada bu məhəllədə kiçik bir dəstə var idi və bu dəstənin «qazanı örtülü qaynayırdı». Məsələ bunda idi ki, o dəstənin beş-on nəfər üzvü lovğa, özündən deyən, insafsız və vicdansız Nurəddinin əlindən cəzana gəlmişdi; onların arasında söyülüb-döyülməmiş, təhqir olunmamış bir adam qalmışdısa, o da Nurəddinin özü idi.

Qırx birinci ildə, müharibə başlanmazdan azca əvvəl, məhəllədə, həmin kiçik dəstənin içində gözlənilməz bir «müharibə» başladı: müharibə deyəndə ki, o yeniyetmələrin hamısı, Nurəddinin onlara elədiyi «zülmə» daha dözməyərək sözü bir yerə qoyub onu yaxşıca əzişdirmişdi və hətta onların ən çəlimsizi, tez-tez anası söyülən Səlim adlı oğlan, kininin, qəzəbinin çoxluğun-

dan, özünü saxlaya bilməyib Nurəddinin başını daşla vurub yarmışdı. Uşaqların bununla da ürəyi soyumamışdı, onun şalvarını, köynəyini çıxarıb parça-parça eləmiş, alt tuman-köynəkdə, qaranlıq dalanda al qanın içində tək qoyub qaçmışdılar. Nurəddin xəstəxanaya düşmüşdü, yanına gələn anasına, qardaşına heç kəsin adını verməmişdi, ürəyində: «Onlarla özüm haqq-hesab çəkəcəyəm» — demişdi. Xəstəxanada iki aydan çox yatmışdı: deyilənə görə, beyni tərpənibmiş. Bu arada müharibə başlamışdı, Nurəddin xəstəxanadan çıxıb evə dönəndə məhəllədəki cavanlardan heç birini görə bilməmişdi: hamısı cəbhəyə getmişdi. Onu əsgər aparmamışdılar — çünki əsəbləri pozulmuşdu, ürəkgetməsi tapmışdı. Həftədə iki-üç dəfə yanından yel keçən kimi, xətrinə bir söz dəyəndə tir-tap yıxılırdı, ağzı köpüklənirdi, kiminsə qarasınca yamanca söyürdü. Beş-on dəqiqədən sonra özünə gəlir, durub üst-başının tozunu çırpa-çırpa gedirdi. Bu, anasına böyük dərd olmuşdu, arvad yanıb-yaxılırdı, xəcalət çəkirdi: «Kaş balam salamat olaydı, xalqın uşaqları kimi çıxıb gedəydi fronta. Allah balamı şikəst eləyənin (daha o bilmirdi ki, oğlu çürük ürəyinin qurbanı olub) çırağını söndürsün, necə ki, söndürdü, hamısını qızıl güllə qabağına göndərdilər. Meyitləri gəlsin, qara kağızları gəlsin görüm.»

Və çox qəribə idi ki, həmin məhəllə uşaqlarının hər il ikisinin, üçünün qara kağızı gəlirdi. İçi-içalatı, ürəyi intiqam hissilə yanıb-pörşələnən Nurəddin, keçmiş «dostlarının» ölüm-itim xəbəri gəldikcə ilan kimi qıvrılırdı: «Hayıf, öldün, canını qurtardın, yoxsa səni özüm öldürəcəkdim, küçük.» — deyirdi.

Müharibədən sonra Nurəddin universitetə girmişdi, yarızarafat-yarıgerçək oranı bitirmişdi: xəstəliyi tamam keçməmişdi, ona görə müəllimlərin, tələbələrin yazığı gələ-gələ birtəhər beş ili başa vurmuşdu. Kimi demişdi: «Xəstə adamdı, baş qoşmayın». Kimi demişdi: «Dəlidi, fikir verməyin.»

Qurtarandan sonra o, Akademiyaya gəldi, çünki onu dərs deməyə, sinfə buraxmaq olmazdı. «Yenə elmi iş yaxşıdı, qələmdi, kağızdı, kitabdı — o, bunlarla da durub dava eləməyəcəkdi ki,

söyməyəcəkdi ki?» — deyə düşünən anasının çox xahiş-minnətindən sonra onu elmi-tədqiqat institutuna götürmüşdülər. Və beləliklə, o, elm yoluna düşmüşdü.

Anası oğlunun xasiyyətinin, mərəzinin bəlkə evlənəndən sonra dəyişəcəyini fikirləşib, bənna ərindən qalan bir-iki qiymətli üzüyü, sırğanı satıb onu evləndirmişdi. Özünün uzaq qohumunun qızı olan çox ağıllı, mehriban gəlindən — Samirədən xahiş eləmişdi ki, onu incitməsin, nə desə, «bəli», «baş üstə» desin, çünki «uşaq bir az əsəbidi». Sara xanımın və Nurəddinin özünün bəxtindən gəlin əsil insan çıxmışdı, «qızıl parçası çıxmışdı» — Nurəddinin bir sözünü iki eləməmişdi — əsəbiləşəndə, coşanda, hər şeyi unudanda Samirə xanım kəlmə belə kəsməmiş, qaş-qabağını sallayıb üz-gözünü turşutmamışdı. Sara xanıma iki qəşəng, ağıllı nəvə bəxş eləmişdi. Arvad nəvələrini sevə-sevə böyütmüş, sağlamlıqlarını həmişə nəzarət altında saxlamış, onlarda heç bir «əsəbilik» əlaməti görməyərək özünü çox xoşbəxt hiss eləmişdi. Evlənəndən, oğul-uşaq atası olandan sonra xeyli sakitləşmişdi, ancaq tamam sağalmamışdı. Bütün bunları — Nurəddinin tərcümeyi-halının bu tərəfini akademik Aslanzadə bilirdi — o biri tərəfini isə ona, nə zamansa universitetdə sevimli tələbəsi olmuş Samirə xanım uzun illərin ayrılığından sonra rast gələndə öz müəlliminə ağlaya-ağlaya danışmışdı. «Mənim həyatım heç oldu, müəllim». «Ağlama, qızım». «Yox, ağlamıram. Özü yıxılan ağlamaz, müəllim. Oturub balalarımı böyüdürəm. Bədbəxt idi, məni də bədbəxt elədi»....Buna görə institutda Nurəddin Osmanzadəni Aslanzadə kimi yaxşı tanıyan və dərdini bilən yox idi. Elmi fəaliyyəti gözünün qabağında keçmişdi. Həyatının o biri tərəfini də Samirə nağıl eləmişdi. Onunçun da Aslanzadə ona xüsusi hörmət göstərir, şöbə müdiri kimi nə tələb eləyirdisə verir, ən zəruri hallarda yanına çağırıb bu və ya digər məsələni çox mülayimliklə nəzərinə çatdırırdı. İki il qabaq o, akademik seçiləndə isə «bu institutda sizdən sonra yeganə akademik mənəm, mən on üç nəfər adamın içində oturub işləyəsi deyiləm ki? Mənə ayrıca bir kabinet verin!» — deyəndə Aslanzadə, otaqların çatışmamasına,

hər şöbədə on, on beş elmi işçinin əyləşməsinə baxmayaraq, ona ayrıca bir kabinet vermişdi. Ayrılan otağa baxıb: «Bu nədi, uçub tökülür divarları, parket gör nə gündədi, qapılar laxlayıb cırıldayır. Remont olunmalıdı bura — mənim yanıma xaricdən-daxildən alimlər gəlir. Ayıb deyilmi?» — deyə cavab qaytarandan üç gün sonra Aslanzadə həmin otağın təmirinə başlanması üçün Akademiyanın tikinti-təmir işlərinin müdirinə məktub yazmışdı. İki aydan sonra otaq tanınmaz olmuşdu — mebeli təzə, parket təzə, meşin qapı təzə, divarlar adamın üzünə gülürdü... Şöbəsinin işçiləri qonşu otaqda otururdu. Onlardan təkcə oğluna icazə vermişdi ki, özü burada olmayanda gəlib otursun, işləsin.

Bəli, Nurəddin Osmanzadəni Aslanzadə yaxşı tanıyırdı və elə məhz buna görə də, dünən prezidiumun iclasında onun direktorluğu məsələsi ortalığa gələndə, prezident Nurəddin haqqında, onun böyük alim olması barədə danışıb öz təklifini irəli sürəndə Aslanzadə, vəzifədən götürüldüyünə zərrəcə peşmanlığını bildirməyərək ayağa qalxmış və demişdi:

— Xahiş edirəm, məni düzgün başa düşəsiniz, yoldaşlar. Ürəyinizə gələ bilər ki, mən bu sözləri hansı bir pis niyyətləsə söyləyirəm. Yox. Mən kommunistəm, məni hara göndərsəniz orada da işləməliyəm. Açığını deyim ki, yaxşı eləyib məni çıxartdınız. Yorulmuşam, yoldaşlar. Həm də yaş daha o yaş deyil. Ömür-gün gedib. İş isə qurtarmır. Planlarım çox, qalan vaxtım isə azdır, çox azdır. Məni bu çətin və məsuliyyətli işdən azad elədiyiniz üçün sizə təşəkkür eləyirəm. Ancaq mən məsələnin o biri tərəfi üzərində dayanmaq istərdim. Hörmətli prezidentimiz buyurur ki, Nurəddin Osmanzadə böyük və məşhur alimdir. Buna heç kəsin sözü yoxdur. O bizim tariximiz üçün, mədəniyyətimiz üçün əhəmiyyətli əsərlər yazıb, qədim və orta şərq mənbələrimizi ortalığa çıxarıb. Bakıda, Moskvada tərcümə və nəşr etdirib. Qoy akademik Nurəddin Osmanzadə, mənim həmkarım məndən inciməsin, o yaxşı alimdi, ancaq ondan direktor ola bilməz, yoldaşlar. O özü gərək bu məsuliyyətin altına girməsin, çünki direktorluq təmkin, səbir tələb eləyən bir işdir. Bu təmkin, bu səbir isə

Nurəddin Osmanzadə yoldaşda yoxdur.

Arxa cərgədə əyləşmiş Nurəddin Osmanzadə bu sözü eşidən kimi icazəsiz-filansız yerindən qalxıb:

— Sən köhnənin demoqoqusan, Aslanzadə! — demişdi. Aslanzadə ani tərəddüddən — bu gözlənilməz təhqirdən özünə gələndən sonra yenə özünəməxsus təmkinlə:

— Buyurun, yoldaş prezident. — söyləmişdi — Məncə başqa dəlil-zad lazım deyil sizə. Öz qabiliyyətini yerində göstərdi. — Azca susub əlavə eləmişdi. — Mən yenə bir kommunist kimi onun bizim institut kimi mürəkkəb və böyük kollektivi olan bir elmi müəssisəni idarə edəcəyinə şübhə ilə yanaşıram və buna qəti etirazımı bildirirəm. O, direktor olsa, sizin də başınız ağrıyacaq, institut əməkdaşlarının da.

Aslanzadə sözünü deyib oturmuşdu — deməsəydi, vicdanı ağrıyacaqdı. Ancaq prezident tamam ayrı hava çalmışdı:

— Siz, bilmirəm haçan bu müsəlman təfəkküründən əl çəkəcəksiniz, haçanacan cılız hisslərlə yaşayacaqsınız — deyəndə, Aslanzadə onun hansı istiqamət götürdüyünü hiss edib artıq-əskik söz eşitməsin deyə iclası sakitcə tərk eləmişdi. Axşam vitse-prezidentə zəng çalıb öyrənmişdi ki, akademik Nurəddin Osmanzadəni instituta direktor təyin ediblər. Gecəni çox pis yatdığından idarəyə də vaxtında gələ bilməmişdi. Sonra aydın olmuşdu ki, qan təzyiqi qalxıb. Həkim onun üç gün evdən çıxmasına icazə verməmişdi. Təzə direktor da yox idi, ancaq sözü-söhbəti gəzirdi institut divarları arasında.

Salman Qurbanzadə Aslanzadənii çıxarılmasına heyfsilənirdi. Yaxşı direktor idi. Başa düşən idi. Amma Nurrəddin Osmanzadədən zəhləsi gedirdi — görməyə gözü yox idi. Elə bilirdi ki, o qazanır, Nurəddin yeyir. Elə Nurəddin də Salman haqqında belə düşünürdü. Aralarında heç bir ciddi münaqişə-filan olmamışdı, nədənsə bir-birinə çox soyuq münasibət bəsləyirdilər. Salman bir şeyə çox sevinirdi ki, o qovluq — Aslanzadənin seyfindəki sarı qovluq Nurəddinin əlinə düşən kimi, qılıncını çəkəcək, Salmanı məhv eləmək istəyəcək... və axırda əli boşda qalacaq, Salman

sudan quru çıxacaq... O bir an, Aslanzadənin kabinetindəki o sehrli bir an Salmanın taleyini həll eləmişdi. O an, o fürsət olmasaydı, Gülmirənin verdiyi qovluq elə stolun üstə qalsaydı, ordan da seyfə keçsəydi, elə hesab elə ki, Salmanın bu xəbəri eşidəndə ürəyi çoxdan partlamışdı. Amma indi, dünya vecinə deyildi Salmanın. Salmandan çox Nadirə narahat idi — yazıq qadın əri ilə Nurəddinin aralarının sərin olduğunu bildiyindən düşünürdü ki, əgər Gülmirənin dünən söylədikləri həqiqət olsa, Nurəddin ondan əl çəkməyəcək, yıxıb sürüyəcək. Elə Aslanzadə də əl çəkməyəcəkdi — ancaq Aslanzadə başa düşən idi, onunla danışmaq olardı, bu işi nisbətən yüngül şəkildə sovuşdurmaq mümkün olardı. Gəl indi Nurəddin Osmanzadəni başa sal görüm necə başa salacaqsan! Onda adamı axıra qədər dinləmək qabiliyyəti də yoxdur!..

İş saatı çoxdan başlamışdı, ancaq işləyən yox idi. Kiminin fikri təzə direktorun gəlməsilə, kimininki Salman — Gülmirə münaqişəsinin sonra necə olacağı qayğısı ilə məşğul idi. Bir sözlə, bu gün danışmaq, müzakirə eləmək, düşünmək üçün meydan geniş idi. Şöbədə hamının gözü Salmanda idi. O, heç bir şey olmamış kimi, öz vaxtında gəlib yerində oturmuşdu. Gözləri qızarmışdı — adamlar elə bilirdi ki, kişi səhərəcən yuxusuz qalıb, yata bilməyib, ona görə gözləri beləcə qızarıb. Onu bu halda görəndə Gülmirə də sıxılmış, nəsə canını qoymağa yer axtarmış, nə edəcəyini bilməyən adamsayağı otaqda ora-bura vurnuxub axırda keçib stolun arxasında əyləşmişdi, şkafından qalın kitabı çıxarıb oxumağa başlamışdı.

Sakit Aranlı başını aşağı salıb nəsə yazırdı. Nadirədən heç nə soruşmamışdı — adəti deyildi. Kim nəyi lazım bilirdisə, yaxınlaşıb özü deyirdi — heç kəsdən heç nə soruşmazdı. Gülmirə — Salman məsələsinin üstünə qayıtmağa elə bil hamı ehtiyat eləyirdi. Hətta Cəfər belə yaxınlaşıb Gülmirədən onun Füzuli avtoqrafı barədə dediklərinin axırına çıxmağı namünasib sayırdı. Elə bil, adamların gözündə Salman da, Gülmirə də, dolu barıt çəlləyi idi. Yovuqlaşmağa cəsarət eləyən yox idi — halbuki, hərənin ürəyində açılmamış müəmmalar, cavabsız suallar çox idi.

Nadirə fikirləşirdi ki, əgər müdriyyətdə bu naqafil dəyişiklik olmasaydı, bir şöbə rəhbəri kimi müəmmalı məsələni qaldırar, özü üçün də maraqlı olan bu işi aydınlaşdırar, bir yəqinlik hasil eləyərdi. Ürəyini üzən «niyələr»dən, «neyçünlər»dən canını qurtarardı.

«Təzə müdir gəlsin, həll olunar».

Hamının fikri beləydi.

## YEDDİNCİ FƏSİL

Bu heç yaxşı əlamətə oxşamırdı. Tərs kimi, təzə direktorun — akademik Nurəddin Osmanzadənin işə çıxması qış girən günə düşmüşdü; təkcə cavanların yox, heç qocaların da yadına gəlmirdi ki, Bakıda dekabrın iyirmi birində — ağ gözlü, buz nəfəsli qış daxil olan gün bu qədər qar yağmış olsun. Uzun-uzun illər idi ki, həmin axşam — payızla qışın ani olaraq qovuşub-ayrıldığı vaxt hava soyuyardı, şaxta-ayaz artardı, göylərdə parlayan iri-iri, ağ-ağ ulduzların nəfəsindən torpağa qırov ələnərdi — ancaq qar yağmazdı. Bu gecə isə, nə qədər qəribə olsa da, yağmışdı — yumşaq, qalın, ağlığı ilə adamın gözünün şoxunu aparan qar! Trolleybuslarda, avtobuslarda, taksilərdə, öz şəxsi maşınlarında işə gələn alimlər, elmi işçilər, laborantlar hələ bu gün qar yağmasına pis məna vermirdilər — çünki təzə direktorun məhz bu gün — bu qarlı çovğunlu gündə işə çıxaçağını heç kəs gözləmirdi. Lakin saat doqquzda, onun yarısında hamı instituta toplaşıb öz iş stollarının arxasına keçəndən az sonra Şərqiyyə şöbələrin qapısını bir-bir açıb adamları iclas salonuna dəvət eləyəndə qayğılı-qayğılı gülümsündü və:

— Təzə direktorumuzu təqdim edəcəklər! — söylədi.

Su sobaları pis yanırdı, otaqları demək olar ki, qızdırmırdı. İnstitutun şimala baxan hündür pəncərələrinin çərçivələri arasından sazaqqarışıq xəzrinin daşa-divara dəyib öləzimiş nəfəsi içəri dolub narıncı pərdələri asta-asta tərpədirdi.

Adamlar uzun zala toplaşmışdı. Bura cənub tərəfdə yerləşdiyindən isti idi, külək tutmurdu. İşıqlıydı zal. Stullar çatışmırdı deyə, çox adam, xüsusən cavanlar arxada ayaq üstə dayanmışdı. Deyən-gülən kim, fikir dəryasına qərq olan kim. Səs-küydən qulaq tutulurdu.

Yuxarı başda, uzun mizin arxasında üç-dörd stul qoyulmuşdu. Pəncərənin ağzında, qəhvəyi rəngi bozarmaq üzrə olan hündür tribuna vardı. Bu tribuna çoxdan burdaydı və uzun illər boyu cavanlı-qocalı çox alim ona sinəsini söykəyib namizədlik, doktorluq dissertasiyaları müdafiə eləmişdi, məruzə və çıxış eləmişdi. Yaddaşı olsaydı, qəribə hekayətlər danışa bilərdi. Hayıf ki, taxta idi, hayıf ki, yaddaşı yox idi. Ancaq adamların yaddaşı vardı: onlar nə yaxşını, nə də pisi unudurlar.

Qapı açıldı — qabaqda Nurəddin Osmanzadə, onun dalınca vitse-prezident Cümə Cüməzadə salona daxil oldu. Nurəddin Osmanzadə təzə qara kostyum geymişdi, üzü həmişə olduğu kimi təmiz qırxılmışdı, sifətində, gözlərində indiyəcən kimsənin görüb-sezmədiyi bir sevinc qığılcımının nuru gəzirdi. Oturmadı, çəkilib pəncərənin qabağında dayandı pencəyinin açıq yaxasını yana eləyib sol əlini belinə qoydu və zala göz gəzdirdi. Qabaq cərkədə Salman Qurbanzadə, Nadirə, İltifat, Sarışın, Fazilə, Cəfər kişi əyləşmişdilər. Sakit Aranlı ikinci cərgədəydi. Oğlu Mürşüd lap arxada, ayaq üstə duranların arasında idi.

Salonda kimisə baxışları ilə axtarırdı — kimi? Hamı bunu hiss edirdi, ancaq kimi aradığını heç kəs kəsdirə bilmirdi. Üzünü direktor müavini İntiqama tutub;

— Bəs yoldaş Aslanzadə hanı? — deyəndə camaata aydın oldu ki, Aslanzadə burada yoxdur. Arıq, həmişə səliqə ilə geyinməyi xoşlayan, qaynar baxışlı İntiqam elə yerindəcə cavab verdi:

— Gəlməyib!

— Niyə gəlməyib? Keşişlikdən çıxıb-çıxıb, ermənilikdən ki, çıxmayıb?

— Zəng eləmişdi ki, qan təzyiqi qalxıb. Bülleteni var. Nurəddin Osmanzadə alt dodağını dişləri arasına alıb yüngülcə

sıxdı və nə üçünsə qımışdı. Sonra ortalıqda dayanmış vitse-prezidentə baxıb astadan nəsə pıçıldadı. Cümə Cüməzadə çox az-az gəlib-getdiyi, demək olar ki, tanımadığı kollektivə üzünü tutub boğazını arıtlayandan sonra:

— Əziz yoldaşlar, prezidiumun qərarı ilə akademik Nurəddin Osmanzadə sizin instituta direktor təyin edilmişdir. Mən hörmətli akademiki sizə təqdim edərkən onun haqqında ətraflı danışmayacağam — çünki o, sizin kollektivin üzvüdür, hamınız onu yaxşı tanıyırsınız. O, görkəmli bir alim kimi elmi ictimaiyyətin dərin hörmətini qazanmış, az müddətdə nəşr etdiyi kitabları ilə təkcə bizdə yox, xaricdə də tanınmışdır. Biz belə düşünürük ki, sizin institut akademiyanın digər institutları arasında müstəsna yeri, mövqeyi olan siyasi əhəmiyyətli bir elm ocağıdır. Ona görə də bu institutun hər cəhətdən qüvvətlənməsi, kadrların yüksək səviyyədə yetişməsi üçün əlimizdən gələn köməyi əsirgəmirik. Biz inanırıq, şəxsən hörmətli prezidentimiz də bu fikirdədir, akademik Nurəddin Osmanzadə yoldaşın öz qabiliyyəti və istedadı sayəsində sizin institut elm aləmində daha yüksək zirvələr fəth edəcəkdir. Əl-ələ verin, işləyin, sizə uğurlar diləyirik. Öz kollektivindi, Nurəddin Cəliloviç — deyə o, sözünü sona yetirib gülümsünə-gülümsünə ona baxdı — bu sən, bu da kollektiv.

Sonra Cümə Cüməzadə yana çönüb iri, koppuş əlini Nurəddin Cəliloviçə tərəf uzatdı və onu təbrik elədi. Nə isə deyib zalı tərk elədi. Təzə direktor əli belində tribunaya sarı gəldi. Sağ dirsəyini tribunanın qırağına söykədikdən sonra sakit-sakit danışmağa başladı:

— Belədi, yoldaşlar!.. Mən çox danışmayacağam. Məni Cümə Cüməzadə yoldaşın dediyi kimi, bu instituta direktor qoyublar və mən bu işin məsuliyyətini hamıdan çox dərk edirəm. Açıq demək lazımdır ki, institutda işlər bərbad haldadır, institut dağılmaq üzrədir. İyirmi neçə ildi bu institut yaradılıb, ancaq fərli-başlı beş adamın qabağına çıxarmağa layiq nə alimimiz yetişib, nə əsərimiz var. Əsərlərimiz Xırdalandan o yana çıxa bilmir. Çünki səviyyəsi yoxdur, daha doğrusu aşağıdır. Akademik Aslanzadə —

heyf ki, özü burada yoxdur — hörmətli alim olsa da, kəsərsiz adamdır, həddən artıq yumşaqdır, tələbkar deyil. Camaat da müsəlmançılığa salıb, hərə öz kefindədir — işləyən, həqiqi elmlə məşğul olan yox dərəcəsindədir. İndiyə qədər necə işləmisiniz — bilmirəm; bundan sonra mən sizdən iş tələb eləyəcəyəm. Heç kəs məndən inciməsin. İşləməyənə bu institutda yer olmayacaq. Adamımız çoxdur, alimimiz azdır. Halbuki dövlətdən siz hər ay filan qədər maaş alırsınız. Bir çox adamlar var ki, pensiya vaxtı çoxdan çatıb — amma heç kəs pensiyaya getmək istəmir. Altmış yaşı tamam olmuş kişilər, əlli beş yaşına çatmış qadınlar var ki, daha heç nə yazmağa qadir deyillər — gərək onlar özləri vicdanlarının hökmü ilə ərizə verib getsinlər. Yoxsa biz özümüz məcbur olub əmrnən hamısını göndərəcəyik pensiyaya. Bu belə. Nizam-intizam məsələsi indi çox mühüm problemdir, yoldaşlar. Nizam-intizam olmayan yerdə keyfiyyətli iş yoxdur, ola da bilməz. Kim nə vaxt istəyir, o vaxt da gəlir, gedir. Elə adamlar var ki, onların üzünü ayda iki dəfə — ancaq maaş günləri burada görmək olar. Laborantlar, cavan elmi işçilər isə tamam başlı-başına buraxılıb. Şöbə müdirləri onların əl-ayağını bir yerə yığmalı, işlətməlidir. Bu hərc-mərcliyə son qoymağın vaxtı artıq çatmışdır, bu da belə.

Qaldı ki, iqtisadçıların və ədəbiyyatçıların məsələsi. Mən belə fikirləşirəm ki, bunlar institutda çoxluq təşkil eləyir. Uzun illər direktor ədəbiyyatçı, müavin isə iqtisadiyyatçı olduğuna görə bu sahədə istədikləri adamları götürüblər, keyfiyyətə yox kəmiyyətə fikir veriblər. Biz gərək bu adamları, xüsusən ədəbiyyatçıları saf-çürük eləyək, müəyyən ixtisarlar aparaq. Bir də mənə elə gəlir ki, nəyə lazımdır bu qədər ədəbiyyatçı? Cılız, boş-boş mövzular işləyir çoxu! Belə, bu da belə.

Akademik «qısa danışacağam» desə də, xeyli danışdı özü də elə danışdı ki, hamının təəccübünə səbəb oldu—əvvələn, hədə-qorxu heç kəsin ürəyincə olmadı. Burada oturanlar, bu institutda işləyənlər uşaq deyildilər, ən cavanı ali məktəb bitirmişdi, ən qocası isə Cəfər idi — yetmişi haqlamışdı. İkincisi, akademik,

özünün də keçən neçə illər işləyib üzvü olduğu kollektivin demək olar ki, bütün fəaliyyətinin üstündən çox asanlıqla xətt çəkirdi. İnstitutun dağılmaq üzrə olduğunu söyləyir, yazılan əsərlərin keyfiyyətini heçə endirirdi. Belə çıxırdı ki, institutun alimləri heç nə eləmədən dövlətdən filan qədər pul almışlar və s. O danışırdı, dediklərinin düzgün olmadığını hamı hiss eləyirdi, lakin kimsə qalxıb etiraz etməyə özündə cəsarət tapmırdı — «hələ görək bu işlərin axırı necə olacaq? — deyə düşünənlər əksəriyyət idi. — Deyəsən çox pis başlayır. — Bu, niyə belə eləyir görəsən?»

— Hə, bir məsələni də demək istəyirəm. Bizim institutda qadınlar çoxdur. Açığını söyləyim ki, daha işə qadın götürməyəcəyəm. Onlar ancaq yer tuturlar. Ev, uşaq qayğısı onları elmlə ciddi məşğul olmağa qoymur. Bir ayaqları bazarda-dükanda, evdə, bir ayaqları idarədədi — bununla həqiqi alim olmaq mümkün deyil, bilirsiniz. Elm fədakarlıq tələb eləyir — gərək sənin fikrin-zikrin elmlə məşğul olsun. Yoxsa sən yaxşı alim ola bilməzsən. Düzü budur ki, mən bizim qadın alimlərin içində seçilən, səsi-sorağı uzaqlardan gələn alim görmürəm. Onları da saf-çürük eləmək vaxtı çatıbdır, məncə.

Təzə direktorun bu sözləri də qadınların arasında pıçhapıça səbəb oldu. Ağız büzən kim, him-cimlə danışan kim, qaş-göz eləyən kim...

— Belədir məsələ, yoldaşlar. Kim bu tələblərə cavab verirsə, qalıb işləyəcək. Cavab verə bilmirsə, yaxşı olar ki, ərizə verib getsin, nə özünü aldatsın, nə bizi... Mənim demək istədiklərim bunlardır. Kimin nə sözü, varsa buyura bilər! — deyərək tribunanın qabağından çəkildi, uzun stolun arxasında gəzinə-gəzinə salona nəzər saldı. Zaldan yüz əlli cüt göz ona zillənmişdi. Sükut intizar anları içində ərimək bilmirdi.

— Hə, danışmaq istəyən yoxdursa... — dedi akademik Nurəddin Osmanzadə və son dəfə cərgələrə göz gəzdirdi. Bu zaman Sarışının yanında oturub iri, arıq əllərini stolun üstünə qoymuş Dombagöz ayağa qalxdı. Üzündə qəribə bir təbəssüm vardı. Baxışlarını direktordan çəkməyərək, gülümsünə-gülümsünə:

— Mənə söz verin, — söylədi və onun cavabını gözləmədən irəli çıxdı, tribunanın arxasına keçib adəti üzrə boğazını arıtdı, saçlarına sığal çəkərək sözə başladı: — Yoldaşlar, mən hörmətli Nurəddin müəllimin çıxışına çox diqqətlə qulaq asdım. Problem məsələlərə toxundu; deməliyəm ki, bu qlobal məsələlər hamımızı çoxdan düşündürürdü. Biz sevinirik ki, nəhayət, institutda haçandı hökm sürən durğunluğu, ətaləti səksəndirib dağıtmağa qadir olan görkəmli bir alimi, bizim idarəyə direktor təyin ediblər. Hamımız bilirik ki, onun necə böyük nüfuzu var, bir elm cəngavəri kimi o, hamı tərəfindən sevilir. Nurəddin müəllim qayğıkeş, humanist bir insan, dərin düşünən bir elm xadimidir. Onun bir kommunist kimi tutduğu prinsipial mövqe bir şair kimi mənim çox xoşuma gəlir, yoldaşlar. O, əgər obrazlı desək, bizim elmimizin uzaqvuran topudur. Hörmətli Nurəddin müəllimin elə təkcə xalqımızın igid oğlu, görkəmli sərkərdəsi, şanlı Ağvan hökmdarı Cavanşir haqqında yazdığı sanballı, mən deyərdim ki, ölməz monoqrafiyası bizim ölkəmizin tarixində tamamilə yeni mərhələ hesab oluna bilər. Cavanşir bir tarixi şəxsiyyət kimi ölməzdir, onun haqqında uzun illər, gecəni gündüzə qatıb əsər yazmış Nurəddin müəllim də ölməzlik vəsiqəsi, alıbdır, məncə. Nə qədər ki xalqımız yaşayır, nə qədər ki, Cavanşirin adı yaşayır, bizim hörmətli akademikimizin də adı əbədi yaşayacaqdır. Nurəddin müəllimin bu sahədəki misilsiz fəaliyyəti və bir bədii əsər təsiri bağışlayan o kitabı məni o qədər ruhlandırmışdır ki, mən gələcəkdə xalqımızın bu iki qəhrəman oğlu haqqında (Bu kitabı yazmaq özü də bir qəhrəmanlıqdır, yoldaşlar.) bir lirik poema yazmağı planlaşdırmışam. Və əgər qismət olsa, o poemanı yaza bilsəm, onu böyük məmnuniyyət hissi ilə hörmətli akademikimiz Nurəddin Osmanzadə yoldaşa ithaf edəcəyəm. Hörmətli Nurəddin müəllim, — deyə İltifat şana barmaqları ilə saçlarına daraq çəkib domba gözlərini ona sarı çevirdi — sizə, respublikamızın böyük aliminə bu çətin, məsuliyyətli vəzifənizdə uğurlar diləyirəm. Mən elə bilirəm ki, bu, bizim bütün kollektivin ürək sözüdür.

İltifat sözünü qurtarıb yerinə keçdi. Zalda pıçhapıç başladı,

baxışlarda bir istehza gəzib dolaşdı. Ancaq bunu o görə bilmədi, çünki yanında oturmuş Sarışın başını qatmışdı. Astaca deyirdi:

— Yaxşı danışdın, İltifat. Lap əsl şair kimi danışdın. Doğrudan gözəl mövzudur, onu mütləq yaz.

— Yazacağam. Yaman tutub məni. Nurəddin böyük şəxsiyyətdi.

Təzə direktor İltifata razılıq hissilə baxdı.

İltifat qımışdı, əlini çənəsinə söykəyib Nurəddin Osmanzadəyə nəzər saldı. Ancaq akademik daha ona baxmırdı. Gözü ilə digər söz deyən axtarırdı. Arada — Dombagöz bunu görmədi — Nadirə xanım Salmanın qulağına nə isə pıçıldadı, Salman dönüb Dombagözü tərs-tərs süzdü.

— Hə, daha kim danışmaq istəyir? — Akademik əlini belindən çəkmədən salona müraciət etdikdə müdir müavini İntiqam ayağa qalxdı:

— Mənim bir-iki kəlmə sözüm var, yoldaş Osmanzadə.

— Hə, buyur, vəzire-muxtar, — deyə Aslanzadənin sözünü təkrar elədi: Aslanzadə həmişə İntiqama zarafatla «vəzire-muxtar» yaxud «mənim vəzirim» — deyərdi. İntiqam tribunaya qalxmadı, tribunanın qabağında dayanıb əllərini arxasında daraqlayıb sözə başladı:

— Yoddaşlar, Nurəddin müəllimin çıxışını mən də dinlədim. Düzü, təəccübləndim. Hörmətli direktorumuzun danışığından elə məlum oldu ki, son on ildə institut heç nə eləməyib. Bizim nə elmimiz, inkişaf eləyib, nə kadrlarımız var və s. Yaxşı ki, burada kənar adam yoxdur. Yoxsa belə bir təəssürat yarana bilərdi ki, həqiqətən biz əlimizi əlimizin üstünə qoyub işləməmişik, yatmışıq, dövlətin pullarını havayı alıb xərcləmişik. Məncə, Nurəddin müəllim də, siz də yaxşı bilirsiniz ki, bu belə deyil.

— Bəs nə cürdür, yoldaş vəzire-muxtar? — Nurəddin acıqla onun sözünü kəsib soruşdu. Alt dodağı bir az da sallanmışdı. Hirsləndiyi aşkar bilinirdi. — Bəs nə təhərdir deyirsən?

— Hər halda, yoldaş Osmanzadə, sizin təqdim etdiyiniz şəkildə deyil. Siz bu kollektivə kənardan gəlməmisiniz, neçə

illərdi ki, burada işləyirsiniz. Mən başa düşmürəm necə ola bilər ki, siz öz kollektiviniz haqqında belə danışırsınız. Elə sizin dediyiniz son on ildə institut alimlərinin əlli yeddi kitabı çıxıb.

— Nə olsun çıxıb? Nə kitablardı onlar? Onlar, yenə deyirəm, Xırdalandan o yana gedən kitablar deyil.

— Deyəsən, sizin üçün Xırdalan sərhədimizin son nöqtəsidir! Var Xırdalandan o yana gedən əsərlərimiz. Bizim alimlərimizin əsərləri Moskvadan tutmuş xarici ölkələrəcən, İstambula, Tehrana, Kabilə, Bağdada qədər gedib çıxıblar. Bunların üstündən siz necə xətt çəkmək istəyirsiniz? Mən bir direktor müavini kimi, bunları sizin nəzərinizə çatdırmağı öz vəzifə borcum hesab eləyirəm. Ola bilər sizin başınız qarışıq olub, institutun müvəffəqiyyətlərindən xəbəriniz olmayıb.

Nurəddin sağ əlini havada yelləyib:

— Xəbərim var, hamısı zəif əsərlərdir, — dedi, — elmin bugünkü səviyyəsindən çox-çox aşağıda duran əsərlərdir. Elə götürək sənin özünü. — O, ani olaraq susub zala nəzər saldı, adamların üzündəki ifadəni oxumaq, anlamaq istədi, lakin hamını donuq, susqun vəziyyətdə görüb İntiqama sarı çevrildi. — Bax sənin özün. Neçə illərdir müdir müavinisən, həm də şöbə müdirisən. Elm üçün neyləmisən? Hansı kəşfləri eləmisən? Heç nə eləməmisən, heç nəyin yoxdur. On beş ildi elə kandidatsan, doktor ola bilmirsən! Sənin fikrin və mövqeyin mənə məlumdur, keç otur, keç, keç! — bu sözləri demək olar ki, qışqıra-qışqıra söylədi. — Su bir yerdə çox qalanda iylənir — deyib atalar. Sən də bir yerdə çox qalıbsan.

İntiqam ona çəpəki baxdı, ağır cavab qaytarmaq istədi, ancaq direktorun əsəbiləşdiyini görüb dinməməyi daha üstün tutaraq narazı halda başını bulayaraq keçib yerində əyləşdi. Oturanların demək olar ki, hamısının beynində bir fikir gəzib dolaşdı: «İntiqamın işi bitdi. Hökmən çıxardacaq!»

— Daha kimin sözü var? — deyə direktor əlini belindən çəkmədən salona diqqət yetirdi. Ancaq heç kəsdən səs çıxmadı. Ürəyində sözü olanlar vardısa da İntiqamla kobud rəftarının şahidi

olduqlarına görə danışmamağı əfzəl saydılar. Bir neçə an davam edən bu ölü sükutu Nadirə xanımın titrək və həyəcanlı səsi pozdu:

— Mən danışmaq istəyirəm.

Nurəddin səs gələn səmtə döndükdə artıq ayağa qalxmış Nadirə xanımı görüb:

— Hə, buyur, yoldaş Nadirə, — dedi. Nadirənin böyründə əyləşmiş Salman kürkünə birə düşmüş kimi qurcalandı. Salman qəti istəməzdi ki, bu iclasda Nadirə danışsın. Ürəyində arvadına qəzəbləndi də. «Buradan bura mənimlə məsləhətləşmir ha. Görürsən arvadın zatıqırıq yığını? Nəyinə lazımdı, bu dəliyə baş qoşursan axı?» — Ancaq gec idi, Nadirə tribunanın qabağındaydı və danışırdı:

— Mən Nurəddin müəllimin çıxışına qulaq asdım və doğrusunu deyim ki, çox təəccüb elədim. İntiqam yoldaş yaxşı dedi ki, illər boyu institut alimlərinin çəkdiyi zəhməti heçə endirmək meyli mənə çox qəribə göründü. Xüsusilə filoloqlar haqqında söylədikləriniz, Nurəddin müəllim, — Nadirə xanım təzə direktora müraciət elədi, — heç bir məntiqə uyuşmur. Acığınıza gəlməsin, bu sözləri oxumamış, elmdən başı çıxmayan bir adamın dilindən eşitsəydim, təəccüblənməzdim. Ancaq akademik deyəndə bu sözləri... Mən sizi başa düşmürəm... yoldaş Osmanzadə. Necə yəni ədəbiyyat boş şeydi, ədəbiyyatşünaslıq elm deyil? Ədəbiyyat sənin xalqının dünənini bu gününü, onun düşüncəsini, təfəkkürünü öz sinəsinə həkk edib gələcək nəsillərə çatdıran bir sənət növüdür, xalqın, dünyanın gələcəyindən xəbər verən bir antenadır. Ədəbiyyat olmasaydı...

— Nadirə xanım! — Nurəddnn onun sözünü kəsdi. — Siz burda bizə yoxsa ədəbiyyatdan dərs demək fikrindəsiniz? Burda oturanlar uşaq deyil və heç kəsin sizin vəzzariyyatınıza ehtiyacı yoxdur.

— Belə görünür, var, yoldaş Osmanzadə. Belə görünür bəzi yoldaşların, — hamı bildi ki, Nadirə onun özünü nəzərdə tutur, — belə vəzzariyyatlara çox ehtiyacı var. — Nadirə əsirdi. — Filologiyasız heç bir elm yoxdur. Bütün elmlərə gedən yol

ədəbiyyatdan başlayır. O filosof filosof deyil, o tarixçi tarixçi deyil ki, heç olmasa yarım filoloq olmasın. Mən..

— Nadirə xanım, biz bura dərs dinləməyə gəlməmişik. Biz burada çox ciddi məsələlər müzakirə etməyə toplaşmışıq. Siz, yaxşı olardı ki, öz şöbənizin işindən danışın. Heç olmasa, — Nurəddin baxışları ilə Salmanı axtarıb tapdı— şöbənizin əməkdaşı Salman Qurbanzadənin qəhrəmanlığından danışın. Deyin görək nə təhər olub ki, o, başqasının əsərini götürüb öz adına çap etdirib. Belə məsələlərdən danışın...

Nadirə susdu, özünü itirdi, nə deyəcəyini kəsdirə bilmədi Nurəddindən çox, Salmana qəlbində dərin nifrət duydu və ərinə qəzəb hissilə baxdı. Bu zaman Salman ayağa qalxıb elə yerindən:

— O məsələnin yeri deyil, yoldaş direktor! — söylədi.

— Niyə yeri deyil? Lap yaxşı yeridir.

—Bu məsələyə mən lazımi yerində cavab verəcəyəm, burada yox.

— Yoxsa camaatdan utanırsan, Salman? Əməllərinə görə utanırsan yoxsa? Alim — oğru!.. Dəhşət!

— Mən xahiş edirəm danışığınızın həddini bilin! Məni təhqir etməyə sizin haqqınız yoxdur. Siz eşidibsiniz, ancaq işin mahiyyətindən əsla xəbəriniz yoxdur. Ona görə də hökm verməyə hələ tələsməyin. Əsər Aslanzadənin seyfindədir. O kişi gələr, komissiya təşkil edərsiniz, açarsınız, baxarsınız, sonra danışarıq.

Direktor sağ əlini havada yellətdi, «otur yerində» söylədi işarə ilə və baxışları ilə axtarıb Gülmirəni tapdı:

— Ay qız, bu məsələni eşitdiyimə görə, sən qaldırmısan, dur ayağa görüm. — Nurəddinin səsi qətiyyətli idi, əmr kimi səslənən bu sözlərinin təsiri altında Gülmirə nə vaxt ayağa qalxdığını özü də bilmədi. Çaşmışdı, nə deyəcəyini bilmirdi. Bircə bunu dərk elədi ki, bu sözü o deyib, hara getsə də, nə şəraitdə olsa da, sözünün üstündə durmalıdı. İlk addım atılıb, daha geriyə yol yoxdu. Salmanı məhv eləsələr də, dediyini deməlidi. Özünə nəyin bahasına başa gəlsə də, susmamalıdı.

— Gözlərini niyə döyürsən? Deyirəm sən qaldırmısan bu

məsələni, ya yox — deyə Nurəddinin hökmlü səsi yenidən eşidiləndə Gülmirə həyəcandan dili topuq çala-çala:

— Bəli... Mən... qaldırmışam. — söylədi.

— O əsər doğrudan Mirzə Yanarın əsəridir?

— Bəli...

— Buna sözün yoxdur ki, Salman? — deyə gözlərində qəzəb və kin qığılcımı parlayan akademik davamlı baxışlarla Salmanı təpədən-dırnağa süzdü. Salmana bayaq o, «otur» işarəsi verəndə əyləşməmişdi, ancaq indi oturmağa məcbur oldu. Lakin yerindən gülümsünə-gülümsünə cavabını da qaytardı:

— Yalandır!

— Yalandır?

— Bəli, ağ yalandır!

Nurəddin bir an duruxdu, gah Gülmirəyə, gah da Salmana nəzər saldı və yenə təntənəli bir kinayə ilə:

— Əgər doğru olsa səni məhkəməyə verdirəcəyəm, Salman, sənin doktorluğunu əlindən aldıracağam... — dedi. Salman elə yerindən arxayın bir tərzdə:

— Doğru olsa nə istəsən, elətdirərsən! — deyə cavab verdi. Nurəddin pəncərənin önünə gəlib bayıra baxdı, sonra üzünü zala tutub:

— İclas qurtardı, yoldaşlar! — dedi və hamı yerində donub-otursa da, o, qapıya doğru getdi. O, çıxandan sonra zalda bir neçə anlığa ölü bir sükut yarandı. Ancaq bu sükut çox çəkmədi. Adamlar ayağa qalxdı, söz-sözə, səs-səsə qarışdı, ağız deyəni qulaq eşitmədi.

İntiqam Nadirəyə yavaşcadan pıçıldadı:

— Aslanzadənin qədrini indi bilər camaat. Nadirə söylədi.

— Aslanzadə alim idi, insan idi. Mən yüz faiz əminəm ki, bunu bura direktor təyin edən yoldaşlar böyük səhv eləyiblər — ondan direktor ola bilməz. Özünün də başı ağrıyacaq, bizim də.

Salman Nadirənin qolundan ehmalca tutub:

— Yaxşı dedimmi? — deyə xəbər alanda Nadirə nigarançılıqla ərinin üzünə baxdı:

— Yaxşı dedin, ancaq sənin işindən yaman nigaranam, Salman.

— Qətiyyən nigaran olma,—deyib onun dalınca dəhlizə çıxdı.

Dombagöz Sarışına baxıb qımışdı:

— Nəhayət bu instituta yaxşı bir direktor gəldi. Əsl qəhrəmandı. Heç kəsdən qorxmur. Gördün Salmanı necə yıxıb-sürüdü? — Səsini alçaltdı bu sözləri deyəndə.— Doğrudur, məni o gətirib bura, ancaq bir şəxsiyyət kimi Salmandan çox güclüdür Nurəddin müəllim.

— Əşi, aləm imiş bu kişi! — deyən Sarışın da ağzındakı konfeti oynada-oynada onun sözünə qüvvət verdi. — Salmanın atasını yandıracaq, baxarsan. Yekə kişidi, gör bir neyləyib? Malades Gülmirə!

— O, Gülmirə çox cəsarətli qızdı. Mən səndən qabaq tanıyıram onu. Özü də gözəldi ölmüş!!

— Bax, burda səhv eləyirsən, şair. Mən elə bilirdim sən çox incə zövqə maliksən. Ancaq gördüm yox. Nəyi gözəldir onun? Heç yapışığı yoxdu.

Dombagöz Sarışının yanında səhv elədiyini anladı və sözünü düzəltməyə çalışdı:

— Bilirsən, estetika elmində, bizim poetik aləmdə gözəllik məfhumu nisbi xarakter daşıyır. Məsələn, dovşan kirpiyə nisbətən gözəldi, Gülmirə Şərqiyyəyə nisbətən yaxşıdı, sən Gülmirəyə nisbətən gözəlsən.

Sarışın bu sözlərdən məmnun halda gülümsündü.

Dombagözün ürəyi sevinclə doldu bu təbəssümdən. «Demək, bu nağdı bizimdi. Heç yana qaça bilməz. Boş damarını tapmışam. Ancaq sən hələ ehtiyatda qal, əzizim. Gülmirə insafən desək, səndən qəşəngdi». — Sarışınla danışa-danışa irəlidə fikirli-fikirli addımlayan Gülmirənin arxasınca baxdı — onun telləri çiyninə tökülmüşdü. Qəhvəyi rəngli jaketinin üstünə dağılmış qara saçları yerişinin ahənginə uyğun olaraq sağa-sola yırğalanırdı.

Zaldan hamı çıxmışdı.Təkcə qoca Cəfər yerindən tərpən-

mirdi. Həyatını kəşməkəşlərdə keçirmiş, ağ saçlarının tükü sanı adamlar, müdirlər yola salmış, bəzən çirkab içindən də tərtəmiz çıxmış bu müdrik qoca Nurəddin Osmanzadənin bugünkü söz-söhbətindən yaman pərt olmuşdu. O, Nurəddini dünənəcən sakit, başıaşağı, haqq-ədalət tərəfdarı olan bir alim kimi tanıyırdı. Ancaq bu çıxışı onu Cəfərin gözündən xeyli salmışdı, yəni doğrudanmı stolda, vəzifədə bu hökm-qüdrət var? — Özü heç vaxt vəzifə sahibi olmamışdı, stolun, vəzifənin gücünü-qüvvətini yaxından, ürəyi ilə hiss eləməmişdi və bu barədə çoxlu yazılar oxusa, rəvayətlər eşitsə də, o qədər də inanmamışdı. Və uzun ömründə çoxlu adamlar da görmüşdü ki, vəzifəyə, məqama çatanda daha da sadə olmuş, təvazökar olmuş, qayğıkeş olmuşdu. Demək məsələ stolda deyilmiş, vəzifədə deyilmiş, əsildə-nəcabətdə, daxili mədəniyyətdə imiş. Bu institut təşkil edilən gündən burda işləyən Cəfər dörd-beş direktor görmüş, yola salmışdı. Onlar kollektivlə əl-ələ verib işləmiş, ata kimi, yoldaş kimi, müdir kimi hamıyla mehriban dolanmış, səbirlə, təmkinlə ağıl və müdrikliklə hamını işlətmişdilər. Ən tənbəl, ipə-sapa yatmayan adam belə bu qayğıkeşlikdən, mehribanlıqdan utanıb nəticə çıxartmış, çalışmış, əsər yazmış, müdafiə etmiş və indi də yeri düşəndə minnətdarlıq hissilə: «Sağ olsun filankəs, mən onun çörəyini yeyirəm!» — deyirdi. Elə Nurəddin Osmanzadə də akademik Aslanzadənin əməyi, köməyi və qayğısı sahəsində gəlib bu mərtəbəyə, məqama çıxmamışdımı? Cəfərin ən çox qəzəblənməsinə səbəb olan bu idi ki, təzə müdir, dünənəcən çiyin-çiyinə işlədiyi öz alim yoldaşlarının uzun illər çəkdiyi zəhməti heçə endirir, əsərlərini «zəif», «sönük» adlandırırdı. Niyə? Bax, qoca Cəfər bu suala cavab tapa bilmirdi. Kişini fikir alarmışdı. Sakit Aranlının nə vaxt zala qayıdıb gəldiyini görməmişdi. Səsinə ayıldı:

— Hə, Cəfər müəllim, nə fikir dəryasına qərq olmusan? Cəfər stolun üstəki kağız-qələmini yığışdıra-yığışdıra:

— Heç, — dedi, — elə belə, düşünürəm ki, bu işlərin axırı nə olacaq.

— Axırı-yaxşı olacaq, kişi, darıxma! — dedi Sakit Aranlı.

Cəfər onun xətrini çox istəyirdi, kiçik qardaş hesab eləyirdi özünə. Tanışlıqlarının ömrü uzun olmasa da, aralarında elə yaxın bir ünsiyyət yaranmışdı ki, iki can bir qəlbdə olmuşdular. Cəfər işləyən, vaxtını boş şeylərə sərf eləməyən, ədəb-ərkan gözləyən adamları həmişə sevmişdi. Sakit də onun nəzərində belə adam idi. Onun kitabları çıxanda qoca uşaq kimi sevinirdi, elə bilirdi öz kitabı çıxıb. Aralarında gizli sirr yox idi. Dərdlərini, qayğılarını, sevinclərini bölüşürdülər. Sakit dünyagörmüş bu insanın dərin, mənalı söhbətlərindən hədsiz ləzzət alırdı. Öyrənirdi. Sinəsi el məsəlləri, rəvayətləri, dastanları, hikmətli sözləri ilə doluydu onun, hər söhbətindən heç olmasa bir hikmət, bir tutarlı söz qalırdı Sakitin yadında və o da qızıl tapmış bir adam kimi sevinirdi.

— Mən yaman məyus oldum, Sakit — deyə Cəfər nəhayət dilləndi — mən bunu belə tanımırdım.

— Həyat elə buna görə maraqlıdı, Cəfər kişi, —deyə o, Cəfərin kimin barəsində söz açdığını dərhal duyub cavab verdi — elə buna görə maraqlıdı həyat, kişi. Yoxsa yaşamaq çox maraqsız olardı.

— Yəni stol, vəzifə doğrudan belə qüdrətə malikdir ki, adamı bir günün içində belə dəyişir?

— Ağıllı və müdrik adamları nə stol, nə vəzifə dəyişə bilmir, kişi. Bu sözümü yadında saxla: bizim təzə müdir bu vəzifədə qazandığından çox itirəcək — hörmətini, şərəfini itirəcək ki, bunların heç birini nə pulla, nə qızılla almaq mümkün deyil.

— Düz deyirsən. Ataların yaxşı bir kəlamı var: köpək leş başında tanınar, kişi iş başında.

— Əla. Əla sözdü. Köpək leş başında, kişi iş başında tanınar! Bunu yazdıq can dəftərimizə Cəfər kişi.

Sakit bu hikməti yadında saxlamaq üçün gözlərini bir anlığa yumub fikrə getdi.

## SƏKKİZİNCİ FƏSİL

Sahibə qapını astaca taqqıldatdı, ancaq içəridən səs gəlmədi. İki gün idi Gülmirə gözünə dəymirdi. Əvvəl elə düşünmüşdü ki, istirahət günləridi onun. Yəqin dincəlir, ya da oturub işləyir. Ancaq bu gün, bir az bundan qabaq Maşa xaladan soruşanda qarı onun xəstələndiyini söyləmiş və bu xəbərdən Sahibə çox narahat olmuşdu. Tez öz otağına qayıdaraq divanda uzanıb kitab oxuyan Mir Sahibə Gülmirənin kefsizlədiyini deyəndə o:

— Əcəb bacısan, burdan-bura heç xəbər tutmursan qızdan. — demişdi — Get, baş çək, tək qadındı, bəlkə bir şeyə-zada ehtiyacı var.

— Mən nə bilim, elə bilirəm dincəlir, işləyir... — deyə Sahibə dodaqaltı mızıldanmış və çarpayının başındakı örpəyi götürüb çiyninə salaraq otaqdan çıxmışdı.

İçəridən səs gəlmədiyini görüncə qapını ehmalca itələyib açdı və evə girdi. Gündüz olmağına baxmayaraq işıq yanırdı. Gülmirə pəncərənin ağzında qoyulmuş çarpayısında arxası üstə uzanıb kitab oxuyurdu. Sahibəni görən kimi kitabı sinəsinin üstünə qoyub başını ona sarı çevirdi.

— Olmasın azar, ay bacı! — dedi Sahibə və yaxın gəlib Gülmirənin ağ alnından öpdü və dərhal: — Vay, can bacı, qızdırma içində yanırsan ki! — söylədi. — Sənə nə oldu birdən-birə?

— Soyuqlamışam deyəsən. — Gülmirənin səsi zəif və taqətsiz idi.

— Bəs burdan-bura niyə xəbər eləmirsən, ay bacı? Mən də deyirəm görəsən...

— Yüngül şeydi, keçib gedər, narahat olma.

— Bir şey-mey yemisən, ya elə ac-susuz yatıbsan?

— Yemişəm. Maşa xala borş bişirmişdi. Bir qab yemişəm.

Sahibə çarpayının qırağında oturdu. Xırda, ağ əlini əlinin içinə alıb:

— Nə dərman atıbsan? — deyə soruşdu.

— Sulfadimezin atıram. Həkimə-zada ehtiyac yoxdu. Səhər duracağam. — O, astaca öskürdükdə Sahibə dedi:

— Soyuqlayıbsan, səsin gərləşib. Bacın sənin kürəyinə indi banka salar, bütün azar-bezarın gedər. Gülmirə gülümsündü:

— Yaxşı banka qoya bilirsən?

— O necə?!

Bu sözü dedi, lakin o dəqiqə də birdən-birə tutuldu. Sahibənin solğun üzündə bir kədər ifadəsi gəzib dolaşdı, iri, ala gözləri yol çəkməyə başladı. Onda əmələ gələn bu dəyişiklikliyi Gülmirə dərhal hiss elədi.

— Sənə nə oldu, bacı?

— Heç, heç... — söylədi çaşqın-çaşqın və adi bir şey üstə yadına düşən o dəhşətli hadisəni Gülmirəyə danışıb onu da kədərləndirəcəyindən qorxdu. Eyni zamanda az vaxt ərzində isinişib bacı kimi xətrini istədiyi Gülmirəyə «heç» deməyindən də utandı. Yox, bu, «heç», deyildi, bu, onun həyatının, bədbəxtliyinin qəmli tarixçəsi idi. Əvvəl-axır danışacaqdı, ancaq indi istəmirdi — Gülmirə onu çox sevirdi. Halı pərişan olacaqdı. Nə fikirləşdisə:

— Yox, bacı, elə deməyimə baxma, mən banka sala bilmirəm, yaxşısı budu ki, kamfıra ilə bədənini əməlli-başlı ovxalayaram, olarsan anadangəlmə, — dedi və söhbəti dəyişməkçün yorğanın üstündəki kitaba işarə eləyərək — Nə oxuyursan? — deyə xəbər aldı.

— Sakit Aranlının təzə romanı çıxıb. Onu oxuyuram.

— Sakit Aranlı? — deyən Sahibənin üzü işıqlandı, hədsiz sevinc içində əlini uzadıb kitabı götürdü.

— A, bu bizdə yoxdu. Necə olub mən bunu görməmişəm?

— Görə bilməzsən. Yenicə çap olunub. Hələ satışa buraxılmayıb.

— Bə sən hardan tapıbsan?

Gülmirə məmnun halda gülümsündü:

— Özü bağışlayıb!

— Özü bağışlayıb?

— Hə.

— Sən onu tanıyırsan?

— Hə, bizimlə bir şöbədə işləyir,

— Bir şöbədə? — Təəccüb içində soruşdu.

— Hə, lap bir otaqda otururuq.

— Ay allah, sən nə xoşbəxt adamsan, Gülü! Elə adamla gündə görüşmək, söhbət eləmək özü bir səadətdi. Çox yaxşı kişidi.

Bu dəfə Gülmirə heyrətləndi:

— Sən məgər onu tanıyırsan?

— Hə. Xəstəxanada tanış olmuşuq. İnşil. Çox yaxşı adamdı, sadə adamdı. Mir Sahibin də dostudu.

— Dostudu?

— Hə, mən tanış elədim onları. Sonra dostlaşdılar. Mir Sahibin yaman xoşuna gəlmişdi. — Sahibə danışa-danışa kitabın göy cildinə tamaşa eləyəndən sonra titul səhifəsinə müəllifin öz xəttilə yazdığı bu sözləri ucadan oxudu: «Xalqımızın ləyaqətli və cəsarətli qızı Gülmirə xanıma bir dünya səadət arzulayan müəllifdən kiçik bir xatirədir». Sonra imzası vardı, tarixi də yazmağı unutmamışdı. Sahibə kitabı vərəqlədi, dizinin üstünə qoyub Sakitlə necə tanış olduğunu həvəslə Gülmirəyə danışmağa başladı.

— Mir Sahib bir kitab alıb gətirmişdi. Dedi üstündə böyük növbə vardı, gördüm hamı alır, mən də aldım; deyirlər yaxşı kitabdı. Baxdım gördüm Sakit Aranlının kitabıdı. Kişinin yeməyini, içməyini verdim, keçdim mətbəxə. Bacımsan, başladım. Yerə qoya bilmədim. Xəstəliyim-zadım da yadımdan çıxdı. Bir də ayılıb gördüm saat neçə olsa yaxşıdı. Səhər saat doqquz. Son səhifəni oxuyanda... ürəyim gedər... Şəkərim qalxar ərşi-əlaya... Mir Sahib yazıq iskorı çağırır, məni aparırlar balniskaya. On gün idi ordaydım, hələ şəkərimi aşağı sala bilməmişdilər. Mir Sahib hər gün işdən çıxıb yanıma gəlirdi, bir saat, iki saat oturub, durub gedirdi. Bir gün halım pis idi. Yata bilmirdim. Gecə saat bir olardı. Xəstələr yatmışdılar. Durub çıxdım dəhlizə. Gəldim küçəyə baxan pəncərənin qabağına, ordan şəhərin gecə işıqlarına tamaşa eləyirdim və taleyimə nifrinlər yağdırırdım. Bir də gördüm ayaq səsi gəlir, çönüb baxdım — gördüm bir kişidi. Xəstədi — üzdən

tanıyırdım, bilirdim burda yatır. Ancaq kimdi, nəçidi—nə biləsən? Xəstə paltarı geyəndən sonra adamlar bərabərləşir. Siqaret çəkirdi. Əyilə-əyilə yeriyirdi. Gəlib yanımda dayandı, üzümə baxıb:

— Deyəsən sən də mənim kimi yata bilmirsən! — dedi.

— Hə, — dedim. Siqaretinə qullab vurub:

— Sən bura niyə düşübsən, qızım? — deyə soruşanda mən gülüb dedim:

— Məni bura bir kitab salıb!

— Kitab? — Təəccübləndi.

— Hə, mənim şəkər xəstəliyim var. Həyəcanlanmaq, əsəbiləşmək olmaz mənə. Kitab elə maraqlı idi ki, gecəni səhərəcən yatmadım, oxudum. Çoxluca da ağladım — kitab ağlatdı məni. Sonra ürəyim gedər, bir də ayıldım gördüm xəstəxanadayam.

— Nə kitabı imiş o elə, sizi xəstələndirib?

— Sakit Aranlının kitabıydı.

Mən bu sözləri deyəndə o nə üçünsə qımışdı. Siqaretinin kötüyünü pəncərənin açıq nəfəsliyindən bayıra atıb yenə qımışa-qımışa dedi:

— Bəs söymədiniz o kitabı yazanı?

Mən tələsik:

— Yox, yox, nə danışırsınız? Mən onu çox istəyirəm. — dedim — o, mənim ən çox sevdiyim yazıçılarımızdandı. Adamın dili quruyar onu söyən yerdə.

Güldü:

— Şəxsən tanıyırsan onu?

— Yox, hələ indiyəcən bir nəfər də olsa canlı yazıçı görməmişəm, müəllim.

— Sakit Aranlını görsəniz neylərsiniz?

Mən bir an duruxdum və birdən dedim:

— Onu qucaqlayıb üzündən öpərəm, müəllim, əlindən öpərəm. Qələm tutan əlindən...

Dəhliz alaqaranlıq idi, amma küçədən içəri işıq düşürdü. Kişi üzü pəncərəyə sarı dayanmışdı, sifəti, gözləri aydın

görünürdü. Bir də baxdım ki, onun qonur gözləri yaşardı, nə isə demək istədi, ancaq səsi içəridə qırılıb qaldı. Taqəti kəsilmiş kimi yavaşca özünü divarın dibinə verdi və söykəndi. Mən qorxdum:

— Sizə nə oldu, halınız pisləşdi? Növbətçi həkimi çağırım? — Təlaşla soruşdum.

— Yox, yox, heç nə lazım deyil, — dedi. — Sadəcə olaraq həyəcanlandım. — Mil-mil pijamasının cibindən siqaret çıxardı, damağına qoyub kibritlə yandırdı. Mən kibrit işığında onun gözlərinin yaşardığını və əlinin titrədiyini apaydın görüb məəttəl qaldım. Siqaretin tüstüsünü sinəsinə çəkib üfürəndən sonra: — Çox sağ ol, qızım, — dedi. Mən heç nə başa düşməyərək gözlərimi döydükdə o təkrar elədi:

— Çox sağ ol, qızım. Sənin bu mükafatın mənim bəsimdi. — Yenə heç nə anlamırdım. Mən sözü, işarəni tez başa düşənəm, Gülü. Ancaq indi elə bil basaratımı bağlamışdılar. Key kimi idim. Çaşqınlıq və nigarançılıq içində soruşdum:

— Siz nəyə görə mənə çox sağ ol deyirsiniz, hansı mükafatdan danışırsınız, müəllim?..

O, kürəyini divara söykəyib nədənsə sıxılırmış kimi:

— O kitabı yazan mənəm, bacım,— dedi. Düzü, qulaqlarım guruldadı, elə bil sinəmin içində at çapmağa başladı. Ürəyimin döyüntüsünü eşitdim elə bil.

— Siz Sakit Aranlısınız? — Bu sözləri elə bərkdən və həyəcanla dedim ki, səsimdən özüm də səksəndim. O, xoşbəxtcəsinə gülümsündü və başını tərpətməklə «hə» söylədi. Sən təsəvvür eləyirsənmi ki, mən nə haldaydım, Gülü. Sevdiyim, pərəstiş elədiyim, üzünü heç vaxt görüb kəlmə kəsmədiyim, amma xəyalımda əbədi həmdəmimə çevirdiyim, sözlərini, kəlamlarını əzbər bildiyim bir qələm sahibi yanımdaydı — mən bayaqdan onunla danışırmışam, səsini eşidirmişəm — ilahi, bu, mənim üçün nə boyda böyük səadət idi. Tanımaza-bilməzə dediyim xoş sözlər onu da kövrəltmişdi. Mən onun gözünün yaşarmasının, titrək səslə «bu mənim üçün ən böyük mükafatdır» deməsinin mənasını sonralar daha dərindən anladım və özümdən çox razı qaldım. Mən

demişdim: «Ona rast gəlsəm bağrıma basıb üzündən öpərəm, əlindən öpərəm, qələm tutan əlindən...» — bu sözlər ona ləzzət eləmişdi, görünür. Mən həssas bir oxucu kimi qəlbimdəkini söyləmişdim. Və əgər o an mənim sevimli yazıçım: «Bax, o dediyin oğlan mənəm, öp üzümdən, öp əlimdən!» — deyə üzünü mən tərəf əysəydi, əlini mənə sarı uzatsaydı, kim bilir, bəlkə də tərəddüd edərdim, öpməzdim. Nə bilim, bəlkə də kim bilir öpərdim. Ancaq o mənim ona bəslədiyim bu məsum məhəbbətdən, minnətdarlıqdan sui-istifadə edən adama oxşamırdı, o elə adam ola bilməzdi, buna onun ürəyi gəlməzdi. Bunu da sənə deyim ki, o kecə mənim, həyatımda unudulmaz gecələrdən biri olduğu kimi, onun da ömrünün yaddan çıxmaz bir gecəsiydi. O qədər sevinmişdi, xoşhal olmuşdu ki, ağrılarını da unutmuşdu — az sonrakı söhbətindən öyrənmişdim ki, mədəsi xəstəymiş — on iki barmaq bağırsağında çat əmələ gəlibmiş və neçə il imiş dəhşətli ağrılara dözə-dözə yaşayırmış. Xəstəxananın görkəmli cərrahı, cavan, istedadlı həkim Kamil Məmmədov söz vermişdi ki, kəsəcək, sağaldacaq və o, indi hələ cərrahiyyə əməliyyatına dözmək, bıçaq altından salamat çıxmaq üçün dava-dərmanla bədənini möhkəmləndirirdi.

O gecə çox şeydən danışdıq — kitablarında məni maraqlandıran suallarıma cavab aldım, sevindim, rahatlandım. Sonra o mənimlə maraqlandı:

— Yaxşı, sən cavan qızsan, necə olub bu şəkər xəstəliyi səni tutub, Sahibə xanım? — deyə soruşduqda:

— Mən bu xəstəliyə doqquz yaşında ikən mübtəla olmuşam, Sakit müəllim, — söylədim.

— Doqquz yaşında? — heyrətlə içini çəkdi.

— Bəli.

— Maraqlıdı. — O, fikrə getdi, siqaretini sümürdü. Qəribə idi, mənə nədənsə elə gəldi ki, o, mənə çox yaxın adam oldu birdən-birə məhrəmləşdi, sandım ki, məni çoxdan, lap çoxdan tanıyır, mən də gözümü açıb onu görmüşəm — dostuq, aramızda iyirmi beş-otuz il fərq olmasına baxmayaraq biz lap yaxın adamlarıq. Bir böyük kimi, əziz insan kimi ona hər şeyi, ən gizli

sirləri də etibar edib danışmaq olar. Və mən heç özüm də bilmədim ki, nə vaxt öz dərdli həyatımı ona nağıl eləmişəm.

— Hər şey bankadan başladı, müəllim — dedim.

— Necə yəni bankadan?

— Mənim altı yaşım tamam olandan az sonra anam bu dünyadan köçdü. Evdə atam və özümdən on yaş böyük qardaşım qaldı. İlk aylar çox istədiyim anamın kürlüyünü elədim, ağladım, sıtqadım — ancaq anam qayıtmadı. Sən demə, bu yol elə bir yolmuş ki, gedən geri qayıtmırmış. Bu acı həqiqəti dərk eləyəndən sonra gözümü darvazadan çəkdim, o, vaxt hələ, anlamadığım tale deyilən şeylə barışıb oturdum. Ev işlərinin çoxu mənim boynuma düşdü. Qardaşım məktəbə gedirdi, atam neft mədənlərində işləyirdi. Səhər çıxıb axşam qayıdırdı.

Çay qoymaq, süfrə salıb yığışdırmaq, ev-eşiyi silib süpürmək... bütün bu işləri mən görürdüm. Onda evimiz Bilgəhdə idi — ayrıca həyətimiz vardı. Atam boş vaxtlarında öz yeməyimiz üçün göy-göyərti əkərdi, balaca bağımızda əncirimiz, üzümümüz vardı. Dolanışığımız yaxşı idi.

Mən ikinci sinfə keçəndə atam bir gün axşam evə elə təxminən qardaşım boyda bir oğlanla qayıtdı — həyətin o başındakı balaca otağımızı ona verdi və bizə dedi:

— Bu oğlan — adı Mir Sahibdi — burda yaşayacaq, mənim şəyirdimdi.

Oğlan başıaşağı, utancaq bir oğlan idi — rayonlu balası idi. İmişlidən gəlmişdi. Səhər atamla bir gedər, axşam da bir yerdə qayıdardı. Atam nədənsə onu çox istəyirdi. Qardaşımdan heç ayırmazdı. Əvvəllər çay-çörəyini bizimlə birgə yeyərdi. Yatmağa isə öz hücrəsinə çəkilərdi.

Bir gün atam işdən həmişəkindən tez qayıtdı. Gözümə yorğun dəyirdi. Mir Sahib işdəydi, qardaşım məktəbdə. Kişi çox halsız idi. Dedi: «Qızım, mənə yer sal, xəstələnmişəm. Kürəyimə də banka qoy — kürəyim nə isə yamanca ağrıyır». Mən o deyən kimi elədim. Atamın çarpayısında yorğanını qaldırıb kürəyinə özü istəyən təki iki yarımkiloluq banka qoydum. Bir azdan bankaları

çəkdim. Kişi yatmışdı. Heç xəbəri yox idi. Sən demə kişi elə banka altında keçinibmiş. Sən demə infarkt imiş. Həmin gün atamın öldüyünü biləndə qorxmuşam və elə o vaxtdan da o şəkər zəhrimar məni tutub. Bunu sonra həkimlər başa saldı.

— Ərə getmisən?

— Hə.

— Kimdi yoldaşın?

— Elə həmin oğlan, atamın şəyirdi. Kişi rəhmətə gedəndən az sonra qardaşım evləndi, mən yetimin müsibətli günləri başlandı. Gəlin əzazilin biri idi, hər gün bir şeyi bəhanə edib məni döyürdü, qardaşıma da məndən nə deyirdisə, o da döyürdü məni. Bir dəfə, axşam ər-arvad məni o ki, var kötəklədilər. Mən qışqıra-qışqıra həyətə qaçdım — bu zaman Mir Sahib harayıma çatdı və məni onların əlindən aldı, öz hücrəsinə gətirdi, ağzımın-burnumun qanını yuyub mənə təsəlli verdi və dedi:

— Bir də ora getmə, elə qal burda. — Başqa kimim-kimsəm, sığınacaq yerim olmadığından Mir Sahibin hücrəsinə sığındım. Burada cəmi bir çarpayı vardı. — Oğlan mənə verdi o çarpayını, özü isə döşəmənin üstündə yatırdı. Yeməyim, pal-paltarım da ondan idi. Qardaşım bir-iki dəfə kişiləşib Mir Sahiblə dava da eləmişdi. Mir Sahib ona demişdi: — Sənin bacın, mənim bacım, — heç fərqi yoxdur, qoy qalsın burda. Gəlin o uşağı yola vermir, qoy qalsın.

Nə isə qardaşım dinib-danışmırdı.

Beləliklə, mən onuncu sinfi bitirənəcən Mir Sahibin yanında qaldım — həqiqətən mənə bacısı kimi baxdı. Tez-tez həkimə aparırdı, dava-dərman alırdı. Mən həyatımda hələ elə yaxşı adam görməmişəm, müəllim. Allah onun ömrünü uzun eləsin.

— Bəs nə cür oldu, evləndiniz? — deyə Sakit müəllim məndən soruşdu.

— On səkkiz yaşım tamam olan günü mənə təzə paltar aldı, bir dəstə qızıl gül gətirdi və utana-utana mənimlə ailə həyatı qurmaq istədiyini bildirdi. Əgər razısansa... mən səni məcbur eləmirəm. Mən bu təklifi qəbul elədim, — o isə yeni bir alicənablıq

göstərdi. Fəhlə yoldaşlarını yığıb qardaşımın qapısına el adətincə elçi göndərdi. Nişanlandıq. On gün sonra toyumuz oldu. Sakit Aranlıya mənim bu söhbətim o qədər xoş gəldi ki, sevinc içində var-gəl eləməyə başladı.

— Halal olsun o oğlana, doğrudan yaxşı insan imiş, —dedi — neçə uşağınız var?

Mən başımı aşağı saldım, bu mənim yaralı yerim idi və ömrümün ən böyük nisgili idi.

— Uşağımız yoxdur, müəllim. Olmayacaq da... şəkər... O, bu sualı verməyinə peşman oldu və mütəəssir halda:

— Bağışla, — dedi.

Mən onun pərtliyini aradan qaldırmaq üçün zarafata salıb söylədim:

— Mir Sahibə deyirəm neynirsən məni, boşa. Uşağım olmur, özüm də həftə səkkiz, mən doqquz—xəstəxanalardayam. Səkkiz ildir iş-ev-xəstəxana arasında həlak-büryansan. Boşa get, bir cavan qız al, oğul-uşaq sahibi ol. Deyir yox, nə danışırsan, Sahibə. Mən heylə vicdansızlıq eləyə bilmərəm.

Kişi elə mənim danışığımdan Mir Sahibə vurulmuşdu:

— Səndən xahiş edirəm, o, yanına gələndə məni tanış elə. Qəribə insandı.

— O da sizi çox istəyir, müəllim. Görməzə-bilməzə heyrandı sizə mənim kimi, heç bilirsiniz sizinlə tanış olmağa nə qədər sevinəcək?

Nə başını ağrıdım, ay bacı, bir də ayıldıq gördük səhərə az qalır. Xudahafizləşib gedib yatdıq — düzü mən heç çimir də eləyə bilmədim. O gecə elə xoşbəxt idim ki, heç olmayan kimi.

Ertəsi günü, axşamüstü, Mir Sahib yanıma gələndə onları tanış elədim. Sakitin ilk sözü bu oldu.

— Mən səninlə görüşməyimə çox şadam, qardaş. Xanımın mənə sənin haqqında çox danışıb — halal olsun sənə, eloğlu. Sən kitab qəhrəmanı olmağa layiqsən. — Söhbətləri tutdu, Gülü. Az bir müddət içində dostlaşdılar. Mən xəstəxanadan çıxandan sonra da Mir Sahib onun yanına gedib-gəlirdi. Bir-iki dəfə də mən

getmişdim. O xəstəxanadan çıxandan sonra əlaqələrimiz kəsildi. Amma heç vaxt unuda bilmirik onu.

Bayaqdan Sahibənin vəcdlə söylədiklərinə qulaq asan Gülmirə birdən dikəlib:

— Dayan, dayan! — dedi. — O kitabı mənə görüm! — Və əl atıb Sakitin kitabını Sahibənin dizi üstdən götürdü və tələsik vərəqləməyə başladı. Heç nə demirdi, Sahibə də heç nə başa düşmürdü. Mat-mat rəfiqəsinin üzünə, hərəkətlərinə tamaşa eləyirdi. O isə, «bu dəqiqə» deyə-deyə kitabdan nə isə axtarırdı. Sahibə gördü ki, Gülmirə qalxıb oturub, kürəyi, çiyinləri açıqdı, sözsüz-sovsuz yorğanının bir ucunu çəkib onun ağ çiyninə örtdü və yavaşdan:

— Təzədən soyuqlayarsan, sən allah, özünü qoru! — dedi. Gülmirə sevinc içində:

— Aha, tapdım — dedi və şən-şən Sahibənin üzünə baxdı — Yazıb. Sakit Aranlı sizin haqqınızda yazıb. — Sənin də, Mir Sahibin də.

— Elə şey olmaz, Gülü! Sən allah düz deyirsən?

— Vallah, bax, budur. Özü də gör nə qədər yazıb!

Sahibə bilmədi neyləsin — çarpayının qırağından qalxdı, təzədən oturdu. Solğun sifətinə indi qəribə bir qızartı çökmüşdü. İri gözlərindəki kədər silinib getmişdi, bütün vücudu sevinc selində üzən bir kiçik qayıq kimi yüngül idi, yüyənsiz idi.

— Aman allah, biz kimik ki, o, bizdən də yazıb.

— Oxuyuram, görürəm Sahibə, Mir Sahib... Amma heç ağlıma da gəlmirdi ki, bu, siz olarsız... Sən bayaq banka söhbətindən sonra nə isə tutuldun.. Məni fikir götürdü ki, bu qız niyə belə eləyir — gah deyir yaxşı bankə qoyuram, gah da deyir... yox... Şübhələndim... Sakitin kitabı yadıma düşdü... Ancaq uzatmadım...

Sahibə kitabı Gülmirənin əlindən almaq istədi:

— Aman allah, gör həyatda necə qəribə-qəribə işlər olur. Heç ağlıma da gəlməzdi ki. Ver, sən allah, ver oxuyum, görüm nə yazıb, Gülü!

Gülmirə onun əlini geri itələdi:

— Yox, Sahibə, sonra oxuyarsan. İki daşın arasında bu boyda kitabı oxuyub qurtara bilməzsən, bacı.

— Məgər onun hamısı bizim haqqımızdadı?

— Ayrı adamlardan, da yazıb, ancaq əsas qəhrəmanlar sizsiniz!

Sahibə sadəlövhcəsinə güldü:

— Qəhrəman ha. Biz kimik ki, bizdən qəhrəman da olsun. Mir Sahib adi fəhlə babadı, mən də xəstə evdar qadın.

— Əsas qəhrəman olmaq üçün heç də böyük adam olmaq lazım deyil, bacı. Yazıçı bir də görürsən lap adidən də adi bir adamın həyatını elə qələmə alır ki, baxıb heyrət eləyirsən. Bu qələm sahibinin hünərindən, qabiliyyətindən, qüdrətindən asılıdı. Sakit burada sizdən elə yazıb ki, sizi sevməmək mümkün deyil. Xüsusilə Mir Sahibi çox gözəl yaradıb.

— Allah onun ömrünü uzun eləsin. Mənim kimilərin ömründən kəsib onun ömrünə calasın tanrı.

— O, bizim yaxşı ziyalılarımızdandı, Gülü. Amma heyf, qədrini bilmir bizimkilər. Gözü-könlü tox adamdı, gözü öz qabağına eşən deyil, — onun yerinə kim olsaydı, lap elə bizim bu dayılı, arxalılarımızdan kim olsaydı, dörd-beş gözlü otağı olardı, bağı-bağçası olardı. Ancaq onun heç nəyi yoxdu. İki balaca otağı var, böyük ailəsilə orada yaşayır, özü mətbəxdə yazıb-yaradır. Niyə? Çünki tələb eləmir, gedib-gəlmir, gözləyir ki, kimsə gəlib deyəcək, oğlan, bu nə şəraitdi sən yaşayırsan. Al, bu beş otağın açarı, get-yaşa, yaz-yarat. Ay gəlib dedilər ha!

Sakit adamdı — kimsə ilə işi yoxdur. Səhərdən axşamacan başını salıb aşağı, şeytan fəhləsi kimi işləyir, idarədə elmi əsərini yazır, evdə romanlarını...

Gülmirə Sakitdən aludəçiliklə danışırdı; Sahibəyə bu sözlər nağıl kimi şirin gəlirdi, ləzzət eləyirdi, elə bil, o, atası haqqında, Mir Sahib haqqında danışırdı. Yox, onlar haqda danışsaydı, belə həzz almazdı bəlkə də. Hardasa ürəyinin dərinliyində hiss eləyirdi ki, Sakit — ötəri tanış olduğu, söz-söhbətini qəlbində unudulmaz

bir xatirə təki yaşatdığı o bəstəboy, qonurgöz, gicgahlarının tükü ağarmış kişi onun üçün daha əzizdi; gördüyünə, kəlmə kəsdiyinə görə fəxr eləyirdi. İndi budur, onların barəsində kitab da yazıb. Gör Mir Sahib necə sevinəcək bu xəbəri eşidəndə, aman allah.

Sahibə birdən ayağa durdu, kitabı demək olar ki, qamarlayıb Gülmirənin əlindən aldı:

— Bacı, sən allah, qoy aparıb kişiyə göstərim. Beşcə dəqiqə baxsın, Yenə gətirərəm.

Gülmirə güldü:

— Apar, sevindir. Mən oxuyub qurtarmışam. Qalsın, sonra verərsiniz.

— Ay sənə qurban olum.—deyərək otaqdan yel kimi çıxdı.

Gülmirə tək qaldı. Təzədən başını balışa atıb uzandı, yorğanı sinəsinə çəkdi. Əhvalı xeyli yaxşılaşmışdı, elə bil hərarəti də azalmışdı. Rahat nəfəs alırdı. Demək belə... Qonşularının taleyini öyrəndi. Hiss elədiyi düz çıxmışdı — bir-birini çox istəyən bu cavan ər-arvadın maraqlı olduğu qədər də kədərli olan ömür tarixçəsinin heç olmasa bəzi səhifələrini əvvəlcə kitabdan oxudu, sonra isə Sahibənin öz dilindən eşitdi. Bu Mir Sahib nə qəribə, nə təmizürəkli insan imiş. Sahibə onu nə qədər çox istəsə, yenə azdı. Sahibə hər gün onun başına dolanmalı, qədrini bilməlidi. Belə kişi hansı qadının əlinə düşürsə, o, sözsüz, xoşbəxt olur. Xəstə olsa da, uşaq üzünə həsrət qalsa da, Gülmirə Sahibəni bəxtəvər sayırdı indi.

Sonra Gülmirənin fikri dolanıb Sakit Aranlının üstünə qayıtdı və ürəyində ona «çox sağ ol» söylədi. Bir ədəbiyyatşünas kimi, o çoxdan Sakitin yazılarının sevilməsinin səbəbləri üzərində düşünürdü, ancaq bunun açarını tapa bilmirdi, ümumi sözlərlə onun əsərlərinin həyatiliyini qeyd eləyən tənqidçilərin fikri ilə şərik olurdu — ancaq indi, məhz bu gün, Gülmirə bu müvəffəqiyyətin əsl mahiyyətini başa düşdü — bu, insanların qəlbinə, həyatına nüfuz etmək, onların sevincini, kədərini ağ kağız üzərinə tökmək, yaşatmaq, təzədən onları insanların özünə qaytara bilmək bacarığı imiş, sən demə! Yazıçı gərək sözün əsl mənasında filosof

olsun, cəmiyyətin nə ilə nəfəs aldığını, insanların beynini, ürəyini, düşüncəsini məşğul eləyən əsas fikirləri, duyğuları dərk və kəşf edə bilsin, bunları sənətin ecazkar dili ilə bəyan eləməyə qadir olsun. Məhz bu zaman o, yaşamağa qadir olan sənət əsəri yarada bilər. Gülmirə indi — bu sadə evdar qadınla söhbət etdiyi anda bu böyük həqiqəti tam dərinliyi ilə başa düşdü və hədsiz dərəcədə sevindi. Bir də buna sevindi ki, onun iş yoldaşı, hamının çox sevdiyi Sakit məhz bu yolla gedir. Gülmirə gülümsündü: «Sabah ona danışacağam ki, sənin qəhrəmanların mənim qonşularımdı. Deyəcəyəm ki, sən onlara böyük sevinc bəxş eləmisən, Sakit, uçmağa qanadları yox idi. Şübhəsiz, o da fərəhlənəcək.. Sənətkar üçün bundan da böyük xoşbəxtlik ola bilməz, məncə...» Gülmirə gözlərini yumdu; yatmaq istəyirdi. Ayıqlıqla yuxunun qaynayıb-qarışdığı məqamda üzündə hənirti hiss elədi — kiminsə isti nəfəsi yanaqlarında, boğazında gəzib dolaşdı. Kirpiklərini qaldırmağa çalışdı, bacara bilmədi, daha doğrusu ürəyi gəlmədi. Bu nəfəs Orxanın nəfəsinə oxşayırdı — yalnız o belə gələrdi Gülmirənin yanına. Gözlərini açsaydı, o, çıxıb gedəcəkdi. Yox, getməsin, qalsın; Gülmirənin həyatının ağır günlərində Orxanın xoş sözünə, təsəllisinə, təmasına ehtiyacı vardı. Bax, budur, o, əyildi, Gülmirənin uçuqlayıb çartlamış dodaqlarından öpdü, soyuq, arıq əllərilə saçlarına sığal çəkdi; Gülmirənin bədəni isindi onun nəfəsindən. Sonra o, soyunub yorğanın altına girdi. Gülmirə dodaqlarını tərpətmədən, elə ürəyindəcə soruşdu.

«— Qapını bağladın?»

«— Hə».

«— Yaxşı elədin, yoxsa indi Sahibə gələcəkdi».

«— Sahibə kimdi?»

«— Qonşumdu. O dəfə sənə demədim? Nə tez yadından çıxdı».

«— Hə, yadıma düşdü. Yaddaşım yaman xarab olub gedib, Gülü, son vaxtlar. Dünyada hər şey yadımdan çıxıb. Təkcə sən qalıbsan yadımda, Gülü.»

Gülmirə onu sinəsinə sıxdı, bu sözləri pıçıldayan dodaq-

larından ehmalca öpdü.

«— Bəs neçə vaxtdı hardasan? Demirsən yolunu gözləyən var?»

«— Yolum tikan idi, gələ bilmirdim. Üstümə çoxlu gül tökmüşdülər; onları bir kənara atıb gəldim. Bildim ki, xəstəsən. Ancaq bağışla ki, əliboş gəlmişəm yanına. Pulum yoxdu. Orda ümumiyyətlə pul yoxdu. Bazar da yoxdu, aldadan, aldanan da yoxdu».

«— Mənə heç nə lazım deyil, Orxan. Sənin quruca gəlişin mənim toy-bayramımdı. Bax, gəldin, sağaldım. İndi heç yerim ağrımır».

«— O da gəlmişdi yanına?» — Gülmirə bilirdi ki, Orxan «o» deyəndə Əqdəmi nəzərdə tutur. Bu, hardasa ona ləzzət eləyirdi — Orxan da onu Əqdəmə qısqanırdı deyəsən.

«— Yox, Orxan. O, gedəndən cəmi bircə dəfə gəlib. Onda da acıqlı idi nə üçünsə. O məni unudub tamam. O məni sevmirmiş, Orxan! — Gülmirə onun burnuna bir çırtma vurub bic-bic gülümsünərək soruşdu — Bəs nə əcəb «o» yadından çıxmır, Orxan?»

— ««O» yadımdan çıxıb. Ancaq səni görəndə nə isə istər-istəməz o da yadıma düşür. Sir-sifəti yadımdan çıxıb, düzü. İndi görsəm tanımaram da. Ancaq bilirəm ki, sənin həyatında bir «o» da olub».

«— Sən ondan vəfalı imişsən, Orxan. Sən məni ondan çox sevirmişsən, Orxan.»

«— Onda, o zaman sən onu məndən çox istəyirdin, onun idin. Mən sənə yad idim, uzaq idim, əlim çatmırdı sənə. Kim bilir, bəlkə o vaxt sən məni sevsəydin, əzizləsəydin, mən getməzdim, yaşayardım.»

Gülmirə soyuq bir ah çəkdi.

«— Hə, düz deyirsən, Orxan. Sevsəydim, əzizləsəydim... Eləyə bilmədim, bacarmadım, Boğdum hisslərimi, canımı dişimə tutdum. Çünki buna mənim mənəvi ixtiyarım yox idi, Orxan. Mən rəsmən, qanunən onun idim. Sənin ola bilməzdim...»

«— Hə, düz deyirsən, Gülü»

Orxan susdu. Arıq, soyuq əlini Gülmirənin isti sinəsində gəzdirdi. Gülmirə bihuş oldu. Əllərini belinə dolayıb sonsuz bir həvəs və həsrətlə özünə tərəf çəkdi. Vücudunda xoş bir ağrı, sonra gözəl bir gizilti duydu. «Ah» — deyib süstəldi, qolları Orxanın kürəyindən surüşüb yanına düşdü.

«— Sən nə gözəlsən, Gülüm. Sən nə əvəzsizsən, nə doyulmazsan, Gülüm!»

«— Sən heç özün bilmirsən, necə şirinsən, Orxan... — Gülmirənin xoşbəxtlikdən gözləri yaşardı — Nə yaxşı oldu, gəldin, əzizim. Mən lap darıxmışdım səninçün. Sənə yalvarıram, məni tək qoyma. Dəli olaram yoxsa…»

Otaqda birdən nəsə tappıltı səsi eşidildi. Gülmirə yenə dodaqlarını tərpətmədən, elə ürəyindəcə dedi:

« — Vay, Sahibə gəldi... Sənə demədim qapını bağla?!» — Və heç kəsdən cavab eşitməyib gözlərinn açdı. Başının üstündə Sahibə yox, anası Xatın arvad dayanmışdı. Gülmirə səksəkəli, ürkək nəzərlə çarpayısına, böyrünə nəzər saldı — Orxan yox idi. Ayrı vaxt olsaydı, Orxanın qəfildən yoxa çıxmağına təəssüflənərdi, amma indi sevindi. Hər halda anasına qəribə, anlaşılmaz bir nəzər saldı «Vaxt tapdın gəlməyə?» Ancaq o, özünü tez ələ aldı, şirin-şirin gərnəşdi və beynindəki, gözlərinin qabağındakı «duman» çəkilib gedəndən sonra, Xatın arvada baxıb mehriban-mehriban gülümsündü. Xatın arvad qızını ərə verəndən sonra yanına az-az gələrdi. Gülmirə isə Əqdəm şəhərdə olanda onunla, olmayanda isə tək, tez-tez ata evinə baş çəkər, hal-əhval tutardı. Əri və atası öləndən sonra isə Xatın arvad, «bəxti gətirməmiş» balasının yalqız qalmasından yana ana təki yaman xiffət eləyir, canı saz, əhvalı yaxşı olan zaman özünü Gülmirənin yanına atır, ev işinə kömək edir, biş-düşünə baxırdı. Xatın çox demişdi:

— Köç gəl, atan evində yaşa, bala. Yerimiz gen-boldu. Nə var sığınmısan o qoca arvadın qoltuğuna, ayda da filan qədər mənzil kirayəsi verirsən. Burda yenə gözüm üstündə, əlim ağzında olar. Həm sən tək darıxmazsan, həm də mən...

Gülmirə daş atıb başını tutmuşdu:

— Yox, ana. Mən o evə bir də qayıtmayacağam — qız, atası evindən bir kərə çıxar, ana. Xalqımızın adəti belədi — sən özün də həmişə mənə belə deyibsən. İkincisi, özüm neçə ildi mənzil növbəsinə durmuşam, idarədə birinciyəm — bir də gördün bu gün-sabah çağırdılar, dedilər ev veririk.

— Yox ey, ay bala. Sən o evdən gedəndən bin-bərəkət də, səliqə-sahman da sənin dalınca uçub getdi elə bil. Ha əlləşdim, çalışdım, əl-ayağımızı bir yerə yığa bilmədim, elə bil gethagedimiz başladı.

— Elə demə, ana, bütün bunlar adi həyat qanunudur. Sən belə şeylərə fikir vermə. Məndən də nigaran olma, uşaq deyiləm ki...

— Ürəyimnən bacara bilmirəm, bala. Demək asandı.

Doğrudan da Xatın arvad bu qoca vaxtında özünü, həyatını, yaşayışını unudub Gülmirənin taleyini ürəyinə, dərd eləmişdi. «Qarabəxt uşağım, bəxti üzünə gülmədi, bir üzü qız-bir üzü gəlin qaldı, bunun axırı nə olacaq, ya rəbbim. Cavan gəlindi, haçanacan tək-tənha yaşayacaq?» — deyə-deyə içəridən şam kimi əriyib öləzimişdi. Vaxtilə ayaqlarını torpağa basanda yer titrəyən, ərinin zarafatla «yarım dünya» adlandırdığı arvadın tanınmalısı qalmamışdı. Onun belə sürətlə arıqlaması, dəyişilməsi Gülmirəni çox düşündürürdü. Bura gələndə daha iş görməyə qoymurdu, divanın üstündə oturdur, özü ona qulluq eləyirdi. Ana ordan-burdan, keçmiş günlərdən şirin-şirin danışır, Gülmirəni uşaqlıq illərinə qaytarır, sevindirirdi, bəzən isə kədərli söhbətlər başlanır, söz elə yerə gəlib çıxırdı ki, ana da, qız da qüssələnirdi.

Bu dəfə arvad ürəyi dolu gəlmişdi. Gəlmişdi desin ki, bəsdi daha tək-tənha oturdun, mənim də ürəyimi üzdün; səni istəyən, sənin istədiyin bir kişi yoxdumu bu boyda şəhərdə? Niyə çıxıb birinə ərə getmirsən, haçanacan oturub dizini, durub özünü görəcəksən? Ancaq Gülmirəni yorğan-döşəkdə görəndə nə üçün gəldiyi yadından çıxdı Xatın arvadın. İrəli gəlib qızının üzündən öpdü.

— Gəlmisən, ana?

— Hə, qurbanın olum, gəlmişəm. Sənə nə olub? — Heç nə, ay ana.. Dincəlirəm. — Xəstələndiyini gizlədi Gülmirə, arvadın onsuz da dərdi az deyildi.

— Yuxumu qarışdırmışdım bu gecə, nə isə gözümə bikef dəydin yuxuda. Dedim iraq candan, bəlkə xəstələnib eləyibsən... Elə səhərdən deyirəm durum gedim uşağa bir baş çəkim, iş-güc əlindən tərpənmək olur ki. İndicə gücnən çıxa bilmişəm.

— Yaxşı elədin gəldin, ana. Mən də darıxmışdım. — O, qalxıb geyindi, çiyninə jaket saldı. Xatın arvadın qolundan tutub divana sarı çəkdi, oturtdu. Özü mətbəxə keçdi, qazı yandırıb çaydanı su ilə doldurdu... Üz-gözünə su vurdu. Xatın arvad otağa göz gəzdirdi. Otaq həmişəki səliqə-sahmanda idi. Yeni heç nə yox idi. Birdən trümonun qabağında qoyulmuş şəklə arvadın nəzəri sataşdı. Kirpikləri tökülüb seyrəlmiş gözlərini qıyıb şəklə diqqətlə baxdı, baxdı. Tanış deyildi. Heç özü də bilmədi bu nə sevinc idi axdı doldu ürəyinə — elə bil baxışlarına nur gəldi. Şəkildən ona baxan yaraşıqlı, çatmaqaşlı, gülümsər sifətli oğlan sehrli bir duyğu ilə ona doğma göründü, əzizləşdi. Hə, Xatın arvadın istəyi yerinə yetir deyəsən. Gülmirə elə-belə, münasibətsiz-filansız heç kəsin şəklini gətirib gözünün qabağına qoymaz. «Demək, burda nə isə mühüm, sevinc dolu bir məsələ var» — deyə Xatın arvad ürəyindən keçirtdi. Yorğunluğu, əzginliyi o dəqiqə canından çıxdı, arvad quş kimi ayağa qalxıb trümonun qənşərinə adladı və şəklə lap yaxından tamaşa elədi. Ürəyinə yatdı. Qaşı, gözü, saçı öz yerində. Sifətindən nur damır. «Yaxşı oğlandı. Kaş ürəyi də gözəl olaydı, mənim balamı xoşbəxt eləyəydi» — Xatın arvad əllərini yuxarı qaldırıb dua elədi. Sonra vəcdə gəldiyindən sakit dayana bilməyib yorğan-döşəyi sahmana saldı, kətilin üstdəki termosu, stəkanları, qənddanı götürüb mizin üstünə qoydu. İçəri girən Gülmirə bunu görcək:

— Ay arvad, neyniyirsən? — dedi. — Gəl otur, mən özüm eləyərəm.

— Elə bir iş görmürəm, ay bala — deyib təzədən keçib divanda əyləşdi. Gülmirə hiss elədi ki, arvad nə isə bayaqkı kimi

deyil, dirçəlib, fərəhli görünür. Birdən-birə nə oldu ki, beş-on dəqiqənin içində o, beləcə dəyişdi? Ha fikirləşdi, səbəbini tapa bilmədi.

— İşlərin nə təhərdi, ay canım-ciyərim? — deyə Xatın yanında oturan qızının yumşaq tellərini sığalladı.

— Yaxşıdı, ana. Heç bir şikayətim yoxdu, — dedi nazlananaraq Gülmirə. Ümumiyyətlə o, işdə, idarədə olan söz-söhbəti təkcə anasına deyil, heç kəsə danışmağı sevməzdi. Müvəffəqiyyətini də, qanqaraldan işlərini də özü öz ürəyində götür-qoy edər, yaxşını, pisi özü qiymətləndirərdi. Salmanla toqquşmasını anasına demək istəyirdi, ancaq bundan da vaz keçdi. Ona görə demək istəyirdi ki, Salmanı anası yaxşı tanıyırdı, Salmanın — Nadirənin onların ailəsinin yanında binayi-qədimdən böyük hörməti-ehtiramı vardı. Xatın arvad xüsusilə Salmanın xatirini çox istəyirdi. Çünki Gülmirənin «elə böyük idarədə» işə düzəlməsində çox böyük zəhməti olmuşdu. Ona görə demək fikrindən daşındı ki, Xatın arvad, onların arasında baş verən bu münaqişənin əsl mahiyyətini Gülmirə necə izah eləsə də başa düşə bilməyəcək və Gülmirəni «elə kişinin» üzünə ağ olmaqda günahkar sayacaq, hələ bəlkə ağır söz də deyəcəkdi.

Arvadın indi kefi kök idi və Gülmirə əsla istəmirdi ki, ona qətiyyən dəxli olmayan bir məsələdən söhbət açsın və qan qaralığa səbəb olsun.

— Təki olsun, qızım.

Gülmirə anasının qırışmış sifətində gəzən sevinci bayaqdan görürdü və kirpiksiz gözlərini qeyri-iradi olaraq trümoya sarı dolandırdığını tutan kimi bu fərəhin hardan axıb gəldiyini başa düşdü, bir anlığa özünü itirən kimi oldu, ürəyini toxtatmaq, fikirlərini cəmləşdirmək üçün qalxıb mətbəxə keçdi, çay dəmlədi, qayıdanda isə anası nə soruşsa cavabları hazır idi.

— Bir stəkan çay iç, ana. Aclığın yoxdu ki?

— Yox, qızım, yeyib gəlmişəm. Çay içərəm amma.

Xatın kətilin üstəki armudu stəkanı götürüb əlinin içində saxladı. Gözləri isə tez-tez trümoya tərəf dolanırdı. Bunu Gülmirə

görürdü, ancaq özünü görməzliyə vururdu. Anasının xasiyyətinə bələd idi, düşünüb, qəlbində yüz dəfə götür-qoy eləyib axırı soruşacaqdı. Bu dəfə bir az hövsələsizlik elədi:

— O şəkil kimin şəklidi, qızım? — Başını şəkil səmtə döndərdi. Gülmirə əhəmiyyət vermirmiş kimi:

— Hansı şəkil? — deyə sakitcə soruşduqda Xatın:

— Odey, o qəşəng oğlan kimdi? — söylədi. Gülmirə əlini saçlarına çəkdi, bic-bic gülə-gülə:

— Qəşəngdi? — soruşdu.

— Hə, qəşəngdi, qızım. Kimdi o?

— Orxandı, ana. — Gülmirə «Orxan» sözünü hüznlə dilinə gətirdi.

— Nə yaxşı adı var bəxtəvərin?

«Bəxtəvərin…» Bu sözü Gülmirənin ürəyini titrətdi. «Bəxtəvərin...» İçərisi alt-üst oldu bu bir kəlmədən. Gülmirə yalnız indi başa düşdü ki, bu qeyri-adi sevda necə də izahedilməzdi; o, indi anasına necə başa salsın, necə desin ki, o, artıq yoxdu, öləndən sonra onu tapıb, qədrini bilib, əzizləmək istəyib, ancaq əli çatmayıb. Bu məhəbbəti o, başa düşməyə qadir idimi? Və ümumiyyətlə kim başa düşəcək bu sevgini? Heç kəs, heç kəs. Bəlkə hələ ona gülənlər də olacaq, qınayanlar da olacaq. Qoy olsun. Orxan onun əzizidi, Orxan onundu, o da Orxanın. Orxan dönük, dili bir, ürəyi ayrı söz deyən, yalan danışan bir çox kişilərdən təmizdi, ucadı.

— Hə, yaxşı adı var... — Kədərlə söylədi Gülmirə.

— Ürəyi də yaxşıdımı barı? — deyə Xatın qızının əhvali-ruhiyyəsindən bu oğlana vurulduğunu aşkar hiss elədiyindən ətraflı maraqlanmağa başladı. — Əsas ürəkdi, qızım.

— Hə, əsas ürəkdi. — Fikri Orxanın xatirələrinə bələnən, bədəni bir az əvvəl Orxanın vücudundan od tutub yanan Gülmirə fərqinə varmadan anasının sözlərini təkrar elədi.

— Səninlə işləyir?

— Hə.

— Alimdi o da?

— Hə.
— Harda yaşayır, qızım?
— Nə dedin?
— Deyirəm harda yaşayır?
Gülmirə xeyli fikirləşəndən sonra:
— Əjdahanın heykəlinin yanında — deyə cavab verdi.
— Səni çox istəyir?..
Gülmirə başının hərəkəti ilə «hə» — deyə cavab verdi.
— Sən də onu istəyirsənmi, qızım?..
Gülmirənin başı yenə tərpəndi.
Xatın arvad əyilib qızının başını qucaqladı, üzündən öpdü, hədsiz sevinc içində — elə bil, ona xeyir-dua verirdi — söylədi:
— Xoşbəxt olun, qızım. — O, əlini Gülmirənin çiyinlərində gəzdirdi. — Daha çıxart əynindən bu qara paltarı, qızım. Bilirsən ki, mən səni çox istəyirəm, bala. Səni xoşbəxt görməmiş ölmək istəmirəm. Sənin uşaqlarını qucağımda oynatmaq, atıb-tutmaq mənim ən böyük arzumdu, can bala. Bıy, sənə nə oldu, qızım? Niyə ağlayırsan? Hə, de görüm niyə ağlayırsan?
Gülmirə heç nə deyə bilmirdi, gözlərindən yanaqları aşağı yaş axırdı. Xatın çaşıb qalmışdı. «Yəqin sevindiyindəndi»....

## DOQQUZUNCU FƏSİL

Saat on bir idi. Nurəddin Osmanzadə təzə kabinetində oturmuşdu, qabağındakı makinada yazılmış siyahıya baxırdı və sol əlinin altında armudu stəkanda çay buğlanırdı, sağ əlində qələm tutmuşdu. İnstitut elmi şurası üzvlərinin adlarını bir-bir oxuyur, hərəsinin haqqında düşünür, ürəyinə yatan, yaxın sandığı alimləri saxlayır, döşünə düşməyənlərin, sözü üzə dik deməyə qadir olanların adının üstündən xətt çəkirdi. Öz aləmində elmi şuranı təmizləyirdi, «saflaşdırırdı.» Siyahıya elə adamlar salmışdı, elə adamlar əlavə etmişdi ki, onun bir sözünü iki eləyə bilməsinlər. Bu, onun ilk tədbiri idi. İkinci tədbiri müavini dəyişmək idi. Bu

balaca, çəlimsiz oğlanın o günkü iclasdakı çıxışı qətiyyən xoşuna gəlməmişdi. Yerinə adam fikirləşirdi, ancaq münasib bir şəxs ağlına gəlmirdi. Çaydan qurtum-qurtum içə-içə çox düşündü, «görək kimi taparıq», — deyə siyahını kənara itələdi, siqaret yandırdı və düyməni basdı. Şərqiyyə dabanlarını taqqıldada-taqqıldada qapı ağzında görünəndə siyahını ona uzadıb:

— Bunu makinada yaz, gətir qol çəkim, apar as elanlar lövhəsindən, — dedi.

Şərqiyyə vərəqi götürüb:

— Baş üstə! — deyərək çıxanda arxadan səslədi:

— Gör Aslanzadə gəlib? Gəlibsə yanıma çağır!

Şərqiyyə heç nə demədən getdi. Heç beş dəqiqə keçməmiş Aslanzadə içəri girdi. Nurəddini direktor stolu arxasında oturan görüb əllərini ovuşdura-ovuşdura gülümsündü:

— Stolun mübarəkdi.

Osmanzadə siqareti külqabıya basıb «sağ ol» demədən əlilə oturmaq işarəsi verib:

— Elə bilirdin sən etiraz eləyən kimi məni direktor qoymayacaqdılar? — söylədi.

Aslanzadə döş cibindən ağ daraq çıxarıb ağ saçlarını daraya-daraya:

— Yox, — dedi, — mən bilirdim ki, səni qoyacaqlar. Ancaq mən səni yaxşı tanıdığımdan və kommunist vicdanımın səsinə qulaq asdığımdan o sözləri deməli idim, Nurəddin. İndi sən mənim sözlərimi başa düşəsi halda deyilsən, çünki hələ bir az havalısan, təzə vəzifə, stol, səlahiyyət sənin gözlərini qamaşdırıb, lakin bir azdan bilərsən mən nə deyirmişəm.

Nurəddin siqaretini sümürüb tüstüsünü havaya üfürdü, qonur gözlərini qıyıb:

— Deyirsən yuxarıda oturan yoldaşlar səncə bilmirlər? — söylədi.

Aslanzadə sakit:

— Yox, mən elə demirəm, Nurəddin! — dedi. — Bəlkə də onlar məndən çox bilirlər, ancaq mən səni onlardan yaxşı tanıyı-

ram. — Aslanzadə nə fikirləşdisə: — Yaxşı, sən məni bura dava eləməyə çağırmısan ya başqa bir sözün var? — deyə soruşdu. Nurəddin tutuldu:

— Mən dava eləmirəm, söhbət eləyirəm. Bilirsən mənim danışığım belədi.

— Mən elə bir də buna görə deyirdim ki, sən camaatla işləyə bilməzsən.

Nurəddin ayağa qalxdı, otaqda kreslonun arxasında olan boş yerdə var-gəl eləyə-eləyə boğuq bir səslə:

— Mən səni ona görə çağırmışam ki, möhürü, seyfi təhvil verəsən. Kağız-kuğuzu təhvil verəsən, — dedi.

Aslanzadə mənalı-mənalı qımışdı:

— Təhvil-təslim eləmək üçün nə vardı ki? Dərziyə dedilər köçürsən, iynəsini sancdı papağına, dedi mən hazır, — O cibindən iki dilli bir açar çıxartdı — al, bu, seyfin açarıdı, möhür də seyfdədi. Planlar-flanlar müavindədi, maliyyə kağız-kuğuzu da mühasibatdadı.

Nurəddin açarı götürdü, seyfi cingilti ilə açıb möhürü və bir neçə qovluğu orda görüb təzədən bağladı və açarı cibinə qoydu. Aslanzadə cibindən siqaret çıxartdı, yandırdı. Ani olaraq düşündü: «Neçə gündü xəstə yatdığımı bilirdi, heç soruşmadı kefin, səhhətin necədir! İnciyib yəqin. Ey gidi dünya, düz söz deyəndə niyə bilmirəm adamların acığına gəlir? Amma dildə hamısı kommunist prinsipiallığından ağızdolusu danışır! Eybi yoxdur».

— Gedə bilərsən! — Nurəddinin quru və soyuq səsi eşidiləndə Aslanzadə qalxdı, qapıya sarı bir addım atdı və nə fikirləşdisə dönüb direktora nəzər saldı:

— Məni belə yola salırsan? Nurəddin duruxdu:

— Necə yəni? Necə yəni «məni belə yola salırsan»? Bu nə deməkdi?

Aslanzadə pencəyinin düyməsini bağlaya-bağlaya:

— Mən özümdən əvvəlki direktoru yola salanda bir dəstə qərənfil aldırmışdım, bütün kollektivi salona yığmışdım və xətir-hörmətnən ayrılmışdıq. Buna baxmayaraq ki, prezidium işindəki

nöqsanlarına görə ona töhmət də vermişdi.

— Sənə isə təşəkkür verib prezidium. Daha nə istəyirsən ki?

— Heç nə, Nurəddin. Şəxsən mənə heç nə lazım deyil. Bu, məndən çox sənə lazım idi. — Aslanzadənin səsindəki kinayəni və incikliyi duymaq o qədər də çətin deyildi, lakin Nurəddin bunu da hiss eləmədi. Aslanzadə «yox!» eşidəcəyini bilə-bilə, tutqun halda söylədi:

— Nurəddin, dəhlizin o başında, şöbənin yanındakı kabineti mənə versən, pis olmaz. Sənə verdiyim o tək otağı deyirəm...

Nurəddinin alt dodağı sallandı!

— Yox, orda mən qonaq-qara qəbul eləyəcəyəm. Dünyanın hər yerindən qonaqlarım gəlir. Aslanzadə yumşaq-yumşaq:

— Mən qonaq-qaranı burda qəbul eləyirdim, Nurəddin, — dedi.

— Bura namünasibdi. Ora yaxşıdı.

— Bəs mən harda oturacağam, Nurəddin?

— Harda? Öz şöbəndə! Başqa şöbə müdirləri harda oturur? Hər kəs öz şöbəsində oturur. Sən də şöbəndə oturarsan. Otağımız çatmır, özün məndən yaxşı bilirsən bunu?!

Aslanzadə daha heç nə söyləmədi, baxışlarını onun uzun sifətində, tez-tez qırpılan kirpikləri altından baxan gözlərində ötəri gəzdirib yavaşca kabinetdən çıxdı... Və elə həmin gün təzədən özünü pis hiss elədiyinə görə işdə dayana bilməyib evə gəldi və təcili yardıma zəng elətdirdi.

O gedəndən sonra Nurəddin Osmanzadə seyfi açdı, kağızları, qovluqları qabağına töküb tanış olmağa başladı. Müxtəlif yerlərdən — Moskvadan, Leninqraddan, xarici ölkələrdən gəlmiş məktublar səliqə ilə bir qovluğa yığılmışdı, prezidiumun sərəncamları ayrı bir qovluğa. «Kişi səliqəli imiş» — deyə Nurəddin gülümsündü. Sonra sarı qovluq əlinə keçdi. Açdı... Ərəb əlifbası ilə yazılmış saralmış vərəqləri görən kimi yadına Salman düşdü.

— «Aha, budur o qız deyən qovluq», — sevindi və düyməni basıb Şərqiyyəni çağırdı:

— Gülmirəni bura çağır.

— Bu dəqiqə.

Gülmirə qayğılı halda direktorun kabinetinə girəndə o, qovluğu vərəqləyirdi.

— Otur.

Gülmirə divarın dibindəki stulda əyləşdi, ürəyi əsirdi, çox həyəcanlı idi. Lap əslini axtarsan, indi Gülmirə tutduğu işdən peşman idi. Bu ittihamın necə ağır olduğunu sanki sonradan dərk eləmişdi. İki hiss qəlbində bütün bu müddət ərzində dör-dör döyüşmüşdü. Biri demişdi: «Sən haqlısan, Gülmirə. Əsər oğrusu — vicdan oğrusu, namus oğrusu kimi bir şeydir, qız. O, öz dostuna, ustadına xəyanət eləyib — xəyanət isə cavabsız qala bilməz. Xəyanətkarın cəzasız qalması təzə-təzə, başqa-başqa cinayətlərin yaranmasına səbəb ola bilər. Sən peşman olma, Gülmirə. Bu addımı atmısan, Orxanın ruhunu şad eləmisən, geri durma, geriyə yol yoxdur, Gülmirə!» Özgə bir duyğu isə həlim-həlim pıçıldayırdı onun qulağına: «Yazıqdı Salman, qız, bu, onu məhv eləməyə bərabərdi, Gülmirə. O ölər, ürəyi partlar. Nadirə də yazıqdı. Salmanın sənin boynunda haqq-sayı çoxdu. Hamı sənə namərd, yaxşılıq itirən deyəcək və sonra heç kəs nə qədər ömrün var, heç kəs yaxşılıq eləməyəcək, qız, hələ gec deyil, götür o qovluğu geri. Mirzə Yanar onsuz da yoxdur, geri qayıtmayacaq, Salmanı da üstəlik itirərsiniz...»

Bax, Gülmirə bu çalpaşıq hisslər əlində çırpına-çırpına Nurəddinin qabağında əyləşmişdi və direktorun nə deyəcəyini, özünün nə cavab verəcəyini götür-qoy eləyirdi. Nurəddinin gümrah səsi onu düşüncələrdən ayırdı:

— Bu qovluqdu sən Aslanzadəyə verdiyin qovluq? Gülmirə elə yerindən stola sarı boylandı və:

— Hə, odur! — dedi.

— Demək, deyirsən ki, professor Qurbanzadə mərhum Mirzə Yanarın əsərini götürüb eynilə öz adına çap etdirib, hə? — Nurəddin bu sözləri elə tərzdə söylədi ki, Gülmirənin «bəli» deməkdən başqa çarəsi qalmadı.

— Bu, sənin əlinə hardan düşüb, qız?

— Bunu mənə mərhum Orxan vermişdi. Demişdi ki...

— Sən özün hər iki əsəri tutuşdurmusan?

— Bəli.

— Eynidir?

— Hə, — Gülmirə düzgün cavablar verirdi və hər kəlmə dilindən çıxanda da ürəyi sinəsindən qopub ayaqlarının altına düşürdü. Çaşqınlıq hissi boğazını qurutmuşdu. Odur ki, özünü toplayıb az qala yalvarıcı səslə direktora dedi: — Yoldaş Osmanzadə, bunu mən demişəm, ancaq siz özünüz, mənsiz həll eləyin... Çox xahiş edirəm. O kişi ilə üz-üzə gəlməyə mən...

— Sən narahat olma, qız. Sən çox vacib və alicənab bir iş görmüsən. Bu, məni çox sevindirir. Biz belə adamların maskasını yırtmalıyıq, ifşa etməliyik. Sən heç nədən qorxma, mən durmuşam sənin dalında. Mən komissiya təşkil edəcəyəm, onlar yoxlayacaqlar, tutuşduracaqlar, qərar yazacaqlar. Ancaq mən istəyirəm sən də bu komissiyanın tərkibində olasan, çünki bu işin əsas təşəbbüskarı sən olmusam.

— Əgər mümkünsə, professor... — deyə Gülmirə yalvardı az qala.

— Ba, bu olmadı. Yox, biri sən. Başqa kimi məsləhət bilirsən?

— Mən...

— Nadirə olmaz, Salmanın arvadıdı. Aha, o gün iclasda danışan oğlanın adı nə idi? Şairdi-nədi deyəsən?

— İltifatı deyirsiniz?

— Hə, hə, İltifat. Mejduproçim, onun çıxışı çox xoşuma gəldi. Ağıllı oğlana oxşayır. Hə. Biri də o.

Gülmirənin ürəyi sıxıldı, istədi etiraz eləsin. İltifatın yaltaq və ikiüzlü olduğunu desin, ancaq düşündü ki, direktor onun özü barədə pis fikrə düşə bilər. Ona görə ürəyində qaynayan sözləri dilinin ucundan geri qaytardı və ağızucu:

— Özünüz bilən məsləhətdi, — dedi.

— Üçüncüsü də Cəfər olsun. Ağsaqqaldı, deyəsən hamınızdan da savadlıdı.

— Nə deyirəm.

— Elə bu gündən başlayın işə. İltifata da, Cəfərə də mənim adımdan de. Əsər heç yerə çıxmamalıdı, elə burda, mənim kabinetimdə oturub işlərsiniz... Salman əlyazmasını aradan çıxardar, qalarıq quru yerdə. Mən Salmanı sizdən yaxşı tanıyıram, — deyə o, bayaqdan ilk dəfə gülümsündü.

Gülmirə şöbəyə qayıdanda Salman başını qaldırıb onun üzünə baxdı, lakin o, birbaş Nadirənin stoluna sarı addımladı. Hələ bir az əvvəl Şərqiyyə Gülmirəyə «səni direktor çağırır» — deyəndə hamı kimi, Salmandan da çox, Nadirənin dalağı sancmışdı. Ürəyinə dammışdı ki, Nurəddin Gülmirəni ancaq Salmanın məsələsinə görə yanına dəvət edir. Zənni aldatmamışdı, Gülmirə əhvalatı yavaşca Nadirənin qulağına pıçıldadıqda onun bədəni isindi, dodaqları təpridi, baxışlarını dolandırıb başaşağı nəsə yazan Salmanın üzünə zillədi, ancaq kişinin heç nəyi vecinə almadan işlədiyini görüb qeyzindən dodaqlarını gəmirdi: «Zalım oğlunun heç vecinə deyil. Ya doğrudan da arxayındı, ya da iradəsi, əsəbləri dəmirdəndi?» — deyə düşünən Nadirə qələmini stola taqqıldadıb əzgin bir səslə:

— Yoldaşlar, bir dəqiqə sizi işdən ayırıram, — dedi,— bağışlayın. İltifat, sən, Cəfər müəllim, sən müdiriyyətin tapşırığı ilə Gülmirə ilə birlikdə o mübahisəli əsəri yoxlayıb fikrinizi rəsmi surətdə yazmalısınız. Gülmirə sizi başa salar harda necə işləyəcəksiniz.

Otağa sükut çökdü. Cəfər yazıq-yazıq Nadirənin üzünə baxdı. Ömründə cəncəl işlə arası olmamışdı. Qaçmışdı həmişə belə mübahisəli şeylərdən. Kimsəyə pislik eləməmişdi. Pis adama rast gələndə ondan uzaq dolanmağa çalışmışdı. Ona pislik eləyənlərə iş vaxtı pisliklə cavab verməmişdi, sadəcə olaraq, ondan küsmüşdü həmişəlik. Elə adamın adını necə deyərlər, dəftərindən birdəfəlik silib atmışdı. Öləndə üstünə də getməmişdi; indinin özündə üç-dörd nəfər vardı ki, on beş il, iyirmi il, hətta iyirmi beş il idi ki, danışdırmazdı. Sadəcə olaraq, bu adamlar gözünün qabağında gəzib-dolansa da, yox idilər onun üçün, ölmüşdülər.

Gülmirənin o dəfə iclasda əsə-əsə elədiyi etiraf — Salmanın Cəfərin tapdığı Füzuli avtoqrafını qəsdən, bilə-bilə Gülmirənin adına çap etdirməyə çalışması, bu böyük sevinci onun əlindən alıb Gülmirəyə verməsi məsələsi qoca Cəfəri yamanca sarsıtmışdı, kişi neçə vaxt özünə gələ bilməmişdi, sərxoş adamlar kimi gəzib dolanmışdı. Hətta qulaqlarına belə inanmaq istəməmişdi.

Və həmin gündən Salman ölmüşdü Cəfər üçün. Bir şöbədə işləsələr də, axşamacan on dəfə qabaqqənşər çıxsalar da, Cəfər onu görmürdü, saymırdı; Salman iki-üç dəfə yaşca özündən xeyli böyük olan Cəfərə salam vermişdisə də o, düz keçmiş, salamını cavabsız buraxmışdı. Bu uzun illər ərzində Cəfərin xasiyyətinə yaxşı bələd olan Salman başa düşmüşdü ki, Cəfər küsüb və bir daha barışmaz. Yer üzündə bir o qala, bir Salman, o barışmaz. «Əh, cəhənnəmə ki» — deyə Salman da Cəfəri ürəyindən çıxartmışdı.

Cəfər Nadirənin yanına gəlib:

— Məni komissiyanın tərkibindən çıxardın! — dedi. — Mən Salman adlı alim tanımıram!

Nadirə pərt halda kişiyə baxdı— Cəfərin ürəyinə o, Salmandan da yaxşı bələd idi — incimədən, mülayimcəsinə:

— Başa düşürəm səni, Cəfər müəllim. Ancaq bu komissiyanı mən təşkil eləməmişəm, direktor eləyib! Get yanına, de, o sənin yerinə ayrı adam təyin eləyər, — söylədi. Nadirənin sözləri Cəfərin ağlına batdı, gedib beş-on dəqiqədən sonra qayıtdı və elə qapıdan içəri girən kimi:

— Dedim, düzəldi, mənim yerimə Gülalını təyin elədi — dedi. — Keçib yerində oturanda Salman ona baxıb nə üçünsə mənalı-mənalı gülümsündü.

Gülmirə Nadirəyə tərəf əyildi və yenə pıçıltı ilə:

— İndi neyniyim, bacı?— deyə təlaş içində, düşdüyü ağır vəziyyətdən çıxış yolu axtaran adamsayağı soruşduqda Nadirə əvvəl başa düşmədi:

— Nəyi neyləyəsən?

Gülmirə başı ilə Salmana tərəf işarə elədi:

— Onun işini də...

Nadirə çiyinlərini çəkdi:

— Nə bilim. Elə bir iş tutubsan ki, nə açmaq olur, nə bükmək. Yəni əslində səndə də günah yoxdu. Əsl günah Salmanın özünündü. Neyliyəcəksən, necə var, elə də yazmalısan. Bunun başqa yolu yoxdur. Öz cəzasıdı, qoy çəksin. Özü yıxılan ağlamaz.

Nadirənin dedikləri Gülmirəni azca toxtatdı. Rahat nəfəs alıb yerinə keçdi. Ancaq heç cür fikrini toplayıb işləyə bilməyəcəyini görərək dəhlizə çıxdı.

Salman stolunu cırıldadaraq ayağa qalxıb pəncərənin qənşərinə gəldi. Küçəyə baxdı, hər yan ağappaq idi. Donub sürüşkən olmuş cığırla iki qız bir-birindən tuta-tuta addımlayırdı. Azca aralıda oynayan iki yeniyetmə qızlara qar topu atdı, qızları karıxdırdı. Onlardan birinin ayağı sürüşdü və tir-tap cığırın kənarındakı dəci pozulmamış qarın üstünə yıxıldı. Oğlanlar şaqqanaq çəkib gülüşdülər. Rəfiqəsi yıxılanın əlindən tutub qaldırdı və qoluna girdi. Salman bu mənzərəyə baxıb qımışdı və geri dönəndə baxışları İltifatın baxışları ilə rastlaşdı. O, iri, domba gözlərini qaçırtdı. Salman qəsdən onun üzünə baxmaqda davam etdi. İltifat bir də kirpiklərini qaldıranda Salmanın ayrı cür baxdığını anlayıb qızardı. Bilirdi ki, Nurəddinin təqdimat məclisindəki çıxışı Salmanın bərk acığına gəlib. Bunu o, əslində heç danışmağa başlamamışdan da başa düşmüşdü. Ancaq özu ilə bacara bilmədi. Fürsət idi. Nurəddinin qəlbinə yol tapmaq, qılığına girmək üçün əsl məqam idi və bu anı o, buraxa bilməzdi. Lakin axı Salman da vardı orada. Özü də, lap yaxın vaxtlardakı söhbətlərindən çox yaxşı anlamışdı ki, Salmanın Nurəddindən zahləsi gedir. Yəqin idi ki, bu hiss ikibaşlı olur — yəni tam aydın idi ki, Nurəddinin də hardasa onu görməyə gözü yoxdu. Təfərrüatını, bu ziddiyyətin köklərini bilmirdi əlbəttə. Lakin ona gün kimi aydın bir həqiqət də var idi — Salmanın onun boynunda haqqı-sayı çox idi. Hər şeydən əvvəl, ilk şer kitabı barədə ürəkdolusu bir məqalə yazmışdı. Bu, məqalə tənqidin onun haqqında ilk sözü idi. O zaman İltifat düşünmüşdü ki, ömrü boyu o kişiyə minnətdar olmalıdı. Bu da heç vaxt yadından çıxmayacaqdı

ki, o məqalə üstündə Salmanla Nadirə — bu ər-arvad üz-göz olmuşdu. İkincisi, İltifatı bu instituta şəxsən Salman gətirmişdi, kiçik elmi işçi vəzifəsinə düzəltmiş, istiqamət və mövzu vermişdi. İltifatın akademik atası, o bu instituta gələndə artıq ölmüşdü. Cavandı, istedadlıdır, arada-bərədə itib batmasın deyə Salman ona havadarlıq eləmişdi. O zaman İltifat nə isə öz qəribə fikirləri, mühakimələri ilə Salmanı yaman əfsunlamışdı. İltifat, atasının kölgəsi əleyhinə çıxırdı onda, «Kölgədə bitən ağacın kölgəsi olmaz, — deyirdi, — hara gedirəm, neyləyirəm, onun adı-sanı üstümə kölgə salır. Bu dəhşətdir, — deyirdi». Görünür, yeniyetməlik fəlsəfəsi imiş bu onun. O, hələ özünü axtarırmış demək, tapmırmış, çırpınırmış. O İltifat hara, Salmanın indi tanımağa başladığı İltifat hara? İndi o, qətiyyən Salmanı qane edə bilmirdi. Deyəsən vəzifə, məqam bu cavanın gözünü tez qamaşdırır, dəyişdirir. Dünənə qədər o, Salmana tapınmışdı, iclaslarda Salman kimi bir alimin yanında, əlinin altında işləməsi ilə öyünürdü. Salmanı şöbə müdirliyindən çıxartdılar. Onda İltifat xeyli müddət susdu, səsi çıxmadı. Birdən akademik Osmanzadə ortalığa çıxanda İltifatın dili açıldı, elə bil. O nə çıxış idi İltifat elədi?! Salmanın lap əti töküldü özü demişkən. Dişi bağırsaqlarını kəsə-kəsə qulaq asdı. Fürsət tapıb ona çəpəki bir nəzər də saldı. Ancaq nə onda, nə də sonra İltifata heç nə demədi. İndi isə Salmanın taleyini həll eləməyi Nurəddin üç adama tapşırıb ki, biri də o idi. Məqam idi, İltifatın kişiliyi, dəyanəti, mərdliyi üzə çıxacaqdı. Salman yenə özünəxas bir təmkinlə susub nəticəsini gözləməyi qərara almışdı — məhz buna görə o, İltifata o cür müəmmalı və mənalı baxırdı. Və qəribə idi ki, ürəyində onu qoca Cəfərlə müqayisə eləyirdi, Gülmirə ilə yox. Gülmirə qadın idi. Salman isə hər qadından kişilik, mərdlik gözləyən adamlardan deyildi. Budur, Cəfər. Bir üzdə, bir sifətdə. Dostdu-dostdu. Kişi kimi. Salman onun haqqında namərdlik eləyib. Bunu özü də başa düşürdü və buna görə indi özündən zəhləsi gedirdi. Ancaq eləmişdi — bu, onun təbiəti idi, dəyişə bilməzdi; o, çox vaxt haradasa Cafərə təmizliyinə görə, bütövlüyünə görə dərin bir qibtə

hissilə baxırdı. «Kaş mən də elə olaydım, elə ola biləydim — adım-sanım olmayaydı, heç nəyim olmayaydı, təkcə vicdanım, ürəyim təmiz olaydı; bunu heç kəs görməsəydi də, eybi yoxdu. Özüm ki görərdim, özüm ki bilərdim və onda alnıaçıq, qəlbi rahat yaşayardım» — düşünürdü hərdən. Və ara-sıra, bax belə gərgin anlarda, «həyatda kimlər xoşbəxtdir?» sualı üzərində düşünməyə imkan tapan vaxtlarda içərisini yandırıb-yaxan bu ağrını-acını təəssüf ki, heç kəsə, hətta arvadına belə etiraf eləyə bilmirdi və o dərdi tək-tənha çəkməli olurdu. Bu hiss unudulan kimi yenə əvvəlki Salmana dönürdü. Qəribə idi ki, özünün içini, ürəyini görə-görə, bu təbiətindən zəhləsi gedə-gedə beləcə yaşayır və ayıq başla başqalarını — Gülmirəni, İltifatı, Cəfəri, Nurəddini mühakimə edir, onların yaxşı və pis cəhətlərinə qiymət verirdi. İnsan anlaşılmaz məxluq imiş! — deyirdi Salman belə hallarda.

...Uzun dəhlizdə, «Aşdım-daşdım» çiçəyi əkilmiş dibçəyin yanından fikirli-fikirli keçəndə Gülmirə Sakitlə rastlaşdı. O, çox şən görünürdü, sifətinin açılmış rəngindən, iri, qonur gözlərinin ətrafa az qala nur çiləyən baxışlarından, şax və inamlı addımlarla yeriməsindən bilinirdi ki, kefi kökdü; əslində bu, Gülmirəyə belə gəlirdi. Sakit elə əvvəlki kimi baxırdı, sifəti də, gözləri də elə qabaqlar necəydisə, indi də eləydi. Əksinə, əgər Gülmirə ona diqqətlə nəzər salsaydı, gözlərinin dərinliyindəki qayğını, qüssəni aydın görə bilərdi. Bu qayğı və qüssə onun təzəcə çapdan çıxmış romanı ilə bağlı idi, «yaxşımı, pismi qarşılayacaqlar?» — sualının doğurduğu nigarançılıq və intizar, işdə də evdə də dilinə gətirməsə də, onun ən böyük və gizli nisgili və qorxusu idi.

Gülmirə onu görən təki, Salmanla bağlı bütün düşüncələrini yaddan çıxartdı, ürəyində xoş bir əhvali-ruhiyyə yarandı. Dünən axşam Sahibə ilə olan söhbətini xatırlayıb üzündə təbəssüm, Sakitə salam verdi. Sakit gecələr işlədiyindən səhər idarəyə hərdən saat on birdə gələrdi. Aslanzadə özü onun üçün bu şəraiti yaratmışdı. Kişi ziyalı qədri bilən idi. Sakitin əsərlərini, vaxtının az olmağına və gözlərinin zəiflədiyinə baxmayaraq, həmişə oxuyardı, fikrini söyləyərdi. Sakit bu instituta gələndən Aslanzadə ona

olmazın qayğı göstərmişdi və bundan özü də mənəvi zövq və ləzzət almışdı. Bir də hər yerdə, həmişə öyünmüşdü ki, Sakit onun tələbəsi olub.

— Otur, əsərlərini yaz, bala, — demişdi — Sən gündə səkkiz saat gəlib burda otursan, yorularsan, işləyə bilməzsən. Burdan maaş alan adamların hamısı məqalə-filan, dissertasiya-zad yaza bilər, ancaq sənin yazdığın romanları bunların heç biri yaza bilməz. Özü də sən bir-iki məqalə yazmasan, elmimiz bir şey itirməz. Ancaq sən romanlarını yaza bilməsən, ədəbiyyatımız çox şey itirə bilər. Mən sənə icazə verirəm, nə vaxt istəyirsən onda da gəl-get. Bircə iclaslardan qalma, — deyəndə Sakitin sevincdən gözü yaşarmışdı, az qala müəlliminin əlindən öpmək istəmişdi. Ancaq söz tapa bilməyib təkcə: — Sağ olun, müəllim. Minnətdaram, — deməklə kifayətlənmişdi. Gözü ona görə yaşarmamışdı ki, müəllim ona bir sənətkar kimi çox yüksək qiymət vermişdi; qədirbilən əlinə düşdüyündən, qədri bilindiyindən sevinmişdi Sakit. Lakin o, sonralar məlum olduğu kimi, dkrektorunun bu lütfündən sui-istifadə eləməmişdi. Bacardıqca, imkanı olduqca yoldaşlarından ayrılmamış, vaxtlı-vaxtında idarəyə gəlib-getməyə çalışmış, özünü heç kəsdən üstün tutmamışdı. Bu gün isə nədənsə səhər saat altıyacan çimir eləmədiyindən yubanmışdı — idarədə qarşısına çıxan birinci adam Gülmirə olmuşdu. Gülmirə Sakitin nəzərində yüksək səviyyəli oxucu, orta səviyyəli ədəbiyyatşünas idi. Taleyini bilirdi, eşitmişdi; Əqdəmi tanımırdı, görməmişdi, ancaq Orxanı yaxşı tanıyırdı. Od-alov parçası idi o oğlan. İclaslarda, ədəbi yığıncaqlarda ağzından dürr tökülərdi, saatlarla qulaq assaydın, yorulmazdın. O vaxt Orxanın qəfil ölümünü eşidəndə Sakit yamanca sarsılmışdı, heyfsilənmişdi. Sağlığında şəxsi yaxınlıqları demək olar ki, olmamışdı. Ancaq Orxan öləndən sonra çap olunan «Mirzə Cəlil» kitabını və qəzetlərdə, jurnallarda çıxan şerlərini, hekayələrini oxuyan Sakit bu vaxtsız ölümə daha çox yanmışdı, «qalsaydı, yaşasaydı, nələr yaradardı!» — fikri ürəyini göynətmişdi. Sakit bu instituta gələndən xeyli sonra Orxanın bir vaxt Gülmirəyə vurulduğunu da eşitmişdi; Salman da o dəfə

iclasda bunu açıq söyləmişdi — ona görə Sakit hər dəfə Gülmirəyə rast gələndə, onunla danışanda istər-istəməz Orxanı xatırlayırdı, onların arasındakı məhəbbətin — özünün də əgər deyilənlər düz idisə — maraqlı, şirin və bir qədər də kədərli bir roman ola biləcəyini düşünürdü. Ancaq bu məhəbbət dastanı hələlik bağlı bir sandıqdaydı, ona Sakitin əli çatmırdı və kim bilir, bəlkə də heç vaxt çatmayacaqdı.

Gülmirə Sakit üçün maraqlı bir insan idi — onunla söhbət etmək, onun ürəklə, inanaraq dediyi sözlərə qulaq asmaq xoş idi. Danışanda hiss edirdin ki, düşündüyü budur, kəlmələrinin arxasında ürəyi durur, vicdanı dayanır. İclasda mərdi-mərdanə ayağa qalxıb Salmanın üzünə bəd əməllərini dediyi gün Sakit uzun müddət özünə gələ bilməmişdi. Gülmirədəki cəsarət onu valeh eləmişdi. Salmana — adı-sanı az qala göz qamaşdıran, özünü elm fədaisi, ağsaqqal, xeyirxah bir adam hesab edən professor Salman Qurbanzadəyə nə qədər nifrət etmişdisə, Gülmirəyə bir o qədər qibtə eləmiş, rəğbət bəsləmişdi. Qoç döyüşünə quzu çıxmışdı — bu idi onu Sakitin gözündə böyüdən. Məhz buna görə idi ki, srağagün təzə kitabının üstünə «Xalqımızın ləyaqətli və cəsarətli qızı Gülmirəyə...» — deyə avtoqraf yazıb vermişdi.

İndi, şöbəyə gedərkən, uzaqdan, dəhlizin o başından Gülmirəni görəndə həmişə olduğu kimi yenə sevindi.

— Salam, Sakit! — Gülmirə onu qabaqladı.

— Ay salam, mənim cəsurum. Necəsən?

— Yaxşıyam. Sakit, sənin kitabını oxuyub qurtardım.

— Belə tez? — Sakit çatıb qarşısında dayandı.

— Hə, təsəvvür elə ki, bir günə oxudum.

Bu, ilk oxucu sözü idi. Sakitin ürəyi titrəyirdi. Qorxudanmı, həyəcandanmı, «necədi?» — soruşmağa dili var gəlmədi — maraq və intizar dolu gözlərini Gülmirənin qəşəng, kiçik ağzına dikib indicə məzəmmət olunacağını, ya tərif ediləcəyini bilməyən uşaq kimi gözlədi:

— Çox yaxşı kitabdı, Sakit, demək olar ki, birnəfəsə su kimi içdim. Haçandı belə roman oxumamışdım. Adamın ürəyini çəkib

çıxardır, elə bilirsən o adamlar sənin gözünün qabağındadı, elə bilirsən sən özünsən. Psixoloji dərinlik, incəlik, şairanəlik bəzəyir onun hər səhifəsini. İşıqla doludu o kitab. Kədər də var — bu kədər müqəddəs kədərdi, insanın içini yuyub təmizləyən, saflaşdıran, müdrikləşdirən kədərdi. Oxuyandan sonra düşünürsən, düşünürsən, bu qərara gəlirsən ki, yer üzünün əşrəfi olan insan doğrudan da böyükdü, ucadı, əlçatmazdı, lap mən deyərdim, allahın özüdü. Bir də bu qənaətə gəlirsən ki, min illər boyu yazsalar da, içində baş vurulmamış bir künc-bucaq qoymasalar da sənətkarlar, uzaq, ünyetməz qalaktika kimi sonsuzdu, dibsizdi ürək, açılmamış sirrləri açılmışlarından çox-çoxdu və kainatın yaratdığı möcüzələrin ən möcüzəlisidi ürək... Sən elə bir psixoloqsan ki, qadın ürəyinin elə bil içində oturubsan, qadının özünə belə məlum olmayan, anlaşılmaz əsrarını elə gözəl...

Alnında bu gözlənilməz təriflərdən tər muncuqlanan Sakit daha özünü saxlaya bilməyib təbiətinə xas incə yumorla:

— Bəsdi, daha bəsdi, mənim cəsurum, — dedi. — Səninçin ayıb olsun ki, məni belə tərifləyirsən, mənimçin də ayıb olsun ki, belə şirin sözləri dinləyirəm... — Güldü.

— Yox, yox, nə danışırsan, Sakit? Mən hələ fikrimi tam ifadə eləyə bilmirəm. Təəssüratım o qədər çoxdur ki, lazımi söz tapmaqdan acizəm. Gülmə, vallah, ciddi deyirəm... Sağ ol, bu kitab üçün.

— Sən də sağ ol, Gülmirə. — Sakit cibindən dörd bükülmüş mil-mil dəsmal çıxarıb alnının tərini sildi, sonra qızıl sağanaqlı eynəyinin şüşələrini təmizləyib yenidən taxdı və: — Əgər dediklərin həqiqətdirsə, mən xoşbəxtəm, mənim cəsurum. Düzü, o kitabdan sonra bunu yazmağa qorxurdum, çox qorxurdum, elə bilirdim ürəyim boşalıb, nə sözüm var, deyib qurtarmışam, daha heç nə yaza bilmərəm. Ancaq, görünür, həyat bitib-tükənməz bir çeşmədir, həmişə qaynayır, axır, çünki dibi torpağın təkindədir, gücü ətrindədir gülündə-çiçəyindədir, insanlarındadır həyatda qorxaqlıq pisdir — nifrət edirəm. Ancaq sənətkarın öz sənəti qarşısında qorxması-əsməsi müqəddəsdir — bu, məsuliyyət demək-

dir, özünə və oxuçusuna, tamaşaçısına ehtiramdır. Mən indi düşünürəm ki, nədən qorxurmuşam. Mən zəiflikdən qorxurmuşam, oxucu inamı öldürməkdən qorxurmuşam. Qələm əhli üçün zəiflik və oxucusunun inamını öldürmək — özünün ölümü kimi bir şeydir, Gülmirə...

— Sən...

— Daha tərifləmə, sən allah. — Sakit sağ əlini onun dodaqlarına yaxınlaşdırdı — tərif mey kimi məstedici olur, adamın başını gicəlləndirir, gözünü qamaşdırır, arxayınlaşdırır, bir də ayılıb görür ki, dahilik xəstəliyinə tutulub. Bu isə, allah göstərməsin, sağalmaz bir mərəzdi — Birdən Sakit nə fikirləşdisə, sözünə ara verdi: — Bura bax, sən mənim düşmənim deyilsən ki? — deyə ciddi şəkildə soruşduqda Gülmirə özünü itirdi və kəkələdi:

— Mən? Sənin düşmənin? Bu nə sözdü? Allah eləməsin...

Sakit ürəkdən şaqqanaq çəkib güldü:

— Bilirsən bunu niyə deyirəm? Yox? Mənim bəzi üzdəniraq dostlarım var, nə yazıramsa, deyirlər, əladır. Qətiyyən nöqsan görmürlər məndə. Ancaq ordan-burdan qulağıma çatır ki, mənim «Dostlarım» deyirlər ki, onun yazdıqları elə bir şey deyil: müdrik bir kəlamı yadıma saldın indi sən məni tərifləyəndə: «Düşmən adamı öldürmək üçün tərifləyər!».

Gülmirə də güldü:

— Yox, mən sənin dostunam, düşmənin deyiləm, Sakit. Bir də mən o məşhur kəlamı qəbul eləyə bilmərəm, ağlıma batmır. Yaxşını gərək tərifləyəsən, pisi də pisləyəsən. Hər tərifləyən düşmən ola bilməz, hər pisləyən də dost. Bu şərti şeydi, əlbəttə.

— Düzdü, mənim cəsurum. Bu kəlam, əlbəttə, ikiüzlülərə, dili bir, ürəyi ayrı söz deyənlərə aiddir.

Gülmirə əlini uzadıb yaşıl aşdım-daşdımın bir ləçəyini qopartdı, burnuna yaxınlaşdırıb iylədi və qəfildən:

— A, az qala yadımdan çıxmışdı. Sənə Sahibə xanım çox-çox salam göndərdi. — söylədi.

Sakit gözlərini döydü:

— Sahibə kimdi?

— Sahibə də... sənin qəhrəmanın. Mir Sahibin arvadı. Sakit yenə xatırlaya bilmədi, gözlərini qıyıb yaddaşını araşdırdı, yadına heç kəs düşmədi.

— Xəstəxanada...

Sakit Gülmirəyə sözünü axıracan deməyə imkan vermədi:

— Ah, yadıma düşdü... Bilgəhli qızı... Hə, hə. Yaxşı, sən onları hardan tanıyırsan, ay Gülmirə?

— Onlar mənim qonşumdu, Sakit. Axşam bizə gəlmişdi. Kitabını gördü, elə sevindi ki...

Sonra Gülmirə dünən axşam Sahibə ilə etdiyi söhbəti yerli-yataqlı ona nağıl elədi. Sakit bu təsadüfdən çox mütəəssir oldu. Xəstəxanada keçirdiyi o ağır günləri təzədən yaşadı elə bil. Sahibədən, Mir Sahibdən çox razılıq elədi. Buna da təəssüfləndi ki, elə gözəl insanlarla sonralar əlaqəsi kəsilib. İş çox, vaxt az... qayğılar...

— Sən allah, yadıma sal, onlara bir kitab göndərim. Üstünü yazaram, apararsan.

— Yaxşı. Çox sevinərlər, Sakit.

Sakit nə isə fikrə getdi, ani sükutdan sonra:

— Uşaqları olmayıb ki? — deyə soruşdu. Gülmirə astadan:

— Yox! — dedi, — olmayıb.

Sakit başının seyrəlmiş tüklərinə əl çəkib köksünü otürdü:

— Hayıf!..

Bu zaman akademik Nurəddin Osmanzadə dəhlizin o başında göründü. Gülmirənin arxası ona tərəf idi. Gəldiyindən xəbəri yox idi, ancaq Sakit qəribə bir sövq-təbii ilə, özünəməxsus həssaslıqla duydu ki, indicə nə isə olacaq — narahat oldu, Gülmirəni dinləyə-dinləyə direktor gələn səmtə nəzər saldı. O, gəlib yanlarından keçəndə, Sakitə çəpəki baxıb - elə bil kimsə ona söyləmişdi — ayaq saxladı. Onlar direktorla salamlaşmaq istədilər, ancaq o buna macal vermədi.

— Yoldaş ədib, bu nə vaxtın işə gəlməyidi? Saat neçədi?

Sakit bu gözlənilməz sualdan çaşan kimi oldu. Günahkar uşaq kimi Nurəddinin üzünə baxıb gülümsədi. Ancaq direktor

buna məhəl qoymayıb çox ciddi tərzdə:

— Səndən soruşuram, indi saat neçədi? — deyə təkidlə soruşanda o:

— On ikinin yarısıdı, — dedi.

— İş saat neçədə başlayır?

— Doqquzda, — dedi və təəccüblə direktora baxmaqda davam etdi sonra sanki gecikməyinin səbəbini izah edirmiş kimi astadan: — Gecə səhərəcən işləmişəm, yoldaş Osmanzadə, — söylədi.

Nurəddin rəsmi bir tərzdə:

— Onun mənə heç dəxli yoxdu, — dedi. — Qanun hamı üçün eynidir. İş vaxtı işdə olmalısan.

— Baş üstə! — dedi Sakit. Ancaq Gülmirə dözmədi, özünü saxlaya bilmədi, çünki gördü ki, Osmanzadənin sözləri onun qəlbini necə sındırdı.

— Akademik Aslanzadə ona icazə vermişdi, nə vaxt istəyirsən, onda da gəl-get — demişdi — O, yazıçımızdı axı bizim. Nurəddin sərt bir hərəkətlə ona sarı döndü:

— Akademik Aslanzadənin açdığı bazar bağlanıb daha, qız. Burda mən yazıçı-mazıçı tanımıram. Bura elmi idarədi, Yazıçılar İttifaqı deyil.

Sakit siqaret yandırdı, direktorun üzünə baxmadan;

— Aydındı, yoldaş Osmanzadə, — deyə dilxor halda siqaretini sümürdü. Direktor addımlarını iri-iri ataraq onlardan uzaqlaşdı. Gülmirə ilə Sakit söz tapmırmış kimi bir neçə an susdular; bayaq fərəhdən-sevincdən üz-gözündən nur yağan Sakitin əhvalı tamam pozulmuşdu, rəngi boğulmuşdu. Elə Gülmirə də az pərt olmamışdı. «Mən yazıçı-mazıçı tanımıram» sözləri Gülmirəni Sakitdən az sındırmamışdı. Gülmirə onun halını yaxşılaşdırmaq, təsəlli vermək üçün söz axtarırdı, ancaq ağlına heç nə gəlmirdi. Sakit yenə tüstünü ciyərinə çəkib:

— Fikir vermə, Gülmirə xanım, — dedi, — hamı Aslanzadə kimi olsaydı, onun qədri-qiyməti bilinməzdi, Deyəsən, kişi bir şey bilirmiş ki, prezidiumda bunun direktor təyin edilməsinə etirazını

bildirib.

— Əlbəttə. Aslanzadə müdrik adam idi. Pay sənin! —deyə Gülmirə təəssüfünü gizləyə bilmədi. — Bu boyda kişi necə də bir anın içində gözümdən düşdü ey. Necə yəni yazıçı-mazıçı tanımıram? Bəs onda sən kimi tanıyırsan? Sən əgər xalqının yazıçısını tanımırsansa, qədrini bilmirsənsə, onda sən heç özünü də tanımırsan... Mən...

Sakit gördü ki, Gülmirə danışdıqca hirslənir, araya söz salıb söhbəti Aslanzadənin üstünə gətirdi:

— Aslanzadə ilə sən bunu nahaq müqayisə eləyirsən, Gülmirə xanım. Bu, ona bənzəyir ki, sən brilyantı dəmirlə yanaşı qoyursan. Mənim Osmanzadə ilə o qədər yaxınlığım olmayıb, oturub-durmamışam, ancaq mən adam tanıyanam, adamın bu üzündən baxanda, o üzünü görürəm. Bu sözlərimi yadında saxla, sonra vaxt gələr görərsən ki, Sakitdə bir peyğəmbərlik də var imiş; Bax, bizim təzə direktor könül sındırmaqdan, pislik eləməkdən həzz alan bir adamdır. Yaxşılıq eləmək deyilən şey onun dəftərində yazılmayıb. O, alim olub, ancaq insan ola bilməyib, ola da bilməz. Təbiətən belə yaranıb, belə də yaşayacaq. O sənin, mənim başa düşdüyümüz mənada ziyalı deyil. Buna ancaq, təəssüf eləmək lazımdı. Yaxşı ki, beləlbri təkəm-seyrəkdi. Aslanzadələrin müqabilində bu cür adamlar çox miskin görünürlər.

— Aslanzadə ipək kimi adamdı. İnstitut əməkdaşlarının hamısı — böyükdən tutmuş kiçiyə qədər — elə bilirdi ki, direktor atasıdı, qardaşıdı, dostudu, kimin nə dərdi vardı, gedib deyirdi. Əlindən gələni eləyirdi. Heç nə bacarmayanda da, heç olmasa ağıllı məsləhət verirdi.

— Bəli. Çox adama yaxşılıq eləyib o! Uzağa niyə gedirsən, elə biri mənim özüm. Mən onun çörəyini yeyirəm. Gülmirə xanım, sözün həqiqi mənasında onun çörəyini yeyirəm. Bu özü qəribə bir hekayətdir. Ha deyirəm yazım, imkan tapa bilmprəm. Sakit şirin danışan idi və Gülmirə bunu bilirdi. Xüsusilə öz başına gələnləri söyləyəndə o, daha ürəklə danışardı. İndiki qanqaralığı unutmaq üçün, bura münasib olmasa da, Gülmirə istərdi ki, Sakit o

«qəribə hekayəti» qısaca nağıl eləsin. Dililə «danış» deməyə çəkinirdi, amma eşitmək də istəyirdi. Gülmirənin təpədən-dırnağa maraq donu geyindiyini hiss eləyən Sakit, azca əvvəl şüşə kimi saf və təmiz qəlbini öz kobud sözləri ilə sındıran Nurəddini özündən çox cavan olan və onun qədər həyat təcrübəsi olmayan Gülmirənin gözündə «öldürmək» və insanlar arasında mələkxislət adam kimi tanınan Aslanzadəni göylərə qaldırmaq arzusunu boğa bilməyərək, Gülmirəyə müraciət etdi:

— Başağrısı deyilsə, danışım sənə.

— Danış-danış, maraqlıdı.

Sakit bir dənə də siqaret yandırdı və sözə başladı:

— Əlli üçüncü il idi. Atası, anası çoxdan ölmüş mən yetim onuncu sinfi bitirib, nənəmin qonşulardan aldığı az miqdar pulla Bakıya gəlmişdim və sənədlərimi universitetə vermişdim. Qalmağa yerim yox idi, şəhərdə tanış-biliş, qohum-əqrəba da yox idi. Elə ilk gün bizim kənddən olan Süleyman adlı bir oğlana rast gəldim — o da imtahan verməliydi. Burda subay, arvad-uşağı olmayan, təkotaqlı evində tək-tənha yaşayan əmisi vardı — onun evində qalırdı. Məni də özüylə əmisigilə apardı və ondan xahiş elədi ki, mən də onlarda qalım. Kişi qırçı idi, nurani sifəti vardı, çox mehriban və qayğıkeş bir insan idi. Səhər gedərdi, axşam gələrdi. İndi ölüb — Allah qəbrini nurla doldursun. Bəli, biz — Süleyman və mən burda yaşayır, imtahanlara birlikdə hazırlaşırdıq. Qiymətlərimiz yaxşı idi, ikimiz də eyni qiymətlər almışdıq. Ancaq rus dilindən imtahan verərkən qiymətlərimiz haçalandı — o, yazıdan iki, mən isə üç aldım: onda rus dilindən yazılı və şifahi imtahanı ayrı-ayrı verməliydik. İki imtahanın qiymətini toplayıb orta bir qiymət verdilər. Şifahidən o da üç aldı, mən də. Axırıncı imtahan qalırdı. Coğrafiyadan. Bundan bir üç ya dörd ala bilsəydim, qəbul olunurdum. Süleymanın vəziyyəti isə bir qədər dumanlı idi. Yazıdan iki alandan sonra heç imtahana getmək istəmirdi, mən onu zorla apardım. Yaxşı da ki, aparmışam. Üç aldı şifahidən. Ancaq o «iki» bizi çox nigaran qoymuşdu. Avqustun iyirmisində tezdən durub imtahana gedərkən mən qiymətlərim

yazılmış imtahan vərəqəmi tapa bilmədim. Süleymanın vərəqəsi yerindəydi, mənimki yox idi. İkimiz də bir yerə qoymuşduq. Evdə qocadan və bizdən başqa da kimsə yox idi ki, deyəm götürən olub. Otağı, kitabları ələk-vələk elədik — iynə olub yoxa çıxmışdı.

— Vay, yəqin Süleyman götürüb cırıb ey, — deyə Gülmirə hayıfsılana-hayıfsılana söylədi. — Elə bilib sən girəcəksən, o yox. Paxıllıqnan götürüb məhv eləyib. İkiniz də bir kənddən, fikirləşib ki,... — İnanmıram, Gülmirə.

— Yox, min faiz elədi. İnsandan nə desən çıxar. Düşünüb sən girəcəksən, o isə üzüqara kəndə dönəcək. Cəhənnəmə gedən yoldaşını çox istər — deyiblər atalarımız.

— Nə bilim, bəlkə də elədi. Qərəz, tapılmadı. Süleymana dedim: «Sən get imtahanını ver, mən görüm neyləyirəm».

Ölmüşdüm ayaq üstə. Az qalırdı ürəyim partlasın. Gəldim qəbul komissiyası sədrinin yanına. Mirzə Mədətov adlı bir kimyagər idi sədr. Keçəl, göygöz bir kişiydi. Əhvalatı danışdım. «Vərəqəmi itirmişəm, qiymətlərim də yaxşıdı, — dedim, — Mənə bir dənə ağ imtahan vərəqi verin. Gedim axırıncı imtahanımı verim. Vərəqəsiz məni içəri buraxmırlar, müəllim». Dinləyib dedi: «Yox, bala, buna mənim ixtiyarım yoxdu. Ərizə yaz, get prorektorun yanına». Getdim, o da göndərdi rektorun yanına. Onda rəhmətlik Cəfər müəllim idi rektor. Ərizəmi oxuyub dedi: «Eləyə bilmərəm, oğul, onsuz da uşaq çoxdu. Get, gələn il gələrsən». Dedim: «Müəllim, mən yetim oğlanam, getdim, gələn il daha gələ bilməyəcəyəm». Nə isə, burdan da ümidsiz qayıtdım. Onda universitet Xalq təsərrüfatı institutunun indiki binasında yerləşirdi. Kommunist küçəsində. Çıxıb qapının ağzında, məlul-müşkül, əzizi ölmüş kimi divara söykəndim. Yıxılmamaq üçün divara söykəndim. İmtahan doqquzda başlamışdı, indi saat bir idi. Bir azdan imtahan qurtaracaqdı və mən təzə tanış olduğum yoldaşlarımdan həmişəlik ayrı düşəcəkdim. Bunu fikirləşəndə doluxsundum. Elə bu zaman... bir də gördüm bax bu Aslanzadə mənə baxıb dedi:

— Ay oğul, nə olub sənə? Niyə belə bikefsən? Elə bil onu Allah yetirmişdi mənim üçün. Mən onun imtahanından beş

almışdım. Fikirləşdim ki, yəqin yadında qalmışam, ona görə belə maraqlanır. Sonralar bildim ki, elə şeyləri yadında saxlayan deyil — elə təbiəti beləymiş bu kişinin. Nə isə, ürəkləndim, başıma gələn fəlakəti danışdım ona. Bu, doğrudan da mənim üçün fəlakət idi. Aslan müəllim məni dinləyib dedi:

— Bura gəl, görüm! — Məni qəbul komissiyası yerləşən otağa, Mirzə Mədətovun yanına gətirdi və onunla görüşüb, hal-əhval tutandan sonra:

— Mirzə, bu oğlan imtahan vərəqəsini itirib, ona bir vərəqə yaz, qoy getsin imtahanını versin. Qiymətlərini sonra köçürərsən, — dedi.

— Baş üstə, Aslan müəllim, — dedi Mirzə Mədətov. Qulaqlarıma inanmadım. Bayaqdan mümkün deyildi. Bayaqdan.... Eh, nə isə. Heç bilmirəm vərəqəni necə aldım, onlara «sağ olun» dedimmi, demədimmi — yadımda deyil. Qaça-qaça biofakın dördüncü mərtəbəsinə gəldim. Axıra bir uşaq qalmışdı. Azca da geciksəydim, hər şey bitmişdi. Təngnəfəs içəri girdim. Coğrafiyadan imtahanı mərhum professor Qasım Gül götürürdü. Mən tövşüyə-tevşüyə dedim:

— Müəllim, bağışlayın, kecikmişəm.

— Gəl, bilet çək, otur fikirləş, — dedi professor. Suallarım çox asan idi. Demək olar ki, əzbər bilirdim. Ancaq ayağa durub danışmağa başlayanda dilim topuq çaldı. Aləmi qatıb-qarışdırdım bir-birinə. Professor məni saxladı:

— Ay bala, sənə nə olub? Görürəm bilirsən, ancaq nə isə... sözünün əvvəli-axırı yoxdu. O biri qiymətlərin nədi? — deyib ağ vərəqə baxanda təəccübləndi. Mən məcbur olub başıma gələn qəzavü-qədəri ona da danışdım və qiymətlərimi söylədim. Mənə inandı və dedi:

— Yaxşı, gəl xəritənin qabağına.

Xəritənin qabağına keçdim və haranı dedisə, oranı da gözüyumulu göstərdim. Xəritəni yaxşı «oxumuşdum»... Mənə dörd verdi və mən universitetə qəbul olundum.

— Hə, Aslan müəllimin bir sözü doğrudan da sənin taleyini

həll edib, — deyə bayaqdan diqqətlə qulaq asan Gülmirə sanki rahat nəfəs aldı. — Yəqin sonra Aslan müəllimə təşəkkür elədin, deyilmi?

Sakit güldü:

— Təsəvvür edirsənmi ki, yox!

— Yoox?

— Bəli, bu da qəribə bir hekayətdi...

— Burda səhv eləmisən, Sakit. Gərək sən dərs başlayan kimi Aslan müəllimi tapaydın, ona minnətdarlığını bildirəydin, onu da sevindirəydin.

— Mən də elə fikirləşmişdim, Gülmirə. Ancaq eləyə bilmədim. Sentyabrın birində ilk dərs günü, bir də gördüm Aslan müəllim sinfə girdi. Bizə ədəbiyyat tarixindən dərs deyəcəkdi. Baxdım ona, gözlərim yaşardı sevindiyimdən. Az qaldım elə sinifdə, uşaqların yanında gedib qabağında dayanam: «Müəllim, çox sağ olun! Mən, sizin sayənizdə bura qəbul olunmuşam! Minnətdaram sizə!» — deyəm. Lakin demədim. Düşündüm ki, tənəffüsdə deyərəm. Qəribə idi ki, o da məndən heç nə soruşmurdu — elə hamıya baxıb gülümsündüyü kimi, mənə də baxıb gülümsünürdü.

Sənə deyim ki, mən də qəribə adamam. Nədənsə o vaxt birdən ağlıma gəldi ki, indi deməyəcəyəm. İndi desəm düşünər ki, uşaqda fərasətə, bicliyə bax, özünə dayı, arxa axtarır. «Yaxşılıq eləmisən, axıra qədər elə». Bu kişi hələ beş il mənə dərs deyəcək, yox, qoy qalsın. Universiteti bitirəndə deyərəm. Bu fikirlə də ona heç nə söyləmədim. Düz beş il keçdi. Biz son kursda oxuyanda, ilin yaz fəslində Aslan müəllimi Akademiyaya gətirdilər. Təyinat zamanı isə mən onun işlədiyi instituta düşdüm. Ora gələndə o, artıq şöbə müdiri idi. Mən onun şöbəsində çalışmalı idim. Madam ki elmi-tədqiqat institutuna gəlmişdim, deməli, mənim yolum, taleyim məlum idi. Dissertasiya yazmalı, alim olmalı idim. Burda da bu məsələ qabağımı kəsdi — dedim hələ deməyəcəyəm.

— Səndə də səbr var ha! — deyə Gülmirə heyrətlə dilləndi. Sakit qımışdı:

— Hə, özüm də təəccüblənirəm, indi yadıma düşəndə.

Dedim ki, o, ya rəhbərim olacaq, ya opponentim... İnanırsanmı ki, elə də oldu. Dörd ildən sonra mən namizədliyimi yazıb qurtaranda elmi şuranın qərarı ilə onu mənim birinci opponentim təyin elədilər. Əsəri oxudu, avtoreferatıma qol çəkdi.

— Çapa gedə bilər.

Bax bu zaman dedim hə, əsl məqamdı.

— Aslan müəllim, qol çəkdiniz də.

— Hə, çəkdim. Yaxşı əsərdi.

— Demək razısınız mən müdafiə eləyim, hə?

— Əlbəttə, oğul, bu nə sözdü?

Mən bir anlığa duruxdum, o, ağır anlarımı, səbirlə dözdüyüm sonrakı illəri xəyalımda canlandırıb söylədim:

— İndi mənim sizə sözüm var, Aslan müəllim. Düz on ildi mən bu sözü ürəyimdə saxlamışam, bu günü gözləmişəm. İcazə verin, onu sizə deyim.

— Buyur, oğul, — dedi və həmişə damağından və barmaqlarının arasından düşməyən «Kazbek»in kötüyünü külqabına basıb söndürdü, əlini çənəsinə söykəyib diqqətlə qulaq asmağa başladı. Mənim səsimin titrəməsindən deyəsən hiss eləmişdi ki, nə isə qeyri-adi bir şey deyəcəyəm ona — çünki avtoreferata qol çəkəndən sonra da verdiyim suallar qəribə idi — Buyur, oğul, eşidirəm səni — söylədi intizarla; mən nəfəsim tıncıxa-tıncıxa dedim:

— Aslan müəllim, siz olmasaydınız, sizin xeyirxahlığınız olmasaydı, mən universitetə girə bilməyəcəkdim, deməli, Akademiyaya da gəlib çıxa bilməyəcəkdim və təbii ki, indicə qol çəkdiyiniz bu elmi əsəri də yazmayacaqdım.

Və bütün əhvalatı, indi sənə danışdığım qaydada ona da danışdım, bu on il ərzində hansı mülahizələri əsas tutaraq öz təşəkkürümü gecikdirməyimin səbəbini izah elədim və axırda «mən sizin çörəyinizi yeyirəm, Aslan müəllim» — dedim. İnanırsan, kişi ayağa qalxdı, döşəmədə var-gəl eləyə-eləyə dalbadal siqaret sümürdü və dönüb mənə baxanda əlyazmaları oxumaqdan, gecələr işləməkdən şişmiş gözlərinin yaşardığını görüb mən də mütəəssir oldum. Stolun başına fırlandı, mənə tərəf gələndə ayağa

durdum; o, uzun qollarını açaraq bir ata mehr-məhəbbəti ilə məni qucaqladı, kövrək, qəhərdən qırılan bir səslə:

— Sağ ol, ay oğul, — söylədi. Mənim ömrümü uzatdın sən, heç yadımda deyildi...

— Mənim isə ömrüm boyu yadımdan çıxmaz, Aslan müəllim. Mən bundan sonra həyatda nə yaxşı iş görməyə müvəffəq olsam, nəyə nail olsam, hamısı, hamısı sizin adınızla bağlı olacaq. Sizin bircə sözünüz mənim müqəddəratımı təyin elədi, mən kəndə qayıtsaydım, elə bilin ki, daha heç vaxt şəhərə, ali məktəbə gələ bilməyəcəkdim — qalıb kolxozda traktorçudan, çobandan-zaddan olacaqdım.…Deyirsiniz ömrümü uzatdın... Yox, mənim əziz müəllimim, ömrünüzü siz özünüz öz yaxşılıqlarınızla uzatmısınız, müəllim.

O, eynəyini çıxarıb dəsmalı ilə yaşarmış gözlərini sildi.

## ONUNCU FƏSİL

Şaxta olmamışdı, külək də əsməmişdi, ona görə axşam yağan qar donub bərkiməmişdi. Hava elə xoş idi ki...

Pioner bağının içində, qala divarının dibində, əyri-üyrü budaqlarının üstünü qar basmış qocaman akasiya ağacının dibində bir molbert vardı, molbertin arxasında başına qulaqlı papaq qoymuş, diplomat palto geymiş bir oğlan dayanmışdı — əlində fırça dördkünc kətanın üstündə nə isə çəkirdi. Böyründə dayanan Ceyhun diqqətlə gah rənglərə, gah kətana, gah da azca aralıdan keçən piyadalara nəzər salır, ayağının birini götürüb o birini qoyurdu.

— Ceyhun, deyəsən darıxırsan, hə? — deyə rəssam oğlan baxışlarını kətandan çəkmədən xəbər alanda Ceyhun əlində yumurladığı qartopunu cığırla Azneftdən Kommunist küçəsinə tərəf ehtiyatla addımlayan qıza atıb:

— Tez ol, alə, donduq, — dedi. — Bu nə sənətdi ey? Qurtar, yaxşıdır, gedək.

— Az qalıb, bir az səbir elə, Ceyhun.

Ceyhunun qar topu atdığı qız dayandı, baxdı və ani sükutdan sonra cığırdan çıxıb onlara sarı addımlamağa başlayanda Ceyhun yavaşca söylədi:

— Samir, alə, gör kim gəlir?

Samir əl saxlayıb qarşıya nəzər saldı.

— Tanıyırsan?

— Yox, alə. Qar topu atdım, özü gəlir.

Qız qəhvəyi rəngli, yaxası ağ tüklü kürk geymişdi. Başında ağ papaq vardı. Girdə və yaraşıqlı sifətindən baxan gözləri çıçağa kimi gömgöy idi. O, elə arxayın və sərbəst gəlirdi ki, elə bil tanışlarının yanına gəlirdi və ya dava eləməyə hazırlaşmışdı. Onun bu arın-arxayın, inamlı gəlişindən Ceyhun əvvəl qorxuya düşdü, ürəyində ona qar topu atdığına görə özünü danladı. Çəkinə-çəkinə gələn qıza baxdıqda, Ceyhunun gözləmədiyi halda, o, birdən gülümsündü, nazik, qırmızı dodaqları aralandı, sırayla düzülmüş sağlam və ağappaq dişləri göründü.

— Cavan rəssamlara eşq olsun! — rusca söylədi və çaşmış oğlanlardan cavab gözləmədən, Samirin böyrünə keçib kətana nəzər saldı və əlavə elədi — Oho, qış mənzərəsi... Budaqları qarla örtülmüş ağac… Poeziya!..

Samir fırçanı rəng qabının yanına qoydu və ona sarı döndü:

— Xoşunuz gəlir?

— Bəli, çox gözəldir. Mən incəsənəti çox sevirəm!

— Təşəkkür edirəm, — deyə Samir Ceyhuna baxıb göz vurdu. Ceyhun qımışdı. Qıza ürkək-ürkək baxanda o:

— Mənə qartopu atan oğlan, sən də rəssamsan?—deyə soruşdu.

Ceyhun ağzını açmamış Samir:

— Yox, o, mənim köməkçimdir!—dedi.

— O, sənin köməkçin də var?

— Təsəvvür edin ki, var, xanım!..

Ceyhun gözlərini ondan çəkə bilmirdi. Qız onlardan ən azı səkkiz-on yaş böyük olardı, bunu ilk baxışda təyin eləmək elə də

çətin deyildi. Ancaq sifəti o qədər yaraşıqlı və təravətli idi ki, lap yeniyetmə qıza oxşayırdı. Ceyhunun ürəyi əsirdi, lakin-başa düşmürdü ki, bu əsməcə soyuqdandı, yoxsa adını bilmədiyi, ilk dəfə üzünü gördüyü bu qızın gözəlliyindəndi. Dili-ağzı bağlanmışdı elə bil, ha istəyirdi bir söz desin, amma heç nə tapıb söyləyə bilmirdi. Birdən istədi onun üstünə cumsun, qarın içinə yıxıb ağız-burnunu ovxalasın — ancaq yerindən tərpənə bilmədi. Bu zaman qız gözlənilmədən əyilib yerdən pambıq kimi yumşaq qardan bir ovuc götürdü və Ceyhunun üstünə cumdu, Ceyhun qəsdən qaçmadı, qız onun başını sol qolu altına alıb ağzını ovmağa başladı və ova-ova:

— Sən mənə qar atırdın, sən mənə qar atırdın?— dedi. Ceyhunun qırışığı açıldı, qızın sağ biləyindən yapışıb burdu, o arxası üstə qarın içinə yıxıldı, Ceyhun onun sinəsinə çöküb:

— Hə, canın bəs bu deyil? — dedi. — İndi necəsən, ovuşdurum ağız-burnunu?..

Qız qəhqəhə ilə gülürdü. Qəşəng ağzı açılmışdı, mirvari dişləri görünürdü. Birdən Ceyhun əyilib onun dodaqlarından bərk-bərk öpdü, qız əl-qol atdı. Nəfəsi tıncıxdı, Ceyhun buraxanda o:

— Naxal! — deyib qəti bir hərəkətlə onu kənara itələdi. Samir artıq işindən ayrılmışdı və ayağa qalxıb üstünün qarını çırpan Ceyhuna deyirdi:

— Əldən buraxma, quşdu.

Ceyhun qıza kömək elədi. O da durub paltarının qarını təmizləyə-təmizləyə Samirə yaxın gəldi:

— Sənin köməkçin güclüdür, rəssam, ancaq hayıf bir az naxaldır. İcazəsiz məni öpdü. Bu, ona baha başa gələcək. Samir güldü:

— Hələ uşaqdır, çox şeyləri bilmir. Xüsusilə qadınla necə rəftar eləmək lazım olduğunu bilmir. O, irişdi:

— Belə görünür, sən bilirsən?

— O, əlbəttə. Mən ondan çox böyüyəm. Qız dönüb Ceyhuna baxdı:

— Amma o səndən qəşəngdi! — dedi.

— Ola bilər, — Samir özünü sındırmadı. — Kişiyə qəşəng-likdən çox küc lazımdır, xanım.

— Məncə o səndən gücsüz, olmasın gərək.

Samir cavab vermədi. Kətana tamaşa eləməyə başladı, işinin əyər-əskiyini yoxlamaq istədi. Ancaq qız gəlib yanında dayanaraq;

— Belə görürəm, sən naturadan çəkməyi xoşlayırsan? — söylədi.

— Bəli, natura canlı olur. Ağac da olsa, daş da olsa, canlıdır natura. Nəfəs alır elə bil.

— Məncə, ən yaxşı natura insandır, insan bədəni, insan gözəlliyidir. Elə deyilmi?

— Elədir, xanım.

Qız ayaqqabısının ucu ilə qarı eşə-eşə:

— Mənim bir rəssam tanışım vardı, — dedi, — o, qadın portretləri ustasıydı. Qadın gözəlliyinin vurğunuydu. Qadınları naturadan çəkməyi xüsusilə xoşlayırdı.

Samir maraqlandı:

— Kim idi o rəssam?.. Məgər indi yoxdur?..

— Var. Niyə yoxdur. Ancaq indi qocalıb.

— Kimdi o?

— Süleyman Vüsal. Eşitmisən belə rəssam?..

«Süleyman Vüsal» adını eşidən kimi, hər ikisini — Samiri də, Ceyhunu da elə bil ildırım vurdu, onlar mənalı-mənalı baxışdılar. Deməк, Samirin atası bu qızı tanıyırdı. İstər-istəməz o, bir anlığa xəyalən atasının emalatxanasına baş vurdu, orda, divarlar boyu vurulmuş portretləri nəzərində canlandırmağa çalışdı, onun portretini axtardı, ancaq tapa bilmədi.

— Hə, eşitmişəm, xanım. Süleyman Vüsal... tanışdı...

— Yaxşı kişidi, amma xəsisdi. Əvvəllər yaxşı pul verirdi mənə, sonra azaltdı. Mən də küsdüm, getdim.

Samir çaşqın-çaşqın Ceyhuna baxdı. Ceyhun da özünü itirmişdi.

— Nə qədər verirdi əvvəllər?.. — Samir aradakı sükutu

pozmaq istədi.

— Saatıma on manat... Nu, arada yemək-içmək də olurdu...

— Bu, səni təmin etmirdi.?

— Məni təmin edirdi, amma onu yox. Elə hey deyinirdi. Samirlə Ceyhun yenə baxışdılar. Samir başı ilə ona işarə elədi ki, «aparaq?» Ceyhun o dəqiqə «hə» mənasında gözlərini qırpdı. Samir molbertini qapadı, əlini ağzına tutub hovxurdu:

— Yaman üşüdüm. Sizə soyuq deyil?

— Soyuqdur.

— Onda gedək bizə. Əgər vaxtınız varsa... etiraz etmirsinizsə...

Qız duruxdu, dönüb Ceyhuna baxdı:

— Bu şərtlə o da bizimlə getsin olar?

— Niyə olmur ki?..

Qız Ceyhuna dedi:

— Malış, razısan?

— Əlbəttə, — Ceyhun tərəddüd etmədən söylədi. Qız ona sarı yeridi və ikisi də eşidəcək bir tərzdə:

— Saatım on manatdır ha!—dedi və Ceyhunun qoluna girdi.

...Emalatxana «İnşaatçılar» prospektində, «Olimp» mağazasının böyründəki beşmərtəbəli binanın alt qatında idi. Bloka girib qapının ağzında dayanan kimi, qız içini çəkdi:

— Oy, bu; Süleymançikin emalatxanasıdı ki? — deyib Ceyhunun qolunu buraxdı və dönüb arxasında dayanan Samirə baxdı.

— Hə, onunku idi, — dedi Samir. — İndi mənimkidi. Buranı mənə təzə veriblər.

Samir bu yalanı elə indicə düzəltdi. Atası burada yox idi, altı aylığa Hindistana yaradıcılıq ezamiyyətinə getmişdi və açarı da ona vermişdi. «İşlərsən» — demişdi. Qız inandı, üzündəki nigarançılıq və təşviş hissi keçib getdi.

Samir kətanı, molberti yerə qoyub qapını açdı və içəri girdilər.

Üç otaq idi. Balaca otaqda stol, stullar, bufet qoyulmuşdu.

Divanın sağ-sol dirsəklərinin üstünə iki xal-xal pələng dərisi atılmış, ayaq altına isə ayı dərisi salınmışdı. Nəfəslik açıq olsa da, içərinin havası tutqun idi — rəng qoxusu adamı o saat vururdu.

Ceyhun burada Samirin yanında çox olmuşdu. O biri otaqlarda olan eksponatlar, şəkillər və s. divarlardan asılmışdı. Nəyin harada olduğunu o, elə Samir qədər bilirdi.

Qız kürkünün düymələrini açanda Ceyhun ona soyunmaq üçün kömək elədi. O, papağını da çıxarıb Ceyhunun qolları üstünə qoydu və otağın ortasında dayanıb ətrafa göz gəzdirdi.

— Heç nə dəyişməyib. İki il bundan qabaq necə vardısa, elə eləcədi, — deyərək keçib yumşaq divanda oturdu. Samir kətanı, molberti o biri otağa qoyub qayıdandan sonra yaxın gəldi:

— Hə, indi gəlin tanış olaq, xanım. Mənim adım Samir, dostumun adı Ceyhundur. Sadəcə Samik və Cek.

Qız nəzakətlə əlini əvvəl Samirə, sonra Ceyhuna uzadıb:

— Çox gözəl, mənim adım Reginadır, — dedi. — Sizinlə tanış olmağıma çox şadam. — Ceyhuna sarı döndü, — Xüsusilə sənə minnətdaram, Cek. Əgər mənə qartopu atmasaydın, yəqin ki, mən düz çıxıb gedəcəkdim və sizinlə tanış ola bilməyəcəkdim.

— Çox sağ ol, Regina xanım—deyə Ceyhun gözlərini bayaq, qar içində öpdüyü o qəşəng dodaqlardan çəkməyərək cavab verdi və Regina onun baxışlarını tutub:

— Amma yaman cəsarətlisən ha! — dedi. — Tanınmazabilməzə, icazəsiz-filansız məni öpdün. Mənim cəsarətli oğlanlardan xoşum gəlir. Cəsarət kişinin yaraşığıdır, zəiflik və zəriflik qadının, — o susub nəsə fikirləşdikdən sonra: — O! Centlmenlər, görürəm siz qonaqpərvər adamlara oxşamırsınız. Bu saat mən sizin üçün bir şey təşkil eləyim, — dedi və ayağa durub bufetə sarı getdi. Alt gözündən bir şüşə konyak, üstdən isə üç piyalə çıxarıb stolun üstünə düzdü. Oğlanlar mat-mat bir-birinə baxıb gülümsündülər. Regina özünü ev sahibəsi kimi aparırdı.

— Siz təəccüb eləməyin. Mən burada hər şeyin yerini bilirəm, yəqin yaxşı suvenirlər gətirəcək... Hə, di nə durmusunuz?

— Hə, — dedi Samir — hər şey onundu burda hələ tamam

köçməyib.

— Doğrudan? Birdən gəlsə? — təşvişlə soruşdu.

— Gəlməz! — dedi Ceyhun, — Hindistandadı.

— Oho! Haçan gələcək?

— Beş aydan sonra...

— Hm... — Regina qımışdı — Onda Suleymançikə baş çəkərəm, yəqin yaxşı suvenirlər gətirəcək... Hə, di nə durmusunuz? Yaxın gəlin. Bir az canımızı qızdıraq, hayıf, zakuskamız yoxdur...

«Zakuska» sözünu eşidən kimi Samir elə bil ayıldı.

— Mən... bu saat bir şey təşkil edərəm. Siz oturun, mən gəlirəm — deyib tələsik çıxdı. Evləri beşinci mərtəbədə idi. Anası Əhmədlidə ərdə olan bacısının yanına getmişdi — Nərgiz təzə ana olmuşdu. Kömək eləmək lazım idi. Samir üçün kotlet, dolma bişirib soyuducuya qoymuşdu.

Samir çıxan kimi Regina konyakı Ceyhunun qabağına qoydu:

— Malış, aç bunu – dedi. — O gəlincə boğazımızı yaşlayaq. Səndən yaman xoşum gəlir mənim, Cek. Neçə yaşın var? Ceyhun piyalələrə konyak süzə-süzə:

— On doqquzun içindəyəm,—dedi.

— Hə, yaxşı vaxtındı... Mən səndən düz on yaş böyüyəm.

— Demək, sənin iyirmi doqquz yaşın var?

— Hə. Götür içək. Sənin sağlığına, Cek.

Ceyhun piyaləni götürdü:

— Sənin sağlığına, Regina xanım!..

Piyalələr bir dəfə «cirink» elədi və boşaldı. Ceyhun ağzına bir şey atmaq üçün stolun üstünə baxdı, heç nə tapmayıb dodaqlarını büzüşdürdü. Regina isə ona nəzər salıb gülə-gülə:

— Zakuska axtarırsan? — deyə soruşdu.

— Heç nə yoxdu.

— Gəl bura, mən sənə zakuska verim — dedi. Ceyhun heç nə başa düşməyərək onun lap yanına gəldi. Regina piyaləni stolun üstünə qoyub:

— Konyakın ən yaxşı zakuskası gözəl qadın dodağından

alınmış busədir, Malış. Bunu yadında saxla, gəl məni öp!

Ceyhun çaşdı, mütiləşdi, bu zaman Regina qolunu onun boynuna salıb dodaqlarını Ceyhunun dodaqlarına yapışdırdı və Ceyhun, bədənini gəzib dolaşan giziltini hiss edə-edə onu ehtirasla öpdü... öpdü... Əllərini incə belinə dolamışdı, xırda döşləri sinəsinə dirənmişdi.

— Yavaş, ay görməmiş! — deyə Regina onu özündən kənara itələmək istədi, ancaq Ceyhun onun belini buraxmır, üzünü, boğazını öpüşlərə qərq edirdi. Nə isə xoş söz demək istəyirdi, amma söz tapa bilmirdi. Həyatında ilk dəfəydi bu. Tanış qızları olmuşdu — lap səkkizinci sinifdə oxuyandan. Xüsusilə bəstəkar Baharlının qızı ilə xeyli — qəzaya uğrayanacan gəzib-dolaşmışdı. Onu öpmüşdü də. Ancaq o öpüşlərdən belə şirin həzz almamışdı. Uşaq idimi, ya nəydi, bilmirdi. Bu qadın isə onun bütün varlığını oynatmışdı — sırtıq idi, açıq-saçıq danışırdı, hərəkətlərində sərbəst idi, utanmırdı - bütün bunları Ceyhun başa düşürdü. Amma indi bunların heç birinin ona dəxli yox idi. Ceyhunun sifəti qızarmışdı. Gözləri ehtiras oduyla yanırdı. Qadın onun sifətini iki xırda əlləri arasına alıb xumarlanmış gözlərinin içinə baxır, təzədən sinəsinə sıxırdı.

Ceyhunun bir gözü qapıdaydı. Qorxurdu ki, indicə Samir gələcək. Nə düşündüsə Reginanın qolları arasından çıxdı, qapı ağzında, kətilin üstəki telefona sarı cumdu, tələsik kiminsə nömrəsini yığdı və ikicə kəlmə söz dedi:

— Hələ gəlmə!.. — Sonra piyalələrə konyak süzdü, birini Reginaya verdi, o birini özü götürdü.

— İçək! — dedi.

Regina güldü:

— Deyəsən zakuska xoşuna gəldi, hə?

— Hə.

İçdilər, yenə qucaqlaşdılar. Reginanın gözləri axırdı. Ayaq üstə dayanmağa bədənində taqəti qalmadığından divana tərəf getdi və oturdu. Ceyhun yanında əyləşdi. Regina titrək əlilə Ceyhunun cod saçlarını sığallaya-sığallaya:

— Mən birinciyəm? — deyə soruşanda Ceyhun gözlərini döydü, sualın mənasını başa düşmədi. Regina ərklə acıqlandı:

— Nə gözlərini döyürsən? Deyirəm yəni mən sənin həyatında ilk qadınam?

Ceyhun başını tərpətdi. Onda Regina onu təzədən köksünə sıxıb:

— Sən mənimsən, Malış! — dedi. — Sən mənimsən...

Və başını xal-xal pələng dərisinin üstünə qoyub gözünü yumdu...

...Divanda yanaşı uzanmışdılar. Regina xırda əlini Ceyhunun təzə-təzə tük gəlməyə başlayan sinəsində ehmal-ehmal gəzdirir, Ceyhun isə, yeni, indiyə qədər görmədiyi, hiss eləmədiyi sehrli bir aləmə düşmüş kimi, xumarlanırdı. Elə bil yarım saatın içində onu dəyişdirmişdilər — o, artıq özünü kişi sayırdı və bu bircə «kişi» sözündən sinəsi qürur hissilə qabarırdı: uşaqlıq dünyasından ayrılmağı, kişilik aləminə qədəm qoymağı qəlbində qəribə kövrək duyğular doğururdu. Bu hadisə beş gün qabaq da ola bilərdi. Beş il sonra da. Çox güman ki, onda da bu hisslər ürəyində baş qaldıra bilərdi.

— Yaxşıyam? — deyə Regina bic-bic gülümsündü.

— Hə, — dedi Ceyhun. — Çox yaxşısan...

— Bu gün sənin ömrün boyu yadından çıxmayacaq, Malış. Qocalacaqsan, saçın-saqqalın ağaracaq, ancaq bu xatirə heç vaxt yadından çıxmayacaq.

Ceyhun onun nə qədər doğru-yalan dediyini dərk edəsi halda deyildi. Lakin təkcə bunu bilirdi ki, bu gün o yeni bir dünyanın qapısını açıb içəri girib və daha geriyə yol yoxdur. Aldığı ləzzəti isə on doqquz illik ömründə heç bir şeylə müqayisə eləyə bilmirdi — yox idi elə bir şey. Ceyhunun ürəyini ayrı bir duyğu sıxırdı indi — Regina bir azdan çıxıb gedəcək, hara— bilmir. Yaxud indi Samir gələcək və yəqin ki, o da Regina ilə yatmaq istəyəcək. Yox, yox, Ceyhun qoymaz. Qoymayacaq. Amma axı Regina əvvəl də bura gəlib-gedib — Süleymanın yanına. Görəsən Süleyman da Regina ilə bir yastığa baş qoyub, ya

elə sadəcə soyundurub qarşısında oturdub, şəklini çəkib, sonra pulunu verib yola salıb? Nə bilmək olar... Soruşmağa isə utanırdı. Tamam başqa sual verdi:

— Sənin ərin var?

Regina gülümsündü:

— İstəyirsən olsun, ya olmasın?

— Nə bilim...

—Yoxdur, Malış. Var idi, getdi. Sara ilə — qızımla məni tək qoyub getdi. İndi heç bilmirəm hardadı.

— Niyə getdi o?

— Onda bilmirdim səbəbini. Amma indi bilirəm. Gündə dava eləyirdim mənim üçün sırğa al, mirvari al, dublyonka al, nə bilim nə al, nə al. Onun isə pulu çatmırdı, yeməyimizi ancaq görürdü maaşı. Axırı başa götürüb getdi.

— Bəs bu sırğanı, bu mirvarini, o dublyonkanı sənə kim alıb? — deyə Ceyhun Reginanın ağ boynuna dolanmış mirvari boyunbağının dənələrini oynatdı. — Bunları sənə kim alıb?

Regina fikrə getdi, elə bil Ceyhun sayan şeylərin kim tərəfindən adındığını xatırlamağa çalışırdı.

Az sonra qısaca cavab verdi:

— Özüm...

— Özün?

— Hə, — sonra yenə nə fikirləşdisə, qayğılı-qayğılı dedi: — Əslində çox adam alıb, Malış. Hamısının adını saymaq mümkün deyil. Məsələn, dublyonkanın bir qolunun pulunu deyək, bax o divardan bizə baxan rəssam Süleymançik verib, o biri - qolunun pulunu isə... sənin və mənim tanımadığım beş-altı kişi verib... Belə-belə yığılıb olub dublyonka. Amma bu dəhşətli deyil. Cek. Ən dəhşətli iş bilirsən nədi? Yox? O pulları üst-üstə yığıb saxlamaqdı, Malış. İndi pul saxlamaqdan dəhşətli şey yoxdur, Malış!

Ceyhun Süleymanın adını eişdəndə dönüb divara baxdı. Süleymanın öz əliylə çəkdiyi və «Avtoportret» adlandırdığı şəkil idi: zərli çərçivənin içindən xoşsimalı, ağsaçlı, iti, mehriban

baxışlı, üzündə xoş təbəssüm olan bir kişi onlara tamaşa edirdi. Ceyhun Süleyman kişini çox görmüşdü. O, oğlanın nəzərində əsərləri dünyanı gəzən sərgi salonlarından səsi-sorağı gələn böyük bir şəxsiyyət idi. Sadəydi, geyiminə, üst-başına fikir verən deyildi. Emalatxanasında işləyəndə böyük rəssamdan çox, adi bir fəhləyə oxşayırdı. Süleymanın arvadı, Samirin anası Ceyhunun indiyə qədər gördüyü bütün qadınlardan gözəl idi. Ağappaq sifəti, işıqlı gözləri vardı, boyu-buxununa söz ola bilməzdi; Samirlə yanaşı duranda heç kimin ağlına belə gəlməzdi ki, onlar ana-baladı. Süleymanla qoşa gəzəndə, toya-məclisə gedəndə isə elə bilirdilər ki, Mələk onun arvadı yox, qızıdı.

Amma indi budur, Regina deyilən bu qəşəng qız Süleymanın yanına gəlib-gedirmiş yəqin... Ceyhunu fikir aparmışdı. «Demək, Regina Süleymanın olub haçansa, indi onun olan kimi, ilahi, bu həyat deyilən şey necə də maraqlıdır, necə də anlaşılmazdı «Dublyonkanın bir qolunun pulunu bax o divardan bizə baxan Süleymançik verib». Necə də deyir, necə də boynuna alır! Başqası olsa gizləyər, amma bu açıq deyir! Onun fikrincə, bütün bunlar dəhşətli deyil, ən dəhşətlisi bu cür tikə-tikə qazanılan pulu üst-üstə yığıb saxlamaqdı, Malış!»

Bu elə nöqtə idi ki, Ceyhuna da aydın idi. Son cümləsi. Pul saxlamaq məsələsi. O da pul saxlaya bilmirdi. Su kimi axıb gedirdi pul. Salmandan, Nadirədən aldığı icazəsiz götürdüyü pulları bir yerə yığmış olsaydı, indi bir «Jiquli» ala bilərdi.

— Düz deyirsən... Bəs harda işləyirsən? Ya heç işləmirsən?

— Niyə işləmirəm? Uşaq bağçasında tərbiyəçi işləyirəm...

Qapının ağzındakı telefon səsləndi. Onlar səksəndilər — başları elə qarışmışdı ki, Samir tamam yaddan çıxmışdı. Ceyhun şalvarını tələsik keydi, köynəyinin düymələrini bağlaya-bağlaya telefona sarı qaçdı. Dəstəyi götürüb:

— Hə, gəl, — dedi. Sonra Reginaya tərəf döndü.

— Samikdir. Gəlir...

Regina qalxdı. Saçlarını, üst-başını səliqəyə sala-sala:

— Ancaq aramızda olanı o bilməsin ha, yaxşımı — dedi.

— Yaxşı...

Sonra o, sol qolundakı balaca qızıl saata baxdı.

— İki saatdı səninləyəm. Düz iki saat üç dəqiqədi, Malış. Ceyhun bura gələrkən Reginanın söylədiyi sözləri xatırladı və cibindən üç dənə qırmızı onluq çıxarıb verdi. Regina pulları qoynunda gizlətdi və əyilib Ceyhunun alnından öpdü.

— Telefonumu yaz. İstədiyin vaxt zəng elə. Gələrəm.— Nömrəsini söylədi, Ceyhun yazmadı.

— Yadımda qalar...

Samir əlində tava içəri girdi. Tavanın üstəki qəzet bükülüsündə çörək, duz, şokalad və turşu vardı. Onları stolun üstə qoyub Ceyhuna, Reginaya yoxlayıcı bir nəzər salaraq gülümsündü. Yavaşca Ceyhundan soruşdu:

— Bir şey çıxdı?

Ceyhun pörtmüşdü. Gözlərindən xoşbəxtlik yağırdı. Üzünə baxmamağa çalışırdı.

— Yox... — dedi və yalanından özü də utandı.

— Eh, bu olmadı ki, səhərdən mən də deyirəm... — Süfrəni səliqəyə saldı. Regina gəlib stolun kənarında əyləşərək piyalələrə konyak süzdü.

— Biz adama iki dənə içmişik, Samik, — dedi və üzünü Ceyhuna tutdu: — Malış, götür içək. Sənin dostunun sağlığına. Gör nə qədər əziyyət çəkib. Xörək bişirib. Sağ ol, Samik. — Sonra ona sarı döndü. — Sənin dostun xoşuma gəldi. Sən gedəndən oturub söhbət eləyirik. Çox ağıllı oğlandı. Samir piyaləni götürdü:

— Əlbəttə, profeosor Salman Qurbanzadənin oğlu gərək ağıllı olsun. Başqa cür ola bilməz.

Samirin bu sözlərindən Regina öyrəndi ki, Malış professor oğludur və özünü ürəyində məzəmmət elədi ki, niyə bayaqdan onun kimin oğlu olduğunu soruşmayıb? Bu, ümumiyyətlə, Reginanın təbiətinə zidd idi. Kişidi, pulu da var, vəssalam. Kimliyinin o qədər də əhəmiyyəti yoxdur.

— Mən sizin sağlığınıza içirəm, Regina xanım. Siz bura tə-

zədən xoş gəlmisiniz.

— Sağ ol, Samir.

İçdilər, Ceyhun hərəsinin qabağına bir şokalad qoydu. Yedilər. Sonra xörəyə girişdilər. Samir şüşənin dibindəki konyakı süzdü. Sözsüz-sovsuz toqquşdurub içdilər.

Ceyhun nə üçünsə yan otağa keçdi. Fürsətdən istifadə eləyən Regina yavaşcadan Samirə söylədi:

— Sabah altıda... gələcəyəm sənin yanına. Yaxşı? Samir bayaqdan, üzə vurmasa da pərt idi... Heç ağlına gəlməyən bir yerdə, gözlənilmədən, adi bir təsadüf üzündən o, atasının vaxtilə «adamı» olmuş bir qadınla rastlaşmışdı və bu ona çox qəribə gəlirdi ki, həmin qadın sabah saat altıda onun yanına gələcəyini vəd eləyirdi. Doğrudur, Regina bilmirdi ki, Samir onun böyük ərklə «Süleymançik» adlandırdığı o «xəsis» kişinin oğludur. Bilsəydi, bəlkə də bu təklifi eləməzdi. Kim bilir, bəlkə də onun üçün bunun heç bir fərqi yox idi. Amma axı indi, bu qısa tanışlıqdan sonra aydın olmuşdu ki, atası Süleyman bu qadınla çox güman ki, lap yaxın olub!.. Necə eləsin, «hə» desinmi, «yox» desinmi?

Samir odla su arasında qalmışdı. Ürəyi Reginanı istəyirdi, onunla oturub danışmaq, yeyib-içmək maraqlı olardı. Bu yandan da Ceyhun onu çaşdırmışdı. Samirə aydın idi ki, o — Ceyhun nə isə yalan danışır.

Samir anlaşılmazlıq içində çırpınarkən Regina saçlarını çiynində əsdirib yavaşcadan:

— Niyə susursan? İstəmirsən? — dedi. — Gəlimmi saat altıda?

Samir ağızucu:

— Yaxşı... — deyə mızıldandı.

— İndi mümkün deyil...

Bu zaman qapı döyüldü. Ceyhun Samirdən tez özünü qapıya sarı atdı, ayağa qalxmış Samirə sual dolu nəzərlərlə baxıb «Bu kim, ola?» deyə soruşduqda o:

— Yəqin Salehdir, — dedi. — Ondan başqa bura gələn ol-

maz. Aç, qoy gəlsin.

Ceyhun qapının cəftəsini geri çəkdi. Doğrudan da Saleh idi. İçəri girən kimi, əllərini hovxura-hovxura stol arxasında oturanlara nəzər saldı. Dönüb yanındakı Ceyhuna baxdı:

— Məclis arəstə imiş ki?... Bəs mənə niyə xəbər eləməmisiniz?

— Samir zəng elədi, yox idin... — Ceyhun Salehin belə məsələlərdə tez küsüb inciyən olduğunu bildiyindən əlüstü bir yalan uydurdu.

— Hə, yox idin. Biz də elə təzə gəlmişik.

Saleh onların sözünə əhəmiyyət verməyərək stola yaxınlaşdı. Ceyhunun, Samirin başı Salehə qarışıq olduğundan Reginaya baxa bilməmişdilər. Baxsaydılar, Reginanın boğazının quruduğunu, rənginin qaçdığını görərdilər. Saleh, pıjik papağını çıxarıb Reginanın qənşərində köhnə rıtsarlar kimi qıçlarını büküb təzim elədi və rişxəndli bir tərzdə:

— Səni burda, dostlarımın məclisində görməyimə çox şadam, Regina Abramovna, — söylədi. Regina boğazında ilişib qalmış tikəni udub başını tərpətməklə cavab verəndə Samir:

— Siz tanışsınız? — deyə soruşdu.

Ceyhun böyümüş gözlərilə gah yerində quruyub qalmış Reginaya, gah da qara, çapıq sifətində bir qəzəb gəzib dolaşan və sol yanağı tez-tez səyriyən Salehə baxır, bu gözlənilməz gəlişdən bircə anda hər şeyin necə dəyişdiyinə təəssüf eləyirdi. O, fikirlərini əməlli-başlı cəmləşdirməmiş Salehin amiranə səsi eşidildi:

— Dur ayağa, tez, tez. Qalx sənə deyirəm!..

Regina müti bir qul kimi cəld ayağa qalxdı. Asılqana tərəf addımladıqda Saleh onun qolundan tutub saxladı nə başı ilə Ceyhunu, Samiri göstərib:

— Bunlar sənə toxunmayıblar ki? — soruşdu. Regina qorxu içində əsə-əsə:

— Yox—dedi. Saleh onu itələdi. Regina düz asılqanın yanında bənd aldıqa Saleh yolaşlarından qəzəblə xəbər aldı:

— Ona toxunmamısınız ki?..

Samir:

— Yox, — dedi.

Ceyhun başını buladı:

— Yoox...

— Ona əl vuranın anasını ağlar qoyaram, — dedi. — Bağırsaqlarını çölə tökərəm. Bildiniz?

Uşaqlardan səs çıxmadı. Saleh kürkünü geymiş Reginaya qışqırdı:

— Rədd ol burdan! Düz birbaş evə! Səninlə evdə danışacağam, svoloç, haydı!.

Regina qapıdan özünü güllə kimi bayıra atdı.

Yaranmış vəziyyət gərgin idi. Samir dilxor olmuşdu.— «Bu hayandan gəlib çıxdı? Heç əməlli-başlı tanış ola bilmədim. Yaxşı idi, yox, çox qəşəng idi zalımın qızı. Görünür, pis qadındır. Bir vaxt atamın yanına gəlib-gedirmiş. İndi də məlum oldu ki, Salehin adamıdır. Nə isə. Salehdən çox qorxurdu o qız; Fikir verdinmi — heç bir kəlmə də dillənmədi. Yəqin onu saxlayır Saleh. Öz arvadı kimi rəftar edirdi onunla. Buna bax, gör necə də qəzəblidir. Hələ də hirsi soyumayıb. Gedəndə, evdə onu yaxşıca kötəkləyəcək. Qoy kötəkləsin, ona o da azdı — deyə düşünən Samir, ac olduğundan, elə ayaq üstə çörək yeyirdi. Ceyhun isə... Salehə daxili bir qəzəb hissilə baxır, heç nə demirdi. «Salehin adamıymış. Mən hardan biləydim. Burda mənim heç bir günahım yoxdur. Amma bilsəydim, eləməzdim. Demək belə, Regina, o gözəl qadın Salehindi. Daha mənim yanıma gəlməz. Hayıf... Ceyhun irəli yeridi:

— Sən onu hardan tanıyırsan?

— Mən çoxdan tanıyıram, Ceyhun, onu. Bir ildən çoxdur ayda yüz manat, elə vaxt olur yüz əlli, iki yüz manat pul verirəm. Amma qancığın gözü yenə onun, bunun əlindədi.

Samir söhbətə qarışdı:

— Bəs heç bizə deməmisən, Saleh?

— Nə deyəcəyəm sizə? Belə şeyləri kişi danışmaz. Siz, hələ

uşaqsınız, çox şeyi bilmirsiniz. Mən... Nə isə... İçməyə nəyiniz var?

— Konyak içmişik bir dənə. Bilmirəm orda var ya yox. Qoy baxım — deyə Samir bufetin ağzını açdı. Bir şüşə konyak tapıb gətirdi. Piyaləyə tökmək istəyəndə Saleh əliylə piyalənin ağzını örtdü.

— Bu nədi, alə? Dəvəni xəlbir ilə suvarırsan. Bir stəkan gətir.

Samir iri bir piyalə götürüb ortalığa qoydu. Doldurdu. Saleh heç kəsin piyaləsinə toqquşdurmadan və heç nə demədən konyakı başına çəkdi, şokoladdan bir tikə ağzına atıb çeynəyə-çeynəyə:

— Yaxşı, siz Reginanı hardan tapdınız? — deyə soruşdu.

Ceyhun istəmirdi o tanışlıq əhvalatını bütün təfərrüatı ilə Saleh bilsin. Anlayırdı ki, bu, onu qıcıqlandıracaq və evə dönəndə Reginanı döyəcək, ona görə Samirdən qabağa düşüb qısaca dedi:

— Mən tanış oldum. Qar topu atdım. O da mənə atdı. Tanış olduq. Gətirdik bura...

Bu vaxt qapı döyüldü. Söhbət yarımçıq qaldı.

## ON BİRİNCİ FƏSİL

İltifat bu gün instituta hamıdan tez gəlmişdi. Direktorun qara meşin qapılı otağının ağzında gəzinirdi. Sevincinin həddi-hüdudu yox idi. Əlində tutduğu «Ədəbiyyat və incəsənət» qəzetində iki şeri dərc olunmuşdu. Birinci şerini — «Fədai» adlandırdığı beş-altı bəndlik şeri Nurəddin Osmanzadəyə həsr etmişdi və sərlövhəsinin altından onun adını da yazmışdı. Burada o, elm fədaisi kimi çox yüksək və qanadlı sözlərlə vəsf edilmişdi. İkinci şer isə sevgiyə aid idi — adı bəlli olmayan durna boğazlı bir gözələ olan məhəbbətindən danışırdı.

Çox gözlədi, direktor gəlib çıxmadı. Şöbəyə getdi. Hələ heç kəs yox idi. Təzədən qayıdanda katiblikdə Şərqiyyəni gördü.

Şərqiyyə dedi:

— İndicə gəlib!

İltifat əlində qəzet içəri girəndə direktor pəncərə qabağında dayanıb küçəyə tamaşa edirdi.

— Salam, Nurəddin müəllim.

Nurəddin qanrıldı, İltifatı görcək göy-qonur gözlərini qıyıb gülümsündü, yerinə keçib oturandan sonra:

— Salam, — dedi. — Səndən nə əcəb, şair, belə tezdən gəlmisən?

— Mən həmişə hamıdan qabaq gəlirəm, Nurəddin müəllim.

— Dedim bəlkə Aslanzadə sənə də Sakit Aranlı kimi kefin nə vaxt istəsə onda da gəlib getməyinə icazə verib?

— Yox, Nurəddin müəllim, — o, adəti üzrə uzun saçlarına əl çəkib qımışdı. İrəli çıxmış iri alnının altında dəbərişən domba gözlərində bir qığılcım parladı. — Mən intizamlı adamam, Sakit kimi ad-sandan istifadə eləyən deyiləm.

— O gün ipini çəkdim Sakitin. Qoy zəhmət çəkib hamı kimi vaxtında gəlib-getsin işə.

— Yaxşı eləmisiniz, beş-altı kitabı çıxıb, ayağı yerə dəymir, havalanıb bir az. Aslan camaatı başlı-başına buraxmışdı, hər kəs istədiyini eləyirdi. Siz… ümumiyyətlə yaxşı kurs götürmüsünüz, Nurəddin müəllim. Hamının xoşu da gəlir...

— Mənim fikrimcə, Aslan institutu dağıdıb. Gərək yenidən quraq, əl-ələ verib təzədən başlayaq. Sənin o günkü çıxışın çox xoşuma gəldi, İltifat. Sən...

Direktorun bu sözlərini eşidən İltifatın qulaqları guruldadı, ürəyi içəridə şiddətlə çırpındı, daha onun sonra dediklərini eşidə bilmədi. Burnunu çəkib bəxtəvərcəsinə — elə bil dünyanı bağışlamışdılar — gülümsündü.

— Hə, hamı deyir yaxşı danışdın! Çox adam deyir — təkcə Sarışın söyləmişdi — O poemanı tez yaz, mən də cavab verirəm ki, hələ düşünürəm. Amma sizə bir şer yazmışam, bu gün çap olunub.

— Hə? — Nurəddin Osmanzadənin göy-qonur gözləri geniş açıldıqda İltifat qəzeti onun qənşərinə qoydu... — Üçüncü

səhifədədi.

Direktor qəzeti xışıldada-xışıldada vərəqlədi, tapdı ürəyində oxudu.

— Sən yaxşı şair imişsən, balam! — dedi. — Yaxşı yazıbsan! — Sağ ol.

— Dəyməz, Nurəddin müəllim, siz bizim xalqımızın ləyaqətli oğlusunuz. Sizdən nə yazsaq, yenə azdı... Bizim şerimizin borcu millətimizin məşhur oğullarını xalqa tanıtdırmaq, sevdirməkdən ibarətdir. Mən bu şeri kitabıma da salacağam.

— Çıxan kitablarından mənə də ver, oxuyum. Həmişə elmlə məşğul olmaq olmur. İstirahət də eləmək lazımdır. Bilirsiz, insan da metal kimi şeydir: metal yeyilir, sürtülür, korroziyaya uğrayır, nəhayət, çürüyür. İnsan da belədir — insanın korroziyası — zamandır, şair. Düz deyirəm?

İltifat adəti üzrə yenə burnunu çəkdi:

— Elədir. Siz lap şair kimi obrazlı danışdız. «İnsanın korroziyası — zamandır». Çox gözəl dediniz. Bədii əsərdə işlədilməli sözdü. Hardasa bundan istifadə eləyəcəyəm.

Nurəddin ayağa durdu, əlini belinə qoyub gəzinə-gəzinə dedi:

— Mənim belə kəlamlarım çoxdu. İndiyə qədər yığan olsaydı dediklərimi, qalın bir kitab bağlamış olardı. İltifat irişdi:

— İnşallah, sizin haqqınızda kitab da bağlanacaq. Nurəddin kreslosunun yanında dayandı və nəsə xatırlamış kimi:

— O qız sənə dedi ki, səni Salman komissiyasına salmışam? — söylədi.

— Hə, Nadirə xanım dedi.

— Biabırçılıqdır. Siz obyektiv bir rəy yazın, heç nədən qorxmadan, çəkinmədən.

— Baş üstə, Nurəddin müəllim. O gün iclasda, bu məsələni eşidəndə mən çox sarsıldım. Qulaqlarıma inanmaq istəmədim. Salman kimi nüfuzlu bir alim belə bir iyrənc iş tutmuşsa, daha onda kimə inanasan? Adam onda az qalır hər şeyə şübhə ilə baxsın. Gözümdən tamam düşdü.

Telefon səsləndi. Nurəddin dəstəyi götürüb danışmağa başlamamış İltifat qalxdı:

— Qəzeti sizin üçün gətirmişəm, — dedi. — Mən işinizə mane oldum, bağışlayın.

Nurəddin kiminləsə danışdığından onun nə söylədiyini eşitmədi, lakin İltifat qapıdan çıxmaq istəyəndə başa düşdü ki, kimsə direktoru, haqqında şer çap olunması münasibətilə təbrik edir.

— Çox sağ olun, hə, yaxşı şerdir. İstedadlı şair imiş. Mən heç bilmirdim, hə, özü də elə burdadı, — dedi və dəstəyi ağzından ayırıb, — İltifat, bura gəl. Prezidentdir. Şer yaman xoşuna gəlib, — dedi və yenə dəstəyə söylədi: — Sağ olun, yoldaş prezident, hökmən yetirərəm. O da sizə salam söyləyir, hə, sağ olun.

İltifat qapı ağzında dayanıb dinləyirdi. Nurəddin dəstəyi yerinə qoyub İltifatın fərəhindən gülən iri gözlərinə baxa-baxa: — Balam, şerin yaman səs salıb, — dedi, — yoldaş prezident çox razılıq elədi, sənə də salam göndərdi.

— Sağ olun. — Sevincindən dizləri əsirdi İltifatın. Qınamasaydılar, irəli gəlib Nurəddinin əlindən öpərdi. Çox sevinirdi. Dili-dodağı əsə-əsə: — Siz sağ olun, Nurəddin müəllim, siz olmasaydınız, mən o şeri yaza bilməzdim — dedi.

İltifat dəhlizdə bir az özünə gəldi, toxtadı. Bu gün ömrünün ən fərəhli günüydü sanki. Kitabı çıxanda belə sevinməmişdi, Salmanın o kitab haqqında məqaləsi dərc olunanda belə qanadlanıb göylərin yeddi qatına çıxmamışdı. İri addımlarla şöbəyə gəldi. Yoldaşlarından təkcə Ümmügülsüm burdaydı, öz stolunun arxasında əyləşib «Ədəbiyyat və incəsənət» qəzetinin bugünkü nömrəsini oxuyurdu.

— Salam, Ümmü, — dedi İltifat.

— Sabahın xeyir, — o, başını qaldırıb İltifata baxdı,— Səni təbrik eləyirəm. Şerlərini oxudum.

— Çox sağ ol, Ümmü, — keçib yerində əyləşdi. — İndi Nurəddin müəllim çağırmışdı. Təbrik elədi məni. Çox xoşuna gəlib, prezident də zəng elədi: onun da xoşuna gəlib.

Ümmügülsüm sakit səslə söylədi:

— İkinci şerin birincidən daha çox xoşuma gəldi, İltifat.

— Hə? — Onun domba gözləri dəbərişdi, burnunu çəkdi. — Doğru deyirsən?

— Vallah, hə.

İltifat ikiəlli başının uzun tüklərini sığalladı:

— Bilirsən onu kimə yazmışam?

Şerdə ad çəkilməmişdi, birinci şer kimi, ithafı da yox idi. Ümmügülsüm buna baxmayaraq, yenidən şerin üstündə göz gəzdirdi və maraqla:

— Yox, — dedi. — Kimə yazmısan ki?

İltifat qapıya sarı boylanıb heç kəsin gəlmədiyinə arxayın olandan sonra astadan, bir az da ehtiyatla:

— Sənə yazmışam, Ümmü, — dedi.

Ümmügülsüm eşitdiyinə inanmırmış kimi, qamətini düzəldib təzədən soruşdu:

— Mənə yazmısan? — Səsində hədədən çox maraq vardı Ümmügülsümün. İltifat qorxu içində gülümsünə-gülümsünə:

— Hə, Ümmü, sənə yazmışam, — dedi. — Mən səni görən gündən gecəm-gündüzüm yoxdur, inan. Mən bu idarəyə ancaq səni görmək üçün, səsini eşitmək üçün belə həvəslə gəlirəm. O gün ki sən olmursan, buralar mənə yetim görünür. Oturub işləyə bilmirəm. Gözüm qapıda qalır. Sən burada olanda isə, arxayın oluram. Səni görürəm, rahat hiss eləyirəm özümü... Sənin durna boğazı kimi uzun və ağ boğazına baxanda gün altında qalmış qar təki əriyirəm. Ceyran gözlərinə oxşayan o qara gözlərinə tamaşa etmək mənim üçün böyük səadətdi, Ümmü.

Ümmügülsümün beyni uğuldayırdı. İltifatın dediklərini eşidirdi, ancaq dərk eləyə bilmirdi. İynə ucu boyda xırda çillər səpələnmiş sifəti od tutub yanırdı. İltifat susmuşdu, Ümmügülsüm hələ özünə gəlmədiyindən susurdu. Handan-hana o, çox pərt və həyəcanlı halda:

— Çox səhv eləmisən, İltifat, — dedi. — Biz bir şöbədə işləyirik. Mən sənə hörmət eləyirəm. Ancaq bu, o demək deyil ki, sən mənə ağzına gələni deyəsən, mənə pis gözlə baxasan.

— Pis gözlə niyə? Əksinə, mən sənə çox yaxşı gözlə baxıram, Ümmü.

— Yox, bu, pis gözlə baxmaqdır. Sən məni nə hesab eləmisən? Sən nə cəsarətlə bu sözləri mənə deyirsən, məgər sən bilmirsən ki, mənim ərim var, üç uşağım var?

İltifat qorxsa da, şit-şit güldü:

— Nə olsun, ərin var, uşağın var? Mənim də arvadım var, üç uşağım var.

— Bəs sən öz arvadını sevmirsən?

— Yox.

— Niyə?

— Dəlidi o.

— Dəli? Mən onu yaxşı tanıyıram. Bizdən üç kurs aşağıda oxuyurdu. Çox ağıllı və mehriban bir qız idi. Dəli niyə olur?

— İçim özümü yandırır, çölüm özgəni. Mən bədbəxtin dərdini heç kəs başa düşmür. Heç kəs bilmir ki, mən onun əlindən nələr çəkirəm.

— Bəs dəliydi, niyə alırdın? Sevməmiş almısan? İltifat ah çəkdi:

— Hə, Ümmü. Sevməmiş almışam. Prinsipə düşüb almışam. — Ümmügülsüm söhbətcil qadın idi. Ailə məsələlərinə isə həmişə xüsusi maraq göstərirdi. İşdə zarafatcıl, deyib-gülən, ancaq əxlaqca möhkəm, gözüdağınıq olmayan bir qadın idi. İndi İltifat öz arvadından danışmağa başlayanda — onun arvadının qeybətini qıran kişilərdən zəndeyi-zəhləsi gedərdi — o, öz icikliyini az qala unudub onu sorğu-suala tutmağa başladı, Ümmügülsümün nəzərincə, hər ailə kiçik bir dövlət idi, onun da özünə görə, problemləri, çətinlikləri, sirləri olur. Ailədə satqın, ikiüzlü, etibarsız adam olmasa, onun sirri evdən bayıra çıxmaz. İltifat özü danışırdı — qoy danışsın. Ümmügülsüm üçün bu maraqlı idi.

— Necə yəni prinsipə düşüb almışam? Kül o kişinin başına ki, arvadı prinsipnən alsın — Fürsətdən istifadə eləyib sancdı İltifatı və bildi ki, düz ürəyinin başından vurdu, çünki İltifat qıpqırmızı qızardı və o sözü dediyinə peşman oldu. — Kişi arvadı

sevib almalıdı. Məsələn, məni ərim sevib alıb. Mən də sevib getmişəm. Ona körə də Ələkbərin bir dırnağını sənin kimi yüz kişiyə dəyişmərəm.

Ümmügülsüm başa düşmüşdü ki, İltifata zərbə vurmaqda tələsdi. Daha o, necə, kiminlə prinsipə düşüb Afərini aldığını danışmayacaq. Məhz buna görə o ikinci zərbəni də endirdi: «Ələkbərin bir dırnağını sənin kimi yüz kişiyə dəyişmərəm».

Bu sözlər İltifatı özünün təbirincə desək, köpəyi selbə tutan kimi tutmuşdu. Çoxdan ürəyində gəzdirdiyi sözləri bu gün, şerə arxayın olub dilinə gətirdiyinə peşman idi. Ancaq sözü demişdi, indi sözünün qulu, əsiri idi. Günah işləmiş adam kimi indi Ümmügülsümün daha nə deyəcəyini təşviş içində gözləyirdi, vəziyyətdən çıxmaq üçün çarə axtarırdı, lakin ağlına heç nə gəlmirdi. Ümmügülsüm isə, çox arxayınlıqla qəzeti, zəhləsi getdiyi murdar bir şeyi itələyirmiş kimi, kənara itələdi və şax:

— Bir qələtdi elədin, İltifat. Bu, birinci və axırıncı dəfə olsun. Bir də səndən belə şeylər eşitsəm, özündən küs. Səni bu kollektivin içində bir günə salaram, adın da yadından çıxar. Yadında saxla! — dedi və ayağa qalxıb otaqdan çıxdı. Və bütün günü key kimi gəzib dolaşdı. Nə oxuduğu başına girdi, nə bir sətir yaza bildi. Əvvəl istədi əhvalatı şöbədəki qadınlara açıb danışsın, onu rüsvay eləsin. Ürəyi gəlmədi — bundan sonra İltifatın yoldaşlar arasında nə hala düşəcəyini gözünün qabağına gətirib susmağı məsləhət gördü. Ancaq sakit ola da bilmirdi.

Əslində bu, təzə xəbər deyildi Ümmügülsüm üçün. İltifatın — ucaboy, donqarbel, dombagöz oğlanın bu şöbəyə gələn ilk günlərdən onun boyun-boğazına, ayı sulanmış armuda baxan kimi baxdığını və ürəyindən nə isə ayrı şeylər keçirdiyini duymuşdu. Altı ilin gəliniydi onda, az-çox təcrübəsi vardı — kişi xeylağının baxışını o saat alırdı, ürəyində isə «qadam ağzına» deyib ötüşürdü. Özünü elə aparırdı ki, guya heç nə görmür, heç nə hiss eləmir. İltifatı da ilk günlərdən «oxumuşdu». Ona görə həmişə onunla öz arasında məsafə saxlamış, yaxına buraxmamış, açıq-saçıq söhbətlərə yol verməmişdi.

Vaxt olmuşdu ki, İltifat onların evinə zəng çalmış, «idarədə yoxlama var. Tez taksiyə min gəl» — demişdi. Kimsədən söz-minnət götürməyə əzəldən adət eləməmiş Ümmügülsüm uşaqlarını yerbəyer eləyib, özü demişkən, qaça-qaça instituta gəlmiş, lakin şöbəni boş görüb mat qalmışdı.

— Bəs hanı, heç kəs yoxdu ki, şöbədə…

İltifat domba gözlərini süzdürüb gülümsünmüşdü:

— Zarafat eləyirdim. Gördüm təkəm, darıxıram. Götürdüm sənə zəng elədim.

— A,a.. Day sənə sözüm yoxdu.

İki-üç dəfə belə hal olmuşdu. Neçə dəfə isə Ümmügülsüm başını qaldırıb baxanda İltifatın həsrətlə ona zillənmiş baxışlarını görüb dodağını dişləmiş, özünü görməməzliyə vurmuşdu. İndi isə, budur — eşq elan eləyir. «Allah vurmuşdu səni» deyə ürəyində İltifatın dalınca söyüb söylənə-söylənə gah kitabxanaya getmiş, gah şöbəyə girib-çıxmışdı — ancaq fitrətən alçaq və kəmfürsət adama oxşayan bu iş yoldaşının öz arvadı haqqında dediyi sözləri unuda bilməmişdi. «Dəli? Prinsipə düşmüşəm».

İltifatın bu çiy hərəkəti Ümmügülsümü bütün günü pərt eləmişdi. Heç bir iş görə bilmədi axşamacan. Ona nifrətlə, qəzəblə baxırdı. İşin axırına yaxın Fazilə Ümmügülsümün könlünü açmaq üçün yaxınlaşıb:

— Böyükməmə, sənə nə olub, niyə qanın qaradı? — deyə soruşanda o, əsl mətləbi açmaq istəmədi, çünki Fazilə onun yanında uşaq idi və belə məsələlərdə o, qızla öz arasında müəyyən pərdə saxlayırdı. Ona görə:

— Heç! — deyib susdu. Bu zaman İltifat yanlarından gəlib keçdi. O ötüşən kimi Fazilə eynilə İltifat kimi burnunu çəkib:

— Bu lap gic imiş ki?... — dedi.

— Kim? İltifat?

— Hə də.

— Niyə ki?

— A,a, ayağım lap yerə yapışdı, Bayaq kitabxanada oturmuşam, gəlib, qəzeti qoyub qabağıma, deyir, Faza, şerimi oxumusan,

deyirəm yox. Deyir, al oxu. Buradakı şeri — ikinci şeri sənə yazmışam...

— Həri?

— Papamın canı üçün?

— Vah səni, biqeyrət! Sən onun tayısan məgər? Gör nə vicdansız adam imiş bu? Bəs sən nə dedin, ağəz?

— Heç nə. Utandığımdan heç nə deyə bilmədim...

— Nahaq. Gərək üzünə bir lomba tüpürəydin. Alçaq, həmin sözləri səhər mənə də deyib. «Bu şeri sənə yazmışam!».

— A, a. Boyunu yerə soxum... İkimizə də eşq elan eləyir bir gündə!

...Qəzet institut əməkdaşlarının arasında əl-əl gəzirdi. Bir çoxu İltifatın özünə görə oxuyurdu, bir çoxu direktora görə. Hamıdan çox sevinən isə iki nəfər idi — şerin qəhrəmanı və şerin müəllifi. Şerin qəhrəmanı ona görə fərəh içindəydi ki, bu, ona həsr edilmiş ilk bədii yazı idi, onu mərd, fədakar bir alim təki vəsf eləmişdi şair. Kabinetinə girənlər, dəhlizdə rast gələnlər onu təbrik edirdilər. Nurəddin sevinc içində qımışa-qımışa:

— Bu, şairin müvəffəqiyyətidir, — deyirdi, — onu təbrik etmək lazımdır.

İltifatı təbrik edənlər daha çox idi. O, hamının üzünə gülümsünür, dəhlizdə şad-xürrəm gəzinir, özünü günün qəhrəmanı hesab edirdi. Ancaq bütün bunlar işin zahiri idi—əsl həqiqət ayrı idi və sevinc fərəh İltifatın gözünü elə örtmüşdü ki, bu zahiri parıltı altında gizlənmiş əsl münasibəti görməyə qoymurdu. Və bu da qəribə idi ki, kimsə ona yaxınlaşıb ürəyindəkini demək istəmirdi.

Salmanın, Nadirənin, Gülmirənin, Cəfərin və onlarla başqa adamın qəlbində ayrı hiss qaynayırdı. Onları düşündürən başqa şey idi. Nurəddin dünən də, srağagün də burdaydı. İltifatın gözünün qabağındaydı. Bəs niyə dünən, srağa gün yazmamışdı o şeri? Ona görə ki, vəzifəsi yox idi? Bu gün birdən-birə şairin yadına düşmüşdü. Bax, bu, qəribə idi, düşündürücü idi. Deməк, İltifat məqam gözləyirmiş, demək, İltifat yaltaq imiş. Bax, bu təəssüf doğururdu. Xüsusilə Nadirə və Gülmirə məhz buna görə İltifata

bir ikrah hissilə baxır, ancaq heç nə demirdilər.

İltifat Nurəddin Osmanzadəyə — öz təzə direktoruna həsr etdiyi şerin «şöhrətindən» məst idi, ancaq bütün məstlər kimi, onun gətirdiyi bədnamlığı – silinməz ləkəni görə bilmirdi. Bu bədnamlığın — ləkənin adı yaltaqlıq idi. Şeri, başqaları kimi, Sakit də oxumuşdu. Yazılışına, söz düzümünə, misraların səyyallığına sözü yox idi. Ancaq mahiyyəti pis idi şerin — müdirə yazılmışdı. Bu, onun qəlbini təəssüf hissilə doldurmuşdu. Çox götür-qoy eləmədən, bir qələm dostu kimi, sənət aləmində təzə-təzə iməkləyən İltifatı bu əyri, şərəfsiz yoldan çəkindirmək məqsədilə və deyəcəklərini İlahamın başa düşüb qəbul eləyəcəyinə inanaraq açıq söhbət eləməyi qərara aldı və nahar fasiləsindən xeyli sonra, demək olar ki, işin axırına az qalmış onu pilləkən başında tutdu və ərkyana dedi:

— Şerini mən də oxudum, İltifat. Şer kimi pis deyil. Ancaq gərək onu sən yazmayaydın, İltifat.

İltifatın domba gözləri bir az da qabağa çıxdı:

— Niyə?

— Ona görə ki, — Sakit İltifatın təəccüb və narazılıqla dediyi bu «niyə»dən dərhal anladı ki, söylədiklərini düzgün başa düşməyəcək və bəlkə də inciyəcək. Lakin artıq gec idi. Başlamışdı və sözünü deməli idi. Odur ki, ani tərəddüdən sonra davam etdi: — Ona görə ki, kollektivdə çox pis təəssürat yaradıb o şer.

Yenə soruşdu:

— Niyə? Səhərdən hamı məni təbrik eləyib!

— Hər təbrik eləmək — «sağ ol, yaxşıdır, yaxşı eləmisən» demək deyil, İltifat. Sən hələ cavansan, görürəm, çox şeylərə uşaq sadəlövhlüyü ilə baxırsan və mahiyyətini görmürsən, görə bilmirsən. Düzdür hamı, təbrik eləyir səni. Mən də təbrik elədim. Ancaq indi görürsən mən sənə deyirəm ki, düz eləməmisən, O şeri sən beş ay, bir il qabaq yazsaydın, bu sənə baş ucalığı gətirərdi. Lakin sən belə eləməmisən. Sən Nurəddin direktor olandan az sonra bu şeri qələmə almısan. Bu isə, çox pis səslənir. Puşkinin o gözəl sözləri yadındadırmı? «Şərəfini gənclikdən qoru» Sən

şərəfini indidən qorumasan, sənin ləyaqətin və şərəfin, gələcək nüfuzun təhlükə altında qalacaq, İltifat. Nəsimiləri olan xalqımızın zehnində şair sözü — mərdlik, kişilik, dəyanət, dönməzlik simvoluna çevrilib, İltifat. Beş günlük dünyanı kişi kimi, ləyaqətlə yaşamaq lazımdır — başqa cür yaşamağına dəyməz, İltifat.

— Sən... — İltifat nə isə demək istədi, ancaq elə pərt olmuşdu ki, söz tapa bilmədi, kəkələdi. Sakit onun tutulduğunu hiss edib:

— Mən səni istədiyimdən bunları deyirəm, İltifat — söylədi. — Deməyə də bilərdim. Başqaları kimi, mən də təbrik etməklə kifayətlənərdim. Mən ürəyimin, vicdanımın sözlərini sənə söyləməyi özümə borc bildim, İltifat.

İltifat qızarmışdı, nazik, seyrək bığı altındakı üst dodağı səyriyirdi. Sakiti zəhərləmək, ona acı bir söz demək istəyirdi, qulaq asa-asa düşünürdü ki, «o, yəqin paxıllıq eləyir, yalandı «xətrini istəyirəm» deməsi, yoxsa onun bugünkü sevincinin üstünə beləcə rəhmsizcəsinə su çiləməzdi; ya məni istəmir, ya da Nurəddini sevmir. Buna başqa heç bir ad vermək olmaz». Qəribə idi ki, bircə kəlmə də deməmiş, Sakitdən üz döndərib getdi. Sakit pərt halda siqaret yandırdı. Lakin rahatlığı pərtliyindən çox idi. Düşündüyünü söyləmişdi İltifata.

## ON İKİNCİ FƏSİL

Gülmirənin taleyinə yazılmış hər sevincin gözünə bir niskil qatılmalıymış! Qışın çıxhaçıx vaxtında günlərin birində «istitut həmkarlar təşkilatının sədri illərlə ev siyahısında birinci olan Gülmirəni kənara çağırıb sevindirmiş, ona ev verildiyini söyləmiş, order almaq üçün rayon icraiyyə komitəsinə getməyini tapşırmışdı. Gülmirənin bu xəbəri eşidəndən sonra uçmağa qanadı olmamışdı — bu günü o, neçə il gözləmişdi. Əqdəmin sağlığında gözləmişdi, Əqdəm öləndən sonra gözləmişdi. Ancaq son vaxtlar nədənsə bu

barədə əsla heç nə düşünməmiş, demək olar ki, unutmuşdu. Həm də illərlə qayğı və mehribanlıq görüb az qala anası kimi isinişdiyi Maşa xaladan, təzə qonşularından — mehriban və sadə insanlar olan Sahibə ilə Mir Sahibdən ayrılıb uzaq düşəcəyini yadına salanda çox vaxt məyus olmuşdu. Xüsusilə Sahibədən heç ayrılmaq istəməzdi Gülmirə. İdarədəki qadınlarla — Ümmügülsümlə, Sarışınla, Fazilə ilə onu bağlayan tellər çox nazik idi, ancaq iş əlaqələri vardı aralarında. Təkcə Nadirə xanımla o, açıq idi, dərdini-sərini istədiyi vaxt açıb deyə bilirdi, onu özünə böyük bacı hesab eləyirdi. Salman — Mirzə Yanar məsələsini ortalığa atandan sonra Nadirə ilə münasibətinin də üstünə su çilənmiş, kölgə düşmüşdü, doğrudur, Nadirə xanım, ona əvvəlki münasibətini dəyişməmişdi, danışırdı, deyirdi-gülürdü, ancaq haradasa heç özü də hiss etmədən yəqin Gülmirənin onun ərinin ad-sanına, nüfuzuna balta çalan, ləkələyən o hərəkəti yadına düşən anlarda tutulurdu, dönürdü, laqeydləşirdi və bu, Gülmirənin qəlbini yaman incidirdi. Gülmirə bu barədə Nadirəyə heç nə söyləmir, onu qınamır, əksinə, özünü günahkar sayır, dərin peşmançılıq hissi keçirir və dərdini ürəyinə salıb susurdu. Bir həqiqət gün kimi aydın idi ki, aralarında qabaqkı səmimiyyət yox idi. Hər ikisi bunu aydın dərk edir, ancaq açıb-ağartmır, zahirdə hər şeyin əvvəlki kimi olduğuna biri-digərini inandırmağa çalışırdı. «İşdə münasibətlər haçalanır, hardasa mənafelər, mühakimələr toqquşur və bu şəxsi münasibətlərin də dəyişməsinə səbəb olur» — bu həqiqəti Gülmirə də, Nadirə xanım da çox yaxşı başa düşürdü. Amma Sahibə ilə onun arasında bu cür qeyd-şərtlər, çəpərlər, hasarlar yox idi, olmayacaqdı da. Ona görə Sahibə ilə dostluğu təmiz idi, bu dostluğun keçmişi yox idi, səhvləri, peşmanlıqları yox idi; bu dostluğun ancaq bugünkü vardı—xoş idi, təmiz idi bu günlər—gələcəyinin də təmiz olacağına inam, ümid çox idi. Sahibə xoşqılıq, şirindil, özünü istədən idi və aralarındakı yaş fərqi az olsa da, kiçik bacı kimi aparırdı özünü, Gülmirəyə, «alim bacısına» hörmətlə, ehtiramla baxırdı həmişə və bu hörmət, onun Sakit Aranlı ilə şəxsən tanış olduğunu, onunla bir yerdə

işlədiyini biləndən sonra daha da artmışdı. Sakit Aranlının avtoqraf yazdığı kitabını gətirib ona verəndən sonra Gülmirə Sahibənin gözündə çox ucalmış, fəxr etməli olmuşdu.

Ev məsələsi ortalığa düşəndə, ayrılıq barəsində qatma-qarışıq fikirlər arasında götür-qoy eləyəndə əgər birinci Maşa xala yadına düşmüşdüsə, ikinci Sahibəni xatırlamışdı. Təzə ev alacağından doğmuş ilk sevincinə birinci nisgil bu anda qarışmışdı. İkinci və daha böyük nisgil isə adına yazılmış orderdə Orxanın evinin ünvanını, mənzilinin nömrəsini görəndə əsəblərini tarıma çəkmiş, sarsılmış və gözlərini yaşartmışdı. Rayon İcraiyyə komitəsinin sədrinin otağından çıxandan sonra, elə dəhlizdə ildırım vurmuş kimi xeyli donub qalmış, addım atmağa taqəti belə olmamışdı. Beynində şimşək çaxa-çaxa, Orxanlı günləri qırıq-qırıq lent parçaları kimi gözlərinin qabağında yanıb sönə-sönə sədrin otağına cummaq, «yox, mən bu otaqları istəmirəm!» demək istəmişdisə də, yenə yerindən tərpənə bilməmişdi.

«Alimlər evi»ndə olduğunu bilirdi onun üçün ayrılmış mənzilin. Ancaq heç ağlına gətirməmişdi ki, Orxanın otaqları ola bilər. Orxanın otaqları onun xəyalında boş deyildi, orada Orxan yaşayırdı və həmişə də yaşayacaqdı. Ancaq həyat həqiqəti ayrı şeymiş, sən demə. Sən demə, o otaqlar çoxdan sahibsiz imiş, onun bacıları, kim bilir, bəlkə elə Şirin arvadla bir yerdə günlərin birində ürəklərini tuta-tuta gəlib qardaşlarının, oğlunun ev əşyalarını, müxəlləfatını, kitablarını maşına yığıb aparmış, mənzilin açarını da evlər idarəsinə veriblərmiş!

Çaşqın, dolaşıq və kövrək fikirlər əlində çırpınan Gülmirə nəhayət, İnstituta gəlmiş, dərdini — əslində sevincini bölməli idi — Nadirə xanıma danışmışdı:

— Bu, neçə uğursuz təsadüfdü, Nadirə xanım? Başımı lap itirmişəm. Orxan biçarənin otaqlarını mənə veriblər. Sən bir işə baxırsan, sən allah!! Yox, mən o otaqlarda yaşaya bilmərəm, bilmərəm, Nadirə xanım. Bu, mənim üçün dəhşət olar, əzab olar. Mən buna dözə bilmərəm...! — deyə-deyə az qala ağlamışdı. Nadirə xanım Gülmirənin sonsuz həyəcanla dediyi bu sözlərdən

hər şeyi anladı, nazik qaşları çatıldı, onun ağarıb avazımış qəşəng sifətinə baxa-baxa ürəyində taleyinə acıdı, həssas bir qadın kimi, vaxtilə səni sevən, həsrətinlə yaşayan, arzusuna qovuşmadan dünyadan köçüb-getmiş əziz bir adamın evində yaşamağın nə qədər əzablı olduğunu anladı — hara baxacaq, onu görəcək. Hara əl vuracaq, onu xatırlayacaq. Divarlara da bəlkə nəfəsi hopub. Səsi yaşayır onun burada, ruhu yaşayır.

Və birdən xatırladı ki, Gülmirə də onu sevir. Sağlığında sevib-əzizləməsə də, indi, öləndən sonra Orxan, öz nakam məhəbbətinin və sonsuz həsrətinin gücüylə deyəsən Əqdəmi sıxışdırıb məğlub eləyib. Çünki, Gülmirə bu hisslərini dilinə gətirib, Nadirəyə bəyan eləməsə də, o, bir qadın həssaslığı ilə Gülmirənin ürəyinin gizli düşüncələrini oxumuşdu. Bəzən qınamışdı, bəzən haqq qazandırmışdı. Bəzən qəribə bir qibtə də axıb dolmuşdu qəlbinə.

Ona görə Nadirə xanım Gülmirəyə — şübhəsiz, indi o, belə şeyləri ağlına gətirəsi halda deyildi — bu təsadüfün — Orxanın mənzilinin ona verilməsinin nə demək olduğunu başa salmağa çalışdı:

— Sən heç həyəcanlanma, Gülü. Burda pis heç nə yoxdur. Əksinə, sevin sən, Gülü. Mən bilirəm sən Orxanı necə istəyirsən. Yox, yox, başını bulama. Mən hər şeyi yaxşı başa düşürəm. Sən o evə köçəndən sonra çox rahat olacaqsan, Gülü. İtirdiyin əziz adamın nəfəsi hopmuş divarlar arasında yaşamaq, əzablı olduğu kimi əvəzsiz bir şirinlikdir də, Gülü. Sən onun xatirəsi üçün axtarmayacaqsan — o xatirələr həmişə sənin yanında olacaq. Bu isə nəyə desən dəyər, Gülü. O biri tərəfdən evlərə söz ola bilməz. Dənizə baxır, havası gözəl, yeri gözəl...

Gülmirə Nadirə xanıma qulaq asırdı, həyacanından ürəyi əsim-əsim əsirdi və əsə-əsə də düşünürdü, özünü məzəmmət eləyirdi ki, necə olub bu fikirlər onun ağlına gəlməyib. Aman allah, bu Nadirə necə də həssasdı, necə şairanə ürəyə malikdi. Və bunu da fikirləşirdi ki, Salman kimi kobud, belə incə hisslərdən uzaq bir adamla o, necə yaşaya bilib — Salman onu görəsən heç başa düşübmü?

— Çox sağ ol, Nadirə xanım!.. Düz deyirsən... Bu, daha yaxşıdı, çox yaxşıdı. — Və artıq heç nə tapıb deyə bilmədiyini, daha doğrusu, Nadirənin sözlərindən sonra qəlbinə axıb dolan hissləri sözə çevirə bilmədiyini yəqin edib tələsik onun üzündən öpərək qaçmışdı.

...Xatın arvad qızının ev alması xəbərindən hədsiz dərəcədə sevinmişdi. «İnsanın — arvad oldu, kişi oldu — fərqi yoxdu — gərək isti, özünəməxsus bir bucağı, başının üstə bir damı olsun. Evsiz kişi evlənsə, arvadını onun-bunun bucağına gətirsə, o, ailə möhkəm olmaz, tez dağıla bilər. Gülmirə kimi tək, ərsiz bir qadının da mütləq evi olmalıdı. Gözəlliyinə, ağlına-kamalına görə alnına gün doğmasa da, bəlkə evinə görə baxtının ulduzu parladı — nə çoxdur evsizlikdən ailə qurmağa ürək eləməyən kişi! «Xatın arvad belə düşünmüşdü həmişə və ona görə də bu xəbər onu bəlkə də Gülmirədən az fərəhləndirməmişdi.

— Haçan köçmək fikrindəsən, qızım? — deyə ortalıqda ayaq üstə dayanmış Xatın, divanda əyləşmiş qızından soruşmuşdu. Cəmi bircə dəfə — Orxan sağ olarkən o evdə olmuş Gülmirə xəyalında yenə oradaydı; Orxanın ürəyi qısılmışdı o əlini oğlanın tüklü sinəsinə qoymuşdu. Anasının səsi onu o aləmdən qoparıb bura — anasının hüzuruna gətirmişdi:

— Nə deyirsən?

— Deyirəm inşallah, haçan köçmək istəyirsən?

— Nə bilim... hələ gərək gedib silib-süpürəm, təmizləyəm. Neçə vaxt adam nəfəsi dəyməmiş ev-eşikdi.

— Elə yaxşıdı. Düz fikirləşmisən, ağlına qurban olum. Əvvəl oranı hazırlarıq, sonra köçmək hasandı. Bir dənə maşındı, onun canıdı. Yəqin yoldaşların da gələr köməyə. O oğlan nədi — hə, Orxana da deyərsən, gəlib sənə əl tutar, Mir Sahib də burdadı.

Xatın arvad Orxanın adını dilinə gətirəndə, Gülmirənin bədəni od tutub yanmış, oturduğu yerdə dağ yağ içinə düşmüş kimi qıvrılıb-açılmış və anasına heç nə deyə bilməyib yanıqlı bir ah çəkmişdi.

...Maşa xala dərin fikrə getmişdi. Gülmirədən hər ay aldığı

əlli manata görə yox, ondan ayrılacağına görə arvadın gözləri yol çəkmişdi. Neçə il ana-bala kimi yaşamışdılar. Çox vaxt yeməkləri-içmələri də bir olmuşdu. Dünyada müharibədən sonra kimi-kimsənəsi qalmamış Maşa xala Gülmirəyə öz doğma balası kimi mehr salmış, dərdini-sərini onunla bölmüş, xəstələnəndə, nasazla-yanda, bütün qoca arvadlar kimi, ölümün yaxınlaşdığını hiss eləyəndə vəsiyyətini də Gülmirəyə eləmişdi, təqaüdündən qırtıb-qısıb qənaət elədiyi saxlancının yerini ona demişdi, «məni öz pulumla dəfn elərsən, Gülya!» — söyləmişdi.

İndi budur, o, təzə ev alıb — yaxın günlərdə köçüb gedəcək...

— Demək, belə Gülya... Gedirsən...

— Hə, Maşa xala, Düzü, heç getmək istəmir ürəyim. Səndən ayrılmaq çətindi, Maşa xala.

— Ox, heç bilirsənmi mənə necə ağır olacaq, qızım. Mən sənə necə öyrənmişəm. Ox, ox... Yox, yox kövrəlmə, Gülya. Təzə evin mübarəkdi, qızım. Sağlığına qismət olsun.. Allah eləsin o evdə xoşbəxt olasan... Ancaq... yalvarıram, məni unutma, tək qoyma məni. Tez-tez baş çək mənə. Ömrümün çoxu gedib, azı qalıb. Dünyanın işini bilmək olmur, bir də gördün Maşa xala, yoxdu.

— Nə danışırsan, Maşa xala? Elə demə. Mən həmişə gələcəyəm, sənə dəyəcəyəm. Lap istəyirsən, gəl belə eləyək — bu evi təhvil ver hökumətə, ya keçir Mir Sahibin adına, köç bizə. Mənimlə yaşarsan. Nə olar ki, hə?

— Yox, qızım — Maşa xala gözləri dolmuş halda qəmli-qəmli gülümsünmüşdü. — Mən... mən elə burda qalacağam... elə burda da... öləcəyəm...

...Sahibə qucaqlayıb üzündən öpmüş, Mir Sahib əlini sıxmışdı.

— Şadxəbər olasan, bacı. Mübarək olsun. Sağ əlin başımıza. Gün o gün olsun biz də təzə ev alaq — Miri neçə ildi zavodda növbədədi.

— Siz də alarsız, inşallah... — demişdi Gülmirə və qəlbindən keçirmişdi ki, bunlar da köçüb getsə, Maşa xalanın günü

necə olacaq?!

— Ancaq sənsiz çox darıxacağıq, bacı.

— Mən də sizsiz darıxacağam. Amma uzaq deyil ha. Burdan funikulyorun yanına çox yol yoxdu ki, on dəqiqəlik yoldu cəmisi… Bir dəfə siz gələrsiz, bir dəfə mən gələrəm...

— Əlbəttə. — Mir Sahib hər iki qadının kövrəldiyini görüb söhbəti dəyişmək istəmişdi — sənin köçünü özüm daşıyacağam, bacı. Ancaq fəhlə sinfi üçün iki bacı bir yaxşı stol açasınız gərək. Yoxsa ayın-oyunu yenə daşıyıb gətirəcəyam bura.

Gülüşdülər Mir Sahibin bu sözlərinə.

...İri dəmir qapının üstündə ağ dəmir lövhəyə iki kəlmə söz yazılmışdı: «Orxan Əlizadə» Gülmirə bu lövhənin qabağında dayananda ürəyi əsmiş, baxışları dumanlanmışdı, başı gicəllənmişdi. Neçə il əvvəl bu evə gələrkən necə titrəmişdisə, indi də eləcə titrəmişdi. Ona elə gəlmişdi ki, Orxan içəridədi, hətta barmağını zəngin düyməsinə də uzatmışdı. Əlindəki açara gözü sataşanda yuxudan ayılmışdı elə bil. Açar da Orxanın saldırdığı qıfılın açarı idi. Bədəni gizildəmişdi.

Yox, nə lövhəni dəyişəcəkdi, nə qıfılı. Onlar Orxanın yadigarlarıydı. Qoy bu qapıya gələnlər, bu pillələrdən enib qalxanlar həmişə elə bilsinlər ki, Orxan Əlizadə ölməyib əvvəlki, kimi yenə elə bu mənzildə yaşayır, Gülmirəni bu otağa girib çıxan görənlər elə hesab eləsinlər ki, o, Orxanın arvadıdı, neçə il tək-tənha yaşayan Orxan yəqin təzə evlənib. Qoy elə bilsinlər.

İçəri bomboş idi. Vaxtilə gördüyü səliqə ilə, subayyana bəzədilmiş o otaqdan əsər-əlamət qalmamışdı. Hündür, dənizə baxan iri, lay pəncərələrin zərli pərdələri çıxarılmışdı, çarpayı, divan, stol, stullar, ağzınacan dolu kitab şkafları aparılmışdı. Təkcə bir dənə dibçək qalmışdı pəncərə ağzında. Quşqonmaz əkilmiş saxsı dibçək. Quşqonmaz susuzluqdan, baxımsızlıqdan qupquru qurumuş, ancaq zərif budaqları sınmamışdı, iynəyə oxşayan ləçəklər tökülmüşdü. Skelet kimi cansız dayanmışdı əl boyda torpağın üstündə... Üfürsəydin, tərpətsəydin, xıncım-xıncım olub tökülə bilərdi. Kaş qurumamış olaydı. Gülmirə onu yaşadardı, saxlayardı.

Eybi yox, elə belə də saxlamaq olar. Qoy qalsın... Özü əkib, özü sulayıb... Nəfəsi dəyib ona...

Gülmirə otağın ortasında dayanmışdı, heykəl idi elə bil. İçində, ürəyində, sinirlərində kədərli, həzin bir musiqi çalınırdı sanki. Gözlərindən ixtiyarsız yaş axırdı yanaqları aşağı...

Fikrində evi təzədən qurdu. O vaxt — Orxanın sağlığında gördüyü kimi. Çarpayı yataq otağında, sol divarın dibində idi. Şifoner sağ tərəfdəydi. Dənizin üstündən yavaş-yavaş qərbə, günbatana meyl eləyən günəşin işığı pəncərədən düz çarpayının üstünə düşərdi. İndi də elə düşəcək. Ancaq Orxanın gözünü qamaşdırmayacaq. Gülmirənin kədərli sifətini oxşayıb, öpüb gedəcək. Gecələr ay işığı da belə. Bu yataq otağıdı. Yemək və iş otağı da Orxanın vaxtındakı kimi qurulmalıdı, ortalıqda. Yazı masası pəncərə ağzında. Kitab şkafının dibində....

Stol divarın dibində....

Gülmirə müxəlləfatı xəyalında belə yerləşdirirdi.

## ON ÜÇÜNCÜ FƏSİL

Təzə direktorun iş başına gəlməsindən üç ay keçməsinə baxmayaraq, ağlına gələn, düzgün hesab elədiyi «islahatları»nın çoxunu həyata keçirə bilməmişdi. Gecə-gündüz düşünür, ölçüb-biçir, hara əlini atırdısa, müəyyən çətinliklərlə qarşılaşırdı, dayanmalı, təzədən götür-qoy eləməli olurdu. Səhər tezdən idarəyə gəlir, axşamacan ya direktor kabinetində oturur, ya da xüsusi səliqə ilə hələ Aslanzadənin vaxtında bəzətdirdiyi, mebelinəcən yeniləşdirdiyi ikinci kabinetində — artıq əməkdaşların xəlvətdə lağa qoyduğu «istirahət otağı»nda vurnuxurdu. Kənardan baxanlara elə gəlirdi ki, o, can yandırır, bütün fikri-zikri institutdur, onun dərdi-səri, qayğılarıdı. Hətta bəzilərində belə təəssürat da yaranmışdı ki, «kişi işləyən adamdır!»

Həyata keçirə bilmədiyi planlarından biri İntiqamın məsələsi idi. Nurəddin özü də baş aça bilmirdi ki, İntiqam ona nə pislik eləyib — ancaq gözünə ox kimi batırdı. Yanına çağırmır, otağına

getmir, heç nəydə onunla məsləhətləşmirdi. Bircə şey aşkar idi ki, o, İntiqamla işləməyəcəkdi, işləyə bilməyəcəkdi. Bəs kimi onun yerinə qoysun — institut adamlarının hamısını bir-bir gözünün qabağına gətirir, hərəsinə bir pürçüm qoyur, «yox, bu olmaz!» — deyib ürəyində hazırladığı siyahıdan adını elə qaralayırdı ki, daha fələk də gəlsə oxuya bilməzdi.

Günlərin birində yadına dostu düşdü. İki mərtəbə aşağıda işləyirdi. Nurəddinin fikrincə, görüb-götürmüş, vaxtilə hansı Baş idarədə isə müavin olmuş, indi akademiyanın incəsənət institutunda şöbə müdiri vəzifəsində çalışan Sultan Sultanov çox ləyaqətli adam idi və Nurəddinin də xətrini çox istəyirdi. Saçları çallaşmış, şax yeriyən, ətli buxağı xirtdəyinin üstünü örtmüş Sultan sənəti, ixtisası etibarilə Nurəddinin institutuna əsla uyğun gəlmirdi.

Nurəddin «istirahət otağı»nda divanda əyləşmişdi, Sultan qarşısındakı jurnal stolunun böyründəki kresloda. Ümumi əhval-pürsanlıqdan sonra. Nurəddin uzun qıçını aşırıb sol qıçının üstünə qoyaraq:

— Bilirsən səni niyə çağırmışam, Sultan? — dedi.

Sultanın tərtəmiz qırxılmış, xəstə sifəti kimi solğun üzündə ötəri bir təbəssüm gəzə-gəzə:

— Yox, — dedi. — Deyərsən, bilərəm.

— Sluşiy, ağlıma bir ideya gəlib. İstəyirəm səni özümə müavin götürəm axı. Bu işə necə baxırsan? Sultanın ağzı təbəssümdən yayıldı:

— Sənin müavininə nə gəlib, ay Nuru? Gül kimi müavinin var. Yaxşı, işləyən oğlandı.

— Yox, mən onunla işləyə bilməyəcəyəm, Sultan. Dikbaşdı, bir az da tərsliyi var. Mənim də təbiətim elə şeylər götürmür, bunu sən bilirsən. Amma səninlə işləyərəm.

— Yox, Nurəddin, mənim yerim yaxşıdı. İşim az, məsuliyyətim az...

— Mən onu da düşünmüşəm, o şöbəni sənin əlindən almırıq.

— Sən öz şöbəni təhvil vermisən?

— Yox, əvvələn, elə bir adam yoxdur. İkincisi də, niyə təhvil verim ki. Bu, həm dövlətə xeyirdi — ayda yüz manat qalır institutun cibində, həm də mənə. Səhər direktorluqdan çıxdım, şöbə yenə əlimdədi. İndi akademiyada bütün direktorlar belə eləyir. Hətta prezident də. O, bütöv instituta ictimai əsaslarla rəhbərlik edir. Səhər prezidentlikdən çıxsa, direktordu yenə. Səndə belə, Sultan. Sultan ciddiləşib fikrə getdi:

— Sizin institut çətin institutdu, Nurəddin. Mən orda qorxuram baş çıxara bilməyəm. Əvvələn profilim deyil. İkincisi, dil bilmirəm. Üçüncüsü...

— Nə profilbazlıqdır, canım,

— Məncə, prezident də buna razılıq verməz... Nurəddin güldü.

— Mən deyəndən sonra prezident kimdir? Sən onda məni yaxşı tanımırsan, Sultan. Mən Aslanzadə deyiləm, mən Nurəddin Osmanzadəyəm. Deyəcəyəm mənə sən lazımsan, vəssalam!

Sultan da ona qoşulub qımışdı:

— Bilirəm, nə bilim, gərək fikirləşəm... — Belə dedi və doğrudan da ürəyindən keçirdi ki, deyəsən yaxşı təklifdi. Həm şöbə müdiri, həm direktor müavini. Nə qədər olmasa da, geniş imkanlar olacaq. Sultan gülümsünüb Nurəddinə baxdı. Əlbəttə, Nurəddin bu baxışın mənasını başa düşə bilməzdi. Sultan uzun illər müstəqil «rəhbər» olmaq arzusu ilə yaşamışdı. Ancaq o gözəl istəyinə qovuşa bilməmiş, nəhayət bir gün, işinə tikilmək şərtilə töhmət verilmiş və müavinlikdən də çıxarılmışdı. İndi də direktor müavini... Dünyanın işini bilmək olmaz, bir də gördün... fələyin çərxi ayrı cür fırlandı və Sultan gəlib oldu direktor! «Yaşım əllini aşdı, müavinlikdən o yana qalxa bilmədim, yəni müavinlik elə mənim bəxtimə yazılıb? Bəlkə... bu dəfə gətirdi?» — deyə ani olaraq xəyalından keçirən Sultan düşündüklərini Nurəddinin başa düşəcəyindən qorxmuş təki:

— Yox! Fikirləşmək lazımdır! — dedikdə direktor onun incə yerindən tutdu:

— Orda on il də işləsən, akademiyanın müxbir üzvü ola

bilməyəcəksən, Sultan. Çünki sənin direktorun özü müxbir üzv olmaq istəyir. O qala-qala səni heç kəs keçirməyəcək. Onu isə mən qoymayacağam keçsin, bildin? Amma bura gəlsən, gələn seçkilərdə söz verirəm ki, sən müxbir üzv olacaqsan. Bizdə, bu institutda isə... sənə konkurent ola biləcək adam demək olar ki, yoxdur. Salman heç — onun zibili çıxıb, hələ bəlkə diplomunu da aldırdım əlindən. Nadirə təzə doktordu — onu qoymayacağam. Qalanların da içində elə bir ləyaqətli adam görmürəm.

Nurəddin bu sözləri deyib Sultanın düz qonur gözlərinin içinə baxdı; o, çiçəyi çırtdamış adam kimiydi, bu an elə bil, çoxdankı arzusuna qovuşmuşdu, ya indicə Nurəddin ona bu səadəti bəxş edəcəkdi. Əslində Sultan üçün müxbir üzv, sonra da akademik seçilmək, ən müqəddəs, ən ülvi arzu idi, bunu o nazir olmaqdan da, direktor olmaqdan da üstün tuturdu. Həyatı boyu nazir vəzifəsi əlindən alınanları çox görüb, direktorluqdan çıxarılanları lap çox görüb — amma akademiklikdən çıxarılan görməyib. Lap qocalıb əldən düşəndə də, təqaüdə çıxandan sonra da, ölənəcən akademik olan, öləndə də akademik kimi şərəflə dəfn edilən alimləri bir-bir sayar. Nurəddinin, bu köhnə dostunun gözlənilmədən qarşısında mavi üfüqlərə qədər uzanan yolu nurlandıran bu yaşıl işıqdan vəcdə gələn Sultan fərəh içində ayağa qalxdı və guya fikirləşirmiş kimi parket döşəmənin üzərində var-gəl eləməyə başladı. Həqiqətən ağıllı bir adam kimi tərpənib özünü tox tutdu, gözlərində rəqs edən sevinc dalğalarını Nurəddindən gizlədi: «Qoy deməsin lap sinov gedir!» — deyə özünə xas ustalıqla aram olandan sonra:

— Nə deyirəm, Nuru, — söylədi, — böyük qardaşsan, sən bilirsən ki, mənə öl desən ölənəm, qal desən qalanam, həm də sənin kimi bir alimin yanında işləmək mənim üçün də böyük fəxrdir, balalarım üçün də...

Nurəddin də durdu... Nəhayət, ürəyi yüngülləşdi.

— Danışdıq. Gələn həftə bu məsələni həll edərəm. Əl-ələ verib işlərik.

— Oldu, — dedi Sultan va saata baxıb təşəkkür-filan eləmə-

dən (bu da onun taktikası idi — ağır otur, batman gəl) otaqdan çıxdı.

Nurəddin dəstəyi götürüb İntiqamın şöbəsinə zəng çalaraq onu yanına çağırdı. Bu məsələ uzun çəkmədi. Elə ayaq üstündə beş dəqiqənin içində bulanıq suyu durultdu Nurəddin.

İntiqam adam tanıyan idi — iyirmi ildən çox bu kollektivdə işləmişdi və demək olar ki, kimin necə nəfəs aldığını yaxşı bilirdi. Onun beş barmağı kimi tanıdığı alimlərdən biri də Nurəddin idi. Direktor qoyulacağını eşidəndə «onunla işləmək çətin olacaq» fikrini ötəri ürəyindən keçirən İntiqam elə birinci iclasdan sonra yanılmadığını başa düşmüşdü. Aralarında elə camaatın gözünün qabağında olan o söhbət də bu gün-sabah onun müavinlik məsələsinin həll olunduğundan aydınca xəbər vermişdi. O gündən üç ay keçmişdi və hər gün İntiqam gözləmişdi ki, indicə çağıracaq və qəti sözünü deyəcək. Lakin indiyəcən çağırmamışdı.

— Salam, Nurəddin müəllim.

Eşitdimi, cavab vermək istəmədimi — bilmədi — salamına cavab gəlmədi. İntiqam bundan pərt olmadı. Nurəddin başını qaldırıb İntiqamın çəlimsiz bədəninə, arıq sifətinə, göy gözlərinə və səliqə ilə yana daranmış xınayı saçlarına ötəri bir nəzər salıb rişxəndlə müqəddiməsiz-filansız:

— Sluşiy, mən səninlə işləmək istəmirəm, — söylədi. — Ərizəni yaz, müavinlikdən çıx. Hələlik şöbə müdirliyi bəsindi. Sonra baxarıq.

İntiqam da eyni rişxəndli təbəssümlə gülümsündü və artıq-əskik heç nə demədən, əlini döş cibinə salıb iki bükülmüş vərəqin qatını açaraq mizin üstünə, Nurəddinin qabağına qoydu:

— Elə mən də səninlə işləmək istəmirəm, — dedi, — hörmətlə ayrılsaq daha yaxşıdı.

— Hazır imişsən ki? — deyə Nurəddin vərəqi götürüb oxudu, başını qaldırıb İntiqama nəzər saldı və soruşdu:

— Yaxşı, mənim səninlə işləməməyimin səbəbi aydındı, ancaq sən niyə mənimlə işləmək istəmirsən? Bunun illətini deyə bilərsən?

— Bilərəm...

— Hə, de görək. Maraqlıdır, — deyib Nurəddin stolunun arxasında oturdu və əlini uzun çənəsinə dayaq verib dinləməyə hazır vəziyyət aldı. İntiqam isə, adəti üzrə yana daranmış yumşaq saçlarını uzun, şana barmaqları ilə darayıb mənalı-mənalı:

— Deyə bilərəm, Nurəddin müəllim! — dedi. — Ancaq indi yox.

— İndi yox? Bəs haçan?..

— Sən bu stoldan düşəndən sonra!...

— Hə? — Nurəddin qalxdı. — Sən bunu görməyəcəksən, İntiqam! — dedi və onun arıq, bir dəri, bir sümük olan vücudunu təpədən-dırnağa süzdü, xəstəliyinə açıq işarə ilə davam etdi: — Görə bilməyəcəksən!..

İntiqam bu baxışın mənasını göydə tutdu və acı bir təəssüf hissilə:

— Nə olar, mən görmərəm, başqaları görər, — söylədi, Nurəddinin alt dodağı yenə aralandı:

— Nə olub sizə, mən bilmirəm. Aslanzadə deyir, «bundan direktor olmaz!». Sən deyirsən «bu stoldan düşəndən sonra!». Siz məni nə hesab eləyirsiniz, başım çıxmır?! Yəni mən bu qədər ölüyəm ki, bir direktorluğun da öhdəsindən gələ bilməyəcəyəm?

— Onu gələcək özü sizə sübut eləyər, Nurəddin müəllim. Həyat özü ən böyük müəllimdir, — deyərək İntiqam otaqdan çıxdı.

Nurəddin tək qaldı. Gəzindi. Təzədən qayıdıb İntiqamın ərizəsini bir də gözdən keçirtdi və dərkənar qoydu: «Əmr üçün». Sonra kiminləsə danışırmış kimi astadan dedi.

«İnstitut ölüb, həyat ölüb institutda. Hamını ətalət basıb. Bu sükut buzunu qırmaq, camaatı hərəkətə gətirmək lazımdır. Bir-bir adamların yaxasından tutub silkələmək gərəkdir. Oturub-oturub paslanıb camaat.»

Bu zaman meşin qapı açıldı və uzun, yumşaq saçlarını çiyninə tökmüş, cavan, şux qamətli, sifətindən, çənəsindən, baxışlarından gəlindən, daha doğrusu, bir uşaq anasından daha çox

qıza oxşayan Şərifə içəri girdi. Nurəddin onu görən kimi uçundu, zəhmli qaş-qabağı açıldı və göy-qonur gözləri qəribə təbəssümlü işıqla doldu.

— Mənim körpə mələykəm xoş gəlib, — dedi və ortalığa çıxdı. Yaxına gəlib Şərifənin yumşaq saçlarına sığal çəkdi. Otağı fransız ətrinin xoş qoxusu bürüdü. Nurəddin onun körpə, təravətli dodaqlarından hərarətlə öpüb uşaq kimi əl-ayağını yerdən üzərək havada bir-iki dəfə fırlayaraq yumşaq divanın üstünə ehmalca qoydu. Və tələsik qapını içəridən bağladı...

...Şərifə universiteti keçən il bitirmişdi. Təyinatını bu instituta vermişdilər, o qədər zərif və o qədər gözəl idi ki, bütün institut bu gəlişə sevinmişdi. Qadınlı-kişili hamı. Subay oğlanlar biləndə ki, o, ərdədi, hətta bir oğlu da var — kefləri pozulmuşdu. Evli-ailəli adamlar isə təkcə buna sevinirdilər ki, bu divarlar arasında Şərifə kimi bir gözəllə gündə, heç olmasa, üç-dörd dəfə üz-üzə gəlmək özü də bir səadətdi. Səhər-səhər işə gələndə, liftdə, dəhlizdə, kitabxanada, iclaslarda... Bitirdiyi dilə uyğun şöbədə işləyirdi. O, şöbəyə müdiriyyət nəzarət etməsəydi də olardı. Çünki ən intizamsız işçilər belə, işə artıq vaxtı-vaxtında gəlib-getməyə başlamışdılar. Keçəl, iri alınlı, oxlov udmuş adam kimi dik-dik gəzməyə adət etmiş şöbə müdiri də Şərifəyə xüsusi qayğı və diqqət göstərməyi özünə borc və hətta vətəndaşlıq borcu bilirdi. Şərifənin əlindən bir stəkan çay alıb içəndə sonsuz dərəcədə fərəhlənirdi. Ancaq onun bu “səadəti» çox sürmədi. Günlərin birində Nurəddin başını qaldırıb Şərifənin gözəlliyini görəndə, aralarındakı yaş fərqini və başqa bütün uyuşmazlıqları unutdu. Ürəyində indiyə qədər görüb yaxından tanıdığı bütün gözəl qadınları ötəri onunla müqayisə elədi və üstünlüyü Şərifəyə verdi. «Gözəlliyinə söz ola bilməz. Cavanlığına söz ola bilməz. Mən də artıq qocalıram. Kim bilir, bəlkə bir də heç vaxt belə bir qadın əlimə düşməyəcək. Bəlkə bu, son qismətdi?!» — deyə günbəgün, saatbasaat ürəyinə, beyninə hakim kəsilən Şərifəni gizli-gizli izləməyə, yeri düşdü-düşmədi otaqlarının qabağından keçməyə, dəhlizdə qarşısına çıxmağa başladı. Və bir dəfə

Şərifənin açıq iclaslardan birində, sezilməz halda baxışlarını tutdu. Tutdu, daha buraxmadı. Şərifə gözlərini ha yayındırdısa, canını o baxışların əlindən qurtara bilmədi. Hədsiz dərəcədə cavan görünsə də, o, daha uşaq deyildi və belə baxışların işığında gizlənən mənaları anlaya bilirdi. Daxili bir maraq neçənci dəfə isə Şərifənin gözlərini Nurəddinə tərəf öz sehrli əlilə çevirəndə o, özünü saxlaya bilməyib çox ılıq bir təbəssümlə gülümsündü. Nurəddinə elə bu təbəssüm bəs idi. Gözlər sözünü demişdi və cavab da alınmışdı. Doğrudur, bu cavab şübhəli idi, vəd verici deyildi bəlkə də! Ancaq Şərifə «ilişmişdi» və hələ başa düşmürdü ki, bu təbəssüm onun taleyini həll elədi. Bunu o, sonra anlayacaqdı, ancaq bu, gec olacaqdı. İndilikdə gözlərini nə qamaşdırmışdı onun? Nurəddinin adı-sanımı, yaşına uyğun olmayan, cavan oğlan kimi gəzməsimi? Əslində o, bunların heç birini ağlına gətirmirdi. Çünki, o, bunu yatıb yuxusunda da görə bilməzdi. Əri cavan idi, qəşəng idi. Universitetdə birgə oxumuşdular. Bütün fakültə qızları Kamillə yaxınlıq etmək istəyirdi, ancaq Şərifədəydi onun gözü. Kimsəni görmürdü Kamil. Şərifə də onun qiymətini bilirdi. Qorxu hissilə yaşayırdı — nədənsə ona elə gəlirdi ki, kimsə, lap elə rəfiqələrindən biri Kamili əlindən ala bilər. Buna görə Şərifə Kamilin üstə əsirdi, onun hər istəyinə canla-başla əməl eləyirdi. Oğlanı itirmək qorxusu o qədər güclü idi ki, hələ dördüncü kursda ikən, sentyabrın ilk günlərinin birində Şərifə özünü Kamilə təslim elədi və az sonra isə, onun, kəbinli arvadı oldu. İnsafla deyilsə, oğlan kimi, oğlanın atası-anası da yaxşı adamlar idi. Gəlini hədsiz dərəcədə çox istəyirdilər. Atası tək oğluna ayrıca kooperativ ev tikdirmişdi. Hər şeyi var idi. Dördüncü kursu qurtarhaqurtarda Kamili İrana işləməyə göndərdilər. Şərifəni də apardı. Orada ilk övladları dünyaya gəldi. Qayıdanda — üç ildən sonra vətənə dönəndə uşaqdan başqa, «Qaz-24» də xeyli pal-paltar da gətirmişdilər. Beşinci kursu gələndən sonra bitirdilər. Kamil hər gün Şərifəni öz maşınında işə gətirir, axşam da gəlib aparırdı. Kim hansı tərəfdən baxırdısa, Şərifəni bəxtəvər görürdü, həsəd aparan da vardı, paxıllığını çəkən də vardı. Bu

xoşbəxtliyi, bəxtəvərliyi hamı görürdü. Təkcə Şərifədən başqa hamı görürdü, — çünki bu xoşbəxtlik onun özünün idi. Özü görə bilmirdi, qiymətləndirə bilmirdi, maşın kimi, qulaqlarında, barmaqlarında gəzdirdiyi qiymətli sırğalar, üzüklər kimi adiləşmişdi. Kamil də adiləşmişdi. Həyatda hər şeyi olan Şərifənin başını qata bilən bir əyləncə lazım idi, bu əyləncə isə əyləncə deyildi, işgəncəydi Şərifə üçün. Səbir lazımdı, elmi əsər yazanda oturmaq, düşünmək lazımdı — bu isə Şərifəyə ləzzət vermirdi, əksinə, onun ruhunu sıxıb əzirdi.

Elə bu zaman Nurəddin — bu adlı-sanlı akademik, şöbə müdiri olan Nurəddin Osmanzadə ona çox qəribə, məftun bir nəzər yetirdi. Bəlkə Şərifənin həyatında çatışmayan elə bu idi? Qəlbini titrək bir maraq sardı və özünə gəlməmiş, bu marağın nə demək olduğunu anlamağa macal tapmamış, Nurəddini direktor qoydular. Bu, Nurəddinin özünün başını dumanlandırdığı kimi, Şərifənin də gözlərini qamaşdırdı. Baxış əyləncələrinin sayı çoxaldı. Nəhayət, məhrəmlik yarandı ortalıqda. Nurəddin bir gün onu kabinetinə çağırıb söhbətə uzaqdan başladı:

— İstəyirəm sənin şöbəni dəyişəm, Şərifə xanım!

Şərifənin yanaqları qızarmışdı. Qəribə bir utancaqlıqla Nurəddinin çoxdan oxuduğu gözlərinə baxıb təəccüb ifadə edən tərzdə:

— Şöbəmi? — deyə soruşdu. — Niyə ki?

— O şöbə sənin yerin deyil. Orda sən heç on ilə də müdafiə eləyə bilməyəcəksən. Ətalət içində mürgü vurur ordakı alimlər. Sən gəl mənim şöbəmə. Hamısı qadın xeylağıdı. Burda sənin üçün rahat olar. Bircə oğlumdan başqa kişi yoxdu şöbədə. Mən hiss eləyirəm, orda o keçəl sənə ayrı gözlə baxır. Axırı yaxşı olmaz. Söz-söhbətə səbəb olar. Məncə, başa düşürsən mən nə deyirəm. Şərifə qıpqırmızı qızarmış sifətinin yandığını hiss eləsə də, başını tərpətməklə «hə!» — dedi və ayağa durmaq istədi.

Nurəddin zabitəli bir səslə:

— Otur, hara tələsirsən? — dedi — mən hələ sözümü qurtarmamışam, qız!

Şərifə təzədən əyləşdi.

— Sabahdan keç bura. Özüm sənə rəhbərlik eləyəcəyəm. Razısan mən sənin rəhbərin olum?

— Razıyam!—dedi Şərifə — Ancaq axı mən sizin sahədə işləyə bilmərəm, Nurəddin müəllim. Mənim... Profilim...

— Eh, sən lap avam imişsən, qız. Mən deyəndən sonra... Nə profilbazlıqdır. Bir mənbə götür. İşlə. Nə lazımsa, mən eləyəcəyəm sənin üçün...

— Şöbə müdirim razı olarmı?...— Şərifə getməmək üçün çarələr axtarırdı. Profil məsələsi kara gəlmədi. Şöbə müdirini son çarə kimi söylədi.

— Şöbə müdiri kimdi, qız?! Bəlkə sən hələ inanmaq istəmirsən ki, mən burda direktoram, hə?

— Yox, niyə ki, Nurəddin müəllim... — səsindəki azacıq qətiyyət də yoxa çıxmışdı indi. Bu, təslim olmaq əlaməti idi. Təklifləri cəlbedici idi, şirnikləşdirici idi. Və bunların müqabilində nə istənildiyini də anlayırdı Şərifə. Ancaq bu, heç cür ağlına batmırdı. «Atamdan da böyükdür. Nə ola bilər ki?» — deyən Şərifənin ürəyinə axıb dolan nigarançılığı, qorxunu yenə lənətə gəlmiş əyləncə görmək arzusu boğurdu, üstələyirdi. Heç özü də bilmirmiş, sən demə, bir az da şöhrətpərəst imiş bu gözəl mələk. Bu, hələ tam aydınlığı ilə özünə məlum deyildi — ancaq nə isə bu təklif onu çəkib aparırdı, aparırdı.

— Sən təkcə bu institutun yox, bütün akademiyanın gözüsən, Şərifə! — deyə Nurəddin qalxıb gəzindi. — Mən istəyirəm sən mənim gözümün qabağında olasan... Hərdən iltifat edib bizə də bir stəkan çay versən, bəsindi. Ya... mən sənin əlindən çay alıb içməyə layiq deyiləm? Hə? Niyə dinmirsən? Yoxsa... Xoşuna gəlmir sözlərim?

Şərifə başını aşağı salıb barmağını brilyant qaşlı üzüyün üstündə gəzdirir, heç nə deyə bilmirdi. Qulaqlarında Nurəddinin sözləri lent yazısı kimi təkrar olunurdu: «Sən təkcə bu institutun yox, bütün akademiyanın gözüsən, Şərifə. Mən istəyirəm sən mənim gözümün qabağında olasan!» Həm gülməli gəlirdi bu sözlər

ona, həm də şirin. Qəribə idi ki, şirinliyi daha çox idi və ona hardasa gizli, sözlə ifadə etmək mümkün olmayan bir ləzzət, bir nəşə bəxş eləyirdi. Anlaşılmaz bir istəklə o, yenə bu qəbil sözlər eşitmək arzusunu da duyurdu içərisində. Ancaq əksinə oldu, Nurəddin keçib yerində əyləşdi və qayğıkeş bir tərzdə:

— Yaxşı, dur get, sabahdan burda işə başlarsan! — söylədi. Şərifə durdu, baxışlarını qaldırmağa cəsarət eləmədən otaqdan pörtmüş halda çıxdı. Nurəddin onun mütənasib bədəninə, biçimli ayaqlarına arxadan baxa-baxa köks ötürdü, qapı örtüləndən sonra isə: «Əgər sabah bura gəlsə, demək, o, mənimdi. Gəlməsə... heç!» — deyə düşündü...

Və o gecə ilan vuran yatdı, Nurəddin yox. Saat üçəcən yazı masası arxasında oturdu, işləmək istədi, bacarmadı. Gecə köynəyi geymiş Samirə üç dəfə ona çay gətirdi, arada bir dəfə zarafat da elədi:

— Bizi tamam yaddan çıxartmısan ha, kişi! — dedi. Lakin Nurəddinin qayğılı, yorğun baxışlarını görüb dediyinə də peşman oldu: o baxışlara sanki yazılmışdı: «Mən nə hayda, sən nə hayda?». Sonra Samirə gedib yatdı. Daha iş otağına baş çəkmədi. Şərifənin gilənar kimi qırmızı yanaqları, dodaqları Nurəddinin gözünün qabağından çəkilib getmirdi. Fikri evin divarını yarır, mürgü vuran şəhərdə indiyəcən kandarına ayaq basmadığı bir evi, Kamilin evini tapır, içəri girir, Şərifəni axtarırdı. Ərinin yanındamı yatmışdı, ya o da kişisini, uşağını yuxuya verib Nurəddin haqqında düşünürdü? Nə biləydi... Səhəri necə açdığını sonralar xatırlayanda dəhşətə gəlirdi. Tezdən, çay-çörək yeməmiş idarədə hazır idi. Doqquz oldu, Şərifə gəlmədi, on oldu, yox idi. On birə qalmış Şərifə Nurəddinin şöbəsinin qapısını ehtiyatla aralayıb başını içəri uzadanda iclas aparan direktorun sözü ağzında qaldı. Nigarançılıqdan, yuxusuzluqdan üzülmüş Nurəddin elə bil cana gəldi, dirçəldi və tələsik — sanki bir an gecikərsə, həmişəlik qeyb olacaqdı Şərifə — söylədi:

— Gəl, gəl, qız.

Şərifə içəri keçdi. Salam verdi. Əynində ağ kostyum var idi.

Yaxasına parıldayan kəpənək taxmışdı, Dəmir kəpənək qanad açıb uçurdu sanki. Elə bil Şərifə özü də kəpənək idi, uça-uça bura gəlmişdi — Nurəddinin yanına.

— Burda otur, qız!! — Sonra üzünü şöbə əməkdaşlarına tutdu: — Bu Şərifə xanım bizim şöbənin işçisidi, bu gündən etibarən sevin və hörmət eləyin. Fəxr eləyə bilərsiz ki, institutun ən gözəl xanımı sizin şöbənin əməkdaşıdı! — dedi və güldü. Guya zarafat eləyirdi...

Sonralar katibəsi Şərqiyyənin çay dəmləmək qayğısı azalmışdı. Bu işi Şərifə görürdü. İlk vaxtlar çəkinə-çəkinə. Vaxt keçdikcə isinişdi, öyrəşdi. Nurəddin kabinetə gələn təki, Şərifə elektrik çaynikini şəbəkəyə qoşur, hind və seylon çayının qarışığından çay dəmləyir və armudu stəkanda Nurəddinin qabağına gətirib qoyurdu. Ürəyi istəməsə də, onun çayını həvəslə, tərifləyə-tərifləyə içirdi.

— Bizim arvad qətiyyən çay dəmləyə bilmir. Ya qaynadır, ya da dəm almamış götürür. Ağzım sənin çayından dada gəlib, sağ ol, ceyran bala, — deyirdi. Şərifə isə məmnun halda gülürdü və nazla başını silkələyib çiyninə tökdüyü dalğalı saçlarını əsdirə-əsdirə:

— Heç elə şey olar? Arvad da çay dəmləyə bilməz? Daha onda o nə arvad oldu? — söyləyirdi. — Yəqin sizə elə görünür.

— Yox, quzu bala, arvad sarıdan mənim baxtım gətirməyib.

Günlər, həftələr sovuşduqca onların arasındakı rəsmiyyət, yaş fərqi aradan götürülürdü, söhbətləri uzanır, şirinləşirdi. Bir dəfə, lap bu yaxınlarda Şərifə «istirahət otağı»ndan çox gec və qıpqırmızı qızarmış halda çıxanda şöbədəki qadınlar onun çaşqın hərəkətlərinə fikir verib mənalı-mənalı baxışdılar. Şərifə heç kəsə heç nə demədən balaca, qara əl çantasını götürüb evə getdi və bir də üç gündən sonra qayıtdı. Qızlara müxtəsərcə «xəstələnmişdim!" söylədi.

O vaxtdan institutda pıçhapıç başlandı: «Şərifə Nurəddinin ən yaxın adamıdı»... Əlbəttə, heç kim onun üzünə bir söz söyləmirdi, deməyə cürət etmirdi, əksinə, elələri də vardı ki, — xüsusilə,

qadınlar arasında — onunla dost olmağa can atır, hörmətini, ehtiramını qazanmağa çalışırdı. Şərifə isə bundan fərəhlənirdi. Cavan idi, təcrübəsiz idi — hələ nə itirdiyini başa düşmürdü.

Nurəddin isə elə bil cavanlaşmışdı. Evdə-eşikdə qərar tuta bilmirdi, ixtiyarı olsaydı, gecəni də iş vaxtı elan eləyərdi — təki Şərifə yanında olsun. İdarə cavan, gözəl Şərifənin sayəsində evdən, ailədən əziz olmuşdu Nurəddin üçün... Təkcə arif adamlar bilirdi ki, Nurəddin idarəyə işə, vəzifəyə görə yox, Şərifəyə görə belə can-dildən bağlanıb. Bilirdilər və susurdular.

...Nurəddin çaydan qurtum-qurtum içir, gözlərini divanda oturmuş Şərifədən çəkmədən danışırdı. Qapı yavaşca açıldı. Mürşüd başını içəri uzadaraq atası ilə Şərifəni otaqda görüb geri çəkilmək istəyəndə Nurəddin səsləndi:

— Gəl, gəl, oğul.

Mürşüd içəri keçib salam verdi və:

— Yox, mən kitabxanaya gedirəm. Dəftərimi götürüb çıxıram — dedi. Küncdəki stolun üstündən göy cildli dəftəri götürdü və atasının, Şərifənin üzünə baxmadan çıxdı.

Nurəddin Şərifəyə sınayıcı bir nəzər salaraq:

— Hə, mənim oğlum necə oğuldu? Xoşuna gəlir? — deyə soruşduqda Şərifə arifanə bir tərzdə qımışdı:

— Yaxşı oğlandı Mürşüd. Amma heç sənə oxşamır — o, «istirahət otağı»ndan qıpqırmızı pörtüb çıxdığı vaxtdan akademikə artıq «sən» deyə müraciət eləyirdi — O sakitdi, başıaşağıdı. Elə bil heç bu zamanə uşağı deyil. Sən isə... — deyib duruxdu.

— Mən isə... necəyəm? — deyə Nurəddin onun fikrini öyrənmək istədi.

—Sən isə... heç kəsə bənzəmirsən. Gah ağıllı-başlı adamsan, gah da...

— Hə, gah da nə? Qorxma, de, bilirsən, mən səni çox istəyirəm, de!

— Gah da dəlisən, Nuru. Başaçılası adam deyilsən, vallah. — Bu sözləri dedi və qəribə bir qorxu hissilə Nurəddinə nəzər saldı. Hirslənəcəyini, özündən çıxacağını gözləyirdi. Ancaq

Nurəddin çox sakit və mülayim bir səslə, gülümsünə-gülümsünə:

— Ay şeytan, hələ indiyəcən mənim üzümə «dəli» deyən olmayıb — dedi.

— Üzünə deyən olmasa da, arxanca deyən çoxdur, Nuru. Bu mənim ürəyimi ağrıdır.

— Ürəyini ağrıdır? Ay mənim ceyranım, demək sən məni çox istəyirsən, hə? Yox, düzünü de, çox istəyirsən? Şərifə başını aşağı saldı:

— Nə bilim... heç özüm də bilmirəm... Hərdən sənə nifrət eləyirəm, Nuru. Mən gül kimi təmiz idim. Ərimdən başqa mənə kimsənin əli dəyməmişdi. Tamah salanlar çox olmuşdu. Elə biri mənim... keçmiş şöbə müdirim, o keçəl Rüfət. Sonra Kərim... Sonra Mehman... Bunlar mənə ac qurd quzuya baxan kimi baxırdılar, məni bir-birinə haqları olmadan qısqanırdılar, biri o birini güdürdü. Amma, mən heç birinə məhəl qoymurdum. Sən təklif eləyəndə ki, bu şöbəyə keçim, ən çox ona görə razılıq verdim ki, onların əlindən qaçıb canımı qurtarım. Dedim, sən direktorsan, akademiksən, onların hamısından... qocasan, eh, çaşdım, yaşlısan, sənin ürəyinə, xəyalına elə şeylər gəlməz... Ancaq sən... onların hamısından dəhşətli imişsən... Mən.... o gündən ərimin üzünə şax baxa bilmirəm. Mən artist kimi rola girməyə məcbur olmuşam — onu aldadıram. O, yazıq da mənə inanır — ağlına heç nə gətirmir. Çünki sənin adın-sanın, yaşın onun gözlərini qapayıb — mən sənin yanına gələndən sonra o, bir az da rahat olub. Qohum-əqrabanın yanında mənim işimdən söz düşəndə fəxrlə deyir ki, akademik Nurəddin Osmanzadənin yanındadı. Yazıq daha demir ki, akademik Osmanzadə... qocalığında yorğa yerimək həvəsinə düşən adamlardandı.

— Sən bu qoca sözünü çox tez-tez işlədirsən ha! Mənim xətrimə dəyə bilərsən ha, ceyran. Bu sözü bir də dilinə gətirmə. Yaxşı?

Şərifə ah çəkib çox astaca:

— Yax...şı! — dedi və sonra ona sarı çevrilib kinayəsi açıq sezilən bir tərzdə:

— Yaxşı. Sən oğlun Mürşüddən də cavansan. Belə desəm xoşuna gələr? — söylədi. — Hə, — dedi Nurəddin və şit-şit güldü.

## ON DÖRDÜNCÜ FƏSİL

Ana-bala üzbəüz oturmuşdu. Süfrədə təzə təndir çörəyi, kotlet, köy-köyərti vardı. Nadirə tənəffüsə gəlib hazırlamışdı. Ceyhun iştahasız yeyirdi. Bir gözü divar saatında idi.

— Niyə belə yeyirsən, ay oğul? Yaman arıqlamısan. Lap hoqqurun çıxıb. Yetim uşaqlara oxşayırsan — elə bil yeməyin, içməyin yoxdur. Şükür allaha, hər şeyimiz var. Yox, gərək mən səni həkimə-zada aparam. Belə olmaz. Bax, işdən qaça-qaça gəlmişəm. Sənə yemək hazırlamışam, sən isə... sərçə kimi dimdikləyə-dimdikləyə yeyirsən.

— Eh, ay ma. — Ceyhun süfrə üstündən qalxdı, — Sən niyə qoymursan mən istədiyim kimi yaşayam. Axı...

— Ədə, mən qoymuram səni yaşamağa?.. Ay oğul, — mən sənin ananam, mən sənin pisliyini istəyərəmmi? Baxıram, görürəm, əldən gedirsən, gözüm baxa-baxa əriyirsən — mən sənin qayğına qalmayım, bəs kim qalsın, hə? Atan papağını yan qoyub gəzir özüyçün. Dünya aləm dağılsa da, vecinə deyil. Sən də, mən də bu damın altında bir gün yıxılaq-ölək, qulağına da girməz, tükü də tərpənməz. Bəs mən yazıq başıma haranın daşını salım, hə? De də, sən de heç olmasa! Mən bilmirəm onun dərdini çəkim, sənin dərdini çəkim?

— Heç kəsin dərdini çəkmə. Daha dərdi çəkiləsi adam qalmayıb.

Nadirənin tikəsi boğazında ilişib qaldı.

— Necə yəni daha dərdi çəkiləsi adam qalmayıb? Bu nə deməkdir, Ceyhun? Bu ailə...

Ceyhun gözucu, xəlvəti saata nəzər fırlayıb:

— Bu o deməkdir ki, daha sizin ailəniz yoxdur, yoxdur sizin ailəniz! — dedi.

— Sən nə danışırsan?

— Mən bilirəm nə danışıram. Qurbanzadələr ailəsi daha yoxdu və bunu sən özün də yaxşı bilirsən. O da yaxşı bilir, sən də yaxşı bilirsən. Yoxsa yenə elə bilirsiz mən burnu fırtıqlı uşağam, heç nə anlamıram? Belə ailə olmaz! O özü üçün yaşayır, sən özün üçün yaşayırsan. Əvvəllər deyişirdiniz, sözləşirdiniz, evdə iclas eləyirdiniz, sonra hardasa ayılıb, dayanıb fikirləşirdiniz ki, bura institut deyil, evdi, siz alim deyilsiniz, ər-arvadsınız. Amma son aylar heç nə yoxdu. Elə bil bura mehmanxanadı — gecələr gəlib hərəniz öz otağınıza çəkilir, kitab-kağızla danışır, səhər açılan kimi yenə idarəyə tələsirsiniz. Bu evdə mən səmimiyyət görmürəm, sevinc, gülüş görmürəm, doğmalıq görmürəm. Elə bil hərəsi bir başqa dünyadan gəlmiş ayrı-ayrı adamları bir damın altına yığıblar, deyiblər, yaşayın. Bütün bunları sən də, o da, çox gözəl başa düşürsünüz, amma dilinizə gətirməyə, etiraf eləməyə qorxursunuz elə bil.

Çəngəl Nadirənin əlindən süfrənin üstünə düşdü. Gözləri geniş açılmışdı — yanaqlarında donuq bir təəccüb ifadəsi gəzib dolanırdı. Oğluna qulaq asdıqca, dediklərini ölçüb-biçdikcə arvadın içərisini soyuq bir duyğu, qış şaxtası kimi üşüdürdü, etiraz eləmək istəyirdi, amma bacarmırdı. Sanki nitq qabiliyyətini kimsə elə indicə əlindən almışdı. Düşünürdü ki, Ceyhun hələ bu vaxta qədər anası ilə belə açıq, belə məntiqlə danışmamışdı: uşaq saymışdı onu. Şərə-şurluğunu da yetkinləşməməsi ilə bağlamışdı. Lakin indi... Ceyhun bütün Qurbanzadələr ailəsini sanki müttəhimlər kürsüsündə oturtmuşdu, ittiham edirdi. Necə də həqiqəti deyirdi Ceyhun. Bunlar elə həqiqətlər idi ki, görməmək, hiss etməmək mümkün deyildi. Yəqin ki, Nadirə də bunları çox gözəl bilirdi. Bəlkə elə Salman özü də bilirdi. Ancaq Salman da, Nadirə də, Ceyhunun dediyi kimi, bunları dilə gətirməyə qorxurdular. Nadirə oğluna qulaq asa-asa iki hiss arasında çırpınırdı: Əvvələn, Ceyhunun—hələ süd iyi ağzından getməmiş, uşaq saydığı oğlunun belə tutarlı, məntiqli mühakimələri bir ana kimi onu sevindirməyə bilmirdi. Demək o öz oğlunu hələ tanımırmış, daha doğrusu, birtərəfli tanıyırmış; tənbəl, oxumağa həvəsi olmayan, atasının-

anasının ad-sanına, puluna arxalanıb arın-arxayın yaşayan, heç nə haqqında düşünmək istəməyən, yeyib-içməyə həvəs göstərən bir yeniyetmə kimi qiymətləndirməkdə nə qədər yanılırmış o! Sən demə, Ceyhun elə də küt oğlan deyilmiş—baxırmış, görürmüş, düşünürmüş. Ata-anası arasında gedən açıq-gizli «müharibələrin», söz-söhbətlərin, evi soyuq, heç kəsin olmayan, eyni zamanda hamının olan mehmanxana otağına döndərən bir-birinin anlamamağın — bütün bunların hamısının necə ağır dərd olduğunu dərk edib sınması, və nəhayət, indi dilə gəlməsi ana üçün kədərqarışıq bir fərəh idi və bu qəribə fərəh onu ağlamaq dərəcəsinə gətirirdi. Yox, Ceyhun ağıllı oğlan imiş, ən ümdəsi isə, düşünən imiş. Sadəcə onunla məşğul olmayıb — o, unudulub, körpə fidan kimi baxımsız qalıb. Yavaş-yavaş qurumağa başlayıb, yarpaqları quruyub, saralıb, xırda budaqları quruyub. Kəsib atmaq olar o budaqları — gövdəsi salamatdı, torpaqdadı — hələ həyat şirəsi var canında. Bunu düşündükcə ana kövrəlirdi və kövrələ-kövrələ, özündən xəbərsiz yanaqları aşağı yaş axırdı. Və Nadirə xanım heç nədən, adicə söhbət zamanı oğlunu təzədən kəşf etdiyinə sevinirdi və bir də buna sevinirdi ki, hələ gec deyil, hələ hər şey məhv olmayıb, hər şeyi atmaq, bütün diqqəti ona yönəltmək, onu qurumağa qoymamaq lazımdır. Olar, mümkündür. Salman heç, Salmandan ona ər olmadı, uşağına ata olmadı. Nadirənin isə yeganə ümidi-pənahı, bütün arzularını bağladığı ancaq Ceyhun idi. Əsərləri qədər, bəlkə onlardan da çox sevirdi Nadirə Ceyhunu. Bax, indi o başa düşürdü ki, Ceyhunu yazı-pozusuna qurban verirmiş. Uzun illər o, belə eləyirmiş və bu yolun düzgün olduğunu güman edirmiş. Lakin indicə necə səhv fikirləşdiyini dərs eləyib özünü danlamaq istəyirdi — təəssüf ki, bu an ona imkan yox idi. Digər tərəfdən elə məyus olmuşdu ki, deyiləsi deyildi. Ceyhunun sözlərindəki həqiqət ürəyini yandırırdı. Sanki Ceyhun içində, ruhunda oturmuşdu və aylardan, illərdən bəri yığılıb qalaqlanmış ağrısını-acısını söyləyirdi — o ağrı-acını ki, özünə gün kimi aydın idi, ancaq dilinə gətirə bilmirdi. Ucundan-qulağından neçə dəfə Salmana demək istəmişdi, hətta başlamışdı da. Lakin Salman onu

başa düşməmişdi, sözünü kəsmişdi, öz «pedaqoji» fikirlərini «təbliğ» eləməyə çalışmışdı. Nadirənin dərdi dilinin ucunda ilişib qalmış, təzədən ürəyinə axıb dolaraq qubara çevrilmişdi. İndi oğlu! Həmin «yazıları» — müəllifi həyat olan həmin dərdi-qubarı onun üzünə oxuyurdu. Bu sözlərə qulaq asmaq bir yandan acı idi — öz səhvləri idi, günahları idi; o biri yandan şirin idi — oğlu deyirdi bu sözləri. Demək o, həyatını Salman kimi yaşamaq istəməyəcək — çünki bu yolun yanlış olduğunu o görür, dərk edir. Demək, Allah qismət eləsə, gələcək gəlini Nadirənin çəkdiyi əzabları, sıxıntıları görməyəcək, çəkməyəcək.

Kədər qarışıq sevinc yaşa çevrilib yanaqları aşağı axırdı. Və yazıq ana bilmirdi ki, sanki indicə kəşf elədiyi ciyərparası ilə bu, axırıncı söhbətidir, bir daha onun bu cür ağıllı sözlərini eşitməyəcək, şıltaq, ipə-sapa yatmayan hərəkətlərini görməyəcək, heç vaxt səsini dinləməyəcək, uşaq kimi qabağına qoyub danlamayacaq. Heç vaxt. Tək bircə dəfə üzünü görəcək. Və bu, onların son görüşü olacaq. Bilmirdi bütün bunları, bilmirdi,

...Tərs kimi Nurəddin Osmanzadənin göstərişi ilə «Salman komissiyası»nın iclası bu günə təyin olunmuşdu. Akademikin kabinetində çox adam yox idi — direktor özü idi, Salman idi, komissiyanın üç nəfər üzvü — İltifat, Gülmirə və Gülalıydı, bir də şöbə müdiri kimi Nadirə xanım idi. Salman sol tərəfdəki kresloda, komissiya üzvləri direktorla qabaq-qənşər, Nadirə xanım isə Salmandan yuxarı başda əyləşmişdi.

Komissiyanın üç aya yaxın bir müddətdə işləyib hazırladığı qərar direktora çoxdan məlum idi. Hər iki əsər — Salman Qurbanzadənin «Nəsiminin sənətkarlığı» kitabı və mərhum Mirzə Yanarın eyni adlı əlyazması diqqətlə tutuşdurulmuş, müqayisə edilmiş və professor Salman Qurbanzadənin Mirzə Yanarın əsərini oğurlayıb öz adına çap etdirdiyini, təsdiq edən çoxlu faktlar və misallar aktda qeyd olunmuşdu. Aktın yazılmasını İltifata tapşırmışdılar və o da, insafən, çox ciddi səy göstərərək, yaxşı, daşdan keçən bir sənəd hazırlamışdı.

Komissiya işləyən müddətdə Salman özünü təmkinli apar-

mış, nə Gülmirəyə, nə Gülalıya və nə də hamıdan çox, bəlkə də Gülmirə qədər yaxşılıq elədiyi İltifata yanaşıb bircə kəlmə də deməmişdi. Doğrusu bu idi ki, özü ummuşdu, gözləmişdi ki, heç olmasa İltifat ona yaxınlaşar, yoxlamanın gedişindən bir şey deyər. Ancaq İltifat bunu eləməmişdi və Gülmirənin hərəkəti onun ürəyini nə qədər ağrıtmışdısa, İltifatın da belə laqeydliyi onu o qədər göynətmişdi. Gülalıdan heç nə ummurdu, çünki yaxşı bilirdi ki, onun belə işlərdə əli yoxdur. Salmanın nəzərində Gülalı kişi deyildi, İltifat isə nakişi idi. Hadisələr İltifatı ona yavaş-yavaş tanıdırdı və Salman yanıb-yaxılırdı ki, elə bir kişidən bu cür simasız, mənliyi olmayan, qədir-qiymət bilməyən bir oğul törəyib yer üzündə yaşayır və hələ utanmadan şairlik iddiası da eləyir. Burada, bu iclasda tək bircə şey maraqlı idi. Salman üçün akademik Nurəddin Osmanzadənin fikri və əlinə «fakt» keçəndən sonra necə hərəkət etməsi. Bundan başqa, çıxışları zamanı Gülmirənin də, İltifatın da, Gülalının da gözlərinin içinə baxmaq Salman üçün az maraqlı deyildi.

Nadirə xanım əllərini dizinin üstünə qoymuşdu, cismən burda idi, fikrən evdə — oğlunun yanındaydı. Salmanın indi düşəcəyi vəziyyət əslində onu az düşündürürdü. Nə olacaq olsun — deyirdi özlüyündə, ancaq elə oradaca yəqin edirdi ki, belə deyil. Salmanın taleyinə biganə qala bilmirdi. Nə isə çox gərgin haldaydı Nadirə. Hərdən Salmana baxırdı. O sakitcə oturmuşdu. Elə bil heç onun məsələsi müzakirə olunmurdu, tamaşaya gəlmişdi. «Anlaşılmaz adam» düşünürdü Nadirə onun barəsində.

Akademik Nurəddin Osmanzadə nəzərdən keçirdiyi kağızdan baxışlarını ayırıb oturanlara baxdı və uzun barmaqları ilə stolun üstünə döyəcləyə-döyəcləyə:

— Belədi də. Məncə aydındı ki, sizi bura niyə çağırmışam — dedi. — Salman Qurbanzadə yoldaşın məlum kitabı barədə komissiyanın fikrini dinləməliyik və fikirləşməliyik ki, sonra neyləyə bilərik. Necə məsləhət bilirsiniz, komissiya üzvləri ayrı-ayrı çıxış eləsin, yaxud rəyi oxuyaq? — son sözləri o, Nadirəyə baxa-baxa söylədi. Nadirə qəmli-qəmli gülümsünüb:

— Özünüz bilən məsləhətdi, — dedi. Salman kresloda qurcalanıb:

— Yaxşı olar ki, ayrı-ayrı yoldaşlar öz fikrini söyləsin, — deyib komissiya üzvlərinə rişxəndli bir nəzər saldı. Nurəddin üç nəfərə müraciətlə:

— Onda buyurun, — dedi, — sözünüzü deyin. Araya sükut çökdü, heç kəs, görünür, qabağa düşmək istəmirdi.

Nurəddin təntənə ilə qımışdı:

— Nədir, yoxsa qorxursunuz? Qorxmayın, biz bura ciddi bir məsələnin müzakirəsinə yığışmışıq. Burda prinsipial olmaq lazımdır. Hə, başlayın. — Hamının susduğunu görən direktor üzünü Gülmirəyə tutdu: — Hə, sən başla, qız. Görürəm bunların arasında ən cəsarətlisi elə sənsən.

Bu sözü eşidən kimi, İltifat, burnunu çəkdi, birinciliyi əldən verdiyini duyub əlini qaldırdı.

— Mən bir-iki kəlmə deyim, Nurəddin müəllim.

— Buyur, şair.

İltifat onun «şair» sözündən qanadlandı elə bil. Ölürdü özündən böyüklərdən — xüsusən vazifəcə böyük olanlardan tərif eşitmək üçün. Bunu özünə ən böyük mükafat hesab eləyirdi. Odur ki, elə adicə «şair» kəlməsindən vəcdə gəlib sözə başladı:

— Nurəddin müəllim, mən fikrimizi ətraflı şəkildə sizə təqdim etdiyimiz o rəydə yazmışam, — Salman bunu bilmirdi, — indi öyrəndi ki, on səhifəlik o mətnin müəllifi İltifat Abışovdur. Ah çəkib dinləməyə başladı, İltifat deyirdi. — Mən acı bir təəssüf hissilə bildirmək istəyirəm ki, Gülmirə xanımın qaldırdığı bu çox ciddi məsələ yoxlama zamanı tamamilə sübuta yetmişdir. Əlyazmasını və kitabı oxuduqca mən heyrətlənirəm, düzü, hörmətli Salman, müəllim Mirzə Yanarın əsərini sətirbəsətir, səhifəbəsəhifə mənimsəmişdir. Bəzi plagiatlar başqasının əsərini çırpışdıranda heç olmasa izi itirmək üçün mətndə müəyyən dəyişikliklər aparırlar, sözləri dəyişir, sinonim sözlər işlədir və s. Amma Salman müəllim özünü bu zəhmətə də salmamışdır. Mirzə Yanarı, obrazlı şəkildə desək, təpədən-dırnağa oğurlamışdır ki, bu da

sovet aliminə yaraşmayan bir sifətdir. Mən bilmirəm, bunun üstündə ona nə cəza vermək olar — ancaq onu bilirəm ki, bu hərəkət ləyaqətdən, vicdandan uzaq bir hərəkətdir.

Məncə, sübut-filan gətirməyə heç bir ehtiyac yoxdur, Nurəddin müəllim. Bax, bu kitabın harasından açırsınız açın, oğurluqdur. Son cümləsinə qədər. Bir şair dostumun şerinin bir bəndi yadıma düşdü. O yazmışdır:

«Alim tanıyıram, qoca Qafqazın
Çeşmə tək durulub dibindən çıxır.
Alim var, sağ əli Salman Mümtazın,
Sol əli Hümmətin cibindən çıxır.»

Təəssüf ki, bizim hörmətli professorumuz Salman Qurbanzadənin sağ əli Mirzə Yanarın cibindən çıxıb, sol əli kimin cibindən çıxacaq bunu deyə bilmərəm.

İltifat sözünü bitirib oturdu. Nurəddin üzünü Gülalıya tutdu:

— Sən nə deyə bilərsən, Gülalı?

Gülalı udqundu, qoz boyda hulqumu qalxıb-endi:

— Mən... mənə elə gəlir ki, Salman müəllim Mirzə Yanarın əsərini köçürüb öz adına çap etdirməkdə bir balaca səhv eləyib.

Nurəddin onun bu sevimli «bir balaca» ifadəsini ilk dəfəydi eşidirdi. Ona görə güldü:

— Əcəb balaca səhvdir, Gülalı. Bu boyda da balaca səhv olar?

Gülmirə sözə qarışdı:

— Gülalının dilinin əzbəridi bu sözlər, professor.

— Nə bilim, adət eləmişəm də. Hə söz verirəm ki, ta belə deməyəcəyəm — bir də görürəm demişəm... Nə isə, mətləbdən yayınmayaq. Bu köçürmə əhvalatı faktdı. Bunun altından daha heç cürə qaçmaq mümkün deyil. Mənə elə gəlir ki, Mirzə Yanarın bu əsərini eynilə kişinin öz adına çap etdirmək lazımdır. Bir geniş müqəddimə yazmaq, orada əhvalatı müəyyən işarələrlə oxuculara başa salmaq lazımdır. Onsuz da Salman Qurbanzadənin kitabı indi

satışda çoxdan yoxdur, ancaq kitabxanalarda və şəxsi evlərdə qalmış olar ki, onları da yığışdırmaq asandır. Mirzə Yanarın halal zəhmətini özünə qaytarmış olsaq, onun qarşısındakı günahımızı bir balalaca... hi, hi, yenə bir balaca dedim ey... yumuş olarıq.

Nurəddin Gülmirəyə danışmaq işarəsi verəndə o qısaca söylədi:

— Mənim fikrim aydındır. Mən də yoldaşların dedikləri ilə şərikəm, professor.

Akademik dönüb Salmana nəzər saldı. Rişxənd dolu baxışlarını uzun müddət ondan çəkmədi — gözləri ilə ürəyini partlatmaq istəyirdi sanki. İndi Salmanın boğazı əlindəydi, arzuladığı an sıxa bilərdi, iri gözləri eynəyinin şüşəsi boyda olanacan sıxa bilərdi. Yox, öldürməzdi. Onu başıaşağı, xəcalətli eləmək bəsiydi.

Salman isə — qəribə görünürdü Nurəddinə — onun baxışları altında əzilmirdi, nəzərlərini qaçırmırdı, təmkinini itirmirdi, eləcə sakit-sakit oturmuşdu, deyilənlərə qulaq asırdı. Nurəddin birdən özünü onun yerində təsəvvür elədi. Beş-on nəfər onu bax bu cür, qabağına qoyub isladıb vururlar. Onun oğru olduğunu sübut edirlər. Onda o, belə sakit otura bilərdimi? Yox! Bəs bu nə hikmətdi? Salman niyə biganə və soyuqqanlıdır? Bu, Nurəddini düşündürürdü.

— Hə, Salman Qurbanzadə, indi nə deyə bilərsən? — Nurəddin yenə uzun baramaqlarını astaca mizə taqqıldada-taqqıldada, maraqlı bir tamaşanın nə ilə bitəcəyini səbirsizliklə gözləyən tamaşaçı kimi soruşduqda Salman burnunun ucuna enmiş eynəyini şəhadət barmağı ilə yuxarı qaldırıb sakitcə söylədi:

— Mən istəyirəm komissiyanın sədri kimi siz də öz sözünüzü deyəsiniz, yoldaş Osmanzadə.

— Mən? Mən ədəbiyyatşünas deyiləm, Salman. Ancaq hər iki əsərə baxmışam. Doğrudan da yoldaşlar düz deyirlər. Sənin işin plagiatdır. Sən bunun üçün məsuliyyət daşımalısan. Mənim fikrim qətidir. Ali Attestasiya Komissiyasına yazacağam və sənin doktorluq diplomunu ləğv elətdirəcəyəm. Çünki mən belə şeylərə barışmaz düşmənəm, bilirsən.

— Lap yaxşı, nə olar! — Salman dikəldi. —Mənə sizin fikrinizi bilmək lazım idi. İndi olarmı ki, mən o qovluğa — Mirzə Yanarın əsəri hesab elədiyiniz o əsərə bir dəqiqəliyə baxım? İcazə olar də?

— Əlbəttə! Əlbəttə!

Salman qalxıb qovluğu götürdü, açdı. Saralmış, otuz il bundan qabaq, ərəb əlifbası ilə yazılmış vərəqlərə nəzər saldı və təntənəli şəkildə gülümsündü.

— Mən komissiyanın yazılı rəyini də istəyirəm, professor.

— Buyur.

Salman makinada çap olunmuş və sancaqlanmış kağızları alıb son səhifəsinə baxdı. Abışovun, Gülmirənin, Gülalının imzası vardı. Direktor qol çəkməmişdi.

— Siz də imzalayın, xahiş edirəm, — deyib kağızları onun qabağına qoydu və Nurəddin də qol çəkdi. Salman geri çəkildi, ancaq yerində oturmadı. Ayaq üstə:

— Nəzərinizə çatdırım ki, bu kağızı yazan və imzalayan yoldaşlar böyük səhvə yol veriblər. Siz — o, üzünü komissiya üzvlərinə sarı çevirdi, — məndən mənim otuz il əvvəlki əlyazmamı istəmisiniz? Yox. Gedib arxivdə Mirzə Yanarın saxlanan əsərlərinin əl nüsxəsinə baxmısınız? Yenə yox, halbuki, sizin mənəvi borcunuz idi bu — Mirzə Yanarın da, mənim də əlyazmalarımı kalliqrafik nöqteyi-nəzərdən çox ciddi şəkildə öyrənməli idiniz. Bunu etməmisiniz, çox təəssüf edirəm buna. İndi mən sizə elə bir şey deyəcəyəm, hamınızın ağzı açıla qalacaq — təəccübdən. O da bundan ibarətdir ki, sizin tutuşğunuz əlyazması da, kitab da mənimdir. Bəli, bəli, yoldaş Nurəddin Osmanzadə, mənimdir. İnanmırsınız? Əlbəttə, inanmazsınız. Çünki sizə məni ləkələmək, bədnam eləmək lazımdır. Siz, bizim bu hörmətli — səsindəki kinayə açıq-aşkar duyulurdu — hörmətli Gülmirə xanımın fitvasına uyub məni müzakirəyə qoydunuz. Sonrasını düşünmədiniz. Bəli, əlyazması ilə kitabın mətni, İltifat Abışovun dediyi kimi, sətirbəsətir uyğun gəlir. Sizcə gəlməməlidir? Bu necə ola bilərdi? Gülməlidir, vallah. Sizə mətləb aydın olsun deyə mən bir qədər

izahat verim. Bu əsəri mən çoxdan, müharibə ərəfəsində yazmışdım. Ərəb əlifbası ilə. Müharibədən sonra müdafiə eləmişəm, iki il sonra çap etdirmişəm. Bax, bu əlyazması otuz doqquzuncu ilin kağızıdı, xəttidi. Əlbəttə, o illərdə tək bu yazını yazmamışam — mənim məqalələrim də var. Siz gərək yoxlayaydınız. Xəttimi tutuşduraydınız, ondan sonra hökm verəydiniz.

— Bəs... — akademik udqundu, — bəs bu qovluq Orxanın əlinə necə düşüb onda?

Salman yenə şəhadət barmağı ilə burnunun ucuna düşmüş eynəyini yuxarı qaldırıb:

— Bilirsiniz, Orxan mənim ən əziz tələbəm idi. Bax, allah şahidi kimi Nadirə xanım oturub burda, təsdiq eləyə bilər. Orxan mənim evimin adamı idi. Gələrdi, gedərdi, mən onu kitabxanama, arxivimə buraxmışdım. Ürəyi istəyən kimi mənim kitabxanamdan, əlyazmalarımdan istifadə eləyərdi. Bu əsərin əlyazmasını qəsdən götürdüyünü deyə bilmərəm, amma güman eləyirəm ki, kağız-kuğuza, qovluqlara qarışdırıb aparıb. Orxan təmiz oğlan idi...

Gülmirə xanım mənim xəttimi tanımadığından, belə bəd fikrə düşüb. Elə deyil, Gülmirə xanım?

Gülmirə çaşmışdı, hadisələrin gedişi tamam dönmüşdü, nə cavab verəcəyini bilmirdi. Salman hədsiz təmkinlə danışırdı, qız anlamırdı ki, o vaxt Orxan düz deyirdi, ya indi Salman? Orxan yox idi — ondan heç nə soruşmaq mümkün deyildi. Ancaq Salman buradaydı, qarşılarında dayanmışdı, özünü müdafiə edirdi. Bundan əlavə, o, tutarlı dəlillər söyləyirdi — xətt məsələsi heç ağıllarına da gəlməmişdi. Halbuki, ekspert vardı, onun köməyindən istifadə edə bilərdilər. Yox, nə isə dolaşıq idi, anlaşılmaz idi. Gülmirə hələ bu gözlənilməz zərbədən özünə gəlməmişdi. Salman isə cavab istəyirdi:

— Səndən soruşuram, siz səhv elədiyinizi boynunuza alırsınız?..

— Yox! — dedi Gülmirə, — mən inanıram ki, bu əsər sizin deyil, Mirzə Yanarındır. Bəlkə qovluq dəyişilib. Bəlkə... siz onun əlyazmasını götürüb yerinə öz əlyazmanızı qoymusunuz?... Deyə bilmərəm. Nə isə burda qarışdırılıb, dolaşdırılıb. Orxan mənə dey-

irdi ki...

— Mən bilirəm Orxan sizə nə deyib, Gülmirə xanım. Onu bilirəm ki, siz mənə böhtan atırsınız. Və mən sizi bax rəyiniz əsasında məhkəməyə verəcəyəm. Böhtan atdığınıza görə, namuslu, bütün ömrünü elmin inkişafına həsr eləmiş, yuzlərlə kadrlar yetişdirmiş (əlbəttə, sənin kimi kadrlarımı nəzərdə tutmuram) bir alimi ləkələməyə çalışdığınıza görə.,..

Salman bu sözləri deyib imzalı rəyi götürərək otaqdan çıxdıqda hamı sükut içində donmuşdu. Təkcə Gülalı udqunub astaca söylədi:

— Deyəsən, bir balaca səhv eləmişik axı!

....Nadirə xanım düz saat ikidə çıxmışdı evdən... Ana-bala söhbət edərkən Ceyhunun tez-tez saata baxmağı əbəs deyildi. Regina ilə vədələşmişdi. Üçün yarısında o, Ceyhungilə gəlməli idi. O qarlı qış günündə, Süleymanın emalatxanasında olan və Ceyhunun bütün ömrü boyu unutmayacağı görüşdən sonra onlar həftədə üç-dörd dəfə bu evdə görüşür, yeyib-içir, maqnitofonun asta ayaqda çaldığı musiqi altında rəqs edir, ipək yorğan-döşəkdə yatıb-dincəlirdilər. Regina oğrun gəldiyi kimi oğrunca da çıxıb gedirdi. Reginanın Ceyhundan çox xoşu gəlirdi. Əvvələn, o, təmiz uşaq idi — qadının fikrincə — pozulmamışdı, Saleh kimi tünd-məcaz, kobud deyildi. Əliaçıq idi. Ona hər dəfə xeyli pul verirdi, pulu olmayanda isə, anasının sandığından ya parça, ya alt paltarı bağışlayırdı. Reginaya körpə məhəbbəti ilə vurulmuşdu Ceyhun. Həyatında gördüyü, sevdiyi, çox yaxın olduğu ilk qadın idi. Regina buna görə çox istəyirdi onu. Təcrübəli, görüb-götürmüş bir qadın olduğundan Regina elə eləmişdi ki, Ceyhun qabağında qula dönmüşdü. Və bu Reginanın özünə də ləzzət eləyirdi. O, Ceyhunu əzizləyir, öpüb oxşayır, şirin sözlər deyirdi, gördüyü bütün kişilərdən — bunu o, gizləmirdi — üstün tuturdu. Ərindən də, Salehdən də, hamıdan... Onun bu sözlərindən isə Ceyhunun qəlbinə sonsuz bir fərəh axıb dolur, getdikcə kişiləşir və sinəsi qürurdan qabarıb qalxırdı.

— Mən ancaq tək səninlə olacağam, Cek! — deyirdi. — Sən

yaxşı kişisən!

— Bəs Salik? — deyə Ceyhun soruşanda Regina dodaqlarını büzüb:

— Fu, adını çəkmə yanımda, — söyləyirdi. — İyrənirəm ondan....

Əslində iyrənmirdi, qorxurdu Salehdən. Saleh gözünün odunu çoxdan almışdı. Özü də bilirdi ki, Ceyhuna yalan deyir, amma deyirdi. Çox istəyirdi ki, Salehdən üzülüşsün, Saleh yox olsun, ölsün, bu şəhərdən çıxıb getsin — bəlkə onda Regina rahat nəfəs ala bilərdi.

Lakin ona heç nə olmurdu, heç yana getmirdi və kölgə kimi onun hər addımını izləyir, kimsə ilə ürəyi istəyən şəkildə görüşməyə imkan vermirdi. Ceyhuna rast gələndən sonra SaleH onun gözündən yamanca düşmüşdü. Görməyə gözü yox idi. Əlacı olsaydı evinə, yanına, yorğan-döşəyinə buraxmazdı. Ancaq bacarmırdı. Çünki Saleh qorxunc adam idi — əsəbləri yerində deyildi, o, uf demədən adamı bircə anda öldürə də bilərdi. Salehin bu cəhətini düşünəndə Regina ona rast gəldiyi günü nifrətlə yad edərdi və həmişə qorxu içində yaşayırdı. Ceyhungilə gəlməsi də böyük risk idi. Evdən çıxıb onlara gələnəcən azı on yerə —mağazaya, bazara girər, «izi azdırmağa» çalışar, Ceyhunun otağına girib qapını dalınca çəkib bağlayandan da xeyli sonra özünə gələ bilməzdi. Ona elə gəlirdi ki, indicə Saleh dabanbasma gələcək, qapını açmasalar da, vurub sındıracaq və... allah göstərməsin!...

Saleh gözü ilə görməsə də, əlinin içi kimi bilirdi ki Regina kiminləsə xəlvətdə görüşür. Ancaq kim idi bu adam? Tapa bilmirdi. Regina dəyişmişdi, Regina nə qədər gizləməyə çalışsa da, görüşəndə mehriban olmağa səy göstərsə də, Saleh onun rəftarından, soyuq-soyuq yatıb-durmağından başa düşürdü ki, çox qızğın, ehtiraslı bir qadın olan Reginanın atəşinin üstünə kimsə su çiləyir. Soruşmuşdu, hədələmişdi, hətta bir dəfə döymüşdü də. Lakin Regina heç nə boyun almamışdı.

O vaxtdan Saleh onu güdməyə başlamışdı.

Ceyhun saata baxırdı. Hələ on beş dəqiqə qalmışdı gəlmə-

sinə. Tez-tez küçəyə baxan pəncərənin qabağına keçir, aşağı, trolleybus dayanacağına boylanırdı. Süfrə açmışdı. Soyuducudan beşulduz konyak şüşəsini və iki də piyalə götürüb stolun üstə qoymuşdu... Anası ilə açıq danışdığına çox şad idi. Bilirdi ki, onun ürəyini qanatdı, cırmaqladı. Buna baxmayaraq kefi kök idi— illərdən bəri qəlbində yığılıb qalmış sözləri nəhayət, bu gün demişdi anasına. Və bunu da başa düşmüşdü ki, anası incisə də, nə isə sevinmişdi. Bu sevincin səbəbini o, araşdırıb tapmaqdan aciz idisə də, Nadirənin gözlərində yanan işığı, içində nəyinsə təzədən ümid çiçəyi kimi açılıb pardaxlandığını görmüşdü və inanmışdı ki, bu gündən sonra bu ailə tamam başqa cür yaşayacaq.

....Regina şüşə bazarın yanında troleybusdan düşdü. Dayanacaqda ayaq saxlayıb arxadan gələn maşınlara göz qoydu. Salehin yasəmən rəngli «Jiquli»si gəlmirdi dalınca. Bir az toxdadı, yolu keçib şüşə bazara girdi, fırlandı, uşağı üçün iki kilo mandarin alıb qara əl sumkasına tökdü.

«Ceyran» kafesinin tuşunda dayanıb geri baxdı — Salehin maşını gözünə dəymədi. Ehtiyatla, kirpiklərini qaldırmaqla beşinci mərtəbənin pəncərəsinə nəzər saldı. Ceyhun orada dayanmışdı. Əli ilə «gəl» işarəsi verdi. Demək, evdə heç kəs yoxdu.

Küçəni keçib həyətə buruldu... Ətrafı çox ustalıqla yoxlayıb Salehdən əsər-əlamət görmədikdə özünü bloka saldı.

Amma xəbəri olmadı ki, Saleh qarşı binanın birinci mərtəbəsinin blokunda bir saatdan çox idi ki, siqareti siqaretii oduna yandıra-yandıra gözləyir. Bundan da xəbəri olmadı ki, o, blokdan içəri girəndə Saleh əsəbi halda çox pis bir söyüş söyüb yerə tüpürdü və saata baxdı. Üçə iyirmi beş dəqiqə işləmişdi. Salehi əsməcə tutdu, qara rəngi bir az da boğulub qaralmışdı. Reginanın dalınca cummaq, elə qapı ağzında yaxalamaq, kürəyinə bıçağı saplayıb çıxıb getmək istədi. Ancaq yox. Bu Saleh olmazdı onda. Saleh səbirsizlik göstərməməli idi. Təmkinlə iş görməli idi, Regina heç. O, qadındır. O, Salehi aldada bilər, yalan danışa bilər. Amma bəs Ceyhun? O ki kişidir. Salehin dostudur, özü də yaxşı bilir ki, Regina onun adamıdır. Hətta bu yaxınlarda Saleh qəsdən

söz salanda Ceyhun, «yox, sən öl mənim onunla heç bir işim olmayıb!» — demişdi. Kişi də dostuna yalandan «sən öl!» — deyərmi?.. Yox, Salehin dəftərində belə nakişilik yazılmamışdı. Odur ki, indi, Saleh, Reginadan çox Ceyhunun əlindən yanıqlı idi. Qəzəbindən tir-tir əsirdi. «Yaxşı, küçük! Sənin ananı ağlar qoymasam, onda mən kişi deyiləm!» — deyirdi...

...Regina içəridə, qapının ağzında dayanıb divara söykənmişdi. Həyəcanlı olduğundan, beşmərtəbəli binanın doxsan doqquz pilləsini barmaqları ucunda qalxdığından, qorxudan tir-tir əsir və tövşüyürdü. İri, uzun kirpikli, altına-üstünə yaşıl «kölgə» çəkilmiş gözlərini yummuşdu. Ceyhun isə bir ac adam hərisliyi ilə onun boyun-boğazını öpə-öpə layka plaşının düymələrini açırdı və tez-tez deyirdi:

— Xoş gəlmisən, əzizim, xoş gəlmisən...

Regina tövşüyürdü, Ceyhun danışırdı və hər ikisinin nəfəsindən güzgü tərləmişdi və tər getdikcə çoxaldığından, qalınlaşdığından əksləri tutqun görünməyə başlayırdı. Regina hələ bir kəlmə də kəsməmişdi, qulağı qapıdaydı — dalınca kiminsə, daha doğrusu Salehin gəlib-gəlmədiyini yəqinləşdirmək istəyirdi. Yox, daş-beton pillərlərdə səs-səmir yoxdu.

Plaşını çıxartmışdı, yaylığını açmışdı artıq Ceyhun. İndi də əyilib ayaqqabılarını çıxarırdı. Regina xırda, ağ, həyəcandan titrəyən barmaqlarını onun cod saçlarında gəzdirirdi və elə bu anlarda onu, — Ceyhunu əri ilə, sonralar tanış olduğu kişilərlə və xüsusən Salehlə müqayisə eləyirdi ürəyində, nəvaziş eləməyi, əzizləməyi Allah bilir kimdən öyrənmiş «bu uşağı» istəyirdi bağrının başına qoysun. Çünki heç kəs — Reginanın tanıyıb bildiyi kişilərdən heç kim onunla belə rəftar eləməmişdi. İstəməmişdilərmi, bacarmamışdılarmı — bilmirdi. Reginanın ürəyi Ceyhunla doluydu — onunla görüşəndən sonra heç kəsi istəmirdi. Ceyhun qalxdı, bir qolunu boynuna salıb o biri qolu ilə qıçlarının büküyündən yapışdı, «hop» eləyib onu içəri — stol arxasına apardı və stulda əyləşdirdi, Regina səliqə ilə açılmış süfrəyə baxıb gülümsündü:

— Lap min bir gecə nağılındakı kimidi, Cek, sağ ol.

Ceyhun da bəxtəvərliklə güldü:

— Sən mənim şahzadə xanımımsan, Reyhan! — O, Reginaya Reyhan deyirdi. — Heyf, mənim elə imkanım yoxdur. Yoxsa sənin üçün ya dənizin ortasında, yox, dənizin ortasında yox, ona pis adamlar gəmiylə gələ bilərlər, bunu isə mən istəmirəm. Göyün yeddinci qatında bir imarət tikdirərdim, ancaq qadınlardan, qızlardan, qulluqçu-qaravaş qoyardım...

— Bəs niyə ancaq qadınlardan, qızlardan? Kişilərdən yox? — deyə Regina sarışın-şabalıdı saçlarını səliqəyə sala-sala, bic-bic qımışıb soruşdu.

— Səni kişilərə qısqanıram, Reyhan. Sən gözəlsən, bütün kişilər sənə həvəslə baxırlar, onda mənim ürəyimin başı sökülür. İmkanım olsa, sənə zillənən bütün həris gözləri birdəfəlik çıxardaram, Reyhan. Hayıf, bu qüdrətim yoxdu.

— O, sən çox insafsız imişsən, Cek. Sən gərək sevinəsən ki, sənin Reyhanına hamı, maraqla, məftunluqla baxır... Mənim ərim Abram bundan xüsusi ləzzət alırdı, Cek!

— Ləzzət alırdı?

— Hə. Təsəvvür elə ki, ləzzət alırdı!...

— Məni bağışla... O, kişi deyilmiş. Yaxud səni sevmirmiş, Reyhan.

Reginanın nazik, alınma qaşları çatıldı, fikrə getdi və Ceyhunun parıldayan qara gözlərinə razılıqla baxıb söylədi:

— Düz deyirsən. Cek. O, kişi deyildi, o məni sevmirdi. Ona görə də məni yarı yolda qoyub getdi. Mən kişi olsaydım və özüm kimi bir qadınım olsaydı, nə zülm etsəydi də mənə, onu qoyub getməzdim. Hər şeyi kənara qoyuram, heç olmasa ona görə ki, o, başqa kişilərə qismət olmasın, əldən-ələ düşməsin... O bunu başa düşmədi, qiymətləndirmədi, Cek. Bu, məni yaman yandırır. Deyəsən həmişə yandıracaq.

Ceyhun ona qulaq asa-asa konyak şüşəsini açdı, piyalələri doldurdu, birini onun qarşısına qoydu, o birini özünün və dedi:

— Unut onu getsin, Reyhan. Bir də mənim yanımda onun

adını dilinə gətirmə. Yaxşı? Heç kəsin haqqında danışma. Yaxşı? Onda mən özümü pis hiss edirəm, Reyhan.

— O, bu nə gözəldi, Cek.

— Nə, nə gözəldi?

— Sənin belə deməyin! Çox yaxşıdı. Mənə olmazın ləzzət eləyir, Cek! Yaxşı, sən mənə göyün yeddinci qatında imarət tikdirəsi olsan, bütün qulluqçu, qaravaşın da qadınlar olsa... bəs özün necə gəlib-gedərsən yanıma?

— Mən? Mən elə həmişə sənin yanında olaram.

— Deyirsən ora, göyün yeddi qatına heç bir kişi gələ bilməz?

— Yox. Məndən başqa heç kəs!

— Bəs kosmonavtlar? Onlar ki, göyün yolunu su yoluna döndəriblər, maşallah. Biri gedir, biri gəlir. Bəs onlar?

Ceyhun duruxdu:

— Onlar qorxulu deyil, Reyhan!

— Niyə?

— Onlar hava gəmisindən heç yana çıxa bilməzlər. Ona görə də qorxulu deyillər.

Regina onun bu sadəlövlüyünə və məhəbbətinə təəccüb eləsə də, heç nə demədi, piyaləsini qaldırıb:

— Sənin sağlığına içirəm, mənim min bir gecə nağıllarından gəlmiş şahzadəm, — dedi və içdi, şokoladı onun ağzına Ceyhun özü qoydu. Regina şokoladı çeynəyə-çeynəyə davam etdi: — Sən hələ cavansan, demək olar ki, uşaqsan, Cek. Sən həyatın nə demək olduğunu bilmirsən. Onun elə sərt və amansız qanunları var ki, adamı bəzən qılınc kimi kəsir, sındırır, doğrayır. Sən nə görmüsən hələ dünyada, quzum? İç, iç, saxlama. Hə. Bax, belə. Sən içəndə lap gözəl olursan, mənim körpəm. Bax, sən məni çox istəyirsən. Sən məni heç kəsə vermək istəmirsən, hətta göstərməyə belə qıymırsan. Fikrində gah dənizin ortasında, gah göylərin yeddi qatında imarətlər qurursan, məni ora aparırsan. Bütün bunlar yaxşıdı, gözəldi, şairanədi, ancaq illüziyadı, xəyaldı, mənim körpəm. Sənin təsəvvüründə yaratdığın xəyali bir dünyadı.. Həyat isə başqa şeydir — indilikdə səninlə mənim üçün həyat budur,

quzum, çəkilib oturmuşuq üz-üzə, yeyirik-içirik, bir azdan yatacağıq, sonra sən mənə nə isə verəcəksən, mən çıxıb gedəcəyəm... Bilməyəcəyəm sən hara getdin, kimin yanına getdin. Sən də bilməyəcəksən mən neylədim, qızım məni necə qarşıladı, nə suallar verdi... Həyatın adi qayğıları içində mən sənin yadından çıxacağam, sən mənim... Odur ki, çox dərinə getmə, quzum. O xəyali dünyaları az yarat, özünü üzmə, adicə insan kimi yaşamağı bacar, vəssalam. Yaxşımı, mənim quzum?

— Yaxşı! — dedi Ceyhun, ancaq əslində Reginanın sözlərinin mənasını yaxşı dərk eləmədiyini özlüyündə etiraf elədi. İkinci piyaləni içdilər. Ceyhun onun boşqabına kotlet qoydu. O, acmış, iştahla yedi. Ceyhunun səliqə ilə soyduğu mandarindən də iki-üç dilim atdı ağzına...

Konyak öz işini görmüşdü — ikisi də xumarlanmışdı... Ceyhun tələsirdi, Ceyhun yeyib-içmək mərasiminin tez qurtarmasını, ömrünün əsl çiçəklənmə vaxtını yaşayan Reginanın növbəti vüsalına daha tez çatmaq istəyirdi. Qadın isə, əksinə, çox arxayın tərpənirdi, elə bil öz evində idi, Ceyhun da onun əriydi, «gələn olar!» qorxusu yadından çıxmışdı sanki. Səbəbi isə bu idi ki, o, Ceyhunla keçirtdiyi dəqiqələri, saatları gözəl hesab eləyirdi, bu anların ömrünü uzatmaq istəyirdi. Çünki Ceyhunla yanaşı olmaq onun üçün xoş idi, şirin idi. Bu zaman o, sözün əsl mənasında yaşayırdı, ləzzət alırdı. Sıxıntı yox, təhqir yox. Ancaq nəvazişlər, hərərətli oxşamalar vardı arada... Hər görüşdən sonra qadın bir az da çox, bir az da möhkəm bağlanırdı Ceyhuna. Ayrılarkən gələn dəfəki görüş haqda düşünərdi. Arada fasilə çox olanda məyus olardı. Reginanın başqa təmənnası yox idi — nə bu cah-calallı professor evində gözü vardı, nə də Ceyhunu həmişəlik əldə saxlayacağına inamı. Yaxşı bilirdi ki, Ceyhun onun tayı deyil, beş gün, bir il, iki il sonra da olsa o, ondan soyuyacaq, doyacaq uzaqlaşacaq, atası-anası madar balaları üçün cavan, savadlı bir gəlin gətirəcək və bununla da hər şey bitib gedəcək... Bunların hamısını bilirdi o və buna görə də Ceyhunla keçirdiyi saatları qənimət sayır, ləzzət ala-ala yaşayırdı.

Regina piyaləni bir də doldurdu. Ceyhun üçün də süzdü və ayağa qalxıb yanına gəldi:

— Sən bunu mənim sağlığıma iç, mən sənin, Cek! Sənin evində olmağıma baxma, mən sənin yox, sən mənim qonağımsan... Sən gedəcəksən, mən qalacağam. Söhbət sənə cılız görünür deyəsən. Söz evdən-eşikdən getmir, quzu bala. Söhbət ömürdən, ürəkdən gedir. Sən cavansan, sən uşaqsan mənim yanımda, sən bir vaxt ayılacaqsan, mənim səndən çox yaşlı olduğumu görəcəksən və qanad açıb uçub gedəcəksən, mən tək qalacağam, yəni əslində tək də qalmayacağam, kimsə yanımda olacaq, ya mən kiminsə yanında olacağam, sadəcə sən olmayacaqsan yanımda — bax dərd bu olacaq onda, quzum. Təbiətin qanunu belədir. Sən gedəcəksən...

— Yox, mən heç yana getməyəcəyəm, Reyhan. Lap qocalsan da, səndən əl çəkməyəcəyəm.

— Evlənəndən sonra əl çəkəcəksən, Cek!

— Yox, hətta onda da sənin yanına gələcəyəm. Sən bizə gələ bilməyəcəksən onda, ancaq mən sənin yanına gələcəyəm. Regina içib piyaləni yerə qoydu və acı-acı güldü.

— Niyə gülürsən, Reyhan?

— Ona gülürəm ki, hələ evlənməmiş mənə bura gəlməyə icazə vermirsən. Evlənəndən sonra...

Ceyhun pərt oldu. Bu pərtliyi Regina aldı, bunu ona unutdurmaq üçün qolundan tutub qaldırdı, köynəyinin düymələrini açmağa başladı. Sonra sifətini ikiəlli tutub özünə sarı çəkdi və öpüb yataq oqağına sarı addımladı. Ceyhun arxasınca gəldi...

Regina şifonerin içi bədənnüma güzgülü qapısını açdı — güzgünün içində ağappaq yorğan-döşək əks olundu... Regina Ceyhunun köynəyini çıxartdı...

...Qapının zəngi çalınanda Ceyhun yarıyuxulu idi. Anası-atası ola bilməzdi, hər ikisinin açarı vardı. Bu, kim idisə, yad adam idi. Yataq otağından çıxıb yemək stolunun yanından keçəndə gördü ki, stolun üstü tər-təmizdi, qab-qaşıq yığılıb, şüşə-piyalələr götürülüb. Ürəyində Reginaya «çox sağ ol», deyib qapını açdı və

gələnin Saleh olduğunu körüncə sevindi.

— Oho, xoş gəlmisən. Gün hayandan çıxıb? —deyə son vaxtlar anasının pis üz göstərdiyini hiss edən və buna görə də gec-gec gələn Salehi fərəh içində qarşıladı. Reginanın ağ bədəninin istisi hələ canından getməmişdi, gözlərinə, sifətinə yazılmış xoşbəxtlik ifadəsi hələ uçub yox olmamışdı. Onu qarşılaya-qarşılaya fikrində ölçüb-biçirdi ki, yarım saat bundan qabaq çıxıb getmiş Reginanı Saleh görübmü görəsən? Yox, görə bilməz. Görsəydi, elə o dəqiqə girərdi içəri. Bu, onu bir az toxtatdı.

Saleh içmişdi. Saleh həmişəki Salehə oxşamırdı. Nə isə çox narahat idi. Stolun üstünə baxdı. Yeyib-içmək əlaməti yox idi. Açıq qapıdan yataq otağına boylandı — çarpayının səliqəsi pozulmuşdu. Oturmurdu, gəzinirdi otağın ortasında. Reginanın nəfəsi bədəninin ətri, iyi vururdu, onu. Gözüylə görməsə də, hər şeyi gözüylə görən kimiydi. O, bu bloka girmişdi. Ceyhungildən başqa o, burada kimə gələ bilərdi. Heç kimə!! Heç kimə!!. Saleh Ceyhunu danışdırmaq, hər şeyi öz dilindən eşitmək istəyirdi. Ancaq bu, mümkün idimi? Ceyhun danışardımı?.. Yox, ancaq hiylə ilə ondan söz çəkmək olardı; Salehin beyninin nizamı, vurğusu pozulsa da, indi ancaq bircə şey haqqında düşünürdü — Ceyhunu danışdırmaq, sonra cəzasını vermək!

Hələ də fikrən Reginadan qopub ayrılmamış Ceyhun Salehin qəfil sualından ayıldı:

— Regina burdaydı?

— Yox!.. — Çaşqın halda, amma qətiyyətlə cavab verdi Ceyhun.

— Sən mənə yalan niyə deyirsən, Cek. Axı mən hər şeyi bilirəm. İndicə o, özü mənə hər şeyi danışdı. İnanmırsan? Yox? Bax, saat üçə iyirmi beş dəqiqə işləmiş gəldi o bura... yarım saatdan bir az artıqdı da gedib. İçmişdi özü də. Hər şeyi mənə söylədi...

Ceyhun duruxdu, ayıldı, məstliyi də keçdi, yuxuluğu da. Divanda əyləşdi və hələ də əlləri cibində ortalıqda gəzən Salehə baxa-baxa düşündü ki, Regina doğurdanmı deyə bilər aralarında

olan söz-söhbəti, ya Salehin uydurmasıdı?

Saleh birdən gözlənilməz halda güldü:

— Yaxşı eləmisən, Cek. Elə ondan üzülüşmək üçün bir bəhanə axtarırdım. Tapa bilmirdim. Allah özü yetirdi. O səni çox istəyir. Gəz, dolan... Arvaddı də... Amma inanma, gözdən qoyma. Məni aldadan kimi, səni də aldadar.

— Yox, məni aldatmaz, Salik!

— Niyə? Sən məndən yaxşı oğlansan?

— Onu bilmirəm. Bircə bunu bilirəm ki, o, məni aldatmaz.

— Aldadar deyirəm — Birdən gülüşünə, təbəssümünə ara verib qışqırdı — Aldadar, alçaq!.. Bildin, aldadar!

— Saleh, sənə nə olub? — deyə Ceyhun təşviş içində soruşanda o, yenə qışqırdı və dişlərini bir-birinə sıxa-sıxa:

— Sən alçaqsan, Cek. Sən kişi deyilsən, bildin?! — dedi. — Sən bilirdin ki, o, mənimdi. Özünə də demişdim, başa salmışdım. Sən isə... Gör neylədin?! Sənin yaşamağındansa, ölməyin məsləhətdi. Sən adam ola bilərsən, ancaq kişi ola bilməzsən, Cek!

Birdən pencəyinin cibindən açılma bıçağı çıxarıb ayağa qalxmağına da imkan verməyərək dalbadal, çılğınlıq içində Ceyhuna — qarnına, sinəsinə zərbələr yendirməyə başladı, bir anda divan, döşəmə qana bulaşdı. Qanı görən Saleh duruxdu, sonra isə təzədən bıçaq işlətməyə başladı. Ceyhun yerə düşüb qıvrılırdı və zarıltılı səslə:

— Məni öldürmə... Öldürmə.. — deyirdi. Elə bil, başqa söz bilmirdi, ya bütün sözlər yadından çıxmışdı.

Saleh kənara çəkildi. Sağ əli qan içindəydi. Bıçağı yerə atdı, qaçmaq üçün qapıya sarı cumdu. Ancaq dayandı. Çırpınıb öləziyən Ceyhuna baxdı, baxdı dəhşətlə qışqırmaq istədi. Səsi çıxmadı... Taqətsiz halda döşəməyə oturdu. Nə etdiyini bilmirdi. Qan tutmuşdu. Ceyhun başı kəsilmiş toyuq kimi dartınıb sakitləşəndən sonra o, qəribə bir soyuqqanlılıqla:

— Sən adam ola bilərdin, amma kişi ola bilməzdin... — dedi.

Qalxıb bıçağın qanlı tiyəsini onun ağ köynəyinə sildi, qatlayıb cibinə qoydu. Sonra yataq otağına keçdi. Şifoneri alt-üst

eləyib içindəki paltarları çarpayıların üstünə səpələdi... Çamadanı açdı, parçaları ortalığa tökdü. Şifonerin üst gözündəki sədəf naxışlı balaca mücrünü görəndə tələsik başı aşağı eləyib parıldayan üzükləri, sırğaları ovcuna tökdü. Bir az əvvəl qandan qızarmış ovcu indi daş-qaş altında parıldayırdı... Mücrünü yerə atdı, ovcundakıları cibinə basdı... Tələsik bu biri otağa keçdi...

Pianinonun üstündəki yaraşıqlı çex külqabısının içində gözünə dəyən üç-dörd iyirmibeşliyi də xışmaladı...

Sonra çaşqın halda eyvana çıxan qapıya sarı getdi, ancaq səhv elədiyini anlayıb... geri döndü.

Ceyhunun ətrafı qan gölməçəsi idi... İstədi çevrilib üzünə baxsın. Lakin qorxdu, nədənsə, ürək eləmədi.

— Sən adam ola bilərdin, amma kişi ola bilməzdin... — deyib qapını açaraq yavaşca arxasınca örtdü. Bir sirli, müəmmalı ölüm, açılmaz bir düyün qapının o üzündə qaldı...

## ON BEŞİNCİ FƏSİL

Aprel günəşi çoxdan axıb getmişdi, amma hərarəti, işığı hələ də şəhərin, üzərindən çəkilməmişdi. Güclə hiss edilə bilən Bakı mehi əsirdi.

İşin qurtaran vaxtıydı, küçələr, dayanacaqlar adamla doluydu. Avtobuslar, trolleybuslar dolu gəlib dolu gedirdi. Gülmirə ilk dəfəydi ki, idarədən çıxıb köhnə evinə yox, təzə mənzilinə getmək üçün səkkiz nömrəli trolleybusu gözləyirdi. İkisinə minə bilməmişdi, çünki dal qapılar taybatay açılsa da, düşən yox idi, minmək istəyən isə saysız-hesabsızdı... Yolu uzaq da olsa, piyada getməyi üstün tutub döyülmüş, bütün günü daş daşımış adam təki Nərimanov prospekti ilə fikirli-fikirli addımlamağa başladı. Ürəyindən elə bil daş asılmışdı. Bu gecə birinci dəfə evində olacaqdı, yatacaqdı. Bu axşamı yaxşı, mənalı keçirmək üçün xəyalən özünü çoxdan hazırlamışdı. Sarsılacağını, kim bilir, bəlkə də ağlayacağını irəlicədən bilirdi sanki.

Anlayırdı ki, bu axşam onun bütün varlığına Orxan hakim

kəsiləcək, onun düşüncələri, xatirələri, yorğan-döşəyi Orxanlı olacaq. Və qəribə idi ki, günorta, akademik Nurəddin Osmanzadə onları yanına — Salman Qurbanzadənin məsələsini həll eləməyə çağırmamışdan azca əvvəl Gülmirə iş vaxtının tez qurtarmasını, burdan bu günlük üzülüşüb evə tez getməsini çox arzulamışdı.

Ancaq iclasda vəziyyət tamam dəyişmiş, Salman neyləmişdisə, sudan quru çıxmış, bütün komissiya üzvləri, xüsusilə Gülmirə çox pərt olmuşdu — elə olmuşdu ki, daha sözü övürüb-çevirməyə belə imkanı olmamışdı. Çünki «Salman məsələsi» deyilən məsələni az qala akademiyanın bütün institutlarında danışılan, hətta şəhər ictimaiyyəti arasında yayılan bu məsələni Gülmirə ortalığa atmışdı və bunun düz olacağına tam əmin idi. Yoxlama davam edən günlərdə — gah Gülalının əlini dizinə vuraraq «Vay sənin, Salman müəllim burda bir balaca səhv eləyib!» — dediyi, İltifat Abışovun domba gözləri irəli çıxa-çıxa, burnunu çəkə-çəkə: «Ayıb olsun Salmana. Ziyalı da belə iş eləyərmi?» söylədiyi vaxtlarda da zərrəcə heç kəsdə bir şübhə oyanmamışdı. Hər üçü — Gülmirə də, Gülalı da, İltifat da hərdən düşünmüşdülər ki, bu Salman Qurbanzadə nə qəribə adamdı ki, bircə dəfə də onların heç birinə yaxınlaşıb xahiş-minnət eləmir, «saqqal tərpətmir»; belə yozurdular ki, kişi ya utandığından yanaşmır, ya da qüruruna sığışdırmır və hər şeyi onların vicdanına tapşırır. Sən demə, hamısı yanılırmış. Sən demə, professor özünə arxayın imiş! Belə olmasaydı, o özünü bunca sakit aparmazdı. Demək o, belə iş eləməyib. Əsər özünündü. Demək, Mirzə Yanarın bu adda heç əsəri olmayıb!.. Bəs onda... Orxan niyə belə eləmiş olsun? Bəs onda Salmana nə cavab verəcək Gülmirə?! Bu ki böhtandır, bu ki ağ yalandır. Nadirə xanım — onun arvadı da, Salman yazılı rəyi götürüb hirslə direktorun kabinetindən çıxandan sonra sarı qovluğun içindəki əlyazmasına baxıb: «Düz deyir, bu Salmanın öz xəttidir. Mən yaxşı tanıyıram, inanmırsınız, verin ekspertə, yoxlasınlar» demişdi və akademik Nurəddin Osmanzadənin üzünə acıqlı nəzər salıb:

— Yoxlatdırın, yoxlatdırın, Nurəddin müəllim! — deyə

kinayə ilə təkrar eləmişdi. — Adamları ləkələməkdən asan heç nə yoxdur və bu yolda tələsməyi sizə məsləhət görmürəm.

Dəhlizdə isə Gülmirənin pərt halda liftin yanındakı məhəccərə söykənib dayandığını gördükdə, üstündən dağ boyda bir yük götürülmüş adam sevinci ilə:

— Şükür, yalan çıxdı, Gülmirə, — söyləmişdi. — Yoxsa, bu ləkəni qanla da yumaq olmazdı... Bay, sən ağlayırsan? Sevinmirsən? Ay qız, Salman təmizə çıxıb, sən buna sevinmirsən?..

Gülmirə başını onun sinəsinə qoyub içini çəkə-çəkə:

— Bəs indi mən neyləyəcəyəm, Nadirə bacı? — demişdi. — Mən indi başıma haranın külünü tökəcəyəm, Nadirə bacı? Bir tərəfdən sevinirəm ki, yalandı. Peşmanam, yazıqdı Salman müəllim. O biri tərəfdən də axı... Bunu mən demişəm. Salman... bizi.. məhkəməyə verəcək... Mən nə cavab verəcəyəm, onun üzünə necə baxacağam?

Nadirə xanım onun çiyninə tökülmüş saçlarını qayğıkeşliklə sığallayıb mehriban bir ədayla:

— Qorxma, Gülü. Salman əmin sənin gözündə nə qədər pis adam olsa da... hər halda bütün nöqsanları ilə bərabər, o, yenə Salman Qurbanzadədi. Mən onun arvadıyam, ondan nə alçaqlıq desən, gözləmək olar, Gülya. Ancaq Salman sən sübut eləməyə çalışdığın işə heç vaxt getməz... Onun heç vecinə deyildi, fikir verirdim, dəli olurdum ki, bu cür ittiham edilən adam necə sakit oturub-dayana bilər. İnan, heç tükü də tərpənmirdi. Ancaq bu neçə ayı mən ölmüşəm, Gülya. O tək, o əziz balamın — Ceyhunumun ölmüşünə and içirəm, məndə bu söz-söhbətə görə can qalmayıb. Oturub-durub sənin qaranca deyinmişəm. Niyə məni saymadı bu, niyə mənə məsləhət eləmədi bu! Bax, yanırdım, tüstüm təpəmdən çıxırdı, amma şax tuturdum özümü, dost-düşmən qabağında sındırmırdım. Sən bilirsən ki, mənim şəxsi həyatım yoxdur, biz Salmanla camaat gözündə ər-arvadıq, əslində heç neçə vaxtdı yaşamırıq da... Qurbanı olduğum Ceyhun bax elə bu gün, günorta zamanı məni divara dirəmişdi, elə ağıllı-ağıllı sözlər deyirdi mənə, ayağım yerə yapışırdı. Deyirdi «hanı sizin ailəniz?! Yoxdu sizin

ailə. Ölüb, yoxdu». Düz deyirdi uşağım—biz ailə deyilik daha. Ancaq ər-arvadıq, mənim üstümdə onun adı var, Gülya. Düzünü sənə deyim ki, bu gün Ceyhunumla söhbət eləyəndən sonra elə bil ayılmışam, uşağıma da — onun ağlına, dərrakəsinə təzədən baxmışam, ərimə də baxmışam, özümə də baxmışam. Mən o uşağa əsl analıq eləməmişəm. Elə Salmana da əsl arvadlıq eləməmişəm. Yazı-pozu, kitab-qələm başımı qatıb, mən bəlkə də ortabab bir alim olmuşam, amma bunun əvəzində mən balamı itirmişdim az qala, ərimi itirmişdim az qala, həyat çox mürəkkəbdi, Gülya. Ağıllı olmaq özü bu dünyanın ən böyük xoşbəxtliyidir. Ancaq düşünmədən yaşayanlar həyatda əzab çəkməli olurlar. Bax, sən, indi görürəm dəhşətli əzab içindəsən. Niyə? Ona görə ki, səhv eləmisən. Düşünməmiş addım atmısan, yaxud az düşünmüsən, kimsəyə məsləhət eləməmiş hərəkət eləmisən — nəticədə əzaba düşmüsən və hələ bu səhvin əzabını çox çəkməli olacaqsan, Gülya. Bəsdi daha, ağlama. Özünü ələ al... — Uzaqdan Salmanın gülə-gülə gəldiyini görüb: — Görürəm, halın yaxşı deyil. Bizi Aslanzadə bağa — Buzovnaya qonaq çağırıb — elə indi, işdən çıxıb ora gedirik. İstəyirsən səni də aparaq. Salmanın maşınında gedirik. Gedək, hə, Gülya, gedək, yolda da sizi barışdıraram, hə? — tələsə-tələsə söyləmişdi.

— Yox, yox Nadirə bacı. Mən bu vəziyyətdə... heç yana gedə bilmərəm,—deyərək Salman ağladığını görməsin deyə ondan ayrılıb pillələri qaça-qaça düşmüşdü...

Bir az əvvəl, institutun dəhlizində, məhəccər başında olmuş bu söhbət ürəyində, beynində, təkrar oluna-oluna yol gedən Gülmirə Bəhramgurun heykəlinin yanına çatanda o xəyal küsdürən aləmdən qopub tamam təzə bir dünyaya düşdü. Fontanlarında su fışqıran hovuzun yanında ayaq saxladı, bəd, yorucu fikirləri kənar qovmuş kimi başını silkələdi; burada meh güclüydü, suyun havada oynaşan zərrələrini üzünə, saçlarına çırpır, od tutub yanan bədənini sərinləşdirirdi. Elə halsız və yorğundu ki, daş hovuzun qırağında oturardı qınayan olmasaydı. Xeyli ayaq üstə dayandı, «qaynayan» sulara tamaşa elədi... Bir az o tərəfdə, funikulyorun

qapısının sol tərəfindəki kiçik bağda, köşkün böyründə sırayla düzülmüş sotolların arxasında əyləşib dondurma yeyən, şampan içən adamlara gözucu həsrətlə nəzər saldı. Əqdəm yadına düşdü — onunla bir neçə dəfə burada, bax, o adamlar kimi oturub dondurma yemişdilər, söhbət eləmişdilər. Orxanla o, dondurmaxanaya heç vaxt ayaq basmamışdı. Ona görə Gülmirə fikrən özünü o ağac altındakı mizin arxasında Əqdəmlə qabaqqənşər görüb üşüyən kimi oldu, baxışlarını çöndərib alimlər evinin dənizə baxan eyvanlarını, pəncərələrini nəzərdən keçirdi, axtarıb öz eyvanını tapdı. Eyvan boş idi. Orxan sağlığında bura gələndə də eyvan boş idi. Ancaq onda ümidi vardı ki, Orxan eyvana çıxa bilər, hovuza baxa bilər və Gülmirəni orada görüb çağıra bilər. Çıxmamışdı amma. Gülmirə özü həyəcandan qıçları əsə-əsə qalxmışdı yuxarı. İndi isə o, eyvana nahaq baxırdı. Orxan eyvana çıxmayacaqdı... Acı bir nisgillə düşündü ki, Orxan orda yoxdu, daha niyə gedir ora? Qayıtmaq istəyirdi iki-üç addım da atdı, lakin bu zaman plaşının cibində əli soyuq açara dəydi, ayıldı. Elə bil ayağı yerə yapışmışdı. Sonra, sinəsini yandırıb yaxan bir ah çəkərək bloka sarı üz tutdu...

Pillələr qurtarmaq bilmirdi, aman allah... Nəhayət, budur, «Orxan Əlizadə» yazılmış qapı... Sükut... haradasa, uzaqdamı, içindəmi həzin bir musiqi çalınırdı bu dəm... Zəng susurdu, qıfıl susurdu, dolmuş gözləri əlindəki sarı rəngli qoşa açardaydı... Görəsən o, hər dəfə bu qapıya gələndə bu hala düşəcəkdi, ya adət eliyəcəkdi? Bilmirdi.

...«Qapı açıldı, Orxan əlində qələm, qapı ağzında görünəndə Gülmirənin ürəyi çırpındı və sanki bədənindəki bütün qanı sifətinə çırpılıb onu qıpqırmızı qızartdı.

— Gülmirə? — Gözlərinə inanmayan Orxan qızın adından başqa söz bilmirmiş kimi, hörmətlə səslənib susdu. Onun gözləri sevinclə parlayırdı.

Orxan geri çəkildi, Gülmirə evə girdi. Qapı sakitcə örtüldü.

— Gözləmirdin, hə? — Gülmirə özünü ələ aldı.

— Düzü, yox... Elə bilirəm yuxu görürəm. Həyatda bəzən

möcüzələr olur.

— Ancaq yuxunun həqiqət ola biləcəyini mən heç vaxt görməmişdim, Gülmirə. Axşam yuxuda görmüşdüm ki, sən bizə gəlmisən.

Gülmirə dabanı üstə fırlanıb gülümsündü:

— Mən istədim ki, sənin yuxun yalan olmasın...»

Bu, Gülmirənin o vaxt, Orxan sağlığında bu qapıdan birinci girişi zamanı olmuşdu. İndi o, bu söhbəti lentə yazılmış kimi, eşidirdi. Beynində Orxanın səsi çağlayırdı, gözlərinin qabağında isə boş otaq vardı, Orxansız...

Gözü balkona açılmış qapıya sataşdı.

«—Bu balkon nəyə desən dəyər, Orxan.

— Hə, axşamlar xüsusilə gözəl olur. Dənizin hənirtisini buradan duyursan. Oturub düşünürsən. Ləzzəti var, Gülmirə. Mən həmişə işığı yandırmadan burada oturub saatlarla düşünürəm, dənizin gecə gözəlliyinə tamaşa eləyirəm».

Aman allah, o, bəlkə balkondadır? Ayaqlarının ucunda balkona açılan qapıya sarı yeridi, qorxa-qorxa. İndicə möcüzə baş verəcəyinə inanmaq istəyə-istəyə. Ancaq yox... Oradan səs-səmir gəlmirdi, həsir kreslo boş idi, nədənsə—yəqin meh tərpədirdi — asta-asta yırğalanırdı o boş, köhnə həsirdən toxunma kreslo. Elə bil sahibi indicə durub harasa getmişdi.

Geri döndü. Qəribə idi — elə bil otaqda kimsə siqaret çəkmişdi, stolun üstündə nazik, boz tüstü pərdəsi asılmışdı sanki.

« — Qəribə papirosdur. «Arzu!»

— Hə, — Orxan acı tüstünü ciyərlərinə sümürdü. Külqabının ağzına qədər kötüklə dolduğunu görən Gülmirə:

— Bu qədər papiros çəkərlər? — dedi.

— Öyrənmişəm.

— Zərərdir axı.

— Hmm..»

Bu «hm» sözciyəzini də eşitdi Gülmirə. Yox, Orxan burdadı. Bax, bayaq balkonda oturmuşdu, durub otağa keçib, burada siqaret çəkib, bax, tüstüsü hələ də çəkilib getməyib... Hə, onda

Orxan bu kresloda oturmuşdu. Sonra ürəyinin ağrısı tutdu. Gülmirə çaşqın-çaşqın ona valerian içirib... yataq otağına keçirtdi...

«Otaqdakı tək çarpayı yığılmamışdı. Güllü yorğanın bir ucu parket döşəməyə düşmüşdü. Gülmirə Orxanı çarpayının qırağında oturdub, qolunu buraxdı, balışı çırpdı, mələfəni sahmana salıb Orxana sarı döndü:

— Uzan...»

Yox idi. O çarpayının yerində başqa — taxta çarpayı vardı. Yorğan-döşək də səliqə-səhmanda idi. Orxan uzanmamışdı. Orxan burda da yox idi.

Gülmirə çarpayının yanında dizlərinin taqətinin kəsildiyini, daha dözə bilmədiyini hiss edib üzüqoylu yorğan-döşəyin üstünə düşdü və hönkürdü. Göz yaşları ipək yorğanın ağ üzünə axıb hopurdu. Qulaqları guruldayırdı. Neçə dəqiqə beləcə, üzüntülü halda çarpayıda hərəkətsiz uzandı. Xəyalı yenə onu qanadları üstünə alıb göylərə qaldıraraq təzədən Orxanlı çarpayının yanına gətirdi.

«Orxan köynəyinin yaxasını açdı. Gülmirə ikiqat bükdüyü yaş dəsmalı onun sol döşünün üstünə qoydu. Qadın əllərinin təmasını duyan Orxan bədənində xoş bir gizilti hiss edərək qeyri-ixtiyari Gülmirənin ağ biləyindən yapışdı və ehmal bir hərəkətlə onun əlini dodağına yapışdıraraq öpdü. Sonra öpdüyü əli iki ovcu arasına alaraq sinəsinə sıxıb saxladı. Gülmirə sehirlənmişdimi, ya nə baş verdiyini dərk eləmirdimi, qımıldanmadı. Anlar əriyib gedirdi. Birdən qulaqlarında təyyarə uğultusu səsləndi. Ayılmış kimi, əlini çəkdi, ancaq heç nə demədi..».

Səksəkəli halda qalxdı. Təyyarə səsi eşidilmirdi. Divarlarından soyuq axıb tökülən, görkəmindən kimsəsizlik yağan otağı qulaqbatıran bir sükut bürümüşdü. Elə sakitlik idi ki, ürəyinin döyüntüsünü də eşidirdi az qala. Üşürgələndi. Doğrudanmı indi o, bu boyda gen-bol otaqlarda tək-tənha idi və həmişə də yalqız yaşayacaqdı?.. Bəs hanı Maşa xala? Hanı Sahibə, Mir Sahib?... Hə, onlar qaldılar o yanda, köhnə evdə, köhnə məhlədə. Yəqin burada da qonşu var... Ancaq kimdi, necə adamdı? Hələ bilmirdi..

Divarlar sıxırdı onu. Qalxıb geyinmək, Maşa xalanın yanına qaçmaq istəyirdi. Qəlbinin dərinliyindən baş qaldıran bir hiss isə sehrli şəkildə sanki qulağına pıçıldayırdı.

« — Yox, Gülmirə, sən hara gedirsən? Sən bura həmişəlik gəlmisən, burda ömürlük yaşayacaqsan, Gülmirə! Hara tələsirsən? Gözlə, Orxan bu gecə harda olsa gələcək. Səni öz evində görüb çox sevinəcək, Gülmirə. Sənə «Xoş gəlmisən, mənim əzizim!» — deyəcək. Sən bu sözləri onun dilindən eşitmək istəmirsən? Yox, gözlə, Gülmirə. Bu onun sənin Orxanının çoxdankı arzusuydu. Arzusuydu ki, sən bax beləcə, birdəfəlik yığışıb gələsən onun evinə. İndi gəlmisən, onun arzusu yerinə yetib..»

«— Hə, hə, qoy gəlsin. Sürpriz olacaq onun üçün. Gözlərinə inanmayacaq məni burada görəndə. Doğrudan yerə-göyə sığışmayacaq, təzədən, lap o dəfə gələndəki kimi, bəlkə ondan da çox bəxtəvər olacaq. Yox, getməyəcəyəm! Hara gedirəm? Bura mənim — Orxanla mənim evim-eşiyimdi. Biz — o və mən burada ömrümüzün axırınacan yaşayacağıq…» — deyirdi Gülmirə ürəyində. Televizora baxdı. Gah Bakını tutdu, gah Moskvanı... Saat birdə yanındakı adama deyirmiş kimi:

— Daha gecdi. Dur yataq! — dedi. Yataq otağına keçdi, tələsmədən soyundu, çarpayısını sahmana salıb yerinə girdi... Xeyli çırpındı, çırpındı... Orxanın xəyalıyla çox danışdı. Giley elədi ona — bu gün düşdüyü çətin vəziyyəti nağıl elədi ona. Ancaq Orxandan səs çıxmadı. Sualları cavabsız qaldı Gülmirənin. Yavaş-yavaş kirpikləri ağırlaşdı...

Sonra gözlərini açanda artıq səhər idi... Dalğın-dalğın bu gün bu evə qədəm qoyandan sonra olub keçənləri xatırladı, bu xatirələrin içində Orxanı axtardı, tapa bilmədi, məyus oldu. Orxan bu gecə gəlməmişdi, yox, qətiyyən gəlməmişdi.

Soyuq bir ah çəkdi:

«Yəqin hələ bilmir bura köçmüşəm. Kim bilir, bəlkə də o köhnə evə gedib, məni görməyib, qayıdıb çıxıb gedib..».

## ON ALTINCI FƏSİL

Aslanzadənin bağı Buzovnada, lap dənizin qırnağında idi. Yayda, qışda havalar küləkli olanda, dəniz yatağından oynayıb dalğalar şahə qalxanda ağ köpüklü sular ağ daşdan hörülmüş iki metr hündürlüyü olan hasarın dibinə qədər gələr, sarı kəhrəba kimi narın qumları yalayıb yenə geri qayıdardı. Belə hallarda ikimərtəbəli, ikiçeşməli, dörd tərəfi açıq eyvanlı evin içində suların uğultusu, gurultusu aydın eşidilər, nabələd adam olsaydı, canına vəlvələ düşərdi. Artıq Aslanzadə çox sevdiyi dənizin bu səs-küyünə, şıltaqlığına öyrənmişdi və bundan xüsusi bir ləzzət alırdı. Qırx beş il onunla ömür-gün sürmüş, ərinin nazını övladı kimi çəkmiş Kiçikxanım, otuz ildən çox bu bağa gəlib getsə də, dənizin belə köpürüb daşan çağlarına adət eləyə bilməmişdi və hər dəfə dalğaların şaqqıltısını, gurultusunu eşidəndə qəribə bir qorxu içində:

— Ay kişi, vallah, bir gün bu dəniz bizi çəkib öz ağuşuna aparacaq, — deyirdi, — səsimizi-ünümüzü eşidən də olmayacaq.

Aslanzadə belə məqamlarda yumşaq-yumşaq cavab verərdi:

— Qorxma, arvad. Dəniz bu torpağın müqəddəs övladıdı və o, təmizlərə, müqəddəslərə əsla toxunmur.

— Yəni deyirsən səninlə mən müqəddəsik?

— Əlbəttə, mənim Böyükxanımım — o, əsl adı Kiçikxanım olan arvadına evləndikləri gündən bəri həmişə Böyükxanım deyə müraciət etmişdi. — Yoxsa buna şübhən var.? Mən həyatımı təmiz, namusla yaşamışam. İndiyə qədər heç kəsə mərdiməzarlıq etməmişəm, heç bir kəsin paxıllığını çəkməmişəm və ən başlıcası isə, böyüklü-kiçikli heç kəsin qəlbinə toxunmamışam. Səni də özüm kimi görmüşəm. Bax, buna görə, biz müqəddəslərdənik və dəniz məhz buna görə də bizə toxunmaz, mənim Böyükxanımım!

Bağa söz ola bilməzdi. Gen-bol həyətdə hər şey öz yerində idi... Kişi, Kiçikxanım deyən kimi, burada can qoymuşdu. Asudə vaxtlarını yay-qış burada keçirən Aslan, bu bağın həm sahibi olmuşdu, həm fəhləsi. Özü əkmişdi, özü şumlamışdı, özü suvar-

mışdı. Keçən ilə qədər, bu zəhrimar qan təzyiqi çıxanacan hər işi özü görən kişi, bu ildən fəhlə ümidinə qalmışdı. Pul verib bağı şumlatmışdı, meynələrin dibini bellətmişdi, kəsdirmişdi. Otuz il idi ki, heç bir kurorta-filana getməzdilər. Məzuniyyətini götürən kimi, ər-arvad yığışıb bura gələr, yeyib-içib dincələr, istirahət edərdilər. Azar-bezar da onlardan gen gəzərdi. Kiçikxanım hərdən eşitdirərdi ki, bu il bir başqa yerə gedək. Onda Aslan deyərdi:

— Heç yerə getdi yoxdu, mənim Böyükxanımım. Az qala dünyanın hər yerindən bu quma, bu dənizə görə adamlar ətək-ətək pul xərcləyib bura gəlirlər, biz duraq hara gedək? Əgər meylin çəkirsə putyovka düzəldim — ürəyin hara istəyirsə göndərim, get dincəl, gəz, gəl. Mən isə buradan heç yana gedən deyiləm.

— Elə şey olar, kişi? Mən səni qoyub hara gedə bilərəm?

— Hə, onda, getdik bağa!

Direktorluqdan çıxandan, Nurəddin Osmanzadənin soyuq və biganə, qəlbə dəyən münasibətindən sonra Aslan — bu həssas və qayğıkeş insan yaman sınmışdı. Arvadına bu barədə heç bir söz deməmişdi, çünki o da fikir çəkən adam idi. Dərdini ürəyinə salıb tək özü çəkmişdi. Bu isə fəna nəticə vermiş, onun qan təzyiqinin qalxmasına, halının xarablaşmasına səbəb olmuşdu. Üstünə gələn həkimlər dava-dərman yazmış, bülleten vermiş, dincəlməyi, işləməməyi məsləhət görmüşdülər. İki gün evdə yatandan sonra:

— Arvad, mənim dərmanım bağdadı. Hazırlaş, gedək! — deyərək yay-qış yaşamaq üçün hər şəraiti olan bağa gəlmişdilər. Doğrudan da gələn kimi kişinin halı xeyli yaxşılaşmışdı. Bu isə, Kiçikxanım üçün hər şey idi. Çünki yer üzündə onun Aslandan başqa kimi-kimsənəsi qalmamışdı. Oğul-uşaq, ata-ana yox idi deyə arvad bütün mehrini ona salmış, o, Kiçikxanımın həm ata-anası, həm övladı olmuşdu. Aslanın üstündə əsirdi yazıq arvad. Aşkarda da, ürəyində də, gecə də, gündüz də ona dua-səna eləyir, «allah, onun ölümünü mənə göstərmə, — deyirdi. — Mən onun qabağında ölüm. Onsuz mən neyləyərəm?» — deyirdi. Ərinin kefi, əhvalı yaxşı olanda, o da yaxşı olurdu, yaşının altmışı adlamasına baxmayaraq, quş kimi qıvraqlaşır, deyib-gülürdü. Evə qonaq qara

gələndə isə, hər ikisi yerə-göyə sığışmır, gen-bol, süfrə açılır, xörəklər, qutablar bişirdi. Kiçikxanımın yeməkləri bütün ziyalılar — Aslanın gəl-gedi olan bütün adamlar arasında məşhur idi. Dünyanın ən ləziz xörəyi bu evdə bişərdi. Aslan bu sarıdan da yarımışdı.

...Salmangil bağa gələndə artıq hava qaralmışdı. Salman şad idi, butün yol boyu deyib danışmışdı, Gülmirəni söymüşdü, Nurəddini isə ürəyi istəyən şəkildə «yağlamışdı». Yerə-göyə sığışmayan bir sevinclə, özünü onlarla müqayisə etmiş:

— Onlar hələ duza gedir, mən isə duzdan qayıdıram, Nadirə xanım! — demişdi. — Məni, görünür, sənin kimi, onlar da hələ tanımır. Mənə də Salman deyərlər, bala! Mən yüz Nurəddinin, İltifatı, Gülmirəni bulaq başına susuz aparıb susuz gətirərəm, Vicdansızlar!.. Özləri əyridi, elə bilirlər hamı elədi. Yox, bala, yox. Salman o qədər də gic, sadəlövh deyil ki, başqasının əsərini götürüb öz adına çap etdirsin və sonra da oturub gözləsin ki, Nurəddin kimi, Gülmirə kimi əclaflar onun başını haçan kəsəcəklər. Sən də ağzına su alıb, əlini əlinin üstünə qoyub susursan. Mən buna təəccüb eləyirəm. Deyəsən sən də inanmışdın, elədimi?

Nadirə xanım arxada oturmuşdu, bayaqdan qulaq asırdı, ancaq əslində fikri Gülmirənin yanında idi. «Gərək bir təhər dilə tutub gətirəydim» — düşünürdü. Sonra xəyalı dolanıb Ceyhunun yanına dönürdü, günorta olan söhbəti xatırlayır, ona haqq qazandırırdı və işdən çıxıb birbaş evə yox, bağa gəldiyinə təəssüf eləyirdi. «Salman tək gələydi gərək. Mən gedəydim uşağın yanına! Oturub yaxşı-yaxşı söhbət edərdik ana-bala, dərdləşərdik.» — Amma gec idi, yol artıq yarıdan keçmişdi. Sonra Nadirə xanım ürəyində xoş bir əhvali-ruhiyyə duymuşdu. Salmana atılan böhtan boşa çıxmışdı. Hər dəfə bu barədə düşünəndə o, əriyib köynək-köynək ət tökmüşdü. Şükür, bu xatadan sovuşdu Salman. Nadirə də gözükölgəli gəzməkdən xilas oldu, — bu nəyə desən dəyərdi. Və ümumiyyətlə, bu gün çox qəribə gün idi — Nadirə gah sarsılmış, əsəbləri gərilmiş, gah da sevinmişdi, qanadlanmışdı. Odur ki, bayaqdan öz daxili aləminə çəkilib, ancaq cismən Salmanla yol

gedən Nadirə ərinin ona müraciət etdiyini güclə anışdırmışdı və diqqətini cəmləyib:

— Nə dedin? — deyə soruşanda o:

— Deyirəm ki, deyəsən sən də inanmışdın ki, mən Mirzə Yanarın əsərini oğurlamışam, hə? — deyə sualını bir az da geniş təkrar eləmişdi. Nadirə ah çəkmişdi:

— Nə bilim, vallah. Sən elə adamsan ki, səndən nə desən gözləmək olar.

Salman geri qanrılıb narazı halda arvadına baxmışdı:

— Məni yandıran odur ki, sən heç vaxt məni başa düşməmisən, Nadirə! Bundan sonra isə çətin başa düşərsən, gecdi daha.

Salmanın bu sözləri Nadirənin qəlbində bu gün oğlu ilə olan söhbətdən sonra yaranmış və indi az qala unudacağı fikirləri yadına salmışdı və o, ərinə belə sərt cavab verdiyinə peşman olmuşdu. Birdən-birə dəyişmək onun üçün çətin idi. Az qala yadırğamağa başladığı ərinə təzədən qayıtmaq, isinişmək, xoşqılıq olmaq və mehribanlıq göstərmək əlbəttə, Nadirə kimi bir qadın üçün asan deyildi. Buna baxmayaraq, o, ağlının gücünə sığınıb hələ də içində qaynamada davam eləyən, ancaq getdikcə öləziyib sönən narazılığı boğmuş və gülümsünə-gülümsünə demişdi:

— Salman, qurban olum, elə ki indiyəcən biz yaşamışıq, belə yaşamaq olmaz; bu, həyat deyil. Bu gün mən sanki qəflət yuxusundan ayılmışam. Bilirsən, məni Ceyhun qurban olduğum ayıldıb bu gün. O, günorta mənə elə sözlər söylədi ki, dəymişim qala-qala kalım töküldü. Yapışmışdı yaxamdan ki, hanı sizin ailə? Məgər bu ailədi?.. Biz elə bilmişik o hələ də uşaqdı. Yox, Salman, o daha yekə kişidi. Hər şeyi görür, başa düşür. Bizim belə yaşamağımız onun tərbiyəsini pozur, ailə haqqında təsəvvürünü korlayır... Sən allah, məni düzgün başa düş, həyat ancaq idarədən, işdən, əsər yazmaqdan ibarət deyil, Salman. Sənin ailən var, arvadın, oğlun var — biz səndən qayğı istəyirik» diqqət istəyirik. Sən isə... elə bil mehmanxanada yaşayırsan. Belə olmaz, Salman, qurban olum. Mənim də günahım çoxdu, lap çoxdu. Mən də yaxşı arvadlıq eləməmişəm, analıq eləməmişəm, bunu xüsusən bu gün

dərk eləmişəm. Hələ gec deyil, gəl əl-ələ verək, oğlumuzu bir yana çıxaraq, qoy ali təhsil alsın, evləndirək, ondan başqa bizim kimimiz var axı, Salman.

Salman cavab verməyə macal tapmamış maşın göy darvazaya dirənib dayanmışdı. Qapılar açılıb hər ikisi yerə düşəndə Nadirə Salmana yaxın gəlib qəribsəmiş adam kimi başını sinəsinə söykəmişdi, pıçıltı ilə:

— Salman, əzizim.. — demişdi. Gözlərinə inanmayan Salman məmnun-məmnun əlini onun çiyninə qoyub özünə sarı çəkmişdi və:

— Hə, deyəsən, ağıllanmısan, hə? — demişdi. — Bax, mən bunu istəmişəm həmişə səndən, Nadirə. Qadın ailənin allahıdır, o, qabil, mehriban, qayğıkeş olsa, ər də, uşaq da yaxşı olar, xoşbəxt olar. Yoxsa... sən deyirsən, sən də alim, mən da alim... Sən məni qınayırsan, mən səni... Sən özünü haqlı bilirsən, mən də. Yaxşı, yaxşı, bu nədir, sən niyə ağlayırsan? Yox, yox, bu olmadı. İndi bunlar da deyəcək — o, başı ilə hasarın içində işıqları yanan evə işarə eləmişdi — görəsən nə olub, Nadirə ağlayıb...

— Yox, ağlamıram. Bu gün mənə nə isə olub, heç baş açmıram niyə belə olmuşam... — O, redikülündən dəsmalını çıxarıb gözlərini silmiş və Salman onun qoluna girib darvazanın zəngini basmışdı.

...Aslan da, Kiçikxanım da qonaqların gəlişinə çox sevindi. Şəhərə nisbətən, bağ yerində, xususilə ilin aprel ayında gəlib-gedənin sayı az olduğundan, qapını açıb içəri girən hər qonaq bu kiçik ailənin böyük şadlığına səbəb olurdu. Aslanın öz iş yerindən gələn qonaqlar isə ikiqat əziz idi. Aslanı idarədə sevən çox idi, onun direktorluqdan çıxmasına təəssüflənənlər isə daha çox idi, xüsusən Nurəddin Osmanzadə vəzifə başına gələndən sonra adamlar Aslan Aslanzadəni layiqincə qiymətləndirmədiyinə heyfsilənirdilər. Aslan Salmanla, Nadirə xanımla uzun illər bir yerdə işləmiş, onları başa düşmüş, arada hörmət-izzət pərdəsi saxlamışdı. Ailəvi yaxınlıqları var idi. Kiçikxanım Nadirənin xatirini çox istəyirdi.

İndi Aslan Salmanı görəndə nə qədər sevinmişdisə, Kiçikxanım da Nadirəni görəndə eləcə fərəhlənmişdi. Cəld qalxıb çay-çörək hazırlamış, süfrə açıb deyə-gülə yeyib-içmişdilər.

Söhbətləri uzun çəkmişdi. Aslan, Salmana elə gəlirdi ki, işdən çıxandan sonra xeyli qocalmışdı. Bu, Salmanın ürəyini ağrıtdı. Zarafatla dedi:

— Ay Aslan, mən səni dağ kimi bir adam bilirdim. Elə sanırdım ki, səni heç nə sarsıda bilməz. Amma deyəsən səhv eləmişəm. Vəzifə nədir ki, sən onun üstündə bu qədər fikir çəkirsən.. Vəzifə, at kimi bir şeydir — bu gün sən minirsən, sabah mən, birisi gün başqası. Bax, görürsən, arvadımla əl-ələ verib məni şöbə müdirliyindən çıxartdınız. Ancaq gördünmü ki, heç halıma da təfavüt eləmədi.

Nadirə xanım söhbətə qarışdı. Gülə-gülə dedi:

— Ey, ey, sən qarışdırma haqq-hesabı — o, səni yıxıb yerinə arvadını qoydu. Amma burda...

Aslan çaydan bir qurtum içərək:

— Hə, hə, düz deyir, biz səni yıxdıq, yerinə arvadını qoyduq, ancaq məni yıxıb yerimə Nurəddin Osmanzadəni qoydular — dedikdə, Nadirə əlavə elədi:

— Hə də, Aslan müəllimin də yerinə Kiçikxanımı qoysaydılar, kişi belə fikir eləməzdi.

— Mənciyəz vəzifə-zad istəmirəm. Mənim bir dənə ən böyük vəzifəm olub əzəldən və indiyəcən heç kəs məni yıxıb yerimə keçə bilməyib.

— Nədir o elə, ay Kiçikxanım bacı? — Salman soruşdu.

— Arvadlıqdı o vəzifənin adı, Salman qardaş, — dedi Kiçikxanım. Salman bu sözü tutdu və bir az əvvəl Nadirənin darvaza ağzında dediyi sözləri xatırlayıb ona gülümsünə-gülümsünə göz vurdu və dedi:

— Bizim arvad o gözəl vəzifəyə bu gündən başlamaq istəyir. Amma qorxuram ki, yetmişində öyrənən gorunda çalar məsəlindəki kimi olsun.

— Başa düşmədim, Salman qardaş. Necə yəni o gözəl vəzi-

fəyə bu gündən başlamaq istəyir? Məgər indiyəcən arvad deyildi?

— Yox, ay Kiçikxanım bacı. Mən bunu alandan hər şeydən əvvəl gah aspirant olub, gah elmi işçi olub, gah namizəd olub, indi də doktordu — bir sözlə arvaddan başqa hər şey olub. Amma bu gündən söz verib ki, arvad da olacaq.

— Ey, ey, mənim bacıma sataşma ha!... — deyə Kiçikxanım qalxıb Salmanın boşalmış stəkanına çay süzdü və Nadirəyə sarı döndü: — Bu nə deyir, ağəz?

Nadirə heç kəsin hiss eləyə bilməyəcəyi bir ah çəkib:

— Düz deyir, Kiçikxanım bacı, düz deyir, haqlıdır, — söylədi.

Aslan qara təsbehi əlində asta-asta şaqqıldadır və söhbətə qulaq asırdı. Salmanın sözlərinə cavab verməmişdi. Ürəyi dolu idi. Düşünürdü ki, Salman doğrudanmı elə belə də fikirləşir və onun xəstələnməyini direktorluqdan çıxması ilə əlaqələndirir? Əgər belədirsə, onda dəhşətdi. Yəqin Salman kimi düşünənlər də var və bəlkə də çoxdur.

— Yox, Salman. Düz demirsən, əzizim. Mən vəzifəpərəst adam deyiləm — gərək bunu yaxşı bilmiş olaydın indiyəcən. Mən belə xırda şeylərin fikrini çəkən adam deyiləm. Əsla. Xəstələnməyimin də səbəbi bu deyil.

Salman tutulan kimi oldu.

— Mən zarafat elədim, professor. Mən...

— Başa düşürəm, Salman. Zahirən səndə də olmasa, məni yaxşı tanımayan adamlarda bu təəssürat ola bilər. Mən tamam ayrı şeyin fikrini çəkirəm.

— Nədir o elə, professor? — Nadirə xanım soruşdu. Aslan dərindən ah çəkib söylədi:

— Mən... bilirsinizmi, bunun dərdini çəkirəm ki, institutumuz... qədirbilməz adamın əlinə düşüb... Nurəddin, hayıf ki, dərin düşünməyən, adamların qabiliyyətini, ləyaqət və mənliyini qiymətləndirmək istedadından məhrum adamdır, Salman. Mən bunu təkcə sizə deyirəm, siz məni başa düşərsiniz. Başqalarının yanında dilimə də gətirmərəm. Çünki ayrı cür anlaya bilərlər məni. Mən o

institutun kadrlarının hərəsinin üstündə yarpaq kimi əsmişəm. Hamını öz dilində dindirmişəm, hər kəsə çəkə biləcəyi yükü vermişəm və bir kəsin də xətrinə dəyməmişəm. Məhz buna görə də hamı başını salıb aşağı, işləyib, yazıb yaradıb. İnstitutumuz akademiyanın institutları arasında ən çox məhsul verən bir institut olub. Sən təsəvvür elə ki, bax, bu bağı görürsən — əlimin zəhmətiylə, qayğımla əmələ gətirib gülüstana döndərmişəm. İndi bir maşını burax bura — əzib töksün, sındırsın, dağıtsın, desin burada heç nə yoxdur. Mənim ürəyim partlar onda. Nurəddin Osmanzadə mənim illər uzunu qayğıyla, həvəslə, sevə-sevə yaratdığım o gülüstanı deyəsən öz kobud əlləriylə dağıtmaq istəyir. İnkar edir, heç nəyi və heç kəsi bəyənmir. Ona elə gəlir ki, orada yeganə alim o özüdür, qalanlar hamısı dövlətdən havayı pul alan müftəxorlardır. Bu məni çox pərişan eləyir, Salman! Belə gedərsə... o institutda alim qalmayacaq. Hərə başını götürüb bir tərəfə qaçacaq. Bir də onda ayılacaq ki, görəcək bir özüdü, bir də özüdü. Belə getsə... mən də gedəcəyəm oradan, Salman!..

— Nə danışırsınız, professor? — deyə Nadirə təşviş içində soruşdu. — Siz o institutun yaraşığısınız, hamı sizi sevir, hörmət eləyir. Siz getsəniz...

Salman da arvadının sözünə qüvvət verdi:

— Yox, professor, kimdi sizi buraxan?...

— Bilirsiniz, biz qələm adamıyıq, fikir adamıyıq. Bizim könlümüzə toxunanda, bizim inamımızı öldürəndə.. biz ölürük, işləyə bilmirik. Bizim qədrimizi bilməyəndə, bizə qayğı göstərməyəndə, ilhamımız sönür, qələmimiz korşalır və hətta bəzən xaric də vurur. Nurəddin kimi adamlar öz kobud rəftarı, dar düşüncəsi, soyuq qəlbi ilə bizim fikir-məfkurə dünyamıza ağır zərbələr endirirsə, demək, onlar özgə dəyirmanına su tökür. Bunun qabağı vaxtında alınmasa, fəna nəticələr verə bilər...

— Doğrudur, professor — Nadirə professorun susduğunu görüb dilləndi. — Nurəddin bu vəzifəyə qətiyyən layiq adam deyil. Direktor hər şeydən əvvəl gözəl insan olmalıdı, rəhbərlik elədiyi kollektivin hər birinin üstündə sizin kimi əsməlidi. Amma

o.. gəldiyi heç bir il deyil, çox adamın ürəyinə toxunub, lap sındırıb. Bu adam elə bil pislik eləmək üçün yaranıb — pislik eləməkdən sanki ləzzət alır. Mən bizim Salmanın məsələsi ilə əlaqədar olaraq, neçə vaxtdı ona göz qoyuram. Kişini məhv eləməyə hazır idi.

— Doğrudan, o işin axırı nə oldu?..

— Elə onu deyirəm də... Bu gün komissiya öz rəyini söylədi. Təsdiq elədi ki, həqiqətən Salman Mirzə Yanarın əsərini oğurlayıb öz adına çap elətdirib. Komissiya bu hökmü, söyləyəndə mən Nurəddinin gözlərində təəssüf, hayıfsılanmaqdan çox, sevinc görürdüm — qələm yoldaşı yıxılıb, onun taleyi həll olunur — o isə vicdansızcasına sevinir. Bu, insanlıqdan uzaqdır, bu, vicdansızlıqdır, məncə.

— Demək, təsdiq olundu ki... — Aslan rəngi avazımış halda Salmana baxdı. — Təsdiq olundu ki.. — sanki sözünün mabədini söyləməyə ürəyi gəlmirdi, qorxurdu.

— Yox, professor. Salman elə çiy iş tutan adamdımı məgər? Sən demə...

Salman arvadının sözünü kəsdi:

— Qoy arxasını mən danışım, Nadirə, sən canın. Hə, onlar ki çıxış eləyib öz hökmlərini bildirdi, birdən elə bil yatmışdım, yuxudan ayıldım. Dedim hələ o qovluğu verin mənə, bir baxım ona... Alıb baxıram, görürəm adə, öz əlyazmam. Həmin kitabımın əlyazması... İnanırsan, sevindiyimdən az qaldım ağlayam. Amma özümü saxladım. Dedim Salman, sənə yaraşmaz... Otuz il bundan qabaq yazdığım saralmış vərəqlər... Mənim taleyimi uşaq-muşağa tapşır, özün də ləzzət al. Axı onlar hardan bilərlər, hə? Sabah mən yox, Nadirə, sən özün mənim o köhnə əlyazmalarımdan bir neçəsini apararsan, o qor-qoduğa göstərərsən. Qoy inansınlar ki, xətt mənim xəttimdir. İnanmasalar, aparıb versinlər ekspertə.»

— Yaxşı, apararam, Salman. Ancaq sən çıxdın, xəbərin olmadı, mən ona — Nurəddinə yaxşı sözlər dedim. Nə isə, professor düz deyir, Nurəddin təmiz adam deyil. Subyektivlik onun axırına çıxacaq. Xoşu gəlməyən, gözünə xoş görünməyən

düşmənidir. Yadınızdadırmı, Xəzəri siz götürmüsünüz instituta.

— Hə, hə, yadımdadı. Yaxşı savadlı oğlandı. Gələcəyinə böyük ümid bəsləyirəm onun. Gərək ki, iki dəfə də xaricdə mütərcim kimi işləyib. — Bəli, elə biz hamımız onun haqqında müsbət fikirdəyik. Əsərini yazıb, şöbədə müzakirə eləmişik. Rəhbəri də Moskvadan müsbət rəy yazıb göndərib. Keçən həftə elmi şuradan keçməli, müdafiə şurasına göndərilməli idi. Gündəlikdən çıxartdı Nurəddin. Çağırdı oğlanı və bizim yanımızda uşağa açıqca dedi ki, mən nə qədər burdayam, sənin əsərini buraxmayacağam. Gedə bilərsən. Zatən, tərbiyəli, başıaşağı bir oğlan olan Xəzər heç nə demədən elmi şuradan çıxdı.

— Siz də susdunuz, hə?.. — Təsəvvür edin ki, susduq, professor.

— Hə, bu, çox pisdir, Nadirə xanım, olduqca pisdir. Yaxşı, sizlə münasibəti o qədər də yaxşı deyil, sizi başa düşürəm. Bəs elmi şurada bir kişi yox idi ki, soruşsun, niyə, yoldaş Nurəddin Osmanzadə?

— Təsəvvür edin ki, heç kəs dillənmədi... Deyəsən, hamının gözünün odunu alıb. Heç kəs ağrımaz başına buz bağlamaq istəmir.

— Belə şey olmaz, yox, olmaz. Bəs kadrlardan hər iclasda ağızdolusu danışan adamın nə haqqı var belə eləsin?! Onda hamısı boş söz-söhbətdir, gözdən pərdə asmaqdır.

Salman dedi:

— Hələ Sakit Aranlının da xətrinə dəyib!...

— Yox əşi? O ha...

— Hə, siz onunçun yaxşı şərait yaratmışdınız. Nə vaxt istəyirdi, gəlirdi, nə vaxt istəyirdi gedirdi... O, alimdən çox yazıçıdır. Özü də oxunan yazıçıdır.

— Bəli, mənim tələbəm olub. Qabiliyyətli adamdır.

— Hə, ona deyib ki, səhər saat doqquzdan axşam beşəcən burda oturmalısan. Mən yazıçı-mazıçı tanımıram. Sən burdan ayda üç yüz manat pul alırsan, əvəzində də işləməlisən, vəssalam...

— Guya o işləmir? Mən bilən, o hər il öz planlarını artıq-

laması ilə və yüksək keyfiyyətlə yerinə yetirir.

— Bəli, yetirir. — Nadirə xanım bir şöbə müdiri kimi cavab verdi.

— Baho... Şairdi, yazıçıdı, gərək bunlara həmişə hörmət eləyəsən. Nədən ki, onlar bizim bugünkü ədəbiyyatımızın canlı, fəal yaradıcılarıdır. Məgər bizim sənətkarlarımızın hamısı Yazıçılar İttifaqında işləyir? Yox. Çoxu orda-burda, maaş xatirinə işləməyə məcburdur və o idarələrdə onlar üçün xüsusi şərait yaradırlar hörmət naminə. Nurəddin nahaq Sakitin xətrinə dəyir. O unudur yəqin ki, yazıçıya, şairə edilən pislik də yaddan çıxmır, yaxşılıq da. Siz ədəbiyyat tarixini yaxşı bilirsiniz, Sultan Mahmud Qəznəvi Firdövsiyə pislik elədi — böyük şairi aldadıb təhqir etdi. O, Mahmuda elə bir həcv yazıb ki, indi də oxuyub o nalayiq sultanı nifrətlə yad edirsən. Sultan Mahmud bu hərəkətiylə adını bədnam elədi tarixdə. Bu, onun nadanlığı idi.

— Nurəddin Sultan Mahmuddan bir az ağıllı hərəkət eləyir — o, yazıçıya pislik edirsə, şairə də yaxşılıq eləyir. — Salman İltifatın iclasda dediyi sözləri xatırlayıb odlandı və onun kölgəsini qamçılamaq istədi.

— Şair kimdir?

— O dombagöz oğlan yoxdur? Akademik Hüseyn Abışovun oğlu. Mən gəlib sizdən xahiş eləmədim ki, onu götürək? Atası ölüb, yazıqdı, cavandı, arada-bərədə itib batmasın?

— Hə, hə, xatırlayıram. İltifat Abışovu deyirsən...

— Bəli.

— Fu, Salman, sən yaxşı bilirsən, mən az-çox adam tanıyanam. Elə ilk gündən o gədə mənə pis təsir bağışladı — o, yaltaqdı məncə. Elə deyil, düz demirəm?

— Tamamilə düz deyirsiniz, professor. Təkcə yaltaq olsa yaxşıdı. Simasızdı, şəxsiyyət deyilən şey yoxdur onda. Nurəddin haqqında şer yazıb. İndi də poema yazır. Nurəddin də onun sözü ilə oturub durur, irəli çəkir. Bu yaxınlarda onun tapşırığı ilə İltifatı partiya bürosunda divar qəzetinə redaktor seçiblər.

— Əşi, bu elə bir şey deyil.

— Elə mən də elə düşünürəm. Amma bu yaltaq bundan da istifadə edir — rəsmi mətbuatda elədiyi yaltaqlıqdan ürəyi soyumur, divar qəzetində də ona mədhiyyələr yazır...

— Vay, vay, hayıf...

Nadirə xanım başqa bir yeniliyi də professorun nəzərinə çatdırmağı lazım bildi:

— İntiqamı da çıxartdı Nurəddin!

— Çıxartdı? — Professor divandan durub belini düzəltdi. — Elə şey olmaz, canım?

— Bəli... çağırıb deyib mən səninlə işləyə bilməyəcəyəm. O da ərizəsini verib.

— Bəs...

— Yerinə deyirsiniz? Yerinə dostu Sultan Sultanovu gətirdi.

— Dayan, dayan, O hansı Sultandı? Yoxsa o dördüncü mərtəbədəki Sultandı?

— Bəli, bəli. Özüdür ki var!....

— Hm.. — Aslan təsbehini çevirə-çevirə ortalıqda gəzindi. — Belə!.. Deməк İntiqamı çıxartdı..

— Hə, birinci gün iclasda elədiyi çıxış xoşuna gəlməmişdi...

— İntiqam işləyən adamdı. Amma bu Sultanı yaxşı tanımıram. Bir onu bilirəm ki, o, bizim sahənin adamı deyil.

Nə bizim kadrlarımıza, nə də əsərlərimizə qiymət verə biləcək o!

...Gecə saat on birə qədər söz-söhbət uzandı. Qalxıb getmək istəyəndə ər-arvad bərk-bərk yapışdı ki, qalsınlar. Yer var, yorğan-döşək var. Ancaq Nadirə razılıq vermədi. Salmanlıq olsaydı, qalardı.

— Yox, gedək, Kiçikxanım bacı. Ceyhun evdə təkdi...

— Gərək gələndə uşağı da gətirəydiniz, sabah da istirahət günüdü, qalardız.

— Sağ ol, bacı. Gələn dəfə hamımız gələrik. Gecə də qalarıq. Ancaq indi gedək. Nə isə uşaqdan nigaranam...

Sağollaşdılar. Salman maşını işə saldı, işıqları yandırdı. Aslan da, Kiçikxanım da darvazanın qabağında yanaşı dayanmışdı.

Kiçikxanım ərinin qolundan tutmuşdu. Gur işıq gözlərini qamaşırırdı...

Nadirə Salmanın yanında oturdu bu dəfə. Yola düşdülər... İki qoca uzaqlaşan maşının zəifləyən işığında əl eləyirdi. Maşın asfalt yola çıxan kimi Salman kefi kök halda sağ əlini arvadının buxağında, sinəsində gəzdirib:

— Gəlsənəm heç bu gün getməyək evə. Düz sürək bağımıza. Gecəni yataq qalaq. Könlümə yaman çaxır düşüb, arvad. Özü də gör nə vaxtdı səninlə ikilikdə bağa gəlmirik, gecələmirik, cavanlıq vaxtlarımızı yada salmırıq. Hə, Nadirə, necə fikirləşirsən?!

— Yox, Salman, sən allah, gedək evimizə. Evdə çaxırın yoxdu məgər? Evdə içərsən, nə isə narahatam!

— Ceyhundan sarı?

— Hə,

— Eh, Ceyhuna nə olacaq. Guya birinci dəfədi tək qaldığı?.. Qapını bağlayıb yatacaq da... Maşallah, yekə kişidi. Yox ey, gedək. Bu gün kefim kökdü, arvad. Düşmənlərimin əlini quru yerdə qoymuşam, İstəyirəm bu gün möhkəmcə içəm. Həm də... Sən yaman başıma düşübsən, arvad. Darıxmışam sənin üçün.

Nadirə xanım qımışıb yumşaldı. Salman yolun ortasında maşını hərləyib ağzını bağa — Bilgəhə sarı döndərdi... Heç nə demədi... Əslində, bu, onun da ürəyincə idi. Haçandı bir-birinə yad adamlar kimi yaşamışdılar. Salman elə öz kabinetində yatmışdı, Nadirə xanımın yataq otağına gəlməmişdi. Həftələr, aylar keçdikcə bir-birindən soyumuş, uzaqlaşmışdılar. Bax, bunu görürmüş Ceyhun. Bax, buna görə deyirmiş ki, «hanı sizin ailəniz? Belə də ailə olar? Hərəniz özü üçün yaşayır!» — həm də Nadirə özü də üç-dörd saat əvvəl, Buzovnaya gələrkən Salmana məgər bunları demirdimi? «Salman, qurban olum...»

Gecə idi, xoş, gözəl aprel gecəsiydi və Bilgəhə gedən şüşə kimi asfalt yolda bir dənə də maşın yox idi. «Volqa» uçurdu...

...Gecə, saat üçə işləmiş, Nadirə xanım böyründə xorna çəkib şirin-şirin yatmış Salmanın yanında qalxıb oturdu. Elə bil,

kimsə əlini sinəsinin içinə salıb, ürəyini sıxcalayırdı. Nəfəsi çatışmırdı. Nədənsə gündüz, işin axırından indiyə qədər qəlbinə axıb dolmuş o qəribə və anlaşılmaz nigarançılıq, sıxıntı, bax, bu an fikrində konkretləşib dəqiqləşdi — elə bil, gözüynən gördü — Ceyhun ölüb! Bu nə hiss idisə həqiqət idi, yaxud həqiqətəbənzər bir şey idi. Ceyhun ölüb! Hələ bir az əvvəl bəs deyincə bağ çaxırından içib sərxoş olmuş Salmanın qolları arasında çırpınarkən da o, bütün varlığı, qəlbi ilə burda — Salmanın yanında deyildi, evdə, Ceyhunun yanındaydı. Ayrı vaxt olsaydı ayıq olsaydı, bu qədər ayrılıqdan sonra arvadının belə buz kimi soyuq olması bəlkə də Salmanı əsəbiləşdirərdi, «o məni daha sevmir! Bütün bunlar əbəs şeylərdi» — deyə düşünərdi. Ancaq Salman indi belə nöqtələr barəsində fikirləşəsi halda deyildi.

Nadirə xanım qeyri-adi bir cəldliklə ayağa qalxdı, çarpayıdan düşüb işığı yandıraraq gecə köynəyini soyundu, paltarını tələsik geyinib Salmanı silkələdi. — Salman, Salman...

Salman ağır yatmışdı, eşitmədi. Nadirə bir də çiynindən yapışıb tərpədəndə o, çevrildi, nə isə anlaşılmaz bir söz dedi və yenidən xoruldamağa başladı. Onun oyanmayacağını, oyansa da sərxoş halda heç yana tərpənə bilməyəcəyini anlayanda, Nadirə bəxtinə nifrətlər yağdırıb hirsindən ağladı. Otağın içində ora-bura vurnuxub iri yazı masasına sarı cumdu, qələmi götürüb yarımçıq səhifənin aşağısına iri hərflərlə: «Mən getdim evə. Səhər özün gələrsən. Ceyhuna nə isə olub!» — sözlərini yazdı. Salmanın stolunun dirsəyinə keçirilmiş pencəyinin cibindən açarı götürərək işığı da söndürməyi unudub başılovlu pilləkənləri demək olar ki, qaça-qaça düşdü, maşına sarı cumdu. Arxasıycan həyət darvazasını da bağlamadı. Maşın hasarlar arası ilə uzanan qum yoldan çıxıb asfalta çıxdıqdan sonra quşa döndü.

Necə gəldiyi, hansı yolla gəldiyi yadında deyildi. Həyətdə maşından düşüb qaçaraq pillələri çıxdı: tövşüyürdü, «ay allah, sağ-salamat olaydı balam!» —deyə-deyə açarla qapını açıb içəri girdi. Tez işığı yandırdı və... parket döşəmənin üstə donub qurumuş qan örtüyünün içində üzüqoylu, hərəkətsiz uzanmış Ceyhunu

görəndə... elə qışqırdı ki, az qala pəncərə şüşələri cingildədi:

— Ceyhun, Ceyhun...

Elə bil hardasa çox uzaqlarda olan oğlunu səslənirdi. Halbuki o burda idi, gözünün qabağında idi, qan içində «yatmışdı» və anasının ağlar səsini eşitmirdi... Divarlar sanki fırlandı və o, tappıltı ilə... yerə dəydi.

# İKİNCİ HİSSƏ

## BİRİNCİ FƏSİL

Sakit hər gün, tənəffüs vaxtı, beşinci mərtəbədəki şöbəsindən hiss olunmadan çıxar, akademiyanın yaşıllıq içində göz oxşayan həyətində, akasiya ağaclarının altında tək-tənha gəzinər, ya da böyük hovuzun sağında, solunda — harda boş yer olsaydı — oturar, dincələr, düşünərdi. Otaqdakı söz söhbətlər, telefon danışıqları, gəl-get ona mane olmazdı — səhərdən, işə gələndən stolunun arxasına keçib oxuyar, yazar, bir dəqiqəsini boş keçirməzdi. Fasilə vaxtınacan əməllicə yorulardı, tələsik bufetə düşər, yüngülcə nahar edib gəzintiyə çıxardı. Bu, uzun illərin adətiydi. Sakit təkcə ətrafındakıları yox, bir psixoloq kimi, özünü də kənar adam gözü ilə müşahidə, təhlil etməyi xoşlardı. Çoxdan, yazı-pozuya meyl elədiyi tələbəlik illərindən bu şəhərdə Sakit adında, bir pasport altında iki adam yaşadığını duymuşdu, anlamışdı. Biri hamının — tələbə yoldaşlarının da, müəllimlərinin də, sonra akademiya həmkarlarının və daha sonra isə ailəsinin də tanıdığı, sadə geyinən, az dinib, az danışan, daha çox dinləməyə həvəs göstərən, aza qane, gözü-könlü tox, işləməkdən, mütaliədən əvəzsiz zövq alan Sakit idi. Bu, Sakitin zahiri idi, gözə görünən tərəfi idi və bunu hamı görürdü. Ancaq elə o Sakitin içərisində, o adda, o ünvanda yaşayan ikinci bir Sakit də vardı — bu Sakiti tək özü tanıyırdı, yaxşı cəhətini də, pis cəhətini də yaxşı bilirdi. Bu Sakit — düşünən Sakit idi, hər şeyin dərdini — özünə dəxli olmasa da, — çəkən Sakit idi və bu mənada onun boş, qayğısız, fikirsiz keçən bir dəqiqəsi də olmamışdı. Bu, haradasa onu bezdirirdi, usandırırdı, öz sənətinə hərdən nifrət eləyirdi — çünki əzablı sənət idi — kitab yazırdı, beynini, qəlbini düşündürən fikirləri kağız üzərinə töküb canlandırırdı, o kitabı oxuyanlar,

bəyənənlər tərifli sözlər də deyirdilər. Lakin onlar yalnız bu kitabı görürdülər, onun dünyaya gəlməsi üçün çəkilən əzabları, içini — ürəyini yediyi anları görmürdülər, görə bilmirdilər. Əslində o, zahirən bu aləmdə yaşayırdı; işə gəlir, evə gedir, arvadı-uşağı ilə danışırdı, amma həqiqətdə isə o, yazdığı dünyada olurdu fikrən, adamlarla oturub-durur, dərdini-qayğısını çəkir, onlar xoşbəxt olanda o da xoşbəxt olur, öləndə o da ölürdü. Son əsərini on yeddi ilə yazmışdı. Akademiyaya gələndən azı — üç il sonra kənd həyatından qələmə almağa başladığı həmin əsər nədənsə yaman uzanmışdı, bütün bu illər ərzində o, fikrən qəhrəmanlarının yanında olmuşdu, onlarla yaşamışdı. Kitabın son fəsillərini uzun müddət yaza bilməmişdi, daha doğrusu, yazmaqdan qorxmuşdu — çünki sonuna nöqtə qoyandan sonra onlardan — düz on yeddi il qəlbində, xəyalında, yuxularında gəzdirdiyi o sadə, mehriban adamlardan ayrılacağından, uzaq düşəcəyindən qorxmuşdu. Aylar, illər keçmiş, sonra o, içində işlədiyi bu maraqlı aləmə qayıtmışdı və ətrafına baxdıqca yazmalı, deməli çox şey olduğunu anlamışdı: uzağa getmək lazım deyildi. Bax, elə günün səkkiz saatını bir yerdə işlədiyi bu adamların hərəsinin həyatı bir roman idi. Burda çox düşünmək, əhvalat axtarmaq, yaxud quraşdırmaq lazım deyildi. Bu adamlar onun gözünün qabağındaydı — xasiyyətləri, simaları, taleləri ilə. Və zahirdə hər kəsə, hər şeyə sakit, biganə baxışlarla nəzər salıb susan Sakitdən fərqli olaraq əsl Sakit, birinci Sakitin içərisində yaşayan ikinci Sakit bu kollektivin maraqlı, ziddiyyətli romanını gecə-gündüz beynində dolandırırdı. Bu Sakit Salman Qurbanzadənin, Nadirə xanımın elm aləmindəki mövqeyi, ailə həyatı, bu yaxınlarda evə soxulmuş oğrular tərəfindən vəhşicəsinə öldürülmüş cavan Ceyhun haqqında, ərini və sevgilisini dalbadal itirmiş Gülmirə barədə, hamının «Dombagöz» adlandırdığı gənc şair İltifat, Sarışın, təzə direktor olandan sonra buynuzları çıxan Nurəddin Osmanzadə, onun toruna düşüb təmiz adını ləkələyən qəşəng Şərifə xanım, qəlbi kobudcasına sındırılmış əziz müəllimi Aslan Aslanzadə və başqaları haqqında gecə-gündüz düşünür, yazacağı kitabı söz-söz, fəsil-fəsil beynində, qəlbində

tikib qururdu. Gözünün qabağında gündə səkkiz saat gəzib işləyən, hər birinin öz xasiyyəti, dünyası olan bu adamlar artıq onun ürəyinə köçmüşdü — bunlara o, öz qəhrəmanları kimi baxırdı — yaxşı, mərdanə hərəkətlərini görəndə bir qayğıkeş ata kimi sevinirdi, pislik, nadanlıq, qəbahət, dosta xəyanət, ailəyə dönüklük görəndə, hiss eləyəndə pərt olur, dərd çəkirdi. İş vaxtı qurtarıb hərə öz evinə-eşiyinə çəkilib gedəndən, Sakit də axşam yazı masasının arxasına keçəndən sonra, yenə onlar barədə fikirləşirdi. İkiqat yaxın, ikiqat doğma olmuşdular ona bu adamlar; acığı gələnləri də vardı — ancaq onlar haqqında da qəlb ağrısı ilə düşünürdü Sakit. Bu idi ikinci Sakitin gözəgörünməz dərdi, qayğısı. Sanki kimsə, rəsmi surətdə yox, elə belə, möhürsüz, əmrsiz Sakiti bu kiçik kollektivin ağsaqqalı, böyüyü təyin eləmişdi. Makinaçılardan tutmuş lap direktorun özünə qədər hamı üçün cavabdeh hiss eləyirdi özünü. Fikrən, xəyalən onların hər birisinin həyatı, xasiyyəti, rəftarı, əxlaqı barədə, jurnalist və tədqiqatçı dostlarının dediyi kimi, o qədər «material» todlamışdı ki, əgər şirin yuxudan qaldırıb kiminsə haqqında məlumat və ya xasiyyətnamə istəsəydilər, Sakit tərəddüd etmədən, çətinlik çəkmədən, gözüyumulu deyərdi, yazıb verərdi — hətta onun «pərdə arxasındakı» həyatını da işıqlandırardı. Hətta adamın bir sirr kimi qəlbinin dərinliklərində gizləməyə çalışdığı, məhrəm fikirlərini də kağıza köçürərdi. Və buna o özü də heyrət etməyə bilmirdi. Çünki Sakitə filankəsin filankəsə fırlatdığı bir baxışı tutmaq kifayət idi ki, sevdiyini və yaxud nifrət elədiyini aydınlaşdırsın. Birinin köynəyinin yaxasını çirkli, düyməsini qırıq, dəsmalını əzik görmək bəs idi ki, onun arvadının səliqəsiz olmasını, əri ilə maraqlanmamasını qəti şəkildə söyləyə bilsin. Başqa birisinin müdirə rast gələn kimi, üz-gözünü iyrənc şəklə salan yaltaq təbəssümünü bircə dəfə görmək bəsi idi ki, o adamın şəxsiyyətinin heç-puç olması fikri beynində həmişəlik yurd salsın.

Yaxud Nurəddin Osmanzadənin bütün respublikanın az qala hər yerində, hətta onun hüdudlarından uzaqlarda belə yetişdirdiyi kadrlarının xoş səsi-sorağı gələn, təbiətən mələk kimi bir insan

olan, xeyirxahlıq mücəssəməsi sayılan akademik Aslan Aslanzadənin gül qəlbinə toxunması kifayət idi ki, onun ziyalı olmadığını, ziyalı paltarı geysə də, ad-san qazansa da, mənən şikəst, daxilən nadan olmasını deməyə və yazmağa cəsarəti olsun. Yəqin elə o ağsaqqallıq hissinin təsiriləydi ki, hər kəsdən, xüsusən Nurəddindən namünasib, ağla, məntiqə sığışmayan bir söz eşidəndə, bir hərəkət görəndə o adamlardan çox Sakit özü xəcalət çəkirdi və «ilahi, görəsən bu niyə belə eləyir» — deyə-deyə tutulub qaralırdı. Bir sözlə, hər kəs öz həyatını yaşayırdı, öz dərdini çəkirdi, Sakit isə hamının. Buna onu heç kəs məcbur eləmirdi, bu, onun deyəsən öz təbiəti idi, vicdanı idi, və çox güman ki, uzun illərin vərdişindən — yazıçılıq sənətinin məsuliyyətindən irəli gəlirdi. Hərdən bezirdi, usanırdı, ancaq az sonra yenə həmin qayğıların bütün zehnini, vücudunu sardığını görüb xəfifcə gülümsünür, öz taleyilə barışırdı. Və hər dəfə təzə kitabı çıxanda bütün bu daxili çarpışmaların, bu gözəgörünməz «ağsaqqallığın» xeyrini görüb uşaq kimi sevinirdi. Çünki bunsuz — öz içində danışmadan, yazdığın adamları, dünyanı qanına, canına hopdurmadan kitab yazmaq mümkün deyil. Bəlkə də yazmaq mümkün olsun, ancaq yaşatmaq qətiyyən mümkün deyil. Bu hikmət, bu həqiqət Sakitə çoxdan aydın idi və bunu başa düşüb əməl elədiyinə görə özünü çox tez-tez xoşbəxt sayırdı.

Dünəndən Sakitin onsuz da başından aşıb-daşan qayğılarının üstünə bir qayğı da gəlmişdi. Cümə axşamı, Akademiyanın həyətində tənəffüs vaxtı tək-tənha gəzinərkən biqəfil uniersitet illərində bir yerdə oxuduğu, yaxın dost olduğu Əsədə rast gəlmiş, qucaqlaşıb, öpüşmüş, bir-birindən hal-əhval tutmuşdular. On beş ildən çox, idi görüşməmişdilər. Əsəd adi məktəbi qurtaran kimi təyinatını öz xahişi ilə ucqar bir dağ kəndinə almış, o gedən getmiş, bir çox tələbə dostlarının görüş zamanı giley-güzarla dediyi kimi, elə orada da «itib-batmışdı». Tələbəlik illərində bir çox hərəkətləri dumanlı, anlaşılmaz və müəmmalı olduğu kimi, onun bu gedişi də müəmmalı olmuşdu. Sakit onun qarnının altını öyrənə bilməmişdi. Əsəd o zaman cavan, qarayanız bir oğlan idi.

Arandan gələn Sakitə nisbətən yaxşı geyinib-kecinirdi. Evləri şəhərdə idi. Tələbələrin zarafatla «ata evi» adlandırdığı, Kolodeznaya 21-dəki yataqxananın yaxınlığındakı küçədə kiçik bir həyətdə yaşayırdı Əsəd. Sakit neçə dəfə o həyətə getmişdi. Əsədin atası ilə tanış olmuşdu, deyəsən, anası o zaman sağ deyildi. Əsəd çıxıb gedəndən soira şəhərdə qalmış Sakit iki-üç dəfə bu evə gəlmiş, amma qapı-bacanı bağlı görüb qayıtmışdı. Və sonra əlaqələr tamam kəsilmişdi.

İndi Əsədin saçları çallaşmışdı, şax və gümrah yerisə də, demək olar ki, artıq cavanlıq dünyasından uzaqlaşmaq üzrə idi. Onlar oturacaqda əyləşmişdilər. Hər ikisi bir-birini görməyinə çox şad idi. Sən demə, Əsəd Sakitin bütün kitablarını oxuyubmuş, onu tanımağı ilə fəxr edirmiş o ucqar dağ kəndində. Sakit də onu tez-tez xatırlayırmış. Əsəd tələbəlik illərindəki qaradinməzliyindən əl çəkmişdi. Sakitin o vaxt niyə belə elədiyi — yəni hamının şəhərdə qalmağa can atdığı bir zamanda onun nə səbəbə kəndə getməsi barədə tutduğu sorğu-suala Əsəd indi məmnuniyyətlə cavab verirdi. Üstündən çoxmu keçmişdi, dərd ona gücmü gəlmişdi, ya nə idisə, Əsəd indi, beş il bir yerdə oxuduqları zaman gizlədiyi dərdini Sakitə danışırdı. Sən demə, Əsədin ürəyi dolu imiş, dərdi varmış.

Əsəd Sakitə aramla öz ürəyinin gizli sirlərini danışırdı.

...Məktəb zənginin havada titrəyən cingiltili səsi yenicə əriyib susmuşdu ki, səliqə ilə qara kostyum geyib ağ köynəyi üstündən qara qalstuk taxmış, gur, çal saçlarını geri daramış, şax qamətli Əsəd müəllim, artıq on beşinci gün burada dərs dediyinə baxmayaraq, birinci dəfə olduğu kimi, qarşısını özünün də heç cürə ala bilmədiyi bir həyəcanla, ürəyi çırpına-çırpına yaşıl qapısına «10[a] sinfi» yazılmış otağa daxil oldu. Dörd cərkə ilə düzülmüş qabağı qatlama partalarda əyləşən uşaqlar bir nəfər təki ayağa qalxdılar. Əsəd müəllim əli ilə «əyləşin» işarəsi verərək yenə özündən asılı olmayan qeyri-adi bir sövq-təbii ilə qara, kiçik gözlərini qıyıb lap arxa cərgəyə nəzər saldı, xurmayı saçlarını qoşa hörüb ağ önlüyünün üstündən sinəsinə atmış, iri, ala gözlərini

ani olaraq qaldırıb qəribə qorxu-hürkü içində bircə anlığa ona baxan və sonra tezcənə də baxışlarını aşağı endirən gözəl Sahiləni pəncərə ağzında yerindəcə oturan görüb nədənsə uşaq kimi sevindi, qarayanız sifətini işıqlı bir təbəssüm gəzib dolaşdı, sinif də, başqa uşaqlar da, dərs də yadından çıxdı və bu təbəssüm elə nurlu oldu ki, onu təkcə Sahilə yox, bütün sinifdəkilər sezdilər. Dal cərkədən, sol tərəfdən kim isə pıqqıldayanda Əsəd müəllim yuxudan ayılmış kimi, harada olduğunu xatırlamağa çalışaraq o yan-bu yana baxındı, pıqqıldayan uşağı nəzəri ilə axtardı, ancaq hamının başı aşağı idi, görkəmi ciddi idi, ona görə heç kəsdən şübhələnə bilmədi. Günahkarcasına stulunda oturub jurnalı vərəqləməyə başladı. Hiss edirdi ki, bu an onun üçün çox ağırdı; o, nə isə deməli idi, ancaq heç nə ağlına gəlmədi. Uşaqlara söz tapıb deyə bilmədi; nə də deyəcəkdi? Ancaq ürəyində özünə möhkəm təpindi: «Yox, belə olmaz, Əsəd müəllim. Özünü ələ al. Bu, ancaq adicə bir təsadüf ola bilər. Belə getsə, sən bütün məktəbdə özünü hörmətdən sala bilərsən. Sənin dərsində pıqqıldayırlar, gülürlər — sən heç nə deyə bilmirsən. Bu zəifliyi qoy kənara, kişi ol, soyuqqanlı ol, sən müəllimsən, sən müəllimsən, qırx uşağın gözü səndədi».

Elə bu zaman sinfin qapısı cırıltı ilə açıldı və boynu qırmızı qalstuklu, sarışın bir oğlan başını içəri uzadaraq:

— Əsəd müəllim, sizi direktor təcili yanına çağırır,— dedi və üstəlik sinifdəki uşaqlara baxıb göz vurdu, dalıycan da dilini çıxardıb əlavə elədi: — Dedi tez gəlsin.

Əsəd müəllim bu göydəndüşmə fürsətə sevinsə də, üzünü oğlana tərəf çevirib:

— Axı mən dərsdəyəm, — dedi. Lakin gec idi, oğlan çıxıb getmişdi. Son cərgələrdə yenə pıçhapıç başlandı, fikri çaşqın və dağınıq olan Əsəd müəllim arı vızıltısına bənzər bu səslərdən heç nə eşidə bilmədi. Baxışlarını qaldırıb bütün sinfin üstündə dolandıraraq yenə Sahiləyə baxdı və sanki heç kəsə yox, təkcə ona deyirmiş kimi, boğuq səslə:

— Gəlirəm indi, — söylədi və istədi əlavə eləsin ki, sakit

oturun, amma düşündü ki, onun hüzurunda aram oturmayan uşaqlar o gedəndən sonra çətin sakit, səs-küysüz dayanarlar. Qalxıb tələsik addımlarla sinifdən çıxdı. O, ayağını qapıdan təzəcə çölə qoymuşdu ki, otaqda çığır-bağır, uğultu qopdu, hətta kimsə xoruzsayağı banladı da: «Quqqulu-quuu.» Müəllim narazılıqla başını buladı və sakit, adamsız dəhliz boyu «görəsən neynir məni direktor, — deyə düşündü. — Özü də təcili. Heç xeyir xəbərə oxşamır…» Gedirdi, beynində, qulaqlarında indicə eşitdiyi pıqhapıqı, uğultunu, hətta xoruz səsini də aparırdı... Acı-acı fikirləşirdi ki, bu, heç də yaxşı əlamət deyil, cəmi on beş gündü bu məktəbə gəlib — hörmət, ehtiram qazanmaq əvəzinə... yox, belə olmaz, belə olmaz. Universiteti bitirdikdən sonra işlədiyi kənd məktəbində o, ən yaxşı, sayılan, hörmət-izzət sahibi olan bir müəllim kimi tanınmışdı, sevilmişdi, təkcə müəllim yoldaşları yox, bütün məktəb uşaqları, camaat onu sayıb ehtiram eləmişdilər, xüsusilə sonuncu sinif şagirdləri son ayrılıq gecəsində kövrək-kövrək sözlər deyib onu ömürləri boyu bir yaxşı müəllim, insan və dost kimi unutmayacaqlarını söyləmişdilər... Amma indi... indi öz doğma, vaxtilə on il sərasər oxuduğu məktəbdə... Heç on beş gün tamam olmamış..— Əsədin nəzərləri «direktor» sözü yazılmış lövhəyə sataşıb meşin qapı ağzında dayananda fikirləri qırıldı və nədənsə ürəyi sancdı...

Əsəd müəllim içəri girəndə, Aliyə xanım pəncərənin önündə dayanıb həyətdə, yay idman meydanında futbol oynayan uşaqlara baxırdı. Çətin vəziyyətə düşmüş adamlar kimi qollarını qoynuna qoymuşdu. İçəriyə kiminsə girdiyini hiss eləsə də, heç dönüb baxmadı da. Gələn adamın Əsəd olduğunu əvvəlcədən bilirmiş təki, qanrılmadan:

— Əyləşin! — deyə çox rəsmi bir tərzdə söylədisə də, pəncərə qabağından yenə qopmadı. Burada işlədiyi az müddətdə Əsəd müəllim iki-üç dəfə hiss eləmişdi ki, Aliyə xanım əsəbləşəndə, qəzəblənəndə, kimisə tənbeh eləməyə hazırlaşanda yönünü pəncərəyə çevirir, deyəcəyi sözləri ölçüb-biçir, sonra dişi ilə alt dodağını sıxmış halda geri, müsahibinə sarı dönür, mühaki-

məsinə başlayırdı. Lakin Aliyə xanımın bu dəfəki «üz çevirməyi» çox çəkdi, ona görə Əsəd müəllim nigarançılığa daha tab gətirə bilməyib cəsarətsiz halda:

— Məni siz çağırtdırmısınız, Aliyə xanım? — deyə xəbər alanda o, durduğu yerindəcə fırlandı, elə əlləri qoynunda, az qala böyüyüb eynəyinin şüşələri boyda olmuş qonur gözlərində təəssüfqarışıq qəzəb ifadəsi Əsəd müəllimə diqqətlə, əzici bir nəzərlə baxdı. Nə isə dəhşətli fırtınadan xəbər verən bu baxışlar altında Əsəd sıxılıb balacalaşdı və iri, qırçın-qırçın qırışan alnında bir istilik duydu. Nəhayət, Aliyə xanım içində qaynayıb-daşan, gözlərinə, ağ sifətinin qəşəng cizgilərinə açıq-aşkar yazılmış qəzəbi səsinə qatıb kinayə ilə:

— Bəli, mən çağırtdırmışam! — dedi.

— Eşidirəm... sizi.... — Əsəd udqundu, uzun boğazında qoz boyda hülqumu qara dərisinin altında astaca qalxıb endi. Tapança kimi qəfil açılmağa hazır olan Aliyə xanım – sanki birdən-birə nə deyəcəyini unutdu, çaşqın-çaşqın Əsədin üzünə baxıb xeyli susduqdan sonra çox namünasib bir yerdən başladı:

— Siz... Neçə gündür bu məktəbdə dərs deyirsiniz, Əsəd müəllim ?....

Əsəd müəllimin bayaqdan ürəyini gəmirən nigarançılıq dağıldı... «Deməк Sahilə məsələsi deyil.» — düşündü və buna qəlbində çox sevindi. «Bəs onda görəsən nə məsələdi?» - deyərək beynini qurdalayan Əsəd çaşqınlıq içində, gözlərini döyə-döyə:

— Mən... mən sentyabrın birindən işləyirəm. Aliyə xanım, — söylədi.

Aliyə xanım əsəbi bir hərəkətlə gəlib yerində oturaraq:

— Bu gün ayın on beşidir... demək, on beş gündür, — dedi.

— Bəli, — Əsəd müəllim direktorun mətləbin üstünə tez gəlməsinə çalışaraq: — Ancaq mən başa düşmürəm bu sorğu sual nə üçündür? — dedikdə Aliyə xanım daha özünü saxlaya bilmədi:

— Başa düşmürsən? — deyə özü də bilmədən ona «sən» deyə müraciət elədi — Lap yaxşı başa düşürsən! Sən bu on beş gündə özünü də, bizim hörmətli müəllim kollektivini də biabır

eləmisən, on il oxuduğun, sənin üçün müqəddəs olan bu məktəbi də hörmətdan salmısan, yoldaş Əsəd Əsədzadə.

— Mən? — deyə Əsədin xırda gözləri geniş açıldı. Və əvvəlki gümanında yanılmadığını anlayıb bir az da balacalaşdı, buna baxmayaraq yenə təkrarən soruşudu: — Mən?

— Bəli, sən, Əsəd Əsədzadə yoldaş. Adamın heç dili də gəlmir sənə yoldaş desin, müəllim desin.

— Axı mən neyləmişəm, Aliyə xanım? Xahiş edirəm sözlərinizə sərhəd qoyun!..

— Sözlərimə sərhəd qoyum?.. — Aliyə xanım eynəyini çıxarıb təzədən burnunun üstünə keçirtdi, bu, görünür əsəbilikdəndi — yaxşı olardı ki, əvvəlcə sən, sən özün hərəkətlərinə sərhəd qoyaydın və bu sözləri eşitməyəydin!

— Axı... — Əsəd yerindən qalxıb irəli yeridi — Açıq danışın, xahiş edirəm...

— Nə «açıq-açıq» salmısan? Guya özün bilmirsən. Yaxşı bilirsən söhbət nədən gedir. Ocaq yanmasa, tüstü çıxmaz.

İndi daha Əsədin heç şübhəsi qalmamışdı ki, söhbət nəyin üstündədir. Qeyri-ixtiyari gözlərinin qabağına Sahilə gəldi, onun ala gözləri, xurmayı hörükləri gəldi və... sarsıldı. Mütiləşdi. Bütün vücudunu acı, yandırıcı bir təəssüf hissi gəzib dolaşdı. O, taqətsizcəsinə divana əyləşib zəif səslə:

— Mən heç bir ocaq yandırmamışam, Aliyə xanım, — deyə bildi.

Aliyə xanım:

— Təəssüf, min təəssüf, sən elə bir ocaq qalamısan ki, tüstüsü tək özünü yox, bizi də, bütün məktəbi də boğur, bildin? Bu tüstü çox uzaqlara gedəcək, çox gözləri acışdırıb yaşardacaq. Mən on üç ildi bu məktəbdə direktoram, məktəbimiz rayonumuzun məktəbləri arasında həmişə nümunəvi olub, adımız birincilər sırasında çəkilib. Amma sən... sən on beş günün içində öz nalayiq, müəllimə yaraşmayan hərəkətinlə hər şeyi məhv elədin, hər şeyin üstündən bir qara xətt çəkib çirkaba bulaşdırdın. Sən uşaq deyildin, sənin saçın-saqqalın ağarıb. Dünən ali məktəb skamyası

dalından durub gəlsəydin, deyərdim, cavandı, təcrübəsizdi. Amma sən...On beş ilin müəllimi... Bu yaşda sənin nəyinə yaraşardı ki, qızın yanında olan bir uşağa eşq yetirəsən, vurulasan. Sənin nəyinə yaraşardı? Sən vaxtında evlənsəydin, Sahilədən də böyük uşağın olardı, Əsəd. Sən bunu heç fikirləşmisən?

Əsəd müəllimin dili tutulmuşdu, ürəyi gicgahlarında çırpınırdı. Aliyə xanımın bu sözləri müqabilində nə deyəcəyini, necə deyəcəyini heç cür kəsdirə bilmirdi. Gözlərini lap-lap döyürdü.

— Nə gözlərini döyürsən? Səndən söz soruşuram, cavab ver!

Əsəd cib yaylığını çıxarıb alnında muncuqlanan təri sildi, udqundu. «Baho, gör necə rəng veriblər. Bu, mənim heç ağlıma da gəlməzdi» — düşünən Əsəd müəllim heyrətlə:

— Mən... Mən Sahiləyə vurulmuşam?... Yalandır, Aliyə xanım, ağ yalandır! Belə şey yoxdur, ola da bilməz! Bunu sizə kim deyib?.— deyə yerində dikəldi. Kiçik gözləri böyümüşdü. Əsədin.

— Kim deyib? Sən soruş ki, kim deməyib! — deyə Aliyə xanım səsini ucaltdı. — İndi bütün məktəb bundan — sənin Sahiləyə olan «böyük məhəbbətindən» danışır. Uşaqlar da, müəllimlər də, hətta bunu bir çox valideynlər də bilir. Mən başa düşmürəm, necə olur ki, sən bunu hiss eləmirsən. Hiss eləmirsən ki, sənin dərs dediyin o sinifdə buna-görə səni sevmirlər. Dünən, bu gün neçə adam bunu söyləyib mənə. Zəng eləyib deyiblər — yəqin ki, sinif uşaqlarındandı: Aliyə müəllim, sizin o təzə Əsəd müəllim Sahiləyə vurulub, sinfə girən kimi özünü itirir, dərs deyə bilmir, qız dərsə gəlməyəndə o, özünə yer tapa bilmir, fikri dağınıq olur. Bir ölçü götürməsəniz, biabırçılıq olacaq... Hələ məktub da gəlib bu gün, buyurub baxa bilərsən. — Aliyə xanım qarşısındakı zərfi kəskin bir hərəkətlə Əsədə tərəf tulladı; Əsəd irəli uzanıb titrəyən əlilə açıq zərfin içindəki kiçik kağızı çıxartdı. Makinada yazılmış sözləri səssiz, gözləri ilə oxudu: «Aliyə müəllim. Sizə xəbər veririk ki, Əsəd müəllim $X^a$ sinif şagirdi Sahiləyə aşiq olub. Tezliklə ölçü götürməsəniz, axırı pis olacaq»... Vəssalam. İmza yox idi. Kağız sürüşüb Əsədin əlindən stolun üstünə düşdü. Geri çəkilib kürəyini divanın söykəyənəcəyinə dayadı, əllərini

gicgahına qoydu, uzaqdan-uzağa baxışları ilişib hərflərdə qaldı. Az keçməmiş yan-yana düzülüb sözlər əmələ gətirmiş hərflər əriyib iki qara xəttə çevrildi və onun, uzun illər ayrılıqdan, yazışmalardan sonra bu məktəbə — özünün uşaqlıq, ilk gənclik çağlarının unudulmaz məskəninə qayıtmaq arzusu baş tutandan çox yox, on beş gün keçməmiş, çətinliklə əldə etdiyi bu səadətinin üstünə su çilədi, pozub yerlə yeksan elədi. O, buraya gələn gündən dönüb təzədən uşaq olmuşdu, bax, azca əvvəl tərk elədiyi o sinifdə otururdu, hər gün sevinirdi, çünki o da, o üzüdönmüş də xəyalının qanadlarında, Sahilə simasında bura qayıtmışdı, illərin arxasından nəfəsini, hənirtisini duyurdu hər gün. Nə böyük səadət idi yenidən o günlərə qayıdıb yaşamaq! Sonra fikrində may ayı olurdu, güllü-çiçəkli may ayı. Mayda Əsəd tək qalırdı, sızlayıb inləyirdi, sonra hardasa onu, dəlicəsinə istədiyi o qızı itirirdi, həmişəlik itirirdi. Sonra, həyatında, ürəyində soyuq, qorxulu, əzablı bir boşluq, ağrı-acı qalırdı. Beləcə, hər şey hər gün təzədən təkrar olurdu. Xatirələri də xoş idi, acıları da... İndi bu səadəti də ona çox görürdülər...

Əsəd xəyal aləmində olarkən Aliyə xanımın nələr dediyini eşitməmişdi, eşitmişdisə də başa düşə bilməmişdi, ancaq fikirdən ayrılanda direktorun var səslə söylədiyi bu sözləri qulağı çaldı:

— Mən bilmirəm sən bütün bunlardan sonra burada necə qala bilərsən. Mən heç cür ağlıma sığışdırmıram.

Əsəd müəllim ağır-ağır ayağa qalxdı, qamətini düzəltdi, qan sağılmış gözlərini Aliyə xanıma dikib qəmli-qəmli söylədi:

— Düz deyirsiniz, Aliyə xanım. Mən kimin ağzını yuma bilərəm? Kimə izahat verə bilərəm ki, bu, onların fikirləşdiyi kimi deyil, tamam ayrı cürdür. Mənə kim inanar? Madam ki, bu işi belə qələmə veriblər, çətin inanan tapılar mənə..

Aliyə xanım Əsədin düşdüyü miskin vəziyyəti sanki indicə gördü və tamam mülayim bir tərzdə;

— Demək istəyirsən... bu, böhtandır? Sən böhtan qurbanı olubsan?... — deyə xəbər alarkən Əsəd:

— Yox, Aliyə xanım, — deyə ah çəkdi, — mən böhtan qur-

banı olmamışam, mən, sadəcə, xatirə qurbanı olmuşam. Aliyə xanım... Bunu heç kəs, hətta siz də başa düşə bilməzsiniz, Aliyə xanım. Mən öz qəlbimin məhrəm sirlərini heç kəsə açıb deməyə borclu deyiləm. Amma, bir direktor kimi, sizi inandırıram ki, mən Sahiləyə vurulmamışam və bu, mənim heç ağlıma da gəlməyib. Onu mən sadəcə olaraq, mənə çox əziz olan, unuda bilmədiyim bir adama oxşadırdım və onu görərkən həqiqətən özümü itirirdim, ixtiyarım əlimdən gedirdi. Yəqin uşaqlar da buna pis məna veriblər. Sahilə doğrudan da qəşəngdir, ağıllıdı və mən o qızı təkcə mənə əziz olan o adama oxşadığına görə çox istəyirəm, hörmət eləyirəm. Ancaq bir halda ki, mənim Sahiləyə olan ehtiramımı siz deyən kimi qələmə veriblər, mən burdan getməliyəm — onun adına ləkə gəlməsin deyə, özüm haqqında mənasız söz-söhbət kəsilsin deyə — gərək gedəm... Sağ olun, Aliyə xanım. Xudahafiz...

Əsəd bu sözləri nisgil içində deyib ayaqlarını sürüyə-sürüyə kabinetdən çıxmaq istəyəndə Aliyə xanım onu səslədi:

— Əsəd müəllim, Əsəd müəllim, bir dəqiqə... Ancaq Əsəd müəllim direktorun sözlərini eşitsə də, ayaq saxlamadı, meşin qapını örtüb getdi...

..Dənizin qırağında adam azdı. Fəvvarələrin qabağında qoyulmuş oturacaqlarda təkəmseyrək qocalar, xəstələr əyləşmişdi. Hava sakit və küləksiz olduğundan dəniz yorğun-yorğun mürgü vururdu. Uzaqda üç-dörd iri gəmi lövbər salıb dayanmışdı. Fəvvarənin qıraqlarında yaşıl budaqlarını çətir təki sallamış məcnun söyüdlərin tuşundakı yaşıl oturacaqda əyləşmiş Əsəd müəllim nə qarşısındakı ağaclara, nə dənizi, nə də önündən ötüb keçən adamları görəsi halda deyildi. İndi ondan soruşan olsaydı, buraya — dəniz qırağına necə, hansı yolla gəlib çıxıbsan, dəqiq deyə bilməzdi. Direktorun kabinetini tərk edəndən bu ana qədər heç nə yadında deyildi. Bircə o yadında idi ki, iyirmi gün qabaq ürək çırpıntısı ilə iyirmi il ayrılıqdan sonra sevinə-sevinə, gözləri yaşara-yaşara qədəm qoyduğu, az qala dər-divarını bağrına basmaq istədiyi bu doğma məktəbdən bu gün, cəmisi yarım saat qabaq

xəcalət içində, başı aşağı, dəhliz boyu qaynaşan uşaqların, qabağına çıxan müəllimlərin üzünə belə baxmağa cəsarət etmədən necə ayrılmışdı — səssiz-səmirsiz... Kimsə ilə xudahafizləşmədən...

Bəli, Əsəd müəllimin bu gün gözlənilmədən aldığı zərbə elə güclü və əzici idi ki, onu, ağırlığına görə, ancaq iyirmi il bundan qabaq, gözəl may günlərinin birində qəlbinə vurulan dözülməz yara ilə müqayisə etmək olardı. Hər şey qəribə, qatmaqarışıq, müəmmalı yuxuya bənzəyirdi. Başına gələn müsibətin nə qədər üzücü və eyni zamanda haqsız olduğunu, təmiz müəllim adının necə də heç nədən ləkələndiyini dəqiqələr, saatlar ötdükcə bütün dəhşəti ilə hiss edir, ilan vurmuş adam sayağı yerindəcə qıvrılıb qovrulur, siqareti siqaretin oduna yandırır, hövlündən partlamaq dərəcəsinə gələn ürəyində çağlayan çalpaşıq hisslərin əlində çarəsiz uşaq kimi kövrəlirdi. Əsəbləri elə gərilmişdi ki, sanki indicə qırılacaq, ürəyi ağacdan küləyin qoparıb yerə saldığı nar kimi partlayıb dağılacaqdı. Lakin o zaman, həyatında birinci zərbəni daddığı vaxt, Əsəd cavan idi, sən deyən ciddi bərkə-boşa düşməmişdi. Ona görə də o zərbə — ömrünü, qəlbini, fikrini alt-üst eləmiş o ağrı-acı onda qəribə bir dözüm, dəyanət əmələ gətirmişdi; həmin ağrılar sonrakı illərdə, lap bu günün özünəcən duyduğu, gördüyü sarsıntıların zirvəsi olmuşdu. Əsədin fikrincə təkcə bu günkü müsibəti yox, hətta ölüm belə bu zirvənin yanında kiçik idi, zəif və dözülməli idi. İllər, həyat özü bu müddət ərzində onun hisslərini də, ürəyini də döyüb bərkitmişdi — onu dözümlü, mətanətli eləmək üçün başqa heç nə lazım deyildi — o vaxtdan qəlbinin başında inildəyə-inildəyə gəzdirdiyi o gözyaşardan həsrət — təkcə bax, o həsrət kifayət idi. O günləri yadına salanda indiki dərdi yüngül göründü, xırda göründü, yanında kimsə olmasa da, ürəyi ilə tək-tənha danışa-danışa gülümsündü.

...Sentyabrın biri idi. Ətrafında daş hasar çəkilmiş, həyəti bağça-bağlı ikimərtəbəli binada — məktəbdə böyük bir canlanma var idi. Birinci sinifdən tutmuş onuncu sinfə qədər bütün uşaqlar, bütün müəllimlər təzə paltarda, şən əhvali-ruhiyyədə bir-birilə

görüşür, yayı harada, necə keçirdiklərindən danışır, deyib-gülürdülər. Dəhliz, siniflər arı pətəyi kimi qaynaşırdı. Bu təntənə doğrudan da bayram təntənəsinə oxşayırdı.

Uzaq dağ rayonundan neçə ilin ayrılığından sonra, nəhayət, öz doğma şəhərinə, qapısını bağlayıb (atası keçən il ölmüşdü) getdiyi doğma ata ocağına, ömrünün on ilini divarları arasında keçirdiyi unudulmaz məktəbə qayıtmış Əsəd müəllimin sevinci, təbii ki, hamının fərəhindən çox idi. Hər addımda ötən çağlarının ya şirin, ya acı bir xatirəsi yaşayan bu məhrəm ocağa baxdıqca o, yerə-göyə sığışmırdı. O, həyətdə, dəhlizdə, sinif otaqlarında çığırışan, qaçışan, deyib-gülən uşaqların arasında idi. Fikrən onlardan ayrıla bilmirdi: o, bura müəllim kimi qayıtmışdı, ancaq özünü heç cürə müəllim təsəvvür eləyə bilmirdi: ona elə gəlirdi ki, yenə boynu qalstuklu pionerdi, qoşulub bu uşaqlara, atılıb-düşür, deyir-gülür, gah da qayğılı-qayğılı bir kənara çəkilib dalğın-dalğın nə isə fikirləşir... Hərdən düşüncələrindən ayrılırdı, ətrafa baxırdı, — uşaqlar o uşaqlar deyildi, onun sinif yoldaşları da yox idi, o da — Xəzangül də yox idi; onda Əsəd indiki günlərinə qayıdıb kədərli-kədərli köks ötürürdü. O günlər getdi, bir də geri qayıtmaz. Bu fikrini bir də o həqiqət möhkəmləndirirdi ki, müəllimlər də o müəllimlər deyildi — onun sevimli müəllimlərindən burada indi heç kəs yox idi. Ölən ölmüşdü, qocalan qocalmışdı, başqa məktəbə gedənlər də var idi deyəsən. Qoca süpürgəçi Töhfə də gözə dəymirdi. Bir sözlə, Əsədin gördüyü, sevdiyi o məktəbdən, o müəllimlərdən, o uşaqlardan əsər-əlamət qalmamışdı. Yox, qalmışdı, məktəb özü, sinif otaqları, hətta partalar. Düzdü, təzə rənglənmişdi — ancaq həmin partalar idi. Əsəd avqustun iyirmi beşində ilk dəfə, tanışlıq üçün böyük qəlb çırpıntısı ilə buraya gələndə, asudə vaxt tapıb siniflərinə baş çəkmiş, partaların arasında gəzə-gəzə gəlib öz partasını axtarıb tapmış, keçib oturmuş, xəyala dalmış, vaxtilə cib bıçağı ilə partanın üstünə qazdığı o hərfləri axtarmışdı; o dörd hərf pozulmuşdu, demək olar ki, güclə oxunurdu — neçə dəfə çəkilmiş qara rəngin altında itib-batmaq üzrə idi. Ancaq o partanın üstünə təzə, keçən ilmi, inişilmi

yazılmış «S + M = lyubov» sözləri aydın oxunurdu. Sonra o, həyətə çıxmış, o zaman öz əlilə əkdiyi qara ağacın yanına gəlmişdi — onda balaca, qol-qanadı qayçılanıb vurulmuş fidan indi, maşallah, böyüyüb qollu-budaqlı, kölgəli ağac olub. O da yaşa dolub, gövdəsini örtmüş, qara-boz, diyir-diyir qabıqlardan anlamaq olurdu ki, yavaş-yavaş o da qocalır, Əsəd kimi. Əsəd əlini ağacın yana əyilmiş budağının üstünə qoymuşdu, onu nə isə doğma, həlim bir hisslə başdan-ayağa süzmüşdü və ürəyində onunla danışmışdı:

«Salam, köhnə dost».

«—…»

— Məni tanımadın? Mən Əsədəm. Yadındadı, səkkizinci sinifdə oxuyanda səni mən burada əkmişəm. Yadına gəlmir?»

«—…»

«— İki il su vermişəm, dibinin torpağını boşaltmışam... Sonra sənə kim baxıb — bilmirəm. Ancaq, maşallah, daha böyümüsən; torpağa dərin kök salmısan...»

Sükut içində dayanıb susmuş ağaca artıq çoxdan uzaqlarda qalmış ilk gənclik dünyasından qalmış əziz bir yadigar kimi həsrətlə baxıb uzaqlaşmış, müəllimlər otağına qayıtmışdı.. Məktəbin direktoru Aliyə xanım onu, məktəbin müəllim kollektivinə təqdim etmişdi, müəllimlər ona xoş təsir bağışlamışdı — çoxu cavan olsa da, sadə və səmimi idi. Aliyə xanım bir az ciddi, quru və tələbkar adama oxşayırdı — qoy olsun, belə olmağı yaxşıdı — direktor elə belə də olmalıdı, yoxsa iş getməz...

İlk zəng yenicə vurulmuşdu. Müəllimlər şkaflardan jurnallarını götürüb cədvəl üzrə, siniflərinə gedirdi. Təkcə Əsəd müəllim qoltuğunda jurnal tərəddüd içində nəzərləri ilə Aliyə xanımı axtarırdı ki, o, qapı ağzında göründü:

— Hə, Əsəd müəllim, birinci saat gərək ki, sizin dərsiniz olsun, eləmi?

— Bəli, Aliyə xanım. X$^{a}$-dadır.

Aliyə xanım əlindəki açarları cingildədə-cingildədə işgüzar bir əda ilə:

— Gedək sizi təqdim edim... — dedi — Bu sinif çox yaxşı sinifdi — hamısı ciddi uşaqlardı, oxuyan uşaqlardı. Həm də buraxılış sinfidir. Gərək siz də çalışasınız, o tempi aşağı düşməyə qoymayasınız.

— Çalışarıq, Aliyə xanım.

Aliyə xanım hündür dabanlı çəkmələrini taxta döşəmə üzərində tıqqıldada-tıqqıldada qabaqda, Əsəd müəllim azca geridə dəhliz boyu söhbət edə-edə gedirdilər. Onlar dəhlizin sonundakı sinfin qarşısına çatanda, Əsədin ürəyi, quş ürəyi kimi çırpındı. Bu, həmin sinif idi — o da onuncu sinfi bax bu küncdəki iri, işıqlı otaqda oxumuşdu — şagird kimi çıxmışdı, indi müəllim kimi qayıtmışdı.

Aliyə xanım artıq içəridə idi. Əsəd özünü ona yetirib böyründə dayandı. Uşaqlar ayaq üstə idi — hamısı baxışını təzə müəllimə zilləmişdi, maraqla baxırdı. Aliyə xanım şagirdlərə oturmaq icazəsi verəndən sonra, adəti üzrə əlindəki açarlardan birinin ucunu stola iki-üç dəfə üsulluca döyəcləyib sözə başladı:

— Əziz uşaqlar, əvvələn, sizi yeni dərs ilinin başlanması münasibətilə bir daha təbrik edirəm və sizə təhsildə, həyatda gözəl-gözəl uğurlar diləyirəm. İkincisi, sizə bizim təzə müəllim yoldaşımızı — Əsad Əsədzadə yoldaşı təqdim edirəm: onu sevin, hörmət edin. Əsəd müəllim sizə ədəbiyyatdan dərs deyəcək. Bunu da əlavə edim ki, o da vaxtilə sizin kimi bu məktəbdə oxuyub, sonra universiteti bitirib, rayonda uzun müddət işləyib, öz xahişinə görə, nazirlik onu, nəhayət bizim məktəbə göndərib. — Aliyə xanım ani olaraq duruxub. — «Daha nə demək mümkündür? — deyə fikirləşdi və sözünü belə bitirdi: — Bu qədər.— Sonra üzünü Əsəd müəllimə tutub: — Hə, başlaya bilərsiniz, Əsəd müəllim, — dedi, — Qalan şeylərdə, işin gedişində, məncə, özünüz ümumi dil tapa bilərsiniz...

— Çox sağ olun, Aliyə xanım...

Aliyə xanım yenə ayaqqabılarını tıqqıldada-tıqqıldada çıxıb getdi və Əsəd müəllim sinifdə, qırxa qədər uşağın qənşərində tək qaldı. Araya dərin bir sükut çökdü. Uşaqlar müəllimə, müəllim

uşaqlara baxırdı.

Bu anlar adi anlar deyilmiş, sən demə. Əsədin bu gün başına gələn müsibətin — Aliyə xanımın kabinetində eşitdiyi ittihamın bünövrəsi o anlarda qoyulurmuş, sən demə!..

Aliyə xanım gedəndən sonra dörd cərkə düzülmüş partalara bir-bir göz gəzdirən Əsəd, nəhayət, özünün vaxtilə oturduğu partanı tapanda... heyrətindən donub qaldı — inanmadı — gözlərini onun partasında oturan alagözlü, xurmayısaçlı o Xəzangül öz yerində oturmuşdu. Bəli, heç şübhə ola bilməzdi — o, Xəzangül idi, eynən onun, onun Xəzangülü idi, aman allah. «Yox, bu, yuxudur, o, Xəzangül ola bilməz. O vaxtdan iyirmi ildən çox keçib. İndi o da mənim kimi qocalığa üz qoymuş olar: o məndən deyəsən cəmi iki yaş kiçik idi. Hə, iki yaş. Məni xəstəlik qoymamışdı vaxtında məktəbə gedim...» — Gözlərini onun partasında oturan alagözlü, xurmayısaçlı o qızdan çəkmədən çaşqın-çaşqın baxdı, baxdı, xatirələri cilovlaya bilmədi: «Yox, o deyil, əlbəttə, o deyil, ola bilməz. Yəqin sadəcə oxşayır». Ancaq bütün bunlara baxmayaraq, bu qəribə «görüş», bu ağılabatmaz bənzəyiş onun vücudunu əməlli-başlı sarsıtdı və o, bir anlığına harada olduğunu unudaraq az qala «Xəzangül» deyə qışqıracaqdı ki, uşaqlardan kimsə, görünür, müəllimi huş apardığını anlayıb qəsdən öskürdü və bu səs Əsədi xəyal aləmindən ayırıb qopardı. Əsəd müəllim eynən Xəzangülə bənzəyən o xurmayısaçlı qıza həddən artıq uyduğunu dumanlı şəkildə olsa da, başa düşüb uşaqlara baxaraq günahkar təki gülümsündü və titrək səslə:

— Məni bağışlayın, uşaqlar, - dedi — Vaxtilə, Aliyə xanım deyən kimi, mən də bu sinifdə oxumuşam, o çağlar yadıma düşdü, bir az həyəcanlandım.

Uşaqlardan səs-səmir çıxmadı. Çünki Əsədin nə isə düzgün danışmadığını qəribə bir sövq-təbii ilə duymuşdular deyəsən. Çünki Əsədin baxışları ayrı baxış idi; o, bütün sinfə yox, təkcə Sahiləyə baxırdı, sehrlənmişdi elə bil, nəzərlərini ondan çəkə bilmirdi. Bu isə, sinifdəkilərin acığına gəlmişdi deyəsən. Əgər belə olmasaydı, yəqin ki, başqa təzə müəllim gələn zaman olduğu

kimi, indi də Əsədi sorğu-suala tutardılar; Bu məktəbi nə vaxt qurtardığını, müəllimlərinin kimlər olduğunu soruşardılar. Ancaq susurdular.

Aradakı gərginliyi hiss eləyən Əsəd daha uşaqların üzünə baxmamağa çalışaraq oturdu, üzünə ağ kağız çəkilmiş jurnalı açdı, siyahı üzrə uşaqlarla bir-bir tanış olmağa başladı. Adlarını oxuyur, duran şagirdə baxır, ismini, şəkil-şəmayilini yadda saxlamağa çalışırdı. Lənət şeytana, o, yenə özündə deyildi, fikrində hey dolanırdı ki, bəs bu xurmayı saçlı qız — Xəzangülə oxşayan o qəşəng qız nə zaman ayağa qalxacaq və «mən» — deyə cavab verəcək? Nəhayət Əsəd, siyahıdakı iyirmi beşinci adı oxudu:

— Həsənzadə Sahilə...

— Mən — deyə, o, incə məlahətli bir səslə dillənib ayağa durdu. Əsəd müəllim yenə özündən asılı olmayaraq həyəcan dolu baxışlarını ona zilləyib ani fikrə getdi; Sahilə bu baxışların qeyri-adi, sirli olduğunu bayaqdan duymuşdu, ona görə qəribə bir təşviş içində, tələsik yerində əyləşdi və başını qarşısında oturan oğlanın kürəkləri arxasında gizlədi.

Əsədin dili avtomat kimi adları bir-bir təkrar edirdi, ancaq beynində təkcə Sahilənin adı dolanırdı. Gülməli idi ki, qırx uşağın adını oxuyub qurtarandan sonra başa düşdü ki, onların içində təkcə birinin — Sahilənin adı yadında qalıb. O saatı Əsəd müəllim xatirələr, sehrlər, möcüzələr dolu o sinifdə necə keçirdiyini heç indi də xatırlamırdı. Ancaq bircə bu yadında qalıb ki, həmin gün o, təzədən ömrünün bəxtəvər günlərinə — Xəzangüllü günlərinə qayıtmışdı. Əslində onun Xəzangülsüz günləri heç olmamışdı. Ürəyində, xəyalında yaşatmışdı onu həmişə, hər an, Xəzangülün xəyalı gözü kimi, ürəyi kimi vücudunun, ömrünün bir əzasına çevrilmişdi, yanında idi həmişə, qanadda idi həmişə. Xəzangül olan yerdə daima bu sual da olmuşdu: Əsəd o vaxt da onun özündən soruşmuşdu bu müəmmalı sualı; «Nə oldu sənə, niyə birdən-birə belə döndün? Heç olmasa səbəbini başa sal, sonra...» Ancaq nə özü, nə də sonrakı illər xəyalı, Əsədin beynini gəmirən, varlığını didən bu suala cavab vermişdi... Bu sual neçə illər cavab-

sız qalmışdı, açarı itmiş qıfıl kimi açılmaz qalmışdı. Və Əsədi ömrü boyu yandırmışdı, düşündürmüşdü.

«Səbəbini desəydin, bəlkə də mənim üçün bu qədər ağır olmazdı, Xəzangül. Mən səni başa düşərdim, ya bağışlardım, haqq qazandırardım, ya da küsüb gedərdim, unudardım səni, Xəzangül... Amma indi... Sənin o hərəkətin, birdən-birə məndən üz döndərməyin... eh, nə deyim sənə, Xəzangül, Xəzangül»...

...Onların məhəbbəti o ilin sentyabrında başlamışdı. Əslində belə demək də düzgün deyildi, çünki doqquz il bir parta arxasında oturan, bir-birinin nəfəsini udan, ikinci-üçüncü sinifdə oxuyanda qapaz-qapaz oynayan, dördüncü-beşinci sinifdə tez-tez küsüb-barışan, sonra isə «ağıllanıb-ciddiləşən» bu iki yeniyetmə axırda o qədər mehriban, o qədər yaxın olmuşdu ki, hörmətin, ehtiramın harda qurtarıb harda məhəbbətə çevrildiyini heç kəs, hətta özləri belə dəqiq deyə bilməzdi. O yay, tətil günlərində Əsəd birdən-birə bərk darıxmağa başlamışdı; evə-eşiyə sığışmırdı, günləri sayırdı dərslər haçan başlayacaq. Anası o, üçüncü sinifdə oxuyanda dünyadan köçmüşdü. Yadına yaxşı gəlirdi ki, həmin vaxtlar Əsədi görən kimi Xəzangülü ağlamaq tutmuşdu, o an nə isə təsəlliverici sözlər demək istəmişdi, ancaq ağlına heç nə gəlməmişdi. Beləcə, qız göz yaşları ilə Əsədin böyük dərdinə şərik olduğunu bildirmişdi. Nədənsə o gündən — yəni Xəzangülün ağladığını görən gündən sonra o, Əsədin yadına həmişə elə beləcə — gözüyaşlı düşürdü və haradasa yaddaşında həkk olunub-qalmışdı ki, Xəzangülün al yanaqlarına ağappaq mirvarini xatırladan göz yaşları çox yaraşırdı o zaman.

Balaca bir idarədə zavxoz işləyən, fağır, dilsiz-ağızsız bir adam olan Teyyub kişi, Səkinənin ölümündən sonra evlənməmişdi. Mehrini yeganə oğluna salıb ona həm atalıq, həm də analıq eləmişdi; paltarlarını yumuşdu, vaxtlı-vaxtında yeməyini bişirmişdi, üst-başına fikir vermişdi, dərslərinə göz qoymuş, məktəbinə gedib-gəlmişdi. Əsəd də fədakar atanın bəxtindən ağıllı uşaq çıxmışdı. Atasını incitmirdi, dərslərini yaxşı oxuyur, ev-eşik işlərində kişiyə kömək eləyir, məhəllənin avara uşaqlarına qoşulmurdu.

Teyyub oğlundan yerdən-göyəcən razı idi. İllər keçdikcə, Əsəd böyüdükcə onların arasında ata-oğulluq münasibətindən başqa, bir qardaşlıq, həmdəmlik ünsiyyəti də yaranmışdı və bu, qadın nəfəsi duyulmayan balaca otağa bir nisgilli xoşbəxtlik bəxş eləmişdi. Teyyub Səkinənin şəklini böyütdürüb divardan asmışdı və Səkinə, gözlərində kədərli bir təbəssüm, sözsüz-sovsuz vəfalı ərinə, ağıllı-kamallı oğluna baxır, baxırdı. Əsədin gözləri anasının şəklinə sataşan kimi, nədənsə əvvəlcə hafizəsində həkk olunub qalmış Xəzangülün yaşlı gözlərini xatırlayırdı və bundan sonra — qəribə idi — anasının öldüyünə inanırdı.

Hər il avqust ayında Teyyub kişi məzuniyyətini götürər, ata-bala səfalı Şuşaya (bu dilbər guşəyə Teyyub lap çoxdan vurulmuşdu) gedər, meşədə, İsa bulağı üstündə yaxşıca dincələr, vaxtları tamam olanda deyə-gülə, gümrah halda yığışıb şəhərə qayıdardılar; sentyabrın birində ata işə, oğul məktəbə gedərdi. Ancaq həmin axırıncı yay, Əsəd Şuşada on-on beş gün qalmamış, bərk darıxmağa başladı. Nə istirahət evi, nə kinolar, nə gəzintilər — heç nə onun könlünü açmadı, atası onu hara apardısa yarıkönül getdi, bir ləzzət almadı, nəşə duymadı. Teyyub kişi qəlbini açmaq üçün nə elədisə, bir xeyri olmadı. Əsəd yeyib-içməyindən, deyib-gülməyindən qaldı — fikirli gəzib dolandı; xırda, qara gözləri tez-tez yol çəkdi. Dağların qoynunda, səfalı meşələrin qucağında, buz bulaqların üstündə belə sanki havası çatmırdı. Əsəd bir neçə günün içində arıqladı, sınıxdı. «Axı nə olub, bala, sənə, nəyin fikrini çəkirsən?» deyə ata dönə-dönə soruşsa da, üz-gözünə anlaşılmaz kədər ifadəsi yazılmış Əsəddən düz-ağıllı cavab ala bilmədi, eləcə «darıxıram» — deyib durdu. Çünki oğlan özü də, əslində, baş aça bilmirdi ki, ona nə olub. Təkcə bu aydın idi ki, nədənsə şəhər üçün darıxır. Vəssalam. Axırda kişi oğlunun incəlib arıqladığını görəndə - naçar qalıb vaxtından bir həftə qabaq Əsədi də götürüb şəhərə qayıtdı. Fikrində evə çatan təki uşağı həkimə aparmağı qərarlaşdıran Teyyub möcüzə şahidi oldu: ayağı şəhərə dəyən kimi, Əsəd dirçəldi, eyni açıldı, deyib-güldü, elə bil, uşağı sehrli bir əl tamam dəyişdi. Həkimə getmək fikrini Əsədə deyən-

də o: «Mənə nə olub ki?» — deyə təəccübləndi. — «Bir yerinzadın ağrımır ki?». «Yox». Yalnız bu cavabdan sonra Teyyubun ata ürəyi rahatlandı... Ancaq əslində Əsədin özü də bu işə mat qalmışdı. Yaylaqda niyə elə birdən-birə darıxdı, şəhərdə onun nəyi qalmışdı? Heç nəyi, heç kimi. Şəhər həminki şəhər idi — isti idi, küləkli idi, tozlu idi. Balaca həyətləri də, elə əvvəlki kimiydi. Elə ilk günlər anladı ki, darıxmağı nə evləri üçünmüş, nə şəhər üçünmüş. Düşündü, yenə ağlına bir şey gəlmədi. Yalnız dərslərin başlanmasına bircə gün qalmış qəribə bir sevinclə anladı ki, məktəb üçün, sinif yoldaşları üçün darıxırmış, müəllimləri üçün darıxırmış. Səhər dərsə gedəcəkdi, kitab-dəftərini, çantasını səliqə-sahmana salmışdı: atasının təzəcə aldığı kostyumu şifonerdən çıxarıb stulun başından asmışdı, ağ köynəyini ütüləmişdi. Ertədən dəlləyə gedib saçını düzəltdirmişdi. Sabahı səbirsizliklə gözləyirdi. Buna görə də təəccüb eləyirdi ki, ötən illərin heç birində dərslərin başlanmasını beləcə narahatçılıqla gözləməmişdi. Həmin axşam, gecəyarıdan keçəndən xeyli sonrayacan gözlərinə yuxu getmədi Əsədin. Naməlum, ancaq nə isə şirin xəyallar onun yuxusunu ərşə çəkmişdi. Səhər, sentyabrın birində, hamı kimi o da doğma məktəbə ürək çırpıntısı ilə gələndən, sinif yoldaşları ilə, müəllimlərinin bəzisi ilə görüşəndən sonra hər şeyi başa düşdü. Birdən-birə özü də heyrətamiz olan bir həqiqəti dərk eləyib həm sevindi, həm də qorxdu. Bu an o an idi ki, Əsəd sinif yoldaşlarının demək olar ki, hamısı ilə görüşüb hal-əhval tutmuşdu — ancaq nə isə yenə çatışmırdı, nəzərləri nigaran-nigaran o yan-bu yana baxır, kimi isə axtarırdı. Kimi axtarırdı, kim hələ gəlməmişdi? Ah, tapdı, tapdı — Xəzangül yox idi; Xəzangül gəlməmişdi. Sadəcə, onun adını ürəyində pıçıldayanda Əsədin bədəni uçundu — sən demə, Xəzangül imiş onu bu qədər narahat eləyən. Bəs niyə yoxdu, bəlkə xəstələnib, bəlkə gəlməyəcək, bəlkə... Bu «bəlkələrdən» qəlbi qısıldı, yoldaşlarından dəhlizdə ayrılıb sinfə girdi, hövsələsiz halda çantasını partanın üstünə atdı, oturdu. Gözlərini qapıya zillədi... İntizarla keçən anların ömrü nə yaman uzun olurmuş. Əsədin səbri tükənhatükəndə birdən qapı açıldı, əyninə

qəhvəyi paltar geymiş, ağ önlük taxmış, xurmayı saçlarının birini sinəsi üstə, o birini arxasına atmış Xəzangül, gülə-gülə, göy çantasını əlində yellədə-yellədə sinfə daxil oldu: onu görən təki Əsədin ruhu, necə deyərlər, bədənindən uçdu, ağzı açıla qaldı, gözlərindən işıq seli axdı sanki — par-par alışıb yandı. Sinifdə heç kəs yox idi. Xəzangül Əsədi görüb nazik, qara qaşlarını qəribə bir tərzdə yuxarı qaldırıb yerişinə haram qatmadan partaların arası ilə ona sarı addımlayanda Əsəd, yanına müəllimi gəlirmiş kimi, qeyri-ixtiyari ayağa qalxdı. Xəzangülün sifəti elə bil nur parçası idi, nur saça-saça, gülümsünə-gülümsünə gəlirdi. O addımladıqca Əsəd xoş bir gizilti içində geniş açılmış gözlərini qırpmadan qıza baxırdı; edə bil, Xəzangül yerimirdi, uçurdu, bax, görürsən, taxta döşəməyə ayaqları dəysəydi, Əsəd necə olsa eşidərdi. Bəli, o uçur, uça-uça gəlir ona tərəf... Bax, elə həmin anlarda, Xəzangül partaların arası ilə kəpənək kimi səssiz-səmirsiz qanad çala-çala gələndə Əsəd neçə gündən bəri qəlbini didən narahatlığın səbəbini anladı; Bəli, Əsəd məktəb üçün yox, yoldaşları üçün yox, Xəzangül üçün darıxırmış. Bu hissi anlayan, dərk edən kimi qorxu, nəşə-sevincqarışıq anlaşılmaz bir duyğu içində, taqətsiz halda yeriidə oturdu — elə bil, kimsə arxadan qıçlarının büküyünə vurdu, xıxırtdı. Sanki ürəyinin başında, gözlərinin dərinliyində neçə vaxtdan bəri yığılıb qalmış, sinədolusu nəfəs almağa, gözdolusu gülümsünməyə qoymayan o naməlum sıxıntı, küt ağrı birdən-birə aydınlaşdı — o, çiynindən əzici yük götürülmüş adam tək, nəhayət, asudə nəfəs ala bildi və bu an, məhz bu an Əsəd, özünü çox xoşbəxt hesab elədi.

— Salam, Əsəd, — deyə Xəzangül sol əlindəki çantanı partanın üstünə qoyub sağ əlini ona uzatdı: — Xoş gördük... — Xəzangülün səsi gözəl idi, elə yumşaq, elə həlim idi ki, sanasan qaymaq qatmışdılar.

Əsədin qulaqları guruldayırdı, gözlərinin qabağında hər şey uçurdu: o, Xəzangülün nə səsini eşidirdi, nə irəli uzanmış əlini görürdü — yuxudaydı, yuxu ilə ayıqlıq arasındaydı sanki Xəzangül çaş-baş olub qalmış, rəngi ağappaq ağarmış, yalnız qara

gözləri par-par alışıb yanan Əsədə təəcüblə baxdı; deyəsən o titrəyirdi də.

— Sənə nə olub? Xəstə-zad deyilsən ki?

— Yox-yox... Xəzan, salam... — deyə, nəhayət o, qızın lap böyründə dayanıb dediyi sözlərdən sonra elə bil bihuşluq aləmindən ayrıldı və onun əlini tutdu.

— Vay, sən xəstəsən, Əsəd. Sənin hərarətin var. Əlin od kimi yanır...

Əsəd Xəzangülün dediklərini eşidib qeyri-iradi əlinə baxdı, elə bil, əlinin «od kimi yandığını» gözləri ilə görəcəkdi. Əli həmişəki əl idi, yanıb eləmirdi.

— Yox, xəstə deyiləm, Xəzan...

Xəzangül nurlu baxışlarını Əsədin üz-gözündə gəzdirdi, təzə kostyumuna diqqətlə baxdı, — kostyumu gözəl idi və Əsədə çox yaraşırdı — sonra mehriban-mehriban gülümsündü. Əsədin də gözlərindən təbəssüm yağırdı. Nəsə demək istəyirdi, ancaq elə bil, bir kəlmə də söz bilmirdi, bütün sözləri sanki yadından çıxartmışdı. Xəzangül dadına çatdı:

— İstirahətin necə keçdi, Əsəd?

— Pis. — Lakin söz ağzından çıxan kimi belə deməyinə özü də təəccübləndi.

— Pis?

— Hə.

— Niyə?

Əsəd çiyinlərini çəkdi:

— Nə bilim. Axıra yaxın yaman darıxdım...

— Darıxdın? Kimdən ötrü?

— Nə bilim.. — Və o dəqiqə «nə bilim» deməyinə də peşman oldu, özünü danladı: «Gərək deyəydim sənin üçün». Sonra ürəyində məzəmmət elədi və gecikmiş olsa da, dəfələrlə təkrar etdi: «Sənin üçün, Xəzangül, sənin üçün.» ...Sonra sandı ki, elə həqiqətən o cür deyib — Xəzangülün düz gözlərinin içinə baxa-baxa eləcə söyləyib.

Xəzangül arada yaranan sükut buzunu qırıb qabaqdakı boş

partada oturdu və dedi:

— Nə isə bu yay mən də çox darıxmışam. Amma mən sənin kimi deyiləm, bilirdim mən nə üçün darıxırdım.

— Nə üçün darıxırdın, Xəzan?

Xəzangül azca qabarmış sinəsinin üstündəki saçının ucunu qurdalaya-qurdalaya:

— Mən məktəb üçün darıxırdım, yoldaşlarım üçün darıxırdım, Əsəd, — dedi. Əsəd köksünü ötürdü:

— Mən də əvvəl elə bilirdim. Lakin, indicə başa düşdüm ki, səhv eləyirmişəm.

— Niyə ki?...

Əsəd cavab verməyə imkan tapmadı — uşaqlar, gurultu ilə içəri doluşdular və sözü ağzında qaldı. Bir tərəfdəən dilxor oldusa, o bir yandan da sevindi. Utanacaqdı fikrini deməyə. Söyləyə biləcəkdimi? Yox. Sonra müəllim içəri girib və nə isə danışanda — Əsəd onsuz da qulaq asa bilmirdi — öz-özünə düşünürdü ki, yox, deyə bilməyəcəkdi. Kim bilir, bəlkə də «Sənin üçün darıxırdım, Xəzan!» — sözlərini dilinə gətirsəydi, Xəzangülün acığına gələrdi, ondan küsərdi. O zaman neylərdi Əsəd? Cəbr müəllimi nəyisə izah edirdi, Əsəd xoşbəxt-xoşbəxt oturmuşdu, müəllimin dodaqlarının tərpəndiyini görürdü, səsini də eşidirdi, ancaq sözlərini anlamırdı, anlaya bilmirdi. İstəyini tapmış adam kimi, toxtayıb durmuşdu. Sakit idi, qəlbi intizar, həsrət içində çırpınmırdı daha. Sən demə, həqiqətən o, bu anlar üçün Xəzangüllə qoşa oturmaq anları üçün çalıxıb-çapalayırmış, canını qoymağa yer tapmırmış. Sən demə, onun ürəyində, həyatında Xəzangül çatmırmış. Sən demə, sevirmiş onu — özünün də xəbəri yoxmuş, sən demə. İndi o, gözəl, ağıllı Xəzangülün yanında idi, nəfəsini duyurdu, səsini eşidirdi, partanın üstünə qoyduğu ağ, totuq əllərinə baxa bilirdi — bundan böyük səadət yox idi. Əsəd üçün yer üzündə. Yox idi və ola da bilməzdi.

Bəli, indi çox-çox uzaqlarda qalmış, xatirəyə dönmüş o ildə məhəbbət deyilən o müqəddəs duyğu doğulmuşdu. Şirin, əzablı, ağrılı-acılı, bəzən güldürən, bəzən ağladan o gözəl hiss dünyaya

gəlmişdi.

Deyirlər, hər doğulan hissdə, duyğu da insan kimi, canlı kimi, öz ömrünü yaşayandan sonra ölüb gedir. Bəs Əsədin ürəyində, uzaq sentyabrda dünyaya gələn o ülvi hiss, az qala bir insan ömrü də keçib gedəndən sonra niyə ölməmişdi, nə üçün yaşamışdı? Susuz ağac nə qədər yaşar? Susuz çiçək çoxmu ömür sürər? Yox. Bəs bu hiss necə möcüzə idi ki, susuz da, qayğısız, nəvazişsiz də yaşamışdı Əsədin qəlbində? O, bütün uçub gedən illər boyu da, elə indi də — bu gün Aliyə xanımla etdiyi o dəhşətli söhbətdən sonra da buna heyrət eləyib heyran qalmışdı.

Bəli, sentyabr belə başladı Əsəd üçün. O, günlər keçdikcə, Xəzangülün dadlı bir duyğuya, doyulmaz bir mahnıya çevrilərək qanına, iliyinə, şüuruna, varlığına, bütün vücuduna axıb dolduğunu, hopduğunu hiss eləyirdi. Xəzangül onun xəyalı həmsöhbəti olmuşdu. Xəzangül onun fərəhi olmuşdu. Xəzangül onun yuxusuzluğu olmuşdu. Zaman keçdikcə anlamışdı ki, Xəzangül həyatına, ömrünə çevrilib — yerli-dibli köçüb oturub qəlbinin içində. Bunu Əsəd də görə bilməzdi, kənardan baxan da duya bilməzdi — onun bütün varlığı dönüb Xəzangül olmuşdu, zərifləşmişdi, ətirlənmişdi, nəğmələşmişdi. Onu hər gün görmək səadəti bəs idi, səsini eşitmək səadəti bəs idi: o, hər gün, istirahət günlərindən başqa, altı saat nəhayətsiz dərəcədə bəxtəvər olurdu. Dərs qurtardıqdan sonra o, gözlənilmədən məyuslaşırdı, qəm-qüssəyə batırdı — çünki ondan Xəzangüldən ayrılırdı?.. İstirahət günlərini qətiyyən sevmirdi — o gün Xəzangülü görə bilmirdi. İlk günlər çırpınırdı, evdə qərar tutammırdı; az sonra dözməyib Xəzangülün yaşadığı məhəlləyə getməyə başladı evlərini tapıb uzaqdan-uzağa tamaşa etdi; bu da qəribə idi ki, qapısından içəri bircə dəfə də ayaq basmadığı o ev Əsəd üçün çox əziz olmuşdu; evi görəndə elə bil Xəzangülün özünü görürdü, sanki alçaq, birmərtəbəli, ikiotaqlı o daş binanın pəncərələri Xəzangülün gözləri idi ki, göy rəngli dəmir torun arxasından ona baxırdı. Hərdən evdəkilərdən kimsə — ayırd edə bilmirdi, ya anası idi, ya Xəzangülün özü idi — pəncərə önünə gəlir, xeyli dayanıb küçəyə baxırdı. Bu zaman

Əsəd ağacın dalına çəkilərdi ki, görüb tanımasın Xəzangül.

Xəzangül onun ürəyindən xəbərsiz idi. Utancaqlığındanmı, qorxduğundanmı — nədənsə, o, qıza könül açmağa ürək eləmirdi. Ancaq hərəkətlərindəki qəribəliklərdən, gözlərinin tez-tez yol çəkməsindən, xəyala dalmasından, həsrətli baxışlarından şübhələnirdisə də, özünü o yerə qoymur, onunla bəzən saymazyana, bəzən ehtiyatla rəftar edirdi.

Xəzangül qəribə bir qız sövq-təbiisi ilə Əsədin ona vurulduğunu duyurdu və hardasa bu hissin özünə də gizli bir nəşə bəxş etdiyini anlayıb qürurlanırdı. Ona daha çox fikir verirdi, hərdən qeyri-iradi çox mehriban olurdu və intizarla gözləyirdi ki, bax, bu gün Əsəd nə isə olduqca şirin, ömür boyu yaddan çıxmayacaq bir söz deyəcək və o, bu sehrli, qəlbinin dərinliklərində eşitmək arzusu getdikcə güclənən o şirin sözü dinləyib yerə-göyə sığışmayacaq, hətta gözləri yaşaracaq...

Əsəd isə susur, Xəzangülü görən kimi nitqi batır, əsməcə tuturdu. Eləcə lal, məftun baxışlarla Xəzəngülü seyr edir, səsini eşidib, nəfəsini duyub məst olurdu. Son vaxtlar süd əzbər bildiyi dərsləri belə lövhənin qabağına çıxanda kəkələyə-kəkələyə danışır, cavabları müəllimi qane etmirdi. Əsəd sanki Xəzangüldən qorxurdu — onu istədiyini dilinə gətirərsə, onu həmişəlik itirəcəyindən ehtiyat eləyirdi. Elə bilirdi ki, ona söz desə, o zərif varlıq sınar, solar, inciyər və küsüb gedər, həmişəlik gedər... Bu anlaşılmaz və yersiz qorxu Əsədin dilini yamanca bağlamışdı. Ona görə də axır günlər oğlanın ürəyi lap hövl eləmişdi.

Bir gün, sentyabrın axırlarında, dərsin şirin yerində Xəzangül gördü ki, partasının üstündə, düz onun qənşərində, bıçaqla dörd hərf qazılıb: «M.S.Q.O.». hərflər xəzə idi, taxta ağarırdı. Həm də dünən yox idi. Bu nə deməkdi, kim yazıb görəsən? Xəzangül sakitcə hərflərə xeyli baxdı, bir şey anlaya bilmədi. Amma nədənsə qızın ürəyi uçundu və ona elə gəldi ki, bu hərflər, elə onun gözlədiyi o şirin sözlər idi ki, bura yazılmışdı və şübhə də etmirdi ki, bu, Əsədin işidi. Bəs niyə taxtaya yazırdı, dili yox idi məgər?.. Xəzangül ehmalca dönüb böyründə oturan, sol əlini

də üzünə dirəyib dərs danışan müəllimə guya qulaq asan Əsədə gözucu fikir verdi. Bayaqdan yerində sakit əyləşmiş kimi görünən oğlan əslində əsirdi, haldan-hala düşürdü, «kaş görməyəydi, — deyirdi, — bu tənəffüs pozacağam»... Ancaq Xəzangülün ona yanakı baxmağından başa düşdü ki, görüb, artıq gecdi. Görüb Xəzangül... İndicə bir tufan, haray-həşir, qışqırıq qopacağını gözləyən Əsəd yerindəcə büzüşdü: elə bu zaman Xəzangül sol dirsəyi ilə onun qoluna toxunub pıçıltı ilə soruşdu:

— Bunu kim yazıb?

Əsəd içəridə titrəsə də, təmkinini pozmamağa çalışaraq guya heç nədən xəbəri yoxmuş kimi:

— Nəyi? — deyə xəbər alanda Xəzangül sağ əlinin şəhadət barmağını təzəcə qazılmış hərflərin üstünə qoydu.

— Bunları deyirəm...

Əsəd əyilib o dörd hərfə ötəri baxdı və qətiyyətsiz bir hərəkətlə çiyinlərini çəkdi:

— Bil...mirəm...

Xəzangül baxışlarını dolandırıb Əsədə sadəlövh bir təbəssümə bürünmüş qəzəblə nəzər saldı: «Yazmağı yetmir, hələ bir danır da» — deyə düşündü; Əsədin sifəti alışıb-yandı.

— Qorxaq! — dedi astaca Xəzangül.

— Kim?—deyə Əsəd qızın hay-haray salmaq fikrində olmadığını görüb, azca ürəkləndi.

— Kim yazıbsa bunu, o! Sözün var, özünə de. Yoxsa...?

Əsəd heç nə söyləmədi, ürəyində özünü danladı: «Düz deyir də. Nədən qorxursan ki, ay Əsəd?...»

Xəzangül Əsədin yenə susduğunu görüb incimiş kimi başını yana döndərdi, qabağındakı kitab-dəftərini çantasına qoydu. Ancaq heç beş dəqiqə keçməmiş çönüb Əsədi dümsüklədi:

— Bıçağın var?

— Neyləyirsən? — Əsəd uçundu.

— Bunları pozacağam.

Əsəd əvvəl tutuldu, sonra sevinən kimi oldu, qeyri-ixtiyari əlini cibinə saldı ki, bıçağı versin. Ancaq nə fikirləşdisə:

— Yoxdu, — dedi.

— Yaxşı, — Xəzangül narazı halda pıçıldadı. — Mən səhər evdən bıçaq gətirərəm, pozaram, onda görərsən!..

«Bilir mən yazmışam», — deyə düşünən oğlan istədi desin ki, pozma Xəzangül, onu mən yazmışam,—lakin dili sözünə baxmadı, ürəyindən qopub gələnlər boğazında hardasa itib-batdı.

Sükut yaman uzun sürdü. Hər ikisi ürəyində danışırdı. Han-dan-hana Xəzangül bayaqkından tamamilə fərqli olaraq, mülayim bir səslə astaca xəbər aldı:

— Görəsən bu hərflər nə deməkdi, Əsəd?

Əsəd qızın həlim rəftarından yenə ürəklənib hərflərə sarı nəzər saldı, müəllimin diqqətini cəlb etməsin deyə əlini ağzının üstünə qoyaraq:

— Yəqin hərəsi bir sözün baş hərfidi, — dedi.

— Mən də elə bilirəm, ancaq görəsən nədi?

Əsəd, təbii ki, bu hərflərin altında gizlənən mənaları çox gözəl bilirdi, ancaq birdən-birə deməyə ehtiyat eləyirdi. Odur ki, yenə:

— Nə bilim? — dedikdə, gizli bir maraq hissilə alışıb-yanan və nəyin bahasına olursa-olsun, bu hərflərin müəmmasını elə indicə açmaq həvəsini heç cür boğa bilməyən Xəzəngül şux bir ədayla:

— Yaxşı, — dedi, — sən də fikirləş, mən də. Görək kim birinci tapacaq?

— Yaxşı.

Susdular. Müəllim lövhədə misal eləyən şagirdə nəyi isə başa salırdı, onun dediklərindən «sinus», «kotangens», «kvadrat» sözlərini qulaqları çalırdı. Taxtanın yarıdan çoxu cürbəcür rəqəmlərlə dolmuşdu. Ancaq Xəzangüllə Əsədin fikri burda — o dörd hərfin üstündə cövlan eləyirdi.

Qız ha düşünürdü onlara düz-ağıllı bir məna verə bilmirdi.

Əsəd isə elə görkəm almışdı ki, guya fikirləşir: həqiqətən də fikirləşirdi, ancaq o hərflərin nə demək olduğunu yox, (bunu onsuz da bilirdi) orda yazılanları dilinə gətirsə, Xəzangülün bunu

necə qarşılayacağını götür-qoy eləyirdi. Axırda özünün qorxaqlığından zəhləsi getdi və yazdığını düppələndüz qıza deməyi qərara aldı.

— Nə oldu, tapmadın? — Xəzangül hövsələsizlik göstərdi.

— Tapmışam deyəsən.

— Hə, nədi? — Xəzangülün səsindəki sevinci duymaq çətin deyildi.

Əsəd ürəkləndi, şəhadət barmağını «M» hərfinin üstünə qoyub dedi;

— «M» — «mən» deməkdir.

— Mən isə «Məhəbbət» kimi oxuyurdum…

— Yox, «mən» deməkdir.

— Bəs «S»?

— «S» «Sənə» deməkdir.

— Aha... Deməli, mən sənə... sonra?

— Sonra gəlir «Q» — «qurban» deməkdir...

— Oho, Bəs «O»?

— «O» da ki «olum» deməkdir, Xəzan...

Xəzangül hərflərdən gözlərini çəkmədi;

— Deməli, hamısı bir yerdə… — deyə həyəcanla pıçıldadıqda Əsəd ona imkan vermədi və ürəyində indiyəcən azı min dəfə təkrar etdiyi, Xəzangülə deməyə cəsarət eləmədiyindən titrək əlilə qara taxtanın üstünə qazdığı o cümləni ilk dəfə qızın özünə söyləməyə tələsdi:

— Hamısı bir yerdə — «mən sənə qurban olum» deməkdir, Xəzangül.

Bayaqdan onsuz da həyəcanlanmış, gərgin dəqiqələr keçirmiş Xəzangülün əsmər yanaqları nar çiçəyi kimi qızardı, partanın üstündəki əlləri əsdi və o, bilmədi əllərini harda gizləsin; gah aşağı, dizlərinin üstünə qoydu, gah da üzə çıxartdı. Əsədin çox böyük çətinliklərdən, ruhi sarsıntılardan sonra dediyi o bircə cümlə müəllimin səsini batırdı. O sehrli cümlə elə bil havaya hopmuşdu, dər-divara yazılmışdı, lövhəyə yazılmışdı — qızın qulaqlarında tez-tez səslənirdi, qəşəng, iri, qırmızı hərflərlə yazılmış

şəkildə gözünə dəyirdi hər yerdə. «Mən sənə qurban olum», «Mən sənə qurban olum»...

Bu səsdən başqa səs yox idi sinifdə. Və tək sinifdəmi! Xəzangül ilk dəfə onu sevən bir adamın dilindən eşitdiyi o şirin, o serhli sezlərin əfsununa düşmüşdü və onu nəhayətsiz dərəcədə bəxtəvər eləmişdi — hələ heç kəs heç vaxt onu belə sevinclərə qərq eləməmişdi. Yadına gəlirdi: o zaman bu səadət o qədər böyük idi ki, bircə anlığa düşünmüşdü ki, bundan sonra, bəlkə bütün ömrü boyu, heç kəs Xəzangülü bu qədər xoşbəxt eləyə bilməz. Hətta Əsədin özü də.

Xəzangül məsudluğunun coşğun dalğaları qoynunda üzə-üzə bir az utancaq, bir az bəxtiyar baxışlarla qanrılıb Əsədə baxdı və nə isə minnətdarlıq bildirən sözlər demək istədi, ancaq gülümsünməklə kifayətlənib susduqda Əsəd məftun nəzərlərini ona zillədi: Əsəd həmin cümləni təzədən təkrarən dilinə gətirmək istədisə də, bacarmadı. Lakin Xəzangül o sözləri Əsədin işıqlı, xoşbəxt gözlərindən bir də oxudu: «Mən sənə qurban olum».

Vaxt elə bil, onların istəyincə nizamlanmışdı, köklənmişdi: bu iki cavanın həsbi-halı buraya çatanda zəng çalındı və yaxşı ki, çalındı, çünki onlar sözlərini deyib eşitmişdi, artıq gəlməyə ehtiyac yox idi...

Zəng çölə vurulanda Xəzangül tələsik ayağa qalxdı, qabağına çıxan uşaqları o yan-bu yana itələyə-itələyə bayıra qaçdı. Qızın bu hərəkətinin nə demək olduğunu, əlbəttə, Əsəd o anlarda heç cür heç yerə yoza bilməzdi. Ürəyi, sevinci, məhəbbəti yerə-göyə sığışmayan Əsəd, balaca, qatlama partanın arxasında sığınıb oturmuşdu və sinifdə deyən-gülən, oynayan uşaqlara heyran-heyran tamaşa eləyirdi. Beş-on dəqiqədən sonra Xəzangül qayıdıb gələndə Əsəd onun belə tələsik gedişinin səbəbini anladı; o, əl-üzünə çırpmağa gedibmiş. Çünki gicgahlarından sallanan xurmayı tellərin ucu yaş idi, sifəti, xüsusilə yanaqları qızıl əhmədi alma kimi alışıb-yanırdı. Uzun kirpikləri aşağı enmişdi, uzaqdan baxanda adama elə gəlirdi ki, gözlərini yumub, indicə partalardan hansınasa toxunub yıxılacaq. Partaların ortası ilə üzü bəri addımla-

yanda da, keçib yerində oturanda da Əsədə gözünün ucuyla da baxmadı. Utanırdımı, sevinirdimi? — bunu Əsəd ha çalışdısa, müəyyən eləyə bilmədi və yaman nigaran qaldı. Sonrakı dərsdə də belə oldu. O gün onlar beləcə də ayrıldılar, Xəzangül çantasını götürüb gedəndə həmişə «xudahafiz» — deyərdi, indi onu da demədi.

Əsəd pərt olmuşdu, yəqin eləmişdi ki, Xəzangül inciyib, küsüb ondan, sabah yəqin rəfiqələrinə də əhvalatı açıb danışacaq; sözbaz, adam ələ salmağa bəhanə axtaran qızlara da elə bir him gərəkdi, sonra səni elə bəzəyib-düzəsinlər, sarısınlar ki, ömrün boyu dadı damağından getməsin. Fikirli-fikirli evə qayıdarkən yol uzunu belə düşünüb peşmançılıq çəkən Əsəd, nəhayət, axşam yata bilməyib çarpayısında qovrulanda bu qərara gəldi ki, səhər dərsdən sonra qalacaq, o hərfləri yazdığı kimi pozacaq; qoy qalmasın... Amma ertəsi gün Əsəd dərsə getmədi — doğrusu, qorxdu. Bu fikir onun beynində möhkəm kök salmışdı ki, Xəzangül elə dünən, rəfiqələrinə qoşulub dərsdən gedərkən əhvalatı onlara danışıb yoxsa onlar niyə elə şaqqanaq çəkib gülürdülər? Əsəd qızların səsini on beş-iyirmi addımlıqdan eşitmirdimi?.. Qəribə idi ki, bu gülüş o, səhər yerindən qalxıb dərsə getmək istərkən birdən-birə yadına düşdü və onun əl-ayağını süstəldib təzədən çarpayıya uzanmasına səbəb oldu... Və bütün günü ürək sıxıntısı ilə, çırpıntılar içində oturub gözlədi ki, indicə yoldaşlarından biri başılovlu gələcək və «bu işi sən tutmusan, Xəzangül səni bütün sinifdə biabır elədi!» — deyəcək... Belə olsa, əlvida məktəb, əlvida Xəzangül.

Lakin axşamacan kimsə gəlmədi. O biri gün Əsəd, qorxa-qorxa məktəbə yollananda ayağının biri gedirdi, biri yox, ürəyinin içini yeyirdi. O qədər ləng addımlamışdı, hətta dərsə də gecikmişdi.

Sən demə, Əsədin ehtiyatı, təşvişi əbəs imiş. Heç nə yoxmuş. Sinif həmin sinif idi, uşaqlar həmin uşaqlar idi: nə ələ salan vardı onu, nə gülən vardı... Ayaqları əsə-əsə keçib yerində oturandan sonra, rahat nəfəs aldı və ancaq bu zaman Xəzangülün

hənirtisini yanında duyub ürəkləndi, sirriii açıb başqalarına deməyi üçün ona dərin bir minnətdarlıq hissi varlığını gəzib, dolaşdı. Bu zaman Xəzangülün pıçıltısını eşitdi:

— Dünən dərsə niyə gəlməmişdin, Əsəd?

Əsədin qulaqları güyüldədi, ağlına gələn ilk yalanı uydurdu:

— Xəstə idim.

Xəzangül narahatçılıqla:

— Haran ağrıyırdı ki? — deyə soruşdu...

— Başım... azca ağrıyırdı, keçib getdi...

— Daha xəstələnmə. Yaxşı? Mən icazə vermirəm.

Əsəd bəxtiyarlıqla gülümsündü:

— Baş üstə.

Xəzangülün «Daha xəstələnmə. Yaxşı? Mən icazə vermirəm»— sözlərində ürəyi vardı. Qayğıkeşliyi, mehribanlığı, hələ desən, lap məhəbbəti də vardı. Xəzangül qüruruna sığışdırıb Əsədə deyə bilmədi ki, bəs dünən çox nigaran qaldım səndən yana. Gözüm elə qapıdaydı. Ürəyimə min cür şey gəlirdi. Heç bilmədim dərsdə necə oturmuşdum. — Qız bunları söyləmədi.

Əsəd rahat-rahat nəfəs alıb çantasından çıxartdığı kitabı partanın üstünə qoyanda... birdən donub qaldı. Onun da qarşısına, qara taxtaya həmin dörd hərf qazılmışdı. Oğlanın gözləri alacalandı, hərflər gah böyüdü, gah kiçilib bir-birinə qarışdı. Gicgahları tez-tez vurmağa başladı. Sonsuz sevinc içində dönüb Xəzangülə nəzər saldı — onda bir qımıltı görməyib təzədən hərflərə baxdı. Yox, bu, yuxu deyildi, onun da qarşısına «MSQO» yazılmışdı. Qəribə idi, o hərflər səsə çevrilmişdi, sözə dönmüşdü, Xəzangül o sözləri indi Əsədə pıçıltı ilə deyirdi elə bil: «Mən sənə qurban olum», «Mən sənə qurban olum»...

Əsədə sanki cəsarət verdilər. O, çiyni ilə Xəzangülün qoluna ehmalca toxundu və xəbər aldı:

— Bunu sən yazmısan?

—…

Xəzangül başını qaldırdı, Əsədin işarə elədiyi yerə baxmadan öz qabağındakı hərfləri göstərdi:

— Bəs bunu sən yazmısan?

—Niyə gözlərini döyürsən? Səndən söz soruşuram, bunu sən yazmısan?

Əsəd qeyri-iradi:

— Hə, — söylədi.

Xəzangül güldü:

— Onu da mən yazmışam, — dedi.

Baxışları bircə anlığa rastlaşdı. Əsəd titrək səslə:

— Çox sağ ol, Xəzan, — dedi. Bu sözlərdə təsəvvürə sığmayan bir minnətdarlıq, yerə-göyə sığmayan bir sevinc yaşamaqdaydı.

— Dəyməz, Əsəd. Taxta məktuba taxta məktubla da cavab vermişəm, — dedi Xəzangül və yenə güldü. Əsəd də güldü.

Gülünc vəziyyətə düşmək qorxusu olmasaydı, Əsəd bax elə indicə, sinifdə müəllimin, o qədər şagirdin qabağında ayağa qalxar, qışqıra-qışqıra sinifdən çıxar, küçə boyu yüyürər, «Mən xoşbəxtəm» deyə bağırardı. Hər qarşısına çıxana deyərdi — uşağa da, böyüyə də, cavana da deyərdi.

O xoşbəxt və unudulmaz gündən sonra bir neçə müddət ürəklərində özlərinin də hələ əməlli-başlı dərk edib qiymətləndirə bilmədikləri o şirin və əfsunlu duyğular aləmində qol-qanad atan iki cavan bir-birinin üzünə baxmağa utandı; sadəcə olaraq, baxışları, ürəkləri dolu idi — sözlə, hisslə, mahnı ilə. Ancaq, heç nə dilə gəlmirdi. Qəlblərdən qopurdu söz də, mahnı da, gəlib dilin ucunda qıfıllanırdı, bəndə düşürdü. Ürəklər oxuyurdu, ən şirin sözlər deyirdi, ən həzin şərqilər ötürdü. Səssiz mahnılar idi bu mahnılar. Gözlərə yazılmış mahnılar idi bu mahnılar.

İndi onlar üçün — məktəb qanunlarının əleyhinə olaraq — müəllim yox idi, dərs yox idi, kitab yox idi — zahirən hamısı vardı, əslində isə heç nə yox idi onlar üçün. İkisi də məktəbə bir-birini görmək üçün gəlirdi, nəfəsini duymaq üçün gəlirdi. Səhəri də intizarla ancaq bunun üçün gözləyirdilər...

Həmin ləziz günlərin birində, artıq məktəbə hamıdan əvvəl gəlməyə adət etmiş Əsəd öz yerində oturub Xəzangülün yolunu

gözləyirdi, Budur, o gəldi. Əsəd həsrət və məhəbbət dolu gözlərinin kirpiklərini, onu görən kimi qırpdı. Xəzangülün üzünün ifadəsi bunu görən təki dəyişdi, ciddiləşdi. Yerində oturarkən Əsədə irad tutdu:

— Mənə göz vurursan?

Əsəd özünü itirdi.

— Yox.

— Necə yox! İndicə göz vurmadın mənə? Belə eləmədin? — deyə o, eynən Əsəd kimi kirpik çaldı. — Belə eləmədin? Mənim göz vuran adamlardan zəhləm gedir.

Əsəd gülümsündü:

— Elədim. Ancaq o göz vurmaq deyil ha.

— Bəs nədir?

— Gözü elə vurmazlar. Göz vurmaq istəyəndə adam ya sağ, ya sol gözünü qırpır. Bu olar göz vurmaq. Amma mən elə eləmədim axı.

— Bəs necə elədin?

— Belə elədim, — Əsəd iki gözünü də qırpdı. — Bu isə göz vürmaq deyil..

— Bəs nədir?

— Bu, «mən sənə qurban olum» deməkdir, Xəzangül. Xəzangül təəccüblə:

— Hə?. — dedi.

— Hə.

İkisi də güldü. Xəzangül söylədi:

— Yaman çoxbilmişsən, ha. Taxta məktub, «mən sənə qurban olum»... bunlar kimin ağlına gələrdi?

O gündən sonra Əsəd hər dəfə Xəzangülü görəndə bircə dəfə gözlərini qırpardı, yəni «Mən sənə qurban olum». Əvvəllər Xəzangül buna gülümsəməklə cavab verirdi, sonra o da öyrəşdi: o da Əsədə göz qırpmaqla cavab verirdi: «Mən sənə qurban olum»...

Çiskinli payız başlanmışdı. Həyətlərdəki çinarlar, söyüdlər yarpaqlarını saraldıb tökmüşdü. Tez-tez yağışlar yağırdı, küləklər əsirdi. Gərək ki, oktyabr bayramına yaxın idi. Səhər-səhər Əsəd

dərsə gedirdi. Qabağına əlində bir dəstə qızıl gül bazardan qayıdan bir qız çıxdı. Əsədin gözü qızın əlindəki güllərə sataşdı. Güllər elə gözəl idi ki... yəqin məktəbə müəlliminə aparır. Əsədin də ürəyində Xəzangülə gül aparmaq arzusu doğdu və o, bazara nə vaxt girdiyini heç bilmədi də. Piştaxtanın üstündə, iri şüşə qablara qoyulmuş güllər — qərənfillər, zanbaqlar, qızıl güllər o qədər gözəl, cazibədar, bihuşedici idi ki, Əsədin gözləri axdı — o, gülü heç vaxt belə gözəl görməmişdi. Özü də payızın bu vədəsində: Ətri az idisə də, qəlbində coşub çağlayan o şairanə hisslərlə bu bir gül gülüstana döndü və onda, bütün bu gülləri almaq, qucağına yığıb Xəzangülün yanına aparmaq, ləçək-ləçək eləyib qızın zərif, qəşəng vücudunu qızılgüllər içində qərq eləmək istəyi baş qaldırdı.

Sən bir təsəvvür et, Xəzangül qızılgüllər arasındadı, ayaqları, dizləri, bədəni, əlləri, bütün vücudu qızılgüllər arasındadı. Təkcə başı görünür, təkcə ala gözləri, gül ləçəkləri içində od saça-saça parıldayır və bəxtəvər-bəxtəvər gülümsünür. Nə gözəldi, aman allah. Hələ indiyəcən heç kəsin ağlına gəlməyib ki, öz sevdiyini beləcə, qızıl güllər içində itirsin, ona baxıb sevinsin, bundan əvəzsiz ləzzət alsın. Yox, heç kəsin ağlına gəlməyib.

Bu xoş xəyallar aləmində, əlini cibinə salanda barmaqlarına toxunan soyuq əlliqəpiklik bircə anının içində hər şeyi alt-üst elədi, özünün qadir olduğu əlliqəpiklik dünyasına qaytardı. Bayaqdan xəyalpərvərliklə nur saçan, öz Xəzangülünü güllər arasında görən gözlərinin işığını kədər söndürüb öləzitdi. Arzuları ilə imkanı arasındakı böyük, dərin uçuruma üstdən-aşağı baxanda gözləri qaraldı, başı gicəlləndi və sinəsindən soyuq bir ah çəkdi.

Təpərsiz, cəsarətsiz səslə gülsatan saqqallı, qırmızıyanaq kişiyə müraciət eləyib:

— Mənə bir dənə gül ver, əmi, — dedi və barmaqları arasında tutduğu ağ əlliqəpikliyi irəli uzatdı. Kişi təyyarə meydanına oxşayan papağının arxasını qaldırıb sir-sifətini turşutdu:

— Cavan oqlan, gülü bir dənə almazlar, — dedi.

— Mənə bir dənə lazımdır. — Və belə deyərkən utandı-

ğından sıxılıb kiçildiyini hiss elədi və düşündü; «yaxşı ki, adamın ürəyindən keçənləri başqaları bilmirlər».

Gülsatan seçib hələ tamam açılmamış, yarıqönçə-yarıgül olan bir qıçanı Əsədə verdi. Görürdü ki, ondan da yaxşı güllər var orda, ancaq kişi bunu oğlana uzatdı — Əsəd pulunun yəqin az olduğunu nəzərə alıb heç nə söyləmədi.

Əsəd bazardan çıxanda sıxıntısını artıq unutmuşdu, quş kimi yüngül idi. Tək gülü çantasına, kitabların üstünə yanakı qoymuşdu — əzilməsin deyə. Məktəbdə, o yan-bu yana baxa-baxa, oğurluq edirmiş kimi, gülü xəlvəti çıxarıb Xəzangülün partasının gözünə qoydu.

Bir azdan Xəzangül gəldi, uzaqdan göz qırpmaqla səssiz-səmirsiz «mən sənə qurban olum» dedi, yaxınlaşıb dili ilə, adi qaydada:

— Salam, — söylədi Əsədə.

— Salam, — deyə Əsəd cavab verdi. Xəzangül yerində əyləşib qatlama partanı açanda burnuna xoş ətir dəydiyindən əyilib aşağı baxarkən tək qızılgülü gördü, duruxdu... çönüb böyründə oturmuş Əsədə baxdı; Əsəd mehriban-mehriban qımışdı.. Xəzangül ətrafa nəzər salıb çantasını sağ — tərəfdən dikinə qoyaraq (Bunu belə elədi ki, ikinci cərgədə, axırıncı sıralarda oturanlar görməsinlər) ehtiyatla gülü çıxartdı, sonra başını aşağı əyib ciyərdolusu qoxladı onu — ətri sanki bihuş elədi Xəzangülü, sanki ruhuna qəribə bir sərinlik, saflıq axdı onun, ala gözləri süzülüb yumuldu.

Xəzangülü izləyən Əsəd düşündü ki, bir güldə nə böyük hikmət varmış, necə mübhəm bir əfsun varmış, ay aman! O, gül alıb gətirdiyindən çox məmnun oldu.

Xəzangül başını qaldırıb hələ də axım-axım axan gözlərini Əsədə dikib məstanə bir səslə:

— Çox sağ ol, Əsəd, — dedi.

— Dəyməz, əzizim...

Əsəd o gündən sonra, hər dərsə gələndə, atasının cib xərcliyi üçün verdiyi əlli qəpiyi boğazından kəsib bazara gedər,

gülə verər, Xəzangül üçün gül gətirərdi. Xəzangül isə hədsiz bir fərəh içində o gülü hər dərsdə bircə dəfə xəlvətə salıb iyləyər, sonra guya yorulubmuş kimi, başını da «MSQO» sözlərinin üstünə qoyaraq elə bil, ordan da Əsədin taxtaya həkk olunmuş ürək sözlərini — «Mən sənə qurban olum»u dinlər, evə gedəndə isə, o tək gülü əzilib ləçəklərinin töküləcəyindən qorxa-qorxa çantasına qoyub apardı. Sonralar, Əsədin gül gətirməsi bir adət halına düşəndən, Xəzangüllə əhd-peyman bağlayıb iki canda bir ürək olacaqlarına and içəndən sonra, qayğısız günlərin birində aralarında belə söhbət olmuşdu:

— O gülü evə aparıb neyləyirsən, Xəzan?

— Neyləyirəm? Qoyuram stakanın içinə, qoyuram stolumun üstünə.

— Bəs Fatma xala demir bu gülü sənə kim verir?

— Bir dəfə soruşdu. Dedim özüm alıram. Ta deyə bilməzdim ki, sinifimizdə bir qəşəng oğlan var, o alır.

— Əlbəttə, hələ demə. Sən elə deyəndə inandı xalan?

— Nə bilim, hər halda mən bu cür söylədim...

— Yaxşı demisən, Xəzan. — Əsəd, partanın üstündə, çantanın böyründə qoyulmuş qızılgülə baxıb soruşmuşdu — Bəs... solandan sonra... yəqin atırsan, eləmi?.

— Yox, nə danışırsan, Əsəd? Sənin verdiyin gülü heç atarammı?

Əsəd gülümsündü:

— Bəs neyləyirsən?

— Quruyunca, saralıb-solunca saxlayıram. Soldumu, ləçəklərini qoparıb pəncərənin ağzına sərdiyim qəzetin üstünə tökürəm. Həftədə altı gül... xeyli yığılıb...

— Neyləyəcəksən onları?

— Mən də əvvəl bilmirdim, ancaq bir gün xalam mənə dedi ki, görürəm o güllər sənin üçun əzizdi, bala. Heyfdi, elə açıq qalıb quruyar, ovulub tökülər. Bə neyləyim — dedim. Dedi ki, parça verim, bir balaca balış tik, o ləçəkləri doldur içinə.. olsun-sənin üçün nazbalış. Allah qoysa, ərə gedəndə cehizlərinin üstündə

apararsan, onda o gülləri sənə verən oğlana da ləzzət eləyər, bala.

Əsəd gülmüşdü:

— Onda hər şeyi bilir ki, Fatma xala...

— Necə yəni bilir?

— Bilir də, bilməsəydi elə deməzdi..

— Nə bilim... — Xəzangül ani fikrə getmişdi.

— Bəs sən nə cavab verdin?

— Nə cavab verəcəyəm? «Arvada bax ey» — deyib çölə qaçdım.

Azca sükutdan sonra Əsəd:

— İndi xalan söyləyən kimi eləyirsən, ya? — dedi.

— Hə, Əsəd, yığıram... o güllərin ləçəklərini…

— Elə isə, — Əsəd xəyalın qanadlarında gələcəyə uçmuşdu. — Mən sənə indidən «çox sağ ol, əzizim» — deyirəm...

Xəzangül qızarıb başını aşağı salmışdı.

Onların bəxtəvər günləri, güllü-çiçəkli günləri mayın axırınacan davam etmişdi. Peyman bağlamışdılar ki, onuncunu qurtaran kimi ikisi də sənədlərini Universitetin filologiya fakültəsinə verəcək, qəbul olunacaqlar. Bu, şübhəsiz idi — beş il bir yerdə oxuyacaqlar, o beş il ərzində də ona gül alıb gətirəcək, sonra evlənəcəklər, doğma məktəbə qayıdacaqlar, xoşbəxt-xoşbəxt yaşayacaqlar. O qədər şirin xəyallara dalmışdılar ki... .

Ancaq... Əsədin taleyi birdən döndü. İstəyi ürəyində, arzusu gözündə qaldı. Dadlı, doyulmaz duyğularla çırpınan cavan qəlbinə gözlənilmədən ağır bir zərbə vuruldu. Başqası vurmadı onu, Xəzangül — dünyalarca istədiyi, yolunda ölməyə belə hazır olduğu Xəzangül vurdu. Xəzangül qəfil, birdən-birə döndü. Əsəddən üz döndərdi. Elə bil onu kimsə tamam dəyişmişdi — zahirən Xəzangül idi, amma batinən əvvəlki qızdan əsər-əlamət qalmamışdı; sanki ürəyini, gözlərini kimsə başqa gözlərlə əvəz eləmişdi. Bu ürək ona rəhm eləmirdi, onun fəryadlarına, iniltilərinə biganə idi; bu gözlər daha onu görmürdü, qırpılıb «Mən sənə qurban olum» demirdi. Günlərin birində əvvəl danışdırmadı, sonra gətirdiyi gülü götürmədi, — gül neçə gün partanın gözündə susuz qalıb soldu.

Lap sonra isə Əsədin yanından «köçüb» bir qızın böyründə əyləşdi. Elə bil o, heç Əsəd adlı adam tanımırdı, görməmişdi, istəməmişdi. Əsəd yox idi artıq onun üçün, ölmüşdümü, itmişdimi? — bilmirdi:

Həyatında ilk dəfə belə ağır sarsıntı görən Əsəd çaşıb qalmışdı, qəribə bir ürək sıxıntısı içində günlərini, gecələrini çalıxıb-çapalamaqla keçirir, baş sındırır, düşünüb-daşınır, Xəzangülün bu qəfil dönüklüyünün səbəbini heç cür tapa bilmirdi. Hövl eləyirdi, bəzi ixtiyarsız ağlayırdı.

Dəfələrlə dərsdə, məktəbdən çıxıb evə gedəndə Xəzangülün qabağını kəsib: «Axı sənə nə olub, niyə belə eləyirsən?» — demişdi.

Əvvəllər yalvara-yalvara, sonra hövsələdən çıxıb qışqıra-qışqıra soruşmuşdusa da, qız saymazyana böyründən keçib getmişdi, sorğu-sualını cavabsız qoymuşdu. Sadəcə, saymamışdı onu. Nə səsini eşitmişdi, nə ağlar üzünü görmüşdü. Sən demə, Xəzangül gözəl olduğu qədər də, qəddar imiş. Sən demə o, sevə bildiyi kimi, dönə də bilərmiş...

İnsan belə dönük, belə etibarsız ola bilərdimi? — Bu, Əsədin ağlına heç cür batmırdı. Yazıq, yeməyindən, içməyindən qalmışdı, şirin yuxusundan olmuşdu. Bəzən günlərlə dərsə gedə bilmirdi, gələndə isə nigarançılıqla gözləyirdi ki, Xəzangül, bax, indicə gəlib soruşacaq: «Dərsə niyə gəlmirdin?» Cavab verəcək: «Xəstə idim». Xəzangül deyəcək: «Daha xəstələnmə. Mən icazə vermirəm», Gözləyirdi, lakin Xəzangül yaxınlaşmırdı, hələ bu bir yana, heç gözünün ucuyla da baxmırdı... Hamı, sinif yoldaşları maraqlanırdı, təkcə Xəzangül yox...

O günlər, əgər diqqətlə fikir verən olsaydı, Əsədin dəli olmaq dərəcəsinə gəldiyini aydın görə bilərdi. Yaxşı ki, atası onda evdə yox idi, harasa ezamiyyətə göndərmişdilər, yoxsa kişi hər şeyi başa düşə bilərdi. Belə ağır dərdi o, dörd divar arasında tək çəkdi. Yoldaşlarından da kimsəyə deyə bilməzdi, — əvvəlini deməmişdi, acı aqibətini necə deyə bilərdi. Kimsənin yanında sınmaq istəmirdi. Hətta o əhvalatın üstündən iyirmi il keçəndən

sonra da, bax, elə bu gün, Aliyə xanımın hüzurunda da haçansa bir dönük, əhdi-ilqarı dizinin üstə olan bir qız tərəfindən amansızca sındırıldığını, çilik-çilik edilib ayaqlar altına atıldığını qüruruna sığışdırıb dilinə gətirmək istəməmişdi.

İyunun ortalarında — düz on beşi idi, Əsəd o günü ölənəcən unutmayacaqdı — gözlənilmədən ortaya çıxmış müəmma həll olundu.

Ay aman, sən demə, Xəzangül ayrısına könül veribmiş. Sən demə, onu birdən-birə, tanınmaz, ağlasığmaz dərəcədə dəyişən adam varmış. Kaş bunu Əsəd bilməyəydi, kaş bunu Əsəd gözləri ilə görməyəydi. Eləcə, nigarançılıq içində, beynində o qəribə və müşkül müəmmanın açarını axtara-axtara, partlaya-partlaya yaşamaq bundan min dəfə yaxşı imiş.

Dərslər qurtarmışdı, uşaqlar çantalarını götürüb evə gedirdilər. Əsəd, qəlbində min cavabsız sual, özündən asılı olmayaraq, Xəzangülün ardınca addımlayırdı. O, on-on beş qədəm irəlidə başını aşağı salıb çantasını yellədə-yellədə yeriyirdi. Əsəd bu gün də istəyirdi qaçıb ona çatsın, danışdırsın, bu dönüklüyün səbəbini bir də, bir də soruşsun, ancaq qıçları sözünə baxmadı, elə bil, ayaqlarını bir-birinə bağlamışdılar; Xəzangül getdikcə ondan uzaqlaşır, aradakı məsafə çoxalırdı. Aydan artıq müddətdə qəlbinə damcı-damcı daman, vaxt ötdükcə ümmanlaşan inciklik hissi də sanki bu gün daha da güclənmişdi — bu gün tam dərinliyi və aydınlığı ilə anlamışdı ki, Xəzangüldən inciyib, özü də bərk inciyib. Yox, daha onu danışdırmayacaq, lap gəlib üzr istəsə də... Lakin, bu qəribə idi ki, elə o cür düşündüyü anda, qəlbinin dərinliyindən gələn bir səs eşitdi: «Yox, Əsəd, bunu sən bacara bilməzsən. O, sənin özün olub — özündən necə küsərsən?.. O, qayıtsa, üzünə xoş baxsa, şirin bir söz desə, sənin bütüi incikliyin uçub gedər, sən təzədən xoşbəxt olarsan, bu bir ay ərzində çəkdiyin bütün əzabları unudarsan; bircə anda unudarsan...»

Bəli, o, Xəzangülün ardınca belə təzadlı, çalpaşıq düşüncələr qoynunda gedirdi. Və birdən... Əsəd gördü ki, dörd yol ayrıcında, su köşkünün yanında Xəzangülün qənşərində ucaboylu, şıq

geyinmiş, gözlərinə qara eynək taxmış qəşəng bir oğlan peyda oldu. Oğlanın üzü bəri — Əsədə sarı idi. Xəzangülə çatan kimi, dodaqları aralandı — güman ki, salamlaşdı — qızıl dişləri göründü oğlanın. O, qəribə bir əda ilə, sol qolunu irəli uzadıb saatına baxdı — saatı da qızıldandı, qolbağı da qızıldandı... Nəsə danışdılar, sonra qız, oğlana hiss etdirməməyə çalışaraq, çevrilib gəldiyi yola boylandı. Bu an Əsəd onun şən, təbəssüm qonmuş üzünü gördü, gülən ala gözlərini gördü — və tez də qız, çevrilib qabağındakı oğlana baxdı. Əsədi görmüşdü Xəzangül! Ona görə belə fövri çevrilmişdi. Oğlan dayanmışdı, yıxılmamaq üçün əlini yolun qırağındakı ağacın gövdəsinə söykəmişdi. Gözləri pər-pər vururdu. Küçə də, küçədəki ağaclar da, asfalt yoldakı maşınlar da, binalar da sanki havada rəqs eləyirdi. Xəzangüllə oğlanın dayandığı nöqtəyə baxmaq istəyirdi, ancaq bəbəklərinin önünü yaş pərdəsi tutmuşdu, gözünə tor gəlmiş adam kimi daha heç beş addımlığını da görmürdü.

Bu vəziyyətdə çoxmu qaldı, azmı — bilmirdi. Handan-hana ayılanda artıq Xəzangül də, o qara kostyumlu oğlan da adamların arasında yox olmuşdu, Əsəd, aramsız çırpınan ürəyi ilə ağacın yanında ağaca dönmüşdü.

Əsəd yamanca sarsılmışdı; düz üç gün, üç gecə çarpayısında üzüqoylu qaldı — bihuşluqla bidarlıq arasında bədəni od içində yana-yana çırpındı, çırpındı; nə yata bildi, nə durub dərsə gedə bildi. Ürəyində Xəzangüllə hey danışırdı, sorğu-sual eləyirdi, lakin sualları cavabsız qalırdı ki, cavabsız qalırdı... İndi də ondan bərk incidiyini dərk elədi, amma daha içindən, qəlbindən qulağına səs gəlmədi: «Yox, küsə bilməzsən, inliyə bilməzsən». — Deyəsən, bir az qabaq Əsədi danlayan bu daxili səs daha susmuşdu, ölmüşdü.

Əsəd özü üçün son dərəcə ağır olan bir acı həqiqəti bütün çılpaqlığı ilə anladı ki, Xəzangül onun ömür bağının güllərini, çiçəklərini soyuq nəfəsli xəzana tapşırıb birdəfəlik uçub getmişdir, hara, kimin, yanına? Daha onun üçün nə fərqi vardı? Getmişdi. Vəssalam. Dünyada çox yollardan geri qayıtmaq olar. Ancaq

Xəzangülün getdiyi yol elə idi ki, ondan geri qayıtmaq mümkün deyildi — bu yol gedər-gəlməz yoldu...

Dördüncü gün o, məktəbə gələndə tamam arıqlamışdı, gözləri çuxura düşmüş, almacıq sümükləri çıxmışdı. Yoldaşlarının, müəllimlərinin «hardaydın, sənə nə olub?» suallarına müxtəsərcə «xəstələnmişdim» — deyə cavab verirdi. Çünki bu, ən münasib, canqurtaran cavab idi. Biçarə kölgəyə dönmüşdü, səssiz-səmirsiz gəzib-dolaşan cansız kölgəyə. Deyib-gülən, şən-şalayın Əsəddən əsər-əlamət qalmamışdı. Müəllimlərin dediklərini dərk eləmirdi, oxuduqlarını qavrayıb yadda saxlamırdı, az-maz bildiyi şeyi də danışa bilmirdi — elə bil, hamıdan gözəl, səlis danışan Əsəd deyildi, nittinin zənciri tez-tez qırılırdı, hamı təəccüb eləyirdi. Xəzangüldən başqa hamı. Çünki bunun səbəbini bilən yeganə bir adam vardısa, o da Xəzangül özü idi. Onu belə halda görəndə peşman olurdumu, vicdan əzab çəkirdimi, utanırdımı?

Bunu Əsəd söyləyə bilməzdi. Üz-gözündən, rəfiqələri ilə xoşbəxt-xoşbəxt danışıb gülməsindən peşman adama oxşamırdı, əzab çəkən adama oxşamırdı...

Xəzangül üçün sinif də yox idi — deyəsən həyatda da yox idi. Qəribə idi ki, o da Xəzangülü — indiki Xəzangülü görə bilmirdi onun beynində, gözlərinin aynasında əvvəlki, iki ay, üç-beş ay bundan qabaqkı Xəzangül yaşayırdı, indiki yox. Xəzangül son günlər, sanki Əsədin acığına, daha da qəşəngləşmişdi; indi gözəl-gözəl paltarlar, ayaqqabılar geyirdi. Qız yoldaşları deyirdilər ki, ölmüş, bu paltar sənə yaman yaraşır, Xəzangül...

Bu yandan da vaxt haqlamışdı, buraxılış imtahanlarına az qalırdı. Müəllimlərin çoxu, Əsədə əvvəlki rüblərinin qiymətini yazmaqdan başqa ayrı çarə görmürdü və tez-tez: «Belə getsə sənin işin çətin olacaq, Əsəd. Dövlət imtahanlarından kəsilə bilərsən, bala, — deyirdi. Bu qorxu isə ona çatmırdı, heç tükü də tərpənmirdi Əsədin. Deyilənləri key-key dinləyir, başını aşağı salıb susurdu.

...Buraxılış gecəsi... Onuncular üz-gözündən fərəh yağa-yağa məktəbin uzun, işıqlı zalına yığışıblar. Stolların üstü bəzə-

nib... Güllər, şirniyyat, meyvə... Hamı kimi, Əsəd də gəlib, Əsəd son dəfə Xəzangülü, uzzqdan da olsa görmək, ömürlük yadda saxlamaq arzusu ilə gəlib. Çünki kim bilir, sonra onu bir də görə biləcəkdimi? Tale onun üçün daha nələr, nələr hazırlamışdı, hara atacaqdı? Nigaran-nigaran qapıya baxır. Kədərlidir, hamı gəlib... Yəqin indicə Xəzangül də gələr — özü də yəqin ən qəşəng paltarını geyib gələcək...

Müəllimlər danışır, musiqi çalınır, onunculardan kimsə kövrələ-kövrələ vida sözləri deyir... Ancaq Xəzangül yoxdur, vaxt keçir, o, gəlib çıxmır... Məyus-məyus, gözü yolda düşünür ki, daha gəlməyəcək, onu yəqin o uzun, qəşəng oğlan buraxmayıb, yəqin ya kinoya, ya teatra aparıb.

Ürəyi qısılır, heç kəsə heç nə hiss elətdirmədən yavaşca yayınıb aradan çıxır. Və həmin gecə, dan yeri ağaranacan tək-tənha dəniz qırağında dolaşır. Ayaqları zoqquldayıb şişmiş halda saat altıda yerinə girəndə nədənsə son dərəcə qüssəli-qüssəli: «Əlvida, doğma məktəb, əlvida, Xəzangül». — deyə öz özünə pıçıldayır...

...Əsəd sınıq qəlblə, pərişan fikirlə, yayın cırramasında bişə-bişə, böyük çətinliklə də olsa, imtahanları verib universitetə daxil oldu, ancaq isinişə bilmədi. Qaynar, coşqun gənclik arasında gəzib dolaşsa da, özünü tək sandı, tənha sandı. Tələbələr də, müəllimlər də onu ciddi, qaradinməz bir oğlan kimi tanıyırdılar. Həftələr, aylar keçdikcə, semestrlər bir-birini əvəz etdikcə Əsəd bir kimsə ilə (Sakitdən başqa, ona da heç nə deməzdi) qaynayıb qarışmır, tənəffüsdə dəhlizdə, divar dibində qayğılı-qayğılı gəzir, öz daxili aləminə qapılıb yaşayırdı. Getdiyi yer universitet, kitabxana, qayıt-dığı yer — ev, məşğuliyyəti, həmdəmi kitablar idi. Universitetdə cavan, qəşəng, su sonası kimi qızlar vardı; öz siniflərində də qrupun yarıdan çoxu qız idi. Ancaq kimsə onun gözünü qamaş-dırmır, qəlbini titrətmirdi. Bəzi qızlar özü onu şirin dillə dindirir, yeri gələndə söz atır, ancaq Əsəd qımıldanmır, bunların heç birinə əhəmiyyət vermir, eləcə mənalı baxıb gülümsünməklə kifayət-lənirdi. Xəzangül, deyəsən, Əsədin qəlbini həmişəlik özü ilə

aparmışdı, daha doğrusu, sinəsindən qoparmış, hardasa salıb itirərək getmişdi. Əsəd bu illər ərzində ürəksiz yaşamışdı demək olar ki. Beynində, xəyalında Xəzangüldən acı bir xatirə, gözgöynədən, yara sızıldadan bir məyusluq, küsgünlük qalmışdı və onu heç vəchlə tərk eləmirdi — yol yoldaşı, yuxu yoldaşı, bir sözlə, bu nisgil ömür-gün həmdəmi olmuşdu onunla.

Beş il, beləcə, Xəzangüllü on ay kimi, demək olar ki, çox sürətlə, hiss edilmədən, göz qırpımında gəlib keçdi. Vaxt oldu, doğma şəhərlə, əziz atası ilə vidalaşıb uzaq dağ kəndinə yola düşən çağlarda da Xəzangülü axtarmadı, yoldaşlarını görəndə soruşmadı onu, kimsənin yanında adını belə dilinə gətirmədi — çünki yaman incimişdi, bu incikliyin qədərini ancaq öz məhəbbətinin böyüklüyü ilə ölçə bilərdi, başqa heç nəylə yox. Xəzangül onun cavan ürəyinin bütün arzularını rəhmsizcəsinə alt-üst eləyib getmişdi, ömür bağçasında ilk dəfə qönçələnib açılan o gözəl gülləri insafsızcasına yolub əzik-əzik edərək yelə vermişdi. Səbəbini də deməmişdi, qəfildən eləmişdi. Sanki güclü bir tufana dönmüşdü, nagahan qalxıb onu — hələ torpağa dərin rişə salmamış, qol-budaq atıb pöhrələnməmiş bir ağac kimi kökündən qoparıb yerə yıxmışdı, illərdi də ki elə hey sürüyür, sürüyür, göz açmağa, ətrafa baxmağa imkan vermirdi; bərkiməmiş qolu-budağı sınmışdı, yarpaqları çoxdan haralardasa tökülüb xəzəl olaraq torpaqlara qarışmışdı; təkcə gövdəsi qalmışdı, quruca gövdəsi. Bəli, o vaxtdan ötən bu uzun, hicranlı illər ərzində Xəzangül bu quruca gövdədə, onun içində, şirəsində acılı-şirinli bir xatirə kimi yaşamışdı. O xəyal — Xəzangül Əsədə o qədər doğmalaşmışdı ki, daha Xəzangülün özünə, görüşünə, həsb-halına, söz-söhbətinə, izahatına ehtiyac qalmamışdı. İşdi əgər Xəzangülü təsadüfən küçədə görsəydi, danışdırsaydı da, indiki Xəzangül o vaxtkını əvəz edə bilməzdi. O başqa adam idi, bu başqa adam. İllər ötdükcə Əsədin qəlbindəki Xəzangül munisləşmişdi, ilahiləşmişdi, özününkü olmuşdu—onu artıq heç kəs, hətta Xəzangülün özü də Əsədin əlindən ala bilməzdi, buna qüdrəti çatmazdı. Bu Xəzangül isə, indi hardasa yaşayan, kiminsə ya sevdiyi, ya heç saymadığı,

yaxud adicə bir arvad hesab elədiyi Xəzagül isə yadlaşmışdı, özgələşmişdi; kim bilir kimin arvadı olmuşdu, kimin əzizi olmuşdu?

Xoşbəxt olmuşdumu, bədbəxt olmuşdumu — xəbəri yox idi. Bilmək də istəmirdi. Görsə, heç tükü də tərpənməzdi, sadəcə, baxar, baxar, köks ötürüb çıxıb gedərdi. Yaxud, ən uzağı əgər danışmalı olsaydılar, soruşardı: «O zaman çox soruşdum, demədin. Bəlkə indi deyəsən, deyəsən ki, sənə nə oldu birdən-birə, elə döndün, əhdü peymanı unutdun, namərdlik, etibarsızlıq elədin, məni sinədağ eləyib getdin? Üstündən bu qədər vaxt keçəndən sonra, bəlkə indi, o vaxt cavabsız qalan suallarıma cavab verəsən?...» Vəssalam. Görəsən, cavab verərdimi və əgər versəydi, nə deyərdi görəsən?..

Ancaq, görünür Əsəd səhv edirmiş, Əsədin dili belə deyirmiş; çünki o, bu il öz doğma məktəbinə qayıdıb gələndən və eynən onun dönük Xəzangülünə oxşayan Sahiləni görəndən sonra bu vaxtacan kimsəyə açıb demədiyi o kövrək, boynuburuq xatirələrin baş qaldırıb oyanması onu elə çaşdırmışdı ki, elə sarsıtmışdı ki, yatsaydı yuxusuna da girməzdi. On beş gün idi o, həmin uzaq, əlçatmaz günlərə qayıtmışdı, nə qədər çalışırdısa, özünü on beş ilin müəllimi hesab eləyə bilmirdi, bu sinfə girən kimi dönüb uşaqlaşırdı, uşaqlara qoşulub partanın arxasına keçmək, Sahilə adlanan o gözəl, o Xəzangülü xatırladan qızın yanında oturmaq istəyirdi. Unudurdu hər şeyi. Davranışındakı, hərəkətlərindəki qeyri-adiliyi, unutqanlığı, çaşqınlığı görürdü, dərk edirdi, lakin özü ilə bacara bilmirdi; o, hardasa uşaqların da ona qəribə baxdığını, rişxəndlə gülümsündüyünü, kiminsə arabir fit çaldığını hiss etməyə bilmirdi, ancaq, dəfələrlə «sakit ol, Əsəd, burda nə var ki?» — deyə özünü danladığına baxmayaraq, bunun qarşısını almağa təpəri olmurdu. Elə bil tilsimə düşmüşdü. Ona görə də bu nigarançılığına son qoymaq üçün dünən Əsəd müəllim axırıncı dərs qurtaranda, əllərində çanta evə tələsən uşaqların arasında baxışları ilə arayıb Sahiləni tapmış və qız yanından keçəndə demişdi:

— Sən qal, Sahilə, səninlə işim var...

Sahilə rəngdən-rəngə düşərək heç nə söyləmədən, eyni zamanda narazılığını gizləməyə çalışmadan çantasını birinci partanın üstünə qoyub elə ayaq üstə dayanmışdı. Uşaqların qulağı darı dəlirmiş, sən demə. Aralarında pıçhapıç düşdüyünü, ötürhaötür «Müəllim Sahiləni saxladı.» — deyə qızların bir-birini xəbərdar etdiyini eşitməmişdi. Əsəd: «Hə, — deyə düşünmüşdü, — indi soruşacağam. Sən Xəzangülün qızı deyilsən ki? - Qoy bilsin ki, qoy bilsin ki, mən...»

Əsəd qarşısındakı jurnala bu gün keçdiyi dərsin adını yazıb qol çəkmiş, başını qaldırıb:

— Sahilə, — demişdi ki, sinifdə başqa hənirti duyub çevrilmiş və gözlərinə inanmamışdı. Həmişə arxada, Sahilənin partasının qonşuluğunda əyləşən, səliqəli geyinməyi, ciddiliyi, yaxşı dərs oxumağı ilə yoldaşlarından seçilən Ərəstun adlı oğlan da sinifdə idi. Ayaq üstə dayanmışdı, görkəmindən bilinirdi ki, heç bir işi yoxdu, elə belə dayanıb. Üzündə nə isə bir əsəbilik gizlənib, nifrətin kölgəsi gözlərində əks olunub, Əsəd təəccüblə sözünü yarımçıq qoyub:

— Bir sözün vardı, Ərəstun? — deyə soruşmuşdu.

O, çantasının qulpunu bərk-bərk sıxaraq,

— Yox — demişdi. Demişdi və baxışlarını aşağı endirmişdi.

— Bəs nə gözləyirsən, bala?

— Heç nə... — Ərəstun quru, gər səslə cavab vermişdi.

— Onda... gedə bilərsən.

Ərəstun çantasını qaldırmış, gözlərini müəllimdən çəkmədən addım-addım irəli yerimiş və onların yanına çatanda dayanmışdı.

Sahilə çaşıb qalmışdı. Ərəstuna acığı tutmuşdu. Ha istəyirdi göz-qaşla ona başa salsın ki, çıx get, qoy görüm bu kişi nə deyəcək. Lakin, görünür, yamanca əsəbiləşmişdi. Ərəstun ona baxmırdı.

— Hə, buyurub gedə bilərsən, Ərəstun, — Əsəd mülayimliklə dilləndikdə o:

— Getməyəcəyəm, müəllim! — söyləmişdi. Və bu iki söz çox sərt səslənmişdi. — Nə sözünüz var, mənim yanımda deyin.

Əsəd elə bil yuxudan ayılmışdı. Soruşacağı da, ayaq üstə dayanan Sahilə də yaddan çıxmışdı. Sonra... sanki birdən-birə hər şey əyan olmuşdu Əsədə. Və bayaqdan təəccübün, heyrətin bozartdığı sifətində işıqlı bir təbəssüm gəzib-dolaşmışdı. Ərəstun Sahiləni sevirmiş. Bəli, sevirmiş, Əsəd, yenə az keçmiş günlərini xatırlamış, dönüb Sahiləyə, oğlana xoş bir qibtə hissilə baxmışdı. «Sevir, özü də necə yaraşırlar bir-birinə».

Əsəd gülümsünmüşdü, bu təbəssüm Ərəstunun qırışığını azca açmış, gərginliyini azca azaltmışdı: oğlan qəribə bir sövq-təbii ilə başa düşmüşdü ki, müəllimin ürəyində pis niyyət yoxdu, hərəkətinin yersiz olduğunu anlamışdı; lakin gec idi, tələsmişdi Ərəstun. Deyəsən, onun belə eləməyi Sahilənin də acığına gəlmişdi, oğlana acıqlı baxırdı, həyadanmı, qəzəbdənmi heç nə deyə bilmirdi.

Əsəd müəllim sanki Sahiləni nə üçün saxladığını unudaraq:

— Yaxşı, gedin, balalarım, — demiş və ayağa qalxmışdı. Və bu «balalarım» sözünü elə həlim, elə mehriban söyləmişdi ki, elə bil qayğıkeş bir ata öz övladlarına xeyir-dua vermişdi.

Əsəd müəllim sinifdən çıxmışdı.

Bu ötən gecə Əsəd müəllim elə hey Sahilə ilə Ərəstun haqqında düşünmüşdü və xəyalının qanadlarında elə hey iyirmi il əvvələ uçub Xəzangülünü görmüş, özünü görmüşdü. Ərəstunun cəsarəti Əsədin xoşuna gəlmişdi. Bu hərəkət, heç onun ağlına gəlməzdi — amma Ərəstun, müəllimi də olsa, onun qabağına çıxmışdı: görünür, o, Əsəd müəllimin Sahiləyə xüsusi diqqət yetirməsinə, onu görən kimi, çaşmasına, sözünün əvvəlini-axırını bilməməsinə fikir vermiş, bunu, başqa yerə yozmuşdu — yəqin məhəbbət, vurğunluq hesab eləmişdi. Bax, bu, əsl məhəbbət idi və ya əsl məhəbbət ola bilərdi. Gərək sevdiyini qoruya biləsən, yad baxışdan, yad nəfəslərdən qoruya biləsən: onun yolunda hər cür fədakarlıq eləməyi bacarasan, onu səndən ayırmağa çalışan hər maneəni, səddi, sərhədi uçurub dağıtmağı bacarasan, hətta sənin

gücündən, boyundan, imkanından artıq olsa belə! Bu zaman gərək sevdiyin də sənin arxanda mərd-mərdanə dayansın, dəyişkən, güclü yel hayandan əsdi, o yana əyilən olmasın, tərəddüdsüz, qorxusuz-ürküsüz sənin bu mübarizənə öz məhəbbəti, dəyanəti, səmimiyyəti ilə dayaq olsun, sadiq və dönməz olsun. Bəli, ancaq belə olduqda sən güclüsən, sənə heç kəs bata bilməz — çünki səni məğrur, qadir, qüvvətli və basılmaz eləyən bir qüvvə var — bu, məhəbbətidir, bu, sədaqətidir sevdiyinin. Yoxsa sən, misgin olarsan, cəsarətsiz olarsan, bu döyüşdə səni, səndən ləyaqətsiz bir adam da diz çökdürə bilər, qürurunu sındıra bilər, səni ömrün boyu qırıq bir qəlblə yaşamağa məhkum edə bilər...

...Günün şaxı sınmışdı. Hava yavaş-yavaş sərinləyirdi. Azca aralıda nəhəng bir tiyana tökülmüş qurğuşunu xatırladan dəniz qüruba meyllənmiş günəşin qızılı şüaları altında sakit-sakit mürgü vururdu. Sahilə çıxanların sayı çoxalmışdı. Kimi uşağının əlindən tutmuşdu, kimi sevgilisinin qoluna girmişdi. Gəzişənlərin çoxu cavanlar, oturacaqlarda əyləşənlərin əksəriyyəti qocalar, xəstələr, nasaz adamlardı.

İki-üç saatdan artıq idi ki, burada, fəvvarənin qabağında oturmuş Əsəd müəllim ağır və üzücü xatirələrdən yorğun düşmüşdü. Cismən burda olsaydı da, fikrən haralara getməmişdi? Uzaq illərdən tutmuş uzaq yerlərə qədər baş vurmuş, ötən əyyamın acılı-şirinli xatirələrini vərəqləmiş, az sevinib çox kədərlənmişdi. Xatirələr, xəyallar öz əlində, öz ixtiyarında idi, istədiyi vaxt o kitabı açar, oxuyar, istəməyəndə büküb qoynunda, dərdli ürəyinin başında gizlədərdi. Ancaq iki-üç saat əvvəl, kabinetdə Aliyə xanımın dediyi sözdərin, irəli sürdüyü ittihamların ixtiyarı onda deyildi. Və bunu təkcə direktor söyləmirdi. Məktub, uşaqların mənalı, rişxəndli baxışları da deyirdi. Bu acı həqiqət Əsədin içərisini dağlayır, gözlərini təəssüf dumanı ilə yaşardırdı: «Əgər Aliyə xanımın dedikləri doğrudan da elədirsə — yəni doğrudan da bütün məktəb mənim Sahiləyə vurulmağımdan danışırsa, hətta uşaqlar da buna görə mənə sataşıb hörmət eləmirlərsə, demək,

onda mən daha o məktəbə qayıda bilmərəm, əsla qayıda bilmərəm. Mən orada kimin üzünə şax baxa bilərəm? Heç, kimin. Nə müəllimlərin, nə uşaqların. Və kimə sübut eləyə bilərəm ki, mən Sahiləyə vurulmamışam, bu heç mənim ağlıma da gəlməyib o mənim qızım yerindədi. Kimə deyə bilərəm ki, Sahilə bir zamanlar elə bu məktəbdə, bax bu sinifdə oxuyan, könlümü ovlayıb sonra da insafsızcasına daşlara çırpan o üzü dönmüş Xəzangülümə oxşadığına görə mən ona özümdən də xəbərsiz diqqətlə baxmışam, keçmiş, unudulmaz günlərimi xatırladığıma görə hər şeyi unutmuşam, özümü itirmişəm? Mən ona — Sahiləyə güldən ağır bir söz demişəmmi? Yox. İstəyirsiniz, çağırın, özündən soruşun, Demişəm? Axı indi, bu uğursuz söz-söhbətdən sonra mən kimə öz sınıq məhəbbətimin qəm-qüssə ilə dolu tarixçəsini danışa bilərəm və əgər, danışsam, inanan olarmı? Xeyr, bu, mənim ömür, könül sirrimdir — onu kimsəyə danışmağa borclu deyiləm və qoy nə olur-olsun, heç danışmaq da lazım deyil...

Eh, bu da taledir. Əlləş-vuruş, illərlə davam eləyən intizardan sonra, burnunun ucu göynədiyi doğma məktəbinə gəl, ancaq, dər-divarına belə doyunca baxmadan, heç nəyin üstündə rüsvayicahan ol, başıaşağı ol. Eh, Əsəd, Əsəd. Səninki burda da gətirmədi, qardaş. Sən bu lənətə gəlmiş ürəyinlə bacara bilmədin, onu, o vəfasızı yadından çıxara bilmədin. O səni çoxdan, lap çoxdan unudub yəqin, sən isə onu unuda bilmirsən. Bax, unutmuş olsaydın, onsuz da ömür boyu korun-korun yanan ocaq kimi tüstülənən sən, heç olmasa indi bu gözlənilməz zərbənin ağrı-acısını dadmazdın, Əsəd...»

Yenicə atdığı siqaretin acısını hələ udmamış təzəsini yandırdı və sərxoş adamlar kimi yerindən qalxıb valaylaya-valaylaya oturacaqların qabağı ilə addımlamağa başladı. Aclığını, səhər yediyinin üstündə olduğunu indicə xatırladı: ürəyi sıyrılırdı, başı bərk ağrıyırdı. Evə getmək, bir loğma çörək yeyib yatmaq, dünyada hər şeyi — keçmişdə olanları da, Aliyə xanımla arasında baş vermiş o ürək bulandıran söhbəti də unutmaq, tamam unutmaq istəyirdi. Ancaq, sən demə, bütün bunlar az imiş kimi, hələ

Əsədin, necə deyərlər, elə bu gün özgə, daha sarsıdıcı bir müsibəti də varmış.

Dördüncü oturacağa az qalmışdı ki, Əsəd müəllim, birdən yaşıl skamyada əyləşmiş Sahiləni gördü. O, güllü çitdən saya don geymişdi. Üzü boz rəngli bir kitabı dizinin üstünə qoymuşdu. Nədənsə qəlbi qəfildən səksənmiş adamın ürəyi kimi, çırpındı, bir tərəfdən bu dəniz qırağında ona rast gəldiyinə sevindi. Sevindi ki, nə yaxşı oldu, dünən Ərəstunun soruşmağa imkan, aman verməmədiyi sözü soruşar, nigarançılıqdan qurtarar; o biri tərəfdən mübhəm bir qorxu axıb ürəyinə doldu — bugünkü söz-söhbətdən sonra Əsədi Sahilə ilə ikilikdə görsələr, heç nə heç şübhə yoxdu ki, buna da başqa məna verərdilər.

Bu iki çalpaşıq hiss əlində çapalaya-çapalaya Əsəd qətiyyətsiz addımlarla Sahiləyə yaxınlaşdı. Az qalmışdı ki, çatsın, gördü ki, onun qabağında iki çarxlı, meşin oturacaqlı, söykənəcəkli bir kolyaska dayanıb. Bu, Əsədin təəccübünə səbəb olsa da, heç nə başa düşmədi. «Yəqin bacısıdı, qardaşıdı, — kimdisə şikəst adamdı. Demək, ailələrində şikəst adam var. Ona görə bu qız həmişə fikirli olur, dərslərinə yaxşı cavab verə bilmir».

Kolyaskanın arxası Əsədə tərəf idi.

Sahilə baxışlarını qaldıranda Əsəd müəllimi iki addımlığında görüb özünü itirən kimi oldu. Bu, Əsədin gözündən yayınmadı. Qız, kitabı tələsik əlinə alıb, sinifdə imiş kimi, ayağa qalxdı və yanaqları qızara-qızara ona salam verdi:

— Salam, müəllim.

— Salam, qızım! — deyə Əsəd yorğun gözlərini ondan çəkmədən yaxınlaşdı. — Deyəsən... hava qəbul eləməyə çıxmısan dəniz qırağına, eləmi? — deyib özü də bilmədi ki, haçan oturdu. Qız da təzədən əydəşdi. Lakin tezcə də belə deməyinə peşman oldu: «Görürsən ki, xəstə gətirib?» Sahilə kəkələdi:

— Hə, — dedi,—Yox, anamı çıxartmışam havaya...

— Ananı? — Əsədin içərisində elə bil, nə isə qırılıb ayaqları altına düşdü, nagahani deyilmiş bu söz sanki gözlərinin önünə qara bir pərdə çəkdi — hər şey əriyib bir-birinə qarışdı; ancaq, bu,

uzun sürmədi, qara pərdə yavaş-yavaş nazilib tülləşdi, sonra tamam yox oldu. Və Əsəd, kolyaskada başını söykənəcəyə dayayıb əllərini dizlərinin üstünə uzadaraq şirin-şirin yatmış Xəzangülü görəndə... — ay aman, Xəzangül idi bu! — görəndə az qaldı qışqırsın, yerindən sıçrayıb irəli cumsun, arabanı silkələyib yuxulu Xəzangülü oyatsın, səsini eşitsin, gözlərinə baxsın, niyə, niyə bu günə düşdüyünün səbəbini soruşsun. Amma elə bil, nitqi batdı, nəinki qışqıra bilmədi, heç kəlmə belə kəsməyə iqtidarı olmadı. Heyrətin və təəccübün böyütdüyü gözlərini kolyaskada hərəkətsiz uyumuş Xəzangülün sifətində, əllərində, ayaqlarında dolandırdı. İlahi, bu, həqiqətən Xəzangül idi. İllər onun, ağ, qəşəng üzünün cizgilərini kobudlaşdırmışdısa da, tamam dəyişə bilməmişdi. O vaxt nazik, nar ləçəyi kimi qırmızı olan dodaqları indi solub göyərmişdi; sağ yanağındakı kiçik çökək eləcə qalırdı, kirpikləri eləcə qalırdı. Birdən-birə gələn tufanı, dalğanı çox böyük çətinliklə ötürən Əsəd, anlar keçdikcə toxtayırdı, ancaq gözlərinin qabağını örtən yaş pərdəsinin qəfil cırılmasının, sel-suyun axıb onu Sahilənin yanında çıxılmaz vəziyyətdə qoyması qorxusunun hələ qaldığını da duyurdu.

O, Xəzangüldən baxışlarını ayıra bilmirdi. Demək, o, yanılmayıb. Demək, şagirdi, bax, böyründə oturan bu qız onun Xəzangülunün qızı imiş, ona görə bu qədər oxşayırmış Xəzangülə... Ona görə bu on beş günü Əsəd dəli olub özünü-sözünü bilmirmiş.

— Bu, sənin anandı?... — Əsəd qəti bildiyi şeyi təzədən soruşdu.

— Bəli, müəllim...

Sahilə Əsəd müəllimin halının dəyişdiyini bayaqdan duymuşdu, amma onun indiki çaşqınlığını dünənin, irəli günlərdəki çaşqınlığın davamı kimi başa düşdüyündən sıxılırdı, müəllimin gəlib buraya çıxdığına təəssüflənirdi. Əsəd müəllimin ötən günlərdəki o qeyri-adi hərəkətləri qəribə bir sövq-təbii ilə Sahiləyə də sirayət etmişdi, qız da onu görən kimi istər-istəməz haldan-hala düşürdü yanaqları pörtüb allanırdı, ürəyində. «Bu kişiyə bax ey, utanmır, atam yerində kişidi, gör necə baxır ey», — deyə

qəzəblənir, hətta bəzən üzünə qabarıb çımxırmaq istəyirdi. Lakin Əsəd müəllimin çal saçları, müəllimi olması qabağını kəsirdi. Bu, dünənəcən belə davam eləmişdi. Dünən, axırıncı dərsdə, müəllim onu saxlayıb nə isə demək istəyəndə və Ərəstun şinəyib getməyən məqamda Əsədin «yaxşı, gedin, balalarım» — deməsi və xüsusilə «balalarım» sözündəki şirinlik Sahilənin qəlbindəki pis fikirləri qovub yox eləmişdi. İndi duyduğu təəssüf də köhnə təəssüratın təəssüfü idi. Qız dünəndən hiss eləmişdi ki, müəllimin nə isə ayrı bir dərdi var. Ancaq nə idi o dərd, əlbəttə, Sahilə deyə bilməzdi.

Araya çökən sükut yaxşı ki, uzun sürdü. Anlar, dəqiqələr keçdikcə ilk gözlənilməz sarsıntıdan yavaş-yavaş özünə gəlmiş Əsəd, nəhayət, boğazını tutan qəhəri güclə udub ilişikli səslə:

— Demək belə… Xəzangül... sənin anan imiş... — dedi. Sahilə az qaldı yerindən sıçrasın:

— Siz..siz... mənim anamı tanıyırsınız, müəllim? — deyə titrəyə-titrəyə soruşduqda Əsəd müəllim ağır-ağır başını tərpətdi:

— Bəli, qızım...

— Hardan, müəllim?

— Eh, qızım, Çoxdan, lap çoxdan tanıyıram sənin ananı...

— Yəqin bir yerdə oxumusunuz, müəllim?..

— Hə, Sahilə. Düz on il bir yerdə oxumuşuq, bir partada oturmuşuq. Bax, indi... sən oturan partada...

Sahilə nə üçünsə sevinib məsum uşaq kimi güldü:

— Deyirəm axı...

Əsəd maraqla:

— Deyirəm axı... nə? — deyə xəbər aldı və qızın cavabının ləngidiyini görüb özü əlavə elədi: — Deyirsən axı bu müəllim mənə niyə elə qəribə baxır, hə?

— Hə, müəllim.

Əsəd ah çəkdi:

— Sən çox oxşayırsan anana, qızım, lap çox. Necə deyərlər, lap elə bil, bir almasınız, tən yarı bölünübsünüz... Mən birinci gün səni sinifdə görəndə, o partada görəndə, düzü, lap yerimdə donub

qaldım. Elə bildim ki, elə Xəzangül özüdü, iyirmi il sonra gəlib təzədən o parta arxasında əyləşib — Əsəd birdən anladı ki, hissə qapıla bilər, o anlarda keçirdiyi hissləri, yadına düşən xatirələri Sahiləyə danışa bilər. Bu isə lazım deyildi. Sahilə anası ilə onun arasında olan münasibəti bilməməlidi. Ona görə mümkün qədər hisslərini cilovlamağı qərara aldı.

— Hə, hamı elə deyir. Mən özüm də bilirəm bunu. Anamın o vaxt, onuncuda oxuyarkən çəkdirdiyi şəkillə mənim indiki şəklimi yan-yana qoyanda heç kəs ayıra bilmir ki, anamın şəkli hansıdı, mənim şəklim hansıdı. Bəzən hətta biz özümüz də qarışıq salırıq.

— Möcüzədir, — dedi Əsəd müəllim, — təbiətin min bir möcüzəsindən biri də budu, qızım.

— Nə bilim...

— Yaxşı, nə olub Xəzangülə? — deyə Əsəd, gözlərini Xəzangüldən çəkmədən soruşdu.

— Xəstədi, müəllim.

— Nəyidi ki?

— İflic olub, müəllim...

— İflic?

— Hə,

— Baho...

Əsədin ürəyi təzədən sıxıldı, bədənini isti bir duyğu gəzib-dolaşdı, Xəzangülün dizləri üstəki hərəkətsiz əllərinə baxıb sinə dolusu ah çəkdi:

Sahilə kədərlə davam etdi:

— Hə, müəllim. Dörd ildi yazıq anam bu gördüyünüz vəziyyətdədi. Əzab içində yaşayır. Mən də... lap başımı itirmişəm... Tək...

— Bəs atan... yoxdur? — Əsəd bu sualı verəndə iyirmi il bundan qabaq gördüyü uzun, arıq, şıq geyinmiş oğlanı xatırladı, ancaq sir-sifətini tamam-kamal yadına sala bilmədi. Oğlan uzaq, tutqun kölgə kimi gözləri önündə bir-iki dəfə rəqs edib yox olduqda Sahilə qüssəli-qüssəli söylədi:

— Həm var, həm yox, müəllim.

— Necə yanı həm var, həm yox?

— Var ona görə ki, sağdı. Yox ona görə ki, bizi atıb gedib...

— Belə de... — deyə Əsəd səsini uzatdı və təzə bir siqaret yandırıb tüstüsünü kənara üfürdü. — Demək, qoyub gedib... Nə idi onun adı?

— Kimin? Atamın?

— Hə.

— Möhsündü, müəllim.

— İndi tək ana-bala yaşayırsınız, eləmi?

— Bəli, müəllim.

— Bəs Fatma xala necə oldu?

— Bıy, siz Fatma xalanı da tanıyırsınız?

Əsəd-fikirli halda başını tərpətdi:

— Hə, tanıyırdım, qızım, Xəzangülün xalası idi.

— Fatma xala çoxdan ölüb. Beş il olar...

— Allah rəhmət eləsin.

— Rəhmət düşmür ona, müəllim.

— Niyə, qızım?

Əsəd müəllim yüngülləşən kimi olmuşdu. Sahiləylə olan bu təsadüfi görüşündən çox məmnun idi. O, həm Xəzangülü görmüşdü, həm də onun həyatının sonrakı illərini qızının köməyi ilə vərəqləmək imkanı tapmışdı. Gec də olsa, heç nəyi dəyişmək mümkün olmasa da, Xəzangülün ömür yolunu — onu bu iki çarxlı arabaya gətirib çıxaran ömür dastanını bilmək Əsəd üçün çox maraqlı idi, çox.

Sahilə deyəsən hər şeyi danışmağa ehtiyat eləyirdi, bunu Əsəd, onun susmağından anladı. Odur ki, dedi:

— Ehtiyat eləmə, qızım. Bil ki, mən özgə deyiləm: əvvələn, sənin müəlliminəm — ürəyindən keçirtdi: — «müəllimin idim».— ikincisi, onunla, — Əsəd başı ilə kolyaskada hələ də dünyadan, Əsədin gəlməsindən xəbərsiz olan və şirincə yatan Xəzangülə işarə elədi, — onunla məktəb yoldaşı olmuşuq, qızım.

—Yox, müəllim, heç bir ehtiyat-zad eləmirəm. Burda ehti-

yat ediləsi nə var ki... Fatma xalanın adını çəkdiz, ona görə fikrim qarışdı, müəllim. Onu görüm gorbagor olsun...

— Niyə axı, qızım? Məncə, Fatma xala elə də pis adam deyildi gərək ki...

Sahilə ah çəkdi:

— Əslində, anamın bu hala düşməsinə, belə bədbəxt olmasına səbəb elə Fatma xala olub, müəllim...

— Niyə ki?...

— Yəqin bunu siz də bilərsiz... Anam onuncunu qurtaran kimi xalası onu ərə verib. İstəmədiyi bir adama. Sevdiyi varmış, bilmirəm kim imiş, amma varmış…

Əsəd qurcuxdu.

— Hə, mən onu onuncunu qurtaranda, axırıncı imtahanda görən oldum. Hətta buraxılış gecəsinə də gəlmədi — deyə Əsəd qəlb ağrısı ilə xəyalən o əzablı günlərinə qayıdıb göynədi.— Ondan sonra, Xəzangül iynə olub yoxa çıxdı. Bir onu eşitdim ki, ərə gedib, yoldaşlarından da heç kəsi çağırmamışdı. Kim idi, nəçi idi getdiyi adam, bilmədim...

— Getdiyi adam, eşitmiş olarsız müəllim, məşhur Aşurbəyovlardandı. Möhsündü adı...

— Arıq, uzun adamdı, eləmi?

— Hə, müəllim. Siz onu da tanıyırsınız, müəllim?

—Tanıyıram, qızım, o vaxt, onlar təzə tanış olanda bir-iki dəfə kənardan görmüşdüm. Məktəbə gətirib ötürərdi, dərsdən çıxanda qarşılardı...

— Bilmirəm. Ancaq onu bilirəm ki, Fatma, anamı Möhsünün ata-babasının şan-şöhrətinə, var-dövlətinə verib, cah-calalına verib. Bilirsiz, köhnə arvadlar zər-zibapərəst olublar..

— Xəzangülün razılığı olmasaydı, Fatma heç nə eləyə bilməzdi. Görünür, özünün də razılığı olub, Sahilə...

— Hə, mən də elə başa düşürəm, müəllim. Anam özü də bir az geyim-kecim, daş-qaş sevəndi. Yəqin, gözlərini qamaşdırıblar. Onda onun nə yaşı vardı, heç on səkkizi tamam olmamışdı. Amma, insafən, Möhsün — atam, onu çox sevirmiş, qızım, brilyant

içində saxlayırmış. Ata mülklərində, Möhsünün bacıları, qardaşları ilə bir həyətdə yaşayırmışlar.

— Onda Fatma xala köhnə evdə qalmışdı, hə?

— Hə. Orda tək yaşayırdı.

— Bəs ayrılmaqlarının səbəbi nəydi?

— Səbəbi?

— Hə də, nəyin üstündə ayrıldılar?

— Mənim. — deyə Sahilə günahkar imiş kimi anasına tərəf baxdı — mənim, müəllim.

— Sənin? — Əsəd təəccübünü gizləyə bilmədi. — Necə yəni sənin?

— İlk illər onların uşaqları olmayıb, müəllim. Atam anamı üç il o həkim qalmayıb ki, yanına aparmamış olsun. Ancaq dava-dərman kömək eləməyib... Dördüncü il isə... anam mənə hamilə olub. Sonra mən dünyaya gəlmişəm... Kaş heç gəlməyəydim...

— Niyə axı, qızım?.

— Eh, müəllim, mən anadan olandan bir il sonra evdə dedi-qodu başlayıb.

— Nəyin üstündə axı?

Sahilə ani sükutdan sonra ağır-ağır cavab verdi:

— Heç nə baş açmadım, müəllim. İndi də səbəbini bilmirəm.

— Bəs nə vaxt ayrıldılar, Sahilə?

— On il bundan qabaq... Anam dözmədi, nəhayət məni də götürüb evdən çıxdı. Öz evimizə qayıdıb gəldik. Fatmanın yanına. Əyin-başımızdan başqa heç nə gətirməmişdi anam. «Sənin heç nəyin lazım deyil mənə» — demişdi. Biz gələndən beş il sonra Fatma da öldü. İndi biz ikimiz — ana-bala yaşayırıq...

Sahilə susdu, anasının dizinin üstündəki yun şalı ehmalca yuxarı çəkdi, xəstənin başı üzərində hərlənən milçəyi qovdu.

Əsəd müəllim, Sahilənin hekayətini dinləyib fikrə getmişdi. Gözlərini Xəzangüldən çəkə bilmirdi — ona elə gəlirdi ki, indicə gözünü açacaq və Əsədi qarşısında görəcək və görəsən... neyləyəcək?...

—Bəs... Möhsün gəlib sizə dəymir?

— Yox, müəllim.

— Kömək də eləmir?.

— Aliment verir. Ayrılandan, Fatma da öləndən sonra, anam, tikiş fabrikində işə düzəlmişdi: oxumamışdı deyə başqa bir sənəti yox idi. Orada da az işlədi. Cəmi bir il. Qəfildən iflic oldu, bu günə düşdü. Xəstəxanalarda yatdı, çarəsi olmadı. Uşağa dönüb yazıq, əlsiz-ayaqsız... Evi-eşiyi elə bu kolyaskasıdı. Gecə-gündüz bu kolyaskada yaşayır, hər gün dərsdən sonra, yağış-qar yağmağa başlayana qədər, həkimlərin məsləhəti ilə buraya, dəniz qırağına çıxardıram. Bütün gecəni gözlərini tavana dirəyib yata bilməyən anam, dəniz havası dəyən kimi şirin yuxuya gedir, azca dincəlir.

— Axı nədən oldu? Elə birdən-birə?..

— Hə, elə birdən-birə... Əslində baxsan, birdən-birə olmadı. İllərlə atam onun ürəyini, ömrünü baltalamışdı, içini çürütmüşdü, mənliyini öldürmüşdü. İnsan nə qədər təhqir olunar? Yığılıb-yığılıb axırı bir gün yazığı yıxdı. İnsan əsəbi dəmir deyil ki... Həkimlər də deyirdilər əsəbdəndi...

— Ondan ayrılandan sonra ərə getmədi?

— Yox, getmədi. Kim bilir, getsəydi, bəlkə belə olmazdı. Qonum-qonşular çox dedilər, o az eşitdi. Bir dəfə rəfiqəsilə elədiyi bu söhbəti yan otaqdan qulağım aldı. «Nə danışırsan, Səlmi? Sahilə kimi qızı olan qadın da ərə gedər? Bir də mən ona gedəndə... bilirdim xoşbəxt olmayacağam. İndi də, kimə getsəm, yenə xoşbəxt olmayacağam. «Niyə, ay qız?» — soruşdu Səlmi. Anam dedi: «Mən bu həqiqətə inanıram ki, namərdlər, etibarsızlar, dönüklər dünyada xoşbəxt ola bilməzlər». «Bəyəm sən kimə namərdlik, etibarsızlıq, dönüklük eləmisən ki, Xəzangül?» «Eh, var idi bədbəxtin biri... Onu... gözüyaşlı qoydum... Namərdlik elədim.» «Kim idi axı o?» «Eh, indi nə fərqi var? Var idi biri...» «Anam, əlbəttə, onun adını demədi. Mən də bilmirəm. Kim bilir, bəlkə onunla xoşbəxt olardı anam.» — «Bəlkə» deyib Sahilə ağlamsındı, səsi qəhərdən titrədi.

Bu söhbət Əsədə də pis təsir eləmişdi. İstəyirdi qıza təsəlli

versin, ancaq özü elə halda idi ki, ona da təsəlli verən lazım idi. «Var idi bədbəxtin biri....Onu gözüyaşlı qoydum... namərdlik elədim...» Xəzangülün iyirmi il əvvəl eşitdiyi və hələ də unutmadığı məlahətli səsi qulaqlarında səslənir və sanki bu sözləri indi Sahilə yox, Xəzangülün özü deyirdi, peşman-peşman...

Əsəd Sahilədən betər kövrəlmişdi. Bunu qız da hiss elədi və dərdini-sərini müəllimə danışdığından məyus oldu:

— Bağışlayın, müəllim. Heç bilmirəm bunları sizə niyə söylədim. Ürəyim elə dolmuşdu ki... Dərd mənə güc gəldi, müəllim — Sahilə daha gözlərinin yaşını saxlaya bilmədi. — O, hönkürtüsüz, səssiz-səmirsiz ağlayırdı... Ağ mirvari dənələrinə bənzər göz yaşları yanağı aşağı axırdı. Və qəribə idi ki, məhz indi, bu anda Əsəd o zaman, anası vəfat edəndə Xəzangülün səssiz-səmirsiz ağladığını xatırladı və bir anlığa Sahilə qabağında dönüb Xəzangül oldu. Əsəd təzədən o çağlarına, Xəzangüllü çağlarına qayıtdı, sevdiyi qız yuxularda olan kimi ağır, ləngərli bir hərəkətlə qanad açıb uça-uça yanına gəldi, danışdı, o qara partada oturdu... Əsəd onun səsini eşitdi, hənirtisini duydu... Lakin nəzərləri kolyaskaya sataşan kimi o uzaq, şirin aləm, Xəzangül özü, məhəbbəti, «MSQO»-u yaşayan o dünya hardasa əriyib yox oldu, itib getdi… əvəzində kədərli, ağrılı aləm, ikiçarxlı kolyaska, içindəki şikəst Xəzangül qaldı Əsəd köksünü ötürdü. Ancaq o təzədən:

— Bağışlayın, müəllim — söyləyəndə Əsəd özünün bir zamanlar anası ölən uşaq yox, Sahilənin onun sinif yoldaşı Xəzangül yox, özünün müəllim, Xəzangülün də Sahilə olduğunu dərk edib kövrək-kövrək:

— Ağlama, qızım, — dedi. — Həyatdır bu, qızım. İnsanın xoş günü də olar, pis günü də. Adam gərək səbirli, mətanətli olsun, dözümlü olsun, taleyin vurduğu hər zərbədən, bəzən isə rəhmsizcəsinə dalbadal vurduğu zərbələrdən sarsılıb yıxılmasın. Həyat insanı döyə-döyə bərkidib polada çevirir, qızım — siqaretinə qullab vurub əlavə elədi: — Yaxşı elədin mənə danışdın, qızım. Mən özgə deyiləm ki...

— Çox sağ olun, müəllim. — O, ovcunun içində gizlədiyi dəsmalla gözlərinin yaşını silib gülümsünməyə çalışdı. — Ayılanda... sizi görüb sevinəcək anam, müəllim. Tələsmirsiniz ki?

— Yox.

— Hə, hə, müəllim, tələsməyin, xahiş edirəm. Qoyun sizi görsün anam...

Əsəd siqareti böyründəki zibilqabına atdı:

— Görsə də... Tanımaz, qızım. Mən çox dəyişmişəm. Saçlarım ağarıb... Bir sözlə, o görən Əsəddən heç nə qalmayıb, qızım. Xəzangül zahirən dəyişib, mən isə..

— Məncə, tanıyar, müəllim... məsələn, mən qırx il keçsə də, öz yoldaşlarımı tanıyaram...

— Nə deyim, qızım...

Ani sükutdan sonra Sahilə:

— Saat neçədir görəsən? —deyə soruşdu.

— Saat, — Əsəd sol qolunu irəli uzadıb baxdı, — saat altıya on beş dəqiqə qalır.

— On-on beş dəqiqədən sonra anam oyanacaq...

Əsəd heç nə demədi. Ürəyinə, bayaq ilk dəfə gördüyü anda olduğu kimi qəribə bir əsməcə düşdü — bir azdan Xəzangül ayılacaqdı, gözlərini açıb ona baxacaqdı. Görəsən... tanıyacaqmı? Necə baxacaqdı? — təəccübləmi, sevincləmi? O vaxt, birdən-birə üzü dönəndən sonra, nainsaf bircə dəfə də kirpiklərini qaldırıb Əsədin üzünə, gözlərinə baxmamışdı, oğlanın çox sevdiyi o nurlu, dərin mənalı baxışlarını ondan gizləmiş, gizləmişdi. Axıracan gizləmişdi. İndi.. ay aman, Əsəd üşüyürdü bu istidə. Elə bil o gözlərlə qarşılaşmaqdan qorxurdu, çox qorxurdu. Arada ağlına gəldi ki, Xəzangülün oyanmağını gözləməsin, durub getsin. Lakin «yox, qalmalıyam, onun gözlərinə baxmalıyam, iyirmi, ildən çox görmədiyim o gözlərə bir də, doyunca, bəlkə də axırıncı dəfə baxmalıyam. O baxışlarda yazılanları oxumalıyam...» — deyə düşünüb bu fikrindən daşındı. Və indicə, bax, bu anlarda sehrli bir qapının açılacağını və onu, nağıllı, əfsanəli bir aləmə aparacaqmış kimi, qorxu, maraq və həyəcanla Xəzangülün hərəkətsiz üzünə,

solğun yanağını döyən uzun kirpiklərinə tamaşa eləməyə başladı. Vaxt nə ağır gəlib keçir, ay aman. Hə, budur, nəhayət, o sehrli qapı — o göz qapaqları yavaş-yavaş aralanır, Əsədin qəlbini elə bil min tikə eləyib qoparırlar, hər parçası onun kirpiyinin bir ucunda gedir... Budur, o gözlər açılır, əvvəlcə Sahiləyə dikilir, sonra yavaş-yavaş yana axıb qızının böyründə əyləşən naməlum, çalsaç kişiyə zillənir. Bir an baxışırlar. Xəzangül... tanımır Əsədi, tanıya bilmir — bunu onun ancaq bəbəklərinə yazılmış təəccüblü «bu kişi kimdir?» sözlərindən anlamaq olur. Sahilə son dərəcə maraqlı, gərgin bir tamaşaya baxırmış kimi, təşviş içində gah anasına, gah da Əsəd müəllimə nəzər yetirir. Və anasının Əsəd müəllimi tanıya bilmədiyini duyub pərt olur, astaca, dodaqaltı pıçıldayır: «Tanımadı, tanımadı. Hafizəsi də xarab olur deyəsən...»

Əsəd müəllim titrək səslə:

— Salam, Xəzangül, — dedi — Tanımadın? Mənəm...

Bu zaman Sahilə nisbətən ucadan:

— Qulaqları eşitmir, müəllim.. — söylədi, səsində kiməsə — taleyəmi, tanrıyamı qarşı — kəskin bir nifrin hiss edildi.

— Eşitmir? — Əsədi elə bil təzədən qəfildən vurdular.— Eşitmir?

— Hə, eşitmir, — deyə Sahilə aciz-aciz dilləndi.

Əsəd inanmaq istəmir, ucadan, demək olar ki, qışqıra-qışqıra «mənəm, Xəzangül, Əsədəm, tanımırsan məni?» — demək arzusu ilə çırpınır, lakin bacarmırdı — məyusluq imkan vermirdi. Tərksilah olmuş, məğlub edilmiş, sınıq çıxmış adam kimi təəssüf içində yana-yana:

— Yox, tanımadı məni. Tanısaydı, heç olmasa adımı deyərdi, — söylədi. Sahilə eyni nifrin duyulan səslə:

— Yazığın dili vardı ki, adınızı da desin? — söylədi. Əsədə daha bir ağrılı-acılı zərbə dəydi:

— Necə? Danışa da bilmir?

— Bəli, müəllim... onun ayaqları, əlləri, dili, qulaqları sıradan çıxıb, müəllim. Yazığın təkcə gözləri yaşayır, bir də beyni...

— Aman allah, — deyə Əsəd əlləri ilə üzünü tutdu.

Beyninin içində elə bil, müdhiş, tükürpərdən musiqi çalındı — əsəbləri gərildi. Sonra o musiqi endi, alçaldı, həzinləşdi, əzablar içində çırpınan xəstə uşağını yatırmağa çalışan ananın laylasına çevrildi... Çünki o — xəstə uşaq ancaq yatanda rahat ola bilər, gözləri ilə şikəst əllərini, ayaqlarını görməyəndə dincələ bilər...

Bir az sonra Əsəd başını qaldıranda gözlərində yaş gilələnmişdi. Xəzangül həyəcanlı, çırpınan baxışlarını yad adamdan çəkə bilmirdi. Anasının çox əziyyət çəkdiyini görən Sahilə «öz dilindən» kağıza yazmaq və onun gözləri önünə tutmaq üsulundan istifadə etmək qərarına gələrək kitabın arasından qələm-varaq çıxartdı. Tələsik nə isə yazmağa başladıqda... Əsədin birdən o vaxt aralarında olan söhbət gəlib yadına düşdü:

«— İki gözünü də birdən qırpanda nə deyirsən ki, Əsəd?» — Xəzangülün səsi köhnə lent yazısı kimi beynində xışıldadı.

«—İki gözümü də qırpanda deyirəm ki, mən sənə qurban olum. Xəzangül.» — Əsəd uzaq illərin arxasından, artıq indi özünə də yadlaşmış səsini eşitdi. Bu üsul, yəni iki gözü də qırpmaq üsulu ilə söz demək, söz eşitmək onda Xəzangülün çox xoşuna gəlmişdi. Həmin söhbətdən sonra o, Əsədi görəndə də, ayrılanda da göz qırpmışdı. Bu, onların sözsüz dili olmuşdu. Elə bir dil ki, onların özündən başqa onu kimsə başa düşə bilməzdi, açarı yalnız onlarda idi...

Əsəd bunu yadına salıb Xəzangülə baxa-baxa iki gözünü də birdən qırpdı. Və möcüzə oldu: Xəzangül elə bil buna bənd imiş, gözləri gün işığına düşmüş kimi qamaşdı, gülümsündü, solğun bətbənizində bir işıq şöləsi gəzib dolandı və bu şölə içində qeyri-iradi o da gözlərini qırpdı, cəmi bircə dəfə qırpdı, əsəbləri dözmədi, süstəlib boşaldı və yanaqları aşağı yaş axmağa başladı. İçində bir inilti duydu, hardasa qəlbinin dərinliyindən bir kəlmə söz qopdu — «Əsəd» və o söz ürəyini yandıra-yandıra çölə şığımaq istədi, hay-haray salmaq istədi, lakin qəlbi ilə dili arasında ilişib qaldı. Xəzangül daxilində «Əsəd»! — deyə qışqırdı, ancaq özü deyib özü eşitdi, qabağında pərişan-pərişan oturmuş Əsədin bu sözdən xəbəri yox idi — çünki o səs Xəzangülün içində doğulur, içində

də ölürdü...

Bunu görən kimi Əsəd uşaq kimi sevinə-sevinə:

— Tanıdı, tanıdı... — dedi və Sahilənin çiyninə toxundu. Anasına «kağız» yazan Sahilə başını qaldıranda onun səssiz-səmirsiz ağladığını görüb özünü itirdi, ayağa qalxıb elə kolyaskada boynunu qucaqladı:

— Ağlama, ana. Qurban olum, ağlama. — Əlindəki yaylıqla yanaqlarını sildi. — Ağlama, başına dönüm. Tanıdın, eləmi, ana? Əsəd müəllimdi ey, sənin orta məktəb yoldaşındı, bizim müəllimimizdi, ana...

Sahilə danışırdı, sanki anası dediklərini eşidirdi. Sahilə onun yanaqlarını quruladıqca, sel-suyun arası kəsilmirdi, sifəti elə hey islanırdı. Sanki illərdən bəri tutulmuş bulağın gözü birdən açılmışdı, qarşısını almaq mümkün olmayacaqdı. — Sahilənin astaca danışmağı, onsuz da halı son dərəcədə pərişan olan Əsədə də sirayət elədi, o da nə edəcəyini bilməyərək başını bulaya-bulaya yavaşdan:

— Ağlama, Xəzangül, ağlama, — deyirdi və hardasa ürəyinə gəlirdi ki, Xəzangül onu gördüyü üçün yox, bəlkə də belə şikəst olduğu üçün və bu vəziyyətdə Əsədə rast gəldiyi üçün ağlayır: utanıb ağlayır, xəcalət çəkib ağlayır...

Xəzangülün bu kərkin anlarda nə hala düşdüyünü, nələr çəkdiyini sözlə demək, əslində, mümkün deyil. İçərisində, vücudunda, qəlbinin dərinliklərində tüğyan eləyən o anlaşılmaz, bir az sevinc, bir az hədər, bir az peşmanlıq, bir az da xəcalət qarışıq hisslərini yalnız o özü bəyan eləyə bilərdi: əgər dili olsaydı...

Yox, hətta dili olsaydı da, bu hissləri bəyan eləmək, şərh eləmək müşkül idi, çox müşkül idi.

Xəzangülün bu qatma-qarışıq anlar içərisində duyduğu bu idi ki, neçə ildən bəri ölmüş hissiz-duyğusuz ət-sümük yığınına çevrilmiş, qansızlıqdan gömgöy olan və istidə-soyuqda elə hey üşüyən bədəni elə bil, azca isinmişdi, vücudunda sanki qan hərəkətə gəlmişdi; zahirən sakit, tərpənişsiz görünsə də, o özü bu ılıq isinməni hiss eləyirdi.

Ancaq, Xəzangül indi canının, ölmüş bədəninin hayında deyildi — xəstəliyini yadından çıxarmışdı. Bədbəxtliyini də... Ara vermədən nəmlənən iri gözlərini geniş açaraq bir neçə an Əsədin çallaşmış saçlarına, qırışlar iz salmış alnına, qara, xırda gözlərinə tamaşa elədi, sonra uzun kirpiklərini astaca bir də endirdi. Əsəd də qeyri-ixtiyari, heç nə düşünmədən eyni hərəkətlə Xəzangülə cavab verdi: Yenidən bir an baxışdılar. Sonra Xəzangül gözlərini yumdu və beləcə xeyli qaldı. Utandımı? Xəyala daldımı? — Demək çətindi... Kim bilir, bəlkə Xəzangül də fikrən o vaxtkı çağlarına qayıtmışdı. Əsədi indiki kimi yox, onuncu sinifdə oxuyarkən olduğu kimi gözləri önündə canlandırırdı? Və ümumiyyətlə, maraqlı idi Əsəd üçün, görəsən, o, yalnız indi, Əsədi görəndən sonramı o çağları xatırladı, ya Əsəd kimi, tez-tez xəyalən o günlərə qayıdırdımı? Heyf, Əsədin bir çox başqa sualları kimi, bu sualı da cavabsız idi və güman ki, cavabsız da qalacaqdı.…

Xəzangül Əsədi tanıdığı ilk anda — bu ağlagəlməz, gözlənilməz görüşün sarsıntılı zərbələrini ürəyində duyduğu anda keçirdiyi ilk hiss sevinc idisə, ikincisi — xəcalət hissi idi. Sevindi, ona görə ki, o zaman Möhsünü görəndən gözü ayağının altını görmədiyindən rəhmsizcəsinə qəlbini qıraraq atıb getdiyi, az sonra dərin peşmançılıq duyğuları ilə vaxt-bivaxt yad etdiyi, adı ilə ilk gəncliyinin şirin xatirələri bağlı olan və iyirmi ildən çox səs-sorağını eşitmədiyi Əsədi görmüşdü. Xəcalət çəkdi — əvvələn şikəstliyinə görə, ikincisi, vaxtilə onunla sərt və amansız rəftar etdiyinə görə... bir zamanlar həyat eşqilə dolu, sağlam, gözəlliyi ilə ürəklər isindirən Xəzangül indi taleyin hökmü ilə bir parça ət-sümük yığınına çevrilmişdi — bu halına görə Əsəddən utanırdı. Əslində bu hiss ona çoxdan tanışdı, o, xəstələnəndən sonra bütün tanışların gözünə görünəndə bu sıxıntını keçirirdi. Ancaq indi başa düşdü ki, Əsəddən hamıdan çox utanır. Utanmalı idi —yalnız vicdanını da itirənlər utanmaq hissindən məhrum ola bilər. Utanırdı, çünki, — zorla, dumanlar içində xatırlayırdı ki — Əsəddən üz döndərəndən sonra biçarə oğlan nə hala düşmüşdü, neçə dəfə qabağını kəsib ağlar səslə, «Axı niyə belə eləyirsən,

sənə birdən-birə nə oldu, Xəzangül» — deyib yalvaran Əsədin səsini eşitməmişdi, suallarına, yalvarışlarına dəhşətli dərəcədə biganə qalmışdı, ən ağırı bu idi ki, susmuşdu. Susmaq isə — vurulan şillədən, verilən işgəncədən də ağır imiş — bunu o zaman başı havalı Xəzangül anlamamışdı.

İndi, üstündən nə qədər vaxt keçəndən, gəncliyin gözəl çağları həsrət və peşmançılıq içində sovuşub gedəndən sonra, tale onları beləcə təsadüfən qarşılaşdırmışdı. Xəzangül belə bir görüşü nəinki arzulamazdı, hətta xəyalına belə gətirmək istəməzdi. Çal-paşıq, dolaşıq duyğuların əlində göyərçin kimi çırpınan Xəzangül gözlərini açmadan qəlbinin dodaqları ilə iniltiyə bənzər səslə: «Bu nə əzablardı mənə verirsən, ilahi? Öldür məni, elə bax indicə canımı al, sənə yalvarıram» — deyə daxilində pıçıldayırdı. Ancaq kim idi onun sözünü eşidən? Xəzangül — elə o anlarda ölməyi bir səadət kimi arzulayan Xazəngül ölümün gəlmədiyini vücudu ilə hiss eləyib məyus-məyus özünə cavab verdi: «Qəddarların sözünü, görünür, tanrı da eşitmək istəmir...»

— Sizi gördü, çox həyəcanlandı. — Bayaqdan bu riqqətamiz görüşü maraqla seyr edən və nə isə bu görüşün əsrarlı, qeyri-adi bir görüş olduğunu dumanlı şəkildə duyan, ancaq əsl həqiqəti ağlına gətirməyən Sahilə qorxu içində dilləndi. Həkimlərini dediyini birdən xatırladı: «Ona həddən ziyadə həyəcanlanmaq olmaz — bunun iki başı ola bilər: ya qəfil sevinc, sarsıntı onun bədəninin heç olmasa müəyyən əzalarını hərəkətə gətirə bilər, ya öldürə bilər.» Sahilə nigaran baxışlarla anasının qıçlarına, dizləri üstündəki kötük əllərinə nəzər yetirirdi.

— Hə, bu ona ziyandı. — dedi Əsəd müəllim fikirli-fikirli. Bu zaman Xəzangül gözlərini açdı. Əsədin hələ də qabağında oturduğunu gördü. Onlar yenə baxışdılar. Əsəd hiss elədi ki, Xəzangülün böhranlı dəqiqələri ötüb keçib. Ona görə də həyatda hər şeyini itirmiş, təkcə gözləri yaşayan Xəzangülü ruhlandırmaq, dünyaya bağlamaq, küsgün, atılmış qəlbini ovundurmaq, güc, qüvvət vermək üçün yenə lap o vaxtkı kimi, təbəssüm içində gözlərini qırpdı və Xəzangül də eyni hərəkətlə Əsədə cavab verdi.

Əsəd, o eşidəcəkmiş təki, sakit səslə əlavə də elədi:

— Darıxma, Xəzangül, hər şey keçib gedəcək, — sonra baş barmağını qaldırdı, yəni hər şey «əla» olacaq. Ancaq Xəzangül kirpiklərini yuxarı qaldırıb qaşlarını dartdı: bu o demək idi ki, «yox».

Əsəd, onun bu sözü üstündən heç nə deyə bilmədi. Xeyli sakit-sakit oturub Xəzangülə baxdı, baxdı. Danışılmalı, deyilməli söz çox idi, alınmalı cavab çox idi, lakin, təəssüf ki, bu, mümkün deyildi. Əsəd hiss eləyirdi ki, onun burada oturmağı Xəzangülə ancaq əzab verir: bu əzab onun ala gözlərinə yazılmışdı — Əsəd bunu aydın görürdü, oxuyurdu. Odur ki, o, azca yana əyilib Sahiləyə dedi:

— Mən gedim, Sahilə, — susub əlavə elədi, — mən onu çox görmək istəyirdim. Ancaq belə görəcəyimi heç ağlıma da gətirmirdim. Nə etmək olar? Taleyin hökmündən qaçmaq mümkün deyil, görünür.

— Hə, getmək istəyirsiniz? Gedin müəllim. Çox sağ olun, sağ olun ki, onu sevindirdiniz. Anam haçandı nə belə ağlamışdı, nə belə gülümsünmüşdü. Hər necə olsa, ürəyi xeyli yüngülləşdi. Sağ olun, müəllim.

— Dəyməz, qızım. Sən də özünü itirmə, darıxma. Mənə nədənsə elə gəlir ki, o, sağalacaq, hər şey yaxşı olacaq. Sən də bu il on illiyi bitirərsən, instituta girərsən.

— Nə bilim, müəllim. Təki siz deyən olsun. Ancaq mənim instituta girməyimdən keçmiş olar. Həm də belə oxumaqla instituta girmək mümkün deyil. Mən gərək işləyəm, müəllim. Anam işləyən fabrikə gedəcəyəm, tikiş fabrikinə...

Əsəd dinmədi, yenə cibindən siqaret çıxartdı və barmaqları arasında ovxalaya-ovxalaya dənizə tərəf baxanda alçaq sahil hasarının üstündə oturub baxışlarını onlara zilləyən Ərəstunu gördü. Əsəd əlini qaldırmaqla ona salam verib gülümsündü və dönüb Sahiləyə dedi:

— Ərəstundu, Sahilə...

Sahilə onu bayaqdan görmüşdü. O, hər gün anasını dəniz

qırağına çıxaranda Ərəstun da buraya gəlir, uzaqdan-uzağa onları müşayiət eləyirdi. Yaxın gəlməyə Sahilə özü icazə vermirdi — anası görərdi, başa düşərdi. Bunu isə qız istəmirdi.

Bayaq isə Sahilə Ərəstunun yenə gəldiyini görüb başı ilə işarə eləmişdi ki, ordan çıxıb getsin, yaxşı deyil, Əsəd müəllim görər, dünənki söhbətdən sonra da hər şeyi anlar... Ancaq oğlan yerindən tərpənməmişdi. Qız ikinci dəfə gözlərini ağardanda o, azca uzaqlaşmış, çox keçməmiş təzədən qayıdıb gələrək yerində oturmuşdu.

Əsəd müəllim mənalı-mənalı «Ərəstundu, Sahilə» — deyib gülümsənəndə qız bu təbəssümün altındakını başa düşüb qızardısa da, heç nə demədi. Əsəd onun dünənki cəsarətini yadına salıb:

— Yaxşı oğlandı, qızım, məncə ona bel bağlamaq olar. — dedi və bu sözləri doğma, yaxın bir adama deyirmiş kimi söylədiyinə özü də təəccüb elədi. Elə bil, balasına xeyir-dua verirdi.

Sahilə başını qaldırmadan:

— Sağ olun, müəllim! — dedi.

Sonra Əsəd, daha ayrılıq vaxtının çatdığını duyub Xəzangülə baxaraq həm əlinin işarəsi ilə, həm də dili ilə:

— Mən gedim, — dedi və sanki getmək üçün icazə istədi. Xəzangül sözlərini eşitməsə də, əlinin hərəkətindən onun nə demək istədiyini anladı və göz qırpmaqla «get» — söylədi...

Əsəd qalxdı, mehribanlıqla gülümsəyərək əlini döşünün üstünə qoyub baş endirdikdən sonra:

— Sənə şəfa diləyirəm, Xəzan... — dedi Xəzangülün əvəzinə Sahilə cavab verdi:

— Sağ olun, müəllim...

...Əsədin ayaqlarından elə bil daş asılmışdı. Başı möhkəm ağrıyırdı, sərxoş adama oxşayırdı. Bu gün necə də gərgin gün olmuşdu Əsəd üçün? Aliyə xanımın acı sözləri artıq yadından çıxmışdı, beynində, ürəyində, gözlərində indi ancaq iki təkərli kolyaska idi, onda hərəkətsiz oturmuş Xəzangül idi—təkcə gözləri danışan, utanan, ağlayan, ürəyi, dili gözlərində olan Xəzangül idi. Əsədin qəlbi sızıldayırdı, Əsədin gözləri göynəyirdi. Xəzan-

gülün o vaxtlarını nəzərlərində canlandırıb bu gününə baxanda elə bil, başına kimsə daşla döyəcləyirdi. Gör o məğrur, yeriyəndə yerişindən az qala yer titrəyən Xəzangül nə günə qalmışdı, ilahi?!. Kaş Əsəd onu belə halda heç görməyəydi, kaş! Xəzangül onun xəyalında, xatirəsində elə o cür — məğrur, gözəl, lap-elə rəhmsiz kimi qalaydı, yaşayaydı. Bu qəfil görüş hər şeyi uçurub dağıtdı, yerlə yeksan elədi.

Gedirdi Əsəd müəllim, ağır-ağır gedirdi. Oturacaqda əyləşmiş cavan oğlanın yanındakı tranzistorda Zeynəb oxuyurdu. Yanıqlı səslə, ürəkləri titrədə-titrədə. «Olmalıydın — olmadın»... deyirdi kiməsə... «Səsinə qurban olum» — dedi ürəyində Əsəd. Bu kövrək mahnı Əsədin yadına hələ o zaman, neçə illər bundan qabaq, qəlbinə vurulmuş yara, gözlərini yaşardıb içini göynədəndə yazdığı birinci və axırıncı şeri saldı... Qəribə idi. O günə qədər iki misranı yan-yana düzməmişdi, sonra da heç vaxt əlinə qələm alıb şer yazmamışdı. Onda nə isə, gecənin bir aləmində yatağının içində qələmsiz-kağızsız yaranmış o iki bəndlik şer hələ indiyəcən kağız üzü görməmişdi — eləcə dərdi ilə, Xəzangülün xəyalı ilə yanaşı hafizəsində yaşamışdı: qəlbi qövr eləyəndə o misraları öz-özünə zümzümə edib kövrəlmişdi. İndi də dodaqaltı həmin misraları pıçıldadı:

Bilməm nədən belə doğmasan mənə,
Bir belə qohumun, yadın içində.
Tək sənin adını yazmışam, gülüm,
Qəlbimə min gözəl adın içində.

Eşqinlə inləyən bir bülbül oldum.
Sənə nəğmə oldum, qızılgül oldum.
Sənsə atdın oda, yanıb kül oldum —
Mən səni qoymazdım odun içində.

Və bu pıçıltı əriyib yavvş-yavaş eşidilməz oldu, ancaq, nə sirr idisə son misra dəfələrlə təkrarlanırdı: «Mən səni qoymazdım

odun içində...» «Od» sözündən nədənsə qəlbi isindi, bədəninə od düşdü. Ona elə gəldi ki, içərisində həqiqətən bir yanğın var... «Mən səni qoymazdım odun içində...» təzədən pıçıldayanda anladı ki, yox, yanan o deyil, o, yanmır, kimsə arxada, bayaq oturduğu yerdə şölələnir və bu səs qəlbindən yox, ordan, odun içindən gəlir... Ayaq saxlayıb hövlnak geri qanrıldı və... gördü ki, Xəzangülün kolyaskasının üzü bəri çevrilib — o, Əsədin arxasınca baxır. Yəqin bunu Sahilə eləyib, Xəzangül keçmiş məktəb yoldaşının ardınca rahat baxa bilsin deyə… Əsəd bir də onda ayıldı ki, yolundan dönüb, Xəzangülə sarı addımlayır. Bu addımlarda indi bir qətiyyət vardı. O tək misra beynində, qulaqlarında səslənir, səslənirdi:

«Mən səni qoymazdım odun içində...»

...Sakit ilə Əsədin skamya, üstündəki söhbəti burda kəsilmişdi. Beşinci mərtəbədən, həyətə açılan pəncərədən Gülalının başı görünmüş və o, işarə ilə «Səni telefona çağırırlar» — demişdi və Sakitin ləng tərpəndiyini görərək iki əlini ağzına tutaraq: — «Moskvadandır ey» — deyə qışqırmışdı. Sakit ayrılmaq istəmədiyi Əsəddən məcburiyyət qarşısında ayrılmışdı və qaça-qaça:

— Gəl evə, Əsəd, oturaq, bir ağıllı-başlı söhbət eləyək. Mütləq gəl, ha — söyləmişdi və yuxarı qalxıb Moskvadan zəng çalmış redaktoru ilə danışandan sonra, Əsədin söylədiyi bu qəribə və kədərli əhvalatı təzədən xatırladıqda: «Vay, heç, ünvanımı demədim. O, bizim evi tanımır!» — deyə təəssüflənmişdi.

O gündən Əsəd də ona bir dərd oldu. Bu əhvalatın axırı nə ilə bitdi?

Əsəd Xəzangülün yanına niyə qayıtdı? Xəzangülün axırı necə oldu? Aliyə xanımın — məktəb direktorunun yanına getdimi və o, Əsədi başa düşdümü? Sakit düşünürdü ki, yox, Əsəd daha o məktəbə qayıtmaz, qayıtmaq istəməz. Yaxşı, əgər qayıtmayıbsa, bəs indi harada işləyir və necə dolanır? — Bütün bu suallar Sakitin ürəyini üzürdü. Və həyatın qəribə-qəribə, hələ qatı açılmamış kitabları, dastanları olduğunu düşünüb özünü qınayır, danlayırdı ki, o vaxt, tələbə ikən niyə Əsədin ürəyinə yol tapa bilməyib,

adamayovuşmaz, sirli-qüssəli olmağının səbəbini öyrənə bilməyib. Bunun da fərqinə varmayıb ki, niyə hamı, hətta kənddən gələn uşaqlar belə şəhərdə qalmaq, təyinatlarını bura almaq üçün dəridən-qabıqdan çıxdığı halda, Əsəd kimi şəhər uşağı, könüllü surətdə rektorun adına ərizə yazıb uzaq bir kəndə getmək istəyib! Sən demə, Əsədin müsibəti varmış!

Yox, Əsədi hökmən görmək lazımdır, onun taleyinə biganə qalmaq olmaz. Əsəd təkdi, evlənməyib Xəzangül ondan üz döndərəndən sonra başqalarından eşitsəydi, bəlkə də inanmazdı, «nağıldı» deyərdi. Ancaq bunu Əsəd özü danışırdı. Çox qəribə idi ki, azdanışan, ürəyini hamıdan gizlətməyə çalışan Əsəd indi həvəslə, daha doğrusu, yanıqlı-yanıqlı öz dərdini dilinə gətirirdi. Görünür, illərlə yığılıb qalıb ürəyində, qubar eləyib; daha dözə bilmir, sirr, söz — ürəyini deşir. Bəli, Əsəd evlənməyib. İndi belə kişilər azdı, bəlkə də heç yoxdur. Amma Xəzangüllər var hələ. İndiki cavanların arasında var hələ. Özü yıxılıb özü ağlayanlardandı bunlar. Belələrinə Sakitin qəzəbi tuturdu, sonra hardasa, Xəzangül gününə düşənlərə yazığı gəlirdi. Xəzangülün həyatı ibrət dərsidi — bunu hökmən, əgər Əsəd icazə versə, yazmaq lazımdır. Doğrudan, görəsən, Xəzangülün axırı necə olacaq?..

## İKİNCİ FƏSİL

Qurbanzadələr ailəsinin başına gəlmiş gözlənilməz, ağlasığmaz o fəlakətli gündən altı aydan çox keçmişdisə də, nə ata-ana özünə gəlib, toxtamışdı, nə də milis orqanları.

Şübhəsiz, itki böyük itki idi, Salmanın, Nadirənin belini sındırmışdı. Nadirənin o dəhşətli mənzərəni — döşəmənin üstündə donmuş qan gölməçəsinin içində üzüqoylu düşüb çoxdan canını tapşırmış madar balasının quruyub qaxaca dönmüş vücudunu görəndən sonra əsəbləri tamam pozulmuşdu; arvad nə dediyini, nə etdiyini bilmirdi. Elə hey ağlayırdı, öz-özünə danışırdı. Ancaq sözünün nə əvvəli vardı, nə axırı. Nə yas yerinə gələnlər, nə də

Salman onun dediklərindən düz-əməlli bir şey anlayırdı. Salman dərdinin ağırlığına baxmayaraq, özünü dəyanətlə aparırdı. Onun ağladığını heç kəs görməmişdi. Görünür, göz yaşları qəlbinə axırdı. Lakin buna baxmayaraq, heç kəsin, heç nəyin əyə bilmədiyi, polad iradəsi və nikbinliyi ilə çoxlarının həsəd apardığı Salman özünün də xəbəri olmadan yaman düşmüşdü, qocalmışdı. Təbiətən oğulcanlı olan, «kişi qırığı» böyütmək istəyən, Ceyhunun oturuşu, duruşu, yaşına uyğun olmayan hərəkətləri ilə öyünən, ondan heç nə əsirgəməyən, «qoy ürəyi necə istəyir, elə yaşasın. Mən çox korluq, sıxıntı çəkmişəm, o, çəkməsin» — deyən Salman heç yatsaydı yuxusuna da girməzdi ki, onu belə tez itirə bilər, sevincdən, qürrədən, «düşmən çəpəri»ndən məhrum ola bilər. Arın-arxayın bağdan qayıdarkən «bu arvadın başını kitablar xarab eləyib, Ceyhuna nə ola bilər!» — deyərək Nadirənin yazdığı qısa kağızı cırıb avtobusun pəncərəsindən yelə verən Salman, evə gələndə gördüyü mənzərəni heç cür həqiqət hesab eləyə bilmirdi, bunu yuxu, yaxud nə isə bir qurğu sayırdı. Ancaq bu həqiqət idi və o, özünü nə qədər aldatmağa çalışsa da, həqiqətin buz kimi soyuq üzünü görməli, olub-keçənlərə inanmalı olurdu. Nadirəni ayaq üstə ölmüş görəndə isə kişi əməlli-başlı sarsılırdı; indi Nadirə elə haldaydı ki, onu tək buraxmaq olmazdı. Bu, Salmanı lap təntidirdi.

Ev sahibləri də, qonum-qonşu da, hadisə yerinə gəlmiş milis işçiləri də çox ciddi yoxlama, ölçüb-biçmə, sənədləşdirmədən sonra bu qərara gəlmişdilər ki, evi qarət ediblər. Ceyhun müqavimət göstərdiyinə görə oğrular onu öldürüblər. Aparılan pul, qızıl şeyləri, bəzək-düzək heç yada düşmürdü. Ancaq aktda onların qeyri-dəqiq, təxmini miqdarı bircə dəfə qeyd olunmuşdu, vəssalam. Uşağa yeddi bıçaq zərbəsi vurulmuşdu: dördü qarın nahiyyəsinə, ikisi sağ sinəsinə və biri soldan lap ürəyinin üstündən endirilmişdi. Bu axırıncı zərbə onun həyatına son qoymuşdu.

Təhqiqat işini aparan mayor Hacı Əliyev cavan olsa da, diqqətli, qayğıkeş və bu cür işlərdə yaxşı səriştəsi olan bir adam təsiri bağışlasa da, hələ də kələfin ucunu aça bilmirdi. Lap elə ilk

gündən mülki paltarda bütün yas mərasimində, cümə axşamlarında iştirak edir, gələnlərə, söhbət edənlərə göz qoyur, izə düşmək istəyirdi, lakin bir işıq ucu tapılmırdı. Nadirə ilə danışmaq mümkün deyildi, dindirən kimi gözlərindən min yerdən yaş tökürdü, heç nə deyə bilmirdi. Hacı əsl söhbətləri Salmanla aparırdı. Oğlunun maraq dairəsini, yoldaşlarını, dostlarını, gedib-gəldiyi yerləri ondan soruşub öyrənirdi. Salmanın da oğlu haqda məlumatlarının o qədər də dəqiq və ətraflı olmadığını görəndə, Hacı təəccüblənirdi. Onda belə bir təəssürat yaranırdı ki, professor oğlu ilə çox az maraqlanırmış, Salmanın dediklərindən bircə bu məlum idi ki, Ceyhunun oturub-durduğu ikicə adam var — akademik Əlişirin oğlu Saleh, rəssam Süleymanın oğlu Samir. Vəssalam. Müstəntiq bu iki cavanla elə yas yerində tanış olmuşdu. İkisi də, Ceyhunu aparıb təzə qəbristanlıqda — camaat arasında «Volçıvorot» adı ilə məşhur olan yerdə dəfn edib qayıdandan sonra məziyyə məclisində idi. İkisi də qorxmuşdu, vaysınır, ah-uf eləyirdi. Həyətdə qurulmuş çadırda oturanlara qulluq edir, tez-tez çay stəkanlarını dəyişir, qulluq göstərirdilər. Hacı əvvəl onlara kənardan göz qoyurdu. Danışıqlarına, gözlərinin içinə fikir verirdi. Ancaq onlarda dostlarını itirmiş adam təəssüfündən başqa bir şey görə bilmirdi. Bu iki cavanın böyük və məşhur adamların oğlu olduğunu biləndən sonra, Hacı onlardan əl çəkməyi qərara aldıqda onun bu fikrini Salman özü də bir az qüvvətləndirmişdi:

— Mən görürəm ki, sən bu uşaqlardan şübhələnirsən, yoldaş mayor. Amma səhv eləyirsən. Onlar elə ailələrdə tərbiyə alıblar ki, bu barədə düşünmək belə gülünc olardı. Mənim evimi oğrular qarət eləyiblər, mənim oğlumu oğrular qətlə yetiriblər. Günahkarı başqa yerdə axtarmaq lazımdır, yoldaş Hacı. Əlişirlə də, Süleymanla da yaxın dostam. Eşitsələr, duysalar, sonra gərək onların üzünə baxmayam — Hacı fikrində bu qənaətlə razı olsa da, professionallığını göstərmək üçün öz işlərinin təfərrüatına varıb izahat vermişdi:

— Mən də elə düşünürəm, professor. Ancaq bizim bu axtarış və təhqiqat işimizdə ən kiçik bir detalın da əhəmiyyəti çox

böyükdür. Bir də görürsən hamının gördüyü, hiss elədiyi, eşitdiyi bir detalın bir işarənin, baxışın, ya bircə sözün düyünün açılmasında böyük rolu olur. Siz özünüz tədqiqatçısınız, elmi işinizdə bir fakt bəzən sizin üçün bir qaranlıq və mübhəm problemin üstünə işıq salır və bundan böyük bir elmi nəticə çıxarırsınız...

— Elədir, tamamilə elədir, Hacı. Ancaq... eh, mənə olan oldu, mənim belim sındı, qardaş. Lap qatili tapın, güllələyin, nə olsun — mənim oğlumu ki geri qaytara bilməzsiniz.

— Sizin oğlunuzun qatilini tapmaq bizim müqəddəs borcumuzdur, professor. Burada insan öldürülüb; biz onu yerin deşiyində olsa da, tapmalıyıq. Heç olmasa ona görə ki, bizim cəmiyyətimizə yad olan bu cür müzür ünsürlər başqalarının da həyatına qəsd etməsinlər, kök salıb rişə atmasınlar, rahatlığımızı pozmasınlar.

— Hə, hə... lazımdır, lazımdır... — deyə Salman Qurbanzadə, fikri dağınıq halda cavab vermişdi və Hacı bu cavabdan söhbətin bitdiyini anlayıb getmişdi.

Dərd yandırırdı, ancaq köhnəlmirdi. Axtarış davam edirdi, lakin qatil tapılmırdı.

...Nadirə xanım Ceyhunun otağını bəzəmişdi, silib-süpürmüş, səliqəyə salmış, şəkillərini böyütdürüb divarlara vurmuşdu. İçəri girən adam dəhşətə gəlirdi — hər yerdən sənə müxtəlif yaşlarda, müxtəlif paltarlarda olan Ceyhun baxırdı. Gülə-gülə, ciddi, məclisdə, dənizdə, Salmanın yanında, Nadirənin başı üstə. Bir sözlə bura canlı bir muzey idi — Ceyhun muzeyi. Maqnitofon azarkeşi idi Ceyhun. Cürbəcür maqnitofonlar almışdı. Eləcə qalırdı. Dərdli Nadirə bütün boş vaxtlarını burada keçirirdi, işdən gələn təki çörəyini yeyib bura girir, pəncərə ağzındakı dibçəklərə su tökür, yanına gələnləri də burada qəbul edirdi. Salman neçə dəfə onu buradan çıxartmaq istəmişdi, ancaq bacarmamışdı. «Bura mənim doymadığım Ceyhunlu dünyamdı, Salman. Məni bundan məhrum eləmə, ölərəm o saat.» Salmana heç nə demirdi, danlamırdı; «mənim oğlumu sən məhv elədin» deyə məzəmmət eləmirdi, ancaq ürəyində hey bu sözlər dolanırdı. «O da atadır, onun

da beli sınıb — qəlbini təzədən qanatmağın nə mənası var» — deyə düşünürdü. Yazı-pozu yadından çıxmışdı. Elə belə, xalaxətrin qalmasın deyə işə gedib gəlir, adamlara key kimi baxırdı. Şöbənin işi öz qaydasınca gedirdi. Yoldaşlar ona və Salmana qayğı ilə yanaşır, yanlarında mümkün qədər deyib-gülmürdülər. Salmanın, Nadirənin müsibəti elə bil hamımın müsibəti idi. Onların çoxu, xüsusən Gülmirə Ceyhunu yaxşı tanıyırdı. Deyən-gülən, ərköyün Ceyhun Gülmirənin yadından heç çıxmırdı. Uşaqlığı gözünün qabağında keçmişdi. Ceyhun onun gözünün qabağında böyüyüb kişiləşmişdi. Son vaxtlar atası ilə onun arasında yaranmış gərgin münasibətləri deyəsən o heç bilmirdi. Nadirə də, Salman da belə şeyləri uşağa danışan deyildi. Ona görə də, ölümündən azca əvvəl təsadüfən küçədə rastlaşmışdı. Çox səmimi və mehriban görüşmüşdülər:

— Bəs bizə niyə gəlmirsiz, Gülmirə xanım? — demişdi. Gülmirə isə utana-utana:

— Vaxtım olmur, ay Ceyhun! — söyləmiş və ürəyindən keçirmişdi ki, «mən daha sizə heç vaxt gəlməyəcəyəm, gələ bilməyəcəyəm, Ceyhun. Atan məni qapıdan qovar».

Ancaq o ağır günlərdə o qapıya qorxa-qorxa gələn Gülmirəni Salman qovmamışdı, əksinə, özünü itirib nə edəcəyini bilməyən qızın ona yaxınlaşaraq dil-ağız eləmək istədiyini görəndə kövrəlib əlini çiyninə qoymuş, hönkür-hönkür ağlayan Gülmirənin, sinəsinə söykənmiş başını sığallaya-sığallaya, aralarında heç nə olmamış kimi ağlar səslə:

— Salman əminin beli qırıldı, qızım! — demişdi. Onun bu sözləri Gülmirənin yeddi qatından keçib içini yandırıb yaxmışdı. Kədər Salmanın ürəyindəki kin-küdurəti yuyub aparmışdı və bunu hiss eləyən Gülmirə daha dərin bir peşmançılıq hissi keçirmişdi, özünü o işi tutduğuna görə nə qədər danlamışdı. Salmanın onu bağışladığına qəlbən inanmaq istəsə də, hər dəfə bu evə, bu ocağa ayaq basanda daxili bir xəcalət hissi onu üzüb əldən salırdı, unutmaq istəyirdi o vuruşu, o çaxnaşmanı — ancaq unuda bilmirdi. Nəticə etibarilə böhtançı yerində qalmışdı Gülmirə və bu, ona

olmazın əzab verirdi. Kim bilir, bu bədbəxt hadisə baş verməsəydi, bu çəkişmənin axırı nə ilə bitəcəkdi? Salman belə asanlıqla barışacaqdımı? Təmiz adını ləkələdiyi üçün yaxasından əl çəkəcəkdimi? Çətin. Və bəlkə də, Salman özünəməxsus bir alicənablıq donu geyinərək «sən uşaqsan, bala, bunlar sənin sözün deyil. Səni kimsə qızışdırıb yoldan çıxardıb» — deyərək barışacaqdı?! Bunu heç kim deyə bilməzdi və bəlkə Salmanın özü də deyə bilməzdi, çünki Salman hərdən heç kəsin, hətta özünün də ağlına gəlməyən qəribə, ağlasığmaz hərəkətlər eləməyi sevən adam idi... Nə isə, bu, gələcəyin işiydi, hələlik isə, Gülmirə, öz şəxsi dərdini— itkilərini unutmuşdu, Ceyhunun faciəsinə qəlbən yanır, bacardığı qədər xüsusilə Nadirəyə dayaq olmağa, ürək-dirək verməyə çalışırdı. Nadirəyə yazığı gəlirdi onun. Ömründə ilk dəfəydi ki, oğul itirmiş ananı belə yaxından görür, necə yanıb kül olduğunun şahidi olurdu. Orxanın anası Şirini də görmüşdü — ancaq cəmi bir-iki dəfə. Şirin arvadın yanğısını uzaqdan-uzağa duymuş, hiss eləmişdi. Ancaq Nadirə gözünün qabağındaydı, demək olar ki, hər gün bir yerdəydi onunla; bu əzaba həqiqətən dözmək çətin idi.

Salmanın, Nadirənin ağır, sarsıntılı günlərində Gülmirə elə bilirdi ki, institutda daha heç kəs Mirzə Yanarın əsəri məsələsinin üstünə qayıtmaz, qayıtmaq istəməz. Ancaq görünür, səhv edirmiş. Lap bu yaxınlarda, bir həftə bundan qabaq, Nurəddin Osmanzadə Gülmirəni yanına çağıraraq həmin işi axıra çatdırmağın vacibliyini izah etmiş və tələb eləmişdi ki, Salmanın əlyazmalarını nəzərdən keçirsin, görsün ki, xətt doğrudan da onundur, ya yox? Gülmirə direktorun çox laqeyd, soyuqqanlılıqla dediyi bu sözləri dinlərkən ondan zəhləsi getmişdi. «Onlar nə hayda, bu nə hayda. Necə də ürəksiz adamdı, aman allah!» — deyə düşünmüşdü və təəccübünü, heyrətini gizləyərək:

— İndi heç yeri deyil, professor, — demişdi. — Salmanın dərdi özünə bəsdi. Təzədən, onun bu halında heç yerinə düşməz, Nurəddin müəllim. — Sonra fikrən geri, o müsibətli günlərə qayıdıb Nurəddinin, bir ağsaqqal, direktor, həmkar kimi özünü necə apardığını yadına salmışdı. Nurəddin cəmi iki dəfə yas yerinə

gəlmişdi. Yarımca saat oturub bir stəkan çay içmiş, Salmana və Nadirəyə başsağlığı verib getmişdi. Daha neyləməliydi? Heç nə. Amma sadəcə Nurəddinin ürəyində, gözlərində bu boyda fəlakətə adi bir şey kimi baxan bir adamın laqeydliyini duymuşdu Gülmirə; canyanğısı, qayğı, dərdə şərik olmaq yox idi o ürəkdə, o gözlərdə və bu, Gülmirənin içini üşütmüşdü elə o vaxt. İndi isə, budur, Nurəddin yenidən o məsələnin üstünə qayıtmaq fikrindədi.

— Yox, qız. Aydınlaşdırmaq lazımdır. hadisə oldu, keçdi getdi. Siz bunu yoxlayıb axıra çatdırın. Elə eləyin heç Salman özü bilməsin. Nadirə vasitəsiylə bu işi görün. Mən inanmıram ki, Orxan da, sən də bu boyda səhv eləmiş olasınız. Digər tərəfdən də, bu məsələdə nə Salmanın, nə də Nadirənin sözünə inanmaq olar. Salman deyir — mənim xəttimdi, Nadirə də onu təsdiq eləyir. Əlbəttə Nadirə eləyəcək. Arvadıdı Salmanın. Onların heç birinə inanmamalıyıq... — demişdi. İndiyə qədər Nurəddin barədə eşitdikləri də, gördükləri də yalan olmuşdu Gülmirə üçün. Yalnız bu söhbət Nurəddini ona çox yaxşı tanıtdırmışdı; o, təpədən-dırnağa qızıl da olsa, dahi də olsa, ən adi insani keyfiyyətlərdən, insanlıqdan, ürəkdən məhrum bir adam kimi beynində, yaddaşında həkk olunub qalmışdı. Yəqin ki, həmişə də belə qalacaqdı. Çünki yaddaşa yazılanı fələk özü də poza bilməz. Gülmirə direktorun kabinetindən pərişan çıxmış, dəhlizdə Sakitə rast gəlmişdi. Sakit onun kefinin niyə belə pozulduğunu görüncə səbəbini soruşmuş, o da Nurəddinlə olan söhbətini Sakitə danışmışdı. Sakit Ceyhunu lap yaxından tanımasa da, ölümünü ailə üçün böyük itki sanırdı. Salmanın, Nadirənin dərdinin ağırlığını, dözülməzliyini bir qələm əhli kimi dərindən duyur, öz faciəsi kimi yaşayırdı. Haçansa lazımı olacağı, bəlkə də yazacağı bu fəlakəti Sakit, müstəntiq Hacı Əliyevdən az izləmirdi — Salmanın da, Nadirənin də, hərəkətlərinə, danışıqlarına diqqət yetirir, Hacı kimi təhqiqat aparırdı hardasa o da özünü bir müstəntiq hesab eləyirdi. Həyatın, cəmiyyətin, insan talelərinin ədalətli müstəntiqi... Hacının cinayətkarı axtarıb tapması, qanunun mühakiməsinə verməsi, cəzalandırması işinin əsas xüsusiyyəti idi. Sakit isə, təxminən eyni işi görsə də,

Hacıdan fərqli cəza verirdi qatilə. Cinayətkara, pis və alçaq adamlara Hacının verdiyi cəza protokola yazılırdı, tərcümeyi-halına yazılırdı, müəyyən vaxt ölçüsü içində öz hökmünü qüvvədə saxlayır, sonra gücünü itirir və çox vaxt unudulub gedirdi. Sakitin cansız kağız vərəqi üzərində damğaladığı adam isə ömürlük məhkum olunurdu. Onun kitabının səhifələrinə yazılmış ölüm hökmü də, «sən pis adamsan, oğrusan, qatilsən, əclafsan» fikri də əbədi olurdu — heç olmasa kitab ömrü qədər olurdu. Kitab isə insandan çox yaşayır. Əgər sən günahkarsansa, vicdansızsansa, ürəksizsənsə, yaltaq və ikiüzlüsənsə və kitabına məhz beləcə düşübsənsə, beş gün sonra dəyişilib qızıl olsan da, günahını öz qanınla yumuş olsan da, sənə nicat yoxdur. Həmişə, ölənəcən və öləndən sonra da o kitabın səhifəsində Sakit yazan kimi qalacaqsan çünki yazıya pozu yoxdur.

Nurəddin isə bu hikmətdən, özünün nadanlığı üzündən xəbərsiz idi. Onun iki daşın arasında Salmandan əl çəkmək istəməməsi Sakiti də dilxor eləmişdi. Təbiətən həssas və xeyirxah insan olan Sakit belə ürəksiz adamlar görəndə yaman sarsılırdı, təəssüf hissi bütün varlığını yandırıb-yaxırdı. İmkanı, ixtiyarı olsaydı, belələrinə cəza verərdi, qovardı hər yerdən — işdən də, cəmiyyətdən də. Təmizləyərdi dünyamızı. Ancaq hayıf ki, buna gücü çatmırdı — gücü bircə qələminə çatırdı. Və elə burdaca da bir ayrı dərd yadına düşürdü — belə adamları sözlə, kitabla islah etmək çətindir. Çünki onlar, bədbəxtlikdən, kitab da oxumurlar. Dəyirman bildiyini eləyir, çaxçax baş ağrıdır. Yox, amma ruhdan düşmək gərək deyil — demək, yazmaq lazımdır. Heç olmasa oxuyanları, bu laqeydlik, bu vicdansızlıq, soyuqqanlılıq, mənəm-mənəmlik, xəyanət, vəfasızlıq mərəzindən qorumaq, xilas etmək, uzaqlaşdırmaq üçün yazmaq gərəkdir, gecə-gündüz qələmə sarılmaq gərəkdir. Sakit Gülmirənin söhbətini dinləyəndən, Nurəddinin qəsdini öyrənəndən sonra, belə məsləhət vermişdi:

— Keçi can hayında, qəssab piy axtarır, buna deyiblər ha. Mənə gün kimi aydındı ki, Nurəddin qəddar adamdır, yazıqların başına o boyda müsibət gəlib, bu isə öz inamsızlığı onlara təzədən

zərbə vurmaq istəyir. Yox, Gülmirə, sən bu dərdli vaxtlarında onlara heç nə demə — çox pis təsir eləyər. Necə deyərlər, ağa durur, Ağacan durur; Salman heç yerə qaçmır. Əgər o, doğrudan bu cinayəti eləyibsə, ondan heç vaxt yaxa qurtara bilməyəcək. Qoy bir az keçsin, ağrıları kütəlsin, özləri gəlsinlər, sonra Salmanın əlyazmasını gətirib qoyarsan direktorun qabağına. Bu düyün məhz onda açılacaq. Sənin kimi mən də şəkk ilə yəqin arasında qalmışam. Əgər məsələ Orxan deyən kimi olsa, onda Salmanın işi həqiqətən fırıqdı. Onda Salman hamının gözündə ölmüş, rüsvay olmuş olacaq. Yox, əgər bu, yalan çıxsa, sən pis vəziyyətdə qalacaqsan. Bunu sənə heç kəs, xüsusən Salman özü heç vaxt bağışlamayacaq.

Çox istədiyi, tamamilə ciddi və eyni zamanda ağıllı bir adam hesab elədiyi Sakitin sözləri Gülmirənin beyninə batmışdı: elə o özü də bu fikirdəydi. Sakitin dedikləri onun şübhə və nigarançılığını bir az da artırsa da, əlyazması məsələsini hələlik tərpətməmək fikrini möhkəmləndirdi.

Lakin üç gün sonra, istirahət günü Nadirəyə baş çəkməyi üçün onlara gələndə heç özü də bilmirdi ki, haçan Nadirəyə əhvalatı açıb demişdi. Onlar Ceyhunun otağında oturmuşdular. Salman kabinetdəydi və Gülmirənin üzünə çıxmamışdı. Nadirə Nurəddinin Salman məsələsini təzədən qurdaladığı xəbərini eşidəndə həqiqətən sarsılmışdı. Gözlərindən yaş çıxarmasa da, ağlar səslə söyləmişdi:

— Necə rəhmsiz, düşüncəsiz adamdı bu, ay allah! Həssaslıq, qayğıkeşlik deyilən şey yoxdu bu kişidə! Axx... yaxşı, eybi yoxdu. Sabah mən gətirərəm Salmanın əlyazmalarını, özü baxsın, yoxlasın, soxsun gözünə. Bəlkə sonra inana. Ancaq Salman əminə heç nə demə. Qoy bilməsin.

— Yaxşı... — demişdi Gülmirə və kim bilir neçənci dəfə əzilib xırdalanmışdı. Bütün bu xoşagəlməz söz-söhbətdə ancaq özünün günahkar olduğunu neçənci dəfə etiraf eləmişdi, sıxıla-sıxıla Nadirənin ağlar sifətinə baxıb başını aşağı salmışdı. Lakin elə bu zaman, divanın üstünə atılmış telefon səslənmişdi. Nadirə həvəssiz, ölgün halda dəstəyi götürmüş:

— Bəli, eşidirəm. — demişdi. Lakin zəng eləyən səsini çıxarmayıb susmuşdu. Nadirə xanım əsəbi halda: — Ay qızım, səsini niyə çıxartmırsan? Niyə məni dəli eləyirsən?—deyə az qala yalvarmışdı. O başda, zəng eləyən dəstəyi asandan sonra, Nadirə, divana yayxanıb ah çəkmişdi:

— Kimdisə... elə hey zəng eləyir. Salman götürür, susur, mən götürürəm, susur. Bilmirəm, kimdisə, yazıq balamı axtarır, onun səsini eşitmək istəyir.

— Bəs nə bilirsən qızdı, Nadirə xanım!

— Bilirəm, lap siftə, bir dəfə çaşıb səsini çıxarıb. «Cek»— deyib... heç onda yeddisi çıxmamışdı tifilimin. Ondan sonra həftədə iki-üç dəfə elə bu vaxtlar zəng eləyir, səsini çıxarmır. Kimdisə tifilimin başına gələn müsibətdən xəbərsizdi, Gülü. Kimdi görəsən? Kaş tapa biləydim, tanıya biləydim, Gülü. Nadirə bu sözləri yana-yana demişdi və Gülmirə bu hisslərin özünə nə qədər doğma olduğunu duyub kədərlənmişdi. O vaxt, neçə il bundan qabaq, Orxanın qəbri üstə Şirin arvadla görüşü və ananın ağlaya-ağlaya dediyi sözlər yadına düşmüşdü, iki dərd bir-birinə qarışıb kövrəltmişdi onu. Demək Ceyhunun da istəklisi varmış. Nadirə xanımın da, Şirin arvad kimi, bundan xəbəri yoxmuş. Şirin arvad gec də olsa, oğlunun məzarı başında da olsa, Gülmirəni tapmışdı, görmüşdü, boynuna sarılıb ağlamışdı. Nadirə isə tanımırdı o qızı. Görməmişdi. Bu da ana üçün bir dərd olmuşdu. Demək o, tək oğul yox, toy da itirmişdi, gəlin də itirmişdi, hələ bəlkə neçə nəvə də itirmişdi.

Gülmirə kədərli-kədərli:

— Mən bunu bilmirdim. Qız məsələsini bəlkə müstəntiqə xəbər vermək lazımdı, Nadirə xanım? — demişdi. — Bəlkə bir şey bilir?...

— Eh, hardan bilir? Bilsəydi, zəng eləməzdi, Gülü! Axtarmazdı, bilsəydi.

— Hər halda demək lazımdı. Bəlkə axtarıb tapdılar o qızı. Bəlkə bir şey aydın oldu?

— Nə bilim, ay Gülü? Daha heç nə gözümdə deyil. Elə bil

dünya ölüb mənimçin... Bu zəng məsələsi də... məni lap dəli eləyib... Yazıq gözümün qabağından heç çəkilib ketmir. Vallah, qınayan olmasa, düşüb qalaram qəbiristanlıqda. Özümə bir koma tikərəm körpəmin qəbrinin yanında, yaşaram orda. Salmanın əkdiyi o ağaclara, o gül kollarına qulluq elərəm. Gecə-gündüz.

— Ay bacı, belə getsə, sən tələf olarsan. Dünyada oğul itirən ana məgər tək sənsən?! Dözmək lazımdı, başqa çarəsi yoxdu, bacı. Çalış, az-az get qəbiristanlığa. Bu sənin hər dəfə dərdini təzələyir, yaranın qaysağını qoparır.

— Yox, getməsəm, bağrım çatlar, Gülü... Gedirəm, ağaclara su verirəm, ot-ələfi yolub təmizləyirəm, bir az ürəyim sakitləşir. Salman hündür, qara mərmərdən başdaşı düzəltdirib. Görməyibsən ki?

— Yox. Son vaxtlar gedə bilməmişəm,

— Başdaşının üstünə qurban olduğumun ayaq üstə, gülə-gülə çəkdirdiyi şəklini həkk elətdirib. Yaxınlaşanda adamı dəhşət götürür. Elə bilirəm tifilim sağdı, kiminsə qəbrini ziyarət etməyə gəlib. Gülə-gülə məni qarşılayır elə bil yaxınlaşanacan elə bilirəm ölməyib, indi mənə qoşulub evimizə gedəcək. Qəbri, daşı görəndən sonra inanıram ki, yoxdu körpəm. Qayıtmayacaq. Daşdı, heykəldi. Hər dəfə gedəndə necə haldan-hala düşürəm...

— Yazıq bacı. Müsibətdi sənin işin...

Elə bu vaxt zəng çalınmışdı. Telefon Gülmirəyə yaxın idi. Gülmirə Nadirəyə nəzər salmış, sifətində bir qorxu hiss eləmişdi və işarəsi ilə dəstəyi özü götürmüşdü. Yenə susmuşdu kim idisə, bir-birinə baxıb köks ötürmüşdülər.

— Odu yenə... o qızdı... — deyə bayaqdan kədərli-kədərli danışan Nadirə daha dözməyib ağlamışdı.

...Zəng eləyib susan isə Regina idi. O, görüş son görüş olacaqmış, sən demə. Nə biləydi Regina, hardan biləydi?... Bilsəydi, ayrılmazdı, heç nəyə gücü çatmasa da, vaxtı uzada bilərdi. O vaxtdan Ceyhun Regina üçün yoxa çıxmışdı. Neçə dəfə zəng eləmişdi. Ya telefon susmuşdu, ya atası, ya da anası götürmüşdü. Regina partlaya-partlaya qalmışdı. Sonra neçə dəfə də «Ceyran»

restoranının yanına gəlmişdi, o həndəvərdə hərlənmişdi, pəncərəsinə baxmışdı. Ancaq Ceyhundan əsər-əlamət görməmişdi. «Yəqin bir yana gedib» — deyə düşünmüşdü. Bu da qəribə gəlmişdi ona ki, həmin gündən sonra Saleh də, iynəyə dönüb yox olmuşdu. Reginanın az qala hər addımını izləyən Saleh bu tərəflərə gəlmirdi. Bu ona qəribə görünsə də, hardasa sevindirirdi də. Ondan zəhləsi gedirdi Reginanın, görməyə gözü yox idi. Hər dəfə ondan bir kobud söz eşidəndə, ya heç nəyin üstündə döyüləndə Regina ona rast gəldiyi günə lənət yağdırırdı. Ancaq ilişmişdi, qopub ayrıla bilmirdi. O yanına gəlib-gedəndən sonra qadının qəlbində nifrət hissi bir az da güclənirdi. Ceyhunla tanış olduqdan, onunla yaxınlıq etdikdən sonra isə, Saleh gözündə ölmüşdü. O vaxt, həmin son görüş sona çatıb onlar ayrılanda, blokdan səksəkə ilə çıxanda Regina qarşı blokda dayanan Salehi görmüşdü və bərk qorxu keçirmişdi. «Vay, məhv oldum! — deyə ürəyindən keçirmişdi, — indicə gəlib elə küçənin ortasında məni ayağı altına salacaq!». Ancaq bir gözü arxasında, iti-iti addımlayan Regina, özünü dayanacağa çatdırıb tələsik trolleybusa minəndən sonra, gəldiyi yola diqqətlə baxmış, Salehi görməmiş və təəccüblənmişdi. Sonra isə «deyəsən məni qara basıb. O deyilmiş, oxşatmışam» — demişdi öz-özünə. Düz birbaş evə gəlib o günü heç yana çıxmamış, indicə Salehin gələcəyini gözləmişdi, ancaq o, gəlməmişdi. Məhz bu zaman o, qəti olaraq inanmışdı ki, blokda dayanan və onu görən kimi üzünü yana çevirən adam Saleh deyilmiş... Səhərisi də, birisi gün də gəlməmişdi. Elə o zamandan Regina onun qara sifətini, bədheybət gözlərini görməmişdi. Onun yoxa çıxmasına nə qədər sevinirdisə, Ceyhunu tapa bilmədiyinə bir o qədər kədərlənirdi Regina. Çox kişilərlə dost olmuşdu; oturub durmuşdu — ancaq nədənsə Ceyhun yaman xoşuna gəlmişdi. Onunla keçirdiyi saatlar heç yadından çıxmırdı. Həftələr, aylar keçdikcə ürəyində Ceyhuna bəslədiyi istək, maraq daha da güclənib artırdı.

Bu gün, cəmi yarım saat qabaq zəng eləyib yenə qadın səsi eşitdikdə Regina məyus olmuşdu və çoxdan düşündüyü, ancaq

cəsarət eləyib yerinə yetirə bilmədiyi işi — Samirin emalatxanasına getməyi, Ceyhundan, Salehdən bir xəbər bilməyi qəti qərara almışdı. Bura da könülsüz gedirdi əslində, Süleymanla üz-üzə gəlməkdən ehtiyat eləyirdi. Onun da emalatxanasındakı telefon neçə müddətdi «ağzına su alıb susmuşdu». «Olimp» mağazasının yanında düşdü trolleybusdan... Evin tinində dayandı: «gedim-getməyim» deyə götür-qoy edirdi ki, birdən Samirin səsini eşitdi:

— Xoş gördük, Regina xanım!

Bu görüşə o qədər sevindi ki, özünü itirdi, kəkələdi:

— A... sənsən, Samirçik? Salam, necəsən? Nə xoş təsadüf, nə xoş təsadüf!! —Daha demədi ki, elə sənin yanına gəlirdim. — Uşaqlar necədi? — deyə dolayısı ilə, guya elə-belə, soruşduqda Samir heç nə başa düşmədi:

— Hansı uşaqlar?

— Dostlarını deyirəm də. Salik, Cek...

Samirin ağ, girdə sifətinə bir kədər kölgəsi qondu.

— Salik yaxşıdı, hərdən... görürəm. Ancaq Cek... — o duruxdu.

Regina nigarançılıqla onun üzünə baxıb nə deyəcəyini gözlədi. Samir ağır-ağır söylədi:

— Cek... ölüb, Regina...

— Ölüb?.. — Bu sözü elə bərkdən dedi ki, səsindən özü də səksəndi... — Nə danışırsan, haçan?!

— Çoxdan...

— Xəstələndi, qəzaya uğradı, nə oldu ona?

— Öldürdülər.

— Aman allah, nə dəhşət! Kim öldürdü?

— Oğrular. Gəlib giriblər evə, qarət eləyiblər, ələ keçən qiymətcə ağır, vəzncə yüngül nə varsa aparıblar, özünü də öldürüblər.

— Vay, vay... — Reginanın iri, ala gözləri doldu. — Bu, haçan olub?..

— Bu, — Samir başını qaşıyıb fikrə getdi, nə isə xatırlamaq istədi və axtardığını tapdı — avqustun on üçündə...

Bu o gün idi ki, Regina da yadında saxlamışdı. Xoş gün olduğuna, Ceyhunla bağlı gün olduğuna görə unutmamışdı. Beynində dolandırdı. «Demək elə o gün... Mən çıxandan sonra...» Ancaq bunu Samirə söyləmədi. «Yox, demək olmaz. Heç kəsə demək olmaz. Məndən də şübhələnə bilərlər...»

— Tutulub qatil?

— Yox axtarırlar. Hələlik nəticəsizdi bütün axtarışlar.

Samirin uzun, qara kirpikli gözlərindəki kədər Reginanın xoşuna gəlirdi. Fikirləşirdi ki, o dəfə, qarlı qış günündə «Pioner» bağında və sonra da emalatxanada Samirin gözləri belə qüssəli deyildi. Demək, Ceyhunun ölümündən doğan qüssədi bu, dost itkisindən yaranan qəmdi bu. Və elə indicə Reginanın beynində bir istək gəzib-dolandı: — Salehin də gözlərinin içinə baxmaq, çox yox, bircə dəfə baxmaq kifayətdi. Onda Regina bilər, başa düşər ki, Ceyhunu o öldürüb, ya yox!...

Ancaq Reginanın qəlbində Salehə qarşı elə güclü bir nifrət vardı ki, onun yanına getmək, hətta Ceyhunun onun tərəfindən vurulduğunu öyrənmək istəyini də boğurdu. Bu da Regina üçün maraqlı idi; Saleh onun yanına niyə gəlmirdi?..

Bu iki sual cavabsız idi və onun qəlbini həmişə sıxırdı.

## ÜÇÜNCÜ FƏSİL

Başı nə qədər qarışıq, fikri nə qədər dağınıq olsa da, Nadirə xanım bir şöbə müdiri kimi son vaxtlar öz əməkdaşı Elviranın — Sarışının işdən tez-tez qaçdığını, bazarda-dükanda göründüyünü, ən ümdəsi isə çox pərt və pərişan olduğunu aydın hiss eləyirdi. Nadirə xanım Sarışına bacardıqca hörmət eləməyə çalışırdı— çünki onun anasını — hələ tələbəlik illərindən oxuduğu fakültənin baş laborantı olan, gözəl-köyçək Xəncər xanımı yaxşı tanıyırdı. Hətta bir zamanlar rəfiqəlik də eləmişdilər. Adı nə qədər qəribə olsa da, özü çox mülayim və mehriban idi, xəncərlikdən onda heç bir əsər-əlamət yox idi. Onda Xəncər xanım ərdə idi, deyəsən,

əgər hafizəsi aldatmırdısa, əri şəhərdə hansı məktəbdəsə dərs deyirdi. Xəncər xanım fakültədə tez-tez ağlardı — rəfiqələrinə öz dərdini söylərdi. Sən demə, uşağı olmurmuş. Əri Usub da uşaq istəyən olduğundan, tez-tez Xəncər xanımı döyür, gah evdən qovur, gah boşamaqla hədələyirdi. Bir sözlə, Xəncərə göz verirdi, işıq vermirdi. Hətta bir dəfə ürəyini Nadirəyə də açmışdı. Nadirə onun sonsuz kədərlə dediyi sözləri dinlədikdən sonra: «Belə yaşamağın nə mənası var? Ayrıl, Xəncər. Sən hələ cavansan, təzədən ərə gedərsən, uşağın da olar. Yoxsa o, belə, sənin ömrünü göy əskiyə düyüb çürüdər» — deyə məsləhət də vermişdi. Ancaq Xəncər xanım, qətiyyətsiz qadın olduğundan, bu mühüm addımı ata bilməmişdi. Evdən soyumuşdu, evdə sevinc yox idi; səadət yox idi; Xəncər fakültəyə ürəkdən bağlanmışdı — bütün günü fakültədə olurdu, kollektivin arasında gərəkli-gərəksiz işlərlə başını qatmağa çalışırdı. Onda kafedra müdiri, məşhur dilçi alim, professor İbrahim Sultanzadə idi. İbrahim Sultanzadə Xəncər xanıma da dərs demişdi, qabiliyyətli olduğuna, gələcəkdə yaxşı tədqiqatçı olacağına inanan İbrahim müəllim, təhsil illəri başa çatdıqda, onu fakültədə hələlik baş laborant kimi saxlatdırdı. Xəncər, özündən iyirmi beş yaş böyük olan İbrahim müəllimə çox hörmətlə yanaşırdı. Bunun bir səbəbi İbrahimin ona yaxşılıq etməsiydisə, digər səbəbi də İbrahimin də övladsızlıq odunda gizli-gizli yanmasaydı.

O vaxt danışırdılar ki, İbrahim öz arvadı Leyla xanımı çox sevir, ona görə ondan ayrılmaq, başqa qadınla evlənmək istəmir.

Xəncər İbrahim müəllimin kafedrada tez-tez çayını təzələyirdi, əsərlərini makinada çap eləyirdi. Çox vaxt işdən sonra da onlar ikisi kabinetdə tək qalırdı — İbrahim otaqda gəzinə-gəzinə əlindəki kiçik, iki bükülmüş və kəsilmiş (o belə vərəqlərə yazmağı xoşlardı) varaqdan Xəncər xanıma diktə edirdi. Yaxşılığı, qayğıkeşliyi İbrahimi Xəncərin gözündə ucaltmışdı. Övladsızlıq dərdi isə, onları heç özləri də hiss etmədən o qədər yaxınlaşdırmışdı ki, bir də gördülər Xəncər ana olub, İbrahim ata. İbrahim də, Xəncər də, əlbəttə, bundan çox şad idilər. Hər ikisi yerə-göyə

sığışmayan bir sevinc içində yaşayırdı. Ancaq bu sevinci hər ikisi gizlətməyə çalışırdı. O zaman söz-söhbət dalğası bütün fakültəni gəzib dolaşdı. Hamı işin nə yerdə olduğunu bilirdi, ancaq heç kəs nə Xəncərə, nə İbrahimə bir söz deyirdi. Kimin nəyinə lazım idi? Usub sakitləşmişdi, toxtamışdı, özünün dediyi kimi, «sarı dişiyə» oxşayan balaca qızını duz kimi yalamaqdan doymurdu. Xəncər xoşbəxt olmuşdu. Usub Xəncəri daha döymürdü, söymürdü, gecə-gündüz başına dolanırdı, «Mənim üçün bir oğlan da doğsan, sənə qızıldan heykəl qoyacağam, mənim Xəncərim!» — deyirdi. İki ildən sonra həqiqətən Xəncər bir oğlan da dünyaya gətirmişdi, ancaq, uşaq üç aydan sonra sətəlcəmdən ölmüşdü. Elvira evdə Xəncərin, Usubun sevinci olmuşdu, kənarda İbrahim Sultanzadənin. Artıq qocalıb ağırlaşmaq üzrə olan İbrahim hərdən Elviranı görəndə hədsiz dərəcədə sevinirdi, Elvira beş-altı yaşına çatanda, anası onu yanına salıb tez-tez kafedraya, gətirirdi. İbrahim uşağı ürəyincə öpüb oxşayır, nəvaziş göstərirdi, uşaq da ona isinişirdi.

Bax, indi Nadirə xanımın şöbəsində işləyən Elvira — Sarışın həmin o uşaq idi və əlbəttə o, xəbərsiz idi ki, həyatının onun özünə də məlum olmayan səhifələrini Nadirə xanım çox yaxşı bilir. Yaxşı ki, bilmirdi. Yoxsa o, gərək baş götürüb burdan qaçaydı. Elvira bunu da bilmirdi ki, həyatının sonrakı bəzi məqamlarından da Nadirə xanımın xəbəri var. Elvira böyüyüb onuncu sinfi bitirdikdən sonra, Xəncərin və xüsusən İbrahimin himayəsi sayəsində vaxtilə anasının oxuduğu fakültəyə daxil olandan, ərə getməli bir qız olandan sonra, Xəncər xanım, hələ də əlaqəsini kəsmədiyi, zəngləşdiyi, görüşərkən məhrəmanə söhbətlər elədiyi Nadirə xanıma nəhayət, bir dəfə ürəyini sıxan nisgili açıb söyləmişdi: «Eh, qızdı da, böyüyür, amma özü boyda bir dərdi də var qızın, Nadirə heç açıb-ağartmalı döyül, qalmışam kəsilə-kəsilə. Səni də bacı hesab eləyib danışıram, vallah.» «Axı nə olub ki?» «Sən özün bilirsən, mən necə səliqəli adamam. Amma bu qız bir pintidi, bir pintidi ki, daha deməli deyil. Bilmirəm kimə oxşayıb pintilikdə, pələşdikdə. Tək bu olsaydı, dərd yarı idi, üstəlik də çoxdanışandı bu bədbəxtin qızı. Ay allah, adam nə

qədər danışar? Səhərin gözü açılandan başlar, gecəyarısınacan üyüdüb tökər, yoruldum deməz: saxlamasan, ipini çəkməsən dayanan deyil. Deyirəm, ay qız, bir az səliqəli ol, bir az az danış, belə getsə sənə yiyə duran olmaz, kimsə səninlə yola getməz, bala, qalıb evdə qarıyarsan. Deyir «naplevat na vse. Mne nikto ne nujen.» Başa düşmür, qanmır. Özü ilə Cəfər adında bir yaxşı oğlan oxuyurdu, Sədərəkliydi. Elə gözəl, elə ağıllı oğlan idi ki... Elviradan da yaman xoşu gəlirdi. Şərait yaratdım, ikisini də yanıma salıb evə gətirdim, dedim oturun, dərslərinizi bir yerdə hazırlayın. Yaxşı yemək-zad da hazırlayıb qoydum. Cəfər iki gün gəldi, sonra aradan çıxdı. Deyirəm a qızım, bəs heç Cəfər gəlib ketmir? Deyir qovladım. Çüşkənin biridi. Sonra öyrənmişəm, yeyib içəndən sonra oğlana deyib ki, qab-qaşığı yığışdır. O da yığışdırmayıb, bu o qədər danışıb ki, yazıq da baş götürüb qaçıb. Beləcə neçəsini qaçırdıb. Belə getsə üstümdə qalacaq bədbəxtin qızı.» «Görünür, tək uşaq olduğuna görə ərköyün böyüdübsən, Xəncər. İndi də qabağında dura bilmirsən. Pintilik də, çox danışmaq da, qocalar demişkən, deyingən olmaq da ən gözəl azı, qadını belə hörmətdən salar, Xəncər. Pintilik və acı dil qadının ən böyük düşmənidi, ən böyük müsibətidi. Darıxma, bir dözümlü, səbirli oğlana rast gələr, alıb saxlar.» «Allah ağzından eşitsin, ay bacı.»

Lakin bir neçə ildən sonra, hələ Elvira bu instituta gəlməmişdən qabaq, Nadirə xanım təsadüfən küçədə Xəncərlə qarşılaşıb hal-əhval tutanda məlum olmuşdu ki, Xəncər qızı ərə verib: onların bəxtindən qabaqlarına Elviradan da bir az pinti, hələ üstəlik qulaqları da ağır eşidən bir oğlan çıxıb. Elvira Bəybalanın yanında «təmizkardı»; nağıllardakı deyingən Fatı qarını kölgədə qoyan Elviranın səhərdən axşamacan üyüdüb tökməsinin də Bəybalaya heç dəxli yoxdu — çünki eşitmir: arvadının yüz, min sözündən birinə ya «hə» deyir, ya da «yox». «Elvira əvvəllər bundan yaman əsəbiləşirmiş, partlamaq dərəcəsinə gəlirmiş, ancaq Xəncər onu çətinliklə də olsa başa salıb ki «sənin üçün elə bu yaxşıdı, qız. Qulağı eşitsə, Cəfər kimi, Kərim kimi, Sulduz və Sabir kimi o da qoyub qaçar səni. Qalarsan ortalıqda, bu Bəybalanın

qədrini bil, qız». İndi yaşayırlar, iki də totuq-potuq oğulları var.»

Nadirə, əlbəttə, buna çox sevinmişdi. «Hər qızın, hər qadının öz taleyi və öz tayı var dünyada. Hər kəs öz həyatını yaşamalıdı.» — demişdi Nadirə və Xəncərin yerə-göyə sığışmayan ana sevincinə şərik olmuşdu. Sonra Elvira dilçilik üzrə müdafiə etmişdi. «İbrahim əmisi», şübhəsiz, ona bu işlərdə — mövzu seçməkdə, rəhbər tapmaqda, məqalə çap etdirməkdə və s. hədsiz köməklik göstərmişdi və bundan əvəzsiz bir sevinc duymuşdu. Elvira İbrahimi atası Usubdan çox istəyirdi, ona bir arxa, bir dayaq kimi baxırdı. Elvira özü bilmirdi bunu, ancaq İbrahimin canı idi o! İbrahim onun üçün hər şərait yaratmaq imkanına malik idi və yaradırdı da. Bu qayğıların, köməkliklərin içində Elviraya ən çox ləzzət eləyən və yadında qalan bu olmuşdu ki, professor İbrahim Sultanzadə — dağdan ağır o boyda kişi, özünün «əmilik», əslində isə atalıq borcu bilərək o vaxt institutun direktoru olan Aslanzadənin yanına gəlmiş, Elviranı burada işə düzəltmişdi. İndi Elviranın üç uşağı vardı. Sonuncusu qız idi, Xəncər xanım isə iki il əvvəl ölmüşdü. Elvira əri Bəybala və üç uşağı, Xəncərin pulu ilə — əlbəttə, İbrahim də xeyli kömək eləmişdi — tikilmiş kooperativ evdə yaşayırdı. Köməyi yox idi, qızı körpə idi deyə Elvira arabir işdən yayınırdı və Nadirə də, bir qadın kimi onu başa düşdüyündən, çoxusu da Xəncər xanımın xatirinə üstünü vurmurdu, hörmət eləyirdi.

Ancaq son vaxtlar Sarışın Nadirə xanımın gözünə qəmli-qüssəli görünürdü və bu, Nadirə xanımı narahat eləməyə bilməzdi. Bir gün, işin axırında, camaat çıxıb gedəndə o, Sarışını saxladı:

— Səninlə söhbətim var! — dedi. Sarışın İltifatın stolunun böyründəki stolunun üstəki kağızlarını yığışdırmadan oturub gözlədi. Balaca sumkasından əl boyda dördgünc güzgünü çıxarıb sarı saçlarına, sarı qaşlarına, özünün də zəhləsi getdiyi iri, yastı çənəsinə ötəri baxdı, saçlarını əliylə səliqəyə saldı. «Görəsən nə məsələdi?» — deyə qurcuxurdu ki, Nadirə xanım şöbəyə girdi. Nadirənin saçlarının çoxu ağarmışdı — deyəsən xına-filan qoymurdu. Danışanda səsindən həzin bir qəm yağırdı və istər-

istəməz qarşısındakı adamı da kədərləndirirdi. Ancaq Sarışın indi özü kədərli olduğundan bunun o qədər də fərqinə varmadı, Nadirə gəlib onun yanında əyləşdi:

— Hə, Elvira, qızım, danış görək, nə var, nə yox? Son zamanlar gözümə birtəhər dəyirsən. Nə olub sənə, qızım?...

Elvira çiyinlərini çəkib susduqda Nadirə xanım:

— Sən bilirsənmi ki, mən sənin ananla — rəhmətlik Xəncər xanımla çox yaxın olmuşam. Sən demək olar ki, mənim gözümün qabağında böyümüsən. Sənə baxıram, görürəm nə isə fikirlisən. Bəlkə bir şey olub, bəlkə mənim sənə bir köməyim lazımdır?

— Yox, heç nə olmayıb, Nadirə xanım. Uşaqlar yorur məni sadəcə. Çatdıra bilmirəm. Ev, biş-düş, elmi iş...

— Bəs yoldaşın sənə kömək eləmir?

Söz Elviranın yaralı yerinə toxundu. Dərdini gizlətmək istədi, ancaq Nadirənin səsindəki qayğıkeşlik, canıyananlıq onun fikrini dəyişdi:

— Yoldaşım yoxdu, Nadirə xanım!

Nadirə üçün bu gözlənilməz xəbər idi. «Ölübmü, ayrılıblarmı? Yəqin başım qarışıb öz dərdimə, heç nədən xəbərim yoxdur!» — deyə beynindən keçirən Nadirə xanım təəccüblə nazik qaşlarını çatıb:

— Necə yəni yoldaşım yoxdu? — soruşdu. — Axı sənin yoldaşın vardı, qız?

— Var idi, Nadirə xanım, amma indi yoxdu.

— Bəs...

— Çıxıb gedib evdən, Nadirə xanım. — dedi və doluxsundu. — Bir ilə yaxındı bizi qoyub gedib.

Xəncər xanımın neçə il bundan qabaq qızı haqqında qayğılı-qayğılı dediyi sözlər gəlib yadına düşdü: «pintidi», «çoxdanışandı». Elviranın pintiliyinə görə kişi arvad-uşağını atıb getməzdi, çünki Xəncərin dediyinə görə, Bəybala özü də pis pinti deyilmiş. Bəlkə çox danışmağına görə? Axı Bəybalanın qulaqları da eşitmirdi. Demək bu da ola bilməzdi. Hə, Nadirənin fikri duruldu: son vaxtlar Elvira İltifatla çox tez-tez xısınlaşırdı, hətta işə də bir

gedib bir gələn vaxtları da az olmamışdı. Bu da Nadirənin yadına düşdü ki, Elvira qızlardan kiməsə ağzından qaçırmışdı ki, İltifat məndən sarı ölür, mənə neçə şer də yazıb; şerlər elə gözəldi ki, onlara musiqi də bəstələmişəm, qarnaqlıq-zad olsa oxuyaram, qulaq asarsınız. — Bəlkə bu söz-söhbət Bəybalanın qulağına çatıb, ona görə qoyub gedib? Olmazdımı? — Nadirə xanım bir anın içində bunları götür-qoy edib müəyyən bir nəticəyə gələ bilmədiyindən stolunu bir az da yaxına çəkib:

— Necə yəni çıxıb gedib? Nəyin üstündə? — deyə soruşdu. — Səbəbi nədi? Elvira dərdli adam kimi soyuq bir ah çəkdi, ağzındakı nanəli konfeti çevirib dedi:

— Əvvəllər yaxşı idi. Birdən-birə dəyişdi kişi. — Nadirə xanım hiss eləyirdi ki, Sarışının ürəyi doludu, danışmaq istəyir, çünki çənədən sazdı, ancaq nədənsə ehtiyat eləyir. Nadirənin ağlına gəldi ki, deyəsən Bəybala elə danışmağı üstə başını götürüb gedib və Elviranın ağzı məhz bunda yanıb. Amma axı Bəybalanın qulağı eşitmirdi? «Yox, bu deyil səbəb.»

— Mən bilən, yoldaşının qulağı bir az... — deyə Nadirə birbaşa mətləb üstə gələndə Sarışın səksənən kimi oldu və tələsik, qızara-qızara:

— Siz bunu hardan bilirsiniz, Nadirə xanım? — dedi.

— Mən sənin haqqında hər şeyi bilirəm, Elvira. Bayaq dedim ki, rəhmətlik Xəncərlə yaxın idim. O demişdi mənə.

— Hə, Nadirə xanım, qulağı eşitmirdi. Ancaq keçən il birdən-birə açıldı. Və elə ondan altı ay sonra çıxıb getdi.

Elvira belə deyib birdən hönkürtü vuraraq ağlamağa başladı və hıçqıra-hıçqıra:

— Üç uşaqla qalmışam tək-tənha, dolandıra bilmirəm, əl-ayağını bir yerə yığa bilmirəm. — dedi.

— Ağlama, Elvira, darıxma, qayıdıb gələr, — deyə Nadirə xanım təsəlli verdi. — Mütləq qayıdıb gələr.

Bu zaman telefon səsləndi, söhbət yarımçıq qaldı. Nadirə kimləsə xeyli danışmalı oldu. Elvira elə Nadirə danışa-danışa:

— Mən gedim, Nadirə xanım, uşağı bağçadan götürmə-

liyəm, — deyib gözlərinin yaşını silə-silə çıxdı. Bir az sonra Nadirə xanım Elviranın taleyi barədə düşünə-düşünə akademiyanın həyətinə çıxanda Elviranın İltifatla qoşa getdiyini gördü və istər-istəməz fikirləşdi: «Deyəsən, qızlar deyən düzdü. İltifat — bu yaltaq gədə Elviranın saqqızını oğurlayıb. Yəqin elə Bəybala da bunu hiss eləyib evdən gedib. Yoxsa... qulaq-mulaq havayı söhbətdi.»

## DÖRDÜNCÜ FƏSİL

Mürşüd axşamçağı işdən qanıqara və pərt gəlmişdi. Onun ağ və girdə sifəti — eynən anasının üzünə oxşayan sifəti qaralıb boğulmuşdu. Bərk ac olsa da, yeməyə həvəsi və iştahası yox idi. Samirə xanım, əynində güllü xalat, əlini ağ dəsmalla silə-silə yemək otağının qapısına gəldi və oğluna yemək təklif etmək istədi. Ancaq onun divanda əyləşib gözlərini bir nöqtəyə zilləyərək fikrə getdiyini görərək sözünü uddu. Yaxın gəlib qonur saçlarını tumarladı. Samirə xanım Mürşüdü çox istəyirdi, ərindən də, böyük oğlundan da. Ərinin xasiyyətindən zəhləsi gedirdi — yaşadıqları otuz il ərzində bircə dəfə də olsa üzbəüz oturub adam kimi söhbət eləmək mümkün olmamışdı. Ya dava-dalaş, ya da tam sükut... adi danışıq, dərd-sər eləmək bu evin bünövrəsi qurulandan buradan qaçaq düşmüşdü. Nurəddin öz kabinetində, pəncərəsi dənizə baxan otağında, yazı masası arxasında oturub kitablarla, əlyazmaları ilə danışanda yaxşı olurdu. Vəssalam. Böyük oğlu da özünə çəkmişdi. Eynən atası kimiydi. Gözəl-göyçək arvadı neçə dəfə ağlaya-ağlaya qaynanasının üstünə gəlmiş, «daha mən dözə bilmirəm, bu adam deyil. Meşədən tutulub gətirilmiş meymun bundan qabiliyyətli olar, ya da tez uyğunlaşar. Yox, mən çıxıb gedəcəyəm atamın xarabasına!» — demişdi. Qabiliyyəti, hər şeyin yolunu-yolağını yaxşı bilən, ev, ailəcanlı, bir çox xasiyyətlərində Samirə xanıma oxşayan Solmazın halına arvad acısa da, balasının evinin dağılmasından qorxub təşviş içində ona öyüd-nəsihət vermiş, «döz də, qızım. Daha neyləmək olar? Elədiyinə baxma, ürəyi təmizdi

uşağımın. Neyniyəsən ki, xasiyyəti it xasiyyətidi — atasına çəkib. Eh, qızım, sən bilmirsən ki, mən bizim bu kişinin əlindən nələr çəkmişəm. Mənim saçlarımın ağaran vaxtıdı? Amma ağarıb! O ağardıb. Adamın qismətinə nə çıxdı, gərək qane olub otursun!» — Söylədikdə gəlin təəccüblə; «Lap səni çürütsə də?» — deyə soruşmuşdu. «Hə, lap çürütsə də, iki uşaqnan hara gedəcəksən? Kim sənə yiyə duracaq? Heç kim!.. Mən də danlayaram, başa salaram, qızım. Sən mənim ağıllı balamsan, razı olma uşaqların arada-bərədə qalsın».

Ancaq Mürşüd... Mürşüd Samirə xanımın ürəyi idi. Başı-aşağı, qız kimi utancaq oğlan idi. Ana-balanı atanın kobudluğu daha da mehriban eləmişdi, həmsir, həmdərd eləmişdi. Beş otaq-dan ibarət bu balaca, cah-calallı dünyada Nurəddin bir despot idi, Samirə və Mürşüd əli-qolu bağlı bir kölə. Sanki onların heç birinin ağız açıb ürəklərindən keçəni Nurəddinə demək ixtiyarı yox idi. Buna bir həvəs də qalmamışdı...

Mürşüdü indi tutqun görəndə Samirə xanımın ürəyi düşdü. Başını sığallaya-sığallaya:

— Mənim balamın yenə xətrinə kim dəyib? — deyə stulu çəkib qənşərində oturdu. — Niyə yenə bulud kimi dolubsan, ay oğul?

— Heç...

— Yenə olsun. Sən hər dəqiqə belə olmursan... De görüm nə olub? — sonra tez əlavə elədi: — Yaxşısı budu, qoy əvvəlcə yeməyini verim, sonra oturaq danışaq, hə? Belə yaxşı deyil?...

— Yox, yemirəm, — Mürşüd belini düzəldib divanın söykənəcəyinə arxa verdi. — İştaham yoxdu.

— Elə isə de görüm nə olub?...

Mürşüd ah çəkib anasının yorğun üzünə baxa-baxa:

— Deyəsən... mən ərizə verib institutdan gedəcəyəm, ana! — dedi.

— Bıy, nə danışırsan, ədə! Niyə?

— Orda daha işləmək mümkün deyil.

— Niyə axı? Atan orda direktor...

— Elə məsələ də bundadır ki, atam orda direktordu. Ayrı adam olsaydı, nə vardı ki...

— Vay, niyə elə deyirsən, oğul? Yoxsa sənin də xətrinə dəyir kişi?

— Kaş heç kəsin yox, tək mənim xətrimə dəyəydi. Onda min dəfə bundan asan olardı o institutda işləmək. Amma o... belə eləmir.

— Necə eləyir yəni? — deyə Samirə maraqlandı.

— Heç kəsnən yola getmir, ana. Gərək heç direktor olmağa razılıq verməyəydi. O, şöbə müdiri olanda ağıllı-başlı adam idi. Hamı xətrini istəyirdi. Yetimin-yesirin üstündə, haqqı tapdananın üstündə iclaslarda, elmi şuralarda döşünü qabağa verib direktorla, müavinlə dör-dör döyüşürdü. Hamı da deyirdi: Nurəddin kişi adamdı. İndi, stol, vəzifə görəndən sonra kişinin elə bil ürəyini, beynini dəyişiblər. İncitmədiyi, təhqir eləmədiyi, qəlbinə toxunmadığı bir adam qalmayıb o boyda institutda. Makinaçıdan zəlil, kiçik adam yoxdu ki, institutda — onlarla da vuruşur. Birinə töhmət verir, birini ağladır. «İş-iş» deyib durur. Elə bilir qışqırıb-bağırmaqla, cəza tədbirlərinə əl atmaqla adam işlətmək olar, insan gərək həvəsnən, ilhamnan işləsin... Yoxsa hədə-qorxu altında görülən işin nə dəyəri, nə də keyfiyyəti olar. Bunlar elə həqiqətlərdi ki, uşaq da başa düşür. Ancaq o boyda kişi başa düşmək istəmir.

— Sən onun işinə qarışma, bala. — Samirə xanım, bütün bunların onun üçün yeni bir şey olmadığını düşünüb köksünü ötürdü.

— Qarışmağına qarışmıram. Xasiyyətini bilirəm. Ancaq onun əvəzinə mən xəcalət çəkirəm, ana, ax, bilirsən necə xəcalət çəkirəm! Otaqlarda, dəhlizlərdə iki-üç adamı bir yerdə görəndə dəqiq bilirəm ki, ondan danışırlar. Yaxşılığına danışsalar, nə vardı ki!... Bilirəm hamısı söyür. Bu, mənə çox pis təsir eləyir. Bu kollektiv mənim öz kollektivimdi, orda mənim dostlarım da az deyildi. Beş aydır bir ərə getməmiş, yetim qızı «işləmirsən» deyə idarədən qovub! Bir elmlər namizədini altı aydı didərgin salıb. Özü də kommunistdi. «İşləmirsən!» — deyir ona da. Qızdan heç

kəsin xəbəri yoxdu — xəstə anası var. Maaş gətirən bircə o idi. İndi nəynən dolanırlar o yazıqlar? Heç kəsin vecinə deyil. Oğlanın üstündə həmkarlar təşkilatı, partiya təşkilatı vuruşur — qaytaraq — deyirlər — işlədərsən işlər. Bunları işlədən olmayıb. Yox deyib durur. Başqa birisi var — onu sən də tanıyırsan, ana. Mənimlə bir fakültədə, bir kursda oxumuşuq. Bilirsən kimdi? Professor Vəlizadənin oğludu. Yadındadı, mən qəbul imtahanı verəndə sən də, atam da yanına getmişdiniz. Xahiş eləmişdiz... mənə çox köməyi dəydi o kişinin. Sonra nə isə atamın onunla arası dəyib. İndi oğlunu mələdir, soxub qoz qabığına, tərpənməyə qoymaram — deyir. İnsafnan, savad deyirsən onda — ruscası da, ərəbcəsi də, ümumi hazırlığı da məndən on dəfə yaxşıdı... Heç idarəyə, atama dəxli olmayan bir işin üstündə oğlanı qovdu işdən. Axırda oğlan verdi məhkəməyə, onu öz işinə qaytardılar. Pislik kimə qaldı? Sənə! İndi də deyir ki, nə qədər mən bu institutda direktoram — qoymaram səni müdafiə eləyəsən. Əsəri çoxdan hazırdı. Buraxmır ki, buraxmır. İndi özün təsəvvür elə, mən öz tələbə yoldaşımın, atası mənə o qədər yaxşılıq eləmiş Xəzərin üzünə hər gün necə baxım, ana? Görəndə başımı soxmağa yer axtarıram... Eh, hansını deyim, birdi-ikidi... Xəcalətdən hər gün az qalıram yerə girəm...

— Eh, ay oğul. Sənin atan ölsün, sən dünəndən xəcalət çəkirsən. Mən isə otuz ildi xəcalət çəkə-çəkə yaşayıram. Neyliyə bilərik, əlimizdən nə gələr?.. Deməyin heç bir faydası yoxdur, bala. Deyəcəksən, inad uşaq kimi bir az da çox eləyəcək... Alimdi, hamı yalan-gerçək deyir böyük alimdi, ancaq bizim baxtımızdan adamlıqda payı yoxdur. Neyləyək?.. Mən onun direktor qoyulması xəbərini eşidəndə, düzü, əvvəl inanmadım. Dedim yəqin zarafatdı. Ancaq qara «Volqa»da gəlib getməyə başlayanda inandım və fikirləşdim ki, ilahi, üç-dörd adamdan ibarət ailəsini insan kimi idarə eləyə bilməyən bir adamı, necə olub ki, böyük bir kollektivə direktor qoyublar?.. Sən yerindən tərpənmə, oğul, sənin həyatın hələ qabaqdadı, sənin taleyin o institutla bağlı olacaq həmişə. Mən inanıram ki, çox keçməz, onu ora qoyanlar tanıyarlar, mitilini atarlar bayıra. Onda ağlı gələr başına... Yox, heç vaxt gəlməz. O

belə gəlib, belə də gedəcək...

Mürşüd qalxdı... Qollarını sinəsində çarpazlayıb döşəməni cırıldada-cırıldada gəzinməyə başladı. Anası baxışlarını ondan çəkmirdi, daha nə isə deyəcəyini gözləyirdi. Neçə aydan bəri gecə-gündüz ürəyində pünhan-pünhan dolandırdığı dərdini oğlunun dilindən eşidəcəyinə tutqun bir gümanı vardı. Şərifə məsələsini ona adı—ünvanı məlum olmayan, səsini belə tanımadığı bir qadın telefonda müxtəsərcə demişdi: «Nurəddin qızı yaşında olan Şərifə ilə...» ...Samirənin ürəyi qopmuşdu. Dərdi azmış kimi, yeni bir dərd də vermişdi Nurəddin ona. Samirə inanmırdı, inanmaq istəmirdi, ancaq şübhə içini gəmirirdi, çürüdürdü. Nə ərinə bir söz deyə bilirdi, nə başqa bir kimsəyə. Beləcə yanıb yaxıla-yaxıla yaşayırdı. «Zəng eləyən kimdisə, incitdiyi adamlardandı yəqin. Acıqcan eləyir». Və bayaqdan Mürşüd atası haqqında pis-pis danışdıqca, qəribə idi ki, ona ləzzət eləyirdi. O istəyirdi ki, əri haqqında ən pis, ən alçaq şeylər eşitsin. Bəlkə onda o özünü tamam-kamal inandıra bilərdi ki, bu, düşmən uydurmasıdı, Nurəddin belə iş tutmaz. Yox, bu, düşmən uydurmasıdı. Mürşüd isə... o Şərifə gəlindən heç nə danışmırdı: ya heç nə bilmirdi, ya danışmaq istəmirdi, ya da heç belə şey yox idi. «Kaş bu sonuncu düz olaydı». Buna baxmayaraq, Samirə xanım, oğlunun çox nadir hallarda belə açılmasını, ürəyinin sözünü deməsini yaxşı bir fürsət hesab eləyib sözü hərləyərək Nurəddinin öz şöbəsinin üstünə gətirdi:

— Atan öz şöbəsinin işçiləri ilə də belə rəftar edir? Mürşüd ortalıqda dayandı, qalstukunu boşaldıb göy köynəyinin üst düyməsini açdı və:

—Yox, — dedi, — şöbədə kim var ki, hamısı arvadlardı. Uşaq-muşaqdı... Hamısı öz yetişdirmələri, tələbələridi.

— Təzə adam götürməyib! — Samirənin gözləri özünün də xəbəri olmadan par-par yandı. Maraq idimi, qəzəb idimi — özü də hiss eləmədi. Yaxşı ki, bu baxışı Mürşüd görmədi. Oğlan ürəyinə heç nə gətirməyərək sadəcə:

— Bir qız gəlib! — dedi. — Bilmirəm hansı tanışınınsa ar-

vadıdı!... Yaxşı adamdı. Çox gözəl qadındı...—Mürşüdün bu son sözləri Samirə xanımın ürəyini titrətdi, üşüdü arvad. Lakin özünü ələ aldı, daha nə deyəcəyini gözlədi. Mürşüd isə... qeyri-iradi olaraq Şərifəni elə hey tərifləyirdi. Birdən ayıldı. Özünü bu nöqtədə tutdu ki, bu Şərifədən — bəstəboylu, nərmənazik, qara saçlarını həmişə çiyninə töküb gəzən, qara gözlərindən adamın üstünə nur səpilən bu gəlindən onun özünün də xoşu gəlir. Bu hissindən utandısa da, hardasa sevindi də. Çünki indiyəcən qəlbində gizlənib yatan bu duyğudan xəbərsiz imiş — bax anası ilə söhbət etdiyi bu dəmlərdə o bunu dərk eləyib anladı və bayaqdan, atasından danışandan sinəsini sıxan qubar əriyib yox oldu, yerini şirin bir fərəh hissi doldurdu. Anası oğlunun sifətinə tamaşa eləyirdi, bayaqkı pozuqluğun, tutqunluğun silinib getdiyini görür və özünün də anlamadığı xoş bir duyğudan məst olurdu: «Deyəsən o qız, uşağı yaman ovsunlayıb... Təki belə olsun... Nurəddin uymasın ona. Yoxsa... lap biabır olarıq camaat içində. Bu isə cavandı. Cavanlar arasında olar belə şeylər...» Samirə xanım yüngül bir qız cəldliyilə ayağa qalxıb mehriban-mehriban gülümsündü və şəhadət barmağını oğluna silkələdi: —Ay şeytan, deyəsən o qızdan yaman xoşun gəlir ha! — dedi, — çox həvəslə danışırsan ondan...

Mürşüd qızardığını gizləməyə çalışaraq:

— Eh, sən də söz danışdın da, — dedi və rəngli televizorun üstünə qoyulmuş maqnitofonun düyməsini basdı. Otağa həzin bir türk mahnısı axıb doldu, ananın da, oğulun da gərilmiş əsəblərinə məlhəm çəkə-çəkə dörd divar arasında çırpınmağa başladı. Samirə xanım ürəyindən:

« — Ay allah, bu dünya nə qəribə dünyadı! — deyə keçirtdi. — Baş açılmaz dünyadı bu dünya!».

## BEŞİNCİ FƏSİL

Qoca Cəfər hər dəfə Gülmirə ilə üzbəüz gələndə onun sıxıldığını, yaraşıqlı, son illər kədərin daha da gözəlləşdirdiyi

gözlərini baxışlarından qaçırdığını, danışanda başını aşağı saldığını çoxdan hiss eləmişdi. Lap o, «tarixi iclasdan» — şöbə iclasında Gülmirənin ağzından od saça-saça, boğazını qəhər boğa-boğa çıxış edərək professor Salman Qurbanzadəni «yıxıb sürüdüyü» gündən, Cəfərin Füzuli avtoqrafının taleyini açıb-ağartdığı vaxtdan sezmişdi. Ömründə çox adamlar görmüşdü, çox çətin sınaqlardan çıxmışdı. Cəfər haqsız, vicdansız insanlarla qarşılaşmışdı, Kominin, Maqadanın adamın iliyinə belə işləyən, hərəkətsiz dayanarsa qulağını, burnunu şüşəyə döndərən şaxtasının qılıncı altından sağ-salamat çıxıb gəlmişdi qoca Cəfər. Ancaq həyatın min bir sərt sınağı, heç nə və heç kim onun polad əqidəsini qıra bilməmişdi, xeyirxahlığa, təmizliyə, gözəlliyə olan inamını öldürə bilməmişdi. İlk gənclik illərində, təkatlı faytonla səfalı Mərdəkandan qaynar şəhər həyatına qədəm basdığı çağlarda necə saf, təmiz, mehriban və qürurlu idisə, başı üzərindən qırx ildən çox tufanlı, kəşməkəşli vaxt qanad açıb sürətlə uçaraq keçsə də, yenə eləcə idi. Anası onu şəhərə nə cür göndərmişdisə, indi də, qocalıb saçlarını ağartsa da, eləcə idi — ana uşağı idi sanki. Əlli il bundan qabaqkı kimi, indi də ağlabatmaz, onun təsəvvür dairəsini vurub dağıdan, yaxud ağlına sığışmayan şeylərə uşaq heyrətiylə baxar, qəribə bir şey eşidən kimi «Yox əşşi!» deyib təəccüblənər, əhvalatı təfərrüatı ilə öyrənəndən sonra «Vay sənin!» deyib duruxardı. Əvvəllər yoldaşlarına, düşdüyü məclislərdəki adamlara tez-tez məzəli lətifələr danışıb hamını ürəkdən güldürərdi, xarici yumor nümunələrini toplayıb tərcümə edərək müxtəlif qəzet və jurnallarda çap etdirərdi. İndiyə qədər əl-əl gəzən, vərəqləri oxunmaqdan, çevrilməkdən tökülən, insanlara gülüş və təbəssüm bəxş edən iki-üç kitab da nəşr etdirmişdi. Onun həyatına, güzəranına yaxından bələd olan adamlar təəccüb içində qalmışdılar: həyatı uğursuzluqlarla dolu, ağlı-qaralı günlər görmüş, şəxsi ömrünün kitabına çox az sevincli-gülüşlü anlar yazılmış Cəfər, bədbinliyə qapılmadan, ruhdan düşmədən insanlara gülüş bəxş etməkdən əvəzsiz zövq alırdı. Və bu ləzzət onun öz qəlbini də cavanlaşdırır, çiçəkləndirirdi.

Lakin son illər belə şeylərə vaxt sərf eləməyə ürəyi gəlmirdi, bunları «xırda-xuruş» iş sayırdı. Bəlkə bu ondan irəli gəlirdi ki, ömrün qürub çağının yaxınlaşdığını hiss eləyirdi? Hər gün yox, hər saat, hər dəqiqə ona əvəzsiz bir xəzinə kimi görünürdü. «Ömür-gün keçib gedib, ay aman, mən dünyanın çoxunu zarafatla yola salmışam. Görməli, vacib, yadda qalan, yaşada bilən o qədər işlər var ki. Onları qabağa salmaq lazımdı, kişi!» — deyə öz-özünə, kənar bir adama öyüd-nəsihət verirmiş kimi, müraciət edirdi. Odur ki, gecəni gündüzə qatıb çalışırdı, dincliyi tutmayan, bir yerdə qərar tutub üç-dörd saat otura bilməyən bəzi cavanlar onun səbrinə heyran qalıb həsəd aparırdı. Yazıb pozurdu, özündən sonra xoş bir yadigar qoymaq istəyirdi. Əlyazmaları fondunda, Dövlət arxivində qədim cüngləri, bəyazları, topluları, arxiv materiallarını yorulmadan, bezib-usanmadan mütaliə edir, bununla da doymaq bilmir, iştirak etdiyi toylarda, yas məclislərində xanəndələri, mollaları, ağsaqqalları dindirir, şair, şer soraqlayırdı. Bu işi o hələ cavanlıq illərində — Darülmüəllimində oxuduğu zaman başlamışdı. Bakıda və onun ətrafında yaşayıb-yaradan şairlərin, el sənətkarlarının əsərlərini toplayırdı. Arada iyirmi iki il fasilə olmuşdu, ancaq o, bu niyyətindən dönməmişdi. Yığdığı əsərlər üç cild idi. Birinci cild — səksən səkkiz şairin əsərinin toplandığı bu cildi «Deyilən söz yadigardır» adı ilə çap etdirmişdi. Bu, onun həyatında duyduğu ən böyük sevinc idi. O tərəfdə — Maqadanda qırx yaşı tamam olan gün evlənəndə də, ilk övladı — Venera qızı dünyaya gələndə də belə sevinməmişdi. Bu sevincin böyüklüyü onda idi ki, az qala yaddan çıxıb gedən, ürək sözləri, şerləri az qala itib batmaq üzrə olan səksən səkkiz sənətkarı «diriltmişdi» «yaşatmışdı». Hərəsinin iki-üç, ən uzağı beş-on şeri qalmış bu şairləri çətin ki, axtarıb nəşr edən olacaqdı. Cəfərin özünün fikrincə, bu sevincin böyüklüyü bir də onunla bağlı idi ki, şerimizi tarixində ana dilimizdə yazılmış və bizə gəlib çatan yeganə şer təklikdən qurtarırdı. O, şeri Həsənoğlu Xorasan yaxınlığındakı Əsfəraində söyləmişdi. Cəfərin tapdığı şer isə Bakıda yazılmışdı — Bakılı şair Nasir tərəfindən yazılmışdı. Və bu, onun bizə çatan

yeganə şeri idi. Cəfər bu kəşfi ilə qanad açıb uçmaq istəyirdi. «Deyilən söz yadigardır» kitabı ona böyük şöhrət qazandırmışdı. Ucqar Bakı kəndlərindən tez-tez adına məktublar gəlirdi. Kiminin babası, kiminin ulu babası, kiminin atası düşmüşdü bu kitaba, minnətdarlıqla dolu bu məktublarda bəzən nəzərdən qaçan başqa şairlər haqqında da məlumatlar verilirdi, Cəfəri yeni-yeni ünvanlara səsləyirdi. Cəfərin o biri kəşfi — Füzuli avtoqrafını tapması isə ona sevincdən çox, qüssə gətirmişdi. Bu kəşfi günün günorta çağı, göz görə-görə əlindən tutub almışdılar. Bunu Salman Qurbanzadə eləmişdi. Bilinməsəydi, Gülmirə bu məsələnin üstünü açmasaydı, bəlkə də bu qədər sındırmazdı Cəfəri, elə bilərdi ki, elmlər doktoru olmağa, akademik seçilməyə, neçə-neçə sanballı kitablar yazmağa gecikdiyi kimi, bu kəşfə də gecikib. Ancaq sonra, üstündən nə qədər vaxt keçəndən sonra məlum olmuşdu ki, bu böyük kəşf də ona məxsusdu. Gülmirə bunu iclasda açıq söylədi, Salmanın gözünün içinə dik dedi. Ancaq nə olsun, bunu beş-on adam eşitdi. Məqalə isə qəzetdə çap olunmuşdu. Gülmirənin imzası ilə. Qəzeti isə milyonlar oxuyur. O məqalə uçdu, getdi — quş kimi. Daha geri qayıtmaz. Çünki yazıya pozu yoxdur. Və Cəfər özünəməxsus sadəlövhlüklə düşünmüşdü ki, burada Gülmirənin heç bir günahı yoxdur. Sadəcə, Salman onu məcbur eləyib. Bir də buna təəssüf eləmişdi ki, dünyanın bu cür dəyişib gözəlləşən çağında necə olur ki, Salman kimi adamlar hələ də qalır. Xəbislik, dargözlük, xəyanət insan övladının həmişə düşməni olub, indi də düşmənidi — onu gözdən salır, alçaldır, «əşrəfi-məxluqat» olmaqdan çıxarıb «əclafı-məxluqat» olmaq bataqlığına yuvarlayır. Bu hikməti başa düşməyənlər belə hərəkətlər eləsə, deyərsən qanmır. Amma axı Salman və onun kimilər bu nəcib hikmətdən, həyatın min illər boyu sınağından çıxmış bu qanunundan xəbərdardılar? Niyə belə eləyirlər?.. Cəfər bu sualın qarşısında aciz idi.

Cəfər Gülmirənin çıxışını eşidəndən sonra keçən bu müddət ərzində — bu, hamıya çox qəribə görünürdü — nə Salmana bir

söz demişdi, nə Gülmirəyə. Cəfərin beləcə sükut etməsi, hər ikisinin yaxasından tutub «niyə belə vicdansızlıq eləmisiniz?» deyə silkələməməsi hər ikisini daha çox əzaba salmışdı; hər ikisi — Salman da, Gülmirə də onun yanında gözükölgəli, diligödək olmuşdu. Salman daha yox idi Cəfər üçün. Bir insan kimi yox idi. Əgər bir alim öz müəlliminin və dostunun əsərini — onun başına müsibət gələndən sonra yaşatmaq, qorumaq çap etdirib əsl sahiblərinə çatdırmaq əvəzinə, öz adına çıxıb nəşr etdirirsə, «mənim kitabım» — deyə öyünürsə, əgər bir alim qələm yoldaşının sevincini əlindən alırsa, o nəinki alim deyil, hətta insan da deyil, müzürdür, alim və insan adına ləkə gətirən zəlil bir varlıqdır. Salmanın oğlu Ceyhun tələf olanda Cəfər hər cümə axşamı yas yerinə getdi, oturdu. Nadirəyə başsağlığı, təsəlli verdi. Salman isə onun ağzına baxa-baxa qaldı. Hətta Gülalı ona bir dəfə dedi: «Yaxşı deyil, Cəfər kişi. Salmana da bir xoş söz de.» Cəfər qəribə bir ədayla: «Yas ana bədbəxtindir, ona yazığım gəlir. Salmanı mən burda görmürəm, yoxdu Salman burda. Və ümumiyyətlə yoxdu Salman» — deyə cavab vermişdi. Gülalı adəti üzrə, başını bulayıb; «Burda bir balaca səhvə yol verirsən, Cəfər kişi» — söyləmişdi və ürəyindən: «Qəribə xasiyyəti var bunun da» — deyə keçirmişdi.

Ancaq Gülmirəyə münasibətində o, tamam başqa cür idi. O başa düşürdü ki, Gülmirə qurbandı. Salman Cəfəri vurmaq xatirinə Gülmirəni ayağı altına qoyub, ləkələyib. Bunu Cəfər yaxşı anlayırdı və ona görə də, Gülmirəyə kin bəsləyə bilmirdi. Qınayırdı, danlayırdı ürəyində, iradəsizlikdə təqsirləndirirdi, ancaq hardasa bağışlayırdı da onu. «Qadındı, cavandı, nə elədiyini, hansı yola qədəm qoyduğunu düşünməyib dərindən» — deyirdi öz-özünə və onun öz dərdinin — bu qəbahətinin özünə bəs olduğunu da başa düşürdü. Bəlkə də buna görə idi, onun gözünə görünməkdən çəkinirdi; «Qoy utanmasın» — söyləyirdi. Ancaq son vaxtlar hər ikisinə gün kimi aydın olmuşdu ki, bu, belə qala bilməz. Bağlı boğça açılmalı, münasibətlər durulmalı, ürəklər öz sözünü deməli idi. Gülmirə düşünürdü ki, özü yanaşıb danışsın, kişini başa salsın, «daha bu əzaba, sənin beləcə susmağına tab

gətirə bilmirəm, Cəfər müəllim» — desin. Cəfər isə fikirləşirdi ki, qız çox sıxılır — olan olub, keçən keçib. Onsuz da dərdli insandı, üstəlik bu da ona bir dərdə çevrilib. Beləliklə, hər ikisi dolmuşdu, boşalmaq üçün məqam lazım idi.

Günlərin birində... çiskinli payız günlərinin birində işin axırında, asılqanın yanında yağmurluğunu alanda Cəfər gördü ki, Gülmirə yenə ondan yayınmaq istəyir; onda Cəfər qara yağmurluğunu geyinib kənara çəkildi, gözlədi ki, o da geyinsin. Gülmirə qapıya sarı yollananda Cəfər ona yaxınlaşıb yavaşca:

— Tələsmirsən ki, qızım? — söylədi. Gülmirə özünü itirən kimi oldusa da, buna sevindi də. Cəfər qımışıb: — Səninlə bir az söhbətim var, qızım, — deyə onunla yanaşı addımladı.

— Yox, Cəfər müəllim, heç yana tələsmirəm. — Ürəyinə damanı dilinə gətirdi: — Elə mən də istəyirdim sizinlə söhbət eləyim.

— Yox əşi? — deyə Cəfər kişi bundan bir sevinc duydu və çox sevdiyi ifadəsini işlədib: — Vay sənin! — deyə əlavə elədi. — Ürəkdən ürəyə yol var, buna deyiblər ha...

İri, lay şüşəli qapıdan həyətə çıxdılar. Daş pillələr narın yağan yağışdan islanmışdı. Hava elə təmiz və saf idi ki, bütün günü kitabxanada, şöbədə işləyən Cəfər və Gülmirə az qala bihuş olacaqdı.

— Ah, əcəb gözəl havadır. Adam özünü quş kimi yüngül hiss eləyir. Bu şərtlə ki, ürəyində qubar olmaya, — dedi Gülmirə və bununla da söhbətə körpü salmaq istədi. — Düz demirəm, Cəfər müəllim?

— Düz deyirsən, qızım. Elə mən də o qubar barədə səninlə danışmaq istəyirəm.

Gülmirə əvvəlcə döyükdü; onun o qədər qubarı vardı ki, Cəfər hansını nəzərdə tuturdu? Ancaq o dəqiqə kişinin hansı nöqtəyə toxunduğunu anladı, bir az toxtadı.

— Mən çoxdan sənə göz qoyuram, qızım, — o, nəhayət əsl mətləb üstünə gəldi, — görürəm çox fikir eləyirsən. Salman əmin səni çox pis vəziyyətdə qoymuşdu. Mən bilirəm sənin fikrin deyil

bu. Bu, Salmanın fikri olub, qızım. Ona görə, sən bunu özünə dərd eləmə, onsuz da sənin dərdin böyükdü. Bununla özünü bir az da üzmə. Sən hələ cavansan, sənin həyatın hələ qabaqdadı. Bir aldandın, bir də aldanma. Müdrik bir kəlam var. Yadında saxla həmişə: «Allah məni birinci dəfə aldadana lənət eləsin, ikinci dəfə aldansam isə, Allah mənim özümə lənət eləsin...»

Gülmirə sevinc içində:

— Nə yaxşı sözdü, ay Cəfər müəllim! — dedi. — Yadda saxlamalı sözdü.

— Hə... Yadında saxla, qızım.

— Onda bu söz də düz imiş; «Sənə bir yaxşı söz deyən səni özünə qul eləyə bilər».

— Bəli, onda da bir hikmət var.

— Ah, bizim, xüsusən cavanların belə hikmətli sözlərə nə qədər böyük ehtiyacımız var. Çox şey eşidirik, çox kitab oxuyuruq, ancaq içində yaddaqalan sözlər azdı, Cəfər müəllim.

— Sözü eşitmək bir şeydi, qulağından sırğa eləyib asmaq ayrı şeydi, qızım, həyat ağıllı adamlar üçün qiymətlidir; xoşbəxt o adamdı ki, heç nəynən satılıb alınmayan ömrünü təmiz başa vurur, dünyadan köçəndə alnıaçıq gedir. Dünyada təmizlikdən tükənməz sərvət yoxdur. Nə qədər xərcləsən qurtarmaz, hələ uşağına, nəvənə, nəticənə də bəs eləyər, qızım.

— Düzdü, Cəfər müəllim. Son illər başıma gələn hadisələr məni sanki yuxudan ayıltmışdır. Elə bil mənim içimi tamam dəyişiblər, içərimdə özümün də xoşuma gələn təzə, təmiz bir adam oturub sanki. Mən beş-altı il bundan qabaq tanıdığın Gülmirə deyiləm daha. Çünki məni bir dəfə aldadıblar — Allah aldadana lənət eləsin, sən deyən kimi, ikinci dəfə aldansam, qoy Allah mənə qənim olsun.

— Mən çox şadam, qızım. Sevinirəm ki, sən məni belə düzgün başa düşdün. Daha xırdalama olub keçənləri, unut getsin, dərd eləmə özünə. Elə etsən, sənin bu qoca Cəfər müəllimin də rahat yaşar. Mənim ömrümü oğurlayıblar qızım, bir məqalə nədi ki, onun yanında?

Nərimanov prospektində adam çox idi. Ayrı yer olsaydı,

Gülmirə qollarını onun boynuna salıb bir ata kimi üzündən öpərdi. Hayıf, yeri deyildi: o, hədsiz sevinc içində, ürəyinin başında haçandan bəri gəzdirdiyi ağır daşı yerə qoyub yüngülləşmiş adam kimi ancaq:

— Çox sağ ol, Cəfər müəllim, — dedi. — Ömrün uzun olsun... Yoxsa mənim ürəyim partlayırdı. Küsmüşdüm aləmdən. Murdar kimi baxırdım özümə. Düzdü, bu yuyulan ləkə deyil. Amma bir özüm bilirəm ki, günahsızam. Bir də bunu bilirəm ki, sən mənim bu səhvimi bağışlamısan. Bu, mənim bəsimdi, bu, mənim sakit və bundan sonra düşünə-düşünə yaşamağım üçün kifayətdi.

Şüşə bazarın yanına çatanda, ayrılmaq istərkən birdən Cəfərin yadına Mirzə Yanarın əsəri məsələsi düşdü. O, təbiəti etibarı ilə belə şeylərlə maraqlanmazdı. İş çoxdan bağlanmışdı, komissiya səhv etdiyini etiraf etmişdi. Gülmirə Salmandan üzr istəmişdi, o da alicənablıq göstərərək bağışlamışdı onu. İki ay bundan qabaq həll olunmuş məsələnin nəticəsi isə hələ də Cəfərə aydın olmadığından soruşdu:

— Mirzə Yanarın kitabının taleyi necə oldu axırda, qızım?

Gülmirə əhvalatı təfərrüatı ilə danışdı;

— Sübut eləyə bilmədik, Cəfər müəllim. Öz xətti imiş... Nadirədən aldım Salmanın o vaxtkı əlyazmalarını, tutuşdurduq, ekspert yoxladı — onun özünün imiş. Mən pis vəziyyətdə qaldım, Cəfər əmi. Üzr istəməli oldum axırda...

— Hm... Mirzə Yanarın öz taleyi kimi, kitabının da taleyi dumanlı oldu, qızım. Siz Salmana heç cür sübut eləyə bilməzdiniz. Lap onun — Mirzə Yanarın xətti də olsaydı, sübut eləyə bilməzdiniz... Salman ayrı təbiətli adamdı, sudan quru çıxmağı bacarır; daha gecdi, o əsər Mirzə Yanarın özü kimi məhv oldu. Daha göydən fələk də gəlsə, Salmanın boynuna heç nə qoya bilməz... Özü bilər, vicdanı bilər. Əgər vicdanı varsa, əzabı ona bəsdi. Hər dəfə Mirzə Yanarın adını eşidəndə... — onun adını isə tez-tez eşidəcək — o, əriməlidi, ölməlidi, yerə girməlidi. Bu ad onu həmişə, bütün ömrü boyu təqib edəcək həyula kimi...

— Deyirəm, Cəfər müəllim, bir möcüzə baş verə, bir də görək ki, budu, Mirzə Yanar özü gəlib çıxdı. Onda görəsən Salman neylər?

— Eh, qızım, həyatda elə möcüzələr olmur. Şair çox yaxşı deyib: «Gələn qalmaz, gedən gəlməz, əcəb sirr!»

## ALTINCI FƏSİL

Cəfərlə söhbət eləyib ayrılandan sonra, Gülmirənin içi, bütün vücudu işıqla dolmuşdu elə bil. Ürəyindən dağ götürülmüşdü. Cəfərin alicənablığı, həssaslığı, dediyi müdrik sözlər ona qol-qanad vermişdi, düşüncəsinin düyün düşmüş kələfini açmışdı. Cəfər Gülmirə üçün sanki bir məktəb olmuşdu. O ağsaçlı kişidən zəhmətkeşlik, dözüm-dəyanət, təmizlik öyrənmək olardı. Tək bircə cəhətindən xoşlanmırdı Cəfərin. Onda pislikdən, pis adamdan küsmək xasiyyəti vardı — küsürdü, vəssalam. Halbuki pisliyə, pis adamlara qarşı mübarizə aparmaq lazım idi, barışmaz olmaq lazım idi. Görünür, qocanın həyat fəlsəfəsi belə idi, daha onu dəyişmək olmazdı: görünür, onun bu üsulu da, pisliklə, pis adamlarla mübarizə aparmağın bir yolu idi. Cəfər, məsələn, professor Salman Qurbanzadədən küsmüşdü. Salman daha ona pislik eləyə bilməzdi — ancaq başqalarına ki, pislik, yamanlıq eləməyə qadir idi. Cəfər bu üsulla ancaq özünü müdafiə mövqeyi tutmuş olurdu. Yox, bu yol düzgün deyildi. Gülmirənin fikrincə — Salmanlara, Dombagözlərə, lap Nurəddin kimilərə qarşı sərt olmaq lazımdı, onların mövqeyindən, qələmindən qorxmaq, geri çəkilmək, onların «yaxşılıq», «yaxşı olmaq» pərdəsi altında kimin və ya kimlərinsə haqqını tapdalamasına yol vermək qətiyyən olmaz, olmaz! «Ancaq mənim kimi də yox. Belə də mübarizə aparmaq olar? Başla, get, de, sonra da sözünü sübut eləyə bilmə, axırda da üzr istə!.. Bu da yaramaz Gülmirə!» — deyə o, atdığı o qətiyyətli addımlarda yenə haradasa səhv etdiyini etiraf etmək istəyirdisə də, qəribə idi ki, bundan da ehtiyatlanırdı. Bu döyüşdə — Salmanla olan döyüşdə o,

sınıq çıxmışdı və ona görə əzab çəkirdi. Orxana inanmışdı. İnanmaya bilməzdi. Orxan onun üçün büt idi, yerdə allah idi. Heç ola bilməzdi ki, Orxan bu boyda səhv eləsin və çox sevdiyi Gülmirəni belə pis vəziyyətdə qoysun. Yox, burada başqa nə isə var idi; hələ Gülmirənin aça bilmədiyi, başa düşmədiyi nə isə var idi. Nə idi bu «nə isə»? Necə açmaq olardı bu müəmmanı, düyünü? Görünür, heç cür. Çünki Orxan yox idi, ondan heç nə soruşmaq, dəqiqləşdirmək mümkün deyildi. Salman gözübağlıca idi, nə idi ki, Orxanın Mirzə Yanarın əsəri kimi ona verdiyi qovluğu dəyişə biləydi?...

Gülmirə televizorda verilən konserti dinləyə-dinləyə bu dolaşıq suallar ətrafında fikirləşirdi. Servantın aynası qabağından ona baxan və təzə evə köçəndən bircə dəfə də «qapısını» açıb içəri girməyən, halını-əhvalını soruşmayan Orxandan gözlərini çəkmədən öz-özünə danışırdı, Gülmirə. Televizorda müğənnilər bir-birini əvəz edir, səs, musiqi dəyişirdi, ancaq Gülmirənin düşüncəsi Orxanı sorğu-sual etməklə məşğul idi. Cəfərdən yeni ayrıldığı dəqiqələrdə könlünü çulğamış sevinc, Salman məsələsi yadına düşəndən, mənzilinə gəlib yeyib-içərək rahatlanmaq istəyəndə Orxanın ona «baxdığını» görəndən sonra dumana bürünməyə başlamışdı. Neçə ay idi ki, tamam-kamal Orxansız qalmışdı, yuxuda da olsa, nəfəsini duymaq, təmasını hiss etmək, səsini eşitmək həsrəti ilə çırpınırdı. Gündüzlər idarədə, şöbədə divardan asılmış şəkli gözünün qabağında olurdu, axşamlar evində servantın aynası önündəki şəkli ona tamaşa edirdi. Səssiz-səmirsiz, ürəyindəçə onunla danışırdı Gülmirə, dərdi-dil eləyirdi. Ancaq Orxan elə hey susurdu. Hərdən lap qəhərlənir, təklik əlindən cəzana gəlir, yana-yana əlini dizinə vurub: «Sən niyə yoxsan, Orxan? Sən niyə məni tək qoyub getdin, Orxan?» — deyirdi. İşdən çıxanda ürəyində, canlı adama deyirmiş kimi, «Bəsdi daha, dur gedək evimizə!» söyləyirdi, axşam, yatmaq məqamı gələndə: «Bəsdi, gecə yarı oldu, dur yataq!» — söyləyirdi. Orxan isə susurdu, susurdu.

Televizorda «Günün ekranı» xəbərlər proqramı yenicə baş-

layanda qapının zəngi çalındı, Gülmirə divandan qalxıb xalatının yaxasını qaydaya salaraq nigaran-nigaran: «Bu vaxt kim ola? Yəqin anamdı, ya da Sahibə ilə Mir Sahibdi. Başqa kim olasıdı ki?» — deyə düşünərək dəhlizə çıxdı, qapını açdıqda qarşısında tanımadığı, uzun, arıq sifətli, başına şlyapa qoymuş, boz rəngli yağmurluq geymiş bir adamın dayandığını görüb təəccüblə qaşlarını çatdı. Yad adam da, onu görən kimi, özünü itirdi və utancaq bir adamsayağı:

— Bağışlayın, bacı, Orxan müəllim evdədi? — deyə kəkələdi.

Elə bil Gülmirənin başına qaynar su tökdülər — bədəni, sifəti alışıb yandı. Bir anlığa nə cavab verəcəyini kəsdirə bilmədi və çaşqın halda:

— Yox... — dedi və bu cavabından özü də qorxmuş təki gözlərini döydü.

Uzun adam bu çaşqınlığa əhəmiyyət verməyərək:

— Əgər səhv etmirəmsə, bura Orxan Əlizadənin evidi. Elə deyilmi? — deyə soruşduqda o tələsik:

— Bəli, — dedi.

— Yəqin siz onun xanımısınız, elə deyilmi?

— Yox, hə...—Yenə namüəyyən, dolaşıq cavab verdi.

Qulaqları guruldayırdı Gülmirənin. Yad adamın nə dediyinin o qədər də fərqinə vara bilmirdi. Bu gərkin anlarda, gələn qonağı içəri dəvət etməyi belə unudaraq, onu düşünürdü ki, kimdisə, Orxanın tanışlarındandı, özü də bu evə gəlib-gedən adamdı, ancaq Orxanın ölümündən xəbəri yoxdur. Hə, hə, belədi. Yoxsa soruşmazdı ki, Orxan müəllim evdədi? Yəqin ki, uzaqdan, rayondan və ya başqa şəhərdən gəlib! Şəhər adamı olsaydı, indiyə bilmiş olardı, Orxanın dünyadan köçdüyünü eşitmiş olardı. Qonaq qapı ağzında dayanmışdı, evin xanımı onu nə üçün otağa dəvət etmirdi, niyə həyəcanlı idi ilk dəfə gördüyü bu gəlin? Niyə? Anlamırdı. Bir də gəlinin «yox, hə» — deyə anlaşılmaz cavab verməsi də ona şübhəli görünmüşdü. Sual dolu nəzərlərini ondan çəkmirdi. Nəhayət:

— Bağışlayın, haçan gələr Orxan müəllim? — deyə soruşması Gülmirəni lap sarsıtdı. Ancaq kişi buna yenə məhəl qoymayaraq əlavə olaraq xəbər aldı: — Şəhərdədi ya səfərdədi?..

Gülmirənin gözləri nəmləndi və qapının çərçivəsinə taqətsiz halda söykənib yavaşcadan:

— Səfərdədi! — deyə bildi. Dili gəlmədi «ölüb» desin, «yoxdu» desin. Bu adam kim idisə Orxanı tanıyan idi və şübhəsiz, birdən-birə ona Orxanın ölüm xəbərini vermək, ürəyini üzmək ən azı insafsızlıq olardı. Və qəribə idi ki, Orxan kimi bir oğulun həyatdan köçməsindən bu vaxta qədər xəbərsiz olan bu uzun kişiyə acığı, qəzəbi tutmaq əvəzinə, yazığı gəldi Gülmirənin. Ağlamamağa, dolmuş gözlərinin bahar leysanını axıtmamağa çalışaraq:

— Siz kimsiniz, qardaş? — dedi. — Orxanın nəyisiniz?

— Mən... onun... tanışıyam, bacı. İki il bundan qabaq yanına gəlmişdim, bir əsər gətirmişdim... Demişdi gələrsən yanıma.. Gülmirə «əsər» sözünü eşidəndə ayılan kimi oldu. Demək yaxın adam deyil, təsadüfi tanışdı... Amma bu nə əsər ola bilərdi? Olmaya?... O, özünü ələ aldı və geri çəkilib:

— Bağışlayın, buyurun içəri! — dedi və çevrilərkən gözlərinin yaşını əlinin içi ilə sildi... Kişi otağa keçdi, qapını örtdü.

— Siz oturun, mən bu dəqiqə... — deyərək mətbəxə yollandı, kranı açıb tez sifətinə su çırpdı; mıxçadakı dəsmalla üzünü qurulayıb çaydanı qazın üstünə qoyaraq otağa qayıdanda qonaq yağmurluğunu, papağını çıxarmışdı, miz arxasında əyləşmişdi. Ev-eşiyə göz gəzdirirdi.

Gülmirə qarşısında stul çəkib oturduqda qonaq Orxanın şəklinə baxırdı. Demək olar ki, səssiz gəlişini hiss eləməmişdi. Bu ara Gülmirə ilk dəfə gördüyü bu adam haqqında öz hökmünü verdi: «Həssas adam deyil. Mənim bu iki-üç dəqiqənin içində necə haldan-hala düşdüyümü görə bilmədi, başa düşə bilmədi. Halbuki, mənim çaşqınlığım da, «hə yox» deməyim də, nəmli gözlərim də sözsüz-sovsuz ona söylədi ki, Orxan ölüb, Orxan yoxdu — o, bunu oxuya bilmədi. Belə adamların içi boş olar!... Bu cür insanlar yəni

əsər də yaza bilər? İnanmaram, inanmaram». Sonra fikri dəqiqləşdi — «Yox, bu elə həmin adam olacaq — Orxanın dediyi adam. Mirzə Yanarın qohumu... Bacısı oğludu demişdi, ya qardaşı oğludu. Qərəz, nə isə qohumudu Mirzə Yanarın...»

Birdən-birə Gülmirənin ürəyi pis sıxıldı. Üz-gözündən laqeydlik yağan bu adamı — kim olursa-olsun — evə buraxdığına son dərəcə peşiman oldu, onunla tez söhbət eləyib başından sovmaq fikri bütün varlığına hakim kəsildi. Bircə bu «əsər» məsələsini müəyyənləşdirsin, vəssalam — onunla xüdahafizləşəcəkdi. Odur ki, birbaşa, ürəyinə bayaq dammış şübhədən başladı:

— Hə, deyirsiniz… Orxana əsər vermişdiniz.. Yəqin siz... Mirzə Yanarın qohumusunuz, eləmi!..

Yad adam Orxanın şəklindən gözlərini çəkdi və:

— Bəli, bəli, bacı.. — dedi sevincək. — Sizə deyib Orxan müəllim?

— Hə, demişdi... Siz ona verəndə söyləmişdiniz ki, guya o əsər mərhum Mirzə Yanarın əlyazmasıdı...

— Bəli, bəli... Daha guya niyə?..

— Ona görə guya deyirəm ki.. — Gülmirə həmin əsərlə əlaqədar bütün əzablarını, sarsıntılarını, üzüqaralığını ani olaraq yadına salıb köks ötürdü. — Bilirsiniz, biz də — elə Orxan da, mən də... siz deyənə inanmışdıq, ancaq sonra məlum oldu ki, həmin əsər, daha doğrusu əlyazması Mirzə Yanarın yox Salman Qurbanzadənin imiş... dərhal soruşdu:

— Salman Qurbanzadə kimdi?

— Professordu. Siz... Salman Qurbanzadəni tanımırsınız?

— Yox, bacı... Mən neftçi babayam. Bu elm adamlarını çox az tanıyıram, demək olar ki, heç tanımıram. Yeganə tanıdığım adam Orxandı! Onu da televiziya vasitəsilə ilə tanımışam. Dayım haqqında…Yəqin Orxan sizə deyib. Mirzə mənim dayım idi. Bəli, onun haqqında, yetmiş illiyi münasibətilə televizorda danışırdı. Çox yaxşı danışdı, sağ olsun. Bəli, onda dayımın əsərini götürüb gətirdim Orxan müəllimin yanına... Sonra da vaxt..

Gülmirə onun sözünü kəsdi:

— O əlyazması sizin əlinizə hardan keçmişdi?

— O vaxt dayımı aparmamışdan əvvəl, özü gətirib vermişmiş bacısına, yəni mənim anama. «Saxla» deyibmiş..! Uzun illər onun sandığında qalmışdı... İrəhmətlik bir dəfə mənə əhvalatı danışmışdı. Sonra Allah irəhmətinə getdi... Orxan müəllim televizorda danışanda birdən yadıma düşdü, dedim o bilər bu nəmənədi... Gətirdim verdim ona...

Gülmirə mətbəxdən-çaydanın dızıltısını eşidirdi, sonra su qaynadı, daşdı... Çay dəsgahı açmaq fikrindən daşınmışdı deyə durmadı və fikrini yekunlaşdırmaq istədi:

— O vaxt dayının Salman Qurbanzadə adında bir dostu və tələbəsi olub. Əsər yazıb veribmiş dayına, oxusun, fikrini desin.. Sonra kişini aparıblar, əsərin bir nüsxəsi də gedib düşüb ananın sandığına....

Kişi qeyri-iradi ayağa qalxdı. Bu hərəkəti elə qəfil oldu ki, Gülmirə səksəndi də.

— Siz nə danışırsız, bacı?.. Belə çıxır ki, dayım iki daşın arasında Salmandı — nədi, onun əsərini gətirib verib bacısına ki, saxla, ələ keçməsin? İrəhmətlik dayım irəhmətlik anama hələ bunu da deyib ki, mənim dünyada qoyub gedə biləcəyim ən böyük yadigarım budu, bacı, onu qoru, özünə də qismət olmasa, uşaqlarına vəsiyyət eləyərsən — dünya həmişə belə qalmaz, vaxt gələr, üzə çıxarmaq mümkün olar. Sizcə o, bunu başqasının kitabı haqqında deyərdi?.. Yox, yox, bacı... Bir yaxşı-yaxşı fikirləşin.

Gülmirə donub qalmışdı. Ortalıqda dayanıb təəccüb ifadə edən gözlərini geniş açmış kişiyə baxırdı, fikri isə... o əsərlə bağlı söz-söhbətin ətrafında dolaşırdı. Bu məsələ yenicə yatmışdı, neçə aydan bəri davam eləyən mübarizə Salmanın xeyrinə həll olunmuşdu. Salman qalib kimi çıxmışdı meydandan, Gülmirə gözükölkəli. Salman yəqin unutmuşdu bu ittihamı, çünki ondan daha böyük dərdi vardı Salmanın. Gülmirə isə məğlubiyyətinin əzabı içindəydi hələ də. Təzə-təzə unutmağa çalışırdı. Qəribə idi ki, elə bu gün, cəmi bir neçə saat bundan qabaq o, Cəfərlə söhbət eləyəndə, dünyagörmüş kişi heç vaxt unutmayacağı bir söz demişdi:

«Əgər vicdanı varsa, əzabı ona bəsdi. Hər dəfə Mirzə Yanarın adın eşidəndə — onun adını isə tez-tez eşidəcək — o, əriməlidi, ölməlidi, yerə girməlidi. Bu ad onu həmişə, bütün ömrü boyu bir həyula kimi izləyəcək!»

Deyəsən bu sözlərda qəribə bir hikmət var axı. Yoxsa, indi Salmanın təzəcə unutmağa calışdığı bu məsələnin üstünə təzədən qayıdan tapılmazdı belə olmasaydı! Doğrudan da, bax bu zahirindən, hərəkətlərindən özünün də səbəbini anlamadan zəhləsi getdiyi bu uzun adamın sözlərində böyük həqiqət var idi. Buna biganə qalmaq namərdlik olardı. Gülmirənin qanı yenə cuşa gəlmişdi. Yox, burda nə isə açılmaz bir düyün var. Salman nə isə ustalıqla ört-basdır edir!! Ancaq o biri tərəfdən də, sübutla, dəlillə Salman işin içindən quru çıxır. Gülmirə eşitdiyinə inansın, yoxsa gözü ilə gördüyünə? Çaş-baş qalmışdı Gülmirə. O da qalxdı, hiss edilmədən fırlanıb imdad, kömək diləyən nəzərlərlə Orxana baxdı. Orxan heç nə deyə bilmədiyindən susurdu.

Uzun çəkən sükutu kişinin cod səsi pozdu:

— Bunları sizə Salman Qurbanzadə deyib?..

— Hə, — Gülmirə ixtiyarsız söylədi.

— Hardadı o? Harda işləyir?

Gülmirə Salmanın iş yerini dedi. Və dərhal peşman oldu. Hər şey təzədən başlanacaqdı. Gərək deməyəydi, gərək sadəcə deyəydi Orxan ölüb, bütün sirlər də onunla gedib. Salman yenə Gülmirədən şübhələnəcək. «Gedib adam axtarıb tapıb, şahid gətirib! — deyəcək. Təzədən küsəcək.» — Sonra isə içərisindən ayrı, daha ayıq bir səs eşidirdi: «Yox, qoy getsin yanına, danışsın, aydınlaşdırsın. Buna bu kişinin tam haqqı var. Dayısıdı Mirzə Yanar!. Burada mənlik nə iş var ki!! Yox deyəsən, Salman bu çirkin işi tutub. Öz qara əməlləridi onu belə təqib edir. Cəfər demişkən, bəlkə də ömrünün axırına qədər də təqib edəcək!».

Kişi, görünür, Gülmirənin sözlərini yaxşı həzm eləyə bilməmişdi, qara sifətində bir narazılıq ifadəsi var idi. Gülmirənin qırımından bu məsələ ilə bağlı çox şey bildiyi anlaşılsa da, danışmağa çətinlik çəkdiyini, nədənsə tərəddüd etdiyini başa

düşüb:

— Orxan müəllim nə vaxt qayıdacaq, inşallah?! — dedi və cavab almamış davam elədi — o, gələndə gələrəm, məni düz-ağıllı başa salar ki, iş nə yerdədi. Görüm bu Salman Qurbanzadə kimdi, nə deyir? Özüm gedib onunla danışaram... Gecmi qayıdar, Orxan müəllim?

Gülmirə servanta söykəndi və ürəyindən qan ağlaya-ağlaya:

— Orxan... heç vaxt... gəlməyəcək, qardaş! — dedi — O, ölüb... Çoxdan ölüb!

— Nə?

Kişinin gözləri heyrətdən böyüdü...

## YEDDİNCİ FƏSİL

Direktor öz əsil kabinetində oturmuşdu, katibəsi Şərqiyyəyə tapşırmışdı ki, heç kəsi içəri buraxmasın, işləyirəm. Amma düz demirdi — o, direktor olandan sonra nəinki burda, heç evdə də bircə cümlə də yaza bilməmişdi. Ürəyi yazmaq istəyirdi, ancaq fikrini cəmləşdirə bilmirdi. İnstitutun problemləri, qayğıları başını elə qatmışdı ki, gecələr yerində də rahat yatmaqdan məhrum olmuşdu. Əslində narahat olmalı, yuxunu ərşə çəkən heç nə yox idi. Nurəddin təbiətən narahat və bədgüman adam olduğundan, heç bir şeydən özü üçün «problem» yaradırdı, «qayğı» yaradırdı. İnstitutda laborantlardan başqa hamının fərdi planı vardı, mövzusu vardı. O gələnə qədər hər kəs — kim necə bacarırdısa, başını aşağı salıb öz işini yazır, müdafiə eləməyən əsərini bitirməyə, monoqrafiya yazan monoqrafiyasını tamamlayıb çapa verməyə çalışırdı. Onda heç bir qorxu yox idi. Lakin indi işləyənin də, işləməyinin də başının üstündən bir qəribə qorxu qılıncı asılmışdı. Bu qılıncın haçan, harada, kimi kəsəcəyi kimsəyə bəlli deyildi. Maraqlı idi ki, işləyən də, məhsulu olan da qorxurdu, işləməyən də, məhsulu — kitabı, məqaləsi olmayan da. Kənardan baxan soruşa bilərdi ki, daha işləyən, yazıb-yaradan niyə qorxmalıdı,

nədən qorxmalıdı? Yox, təkcə bununla iş bitmirdi. Nurəddinin gözünə xoş görünüb görünməmək məsələsi burada mühüm cəhət idi. Doğrudur, o, hər iclasda, elmi şurada açıq deyirdi: «İşləməyən mənim gözümün düşmənidir!». Bəli, bunu o, açıq söyləyirdi. Ancaq «xoşum gəlməyən mənim gözümün düşmənidir!» fikrini aşkar bildirmirdi — yalnız bu düşüncə ilə hərəkət edirdi. Adamlar, institut əməkdaşları isə bunu aydın görür və başa düşürdü. Hamının başı üzərində asılan o qorxu qılıncını hərəkətə gətirən Nurəddinin subyektiv mülahizələri idi. Məhz buna görə işləyən də, işləməyən də qorxu içində idarəyə gəlib gedirdi.

Nurəddin özü bu barədə düşünmürdü, bunu «yenilik», «işləmək» kimi anlayıb qələmə verirdi. Lakin kollektiv bu cür idarəetmənin fəna nəticələri barədə ciddi narahat idi. Nurəddin gələndən idarəni bu və ya başqa adla tərk edib gedənlərin sayı getdikcə çoxalırdı. Özü də o alimlər getmişdi, yaxud işdən uzaqlaşdırılmışdı ki, institutun aparıcı, nüfuzlu adamları idi, hamı onları ciddi, məhsuldar, savadlı alim kimi tanıyırdı. Bunların elə vaxtı idi ki, artıq uşaqlarını böyütmüş, ev-eşik sahibi eləmiş, elmə, yazıb-yaratmağa mane olan məişət qayğılarından tamam azad olmuşdular. Vaxtlarını yeyib-içməkdə, gəzməkdə, qonaqlıqlarda keçirən çağları da çoxdan keçib getmişdi. İndi yalnız bircə işləmək, yazıb-yaratmaq qalmışdı onlara. Yalan olmasın, hərəsinin başı bir dolu kitabxana idi. Nə soruşsaydı cavanlar, yeriylə, yatağıyla, nadir və qədim kitabların şifrinəcən, hətta bəzən səhifəsinəcən deyirdilər. Onların adicə institut kollektivinin arasında olması cavanlar üçün nümunə məktəbi idi. Ancaq Nurəddin iş başına keçən kimi, birinci onlardan başladı. «Təqaüd vaxtınız çatıb, ərizə verin, gedin!» — söylədi. Ən müdrik çağlarını yaşayanlardan professor Səlim Səlimzadə, Şamil Nəsirzadə, — bu təmiz və ziyalı adamlar bu adla institutdan uzaqlaşdırılmışdı. Professor Namiq Kamal, kiçik bir şeyin üstündə yazılı töhmət aldığı üçün, elmlər namizədi Abbas Quluzadə «Mən sözün düzünü adamın düz gözünün içinə deyənəm, bununla isə — Nurəddinlə bir yerdə oxumuşam, yaxşı tanıyıram — mənim kimilərdən əsla xoşu

gəlmir!» — deyərək institutdan «könüllü surətdə» çıxıb getmişdi.

Professor Qulu Cəmilzadəni elmi şuranın üzvlüyündən çıxardıb incitmişdi, əl altdan o da getməyə yer axtarırdı. Tarix elmləri namizədi Nəsrin — iyirmi ildən çox bu kollektivdə çalışmış, özünə ailə qura bilməmiş o mehriban qadın Nurəddinin «təzyiqi» altında Memarlıq və İncəsənət İnstitutuna «qaçmışdı». Ədəbi əlaqələr şöbəsinin müdiri, yaxşı alim və mütərcim «onunla bir yerdə işləmək mümkün deyil — üzüsulu getmək yaxşıdı. Abır mənim üçün hər şeydən qiymətlidi», — deyib təqaüdə getmişdi. Rəna adlı kiçik elmi işçini əmrlə işdən azad etmişdi. Əziz adlı elmlər namizədini — təzəcə müdafiə etmiş cavan alimi, ondan zəhləsi gedən şöbə müdirinin təklifi ilə, «sən tənbəlsən!» — deyə institutdan çıxarmışdı. Bu iki nəfər hələ də haqlarını tələb edir, müxtəlif idarələrə məktublar yazır, bərpa olunmağa çalışırdı. Xəzər isə — müdiri, onu qeyri-qanuni işdən azad etdiyinə görə məhkəməyə verəndən sonra, öz yerinə qaytarılmışdı. Ancaq onun yaxasından hələ də əl çəkmirdi. Nurəddin «Nə qədər mən burdayam, sən müdafiə eləməyəcəksən...» deyib dururdu.

Nurəddin nə qədər qəribə olsa da, bütün bunları «iş» hesab eləyirdi, haradasa, kimdənsə, bunun müqabilində tərif də gözləyirdi. Və indi kabinetində əyləşib daha nə kimi işlər görə biləcəyini götür-qoy edirdi. Hər dəfə bu barədə düşünəndə, köhnə direktor yadına düşürdü. Onun qarasınca deyinir, söylənirdi. Yenə Aslanzadəni xatırladı, qalxıb gəzindi, kondisioner qoyulmuş pəncərənin yuxarısından küçəyə — həyətə tamaşa elədi. Elə bu zaman Aslanzadənin asta addımlarla idarəyə gəldiyini görüb qeyri-iradi saatına baxdı. On birə az qalırdı. «Bu kişini intizama dəvət eləyə bilmədik də. Ürəyi istəyən vaxt gəlir, ürəyi istəyən vaxt xəstələnir. Yox, onunla ciddi danışmaq lazımdı. Həvəsdi, bəsdi», — deyərək keçib yerində əyləşdi, düyməni basıb Şərqiyyəni çağırdı.

— Bəli, professor, — dedi Şərqiyyə.

— O Aslanzadəni yanıma çağır.

— Baş üstə. — Çıxmaq istəyəndə nə isə xatırlayıb: — O

neçə vaxtı işə gəlmir, professor — dedikdə:

— Gəlir. İndi gördüm pəncərədən — söylədi. Səsindəki əsəbiliyi Şərqiyyə duyub heç nə demədən çıxdı və qapını arxasınca örtən kimi, «Uy, allah, nə kobud adamdı ey, bu!» — deyə ürəyindən keçirtdi. Və direktorun kabinetindən Aslanzadənin şöbəsinə gedənəcən — şöbənin telefonu iki gün idi işləmirdi — Şərqiyyə on il katibəsi olduğu Aslanzadəni istər-istəməz Nurəddinlə müqayisə eləyirdi. «O ipək kimi adamdı. Elə bilirdim atamdı, böyük qardaşımdı. Hər gün səhər işə gələndə mehriban-mehriban salam verib: «Necəsən, qızım!» — deyirdi, halımı, əhvalımı soruşardı. Bu on ildə bircə dəfə də səsini qaldıran görmədim onu. Tək mənə yox, heç kəsə. Hörmətnən, izzətnən iş gördürürdü; bu isə zornan, hədə-hərbə ilə. İki il deyil gəlib, üç dəfə məni ağladıb. Ürəyim elə sınıb ki... Gedəcəyəm, qoy bir fərli yer tapım!»

Şərqiyyə Aslanzadənin şöbəsinə çatanda o, yenicə əyləşmişdi. İşçiləri ətrafına yığılmışdı, kimi kefini soruşurdu, kimi nəyəsə qol çəkdirirdi. Şərqiyyəni görən təki Aslanzadə adəti üzrə gülümsündü. Şərqiyyə onu qabaqladı:

— Xoş gəlmisiniz, professor. — dedi. — Səhhətiniz necədi? Maşallah yaxşısınız..

— Hə, babatam, qızım. Bülletenimi. gətirmişəm. Sən necəsən?

— Mənəm də. Belə... — deyə Şərqiyyə namüəyyən halda çiyinlərini çəkdi və əlavə elədi: — Sizi istəyir!

Aslanzadə yenə manalı-mənalı gülümsünüb yanındakıların üzünə baxaraq:

— Sən heç yalan danışa bilərsən, Şərqiyyə? — deyə soruşanda, qızın qara gözləri təəccübdən böyüdü:

— Mən? Yalan?..

— Hə!

— Necə məgər, professor?

— Gəlsənə, gedib ona deyəsən ki, hələ gəlməyib Aslanzadə? Gedəcəyəm, yenə əsəbiləşəcəyəm. Mənə isə olmaz!.. Şər-

qiyyə güldü:

— Heç indiyəcən yalan danışmamışam, professor. Ancaq sizin xatirinizə danışardım. Heyif ki, mümkün deyil. Aslanzadə yenə gülümsündü:

— Niyə ki?..

— O sizi gələndə pəncərədən görüb, professor!..

Aslanzadə qəhqəhə çəkib:

— Ay sənin!.. Zarafat eləyirəm, qızım, — söylədi. — Get de, indi gəlirəm.

Şərqiyyə dəhliz boyu, ağır, xırda addımlarla yeriyə-yeriyə düşünürdü: «Gör işin harasıdı ki, adamlar onun kabinetinə girməkdən ehtiyat eləyirlər. Bilirlər ki, nədən danışır, danışsın, axırda qanıqaralıq olacaq. Heyf bu institutdan». Doğrudan da elə oldu. Aslanzadənin bayaq zarafatla dediyi sözlər, gerçək çıxdı. Nurəddin Aslanzadəni çox soyuq qarşıladı. O, Şərqiyyə söhbətlərini eşitməsin, onun yanında sınmasın deyə, qapını içəri girəndə örtmüşdü. Nurəddin, hal-əhval tutmadan, sərt və amiranə bir səslə:

— Bura bax, Aslan, işləyirsən işlə. İşləmirsən, ərizəni yaz, çıx get, belə işləmək olmaz. Ayda dövlətdən bir ətək pul alırsan, — dedikdə Aslanzadəni elə bil ildırım vurdu. Oturmaq istəyirdi əvvəl, içəri girəndə, ancaq bu sözləri eşidəndən sonra fikrindən daşındı. Nurəddin onu çağıranda ətraflı danışacağını nəzərdə tutmuşdu; Aslanzadə də, dəhlizdə ona: «Belə sən hara gedirsən, Nurəddin? Bu yol düz yol deyil, kişi!» — söyləyəcəyini qətiləşdirmişdi. Lakin bu ilk sözlərdən sonra hər şey gözündə mənasızlaşdı, kabinet başına fırlandı. Kişi bir anlığa az qala müvazinətini itirmək dərəcəsinə gəldi. Yuxusuz, şişmiş gözlərinin qabağında qığılcımlar oynadı, ora-bura axışdı. Bircə onu bildi ki, geri çevrildi, öz əliylə çəkib örtdüyü qapını açıb çıxdı. Arxadan Nurəddinin: — Aslan, Aslan! — deyən səsini eşitdisə də, əhəmiyyət verməyərək Şərqiyyənin də üzünə baxmamağa çalışıb dəhlizə doğru yönəldi. Şərqiyyə qorxu içində arxasınca baxdısa da, yerindən dura bilmədi: «Zəhərlədi!» — deyə fikrindən keçirtdi...

Aslanzadənin çıxıb getməyi Nurəddinin deyəcəyi sözləri

ürəyində qoymuşdu. Belə hallarda o, özünü pis hiss eləyirdi, siqareti siqaretin oduna yandırır, öz-özünə danışırdı. İndi də öz-özünə deyirdi: «Adamlar dəymədüşər olublar yaman. Söz demək olmur. Fırr eləyib gedirlər. İnstitutu yaman günə qoymağı bəs deyil, hələ bir naz-qoz da eləyir».

Qalxıb gəzindi. Xeyli müddət pəncərədən həyətə tamaşa elədi. Sonra yenə yerinə qayıdıb oturmadan, uca qamətini əyib Şərqiyyəni səslədi. Ona Aslanzadəni təzədən yanına çağırmağı tapşırıb dəstəyi götürdü, kiməsə zəng elədi. Xeyli danışdı. Şərqiyyə əlində bir vərəq kağız içəri girdikdə o, sual dolu baxışlarını qızın üzündə və əlindəki kağızda gəzdirdi. Şərqiyyənin rəngi ağarmışdı.

— O nədir?

— Aslanzadənin ərizəsidir.

— Hm... — Nə düşündüsə, alıb kağıza baxdı, gözüylə oxudu: «azad edəsiniz...» sözləri beynində bir neçə dəfə təkrar olundu və baxışlarını qaldırıb: — Bəs özü niyə gəlmədi? — deyə soruşdu.

— Özünün halı pisdi. Təcili yardım çağırıblar..

Nurəddin əlindəki ərizəni stolunun üstünə ataraq:

— Bəli də. Elə bu əskik idi. İndi ölsə, deyəcəklər Nurəddin öldürdü. İşə düşməmişik oturduğumuz yerdə?! — dedi və elə bildi ki, Şərqiyyə hələ də kabinetdədi. Başını qaldıranda qızı görməyib təəccübləndi. Qapıya doğru addımlayıb başını katibə oturan otağa uzadanda qızın üstündə telefon və yazı maşınkası olan stolun arxasında əyləşib gözlərinin yaşını sildiyini sezərək qorxuya düşdü:

— Nədir, sən niyə ağlayırsan, qız? Yoxsa kişi ölüb?..

— Yox, — deyə bildi.

Nurəddin siqaretə dərin bir qüllab vurub:

— O bülletendə idi? — deyə xəbər aldı.

— Hə.

— Neçəsinəcən?

— Vaxtı dünən qurtarıb. Dünən bağlayıblar...

Nurəddin qapını yavaşca çəkib bağladı və keçib yerində

əyləşdi. Az sonra Nadirə Şərqiyyənin yanına gəldi — onun halı o qədər də yaxşı deyildi. Bunu Şərqiyyə onun ağarmış bət-bənizindən, titrəyən arıq, dərisi qırış-qırış əllərindən dərhal başa düşdü. Nadirə xanım Aslanzadəni təcili yardımdan gələn həkimlərə tapşırıb bura gəlmişdi. Otaqda, Aslanzadənin şöbəsində qızlardan kimsə Aslan müəllimin direktorun kabinetinə girib-çıxandan sonra bu vəziyyətə düşdüyünü müxtəsərcə danışmışdı. «Bilmirəm nə oldu aralarında, kişi pambıq kimi ağarmış halda geri qayıtdı və işdən çıxmaq üçün ərizə yazdı. Gördük halı xarabdır, təcili yardım çağırdıq!».

Bu vaxt artıq həkimlər özünü yetirmişdi, qan təzyiqini ölçürdü. Aslanın gözlərinə elə bil qan sağılmışdı, kişi çətin nəfəs alırdı. Bir anlığa Nadirə xanımın gözlərinə baxdı və qəmli-qəmli gülümsündü. Və bu baxışlarda Nadirə xanım çox şey oxudu, dözə bilməyib otaqdan çıxdı. «Yox, Nurəddinlə qəti danışmaq lazımdı. Bu mənim borcumdu» — deyə-deyə birbaş direktorun kabinetinə sarı addımladı. Şərqiyyənin nəmli gözləri onun azca əvvəl ağlamağından xəbər verirdi. Soruşmaq lazım deyildi — ona gün kimi aydın idi ki, qızı da Nurəddin ağladıb — ya xətrinə dəyən bir söz deyib, ya üstünə qışqırıb. Ağlamağının səbəbini xəbər almadan başı ilə kabinetinə işarə edib:

— Burdadı? — deyə soruşdu və Şərqiyyədən «hə» cavabı alınca kabinetə girdi. Nurəddin sol əlinin barmaqları arasında tüstülənən siqareti damağına qoyanda Nadirə xanımı otağın ortasında gördü:

— Buyur, Nadirə xanım. Səndən nə əcəb? — deyə siqaretin kötüyünü külqabına basıb söndürdü. — Əyləş. Üz-gözündən görürəm sözlü adama oxşayırsan!

— Hə, — dedi Nadirə və kənarda, pəncərə qabağında qoyulmuş ərəb kreslosunda əyləşdi — Sizinlə bəzi məsələlər barədə danışmaq istəyirdim, Nurəddin müəllim. Əgər vaxtınız varsa...

— Hə, var. Eşidirəm səni.

— Mən... — Nadirə xanım həyəcanlı olduğundan bir anlığa tutuldu və hardan başlayacağını bilmədi, ancaq bu an tez keçib getdi, o, əsəbiliyini, qəzəbini mümkün qədər gizləməyə, sakit-

sakit danışmağa çalışdı: — Mən sizin yanınıza bir alim, bir şöbə müdiri kimi yox, partiya təşkilatının katibi kimi gəlmişəm, Nurəddin müəllim.

— Oho, deyəsən rəsmi söhbət edəcəyik, eləmi? — deyə Nurəddin kinayə ilə qımışdı.

— Bəli. Rəsmi. Ciddi.

Direktor qəddini kresloda düzəltdi və «Malbora» qutusundan bir siqaret götürdü, yandırdı:

— Eşidirəm.

Araya sükut çökdü. Nadirə xanımın ürəyi elə doluydu ki, nədən başlayacağını qarışdırmışdı. Tutarlı, inandırıcı danışmaq istəyirdi. Və eyni zamanda canında bu qorxu da var idi ki, Nurəddində heç kəsi axıra qədər dinləmək qabiliyyəti olmadığını bilirdi. Pozuluşsaydılar, sözləri deyilməmiş kabinetdən çıxsaydı, bu, məğlubiyyət idi. Ona görə Nadirə xanım özünü ələ alıb lap astadan sözə başladı:

— Mən gəlmişəm sizə deyəm ki, sizin iş üsulunuz kökündən düzgün deyil, Nurəddin müəllim. Xahiş edirəm, əsəbiləşməyin, sözümü də kəsməyin. Bəli, bu cür işləmək qətiyyən düz deyil. Siz bu institutda işləyən alimlərlə lap soldat kimi rəftar edirsiniz, Nurəddin müəllim. Bizdə ən qiymətli kapital — insandır, biz bu insanlara qayğı ilə yanaşmalıyıq, dərdinə-sərinə qalmalıyıq və bunun da müqabilində iş tələb etməliyik. Amma siz neyləyirsiniz? Siz, lap elə hərbi terminlə desək, komandiri olduğunuz bu əsgərlərlə necə rəftar edirsiniz? Mən deyərdim çox pis! Əgər belə getsə, siz bu əsgərlərlə zirvələr fəth edə bilməzsiniz. Onlar sizi yarı yolda qoyar, hərəsi bir tərəfə qaçıb dağılışar; bir də görərsiniz bircə özünüz qalıbsınız! Onda sizin yaxanızdan tutub silkələyə bilərlər ki, hanı ordunuz, yoldaş komandir?! Niyə qaçıb dağılıblar? Demək siz pis komandir, pis tərbiyəçi, pis böyük olubsunuz!. O zaman sizin verməyə cavabınız olmayacaq.

Aslanzadə ilə sizi müqayisə edirəm hərdən. Bax, bu kabinetə onun vaxtında böyük də, kiçik də qorxmadan, çəkinmədən gəlirdi, elə bil atasının, qardaşının, ağsaqqalının yanına gəlirdi. Ancaq indi

bura heç kəs özü gəlmək istəmir. Dərdi-səri olan da gəlmək istəmir. Çağırdığınız adam isə... şübhə və qorxu ilə gəlib qanıqara çıxır. Camaat sizə koridorda rast gələndə, yolunu dəyişmək istəyir, çünki salam verirlər, salam da almaq istəmirsiniz... Sonra çaşbaş qalır camaat, bilmir sizi görəndə salam versin, ya yox!. Belə böyüklük olmaz, Nurəddin müəllim. Bilirəm, bu cür sözlər eşitməyə adət etməmisiniz, ancaq eşitməlisiniz. Mərkəzi Komitə, kollektivlər haqqında, rəhbər işçilərin rolu və vəzifələri barədə, respublika partiya təşkilatı isə bizim institutun qarşısında dayanan vəzifələr, inkişaf perspektivləri, kadr hazırlığı haqqında çox gözəl və vaxtında qərarlar qəbul etmişlər. Siz bu qərarların mühüm bir bəndini — kadrlardan, onlara qayğıdan və tələbkarlıqdan bəhs edən bəndini nəinki ləyaqətlə yerinə yetirmirsiniz, bəlkə təhrif edir, pozursunuz. Ən yaxşı, təcrübəli kadrlarımızı institutdan uzaqlaşdırmaq nə bizim xeyrimizədi, nə də elmimizin. Özü də, siz bütün bu məsələləri təkbaşına həll etmisiniz, indiyə qədər nə məni — partiya təşkilatının katibi kimi, nə də Dilsuzu — Yerli Komitənin sədri kimi bu və ya digər bir məsələni həll edəndə yanınıza çağırmamıcısız, məslahətləşməmişsiniz. Bunu mən, üzr istəyirəm, özbaşınalıq hesab edirəm. Halbuki, burada mən də böyük məsuliyyət daşıyıram... Mən Rənanın, Əzizin işdən qovulmasını qanunsuz hesab edirəm. İqtisad şöbəsinin baş elmi işçisi Nadir Qasımzadəni, o qədər çək-çevirə saldınız, üç aydı infarktdan yatır. Bu gün qocaman alimimizə, bu institut üçün uzun illər qayğıkeş bir bağban kimi əlindən gələni əsirgəməmiş Aslan Aslanzadəyə nə demisinizsə, qan təzyiqi həddini aşıb — hələ ölməsə yaxşıdı. Bunlar nə alimə, nə insana yaraşan hərəkətlərdir, Nurəddin müəllim.

O cavan oğlanı — Xəzəri niyə müdafiə etməyə qoymursunuz? Axı sizin bu qanunsuz, heç bir kitaba-dəftərə sığışmayan hərəkətiniz onu mənən şikəst eləyə bilər, fikrini çaşdıra, döndərə bilər? Siz bunun nə demək olduğu barədə heç düşünürsünüzmü, Nurəddin müəllim?! Yaxud bax, o gün, bizim iki alimimizin — Rüfət Səlimovun və Qulu Cəmilzadənin altmış yaşı tamam olmuşdu. Eyni gündə anadan olublar. Siz neylədiniz? Rüfətə —

sizin dostunuz, məddahınız olduğu üçün bir aylıq maaşı miqdarda mükafat verdiniz, elmi şuranın iclasında onu təbrik etdiniz, xüsusi sessiya keçirdiniz. Qulu, mənə qalsa, Rüfətdən də böyük və məşhur, xidmətləri daha çox olan bir alimdir. Amma siz onu quruca sözlə belə təbrik etmədiniz, mükafatı-filanı o yana qalsın. Siz bundan sonra necə ədalətdən, obyektivlikdən danışa bilərsiniz, Nurəddin müəllim? Kim sizə inanar, kim sizi sevər, kim sizin arxanızca gedər?

Nadirə xanım ara vermədən danışırdı, Nurəddin qımıldanıb sözünü kəsmək istəyirdisə də, imkan vermirdi, fikrinin nizamının pozulacağından qorxduğuna görə, sonra nə eşidəcəyini nəzərə almadan ürəyini boşaldırdı. Birdən Nurəddinin istehza ilə qımışdığını görüb dayandı. Məqam gözləyirmiş kimi, Nurəddin dilləndi:

— Qurtardın?

— Hə, demək olar ki, qurtardım... — dedi Nadirə və direktorun nə cavab verəcəyini gözlədi. Rahat idi, qəlbi boşalmışdı. Həm də daha Nurəddindən qorxmurdu. Nurəddin əsəbiləşmək, əsib-coşmaq əvəzinə, qəribə idi ki, çox sakit bir tərzdə:

— Bunlar öz yerində, indi mənə de görüm səni kim öyrədib bura göndərib, Nadirə xanım? — deyə soruşanda Nadirə qulaqlarına inanmaq istəmədi. Çaşbaş halda:

— Nə dediniz? Məni kim öyrədib bura göndərib deyirsiniz? — söylədi.

— Bəli, maraqlıdı. Kim?

Nadirə xanım hirslə ayağa qalxdı:

— Mən uşaq deyiləm, Nurəddin müəllim. Nə dediyimi çox yaxşı bilirəm. Heç kəsin məsləhətinə də ehtiyacım yoxdur. Mən bir partkom kimi, bunları sizə deməyi özümə mənəvi borc saydım, vətəndaşlıq borcu!.. Belə getsə... prezidiuma, partiya komitəsinə müraciət edəcəyəm. Bir kommunist kimi...

Nurəddin yenə məkrlə qımışdı:

— Belə getsə... biz bir yerdə işləyə bilməyəcəyik, Nadirə xanım. Seçkilər yaxınlaşır...

Nadirə xanım son sözlərini qapı ağzında eşitdi, ancaq

qayıdıb cavab verməyi artıq saydı.

## SƏKKİZİNCİ FƏSİL

Yüngül dəniz küləyi əsirdi. Suları qırçın-qırçın sahilə çırpıb sındırırdı. Sahildən xeyli aralı iki gəmi lövbər salıb dayanmışdı. O tərəfdə, gündoğan səmtdə dənizin içinə doğru taxta qol kimi uzanan körpünün kəlləsində «Sadko» kafesinin pəncərələrinin şüşələri, qüruba enən günəşin şüaları altında şəfəqlənirdi.

Dəniz qırağında adam seyrək idi. Sakit əllərini paltosunun cibinə qoyub lap sahildə, daş məhəccərin yanında dayanmışdı, ora-bura uçuşan ağ qağayılara tamaşa eləyirdi. Yorğun gözlərini dənizin maviliyi oxşayıb dincəldirdi. Bütün günü işləmişdi, başı dumanlı idi elə bil. Barmaqları qələm tutmaqdan keyimişdi, kötüyə dönmüşdü. Son vaxtlar çox ciddi işləyirdi. Düşündüyü roman gecə-gündüz ona rahatlıq vermirdi. Yazdığı adamlar yanındaydı, talelər gözünün qabağındaydı, heç nəyi quraşdırmaq, düzüb qoşmaq lazım deyil. Hadisələr elə sürətlə inkişaf edirdi ki, Sakit yazıb çatdıra bilmirdi. Qəribə idi ki, Nurəddinin hərəkətlərinin kollektivdə doğurduğu qəzəb artdıqca Sakitdə də ona qarşı anlaşılmaz bir kin əmələ gəlirdi. Nurəddin Sakitə şəxsən heç nə eləməmişdi — ancaq Sakit hiss edir və görürdü ki, o, institutu idarə etməyə layiq adam deyil; o, alimləri — bu «qələm fəhlələrini» həvəsləndirmək, qanadlandırmaq əvəzinə, qamçılayır» ruhdan salır, qol-qanadını sındırır, əsəbi və gərgin şərait yaradır və ən dəhşətlisi bu idi ki, o, bunu işləmək və tələbkarlıq sayırdı. Alim zəkası, alim beyni — məmləkətin qızılından da, neftindən də, yeraltı-yerüstü xəzinələrinin hamısından qiymətlidir və üstəlik də çox zərifdir. Ona qayğı ilə, həssaslıqla yanaşmaq lazımdır. O, ağıllı adamın əlində dürr-gövhər saça bilər. Nadanın əlinə düşsə, qəzəb və nifrət püskürə bilər. Nurəddin kimi üzdəniraq «rəhbərlərin» kobudluğu, özbaşınalığı alim beyninin düşünmə düzümünü, saf niyyətini pozub qaralda bilər, inamını öldürə bilər. Ona görə Nurəddinləri — tək-tük olsalar da — ifşa etmək, başa salmaq, bu

yanlış və əyri yoldan döndərmək hamının, birinci növbədə qələm sahiblərinin borcu olmalıdır. Belə adamları ictimaiyyətə tanıtmaq vacibdir ki, gələcəkdə vəzifə başına qoyanda səhv etməsinlər və özləri isə öz əməllərinə baxıb utansınlar.

Sakit romanını geniş planda düşünmüşdü. Təkcə institut və onun adamları deyildi qəhrəmanları. Bəlkə bütün şəhər idi, şəhərin müxtəlif sənət, müxtəlif düşüncə adamları idi. Burada fəhlə də, evdar qadın da vardı, müəllim də, şair də vardı, akademik də, akademik oğlu da vardı... Çox adam vardı bu romanda və Sakit istəyirdi ki, hamını özünə göstərsin, tanıtdırsın; istəyirdi ki, yaxşı və pis adamlar haqqında öz ürək sözünü desin və rahatlansın. Ola bilər bu adamlar özlərini bu kitabın səhifələrində tanısınlar, inciyən, küsən olsun; eybi yoxdur, nə olur-olsun, sözün düzünü demək lazımdır, bundan qorxmaq gərək deyil. Bu, qələm sahibinin mənəvi borcudur. Fikri bura çatanda «Palıd kölgəsi» kitabı yadına düşdü və qəmli-qəmli gülümsündü. O kitabın üstündə başını çox ağrıtmışdılar. On bir il kiçik elmi işçi vəzifəsindən yuxarı qalxmağa qoymamışdılar o kitabda özünü tanıyan qəhrəmanları. Axırda... o institutdan bu institututa atmışdılar. Mədəni surətdə «başlarından» eləmişdilər. Əlbəttə, bunu açıq-aşkar eləməmişdilər, çox sakit və mehribanlıqla «Sakiti bu instituta göndərmişdilər». Sakit isə bundan daxili və dərin bir zövq alsa da, açıb ağartmamış, iynəsini papağına sancıb köçən dərzi kimi qələm-kağızını götürüb ikicə mərtəbə yuxarı qalxmışdı. Və burada isə daha maraqlı bir aləmlə qarşılaşmışdı. Yazırdı, qorxusuz-ürküsüz yazırdı. Buradan da «qovsalar», nə eybi!.. Əvəzində bir kitab qalacaqdı yadigar!

Sakit sulara baxa-baxa xeyli dayandı, ayaqlarının yorulduğunu hiss eləyib geri buruldu və dəniz sahilinin «ikinci mərtəbəsinə» qalxan pillələrlə yuxarı çıxdı... Fəvvarələri yaydakı kimi «gül açmamışdı». Boş hovuz yaraşıqsız görünürdü — hovuzun yaraşığı su imiş, sən demə. Sakit indiyəcən bunun fərqinə varmamışdı. Heyrətlə düşündü ki, görüb müşahidə eləmədiyi nə qədər şeylər var dünyada, aman allah!. Həyat oxunub qurtarılması

mümkün olmayan nəhəng bir kitabdı və onu başa çıxmaq üçün bir ömür çox azdı, çox az!.

Qabaqda ucaboylu bir kişi gedirdi. Yerişi ləngərliydi və bu ləngərli yeriş ona kimisə xatırladırdı... Ancaq kimi? Tapa bilmirdi. Addımlarını bir az sürətləndirdi və üç-dörd qədəm atmamış qarşısında yeriyən kişini tanıdı... Bu, Əsəd idi. Sakitin əhvalı dərhal dəyişdi. Əsədin kədərli söhbətini xatırladı, neçə vaxtdan bəri ona rahatlıq verməyən, unuda bilmədiyi Xəzangülün taleyi gözünün qabağında canlandı. Əsədin bu əhvalatı danışdığı anlarda düşdüyü vəziyyət, qəmli-qəmli, tez-tez köksünü ötürməsi, hərdən gözlərinin dolması... sonra üç təkərli araba, sonra Sahilə, Ərəstun oğlan... Hər şey-hər şey hafizəsində təzələndi... Onda Əsəd söhbətini axıra çatdıra bilməmişdi. İndi fürsət idi. Həm bir az dərdləşərdilər, həm də Sakit o maraqlı əhvalatın mabədini öyrənərdi. Cavabsız suallar aydınlaşardı. Bu məqsədlə Sakit yenə addımlarını yeyinlətdi. Lakin Əsədin tək olmadığını, qarşısında bir kolyaska itələdiyini görüb... dayandı. Yenə fikri qarışdı. Bu nədir? Əsəd o dəfə demişdi ki, heç özüm də bilmədən birdən geri — Xəzangülə sarı qayıtdım. Deməк qayıdıb. Bu, deyəsən, tamam qayıtmaq olub, yəni alıb Xəzangülü? Ya... Bir anda yenə neçə-neçə cavabsız sual beynində dolaşdı... Əsəd ağır-ağır irəliləyirdi, sol əli kolyaskanın ağ nikel dəstəyinin üstündə idi. Növbəti oturacağın tuşuna çatanda kolyaskanın ağzını ona sarı döndərdi. Kolyaskanın üzünü dənizə tərəf çevirdi. Arabada oturmuş adamın qıçları üstəki adyalı bir az yuxarı çəkdi, sonra özü də oturacaqda əyləşdi. Dənizə baxmağa başladı...

Sakit tərəddüd içində olsa da, nəhayət, yerindən qoparaq irəlilədi. Əsədin yanına çatanda... kolyaskadakı adamın başını, yumulmuş gözlərini görüb onun sifətini yadda saxlamağa çalışdı. Əsəd qayğılı olduğundan onu görmürdü. Sakit irəli gəldi, Əsədin önündə dayandı. Əsəd birdən:

— Oy, Sakit, sənsən? — deyib yerindən sıçradı və səsinin qeyri-iradi ucadan çıxmağından qorxmuş kimi, dərhal da ahəngini dəyişib. — Xoş gördük! — söylədi yavaşca. Görüşdülər. Sakit

onun yanında oturub:

— Nə var, nə yox, ay Əsəd? Elə o gedən getdin. Mən səndən nigaran qaldım, — dedi.

— Hə, heç imkanım olmadı. Başım qarışdı. — O, başı ilə Xəzangülə işarə elədi,— büna...

Sakit arxa tərəfdən ancaq güllü yaylıqla örtülmüş başı görünən xəstəyə sarı boylandı və asta səslə:

— Hə, necədi indi? — deyə xəbər aldı.

Əsəd ah çəkdi:

— Elə elədi. Bir dəyişiklik yoxdu. Olmayacaq da deyəsən. Həkim-professor qalmayıb ki, yanına aparmayam. Məşhur nevropotoloq professor Kamil Məmmədovun da qəbulunda oldum, o da ancaq təsəlli verdi.

Sakit münasibətlərindən nigaran idi — Xəzangülü evinə gətirmişdimi, özü onun evinə köçmüşdümü? Bəs Sahilə hanı?.. Yoxsa qız, anasını bu vəziyyətdə qoyub Ərəstun deyilən o oğlana qoşulub gedib? Əsəd necə olub ki, vaxtilə onu yarıyolda qoyub getmiş, heç nə izah eləmədən üz döndərib sevən ürəyinə çalın-çarpaz dağ çəkərək sözün həqiqi mənasında həyatını sındırmış bir qıza — indi ancaq gözləri və beyni yaşayan bu Xəzangülə qahmar çıxıb, dayəsinə çevrilib? Bu, məhəbbətin ölməzliyi idimi, alicənablıq idimi, yamanlı, yaxşılıq idimi? Sakit həssas bir insan kimi bu sualları götür-qoy edir, soruşmaq, öyrənmək arzusu ilə yanırdı, lakin hardan, necə başlayacağını kəsdirə bilmirdi. Əsədə maraqla baxırdı, onun gözlərindən ürəyini oxumaq istəyirdi. O, isə siqareti-siqaretin oduna yandırır, susurdu.

Sakitin səbri çatmadı. Soruşdu:

— Yaxşı, bəs... sən necə... Yəni demək istəyirəm, bununla neyləmək istəyirsən, Əsəd?

Əsəd fikrindən ayıldı. Əslində o özü də danışmaq üçün susmuşdu, düşünürdü. Bu dünyada yeganə adam Sakit idi ki, Əsəd ona taleyini, həyatını, uzun illər susandan sonra, açıb danışmışdı. İndiki halını isə gizləməyə dəyməzdi. Odur ki, verilən sualdan istifadə edərək sözünü söylədi:

— Mənim işim əvvəldən gətirməyib, qardaş. Sənə keçən dəfə ətraflı nağıl elədim. Səndən nə gizlədim, mən bu bədbəxti çox sevirdim. Hələ nə bir kitabda, nə bir filmdə, nə də həyatda mən belə məhəbbət görməmişəm. O vaxt da, sonralar da, qəribə idi ki, elə hey arzulayırdım — Xəzangül kor olsun, şikəst olsun, ancaq yanımda olsun, nəfəsini duyum, səsini eşidim. Vəssalam. Uşaq kimi qulluğunda duraram, başına dönərəm, yalnız və yalnız onun üçün yaşaram və özümü xoşbəxt hesab elərəm. İşə bax ki, unutmaq, yaddan çıxarmaq əvəzinə mən, bir ömür, bu il Bakıya gələnə, Sahiləyə rast gələnə qədər bu arzu ilə yaşamışdım. Mən əslində bir insan kimi yaşamamışam bu illəri, sürünmüşəm. Zahirdə işləmişəm, demişəm, gülmüşəm, amma içimdə onu düşünmüşəm, onu axtarmışam, onu danlamışam, sonra yenə sevə-sevə haqqında fikirləşmişəm. Bu, cəhənnəm əzabı olub mənim üçün. Yanmışam, kül olmuşam, ancaq səsim-ünüm heç yerə çıxmayıb, kimsə dərdimi bilməyib. Mən belə-belə gəlib az qala əllini haxlamışam, Sakit. Bura gələndə sənə danışdığım qəribə görüş və onun dalınca Xəzangülü bu halda görməyim mənim həyatımı təzədən yeni bir məcraya saldı. Düzdü, işimi itirdim—o məktəbə daha qayıtmaq olmazdı. Ancaq, əvəzində, həmişə fikrən sorağında olduğum Xəzangülü tapdım. Çarəsizlikdən arzu elədiyim şəkildə — şikəst, hərəkətsiz, dilsiz-ağızsız... Sahilə — onun qəşəng və ağıllı qızı məni bu dərdin ailənin vəziyyəti ilə yaxından tanış etdi. Xəzangül ölümə məhkumdu — beş gün, on gün, kim bilir, bəlkə də çox yaşasa da, daha onun ayaq açıb yeriməsindən, adam olmasından keçmiş ola. Ona yazığım gəlir, Sakit. Sən məni başa düşürsən. Ondan çox qıza yazığım gəlir — əsir olub uşaq. Dərslərinə baxa bilmir, dolanacaqları çətindi. Bütün gününü bunun qulluğunda durmalıdı. Onun isə həyatı hələ qabaqdadı. Ona kömək eləyən, əlindən tutan bir adam lazımdı. O oxumalıdı, bir sənət sahibi olmalıdı... İstəyirsən məni qına, istəyirsən qınama. Sakit, mən bu işi öz boynuma götürməyi qərara almışam. Onsuz da mənim heç kəsim yoxdu — elə bilərəm Xəzangül mənim arvadımdı, Sahilə də balamdı. Nə qədər yaşar-yaşar Xəzangül.

Öləndə də... Sahiləni isə... oxudaram, ərə verərəm,.. Bu, mənim taleyimdi, görünür, Sakit. Taledən qaçmaq olmaz...

Əsəd susdu. Sakit mütəəssir halda ona baxdı, baxdı və birdən, Əsədin gözləmədiyi halda, qalxıb qabağında dayandı, əyilib üzündən öpmək istədi, lakin nə üçünsə özünü saxladı, sadəcə:

— Çox sağ ol, Əsəd, — dedi. — Böyük alicənablıq eləmisən. Mən bunu hökmən yazacağam, Əsəd. Qoy hamı bilsin ki, dünyada sənin kimi insanlar hələ də var, qardaş. — Sakitin gözləri yaşarmışdı. Həqiqətən çox təsir eləmişdi Sakitə. Bir qələm sahibi kimi, o, həmişə insanların həyatında indi məhz belə qeyri-adi görünən, əslində isə adi insani keyfiyyət hesab edilən cəhətləri axtarırdı, öyrənirdi, yazırdı. Ucdantutma hamının gördüyü, bildiyi, eləməyə qadir olduğu şeyləri qələmə almağı qətiyyən sevməzdi. İnsanlara, kitab oxuyanlara nə isə yeni, maraqlı bir söz deməyin ləzzətini o, heç nəylə dəyişməzdi. Sakitin fikrincə, həyatda qeyri-adi insanlar, qəhrəmanlar çoxdu, onları tapmaq, yazmaq, tanıtdırmaq, sevdirmək sənətkarların ən müqəddəs borcudu. O, qəhrəmanları da, maraqlı idi ki, iki qismə bölürdü. Birinci qisim qəhrəmanlar ani hərəkətlərinin, beynində, ürəyində bircə anlığa oyanmış hər hansı nəcib, əhəmiyyətli bir fikrinin həyata keçirilməsi nəticəsində adilikdən çıxıb qəhrəmanlaşır, əfsanələşir. Bu cür qəhrəman olmaq üçün bir an, bir saat özünü unutmaq, dəyanət və fədakarlıq göstərmək kifayətdir. Bəli, qəhrəman olmaq üçün bəzən bir an tələb olunur, ancaq əsl insan olmaq üçün isə bir ömür gərəkdir. Bir günün içində qəhrəman olmaq olar, amma bir günün içində əsil insan olmaq mümkün deyil. Sakitə görə, ikinci qisim qəhrəmanlar adamcığazlar arasında hər hərəkəti, sözü, rəftarı, mədəniyyəti ürəyi, səxavəti, dəyanəti, mərdliyi və sədaqəti ilə seçilməyə qadir olan əsl insanlardı və onlar Sakitin gözündə bir anlıq qəhrəmanlardan çox-çox ucada, əlçatmaz yüksəklikdə dayanırdılar. Bunlar mənən, daxilən, qəlbən qəhrəmanlığa layiq adamlardı və yer üzündə nə qədər belə insanlar vardısa, hamısına— tanısa da, tanımasa da pərəstiş eləyirdi Sakit. Belələri insan sözünü, adi «adam» sözünü yox, məhz insan sözünü şərəfləndirir,

ülviləşdirir, ilahiləşdirir.

Sakit böyründə oturub siqaret çəkən Əsədə fikir verə-verə düşünürdü ki, o, Əsəd, məhz bu cür gözəl insanlardandı. Xəzangülün gözü dağlansın, niyə onun ürəyini görməyib, niyə qiymətləndirməyib, niyə öz təmizliyini, ləyaqətini belə bir insana tapşırmaqdan çəkinib? Niyə onun taleyini belə sındırıb, ayaqlayıb üstündən keçib! Gör Əsədin ürəyində nə qədər işıq, nə qədər ülvilik və müqəddəslik varmış ki, bu zərbə — Xəzangülün vurduğu bu dözülməz zərbə də onu söndürə bilməyib, çirkaba batıra bilməyib, napak eləyə bilməyib! Gör nə qədər məhəbbət varmış onun qəlbində — bu rəhmsizlik, dönüklük, vəfasızlıq onu məhv edə bilməyib!.. Amma belələri az tapılar, az ələ düşər. Çoxu bu cür insanları anlamaz, qiymətləndirməz. Sakit bunu da yaxşı dərk eləyirdi. Eləsi ola bilərdi ki, Xəzangülü bu vəziyyətdə görəndə sevinərdi, intiqam hissiylə alışıb yana-yana deyərdi: «Sənə bu da azdı. Sən bundan da böyük bədbəxtliklərə layiqsən. Öz cəzandır, Allah çəkdirir» — deyərdi və yanından məğrur-məğrur keçib gedərdi. Əsəd də, danışdığına görə, keçib gedirmiş, ancaq qayıdıb. İnsan kimi qayıdıb və indi budur, yanındadır. Hər gün Sahilə onu kolyaskasında saat səkkizdə evdən çıxarır, küçədə onları gözləyən Əsədin yanına gətirir, suyunu, kompotunu, yeməyini verir, özü dərsə gedir; Əsəd Xəzangülün kolyaskasını itələyə-itələyə dəniz qırağına gətirir.

Xəzangül onu hər gün görəndə donuq, kədərli sifətində qəribə bir titrəyiş əmələ gəlir — Əsədi gördüyünə sevinir, sonra kirpiklərini endirməklə salam verir və yəqin ki, onuncu sinifdə oxuduğu zaman səssiz-səmirsiz «Mən sənə qurban olum» demək olan bu kirpik çalmanın o şairanə mənasını xatırlayır, kim bilir, bəlkə elə indi də, kirpiklərini endirərkən ürəyində «mən sənə qurban olum» söyləyir? Ya bəlkə kim bilir, xəstəlik onun yaddaşının nizamını, düzümünü, yazısını tamam pozduğundan heç o sözləri yadına sala bilmir?

Dəniz qırağında çox vaxt Əsəd, Sahilənin tapşırığına baxmayaraq, onun üzünü dənizə tərəf çevirmir — kolyaskanı elə

qoyur ki, Xəzangül ona baxa bilsin. Baxa bilsin və yanaqları aşağı yaş axıtsın.

Sahilə bu iki-üç ay ərzində, Əsədin danışdığına görə, ona elə isinişib ki, elə bil doğma atasıdı. Heç nəyi ondan gizləmir, hər dərdi-sərini ona danışır. Əsəd qızın gözündə müqəddəs bir varlığa dönüb. Ərəstun Əsədi görəndə özünü yığışdırır, ona hörmət eləyir.

Əsədin iyirmi il bundan qabaqkı «nə oldu, niyə belə elədin?» sualları yenə cavabsızdı. Ən dəqiq cavabı Xəzangül özü verə bilərdi. Hayıf ki, bu mümkün deyildi və görünür, heç vaxt Əsəd bu suallara cavab ala bilməyəcəkdi.

Sakiti indi bir məsələ çox düşündürürdü: «Görəsən, Xəzangül nə fikirləşir? Kaş elə bir imkan olaydı, onun ürəyindəkiləri, beynindəkiləri oxumaq, eşitmək mümkün olaydı. Peşman idimi? Xəcalət çəkirdimi? Özünə nifrət edirdimi?» Möcüzə baş versəydi, Xəzangülün dili açılsaydı, görəsən Əsədə nələr deyərdi, nələr demək istəyərdi? Bütün bunlar Sakit üçün Əsəddən də çox maraqlı idi. Və burada Sakit insanın hələ də bir çox sirlər, müəmmalar qarşısında aciz olduğunu anlayıb məyuslaşırdı.

— Yaxşı, bəs sən iş məsələsi barədə nə düşünürsən, Əsəd? — deyə Sakit, çoxdan onu narahat eləyən məsələnin üstünə gəldi. — Haçanacan belə olacaq?

Əsəd suala cavab verməmişdən ayağa qalxdı, kolyaskanın ağ dəstəyindən asılmış qara parçadan tikilmiş zənbildən bir şüşə çıxartdı, ağzını açıb Xəzangülün dodaqları arasına saldı. O, iki-üç qurtum içdi. Kirpiklərini endirməklə «çox sağ ol!» — dedi. Əsəd də eyni qayda ilə cavab verib, Sakitin yanında əyləşəndən sonra:

— İş məsələsi elə-elə qalıb. Aliyə xanım iki dəfə dalımca uşaq göndərib, ancaq getməmişəm. Daha mən orda işləyə bilmərəm, Sakit, çünki heç kəsi başa salmaq olmaz. Mən onda gərək hamıya, uşağa da, böyüyə də, sənə danışdıqlarımı danışam. Bunu da mən bacarmaram. Yeganə çarə odur ki, başqa məktəbə gedəm. O da məncə hələ mümkün olmaz. Yerlər tutulub, dərslər bölünüb. Ranoda növbədə duran nə qədər müəllim var, heç mümkün olan işə oxşamır — dedi.

Sakit fikirləşib söylədi:

— Bəs dolanacağın necədir? Yəqin pulun-zadın yoxdur, hə?

— Pul? Varımdı. Heç nəyə ehtiyacım yoxdur. Tək adamam. Beş il də işləməsəm, pulum çatar. Orda — kənddə yaxşı maaş alırdım. Sən deyən elə də bədxərc deyiləm.

— Qane adam olduğunu bilirəm. Amma yenə də olsun. Ehtiyacın olsa, mənə deməsən, səndən küsərəm.

Əsəd razılıq elədi:

— Çox sağ ol, Sakit. Olsa, sənə də deməmiş kimə deyəcəyəm?

Sakit qalxdı. Hava soyumuşdu. Çoxdan bir yerdə hərəkətsiz oturduğundan üşüyürdü. Boylanıb Xəzangülə ötəri nəzər saldı. O, iri, ala gözlərini dənizlə üfüqün qovuşduğu yerə zilləyib durmuşdu. Ona çox baxa bilməyib Əsədə sarı döndü:

— Mən axşam bizim Nadirə zəng edəcəyəm. Dostumdu. Əhvalatı danışacağam, sənə bu yaxın məktəblərin birində bir iş düzəldər, elə bilirəm. İndi də olmasa, bir azdan...

— İndi heç özüm də istəmirəm. Qoy Sahilə məktəbi bitirsin. Onuncu sinifdi, məsuliyyəti çoxdu. Universitetə girmək istəyir. Ədəbiyyatı yaman sevir. Bütün ədəbiyyatımızı qədim dövrdən bu günə qədər əzbər bilir. Yaxşı ədəbiyyatçı olacağına inanıram. Bu il girər, sonra görək axırı nə təhər olar...

— Yayda mənə də deyərsən. Bəlkə mənim də bir köməyim dəydi. Amma hər halda mən bu axşam nazirlə danışacağam. — Sonra o, telefonunun nömrəsini Əsədə söylədi: 38-94-41. Axşamlar evdəyəm. Gəl bir oturaq, söhbətləşək;

— Gələrəm. Çox sağ ol, Sakit. Səndən çox razıyam. Bu qardaşyana münasibətini heç vaxt unutmaram.

— Nə danışırsan, ay Əsəd? Biz tələbə yoldaşı olmuşuq. Özün də tələbəlik illərindəki o adamyovuşmazlığı qoy bir kənara. Gəl-get. Qayna-qarış. Daha yaşımız o yaş deyil.

— Düz deyirsən. Ömür-gün gedir. Qocalırıq. Sən, maşallah, yaxşısan. Çox iş görmüsən, qardaş. Sənin kitabların əl-əl gəzir, hamı səni tanıyır, sevir. Sən hədər yaşamamısan bu illəri... Amma

mən... Mənim ömrüm hədər getdi, elə hesab elə. Nə ailə, oğul-uşaq, nə də özümdən sonra yaşaya biləcək bir yadigar...

— Elə demə, Əsəd. Sənin dərs dediyin, tərbiyə etdiyin o uşaqlar ən yaxşı, ən gözəl əsərlərin deyilmi sənin?.. Müəllim ömrü — ömürlərin ən gözəlidi, Əsəd. Kaş mən də müəllim olaydım...

Əsəd də qalxdı və gülə-gülə dedi:

— Mən sənə qibtə eləyim, sən mənə. Yox, Sakit, mən hara, sən hara? Mən müqayisədə çox az adamın müəllimi olmuşam. Sən isə öz sənətinlə hamının müəllimisən.

Sakit başını buladı:

— Hamının yox.

— Hər halda... səni sevə-sevə oxuyanların ən yaxşı müəllimi sənsən, özünsən...

...Sən demə, Sakitlə Əsəd fəvvarənin tuşundakı oturacaqda əyləşib söhbət eləyəndə, Gülmirə də qonşu oturacaqda dincəlirmiş. Gülmirə bu kolyaskada gəzdirilən qadını elə burada, cavan bir qız gəzdirən çağlardan görürmüş, tanıyırmış. Düzdü, o, nə qadının, nə o qızın şəxsən kim olduğunu bilmirdi. Oxşarlıqları o qədər idi ki, onların ana-bala, yaxud bacı olduğuna qətiyyən şübhə eləmirdi Gülmirə. Bir qadın kimi, o qadının da, o qızın da taleyinə acıyırdı. Hər dəfə görəndə düşünürdü ki, yer üzündə hərənin özünə görə dərdi-səri var, birininki az, birininki çox. Neçə dəfə yaxınlaşmaq, qızı, xəstəni danışdırmaq istəmişdi, ancaq ürək eləməmişdi. Dərdlərini təzələməkdən qorxmuşdu. «Yəqin əri yoxdu. Ya ölüb, ya da atıb gedib. Yoxsa həmişə bu uşaq onu dəniz qırağına gətirməzdi». Lakin günlərin birində, sentyabrın ortalarında, qızın əvəzinə dəniz qırağında demək olar ki, bura daimi gəlib-gedənlərin tanıdığı və halına yandığı o qadını ucaboy, enlikürək, son dərəcə səliqəli geyinən, qarabəniz, günəşdə yanmış təsiri bağışlayan sifətindən təmkin oxunan bir kişinin gəzdirdiyini görəndə Gülmirə sevinmişdi. Bu sevinc o qədər böyük olmuşdu ki, elə bil özünə kömək gəlmişdi, simsar tapılmışdı. Səbirlə kolyaskanı gəzdirən, tez-tez qadının dizlərini örtən, gah su, gah

meyvə verən o kişiyə qarşı ürəyində qəribə bir rəğbət hissi də oyanmışdı. «Görünür, yox imiş burda. Hardasa səfərdəymiş. Gəlib. Nə yaxşı ki,□gəldi. Yoxsa o qız çox əziyyət çəkirdi». — deyə düşünmüşdü və bir dəfə hətta az qala yaxınlaşıb soruşmaq istəmişdi ki, bəs indiyəcən haradaydınız, niyə bu bədbəxti tək qoymuşdunuz? Amma yenə cəsarət eləməmişdi. İndi, iki aya yaxın idi ki, Gülmirə hər dəfə dəniz qırağına çıxanda kişini kolyaskanın yanında görüb qəlbində qəribə bir rahatlıq duyurdu. Və bu da qəribə idi ki, istər-istəməz Orxanı xatırlayırdı: «Kaş o da ölməyəydi, beləcə yorğan-döşək bimarı olaydı, heç kəsin danlağına-qınağına baxmazdım, bax beləcə, o kişi kimi, gecə-gündüz qulluğunda durardım.. Bezməzdim, usanmazdım. Təki gözləri mənə baxaydı, təki nəfəsini, hənirtisini duyaydım, səsini eşidəydim». Fikirləri yenə bu məqama çatanda qeyri-iradi olaraq Əqdəm də yadına düşürdü və özünü onun qabağında günahkar, müqəssir sayıb sıxılırdı. Əqdəmin narazı baxışları, kədərli sifəti gözləri qarşısında canlanırdı. Qəribə idi ki, o, xəyal aləmində Orxanla danışa bilirdi, onu əzizləyə bilirdi, hətta bir-birinin vüsalına da qovuşan çağları olurdu. Ancaq o, indiyəcən, Əqdəm öləndən sonra bircə dəfə də onun yuxuda da olsa, səsini eşitməmişdi. Gələrdi hərdən beləcə, narazı-narazı baxıb heç kəlmə də kəsmədən çıxıb gedərdi. Gülmirə həssas qadın ürəyi ilə hiss eləyirdi ki, Əqdəm inciyib ondan, küsüb. Bəlkə onu xəyanətkar hesab eləyir. Belə hallarda Gülmirə, Əqdəmin xəyalına bu sözləri deyirdi: «Məni qınama, Əqdəm. Mənim özümdən asılı deyil, özümlə bacara bilmirəm, Əqdəm. Mən sənin sağlığında sənə xəyanət eləməmişdim. Sən isə şübhələnmişdin. Və bu şübhə də səni məhv elədi. Özün də bədbəxt oldun, mən də. Açığını deyim ki, əgər Orxan səndən qabaq ölməsəydi, və ümumiyyətlə ölməsəydi, mən yenə sənə xəyanət eləməyəcəkdim. Sənin arvadın kimi, sənin adını, kişi ləyaqətini, qoruya-qoruya yaşayacaqdım, Əqdəm. Bilirəm, sən bu sözlərimə inanmazsan. Ancaq həqiqət belədi, Əqdəm. Ola bilərdi ki, onu — Orxanı — sağ qalsaydı — sevəydim. Ancaq yenə səni ona dəyişməzdim. Mənim məhəbbətimin qəribəliyi ondadı ki,

Orxan öləndən sonra doğulub bu məhəbbət. Və bunu heç kəs bilmir. Bir mən özüm bilirəm, bir Orxan «bilir», bir də sən «bilirsən». Əslində ikinizin də mənim ürəyimdən, hisslərimdən xəbəriniz yoxdur, çünki siz artıq cismən yoxsunuz; siz ancaq mənim ürəyimdə, içimdə, yuxularımda, xəyallarımda dirisiniz, yaşayırsınız. Orxan sənin ölümündən sonra rəqibin olub və boynuma alıram ki, onu səndən çox istəyirəm indi. O səndən güclüymüş, o səndən qüdrətliymiş, Əqdəm. Acığına gəlməsin, sən allah. Və yenə xahiş edirəm, məni bu anlaşılmaz hisslərimə görə danlama. Bəlkə də bu məhəbbət indi mənə daha çox lazımdı, Əqdəm. Əgər Orxanın ölümündən sonra anladığım, dərk elədiyim bu məhəbbət olmasaydı, mən ərə də gedə bilərdim — bir il, üç il, beş il sonra, nəhayət, birinin arvadı ola bilərdim. Bunun qarşısını almağa sənin xatirənin, xəyalının bəlkə də gücü çatmazdı. Ancaq Orxanın xatirəsi buna yol verməz, qoymaz. Mən onun xatirəsinə, sənin özündən çox təslim olmuşam. Dərindən düşünsən, bu, sənin xeyrinədir, Əqdəm. Hamı məni sənin arvadın kimi tanıyır, onun arvadı kimi yox. Mən saçımın birini ağ, birini qara hörüb, bir üzü qız, bir üzü gəlin qocalsam, səni tanıyanlar deyəcək: «Bu ağsaçlı qadın Əqdəmin arvadıdı, kişini uca tutdu, ondan sonra heç kəsə ərə getmədi». Ona görəsən bu məhəbbət üçün küsmə, incimə. Orxanın məhəbbəti mənə yaşamaq üçün, işləmək üçün lazımdı, Əqdəm. Bunu mənə çox görmə...»

Gülmirə belə düşünə-düşünə Sakitlə o kişinin şirin-şirin danışdığını görür, Sakitin onu tanıdığına sevinirdi. Ondan o qadın, o qız, o kişi haqda soruşmaq mümkün olacaqdı. Sakit nəhayət, o, kişi ilə xudahafizləşib ayrılanda və evə tərəf getmək istəyəndə, Gülmirə də qalxdı; Sakit onu görüb ayaq saxladı, salamlaşdılar. Yanaşı yeriyir, söhbət edirdilər.

— Bayaqdan gözüm sizdədi. O kişi ilə danışırdın. Sən onu tanıyırsan? Kimdi ki, o? Mən bu kolyaskadakı qadına çoxdan göz qoyurdum. Qızı gəzdirirdi həmişə. İndi bu kişi peyda olub. Əridi onun?

Sakit gülümsünərək:

— Yox, Gülmirə, əri deyil, — dedi.

— Əri deyil? Onda qardaşıdı?

— Yox, qardaşı da deyil.

Gülmirənin marağı daha da artdı. Sakit isə Əsədin, o qadının başına gələnləri müxtəsərcə Gülmirəyə nağıl etdikdən sonra xeyli susub ürəyində götür-qoy elədi. Elə bil bir hekayət idi, şirin bir dastan idi. O, iki dəfə qanrılıb arxada, xəstəyə su içirən kişiyə baxdı və:

— Çox maraqlıdı, Sakit. Mən deyərdim, lap qəribədi. Xoşum gəlir belə sabitqədəm, mərd, fədakar adamlardan. Məhz belələri insanı düşündürür, həyata bağlayır, yaşamağı, təmiz və mərd olmağı öyrədir, — dedi.

— Hə, düz deyirsən, Gülmirə. Həyat başdan-başa ibrət dərsləri ilə doludur.

— Bəs niyə yazmırsan bunu?.

— Yazıram, Gülmirə. Qurtarmaq üzrə olduğum romanın bir qolu da elə bu əhvalatdır.

— Nə yaxşı, nə yaxşı!... Haçan qurtarırsan inşallah?

— Bir-iki həftəyə. Bu il çıxmalıdı. Sağlıq olsun...

— Sağlıq olsun... Sən yaxşı eləyirsən, həyatın özünü yazırsan, həyatın özündən isə böyük kitab yoxdur, məncə. Danış da, mənə. Görüm nədəndi təzə romanın.

— Düzü, danışmaqdan qorxuram. Danışanda, nə isə, ürəyim boşalır, bu isə yazının keyfiyyətinə pis təsir eləyir. İkinçisi, danışsam, kitab çıxanda oxumayacaqsan; mən isə bir oxucu itirmək istəmirəm. Sənin xətrinə təkcə epiqrafını deyə bilərəm,

— De, Sakit. Sən epiqraf verməyi xoşlayırsan kitablarında. Ağıllı, oxucu epiqrafdan əsərin əsas mənasını anlaya bilir.

— Elədir, Gülmirə. Bu kitabıma belə bir epiqraf yazmışam: «Bu kitabı dönüklərin, etibarsızların, şəxsiyyətsiz «şəxsiyyətlərin», yaltaqların, stol-vəzifə düşgünlərinin, yalnız özü üçün yaşayanların, nəhayət, vicdansızların oxumasını məsləhət görmürəm — utana bilərlər.

— Yaxşıdı, çox yaxşıdı, Sakit. Ancaq... qorxuram çox adam

qorxusundan oxumasın sənin kitabını, Sakit. Bilirsən...

Sakit güldü:

— Səni başa düşürəm. Ancaq elə deyil, Gülmirə. Sən heç indiyəcən görmüsən ki, bir şəxsiyyətsiz, yaltaq, yaxud vicdansız adam öz şəxsiyyətsizliyini, yaltaqlığını, vicdansızlığını açıq-aşkar boynuna alsın? Görmüsən?

— Yox.

— Hə, bax, ona görə qadağan elədiyimə baxmayaraq, o cür adamların hamısı iç üzlərini gizləmək xatirinə bu kitabı oxuyacaqlar, Gülmirə. Oxuyacaqlar və çoxu da özünü tanıyacaq.

— Hə. Tanıyacaqlar və təəccüblənəcəklər. Qəzəblənən də olacaq, sevinən də.

## DOQQUZUNCU FƏSİL

Regina Samirlə görüşüb Ceyhunun faciəli şəkildə öldürüldüyünü öyrənəndən sonra bir neçə müddət özünə gələ bilməmişdi. Hara getmişdi, neyləmişdi, kiminlə tanış olub, oturub durmuşdusa da, Ceyhun gözlərinin qabağından çəkilməmişdi. Səsini eşitmişdi, nəfəsini duymuşdu. Bu, əlbəttə, sevgi deyildi, sadəcə olaraq, yaxşı bir oğlan üçün gənc, gözəl bir qadının çəkdiyi xiffət ola bilərdi uzaq başı. Daha zəng eləməkdən, «Ceyran» restoranı tərəflərdə hərlənməkdən əl çəkmişdi. Nə mənası var idi ki!. Günlər ötüb-keçdikcə, iş-güc, güzəran, atasız uşağı böyütmək qayğısı başını qatdığından Ceyhun həsrəti, Ceyhun xiffəti də öləziyib sönmüşdü. İndi hərdən-birdən, o da Salehin «yoxa» çıxmasının səbəblərini araşdıranda, istər-istəməz Ceyhunu da xatırlayırdı və o cavanın ölümünə yüngülcə köks ötürməklə təəssüflənirdi.

Samirlə söhbət eləyərkən ürəyinə dammış fikir isə beynindən çıxmırdı: Ceyhunu Saleh öldürüb! Blokda dayanan, onu görən kimi üzünü yana çevirən mütləq Saleh imiş!. Qısqanıb öldürüb. Bəs sonra niyə Reginanın yanına gəlməyib? Bəs niyə onunla «haqq-hesab» çürütməyib — Bax, bu məsələ indi də onu düşündürürdü. «Ola bilsin məndən etibarsız bir qadın kimi küsüb, üz

döndərib. Məni görməyə daha gözü yoxdu. Yaxud başqa bir qadın tapıb, başı qarışıb, mən yaddan çıxmışam. Ola bilər. Saşadan hər şey gözləmək mümkündür. Yox, o, sadəcə olaraq, ona görə yanıma gəlmir ki, mən onun gözlərinə baxan kimi biləcəyəm Ceyhunu o öldürüb ya yox. Özü də söz saxlayan deyil: mənim o uşağa bəslədiyim yaxşı münasibəti bilirdi Saşa. Ona görə, məni yandırmaq, qorxuzmaq üçün özü hər şeyi açıb deyərdi mənə. Hə, bax, buna görə gəlmir!»

Bu gün nədənsə bütün günü ürəyində Saleh dolanmışdı. Uşaq bağçasından, isti otaqda körpələrə «Şiroka strana moya rodnaya» mahnısını öyrədəndə də, sonra evdə təzə qonağı ilə yeyib içəndə də, bir az əvvəl qızını yatağına salıb yatıranda da Saleh haqqında düşünmüşdü. İndi tərtəmiz silinib süpürülmüş mətbəxdə əyləşib ağ müşəmbəli stolun üstünə tökdüyü pullarını sayanda da, yenə qəribə idi ki, Saleh gözlərinin qabağından çəkilib getmirdi. Gələcək. Ürəyinə damıb ki, gələcək. Və canı bu fikirdən üşüyən kimi olurdu. Onu unutmaq üçün pulları — beşlikləri, onluqları, iyirmibeşlikləri (əllilik yox idi pulların arasında) təzədən saymağa başladı və fikrində hesabladı ki, rəngli televizor almaq üçün düz yüz yetmiş beş manatı çatmır. Antenası, gətirmək haqqı, usta pulunu da sayıb müəyyən etdi ki, üstəlik hələ ən azı yüz-manat da lazımdı. «İki yüz yetmiş beş manat» məsələsi onun pulları görərkən duyduğu sevincin üstünə su çilədi və ayın axırına qədər rəngli televizor ala bilməyəcəyinə qəti inanıb məyus oldu. Pulları büküb yataq otağında gizlədi. Trümonun yanındakı fransız ətrindən barmağının ucunda qulaqlarının dibinə, boyun-boğazına sürtüb işığı keçrmək istəyəndə... qapının zəngi çalındı. Divar saatına baxdı — saat on birin yarısı idi. Bu vaxt kim ola? Hiss elədi ki, çox yorğundu. Heç kəsi qəbul edəcək halda deyil. Yatmaq istəyir, yuxu gözündən tökülürdü. «Açmayacağam!» — dedi öz-özünə. Ancaq zəng ikinci dəfə çalınanda maraq güc gəldi, xalatını çarpayının başından götürüb geyindi və ayaqyalın qapıya sarı gəldi. «Gözcükdən» baxıb kandarda dayananın Saleh olduğunu görüncə «sənə demədim gələcək?. Ürəyimə daman başıma gəlir həmişə!» —

deyə düşündü. Bir anlığa «açım, açmayım?» sualına cavab axtardı, bu iki söz arasında çırpındı. O, qəti qərara gəlməmiş Saleh çöldən yavaşca səsləndi — Mənəm, Regina, aç qapını.

Neçə illər ərzində zəhmli-zabitəli Salehin müti quluna dönmüş, çox vaxt istəməyə-istəməyə onun hər sözünü yerinə yetirməyə adət etmiş Regina qeyri-iradi cəftəni çəkdi. Saleh içəri girdi. Əynində layka plaş vardı. Həmişəki kimi başı açıq idi. Regina birinci, onun gözlərinə baxdı. Gözləri qızarmışdı. O dəqiqə başa düşdü ki, içib Saleh. İçmiş adamın isə gözlərini oxumaq çətindi. Ancaq ürəyini oxumaq olur — araq ən gizli sirləri belə açıb ortalığa tökməyə kömək edir.

Regina geri çəkildi. Keçib mətbəxə getdi. Saleh plaşını, ayaqqabısını çıxarıb dalınca gəldi. Reginanın qarşısında dayanaraq düz gözlərinin içinə baxmağa başladı. Bu baxışların mənasını o yaxşı bilirdi. Onun xəyanət edib-etmədiyini yoxlamaq istəyirdi. Amma hər dəfə də necə deyərlər, əli boşa çıxırdı. Regina elə qadın deyildi ki, elədikləri gözlərinə yazılsın. Və Saleh, hardasa, qəlbinin dərinliklərində çoxdan onun xəyanətkar qadın olduğuna inansa da, bu adətindən əl götürə bilmirdi. Ümumiyyətlə ondan ayrıla bilmirdi. Regina düz fikirləşmişdi: Saleh ondan küsmüşdü, incimişdi — çünki o, Salehin dostu hesab olunan Ceyhunla gizlində görüşmüşdü. Ceyhunu o, öz cəzasına çatdırmışdı, ancaq Reginanın yanına beyni, ürəyi isti-isti gəlməkdən zorla özünü saxlamışdı. Gəlsəydi, Reginanın da vəziyyəti pis ola bilərdi; öldürə bilərdi, vurub şikəst edə bilərdi. Bunu isə o, istəmirdi. Bu, eyni zamanda, Ceyhunun qatilinin Saleh olduğunu sübuta yetirərdi ki, bundan da yaxa qurtarmaq mümkün olmazdı. Saleh indiyə qədər bura — Reginanın yanına gəlməməkdə həm çox istədiyi, zəhləsi getsə də, ayrıla bilmədiyi qadını qorumuşdu, həm də hamıdan çox istədiyi canını qorumuşdu. Salehin özü üçün də çox dəhşətli olan o gündən doqquz aydan çox keçirdi. Bu müddəti o, səksəkə içində yaşamışdı. Hər çıqqıltıdan, hər zəng səsindən, hər qəribə baxışdan sarısını udmuş, ölüb-dirilmişdi. Yaşına yaraşmayan bir ustalıqla, Ceyhunun yas mərasimində axıra qədər iştirak

etmişdi, ağlaya-ağlaya «Ceyhun ölməli oğlan deyildi» — deyərək atasına-anasına təsəlli də vermişdi. İşi təhqiq edən mayor Hacı Əliyevin üç-dörd dəfə sorğularına da təmkinlə cavab vermişdi, şübhə doğuran bir hərəkətə yol verməmişdi. Sonra isə... özünü bir restorana salaraq bir az əvvəl qabağında ağladığı, vaysındığı Salmanın, Nadirənin pullarına yaxşıca yeyib-içmişdi. Samirə də tez-tez qonaqlıq vermişdi—onun da yanında ilk sözü də, son sözü də Ceyhun olmuşdu. Akademik Əlişir, oğlunun bu hala düşməyini Ceyhunun ölümündən bərk sarsıldığı ilə izah edirdi. Ata-bala gec-gec görüşsələr də onlar ayrı yaşayırdılar — Əlişir öz üçüncü arvadı ilə, Saleh isə tək yaşayırdı — Salehin ruhi vəziyyəti Əlişirə aydın idi və o, Salmanla, Nadirə xanımla hər dəfə görüşəndə oğlunun Ceyhunun ölümündən yana çox pis günə düşdüyünü gizli bir fəxrlə danışırdı.

— Hə, onlar yaxşı dost imişlər, indi olmasın. Samir də, Saleh də Ceyhunu çox istəyirmişlər, — deyə Salman kövrələ-kövrələ cavab verirdi. İndi Saleh Reginanın qənşərində dayanmış-dı. Regina əlini üzünə söykəyib altdan-yuxarı ona tamaşa eləyirdi.

— Ayaq üstə çox dayanacaqsan? Otur da, görək nə var, nə yox? Hardasan bu neçə ayı, niyə gəlmirsən, görünmürsən? — deyə nəhayət, qadın yorğun-yorğun dillənəndə Saleh elə bil yuxudan ayıldı. Ona baxıb gülümsündü:

— Hə, doğrudan ha, — deyərək əyləşdi.

— Aclığın var?

— Yox. Amma ciyərim yanır, bir stəkan çay versən... savab iş görmüş olarsan.

Regina armudu stəkanda ona çay süzdü.

— Yenə içmisən, hə?..

Saleh əlini üzünə çəkib gözlərini geniş açaraq Reginaya baxdı:

— Guya sən içməmisən?.

— Mən içmişəm. Tək darıxdım. Bir az konyakım vardı, içdim.

Saleh isti çaydan bir qurtum alıb:

— Yəni deyirsən lap tək içmisən? — deyə qımışa-qımışa soruşdu.

— Hə, lap tək. Bəs sən kimnən içmisən? Yəqin dostlarınla, hə?

— Dostlarım kimdi?..

—Yəqin Samirnən, Ceyhunnan, eləmi?.. — Regina bu sözləri deyərkən Salehin qırmızı gözlərinin içinə nəzər yetirdi, Salehin bəbəkləri qaçdı bir anlığa.

— Yoox... — Ani sükutdan sonra: — Bəs sən bilmirsən, Ceyhunu öldürüblər, Regina?!

Regina təəccüblə, nazik, qələmlə çəkilmiş qaşlarını qaldırdı:

— Yox a?. — Saleh tam ayıq olsaydı, bu «yox a»... nidasının çox süni səsləndiyini sezərdi, ancaq indi o halda deyildi.

— Hə. Öldürüblər.

— Niyə? Nəyin üstündə, Saşa?

— Oğrular giriblər evə, qarət ediblər, özünü də öldürüblər.

Qəribə idi ki, bu adi söhbət əsnasında ikisi də bir-birini sınayırdı. Hər ikisi işin nə yerdə olduğunu çox gözəl bilə-bilə zahirdə bir söz deyir, batində ayrı cür düşünürdü.

Regina ürəyində: «Yalan deyirsən gözünün içinəcən, qatil. Oğru-zad söhbəti, yalandı. Onu sən... mən onun yanından çıxandan sonra öldürmüsən. Bəli, sən öldürmüsən. Bunu sənin nigaran, səksəkəli gözlərin də təsdiq edir. Onun qatili sənsən. Mən təəccüb edirəm ki, necə olub səni indiyə qədər tutmayıblar!. Məni öldürməyə?.. Yox, sən mənə əl qaldırmazsan... Amma... o qonşu binanın blokunda duran sən idin, eləmi?. Məni görürdün, eləmi?. Mən, çıxan kimi gedib onu öldürdün, eləmi?» — deyə fikirləşirdi və bütün bu sualları onun özündən soruşmaq istəyini güclə boğurdu içərisində.

Saleh adəti üzrə, qapıdan girən kimi Reginanı öpərdi. Bu dəfə, uzun müddət görüşmədiklərinə baxmayaraq, onu öpmədi. Hələ heç əlini də vurmayıb ona. Saçlarını sığallamayıb da. Bütün bunlar Reginaya çox şey deyirdi. İlk həyəcanlı anlar keçib getdikdən sonra o, bunun mənasını yaxşı dərk edirdi: Reginanın

xəyanətini yəqin bilir. Oğlan isə düşünürdü: «Gör necə artistlik eləyir? Guya Ceyhunun ölümündən xəbərsizdi. Guya sənə Samir deməyib? «Yox a!». Xəyanətkar». Bu an elə bil Regina onun ürəyini oxudu:

— A, yadıma düşdü... Samir mənə demişdi.

— Hə, demişdi. — Sonra birdən ciddiləşdi Saleh — Bura bax!.. Sənə min dəfə demişəm, mənim yanımda artistlik eləməyəsən. Mən hər şeyi bilirəm, Regina. Düzünü bilmək istəyirsənsə, Ceyhunu mən öldürmüşəm. Sənin üstündə. Bildin! Əgər bir yerdə ağzından qaçırsan, sənin hər tikəni qulağın boyda eləyərəm. Eşidirsən?.. Yox, eşidirsən?...

Reginanın rəngi ağardı:

— Eşidirəm. Mən heç nə bilmirəm, heç nə görməmişəm.

— Hə, bax, belə. Amma mən çox şey bilirəm, çox şey görmüşəm.

— Nə, məsələn?

— Məsələn onu ki, sən özün getdin onun yanına. İki saatdan çox qaldın orada. Çıxanda mən... qonşu evin blokunda idim.

— Məni görən kimi üzünü yana çevirdin, eləmi?

— Hə.

— Bəs niyə gəlib məni öldürmədin?

— Səni sonra öldürəcəkdim. Ondan sonra...

— Bəs sonra niyə yoxa çıxdın, gəlmədin?..

— İndi gəlmisən məni öldürməyə?.

Saleh çayını içə-içə:

— Yox... səndən sarı darıxmışam, ona görə gəlmişəm, Regina. — dedi — Səni öldürməyə ürəyim gəlmədi. Səni mən... Nə isə özüm də baş açmıram — çox istəyirəm.

Regina başını silkələdi, açıq sarı saçları kürəyində titrədi.

— İnanmıram. Adam öldürən insanın ürəyində məhəbbət ola bilməz, Saşa. Sən məni sevmirsən, sevə də bilməzsən; sən mənimlə əylənirsən, mən sənə bir qadın kimi lazımam. Çünki sən bilirsən mənim həyatımı — sən bilirsən ki, mən tək sənin deyiləm. Təkcə sənin olmağım üçün əvvəllər yenə hardasa imkan var-

dı — ərimdən ayrılan kimi. Onda sən mənə əyləncə kimi baxdın, yadına düşəndən-düşənə gəldin yanıma. Arada çox boşluq oldu və o boşluğu özgə, tanımadığım, bilmədiyim adamlar doldurdu. Mən əldən-ələ keçdim, üzüm üzlər gördü. Və bunu sən yaxşı bilirsən. Əvvəllər gizləməyə çalışırdım, amma indi yox. Mənasızdı, Saşa. Ümumiyyətlə mənim həyatım mənasızdı və özüm-özümə nifrət edirəm—çünki özüm günahkaram. Sizin bir yaxşı məsəliniz var, sanki mənə aiddi: «Özü yıxılan ağlamaz». Mən ərimi özüm qaçırtdım evdən. Sonra isə peşman oldum. O da məğrur çıxdı, qayıtmadı. Açığını deyim ki, sənə indi nifrət eləyirəm — sevməmişəm səni heç vaxt, bilirsən. Amma, sən Ceyhunu öldürəndən sonra bu nifrətim qat-qat çoxalıb... O oğlan hardasa ürəyimcə idi, sevinirdim onu görəndə; bu, mənim həyatımı bir az yüngülləşdirirdi. Sənin kimi kobud, qaba deyildi o oğlan. Ancaq onu da mənə çox gördün, əlimdən aldın. Mən bilirəm, o da axıra qədər mənim olmayacaqdı. Haçansa məndən doyacaq, bezəcəkdi, evlənəcəkdi. Hər halda mən bir müddət könül xoşluğu ilə yaşayacaqdım. İndi yaxşı adam tapmaq çətindi, Saşa. Bağışla ki, səninlə belə sərt və açıq danışıram. Mən indi səndən qorxmuram. Elə başa düşmə ki, yanımda sirrin olduğu üçün qorxmuram, yox. Mən satqın deyiləm. Mən elə adam olsaydım, indi sən həbsxanada idin, bəlkə də sağ deyildin. Ceyhuna çox-çox heyfim gəlsə də, səni satmaq fikrində deyiləm. Onsuz da o getdi, daha geri qayıtmayacaq. Sən tutulsan da, tutulmasan da, fərqi yoxdu, ömrün boyu əzab içində yaşayacaqsan, əgər ürəyin varsa. Yoxsa... elə belə yaşayacaqsan. Ancaq mən inanıram ki, heç bir pis əməl cəzasız qalmır həyatda. İnanıram ki, qan heç vaxt batmır, Saşa... Mən ölü, sən qalı. Ceyhunun qanı yerdə qalmayacaq... Bunu da bilirəm ki, onun ölümündə mənim böyük günahım var. Mən bu gün də olmasa, sabah bu cəzanı görəcəyəm, çəkəcəyəm. Bu, məni hər dəqiqə narahat edir. Səni görəndə isə çox pis hala düşürəm. Çalış, mənim gözümə daha görünmə, yanıma gəlib məni narahat eləmə, güdmə məni. Mən sənin arvadın deyiləm ki!... Qoy özüm bildiyim, istədiyim kimi yaşayım. Sən də azad adamsan — istədiyin kimi yaşa. Sənin yeri-

nə olsam, bu cür hərcayi həyatdan əl çəkərəm, gedib evlənərəm, başımı salaram aşağı, sakit ömür sürərəm. Buna sənin hər cür imkanın var. Saşa. Atan adlı-sanlı adamdı, pulun həmişə var, evin var. Yaşamaq üçün daha nə lazımdı ki?..

Saleh damağında siqaret Reginanı dinləyirdi. Qəribə idi ki, o, indiyəcən heç vaxt onu belə çox danışan görməmişdi. Elə bil, bu doqquz ay ərzində qadın tamam dəyişmişdi, ayrı adam olmuşdu. Həmişə gözüqıpıq olan, qorxan Regina, indi onun gözünün içinə «səndən qorxmuram!» — deyirdi. Ceyhunu ondan üstün tutduğunu söyləyirdi, ona məsləhətlər verirdi. Başı dumanlı olsa da, anlayırdı ki, Regina onun təxminən fikirlərini düz oxuyur; bu düşüncələr zaman-zaman Salehin ürəyində də baş qaldırırdı; ancaq bu cür aydın şəkildə yox. Demək, Regina ona nifrət eləyir, onu görmək istəmir — çünki Saleh onun xoşuna gələn oğlanı öldürüb. Gərək heç gəlməyəydi. Ceyhunu öldürdüyünü etiraf etməyəydi. Özünü danlayırdı, ancaq gec idi. Birdən satdı Salehi? Yox, satmaz. Özü də gedə bilər — bu qorxu onun ağzını bağlayacaq həmişə. Demək, Saleh artıq adamdı onun üçün. Ürəyə zor ola bilməz... Bu həqiqət onu üşütdü. Saleh büzüşdü yerində.

— Üşüyürsən? Çay verim?

— Çaydan kar aşmaz, Regina. İçmək istəyirəm, — deyib ayağa qalxdı və cibindən bir dənə beşulduz «konyak» çıxardıb stolun üstünə qoydu. Regina şüşəyə baxıb heç qımıldanmadı da. Saleh əl uzadıb iki dənə stəkan götürdü. Şüşəni açıb stəkanları yarıyacan doldurdu. Birini Reginanın qabağına itələdi.

— Mən içmirəm, Saşa!..

— Mən belə başa düşdüm ki, bu bizim axırıncı görüşümüzdü, Regina. Sən tamam dəyişmisən. Sən tamam başqa olmusan. Düzü, inanmasan da, mən səni çox istəyirəm, Regina. Ayrılmaq, səni itirmək istəmirəm. Sən dərindən fikirləşsəydin, məni öpərdin, bağrına basardın — çünki mən sənin üstündə əllərimi qana batırmışam, günah sahibi olmuşam və ömrüm boyu bu əzab içində yaşamağa məcbur olmuşam. Sən bunu başa düşmədin, qiymətləndirmədin. İndi sən mənə nifrət eləyirsən, məni qovursan. Mən bu

həqiqəti artıq anlamışam ki, zorla qadına sahib olmaq olar, ancaq zorla onun ürəyinə girib orada qalmaq olmaz... Mən təəssüf edirəm ki, sən mənim qədrimi bilmədin — mən səni hamıdan, yad gözlərdən qorumaq istəyirdim, mən səni heç kəsə vermək istəmirdim. Ancaq, düz deyirsən, bacarmadım bunu. Götür içək, bu bizim son gecəmizdi, Regina. Xahiş edirəm, bu gün mənimlə kəmiltifat olma. Bu gecə məni qovma yanından. Kim bilir səhər başıma nələr gələcək.

Və sonra əlini stəkandan çəkib cibinə saldı, bir dəstə pul çıxarıb arasından beş dənə göy yüzlük atdı Reginanın qabağına və qəmli-qəmli gülümsünərək:

— Azdısa, yenə verim? — dedi.

—…

— Deyəsən azdı. Götür, — deyərək üç dənə də əllilik ayırdı. — Götür, Regina.

Regina pullara gözünün ucu ilə baxmadan:

— Bir gecə üçün çox deyilmi, Saşa! — söylədi.

— Bu, bir gecənin pulu deyil, bu, son gecənin puludu və bundan sonra olmayacaq bütün gecələrin puludu, Regina.

Regina ona baxa-baxa rəngli televizor haqqında düşünürdü. Rəngli televizor fikrində artıq evdəydi, qurulmuşdu, göstərirdi. O, hətta səsini də eşidirdi. Qızının arzusu, özünün arzusu yerinə yetmişdi. Və o, eyni zamanda fikirləşirdi ki, bu pullar Ceyhunun atasının-anasının pullarıdı; Mən elə hesab eləyərəm ki, bu televizoru mənim üçün Ceyhun alıb. Yox, Ceyhun bəlkə də bu qədər pul verməzdi.

— Götür, Regina. Götür, içək; bu gün mənim ən kədərli günümdür.

Regina əlini stəkana uzatdı. Yenə Salehin qızarmış gözlərinə baxdı. Doğrudan da o gözlərdə qəribə, indiyə qədər görmədiyi bir kədər vardı. Yazığı gəldi ona Reginanın. Bayaq dediyi sözlərə peşman oldu. Özünü danlayırdı ki, birdən Salehin səsini eşitdi:

— Ah, az qala yadımdan çıxmışdı.

—Nə?

O, pencəyinin döş cibindən kağıza bükülü bir şey çıxartdı, kağızı açıb qaşı par-par parıldayan üzüyü ona göstərdi, sonra Reginanın kiçik, ağ əlini əlinə alıb sadə, nazik nişan üzüyünü barmağından çıxarıb yerinə onu taxdı.

— Hə, necədi, xoşuna gəlir?

Reginanın dodaqları qaçdı — brilyantın şoxu sanki onun sifətini işıqlandırdı, yorğunluğunu silib yox elədi.

— Gözəldi, Saşa. Çox sağ ol!

Bu zaman... Saleh yerindən qalxıb onu qucağına aldı, dizləri üstə oturtdu və dodaqlarından, boyun-boğazından öpməyə başladı. Regina da onu öpürdü və pıçıltılı səsi eşidilirdi:

— Bağışla, əzizim. Xətrinə dəydim... Mənim sözlərimə fikir vermə. Bağışlayırsan məni?..

Nəfəsi təntimiş Saleh başını tərpətdi:

— Hə!

## ONUNCU FƏSİL

«O qız deyəsən səni yaman əfsunlayıb ha!» — Samirənin o vaxt, neçə ay bundan qabaq Şərifə haqqında söylədiyi bu sözlər Mürşüdün yadından heç cür çıxmırdı. Mürşüd elə o zaman, anası ilə danışarkən birdən-birə başa düşmüşdü ki, Şərifəyə biganə deyil. Bu hissindən uzun müddət utanmışdı. Bilirdi ki, cavan da olsa, qəşəng də olsa, əri var, uşağı var; ərini də tanıyırdı. Universitetdə iki kurs ondan yuxarı oxumuşdu oğlan. Buna görə, o deyib-gülməyi xoşlayan, açıq-saçıq danışmaqdan çəkinməyən Şərifəyə başqa gözlə baxmağı qətiyyən istəmirdi. Ancaq günlər, həftələr keçdikcə Mürşüd özü də bilmədən ona bağlanırdı. Qəribə idi ki, qız da onun xətrini çox istəyirdi. Başqalarına nisbətən ona daha yaxın idi və bunu hiss elətdirməyə çalışırdı başqalarına. Mürşüd bilmirdi, başa düşmürdü ki, bunu o, ürəyinin tələbinə görə eləyir,

yaxud ona çox böyük hörmət bəsləyən direktorun oğlu olduğuna görə! Əlbəttə, Mürşüd atasının Şərifəni başqalarından uca tutduğunu aydınca görürdü, hiss eləyirdi — uşaq deyildi ki? Lakin bu hörmətin altında gizlənən məna ona çatmırdı. O, sadəcə olaraq, Şərifənin ərinə olunan bir hörmət kimi başa düşürdü bunu. Digər tərəfdən, Şərifə ilə direktor arasında yaranmış xüsusi münasibət barədə institut divarları arasında, ələlxüsus qadınlar içində gəzən «pıçapıçları» o eşitməmişdi — çünki heç kəs ürək eləyib bunu ona deməmişdi. Hər necə olsa direktorun qulağına çatsaydı, bunu dilə gətirən adam gərək elə o gün kitab-dəftərini yığışdıraydı, özünə başqa yerdə iş axtarmaq qayğısına qalaydı. Bunu isə heç kəs istəmirdi. «Hər kəs özünə cavabdehdi, kim nə eləyir özü bilər» — fikrinə bu məsələdə xüsusilə riayət olunurdu kollektiv arasında. Təbiidir ki, belə bir şəraitdə Mürşüd atası ilə Şərifənin münasibətindən xəbərsiz idi. Başqa cür düşünməyə isə onun əsası yox idi. Buna görə də, Mürşüd yavaş-yavaş, özü də hiss eləmədən Şərifəyə bir gözəl qadın kimi maraq göstərməyə başlamışdı. Bu maraq getdikcə güclənirdi və iş o yerə gəlib çatmışdı ki, bunu qadın özü də hiss eləmişdi. O bunu hiss eləyən an Mürşüd uşaq kimi qorxmuşdu — Şərifə ona çay verəndə... Mürşüd qeyri-iradi olaraq əlini onun kiçik və yumşaq əlinin üstünə qoymuşdu. Və gözləmişdi ki, indicə qadın əlini onun əlindən qoparıb üzünə taraz bir şillə çəkəcək. Ancaq bu, olmamışdı. Şərifə əlini tərpətmədən uzun kirpikli qara gözlərini dolandırıb Mürşüdün utancaq və qorxu içində pörtmüş sifətinə, qonur gözlərinə baxıb qəribə bir məsumluqla gülümsünmüşdü. Və sonra — Mürşüd üçün ən maraqlısı bu idi — Şərifə ondan qaçmamışdı, uzaqlaşmamışdı. Mürşüdün fikrincə, bundan sonra o, qaçmalıydı ondan. Lakin əksinə olmuşdu — Şərifə onunla daha tez-tez və daha mehriban danışmağa başlamışdı. Aydındı ki, bu, oğlanı hədsiz dərəcədə sevindirmişdi. Onu dəhlizdə, şöbədə, kitabxanada görəndə bəxtiyar olurdu, elə bil hava təmizlənirdi, elə bil hər yan Şərifənin vurduğu o qəribə ətrin qoxusu ilə dolub gözəlləşir, baharlaşırdı. Mürşüd o vaxt atasına demişdi ki, institutdan getmək istəyir. Bu onun qəti fikri idi

və əgər atası o cür işləməkdə davam edərsə, hökmən gedəcəyini qərara almışdı. Ancaq sonralar onun bu qərarını Şərifə dəyişdirdi — düzdü, aralarında açıq söhbət olmamışdı. Şərifə ona heç nə deməmişdi. Sadəcə, Mürşüd onu qoyub getmək fikrini başından çıxarmışdı. Şərifə ilə bir yerdə işləmək onun üçün xoş idi, şirin idi, maraqlı idi. Odur ki, daha Mürşüd bu barədə düşünmürdü — atasının hərəkətlərinə də o qədər fikir vermirdi: «Özü bilər. Mən neyləyə bilərəm!» Atası da son vaxtlar oğlunun hərəkətlərinə göz qoyurdu. O, səliqəli geyinirdi, üzünü hər gün qırxırdı, ən başlıcası isə, əvvəlki kimi, işə nə vaxt istəyirdisə onda getmirdi. İndi hər gün atasından qabaq qalxır, yeyib-içir, işinə yollanırdı. Atasının dalınca gələn qara «Volqa»ya minməzdi. Samirə qadın sövqi-təbiisilə başa düşürdü ki, oğlunun ürəyində sevda yaranıb; ona heç kəs deməsə də bilmrdi ki, bu sevda o Şərifə deyilən gəlinlə əlaqədardır. Və ürəyinə axıb dolan bu deyilməmiş hiss nə üçünsə, Samirə xanımı fəhərləndirirdi. «Əgər, o naməlum qadının telefonda dediyi sözlər həqiqətdisə, onda Nurəddinin ağzı boşa çıxar, əli quru yerdə qalar. Əlbəttə, o kimdisə, gül kimi cavan oğlanı qoyub Nurəddin kimi qoca ilə oturub durmaz ki?!» — deyə özünə təsəlli verirdi, toxtadırdı qəlbini. Uzaqgörən qadın olmadığından və kişi-qadın münasibətlərindəi ən primitiv şəkildə xəbərdar olduğu üçün, o, bu işin sonrasını, aqibətini qətiyyən təsəvvür eləyə bilmirdi. Təsəvvür eləyə bilmirdi ki, əgər deyilənlər düz olarsa, bu məsələ üstündə ata ilə oğul arasında daha biabırçı bir münaqişə meydana çıxa bilər. Samirə xanımı indilik, ancaq öz əri düşündürürdü. Əlbəttə, Mürşüdün nə anasının, nə də atasının ürəyindən xəbəri yox idi. Heç bilmək də istəmirdi.

Günlərin birində Nurəddin xəstələndi. Bir həftəyə qədər işə çıxmadı. Bu, onun direktorluğu müddətində ilk xəstəliyi idi və qəribə idi ki, institutun işçiləri onun xəstələndiyini, artıq iki gündü işə çıxmadığını biləndə təəssüflənmək əvəzinə, sevinmişdi. Beş gün, on gün camaatın qulağı dinc olacaqdı. Təhqir edilən olmayacaqdı. İdarəyə qorxa-qorxa gələn, qorxu içində işləyən olmayacaqdı, axşam başı salamat, qanı qaralmamış evə gedənlərin sayı

çoxalacaqdı. Maraqlı idi ki, bu hissini heç kəs gizləmirdi, açıq-aşkar dilinə gətirən yox idisə də, gizləməyə çalışan da yox idi. Hətta buna Şərifə də sevinirdi. Bütün bu sevincləri Mürşüd də görürdü, duyurdu və ağıllı bir oğlan kimi düşünürdü ki, gör kişi özünü nə günə qoyub, naxoşlamağına sevinir camaat. Bu, onun bir direktor kimi, bir insan kimi məğlubiyyəti deyildimi? Camaatın sevinci nə qədər qəlbini ağrıtsa da, Şərifənin sevinməyi onu bir o qədər məst eləmişdi. Zahirdə Mürşüdə elə gəlirdi ki, Şərifə Nurəddini çox istəyirdi. Və bu, son vaxtlar Mürşüdü yaman qıcıqlandırırdı; Şərifə atasının üzünə güləndə, onunla şirin-şirin danışanda, ikinci kabinetə girib bir az gec çıxanda oğlanın nədənsə ürəyi qısılırdı, gözlənilmədən kədər seli axıb içərisinə dolur, əlini işdən soyudurdu. Lakin kişinin xəstələndiyini Mürşüd Şərifəyə söyləyəndə ümidlə onun gözlərinin içinə baxdı ki, kədərləndiyini görəcək. Şərifə isə, Mürşüdün gözlədiyinin əksinə olaraq, bu xəbəri çox soyuqqanlılıqla qarşıladı.

— Qoca kişidi də. Bu yaşda elə şeylər tez-tez olar, — dedi.

Mürşüd bu sözlərdən ürəyində duyduğu fərəhi gizləməyə, çlışaraq zarafat eləmək istədi:

— Qocadı? Üzünə deyə bilərsən?

— Niyə demirəm? Ondan qorxmuram ki? O gün hesab eləmişəm, mənim atamdan sənin atan düz on bir yaş böyükdü, qocadı. Yoxsa etiraz eləmək istəyirsən, hə?

— Yox, yox. Həqiqətə etiraz eləmək axmaqlıqdı. Ancaq məni bir şey maraqlandırır: bu institutda böyükdən kiçiyə ondan qorxur. Sən niyə qorxmursan — bunu başa düşə bilmirəm.

Şərifə yumşaq kresloda yayxanıb ucadan güldü:

— Mən heç kəsdən qorxmuram, Mürşüd. Sənin atandan heç qorxmuram!..

— O niyə?

— Ona görə ki... Ona görə ki... Sənin atanın məndən xoşu gəlir.

— Hə?

— Hə. Necə, inanmırsan?

— Yox, niyə ki?.. Sən gözəl qadınsan, hamının səndən xoşu gələ bilər.

— Sənin atanın isə xüsusilə, Mürşüd.

Mürşüd fikrə getdi. Doğrudan Şərifə həddən artıq açıq-saçıq danışan imiş. Hiss eləmişdi, ancaq bu dərəcədə yox.

— Bu əsas məsələ deyil. Əsas məsələ budur ki, sənin kimdən xoşun gəlir!

— Mənim? Mənim — ərimdən.

— Ərindən sonra?

Şərifə fikrə getdi. Sonra baxışlarını qaldırıb Mürşüdə baxdı və bic-bic güldü:

— Bu, səni çox maraqlandırır?

— Hə.

— Nəyinə lazımdı?

— Elə belə, bilmək istəyirəm.

Şərifə yenə güldü:

— Görürəm, çox ciddi maraqlanırsan. Ona görə əvvəlcə məndən xoşu gələnləri sayacağam sənin üçün. Əlbəttə, hamısını yox, ən mühümlərini.

— Yaxşı, de gəlsin.

— Birincisi, atandı — onu bilirsən. İkincisi, o Dombagöz şairfason var ey, adama oxşamazın biridi. İltifat. Mənə şer də yazıb. Bir dəfə kitabxanada mənə kitabçasını bağışladı və dedi sənə bir şer də yazmışam. İcazə ver oxuyum səninçün. Dedim saxla, arvadına oxuyarsan. Düz çıxıb getdi. Odu budu, məni görəndə özünü soxmağa yer axtarır. Üçüncüsü, şöbə müdirim vardı ey mənim? Keçmiş şöbə müdirim. O keçəl Rüfət. Paxan onun şöbəsindən məni çəkib bura gətirdi və keçəlin sözü ürəyində qaldı.

— Daha bəsdi, sən allah.

— Acığına gəldi.

— Yox, elə belə, bəsdi. İndi sənin xoşun gələnləri de!

— O, səhv eləyirsən. Mənim xoşum gələn bir nəfərdi, ancaq bir nəfər!

Mürşüdün ürəyi əsdi. Fikrən bir anda bütün institutu gəzib

dolandı, o adamı axtarıb tapmaq istədi. Ancaq dəqiq heç kəsin üstündə qərar tuta bilmədi.

— Kimdi o bəxtəvər?

— Deməyəcəyəm. Səni çox maraqlandırırsa, özün düşün, tap.

Mürşüd məyus halda köks ötürdü. «Demək istəmir. Görəsən kimdi o?» — deyə yenə institutun kişilərini saf-çürük eləməyə başladı. Həyəcanından dodağı qurumuşdu. Xatırladı ki, atası burada olsaydı, indi Şərifə çay hazırlamışdı.

— Yaxşı, indi kişi burda yoxdu deyə bizə çay verməyəcəksən?

— Çay istəyirsən? Niyə vermirəm? Bu saat! — deyib ayağa qalxdı. — Sən fikirləş, mən bu dəqiqə!

Şərifə iki stəkan götürüb qonşu otağa keçdi və iki dəqiqə keçməmiş qayıtdı.

— Buyur. Bu da sənin çayın, Mürşüd. Hə, nə oldu, tapa bilmədin?

Mürşüd pərişan halda başını tərpətdi:

— Yox.

— Tapa bilməzsən, Mürşüd, — dedi və əlini uzadıb onun qonur, yumşaq saçlarını qarışdırdı. — Yüz il də axtarsan, tapa bilməzsən, çünki uşaqsan sən hələ. Başını nahaq yerə yorma, çayını iç. Özü də sən nahaq elə bilirsən ki, atana görə, sənə çay verirəm. Yox, Mürşüd, bəlkə atana sənin xatirinə çay verirəm, bildin?

Mürşüdün ürəyi quş kimi çırpındı və o ayağa qalxıb Şərifənin hələ də saçında gəzən əlindən yapışdı:

— Tapdım, tapdım, Şərifə... O... mənəm, o mənəm. Düz tapdım?

Şərifə ciddiləşdi, gülüşünə ara verdi və astaca kirpiklərini endirməklə:

— Hə! — dedi, — sənsən, Mürşüd... Ay dünyadan xəbərsizim mənim.

Mürşüdün ayağı altında yer rəqs eləyirdi.

## ON BİRİNCİ FƏSİL

Evdə qıy vursaydın, qulaq tutulardı. Qonaq-qaralı, çal-çağırlı bu mənzildən Ceyhun öldürüləndən sonra, əl-ayaq kəsilmişdi, məclislər yığışdırılmışdı, cürbəcür maqnitofonlardan ucalan rəqslər, mahnılar susmuşdu. Salman Qurbanzadə zahirdə özünü tox tutmağa çalışsa da, içəridə, batində tamam məyus olmuşdu; deyən, gülən, hərə ilə öz dilində danışmağa çalışan Salman indi dindirsən dinirdi, dindirməsən yox. Fironluğu getmişdi. Nadirə ilə daha heç nə üstündə mübahisə eləmirdi. Əsas söz-söhbətləri elmi ixtilaflar olardı, bir də Ceyhun üstündə söz güləşdirərdi əvvəllər. Daha Ceyhun yox idi — onun gələcəyi, tərbiyəsi, oturuşu-duruşu barədə də danışıqlar, təbii ki, kəsilmişdi. Elmi mübahisələrə girişməyə də hövsələləri qalmamışdı. Ər-arvad bir-birinə çox mehriban olmuşdu. Nadirə xanım nə qədər kədərli, süst olsa da, Salmana əvvəlkilərə nisbətən daha yaxşı qulluq eləyirdi. Yeməyinə, içməyinə xüsusi diqqət yetirirdi. Salman isə daha onun üstünə qışqırmır, heç nəyin üstündə evə qanıqaralıq salmırdı. Yaxşı ki, bu yazı-pozu varmış. Hərə öz otağına çəkilib gecədən xeyli keçənə qədər başını kitablarla, yazmaqla qarışdırırdı. Və nə yaxşı ki, bu televizor da varmış. Yorulanda, sıxılanda televizoru yandırar, verilişin yaxşısını, pisini seçmədən, filmin maraqlı olub-olmamasının fərqinə varmadan divanda əyləşib tamaşa edərdilər. Bəzən tək, bəzən ikilikdə, səssiz-səmirsiz; müzakirə filan eləməzdilər. Ən gülməli, uğunmalı şeylər belə ürəklərini aça bilmirdi.

Nadirə hərdən evdə hökm sürən bu qəribə sükuta fikir verib düşünərdi ki, söz-hərəkətin, mübahisələrin, soyuqluğun, «döyüşlərin» əsas səbəbkarı yazıq Ceyhun imiş deyəsən. Döyüş onun üstündə gedirmiş, sən demə. Ceyhunun ürəyi, beyni, tərbiyəsi — boş ərazi kimi atanın, ananın fikrini məşğul edirmiş. Hərəsi ayrı-ayrılıqda da o beyni, o ürəyi «işğal» etmək, öz «bayrağını» sancmaq istəyirmiş. Salman öz bayrağını, Nadirə öz bayrağını. İndi o ürək, o beyin yox idi — onlar da susub oturmuşdular.

Salman son zamanlar bağda, evdə, maşında, insandan uzaq olanda, təklik aləminə qapılanda öz həyatını gözünün qabağına gətirir, olub-keçənləri düşünür, gördüyü haqq-nahaq işləri vicdan tərəzisinin gözünə qoyub çəkir, dünyada hamıdan çox istədiyi Ceyhunun tələf olmasının səbəblərini araşdırır və bu fikrə gəlirdi ki, taleyin ona vurduğu bu zərbə Mirzə Yanarın qarğışıdı, naləsidi tutub onu. Doğrudur, Salman nə qədər ki cavan idi, qəlbi-beyni dumanlı idi, tale deyilən şeyə inanmazdı. Lakin illər keçib yaşa dolduqca Salmanın ürəyində anlaşılmaz bir xof yaranırdı, belə bir inam, duyğu beynində özünə yurd salmağa başlayırdı ki, dünyada heç nə əvəzsiz qalmır; yaxşılıq da, pislik də gec-tez öz mükafatını alır. Bütün ömrü boyu bir çox nahaq işlər tutmuşdu Salman, ancaq onların ən böyüyü və yəqin ki, ən bağışlanmazı Mirzə Yanarın — ustadının, müəlliminin, dostunun ürəyinin qanı ilə yazdığı, amma işıq üzünə çıxarmağa macal tapmadığı kitabını öz adına çap etdirməsi idi. Həmin əsəri iki dəfə — birinci dəfə elə o zaman, əsəri mənimsəmək fikrinə düşəndə, sonra isə, lap bu yaxında Gülmirə əlyazmasının bir nüsxəsini ortalığa çıxaranda aparıb bağda, şöləleri göyə dirənən tonqalın alovları içində yandırıb külə döndərmişdi. Hələ birinci dəfə gecənin qaranlığında üzünə düşən alov işıqları altında ərəb əlifbası ilə yazılmış köhnə vərəqlər qaralıb qıvrılıb külə döndükcə içərisində nə isə gizli bir sızıltı duysa da, düşünmüşdü ki, daha əsərin izi itdi. Bundan sonra arxayın yaşamaq olar. Və elə həmin anda qulağına qəribə, anlaşılmaz səslər gəlmişdi. Mirzə Yanarın səsi idimi, ruhunun fəryadı idimi? Anlaya bilmirdi. Sonrakı günlər bir müddət key kimi gəzsə də, qəlbində qəribə bir rahatlıq da duymuşdu. Aylar, illər keçib getdikcə bu ağrıyabənzər şey ötüb keçmişdi; əlyazması da, alov dilləri də, o anlaşılmaz fəryadlar da yavaş-yavaş unudulub getmişdi. Üstündən uzun illər sovuşandan sonra, heç gözlənilmədən Gülmirə həmin əsərin ikinci nüsxəsini qəfildən çıxarıb ortalığa qoyandan, Salmanı camaatın gözü qabağında öldürüb diríldəndən, məqam tapıb həmin lənətə gəlmiş qovluğu akademik Aslanzadənin stolunun üstündən çırpışdırıb özünü bağa yetirəndən sonra,

təzədən tonqal qalayıb ocaq çatanda qorxu və həyəcan içində fikirləşmişdi ki, ilahi, bu nə işdi mən özümü öz əlimlə salmışam? Bu nə əzabdı mənə verirsən? Görəsən bu, o əsərin axırıncı-sonuncu nüsxəsidi, ya yenə var; bir azdan yenə kimsə, hardansa tapıb ortaya çıxaracaq və Salmanı təzədən sarsıdıb silkələyəcək? Yadına qızıl ilan əhvalatı düşdü. Deyilənə görə, qızıl ilan yeddi bacı-qardaş olur — birini öldürdün, ikincisi səni harda olsan axtarıb tapacaq, qardaşının, yaxud bacısının intiqamını alacaq. İkincisini də öldürsən, üçüncüsü sənin dalınca kölgə kimi sürünəcək... Və sən, o yeddi qardaş-bacı ilanları öldürməyincə, həmişə nigaran və səksəkədə yaşayacaqsan... Doğrudanmı Mirzə Yanarın əsəri də eynən o qızıl ilan əhvalatındakı kimi gecə-gündüz, ömrünün axırına kimi onu təqib edəcək? Doğrudanmı Mirzə Yanar öz əsərini yeddi nüsxədə yazıb? Yox, bu ağlasığan şey deyil. Yəqin indi yandırdığı son nüsxəsi olar...

«Kaş belə olaydı, kaş belə olaydı, bu, sonuncu olaydı» — deyə qəlbinin içini yeyə-yeyə düşünən Salman yenə bir müddət yuxularını qarışdıra-qarışdıra, qızıl ilanlar görə-görə yaşamışdı. Məhz bundan sonra Ceyhunun öldürülməsi kişini əməlli-başlı fikir dəryasına qərq eləmişdi. Bəlkə o Mirzə Yanarın incidilmiş, təhqir edilmiş ruhu idi ki, qızıl ilana dönüb onun arxasınca sürünmüş, sürünmüş, nəhayət, özünə əli çatmadığına görə əziz oğlunu — Ceyhunu çalıb məhv eləmişdi? Bu, adi bir təsadüf idimi, qəzanın hökmü idimi? Salman çaşıb qalmışdı və hardasa qəlbinin, vicdanının dərinliyində bir sızıltılı hiss baş qaldırıb pıçıltıyabənzər səslə qulağına söyləyirdi ki, bu, sənə taleyin verdiyi cəzadır və elə bir cəzadır ki, son gününə qədər təqib edib nəfəsini kəsməyincə səndən əl çəkməyəcək. Və bu pıçıltı onu yamanca vahiməyə salırdı. Unutmaq istəyirdi, unuda bilmirdi, hərdən lap qulaqlarına pambıq da tıxayırdı, ancaq mümkün olmurdu — çünki o vahimə təlqin eləyən səs içəridən gəlib bütün içini yandırırdı. Yazıq olmuşdu Salman. Bunu kənardan baxanların heç biri, hətta arvadı Nadirə xanım da görmürdü, görə bilmirdi. Öz oduna yanan özü idi.

Yenicə o dəhşətli fikri yaddan çıxarmaq istəyirdi ki, təzə bir

dalğa öz güclü qanadları ilə onu vurub həmin əzablı odun içinə atdı. Günlərin birində... Yox, çoxdanın söhbəti deyildi, elə bu gün olmuşdu o hadisə. Bəli, bu gün günorta tənəffüsündən sonra institut dəhlizində ucaboy, arıq, başına şlyapa qoymuş bir kişi soraqlaşa-soraqlaşa gəlib Salmanı tapmışdı. Xoşbəxtlikdən, Salman kiçik otaqda tək oturmuşdu, nə isə yazırdı. Gələn adam başını içəri uzadıb gər səslə:

— Bağışlayın, Salman müəllim lazımdı mənə! — geri qanrılmış professorun ürəyi qəribə bir qorxu içində çırpınmışdı. Onu tanımırdı, görməmişdi, ancaq Gülmirənin Nadirəyə söylədiyindən öyrənmişdi ki, belə bir adam var, özü də Mirzə Yanarın bacısı oğludu, haçansa, ağlının buyurduğu vaxt gəlib Salmanın qabağını kəsə bilər. Bu səksəkə çoxdan canında idi və hər dəfə instituta gələn yad bir adam görəndə ürəyi ayağının altına düşmüşdü, o adama sual dolu nəzərlə baxmış, onun yanına gəlmədiyini başa düşəndə dərindən nəfəs almışdı.

— Buyur, bala, Salman mənəm.

Kişi qapını açıb içəri girərək salam verəndən sonra birbaşa özünü təqdim etmişdi:

— Müəllim, mən Mirzə Yanarın bacısı oğluyam. Adım Möhsündür!

Professor həyəcanla, təşvişlə ayağa qalxmış və irəlicədən, bu adamın gec-tez peyda olacağı fikrinə inanandan sonra ətraflı düşünüb-daşındığı qayda üzrə hərəkət etmiş, sonsuz bir təəccüb ifadə edən tərzdə:

— Bizim Mirzə Yanarın? Mərhum alimimizin? — söyləmiş və cavabını gözləmədən iri, tüklü əllərini onun çiyinlərinə qoyaraq: — Ay bala, sən xoş gəlibsən, xoş gəlibsən! — demiş, kişini sinəsinə basıb gün altında yanmış qəhvəyi sifətindən öpmüşdü. Bu cür qarşılanacağını ağlına gətirməyən Möhsün mütəəssir halda professora baxanda onun gözlərinin yaşardığını görmüş, həyəcandan nə edəcəyini bilməmişdi.

Salman ani olaraq: «Qızıl ilanın ikisini öldürmüşəm. Bu üçüncüsüdü — allah, özün saxla!» — deyə ürəyindən keçirmiş.

Möhsünə diqqətlə baxmaqda davam edərək:

— Otur, bala, otur — söyləmişdi. — Sən mənim bütün kövrək xatirələrimi oyatdın, oğul. Elə bildim rəhmətlik Mirzə Yanar özüdü, qapını açıb içəri girdi — necə də oxşayırsan ona, torpağı sanı yaşayasan. — Belə deyə-deyə pencəyinin sol cibindən ütülü dəsmalını çıxarıb gözlərini silmişdi və sonra əlavə eləmişdi — Yaxşı igid dayısına oxşayar!

Möhsün bu mehribanlığın müqabilində hədsiz dərəcədə kövrəlmişdi. Şəklini, simasını, yerişini-duruşunu güclə xatırladığı, lap sonralar, bəraət kağızı gələndən sonra anasının gecəli-gündüzlü bir bacı yanğısı ilə danışdığı söhbətlərdən sevdiyi əziz dayısının indiyə qədər belə yaxın dostu, istəyəni olduğunu bilməmişdi. Mirzə Yanarın yetmiş illiyini bayram eləyən vaxt çap olunmuş iki cildlik əsərlərinin — indi yaxşı yadında deyil — ya redaktoru, ya tərtibçisi, yaxud da müqəddimə yazanı Salman Qurbanzadə idi — nə isə yaddaşında belə qalmışdı ki, Mirzə Yanarın əsərlərinin dünya durulandan sonra, cəmlənib yenidən işıq üzü görməsində o vaxt, yubiley günlərində televizorda çıxış eləyən Orxan Əlizadənin hamıdan çox əməyi-zəhməti olmuşdu; ancaq bu da həqiqət idi ki, o kitabın harasındasa professor Salman Qurbanzadənin də adı yazılmışdı və bu, boş-boşuna deyildi. İndi Möhsün aydın başa düşürdü ki, qabağında əyləşən, yana-yana başını bulayan professor Salman Qurbanzadə dayısını şəxsən tanıyırmış, onu çox istəyirmiş və yəqin ki, şirin-şirin xatirələri də olmamış deyil.

— Çox sağ olun, professor. Siz, güman eləyirəm ki, dayımı yaxşı tanımış olarsınız.

— Ba, necə, necə?! Biz çox yaxın olmuşuq rəhmətliklə — indi olmasın. O mənim müəllimim idi, rəhbərim idi, hamısından əfzəl isə dostum idi, oğul. Yazıq hayıf oldu amma. Qalsaydı, bilirsən nələr yaradardı? Çox kəlləli adam idi, müdrik adam idi. Oğul-uşağı yox idi, oğul-uşağı yazıları, kitabları idi.

— Hə, heç bir yadigarı qalmadı. O nəsildən bircə bacısı, yəni mənim anam qalmışdı, o da «qardaş» deyə-deyə dünyadan

köçdü. On il olar ölüb. Təkcə mən qalmışam.

Salman gözlərini qıyıb nə isə xatırlamağa çalışaraq:

— Əgər hafizəm məni aldatmırsa, onun adı gərək ki, Xeyransa xanım idi, — söylədikdə Möhsün sevincək demişdi:

— Elədi, müəllim. Yaxşı qalıb yadınızda. Mən Xeyransanın oğluyam.

— Mirzəgilə o vaxt tez-tez gələrdi.

Onlar xeyli söhbət eləmişdilər. Salman Mirzə Yanar barədə öz xatirələrini danışmışdı, onun əsərlərini necə toplayıb nəşr etdiyini (Orxanla birgə) söyləmişdi. Möhsündən üstəlik də xahiş eləmişdi ki, evdə, güncdə, bucaqda qalan, ələ keçməyən, arxivə düşməyən yazısı-pozusu varsa, gətirsin; o, çap etdirər. Onun hər sətri, cümləsi bizim üçün qızıl qiymətindədi. Bu zaman Möhsün əvvəlcə Orxanla, sonra Gülmirə xanımla görüşünü xatırlamış, Orxana dayısının Xeyransa xanımın sandığında saxlanılmış bir qovluğunu verdiyini, həmin qovluğun arada itib-batdığını nağıl eləmişdi.

Salman əhvalatı eşidib gülmüşdü:

— Yox, elə deyil, oğul... O qovluq itməyib. Bax, gör bu qovluqdu o? — deyərək stolunun alt gözündə haçandan saxladığı o başıbəlalı qovluğu çıxarıb ortalığa qoymuşdu. Möhsün qovluğu görən kimi sevinc içində:

— Hə, hə, özüdü ki, var... Bu qovluğu vermişdim Orxana — deyə tələsik götürüb baxmışdı.

Salman ah çəkmişdi:

— Bu qovluq mənimdi, oğul. Xeyransa xanımın sandığından çıxsa da, mənimdi. Akademik Aslanzadənin sədrliyi ilə avtoritetni bir komissiya yarandı və yoxlama zamanı məlum oldu ki, onun içindəki əlyazması mənimdi. Bax, bu kitabımın əlyazmasıdı. — o, üstündə öz adı yazılmış «Nəsiminin sənətkarlığı» kitabını çıxarıb Möhsünə vermişdi. — Bəlkə oxumusan?

Möhsün çaşqın halda başını tərpətmişdi.

— Yox, müəllim, mən... neftçi babayam. — Elə kitablar mənim xörəyim deyil. Ancaq... axı bu qovluq...

Salman onun nə deyəcəyini havadan tutmuşdu:

— Hə, bilirəm, deyirsən ki, bəs bu qovluq necə olub Xeyransa xanımın sandığına düşüb, hə?

— Hə də...

— Bilirsən, bala, — Salman siqaret yandırmışdı. — O rəhmətlik mənim elmi rəhbərim idi... Bu kitabı o zaman təzəcə yazıb qurtarmışdım, vermişdim ona ki, oxusun, fikrini, qeydlərini söyləsin. Heç beş-on gün keçməmiş kişi yazığı apardılar. Əsər də itdi, batdı. Görünür, o zaman tələm-tələsik, qovluqları səhv salıb, özününkü əvəzinə aparıb mənim yazımı verib bacısına. Ancaq belə ola bilər, oğul. Başqa cür mən təsəvvür eləyə bilmirəm.

— Bəs siz bu kitabı təzədən yazdınız?

— Yox, a bala. Mən qaralama yazmışdım əvvəl, üzünü köçürdüm, verdim ustadıma. Qaralaması qalmışdı məndə. Sonra çox əziyyət çəkib, demək olar ki, təzədən işlədim...

— Hm. Belə de!!! — Möhsünün beli sanki əyilmişdi.

Salman Möhsünün gözlərinin içinə baxmış və inandırdığını yəqin eləyib ayağa qalxmış, əllərini şalvar cibinə salıb otaqda gəzinməyə başlamışdı.

— Kaş elə əsəri itəydi, özü sağ qalaydı... Özü yandırdı məni, yüz elə əsər qurban olaydı ona. O əsəri o yaratmışdı, onu kim yaradacaq? Hə, soruşuram səndən, onu kim yaradıb təzədən öz xalqına, öz elmimizə qaytara bilər? Heç kim, bala, heç kim. Bir Allah şahiddi ki, mən həmişə, hər elmi şurada, yığıncaqda demişəm: kaş biz hamımız — onun tələbələri qırılaydıq, yox olaydıq, təkcə o yaşayaydı. Hamımızın birlikdə bu iyirmi beş — otuz ildə gördüyümüz işləri o təkbaşına, özü də yüksək səviyyədə görə bilərdi oğul, sən buna inan. Sənin dayın da olsa, yadına gəlməz, bilməzsən, amma mən bilirəm ki, o necə böyük şəxsiyyət idi!

Salmanın bu son sözləri Möhsünün qəlbini daha da kövrəltmiş və o, min bir dillə təşəkkür edə-edə institutdan çıxıb getmişdi. İndi, axşamçağı, işdən sonra, evində, pəncərəsi günbatana baxan kabinetində tək-tənha oturub olub keçənləri götür-qoy eləyən Salman yenə hardansa ağlına gəlmiş, neçə vaxtdan bəri ona rahatlıq

verməyən yeddi qardaş qızıl ilan haqqında düşünür və öz-özünə qımışıb:

«Bu qızıl ilanın da başını belə əzdik, sonrasından Allah saxlasın» — deyirdi.

Bu zaman qapı açıldı və Nadirə yorğun-arğın halda içəri girdi. Kabinetin nəfəsliyi açıq olsa da tüstüdən miz arxasında oturmuş Salman güclə seçilirdi. Nadirə xanım:

— Evini Allah tiksin, bu nədi, ay kişi, boğulmursan burda? — deyəndə Salman sanki yuxudan ayıldı və çönüb Nadirəyə baxdısa da, heç nə söyləmədi. Nadirə keçib pəncərənin bir tayını açdı və nəfəsinə, boğazına dolan tüstüdən öskürdü. Öskürə-öskürə keçib divanda əyləşdi.

— Hardaydın? — Salman rəsmi, müdir, tabeliyində olan işçisindən soruşan kimi xəbər aldı.

— Qızlarla Aslan müəllimə dəyməyə getmişdik. — Nadirə ərinin səsinin ahəngindən xoşlanmasa da, sakitcə cavab verdi. Salman Aslanın adını eşidən kimi çevrildi:

— Hə, necədi kişi?

— Eh, heç nə... Bu gün beyninə qan sızıb, Salman.

— Nə danışırsan?

— Hə. Səhər-səhər. Heç özündə deyil. Gözlərini də aça bilmir. Bizi tanımadı heç.

— Yox əşi?

— Vallah.

— Vay-vay...

— Bir də çətin qalxar o!

— Elə şey olmaz, canım?

— Niyə olmur ki, ay Salman?! Bircə onu bilirəm ki, onu Nurəddin o hala saldı. Yoxsa sağlam kişi idi, hələ on il də yaşayardı.

—…

Salman səsini xırp kəsdi, təzə siqaret alışdırdı.

## ON İKİNCİ FƏSİL

Salman işdən çıxıb bağa getmişdi, şənbə, bazar günləri orada qalacaqdı: nə qədər təkid eləmişdisə, Nadirə xanım boyun qoymamışdı, evdə qalacağını, yır-yığışla məşğul olacağını bildirmişdi. Yır-yığış deyəndə o, otaqları silib-süpürməyi, səliqə-sahman yaratmağı nəzərdə tutmurdu, haçandı ürəyində gəzdirdiyi, Salmana da açıb demədiyi bir işi görmək istəyirdi; Ceyhunun otağının bütün dər-divarını şəkilləri ilə bəzəmişdi, çarpayısını düzəltmişdi, kitab-dəftərini mizin üstə qoymuşdu; elə bir şərait yaratmışdı ki, sanki Ceyhun harasa getmişdi, haçansa gələcəkdi və bu otağa baş çəkən hər kəs belə düşünə bilərdi ki, bu otağın sakini olduqca səliqəli, hər şeyinin öz yeri olan bir adamdı. Nadirə xanım bütün bu səliqə-sahmanlı otağa bir ziynət də vermək istəyirdi; Ceyhunun müxtəlif illərdə, lap dili təzə söz tutandan son günlərinə qədər maqnitofon lentlərinə yazılmış — özü bilən, özünün xəbəri olmadan səbt olunmuş — səsini, sözlərini az qala üç-dörd qutunu dolduran kasetlərdən axtarıb tapmaq, hamısını bir lentə köçürmək və yadigar saxlamaq istəyirdi. Qış vaxtı da, istirahət zamanı da, yuxularında da heç cür yadından çıxara bilmədiyi yeganə ciyərparasının bir növ «mənzil muzeyinə» çevirdiyi bu kiçik otağa, gələnlərə gözlərinin qorasını sıxa-sıxa danışan Nadirə xanım, Ceyhunun sözləri, gülüşləri, çox sevdiyi mahnılarla da bəzək vermək arzusunda idi. Əslində o, oğlu haqqında başqalarına yox, özü üçün danışırdı və hər şəkil, hər söz Ceyhunu onun gözündə yoxluq, heçlik aləmindən geri, həyata qaytarır, dirildib canlandırırdı; yalnız bu zaman o, qəlbinin atəşinə su çiləyə bilirdi.

Ceyhun maqnitofon «xəstəsi» idi. İndiyə qədər çıxmış bütün maqnitofonların — istər yerli, istər xarici olsun — elə bir markasını göstərmək olmazdı ki, lap təzə yayılan vaxtı almasın, istifadə etməsin və bir az sonra, yenisi şəhərdə peyda olan kimi, dəyər-dəyməzinə yoldaşlarından birinə sataraq təzəsini almasın. Xüsusilə Yapon maqnitofonlarını çox xoşlardı. Anası bu «xəstəliyinə» görə onu danlayıb-dansayanda, «bunun əvəzinə dərslərinə baxsan,

heç də pis olmaz» — deyəndə, Salman, «dəymə, Nadirə, hərə bir şeyin bazı olduğu kimi, o da maqnitofon bazıdı, qoy uşaq kefini çəksin!» — deyib oğluna qahmar çıxırdı və çox vaxt, təzə maqnitofon almaq istəyən, ancaq pulu çatmayan Ceyhuna Nadirədən gizlin pul da verərdi. Ceyhun sevinə-sevinə gedib həmin maqnitofonu alıb gətirəndə birinci Salmanın kabinetinə keçərək kişini işdən ayırar, onun texniki məziyyətlərindən, başqa maqnitofonlardan fərqli və üstün cəhətlərindən böyük həvəslə, özü ixtira edibmiş kimi, ən azı yarım saat danışardı, atasının, özünün səsini yazardı, lenti geri hərləyib yazdıqlarına təzədən qulaq asardı. Bu hal, Ceyhun hər dəfə təzə maqnatofon alanda təkrar olunardı. Nadirə xanım belə hallarda narazılıqla başını tərpədərək Salmana deyərdi: «Bunda texniki sahəyə böyük maraq var, Salman. Deyəsən injinerdən-zaddan olacaq». O zaman Salman adəti üzrə əlini sinəsində gəzdirə-gəzdirə: «Hələ bilmək olmaz, Nadirə. Adicə maraqdı bu. İndi texnika əsridi, belə-belə işlərlə indi hamı maraqlanır» — söylərdi.

Nadirə xanım karton qutuda səliqə ilə yan-yana düzülmüş kasetlərə həyəcanla baxa-baxa düşünürdü ki, bax, onlarda oğlunun səsi qalıb, haçansa dediyi bir söz qalıb. Lap yarım söz olsa da, bir gülüş olsa da, qalıb və onlar indi Nadirə xanıma çox gərəkdi, hər şeydən çox gərəkdi.

Bəli, Nadirə xanım həmin kəsik-kəsik səs, söz, söhbət parçalarını bir yerə toplamaq, dal-dala düzmək, oğlunun səsini, nəfəsini bərpa eləmək, beləliklə də, onu təzədən dünyaya qaytarmaq, diriltmək, yaşatmaq istəyirdi. İnsan təbiətinə bələd idi Nadirə xanım: bilirdi ki, vaxt gələcək, Ceyhunun indi çox yaxşı xatırladığı səsini də zaman hafizəsindən silib aparacaq, unutduracaq. Necə ki, on beş il, on səkkiz il qabaq oğlundan eşitdiyi sözlərin çoxunu unudub, şeytan, çevik körpənin hərəkətlərini yaddan çıxarıb. Amma əgər bax bu kasetlərdə səsi, sözü qalıbsa, yaddan çıxmayacaq — bu yumşaq, zərif lentlərin yaddaşı insan yaddaşından güclüdü, sehrlidi, əgər insan özü məhv etməsə, lap əbədidi.

Bu arzu, bu istəklə də Nadirə xanım karton qutudakı kaset-

ləri bir-bir Ceyhunun son dəfə, ölümündən beş-altı ay əvvəl çox baha qiymətə aldığı, doyunca işlətmədiyi və bütün maqnitofonlarından çox istədiyi «Qurindik» maqnitofonuna salır, asta ayaqda saxlayıb mahnılara, melodiyalara səbirlə, diqqətlə qulaq asırdı: elə kaset vardı ki, onda oğlunun nə səsi, nə sözü yazılmışdı. Yox idi heç nə. Bu kaset Nadirə xanım üçün ölüydü, gərəksizdi. Bu cür kasetləri o, ayırıb bir kənara qoyurdu. Ancaq hər üç-beş kasetdən birində o, Ceyhunun nişanəsini tapırdı. Onun səsinə rast gələn kimi, soyuq bir ah çəkərək əvvəlcə iki-üç dəfə dinləyir, gözlərinin qorasını sıxır, sonra çoxdan istifadəsiz qalmış, ancaq saz olan «Nasional» yapon maqnitofonuna həmin kaseti salır, ondan məxsusi Ceyhun üçün ayırdığı və üstündə əli əsə-əsə «Ceyhunumun səsi» sözlərini yazdığı təzə lentə köçürürdü.

Bu, lap köhnə kasetdi. İllər öz təsirini göstərmişdimi, ya nəydi, səslər xırıldayırdı, bəlkə də yazılışı pis idi, bəlkə də nəm çəkmişdi lent. Bax, bu lentdə Ceyhunun altı yaşı var. Hələ məktəbə ketmir:

Salmanın səsi: «— Hə, bu gün sənin altı yaşın olacaq!»

Ceyhunun səsi: «— Mən Lenin baba kimi oxuyacağam, inqilab edəcəyəm».

Salmanın səsi: «— Ha, ha, inqilab nədi, Cıqqılı?»

Ceyhunun səsi «— İnqilab? İnqilabdı də. Lenin baba eləyib ha. Ondandı də».

Salmanın səsi: «— Ha, ha, İnqilabın nə demək olduğunu böyüyəndə özün öyrənəcəksən. Yaxşısı budur, sən mənə de görüm oxuyub nə olacaqsan, Cıqqılı?»

Ceyhunun səsi: «Mən oxuyub mirsəner olacağam, oğruları, nemisləri tutacağam, öldürəcəyəm».

Salmanın səsi: «— Hə, bax, burda korladın, Cıqqılı, əvvələn mirsəner yox, milisioner».

Ceyhunun səsi: «— Mən də mirsəner deyirəm də».

Salmanın səsi: «— Mirsəner yox, Cıqqılı, milisioner. De görüm milisioner?».

Ceyhunun səsi: «— Mirsəner».

Salmanın səsi: «— Yox, deyə bilmədin. Yaxşı, bunu da böyüyəndə öyrənəcəksən, Cıqqılı. Ancaq mən səni böyüyəndə milisioner olmağa qoymayacağam, Cıqqılı».

Ceyhunun səsi: «— Niyə, mirsəner pisdi?»

Sonra bir türk mahnısı başlanırdı. Nadirə mahnını eşitmirdi. Düyməni basıb maqnitofonu söndürdü. «Yazıq uşağım. Milisioner olmaq istəyirdin, oğruları tutmaq, öldürmək istəyirdin. Sən milisioner ola bilmədin, oğruları tutub öldürə bilmədin. Oğrular isə... səni öldürdülər can bala».

Onuncu kasetdə yenə Ceyhunun səsi qalmışdı.

Ceyhunun səsi: «— Bir, iki, üç, dörd, beş. Pap, bilirsən, bu nə yaxşı maqnitofondu? Yaponların son ixtirasıdır, həssaslığı o qədər çoxdu ki, göydə uçan durna qatarının səsini yazır, pap. Dörd daroşkalıdı ey. Bax, məsələn, qonaqlıqdı, hamı musiqiyə qulaq asır, sənin isə bu musiqidən xoşun gəlmir, sən başqa musiqi dinləmək istəyirsən. Bax, onda bu şunuru bura taxırsan, bunu da qulağına tutursan — sən tamam başqa bir nəğmə dinləyirsən. Hə, necədi?...»

Salmanın səsi: «—Hə, yaxşıdı, Ceyhun. Bir gözəlliyi də odur ki, böyük deyil. Səsi təmiz yazır. Xırıltısız-filansız... Yoxsa bizimkilər kimi?»

Burda səs qırılırdı Nadirə xanım oğlunun açıq, səlis yazılmış səsini dinləyəndən, göynərtisi keçib gedəndən sonra Salmanın indicə dediyi sözləri xatırladı və «bu kişi ömrü boyu özümüzün heç nəyini bəyənmədi də» — deyə ürəyindən keçirtdi.

Günorta olmuşdu, yeməyi-içməyi yaddan çıxarmışdı. Lentlər bir-bir fırlanır, qurtarır, ancaq Ceyhun danışmırdı. Bu, Nadirə xanımı yamanca əsəbiləşdirirdi. Lap yorulub əldən düşəndə, lap axırıncı lenti quranda Nadirə xanım birdən-birə dirçəldi. Məlahətli səsi olan bir qadın kədərli-kədərli deyirdi:

«— Ya nesçastnaya jenşina, Djek!»

Ceyhunun səsi cavab verirdi:

«— Ya tebya sdelayu sçastlivoy, doraqaya. Tı tolko lyubi menya.»

Qadın deyirdi:

«— Ya tebya oçen lublyu i vseqda budu lubit, Malış. Tı moy xoroşiy, tı moy silnıy, Malış.»

Ceyhun cavab verirdi:

«— Ya tebya obajayu, Reyxan»

Bu lentin son parçası idi. Görünür, qurtardığına görə söhbət yarımçıq düşmüşdü. Maqnitofon xırıldayıb susdu. Nadirə xanımın elə bil üstünə qaynar su tökdülər. Bədəni alışıb-yanmağa başladı.

Otaqda hava çatmadı, qalxıb pəncərənin qabağına gəldi... Yox, burada da qərar tuta bilmədi, təzədən maqnitofonu qurub onun üçün yeni bir aləm — kədər və matəm dolu bir aləm açan o parçaya təzədən qulaq asdı. Ürəyi soyumadı, yenidən dinlədi. Sonra taqətsiz halda başını stolun üstünə qoyub ağladı. Ağlaya-ağlaya düşünürdü:

«Aman allah! Bu qız kim ola? Bu nə musibətdi mən çəkirəm, ilahi? Reyhan, Reyhan… Demək, Ceyhunun sevdiyi qadın varmış və adı da Reyhan imiş!.. Kimdisə, Ceyhunumdan yaşlıdı. Qadındı. Özü də bədbəxt sayır özünü. Kim ola bilər bu?.. Bu, yəqin zəng eləyib susan o qadındı. Hə, hə, odu, odu. Bəlkə uşağımın ölümü elə bu qadınla bağlıdı! Bəlkə əri?.. Bunu mütləq mayora — Hacı qardaşa xəbər vermək lazımdı...»

Nadirə xanım... sərxoş adam kimi ayağa qalxıb telefona sarı addımladı.

## ON ÜÇÜNCÜ FƏSİL

İltifatın redaktoru olduğu «Zəka» divar qəzetinin yeni nömrəsi çıxmışdı. Əməkdaşlar ikibir-üçbir direktorun kabinetinin sol tərəfindəki taxta lövhədən asılmış dörd sütunluq, bir səhifəlik qəzetin qabağında ayaq saxlayır, oxuyub müzakirə edir, sonra danışa-danışa şöbələrə çəkilirdilər. Marağın səbəbi bu idi ki, İltifat üçüncü sütunda özünü Nurəddin Osmanzadəyə həsr elədiyi lirik poemasından bir parça vermişdi. Lap əvvəlində, iki-üç yağlı cümlə ilə Nurəddini dünyanın ən böyük alimləri ilə yanaşı qoyan bir ithaf

da yazmışdı. Onun — Nurəddinin zəkası Günəşə bənzədilir, qələmi böyük qəhrəmanların qılıncından da üstün tutulurdu. Sözə, tərifə xəsislik eləməmişdi. Ürəyində, dilində nə qədər şirin və yağlı ifadə vardısa, səxavətlə işlətmiş, Nurəddini göyün yeddi qatına qaldırmışdı. Sütunun axırında isə mötərizə içərisində «ardı var» deyə qeyd olunan bu mədhiyyə, institut əməkdaşlarının böyük əksəriyyətində bir ikrah hissi doğurmuşdu. Bu gün, həftənin birinci günü, hamı başını aşağı salıb işləmək əvəzinə, İltifatın bu əttökən mədhiyyəsini müzakirə eləməklə məşğuldu. Şer, əgər bu adamların tanımadığı əfsanəvi bir qəhrəmana, alimə həsr edilmiş olsaydı, bəlkə də rəğbətlə qarşılanardı — çünki, insafən, misralar dolu idi, mənalı idi. Lakin məsələ bunda idi ki, üç-dörd nəfər dostunu, iki-üç yaltağı və simasızı çıxandan sonra, öz doğma oğlu da içində olmaq şərtilə institutun bütün kollektivi, hətta makinaçılar belə akademik Nurəddin Osmanzadə barəsində tamam ayrı fikirdə idilər və bu mədhiyyədə vəsf edilən cəhətlər, palçıq quru divarı tutmayan kimi, Nurəddinə də əsla yapışmırdı. Bir insan kimi zərrə qədər zərifliyi olmayan bu adam ən iti və duzlu bir qələmlə yazılmış felyeton qəhrəmanı ola bilərdi, ancaq şer qəhrəmanı yox. «Vallah, şer heyfdi, siz allah, şerə yazığınız gəlsin, onu namərd adamlarıa adı ilə ləkələyib öldürməyin, vallah, şer müqəddəsdi» — Sakit o «şeri» oxuyanda bayaq ürəyində belə demişdi. Kefinə soğan doğranmış Sakit gözlərini dördüncü sütunda gəzdirmişdi, bu iyrənc misraları unutmaq istəmişdi, lakin ovqatı daha da pozulmuşdu — çünki dördüncü sütunda yenə redaktorun adının baş hərfləri ilə — İ.A. — deyə imzalanmış bir neçə bənd şer parçası da gözünə dəymiş və istər-istəməz onları da oxumalı olmuşdu. Bu bəndlərdə dəhlizlərdə siqaret çəkib külünü (İltifat özü nə siqaret çəkən idi, nə də içki içən idi) gül dibçəklərinə tökənlər, işə gec gəlib tez gedənlər, pulla dissertasiya yazdırmaq xülyası ilə yaşayanlar (Yalan-gerçək camaat danışırdı ki, İltifat özü bu barədə zavod direktorunun qızı olan. Fazilə xanımla belə bir sövdələşmə eləyibmiş, hətta onun üçün bir məqalə də yazıbmış — bunu onun qələminə məxsus terminlərlə

çox asanlıqla təyin eləmək mümkünmüş — ancaq nəfsini saxlaya bilməyib qıza üstəlik eşq də elan eləyəndən sonra bu iş yarımçıq qalıb və İltifat, deyilənə görə, indi o qızın əlindən zəncir gəmirir) tənqid edilirdi. Bəndlərin biri isə, Sakitin ürəyinə damdı ki, onun özünə yazılmışdı. Sakit o zaman ona məsləhət verəndən sonra İltifatın üzü dönmüşdü, salamını da güclə alırdı. Qulağı çalırdı ki, guya Sakit onun paxıllığını çəkir. İltifat bu bənddə birini — çox güman ki, Sakit idi bu adam — paxıl adlandırmışdı və hələ üstəlik başının tükünün töküldüyünə də işarə eləmişdi. Sakit pərt olsa da, özünü o yerə qoymadı və İltifata bu barədə heç nə demədi.

Həmin gün İltifatı tez-tez divar qəzetinin qabağında görmək olardı. O, uzun saçlarını sığallaya-sığallaya, burnunu çəkə-çəkə qəzeti oxuyub gedənlərin üzünə sual dolu nəzərlə baxır, bir xoş söz eşitmək istəyirdi, ancaq çox qəribə idi ki, heç kəs heç nə demədən ötüb keçirdi. «Cəhənnəmə desinlər, onların fikri mənim nəyimə gərəkdi? Əsas Nurəddin müəllimdi — o isə oxuyub üzümə gülümsündü bayaq. Deməк xoşuna gəlib!» — deyə düşünə-düşünə şöbəyə qayıtmışdı.

Otaqda sakitlik idi. Dalğa gəlib keçmişdi. İltifat dəhlizdə, qəzetinin qabağında onun-bunun ağzına baxa-baxa gəzəndə yoldaşları öz sözünü deyib qurtarmışdı. O içəri girəndə heç kəs üzünə baxmadı. Hamı başını mizinin üstə əyib nəsə oxuyur, nəsə yazırdı. Əslində isə, çoxu ürəyində İltifatın mədhiyyəsi haqqında fikirləşirdi.

Sakitdən sonra, ən çox qəzəblənən Salman idi. Salmanın əlacı olsaydı, «bu yaltaq gədəni» dişi-dırnağı ilə parçalardı, işdən qovardı, lap bu şəhərdən çıxarardı. Çünki hamıdan artıq Salmanın onun boynunda haqqı-sayı vardı və dünənəcən, Nurəddin direktor təyin edilənəcən İltifat Salmanın qoltuğunun altına sığınmışdı, ona «ustadım» deyirdi hər addımbaşı. Onda, İltifat axşamacan gözünün qabağında olan Nurəddinin böyük alimliyini, şəxsiyyət olduğunu görmürdü, görə bilmirdi. İndi isə... o, zəka sahibi idi, elmimizin ziyası olmuşdu. Nurəddini kim tərifləsəydi, Salmanın acığına gəlirdi, elə bil onun şöhrətindən kəsib Nurəddinə verirdilər. Bu za-

man o, istər-istəməz dilxor olurdu. İndi gör İltifatın Nurəddinə mədhnamə yazması onu necə də yandırmışdı.

Hayıf, bu gün Elvira — Sarışın nə üçünsə işə gəlməmişdi, gəlsəydi, mütləq İltifatı təbrik eləyərdi, bir-iki kəlmə xoş söz deyərdi. Ax, İltifat necə də istəyirdi xoş söz eşitsin? Nadirə xanımın özü burdaydısa da, fikri milis idarəsində idi. Hacının yanındaydı. Hacı, srağagün Nadirə xanımın zəngini eşidən kimi, yarım saat keçməmiş onlara gəlmiş, lenti dinləmiş, kitabçasına Reyhanın adını yazmış, bulud kimi doluxsunub ağlamaq istəyən Nadirə xanıma təsəlli vermiş, «bu səs, bu ad, artıq kələfin ucudur, Nadirə xanım, səbirli olun, qatil tapılacaq, o, quş olub göyə də çıxsa, mənim əlimdən heç yana qaça bilməz daha!» — deyərək getmişdi. Dünən cavab almamışdı, bu günün də yarısı gedib, hələ bir səs-soraq yoxdu Hacıdan. Ona görə Nadirə xanımın gözü elə telefonda idi. Hərdən, telefon zəng çalanda, səksəkə içində dəstəyi götürür, başqa adam olduğunu bilincə məyus olub dəstəyi yerinə qoyurdu. Hər dəfə telefon səslənəndə Salman da başını qaldırıb nigaran-nigaran Nadirəyə baxırdı. Bununla belə hərdən, gözü İltifata sataşanda Nadirə xanım qəribə bir ikrah hissilə ürəyindən keçirirdi: «İlahi, belə adamlar yer üzündə niyə yaşayır, niyə bu havadan udur, niyə bu gözəl torpağımızın üstündə gəzir? Axı niyə, ilahi?»

Gülmirənin fikri Nadirə xanımla Salmandaydı. Nadirə xanım maqnitofondan tapılan «qızın» əhvalatını ona bu gün səhər danışmışdı və hər ikisi baş sındırmışdı ki, kim ola bilər o qadın? Bəstəkar Baharlının qızı ola bilməzdi, çünki Nadirə xanım eşitmişdi ki, o Moskvada, konservatoriyada oxuyur və elə orada da məşhur bir aktyorun oğluna ərə gedib, günü-güzaranı da çox yaxşıdı. Nadirə xanım, qəribə idi ki, o qadını yaman görmək istəyirdi, təkcə ona görə yox ki, ondan oğlunun bəlkə ölümünün səbəbini öyrənmək mümkün olaydı, həm də ona görə ki, lent yazısından məlum olduğu kimi, o, Ceyhunu çox istəyirmiş və Ceyhun da ona möhkəm tellərlə bağlıymış, özünü bədbəxt sanan Reyhan deyilən o qadını xoşbəxt eləmək istəyirmiş. Nadirə Reyhanı görmək, oğlunun sevdiyi qadının gözlərinin içinə baxmaq,

onun son günlərini, saatlarını öyrənmək istəyirdi. Nadirə bir qadın kimi yaxşı başa düşürdü ki, bir-birini tapan, inanan, sevən adamlar bir-birinin ən məhrəm sirrlərini belə öyrənirlər. Yəqin idi ki, Reyhan da Ceyhun haqqında ondan çox bilir. Ancaq, bu məsələləri ətraflı müzakirə eləyən Nadirə və Gülmirə bir nöqtədə çaşıb qalmışdılar; niyə, nə səbəbə o qadın üzə çıxmadı, Ceyhun öləndə ortalığa gəlib onun cənazəsi üstə saçlarını yolub ürəyi boşalınca ağlamadı? Yaxşı, tutaq xəbəri olmayıb. Bəs sonra, Ceyhunun səsini-sorağını eşitməyəndə niyə bu qapıya ayaq basıb atasından-anasından soruşmadı ki, hanı Ceyhun? Neyçün mənim, zənglərimə cavab vermir, niyə məndən qaçır? Qapını, evi tanımır bəlkə? Yox, axı o bura gəlib! Onun səsi o lentə bax bu evdə yazılıb? Nadirə də, Gülmirə də çox götür-qoydan sonra bu qərara gəlmişdilər ki, bu Reyhan hər kimdisə, təsadüfi adamdı Ceyhunun həyatında — «sevirəm» desə də sevmirmiş Ceyhunu. Nadirə xanım ağlının, məntiqinin gücünə bu qənaətə gəlirdi, Gülmirə isə hissiyyatının, ürəyinin. Səhər-səhər Nadirə xanımla elədiyi bu söhbət onsuz da heç vaxt yadından çıxmayan Orxanı xatırlatmışdı ona və ürəyindən keçirmişdi ki, «sən, Nadirə xanım, bu cür zərif hissləri çətin başa düşə bilərsən. Deyirsən, Reyhanın əri var çox güman ki. Belə olan surətdə o, necə ortalığa çıxıb Ceyhunun cənazəsi üstə saç yolub ağlaya bilərdi? Yox, bu mümkün olan iş deyil, Nadirə xanım. Necə ki, mən o zaman Orxan öləndə hamı kimi, sənin kimi kənardan baxıb göz yaşı tökməkdən başqa bir şey eləyə bilmədim. Halbuki istəyirdim cənazə ətrafına yığılan adam çəpərini yara-yara irəli keçib dizlərimi yerə qoyaraq Orxanımın ağappaq ağarmış üzündən, yumulu gözlərindən öpəm, ağı deyib ağlayam! Eləyə bilməzdim, eləmədim. Çünki buna mənim ixtiyarım yox idi və heç kəs, o, cümlədən sən də — əgər eləmiş olsaydım — məni başa düşməzdin, qınayardın, qəlbinizə min cür bəd-bəd fikirlər gələrdi. O da — o Reyhan da elə, Nadirə xanım. Mən bilirəm, o indi hardasa matəm içindədi, Ceyhunu düşünür, onunla keçirdiyi xoş günləri, saatları yad eləyir. Əlbəttə, aralarındakı sevgi əsl sevgiymişsə, ötəri hiss deyilmişsə».

«Ötəri hiss» kəlmələri qəlbinə gələn kimi, Gülmirə baxışlarını qaldırıb nədənsə İltifata nəzər saldı. İltifat arıq, iri əlini çənəsinə dayayıb nə isə yazırdı. Üzündə məmnun bir ifadə vardı. Gülmirə hiss eləyirdi ki, o, divar qəzetini bu gün — direktorun anadan olduğu gün asdığına, ona öz ürək sözlərini dediyinə görə belə şaddı. Və eyni zamanda Gülmirə İltifatın özünü bir insan kimi saf-çürük eləyirdi bu anlarda. Gülmirənin İltifatdan lap əvvəldən, bu idarəyə gələrək Orxanın stolu arxasında oturduğu gündən zəhləsi getməyə başlamışdı. Hərdən bu hiss lap ifrata varırdı. Orxanın stolunda hər dəfə onu görəndə içərisi, ürəyi, xatirələri uçulub dağılırdı. Sonralar, İltifatı daha yaxından və daha yaxşı tanımağa başlayandan sonra bu təəssüf hissi xeyli güclənmişdi. Xüsusilə onun əvvəlcə Ümmügülsümə və bir az keçmiş Faziləyə «könül» açması əhvalatını eşidəndə o, İltifatın mənən çürük adam olması qənaətinə gəlmişdi. Bu söhbəti Nadirə xanım da bilirdi və demək olar ki, institutun bütün qadınları da xəbərdar idi. İltifat isə elə düşünürdü ki, onun bu «eşq qırmaqlarından» kimsənin xəbəri yoxdu, ona görə şax-şax gəzir və yeni-yeni «obyektlər» axtarmaqda davam eləyirdi. İltifat gələndən az sonra gözünü açıb görmüşdü ki, Ümmügülsümdən də, Fazilədən də, Sarışından da gözəli Gülmirədi. Ordan-burdan, ağzını allah yoluna qoyub boş-boş danışanlardan Gülmirənin həyatını öyrənmişdi, sevdiyi Orxanın, az keçmiş isə ərinin öldüyünü, onun tək-tənha qaldığını eşitmişdi. Gülmirə qara paltarda gəzərdi həmişə və qara paltardan da İltifatın çox xoşu gələrdi. Hüznlü, matəmli olduğu üçün onunla ehtiyatla danışar, amma içəridə gizli-gizli Gülmirənin gözəlliyindən yanıb yaxılardı. Üzünə bir söz deməsə də, söhbət əsnasında, iclaslarda, qonaqlıqlarda iri, domba gözlərini ondan çəkməzdi. Amma Gülmirə bir qadın həssaslığı ilə İltifatın bu baxışlarının daimi, davamlı olmadığını aydınca dərk eləyirdi və qəlbində ona gülürdü. «Səni Allah vurmuşdu, yer üzündə bir tək sən qalasan, bir də mən, yenə sənin üzünə baxmaram. Sən niyə kişi olursan? Sən Əqdəmin dırnağı da ola bilməzsən, sən Orxanın çölə atılan tükünə də dəyməzsən, — deyirdi öz-özünə. — Orxan kişi idi, Orxanın o

böyük, o şairanə məhəbbətindən sonra sən... Nəyimə gərəksən! Yaltağın biri yaltaq! Kişi də yaltaq olar?».

Ancaq son zamanlar, özü də Ümmügülsümdən və Faziladən əli çıxandan, ağzı yanandan sonra, İltifat Gülmirəyə diqqətini artırmışdı. Aydın hiss eləsə də ki, bu hökmlü, məğrur, öz gözəlliyini dərk eləyən, lakin deyəsən, qiymətləndirməyən gəlinin ondan acığı gəlir. İltifat bunu başa düşməməzliyə vurur, hər vasitə ilə yaxınlaşmağa çalışır, gecə-gündüz onu necə ələ gətirmək, ram eləmək barədə düşünürdü. Bu yolda yeganə köməkçisi yalnız şer ola bilərdi. Bir-iki şer yazmışdı, amma ürək eləyib verə bilməmişdi. Çünki Gülmirə Ümmügülsümdən də, Faziladən də boz qadın idi. İltifata bir gəliş gələ bilərdi ki, dəymişi dura-dura kalı tökülərdi və İltifat da məhz bundan qorxurdu. Lakin çox götür-qoydan sonra, nəhayət bir gün o, bütün cəsarətini toplayıb, otaqda heç kəs olmayanda çəkinə-çəkinə üzünü Gülmirəyə tutub:

— Təzə bir şer yazmışam, Gülmirə xanım, — demişdi, — icazə verirsən onu sənə oxuyum?

Gülmirə qələmini əlindən stolun üstə qoymuş, İltifatın hardan başlayıb hara gələcəyini əvvəlcədən duyduğundan mənalı-mənalı gülümsünmüş və:

— Niyə vermirəm, oxu! — söyləmişdi.

İltifat siyirməsindən üç-dörd vərəq yazılı kağız çıxartmış və burnunu çəkib oxumağa başlamışdı. Şerdə bir insafsız gözəldən, onu sevən aşiqinə gözünün ucuyla da baxmamağından danışılırdı. Gülmirə dərhal anlamışdı ki, İltifat üzünə deyə bilmədiyi sözləri kağıza köçürüb və indi ona söyləyir. Şer oxunanda yaxşı təsir bağışlamışdı, ancaq İltifatın səsi kəsilən kimi şer də yaddan çıxmışdı. Gülmirə ha istəmişdi heç olmasa bir misrasını xatırlasın, mümkün olmamışdı. İltifat sual, intizar dolu domba gözlərini Gülmirənin qayğılı, azca allanıb qızarmış üzünə dikib fikrini bilmək istəmişdi. Bunu duyan Gülmirə ağızucu:

— Pis deyil — demişdi. — Bunu kimə yazmısan, İltifat?.. — Gülmirə bic-bic soruşmuşdu. Ancaq bu kinayəni İltifat tuta bilmədiyindən sevinmişdi, çünki özü elə fürsət axtarıb; «bu şeri

sənə yazmışam Gülmirə xanım!» — demək istəyirdi. Ona görə İltifat sevincək;

— Sənə! — söyləmişdi və bu sözün ona necə təsir elədiyini yoxlamaq üçün gözünü Gülmirənin gözünə zilləmişdi. Gülmirə allanıb tutulmuş və:

— Çox nahaq yerə, İltifat! — deyə ayağa durmuşdu. — Mənim şer yazanım var, İltifat. Sən gecikmisən.

— Var? Gecikmişəm?

— Bəli.

— Kimdi o bəxtəvər? — Sakitdi?

Gülmirə yenə mənalı-mənalı gülümsünmüşdü:

— Sakit məgər şer də yazır?

— Sənin üçün yazar! — İltifatın bu sözlərindən Sakitə qarşı qəlbində bəslədiyi nifrəti duymaq çətin deyildi. Bunu Gülmirə çoxdan hiss eləmişdi. Gülmirə ilə Sakitin arasında qəribə bir mehribanlıq yaranmışdı son vaxtlar. Bu, təmiz bir ünsiyyət idi. Sadəcə Gülmirənin Sakitin yazılarından da, təbiətindən də xoşu gəlirdi. Mehriban adam idi, həssas idi, ürək qızdırıb dərdini-sərini demək olardı. Sakit Gülmirəyə dərdli bir qadın kimi çox ehtiramla, qayğı ilə yanaşırdı. Gülmirə fasilə zamanı hərdən-birdən özü üçün çay tökəndə Sakitin də armudu stəkanını doldurardı və Sakit ona təşəkkür eləyərdi. Səmimi danışardılar. İltifat bu dostanə münasibətdən darılırdı, buna başqa məna verirdi. Açıq-aşkar heç nə deməsə də, qəlbi gözlərinə yazılırdı İltifatın. Və bunu — o qara qəlbi və o qara fikirləri oxuyurdu Gülmirə. Hər yetənə eşq elan eləyən, «tutar qatıq, tutmaz ayran» fəlsəfəsi ilə yaşayan, «bu qızlar gəldi-gedərdi, onlara yazılan şerlər qalacaq mənə» söyləyən İltifatı sancmaq üçün yaxşı fürsət düşdüyünü görən Gülmirə Orxanın divardakı şəklinə baxıb canlı imiş kimi göz vurmuş və ciddi surətdə demişdi:

— Mənə elə gəlir ki, Sakit şer yazmaq istəsə, şair olmamağına baxmayaraq, səndən yaxşı yazar, İltifat.

— Hə?

— Bəli. Bilirsən, sənin şerlərinə baxıram, görürsən hər şey

yerli-yerindədi, sözlər, qafiyələr. İlk oxunuşda da adama yaxşı təsir eləyir — ancaq bu təsir anidir, keçicidir, İltifat. Sonra ha axtarırsan, bir yaddaqalan misra tapa bilmirsən.

— Hə?

— Hə, İltifat. Bağışla ha. Bəlkə xətrinə dəyirəm, ancaq həqiqət belədi.

— Ola bilər, Gülmirə xanım. — İltifatın gözləri sağa-sola axmışdı — Bu sənin şəxsi fikrindi. Bununla razılaşmaq da olar, olmaz da. Ancaq Sakit haqqında dediyin sözlər lap ağ oldu. Görünür, burada simpatiya məsələsi birinci plandadır, Gülmirə xanım. Mənə qalsa, o nəinki şer yaza bilməz, hətta onun nəsrinə də mən aşağı səviyyəli, primitiv bir nəsr kimi baxıram. Dəhşətdi. Naturalizm var onda.

— Bəlkə realizm demək istəyirsən?

— Yox, yox, sırf naturalizm. Sən təsəvvür elə ki, mən onun kitablarını oxumağı arvadıma, qızıma qadağan eləmişəm.

— Yox, a?

— Vallah.

Gülmirə İltifatın Sakitin şöhrətinə, müvəffəqiyyətinə küsəndiyini, içini, ürəyini gəmirən paxıllıq, həsəd hissini başa düşdüyündən daha bu barədə danışıb mübahisə eləməyi yersiz sanmışdı. İltifat isə qulaqlarını, cırmaqlayan və Gülmirənin bir az əvvəl söylədiyi «Mənim şer yazanım var» sözlərini unuda bilmədiyindən, o «şer yazanın» kim olduğunu öyrənmək həvəsini boğmağı bacarmadığından sözü hərləyib soruşmuşdu:

— Deyirsən sənin şer yazanın var? Gülmirə İltifatın incə yerinə toxunduğunu başa düşüb rişxəndli bir təbəssümlə:

— Hə, var, İltifat. — demişdi.

— Kimdi o elə!

— Bunun sənə dəxli yoxdur!

Maraq və həsəd İltifatın ürəyini yandırmışdı:

— Sən allah, kimdi?

— Demərəm.

İltifat çarəsiz halda dodaqaltı nə isə mızıldanmış və yalvarıcı

bir tərzdə;

— Bir şerini desən, bilərəm kimdi?.. — söyləmişdi — Yadında qalanı varsa, birini de.

— Onun mənə yazdıqlarının hamısını əzbər bilirəm, İltifat.

— Yaxşı, bircəciyini de.

Gülmirə otaqda fırlanıb pəncərənin qabağına gəlmişdi, həyətdəki yaşıllığa baxa-baxa əzbərdən bu şeri demişdi;

Səninçün gülüşəm, arzuyam, güləm,
Dadlı bir röyayam, səadətəm mən.
Səninçün xəyalam, şerəm, nəğməyəm,
Səninçün vəfayam, sədaqətəm mən.

Təşnə ürəyinçin sərin bulağam,
Sənin olacağam, nə qədər sağam.
Səninçün dünyada arxayam, dağam,
Səninçün şərəfəm, şərafətəm mən.

Sənin ürəyinəm, nurlu gözünəm,
İsti nəfəsinəm, şirin sözünəm,
Sənin varlığınam, sənin özünəm,
Səninçün ətirəm, təravətəm mən.

Sənə arzu dolu şirin cahanam,
İstərəm tək sənin oduna yanam.
Kim deyər, səninçün adi insanam —
Təpədən-dırnağa məhəbbətəm mən.

Şerin son misrasını söyləyəndə geri qanrılıb əli üzündə laldinməz qulaq asan İltifata baxmış və gülmüşdü:

— Hə, tapdın?

— Yoox. Tanış gəlmədi, heç yerdə oxumamışam belə şer.

— Oxuya da bilməzsən. Bu şerləri o ancaq mənə yazır və

ancaq mən oxuyuram. Bəziləri kimi bir şeri üç-dörd qıza-qadına oxuyub hərəsinə ayrı-ayrılıqda demir ki, bunu sənə yazmışam.

— Kimdi axı o bəxtəvər? — deyə İltifat tələsik halda təzədən soruşmuşdu — çünki Gülmirənin çox incə bir mətləbə onun özünə işarə elədiyini anlamışdı, yüngülcə qızarmışdı.. Yaxşı ki, bu zaman Ümmügülsüm və Fazilə nə haqdasa danışıb gülə-gülə içəri girmiş, söhbət yarımçıq qalmışdı. Az sonra İltifat otaqdan çıxanda Ümmügülsüm özünəməxsus bir ərkyanalıqla Gülmirəyə baxıb:

— Əğəz, indi də deyəsən bu əyrimçə səni xamlayıb? — soruşanda Gülmirə şaqqanaq çəkib gülmüşdü:

— Hə, düz tapmısan, deyirdi sənə şer yazmışam.

— Hansı şeri deyirdi? — Fazilə soruşmuşdu.

— «Yuxuda gördüm ki...»

— Ay, ay. Mənə söylədiyi şerdi. Ümmügülsüm əllərini saçlarına çəkib: — Yox, mənə yazdığı şerdi, ağəz! — deyərək fırlanıb yerində oturmuşdu. Sonra onlar İltifatın ardınca o ki, var alıb-vermişdilər. Onu simasız adlandırmışdılar. Bu söhbət iki həftə bundan qabaq olmuşdu. Bir neçə gün İltifat Gülmirədən qaçmışdı, üz-üzə, göz-gözə gəlməkdən çəkinmişdi. Ancaq Gülmirənin dediyi bir sözü heç cür yaddan çıxara bilməmişdi: «Mənim şer yazanım var, İltifat. Sən gecikmisən!» İşdə də, küçədə də, evdə də başını elə hey sındırırdı ki, bu adam kim ola bilər? İnstitutda ondan başqa şer yazan yox idi. Bəlkə kənardandı? Ola bilməzmi? Cavan, qəşəng, subay gəlindi. Kim keçər ondan, kim istəməz Gülmirə kimi gözəl bir qadın onun ürək həmdəmi olsun? Ha fikirləşmişdi, lakin tapa bilməmişdi. Nigaran-nigaran gəzib dolanmışdı.

Ancaq bu gün, onun «Zəka» qəzeti divardan asılan gün, şöbədə camaat sükut içində oturub işlərkən, birdən başını qaldıran İltifat Gülmirənin kədərli baxışlarının Orxanın divardakı şəklinə zilləndiyini görəndə hər şeyi başa düşmüşdü. «Mənim şer yazanım var, İltifat. Sən gecikmisən!» — Gülmirə bu sözləri deyən zaman da, əgər hafizəsi onu aldatmırsa, Orxanın şəklinə baxmışdı. Hə, hə, baxmışdı. Orxanı deyirmiş Gülmirə. Bəli, Orxanı. İltifat çoxdan eşitmişdi ki, Orxan Gülmirəni sevib. Orxan «Gülmirə»

deyə-deyə dünyadan gedib. Və bunu da bilirdi ki, Gülmirə indi də Orxanın xatirəsini çox əziz tutur, hər ay o ölən gün qəbrinii üstünə gedib gül qoyur. Orxanın evində yaşayır və qapısının üstündən hələ də onun adı yazılmış lövhəni çıxarmayıb.

Gülmirənin şer yazanını tapdığına çox sevindi İltifat. Bundan da daha çox onun sağ olmadığına sevindi. Ancaq bu sevinc tez ötüb-keçdi, çünki birdən-birə ürəyini qəribə bir həsəd hissi sıxdı: Gülmirə gör Orxanı necə sevib ki, indi də unuda bilmir. Gör Orxan necə oğul olub ki, Gülmirə ondan ölü kimi yox, diri adam kimi danışır. Demir ki, «mənim şer yazanım var idi». Deyir «mənim şer yazanım var». Bəs «sən gecikmisən» nə deməkdir? Necə yəni gecikmisən? Axı Orxan daha yoxdur. Bəs niyə gecikib İltifat?

Bu suallar onun kefini pozdu və qeyri-iradi olaraq, hər gün beş-on dəfə gördüyü şəklə — Orxanın şəklinə qanrılıb xeyli tamaşa elədi. Onun bu baxışlarını Gülmirə də tutdu və başını aşağı salıb kitabını oxumağa başladı. Orxan adi bir adam idi. Zahirən başqalarından heç nəylə fərqlənmirdi təbii ki. Ancaq İltifat onun qaynar gözlərində nə isə ayrı bir cazibə, ayrı bir məna gördü elə bil. Və ona nədənsə elə gəldi ki, yəqin indi sümükləri də çürüyüb qaralmış Orxanın qara qalstukundan azca sol tərəfdə, döş qəfəsində tamam başqa cür çırpınan bir ürək olub və Orxanın gücü, qüdrəti də məhz o ürəkdədi, o yalnız ürəyi ilə Gülmirəni özünə əsir eləyib. Və İltifat Orxana qibtə elədiyini duyub bu hissindən utandı, sonra özünü danladı ki, ölmüş adamın nəyinə qibtə eləyir? İşin axırında adamlar kitab-dəftərini yığışdırıb evə yollananda, məqam tapıb Gülmirəni yanladı:

— Tapdım, Gülmirə xanım.

Gülmirə təəccübləndi, çünki o günkü söhbəti tamam unutmuşdu.

— Nəyi?

İltifat şit-şit hırıldadı:

— Sənin şer yazanını!

— A... — deyib ayaq saxladı — Kimdi?

— Orxandı, Gülmirə xanım. Düz tapmışam?

Gülmirənin rəngi dəyişib allaşdı, sanki ən əziz, ən müqəddəs hissinə kobud, çirkin bir əl toxundu və çəkinmədən, gizlətmədən, düz İltifatın domba gözlərinin içinə baxaraq:

— Hə, düz tapmısan, — söylədi. Daha onun nə deyəcəyini gözləmədən liftə sarı gedəndə İltifatın səsini eşitdi:

— Gülmirə...

— Nədi? — o, döndü.

— Mən... Mən səni...

Gülmirə gözlərini qıyıb qəzəblə:

— Əl çək məndən, İltifat! — deyə çımxırdı.

İltifat bir anlığa duruxdu; neyləyəcəyini bilmədi, ancaq sonra nə fikirləşdisə, o yan-bu yana baxaraq kimsənin olmadığını görərək cəsarətləndi və son «gülləsini»də atmağı qərara alıb söylədi:

— Necə əl çəkim, Gülmirə? Sən o ölüdən əl çəkmirsən, mən səndən necə əl çəkim?

Gülmirə şəhadət barmağı liftin düyməsində İltifatı təpədən dırnağa rişxəndli bir təbəssümlə süzüb:

— Fu! Gör sən özünü kimlə müqayisə eləyirsən? — dedi. — O, ölmüş də olsa, səndən canlıdı, İltifat, səndən böyükdü, ucadı.

— O ölüb, Gülmirə!

— Səhv eləyirsən, İltifat. O, mənim üçün sağdı, həmişə də sağ olacaq, İltifat. Bunu heç vaxt yadından çıxartma.

—…

## ON DÖRDÜNCÜ FƏSİL

Gülmirə yaman pərişan olmuşdu. İltifatın onunla bu cür sırtıq rəftarı — eşq elan eləmək istəməsi, hələ üstəlik Orxanın da adını çəkməsi, onu — Gülmirənin əzizini ölü adlandırması ürəyini alt-üst eləmişdi. Evə gəlmişdi. Soyunub duş qəbul eləmişdi, ancaq aram ola bilməmişdi. Elə bil kimsə öz murdar əllərilə onun təmiz vücuduna toxunmuşdu, soyuq suyun altında çiməndən sonra da o, özünü pak hesab eləyə bilmirdi. İndi, eyvanda oturub qarşısında

mürgü vuran dənizə baxa-baxa ürəyində İltifata dərin bir nifrət hissi qaynadığını duyurdu. «Məni tək, kimsəsiz görüb gör nə ağız bəhəm eləyir bu yaramaz!? «Sənə şer yazmışam!» Sənin şerin təpənə dəysin, dombagöz vicdansız! Simasız adam!» — Qəlbi hövlündən az qalırdı partlamaq dərəcəsinə gəlsin. Bu, Gülmirə üçün qeyri-adi hal idi. Əqdəm, Orxan dünyadan köçəndən sonra indiyəcən heç bir başı papaqlı cürət eləyib ona güldən ağır bir söz söyləməmişdi, pis gözlə baxmamışdı. Sadəcə, o özünü elə aparmışdı ki, kimsə buna cəsarət eləməmişdi. İndi İltifat... Birdən o, xatırladı ki, İltifat eyni sözləri Ümmügülsümə də, Faziləyə də söyləyib. Onlar İltifatın dediklərini heç veclərinə də almayıblar. «Sən niyə pərt olursan, Gülmirə! heç əhəmiyyət vermə. Sayma onu, qoy qalsın yana-yana. İt hürər, karvan keçər! Yox, ölünü özbaşına qoymaq olmaz. Bir də belə cəsarət eləsə, onu biabır eləyəcəyəm — bütün kollektivin içində üzünə tüpürəcəyəm. Baxmayacağam akademik oğludu, şairdi, nə zibildi!» — deyə o, nəhayət bu gün ona ağır, təhqiramiz sözlər demiş — Gülmirə bunu məhz təhqir hesab eləyirdi — İltifatın xəyalını yaddan çıxarmaq üçün qalxıb eyvanda gəzindi, daş məhəccərə dirsəklənib aşağıya — küçəyə, Bəhram-Gurun əjdaha ilə vuruşmasına, dayanan maşınlara, gəzişən adamlara tamaşa eləməyə başladı. Köhnə İnturistin qabağında ağappaq, uzun «Zim» maşını diqqətini cəlb elədi. Maşın qırmızı lentlərlə, qərənfillə bəzənmişdi. İçərisindən dümağ geyinmiş bəstəboylu bir gəlin düşdü. Görünür toy idi. Qara kostyum geymiş oğlan qızın qoluna girib o biri maşınlardan da düşən adamların — bəzənib-düzənmiş qızların, gəlinlərin müşaiyəti ilə yavaş-yavaş pillələri çıxıb içəri keçdilər.

Gülmirə ürəyindən keçirtdi:

«Xoşbəxt olun. Səadət sizə yar olsun, cavanlar». Uzaqdan eşitdiyi çalğı səsi, gözlərini oxşayan alabəzək toy izdihamı könlünü oxşadı, içərisini xoş duyğularla doldurdu. Baxışlarını dolandırıb mavi dənizə baxdı. Dənizdən sərin meh əsirdi. Gülmirənin yanaqlarını, saçlarını oxşayırdı. Əsəbləri dincəlirdi, xəyalı hər dəfə bu eyvana çıxanda olduğu kimi, Orxanı heçlik, yoxluq

aləmindən tapıb yanına gətirirdi. Zahirdə eyvanda tək idi, amma xəyalında Orxan da böyründə dayanmışdı. Onun «səsini» eşidirdi, «hənirtisini» duyurdu, lakin qanrılıb üzünə baxmaqdan qorxurdu — çünki dönüb baxsaydı, Orxanın yerini boş görəcəkdi, məyus olacaqdı — bunu isə o, heç istəmirdi. Sükut gözəl idi, bu sükuta kənardan nəhəng mavi bir gözə oxşayan ancaq dəniz baxırdı. Gülmirə dənizin mavi gözə bənzədiyini hiss eləyəndə Orxanın haçansa, gərək ki, üç il bundan qabaq Gülmirəyə verdiyi tək vərəqdə yazılmış şer yadına düşdü. «Mənim gözüm dənizdi...» Onda Gülmirə Salmanın maşınında Nadirə xanımla Ceyhunla birgə tez-tez dənizə gedərdilər, doyunca çimərdilər. Səhər işə qayıdanda Gülmirə şöbədə dünən axşamçağı, gecə dənizə getdiklərindən, yaxşı-yaxşı istirahət elədiklərindən ağızdolusu danışırdı. Bu söhbətləri hamı kimi, Orxan da dinlərdi. Və o zaman Gülmirəni dəli bir məhəbbətlə sevən o, arzulardı ki, kaş elə gün olaydı, mənə də səninlə o dənizdə çimmək kimi bir səadət nəsib olaydı, Gülmirə. Bunu o, əlbəttə, ürəyində deyərdi, cəsarət eləyib Gülmirənin özünə söyləyə bilməzdi. Ancaq bir dəfə Orxan utana-utana Gülmirəyə dörd bükülmüş bir kağız verdi. Həmin şer yazılmışdı o kağıza. Gülmirə yalnız onda başa düşdü ki, Orxan onu necə ülvi bir məhəbbətlə sevir. İllər keçməsinə baxmayaraq, o şer Gülmirənin yadından çıxmamışdı. Və qəribə idi ki, o şeri də oxuyandan sonra o, tək bircə dəfə dənizə getdi. Onda doğrudan da elə bildi ki, dəniz Orxanın gözüdü. Gülmirə onun gözlərinin suyunda çimir. Bu, ona çox qəribə göründü və ondan sonra daha dənizə getməyəcəyinə söz verdi. Orxana onunla bir yerdə dənizə getmək qismət olmadı. Bu arzu onun ürəyində qaldı. İndi gör üstündən nə qədər vaxt keçir, hələ də Gülmirə dənizə getməyib. Çətin ki, bundan sonra bir də getsin. «Getməsəm də olar. Əzizim gözünü orda qoyub—mənim eyvanımın qabağında. Ordan mənə baxır. Gəlmədiyimi görüb bax beləcə, sərin mehə dönüb mənim yanıma uçur, tellərimi, boyun-boğazımı öpüb oxşayır»... «Mənim gözüm dənizdi» misra-misra, söz-söz ürəyinin dodaqlarında həzin bir kədər və məhəbbət nəğməsi kimi səslənirdi:

Mənim gözüm dənizdi, çimərsən gözlərimdə,
O mərmər bədənini göz yaşımda yuyarsan.
Mavi dalğalarımda öpüb oxşaram səni,
Məst olub nəfəsimdən qoynumda uyuyarsan.

Mənim gözüm dənizdi, dikilər yollarına,
Zərrin damcılarımı qədəminə çilərəm.
Sən dənizə gəlməsən, dönüb sərin küləyə —
Səni əzizləməkçin eyvanına gələrəm.

Mənim gözüm dənizdi, incisi sən, dürrü sən —
Gözümün bəbəyində səni gizli saxlaram.
Əgər bir gün söyləsən — unutmuşam səni mən —
Dəniz boyda ağlaram, dəniz boyda ağlaram.

Şer Gülmirənin içində oxunurdu. Ancaq ona elə gəlirdi ki, Orxan yanında dayanıb, özü pıçıldayır bu sözləri. Son misralar təkrar-təkrar Gülmirənin qulaqlarında səslənirdi:

Əgər bir gün söyləsən — unutmuşam səni mən —
Dəniz boyda ağlaram, dəniz boyda ağlaram...

Gülmirə qanrılıb böyrünə baxmadan, gözlərini «onun gözündən» — çəkmədən pıçıldadı:

«— Yox, Orxan. Sən arxayın ol, mən səni heç vaxt unutmayacağam və qoymayacağam ki, sən dəniz boyda ağlayasan, əzizim. Amma sən məni unudubsan, Orxan. Unutmasaydın, gələrdin gecələr yanıma; neçə aydı mən sənin evinə köçmüşəm, Orxan. Mən indi sənin gəlininəm, Orxan. Sən isə mən bura köçəndən bircə dəfə də olsa qapımızı açıb içəri girməyibsən. Yoxsa bura köçdüyümü bilmirsən? Bəlkə sənin evinə köçdüyümdən narazısan, küsübsən bəlkə məndən? Lap darıxmışam səninçün, Orxanım...»

Artıq hava qaralmışdı. Sahilin işıqları yanmışdı. Dəniz boyunca sıramla düzülüb nur saçan ağ sütunların şöləsi sulara

düşmüşdü və elə bil, Orxanın o nəhəng mavi gözünün kirpikləri qızıldan idi.

«—Xoş gördük, gülüm.

— A... sənsən? Aman allah, gör kim gəlib, gör kim gəlib! Xoş gəlibsən, ay mənim sevincim, fərəhim. Ay mənim doyulmazım, əvəzsizim, — deyə-deyə Gülmirə elə yorğan-döşəkdə, dikəlib qollarını Orxanın boynuna doladı. Sevincdən dodaqları titrəyirdi, nəfəsi tıncıxırdı. Orxan çarpayının yanında əyilmişdi. Gülmirə sonsuz bir həsrət içində onun üzündən, gözlərindən öpürdü. Orxan onun ağ balışın üstünə dağılmış tellərini sığallayırdı.

— Hardasan, Orxanım. Belə də insafsızlıq olar? Axı sən bilirsən mən təkəm! Hər gün, hər gecə sənin yolunu gözləyirəm, sən isə gəlib çıxmaq bilmirsən, Orxanım. Mənə heç yazığın gəlmir?

Orxan onun dodaqlarından öpüb: — Darıxmışdın, Gülüm? — deyə xəbər alanda:

— Hələ bir soruşursan da? — söylədi Gülmirə və incidiyini bildirirmiş təki, yerində azca geri çəkildi, nazla: — Hələ bir soruşursan da ey, sən allah! — dedi...

Orxan çarpayının qırağında oturdu, soyuq əlləri ilə Gülmirənin həyəcandan od tutub yanan sifətini özünə tərəf çevirib nəmlənmiş gözlərinə baxa-baxa:

— Ay mənim mehribanım, — dedi, — mən hara getmişdim ki, gələm də? Mən elə həmişə sənin yanındayam da, ay mənim əzizim. Sən məni gördün-görmədin, mən sənin yanındayam həmişə. Sənin hər işindən, addımından, sevincindən, kədərindən xəbərim var, Gülüm, inanmırsan?

— İnanıram, Orxanım. Ancaq... Mən səni hər an, hər saat, hər gecə yanımda görmək istəyirəm, səsini eşitmək istəyirəm, Orxanım. Sən səsini çıxartmayanda, bax, beləcə, varlığını, nəfəsini açıq-aşkar hiss eləməyəndə dəli oluram, sınıram, təklənirəm, özümü bədbəxt hiss eləyirəm.

— Yox, yox, o hissləri özündən uzaqlaşdır, mehribanım. Sən tək deyilsən, sən özünü heç vaxt bədbəxt hiss eləmə, gülüm. Bax, nəyin yoxdu? Hər şeyin var, qurban olum. Evin mübarəkdi,

sağlığına qismət olsun, əzizim.

— Evin niyə deyirsən? Bu ev sənin deyil bəs?

— Mənim idi bir vaxt, indi sənindi. Mənim evim ordadı, balaca, qapısız, pəncərəsiz bir otağım var. Bəsimdi. Bu ev sənindi, gülüm.

— Yox, bizimdi, Orxan, ikimizindi. Mən bura sənin otağına toysuz-çalğısız, ürəyimdə bir dünya nisgil, gəlin gəlmişəm. Sənin nəfəsin, ruhun yaşayan bu ocağa gəlin gəlmişəm, Orxanım.

— Xoş gəlibsən, əzizim, xoş gəlibsən!

— Bəs niyə indiyəcən gəlib məni öz evində, öz otağında təbrik eləmirdin, Orxanım? Bilmirdin bura köçmüşəm?

— Bilirdim..: Özüm gəlmirdim, Gülmirə. Deyirdim qoy yaşasın, məni unutsun, mənsizliyə öyrənsin, adət eləsin. Bəlkə onda xoşbəxt ola bildin... Ancaq gördüm yox, sən məni unuda bilmirsən. Bu gün... isə.... lap əmin oldum ki, mən sənin taleyinəm, mən sənin bütün varlığınam, nəfəsinəm, səni tək qoymaq günahdı, ona görə gəldim.

— Niyə məhz bu gün, Orxanım?

— Ona görə ki, bu gün o sizdə işləyən oğlanın sənə dediyi sözləri, sənin ona cavabını eşitdim, mehribanım.

— Dombagözü deyirsən?

— Adını bilmirəm. Ad yadımda qalmır... Hə, sənin ona verdiyin cavabı eşitdim və ürəyim fərəh, iftixar hissiylə doldu, mehribanım. Sağ ol, gülüm. Ananın südü sənə halal olsun — o, belə deyib Gülmirənin bir az təəccübdən — bunları Orxan hardan bilirdi — bir az sevincdən yaşarmış gözlərindən öpüb:

— Sən ağlayırsan? Ağlama, ağlama, vəfalım mənim — dedi! Və ona elə gəldi ki, doğrudan da ağlayır. Hıçqırığına gözlərini açdıqda özünü çarpayıda tək görüb dərindən, bir ah çəkdi, sonra dənizə, — «o nəhəng mavi gözə» — Orxanının gözünə baxa-baxa sevinc qarışıq bir kədər içində düşündü:

«Məhəbbət böyük olanda, həsrət dözülməz olanda sevdiyin adam lap torpağın altından da qalxıb yanına gələ bilərmiş, ilahi. Budu məhəbbətin möcüzəsi».

## ON BEŞİNCİ FƏSİL

Xəzangülün kolyaskası evdəydi, divanın yanındaydı — qarşı divara sarıydı və o, həmişəki kimi hərəkətsiz televizora baxırdı. Əsəd onu bir az əvvəl gətirmişdi dəniz qırağından. Sahildə də hava isti idi, həyətdə lap bürküydü. Otaqda isə heç nəfəs almaq olmurdu. Sahilə küçəyə baxan pəncərələrin hər ikisini açmışdısa da, içərinin nəfəsi azalmamışdı.

Xəzangül fikirli-fikirlr kinoya tamaşa eləyirdi. Sahilə anasının yanında olmasa da, yan otaqda paltarını dəyişməklə məşğul olsa da, bilirdi ki, o, ekrana elə-belə baxır, fikri Əsədin yanındadı. Arzulayır ki, gecə tez gəlib gedəydi, səhər tez açılaydı və Əsəd yenə gəlib onu dəniz qırağına aparaydı. Kim bilir, bəlkə də Xəzangül belə düşünmürdü, ancaq Sahiləyə elə gəlirdi ki, anası məhz bundan başqa heç bir arzu ilə yaşaya bilməz indi.

Aralıq qapı cırıltı ilə açıldı, Sahilə ağappaq parçadan tikilmiş uzun ətəkli donda, ağ ayaqqabıda kolyaskanın qabağına keçdi, anasının önündə fırlandı—donunun uzun ətəyi yuxarı qalxdı. O, dayanıb anasına nəzər saldı və sevinc dolu bir səslə:

— Hə, necədi, ana? Yaraşır mənə? — söylədi. Xəzangülün uzun kirpikli gözləri geniş açıldı, solğun sifətində təəccüb qarışıq bir fərəh ifadəsi gəzib dolaşdı. Xəzangülün qaşları yuxarı dartıldı; bu, o demək idi ki, hardandı o paltar, o ayaqqabı? — Sahilə ömründə bu cür gözəl don geyməmişdi və bayaq, yan otaqda, güzgüdə özünə baxarkən fikirləşmişdi ki, o, heç vaxt belə gözəl olmayıb.

— Yaraşır mənə? Yaraşır? — deyə təkrar soruşanda yadına düşdü ki, bu sorğu-sual əbəsdi, Xəzangül ona onsuz da cavab verə bilməyəcək.

Xəzangülün gözləri səyridi və yanaqlarında iki damla yaş göründü. Sahilə kəsdirə bilmədi ki, o, niyə ağlayır, sevincdənmi, kədərdənmi? Fərəhinin üstünə su çiləndi elə bil, taqətsiz halda divara söykəndi. Xəzangülün dili söz tutsaydı, söylərdi ki, müba-

rəkdi, qızım. Sənə necə də yaxşı yaraşır — lap gəlin paltarındasan elə bil. Təəssüf ki, Xəzangül heç nə demirdi. Və Sahilə də başa düşmürdü ki, o iyirmi il əvvəl, onuncu sinfi bitirərkən geydiyi ağ paltarı xatırlayıb belə kövrəlib. Buraxılış gecəsi o da belə geyinmişdi. Yoldaşları və müəllimləri ilə son vida gecəsinə gedəcəkdi... Ancaq getmədi, gedə bilmədi — onu qoymadılar. Və o, ağlaya-ağlaya təzə paltarını soyunmalı oldu.

Xəzangül, deyəsən, məhz o günü xatırlamışdı. Yəqin bir də bu ona əzab verirdi ki, Sahilə bu paltarı, ayaqqabını, hardan, hansı pula alıb?!

Sahilə Xəzangülün qaşlarının tez-tez yuxarı dartmasının mənasını bildiyindən, arvadı sakitləşdirmək üçün, divardan ayrılıb iki pəncərənin arasına qoyulmuş stola yaxınlaşdı, qələm, kağız götürdü, oturmamış, elə ayaq üstə, iri hərflərlə yazdı: «Ana, bu paltarı, ayaqqabını Əsəd müəllim buraxılış gecəsi üçün mənə alıb. Götürmürdüm» dedi: «Götürməsən inciyərəm, qızım, küsərəm səndən». Mən də məcbur olub qəbul elədim. Pis iş körmüşəm? Əgər acığın gəlirsə, de, qaytarım. Bu saat qaytarım!» Sahilə kağızı anasının gözü önünə tutdu; Xəzangül tələsə-tələsə yazılanları oxuyub xırıltılı bir nəfəs aldı. Elə bil arvad nigarançılıqdan qurtardı, rahatlandı, qaşları əvvəlki yerinə gəldi. Sahilə Xəzangülün nəmli gözlərində yalnız Əsədi görərkən hiss elədiyi sevinc parıltısını duyub bir qədər sakitləşdi... Sahilə təzədən ayrı bir vərəqə yazdı:

— Qaytarım?

Xəzangülün qaşları dartıldı:

— Yox.

Sahilə yazdı:

— Sən mənə buraxılış gecəsinə getməyə icazə verəcəksən?

Xəzangül qaşlarını, kirpiklərini endirdi:

— Hə.

Sahilə kağızı, qələmi stolun üstünə atıb anasına yaxın gəldi, əyilib üzündən öpdü:

— Sağ ol, ana! — Sonra əlinin içiylə Xəzangülün yanaqlarının yaşını sildi. Ortalıqda bir-iki dəfə də fırlanıb anasını sevi-

ndirdi — Doğrudan da Xəzangülün sifəti işıqlanmışdı, gözlərindən nur tökülürdü. Sahilə yenə fırlanıb yan otağa keçdi, az sonra özünün saya çitdən tikilmiş paltarında geri qayıdanda Xəzangülün tez-tez yuxarı qalxan qaşlarını görüb təəccübləndi. Sual, nigaran-çılıq dolu nəzərlərlə:

— Nədi, nə olub? — deyə soruşdu. Xəzangül yenə qaşlarını qaldırıb qapıya sarı işarə elədi. Qız dönüb qapıya boylandı. Qapı açıq idi, gedib bağladı. Anasının üzünə baxanda dediyini düz başa düşmədiyini yəqin eləyib çaşqın-çaşqın döyükdü. Neçə an onun nə söyləyə biləcəyini götür-qoy eləyib ağlına gələn fikirdən sevindi və tezcənə kağıza sözləri yazıb ona göstərdi:

«— Əsəd müəllimi istəyirsən?» — Xəzangül vərəqə baxan kimi kirpiklərini razılıqla endirdi. Bayaqdan aramsız dəbərişən, nə isə demək istəyən o gözlər toxdadı. Anasını düzgün başa düşdüyünə sevinən Sahilə otaqda bir anlıqa ora-bura vurnuxdu və özünü güllə kimi bayıra atdı.

…Yarım saat keçməmiş Əsəd qabaqda, Sahilə də dalınca içəri girəndə... Xəzangül gözlərini qapıya zilləmişdi. Əsəd ev paltarında idi, səndəllərini corabsız geymişdi, qolsuz köynəyinin üst düymələri açıq idi. Qaça-qaça gəlmişdilər deyə hər ikisi tövşüyürdü. Əsədin iri alnında tər damcıları görünürdü. Sahilə çiyinlərindən nəfəs ala-ala anasına qorxu içində baxırdı. Əsəd sağ əlini Xəzangülün alnına qoyduqda Sahilə həyəcanla soruşdu:

— Deyəsən, halı pisdi, Əsəd müəllim? Qızdırması var?

Əsəd ağır-ağır dindi:

— Yox. Qızdırması yoxdu, qızım.

Xəzangül altdan-yuxarı geniş açılmış gözlərini Əsədin ağarmış saçlarında, alnında muncuq-muncuq dayanan tər damcılarında gəzdirdi və sonra gözlərinin içinə baxmağa başladı. Bu baxış davamlı baxış idi, sözlə, hisslə dolu baxış idi —onda yazılanları oxumaq üçün bəlkə də bir ömür lazım idi. Əsəd qeyri-ixtiyari kirpiklərini qırpdı: sanki Xəzangül elə bunu gözləyirmiş — o da iyirmi il əvvəlki kimi uzun kirpiklərini endirdi və elə bunun dalınca da bütün vücudu ilə dartındı, heç kəsin ağlına gətirmədiyi

bir söz onun illərdə tərpənməyə həsrət solğun dodaqları arasında çırpınıb düşdü:

— Bağışla!..

Elə bil otaqda şimşək çaxdı. Divarlar Əsədin, Sahilənin başına dolandı. Sahilə dəhşət içində qışqırdı:

— Səsinə qurban olum, ana. Sən danışırsan? Əsəd də özünü saxlaya bilməyib çığırdı:

— Xəzangül! Xəzangül?!

*Bakı, 1975—1980-ci illər.*

# GÜNDƏLİYİMDƏN SƏHİFƏLƏR…

## İşıqlı dünya…

Yeni il gecəsidir. Otaqda iki cavan – bir qız, bir oğlan üz-üzə oturmuşdur. Hər ikisi qəmlidir. Onlar istər-istəməz, bəzən özləri də bilmədən soyuq ah çəkirlər. Axı onların – bu iki sevgilinin bu əziz gündə heç nələri yoxdur! Oğlan qızdan utanır, qız da oğlandan…

Qız ağır-ağır ayağa qalxır və könülsüz halda işığı yandırır. Oğlanın qəmgin, solğun üzündə ani bir sevinc parıltısı görünür. Oğlan bir anlığa sevinən kimi olur və qıza üz tutub:

- Allah səni işıqlı dünyaya çıxartsın, əzizim – deyir.

Qız boynunu azca əyib inamsız, incik bir halda pıçıldayır:

- Amin!

*Bakı, 1959, 1 yanvar*

## Allahın yanında

İki kişi söhbət edirdi:

- İşim düzəlmədi.
- Niyə?
- Adamım yoxdur.
- Eh, qardaş, indi gərək allahın yanında da adamın olsun.

*Bakı, 1959, 1 yanvar*

## İnsanlara müraciət

Mən dünyada yalnız bir halal şey tanıyıram. O, heç kəsdən bir qəpik artıq, bir qəpik əskik almaz. O, hamıya – şaha da, gədaya da eyni dərəcədə xidmət edir. O, canlı deyil, o, insan deyil… O bilirsinizmi nədir?

Telefon! Cansız, dəmir telefon.

Siz də o telefon kimi düz olun, insanlar. Siz də onun kimi halal, onun kimi bir üzlü olun, insanlar!

*Bakı, 1959, 2 yanvar*

**Mənim cibimdə**

Dostumla çox zəngin bir mağazadayıq. Burda hər nə istəsən tapa bilərsən…

Mən göz qamaşdıran şeylərə baxıb ağız ucu:

- Əşi, gəl gedək, bir şey yoxdur – dedim.
- Harda? Mağazada?
- Yox, dostum, mənim cibimdə!..

*Bakı, 1959, 3 yanvar*

**İtmiş uşaq**

Əli küçədən bir uşaq tapmışdı. Evə gətirib geyindirdi-keçindirdi. Konfet verdi. Uşaq kiriyib sakit oldu. Əli uşağa hər gün konfet verərdi.

Bir gün evə gec gələn Əli gördü ki, uşaq geyinib getmək istəyir.

- Adə, hara gedirsən?
- Gedirəm itməyə!
- Niyə?
- Mənə yenə qənfet versinlər.

*Bakı, 1959, 4 yanvar*

## Yazıqlar…

Böyük bir salon ağzına qədər adamla dolu idi. Vəzifəsi böyük, özü yaltaq, qorxaq, yalnız özünü düşünən bir natiq kürsüyəsinə gərib ağzı köpüklənə-köpüklənə danışır. O, xalqın xoş güzəranından, gözəl gələcəyindən və bir çox olmayan şeylərdən həvəslə danışır.

Onun sözündə hər şey var: yaxşı güzəran da, yaxşı ev də, yaxşı geyim də, xoşbəxtlik də, səadət də var. Bir sözlə, hər şeyi var.

O, sözünü qurtarar-qurtarmaz hamı əl çalmağa başlayır. Hamı bunların – onun sözlərinin yalnız köpük olduğunu bilərəkdən əl çalır. Məni dəhşət götürür:

- Ədə, zalım uşağı, nəyə əl çalırsınız? Xoşunuzmu gəlir?

Zaldan, uğultulu çəpik səsləri içindən bir səs – sualıma cavab ola biləcək yazıq, müti bir səs eşidirəm:

- Yox, əlimiz öyrəşib, adət eləmişik, qardaş!

- Yazıqlar, yazıqlar!

«Sadıq əl çalır!» hekayəm burdan yaranıb.

*Bakı, 1959, 5 yanvar*

## Sınıq qab

Neçə il əqdəm o mənim ürəyimi daşa çırpıb parça-parça etdi, ürəyimin hər parçası bir tərəfə düşdü və o özü isə heçbir şey etməmiş kimi, sakit addımlarla çıxıb getdi. Mən üstünə dağlar uçmuş kimi ağlayaraq ürəyimin parçalarını bir yerə yığdım, püclədim və naçar yaşadım.

O vaxtdan ürəyim ağrıyır, ürəyim sızlayır, elə bil, mən ürəyimin parçalarının hamısını cəm etməmişəm. Elə bil, qəlbimin bir parçası yoxdur.

… Budur, birdən onu gördüm. Həmin o… o daş ürəkli insan… Ürəyim yenə kəskin bir ağrı ilə ağrıyır və mən özüm də hiss etmədən onun dalınca gedirəm... Gedirəm... Ancaq nə üçün? Niyə?

Ah, yadıma düşdü. Ürəyim öz parçası üçün can atır, mən də onunçün. Axı o, mənim ürəyimin bir parçası idi. Ancaq o məni görmür. O gedir, mən gedirəm. Nəhayət, onu gözdən itirirəm. Həmişəlik itirdiyim kimi…

Ürəyim elə ağrıyır, elə ağrıyır. Mən indi bildim ki, mənim bu sınıq ürəyim həmişə ağrıyacaqdır.

Bu ağrı əzəli ağrıdır, məhəbbət ağrısıdır, sındırılmış qəlbin ağrısıdır

Heç kəsin qəlbi sınıq olmasın, insanlar, düşmənin də qəlbi sınıq olmasın… Olmasın!

*Bakı, 1959, 6 yanvar*

## İki lövhə

I

Yaraşıqlı, ipək paltar geymiş, bəzənib-düzənmiş bir oğlan nənəmin diqqətini cəlb etdi, daha doğrusu, gözünü qamaşdırdı.

Qarı əlini gözünün üstünə qoyub bu oğlanın üst-başına baxdı və köks ötürüb evdəki çılpaq oğlunu xatırlayaraq dedi:

- Elə bil, bəy balasıdır, bəxtəvər.

II

Yaraşıqlı, ipək paltar geymiş, bəzənib-düzənmiş, öz xüsusi maşınına minmiş bir oğlan mənim diqqətimi özünə cəlb etdi, daha doğrusu, gözümü qamaşdırdı.

Mən əlimi gözümün üstünə qoyub bu oğlanın üst-başına baxdım və köks ötürüb evdəki çılpaq oğlumu xatırlayaraq dedim:

- Elə bil, nazir balasıdır, bəxtəvər!

*6 yanvar*

## Harda axşamlar?

Dünyada hər canlının bir sığınacağı, bir yuvası var.

Xoşbəxt insanlar evlərində, siçanlar, qarışqalar yuvalarında…

Bir mənim yuvam yoxdur, bu doğma şəhərdə, bu vətən torpağının ürəyində tək mənim yuvam yoxdur.

Bu gün bunun evindəyəm, sabah onun… Məni bu evdən də qovurlar. Get - deyirlər. Mən bu torpaqda qəribəm. Küçə-küçə, qapı-qapı gəzib daldalanacaq axtarıram. Məni həyətlərdən tanımadığım adamlar, sarı, göygöz adamlar anlamadığım bir dildə təhqir edib geri qaytarırlar. Yersizlər yerimi aldılar, evsizlər evimi aldılar. İxtiyarım yox ki, bir söz deyəm. Gözləyirəm…

Mən yurdsuzam, mən yuvasızam; mən qəribəm…

Hamı öz evində, hamının işığı gəlir…

Eh, gör yadıma nə gəldi düşdü:

… Evlilər öz evində, qərib harda axşamlar?!

Görəsən, doğrudan, harda axşamlar?!

*Bakı, 1959, 7 yanvar*

## Allaha bir sual

… Yekəpər ayı meşədə gəzdi, dolandı. Seçib armudların ən yaxşılarından tapdı və ləzzətlə yedi.

… Çaqqal bostana girdi, arxayın-arxayın gəzib yemişin ən yaxşısını tapdı və ləzzətlə yedi.

Ey Allah, sənə bir sualım var: Nə üçün meşədə armudun yaxşısını ayı, bostanda isə yemişin yetişmişini çaqqal yeyir? Hə?

Deyəsən, çiyinlərini çəkirsən?

*7 yanvar*

## Yağı yağ üstə

Bu gün burada duma var idi. Ölkənin hər yerindən adamlar gəlmişdilər: qarnıyoğunlar, «böyük adamlar», seçilmişlər, yaxalarında bir parça dəmir-dümür olanlar gəlmişdilər. Bizim adımızdan, sizin adınızdan, onların adından, hamının adından danışmağa gəlmişlər. Çox səhv etdim, əl çalmağa gəlmişlər.

Bu böyük binaya onlar üçün təsəvvürünüzə gətirə bildiyiniz hər şey qoymuşlar. Nə üçün?

Çünki onların hər şeyi vardır.

Bu qaydadır: yağı yağ üstə tökürlər, yarmanı yavan qoyurlar…

*08.01.1959, Bakı*

## Əzab

O, qocadır, başının tükü ağarmış, dişləri tökülmüş. Lakin arvadı gəncdir, ehtiraslıdır, bir az da gözəldir: qara, qaynar gözləri şəfqətlə parlayır. Bu gözlər gənc bir oğlan görən kimi mehribancasına gülümsəyir. O, sənə oğrun-oğrun baxır, oğrun-oğrun gülümsəyir.

Kişi isə onu bərk-bərk qısqanır: hətta öz kölgəsindən, hətta öz qardaşından belə qısqanır. O, bu qısqanclıq alovu içərisində ilan kimi qıvrılır.

Yan, qıvrıl, qoca!

… Ey qoca, özün qoca ikən cavan, özün çirkin ikən gözəl qadın alma!

Dünyada bundan dəhşətli əzab ola bilməz, insan!

*09.01.1959, Bakı*

## Nifrət…

Oğlan qızı sevirdi: dəlicəsinə sevirdi. O isə bir çiçəkdi. Solmaz bir çiçək. O adi bahar çiçəklərindən deyildi. O, təbiətin yaratdığı Solmaz idi.

Qara gözlü bu qız oğlanın böyük bir eşqlə onu sevdiyini yaxşı bilirdi. Lakin ona məhəl qoymurdu: hamıya necə baxırdısa, ona da eləcə baxırdı.

Oğlan istəyirdi ki, Solmaz ona mehriban olsun…

Lakin bu bir arzu idi. İllər beləcə gəlib keçdi. Daha dözməyən oğlan bir gün acıqlanıb çox sevdiyi o qıza belə dedi:

- Ax o gözlər… Mən onları nə çıxardardım? Çox sevsəm də o gözləri çıxardardım.

Qız isə gülüb demişdi:

- Heç olmasa səni görməzdim, oğlan!

O, susub getmişdi.

*10.01.1959*

## Qara yun…

Nəyə lazım bu gurultulu sözlər? Nəyə lazım qaranı ağ göstərmək? Nəyə lazım hər yan zülmət ikən süni, yapma, xəstə rəngi kimi solğun işıqlarla qaranlığa alışmış gözləri qamaşdırmaq! Nəyə lazım? Dünya qaranlıqdırmı? Qoy qaranlıq görünsün. Bu solğun işıqlarla, bu yalan, gurultulu sözlərlə siz insanları aldadırsınız!

Nə üçün?

Axı, qara yunu yumaqla ağartmaq olmaz, ağalar!

«Qara yun» hekayəsi burdandır.

*11.01. 1959*

## O da bir anlıq…

Mənim çox yatdığımı görən dostum dedi:
- Sən nə çox yatırsan?
Mən qəmli-qəmli gülümsündüm:
- Çünki mən xoşbəxtliyi ancaq şirin yuxularda görürəm.
O da bir anlıq…

*12.01.1959*

## İnsanların faciəsi

İnsanların bir yolu var:

Bu yol anamızın isti beşiyindən başlayıb torpağın soyuq beşiyinə qədər uzanır. Bu yoldan hamı keçməlidir. Amma kiminin mənzili yaxındır, kimininki uzaq.

Kimi bu yolu 5 günə, kimi 5 ilə, kimi 25 ilə, kimi də 100 ilə gedir.

Bu yolda bizim ancaq bir yol yoldaşımız var. Ölüm! O nə vaxt istəsə bizi yaxalayıb o soyuq beşiyə aparıb deyir: «Sənin mənzilin buradır, çatdıq».

Biz həmişə qoynumuzda ölüm gəzdiririk.

Biz yaşaya-yaşaya ölürük.

İnsanların faciəsi də budur. Bax, həmin bu!!!

*13.01.1959*

## İki səhnə

I

Qara gözlü, anamın dilində danışan şirindilli bir oğlan milis idarəsinə girib stol arxasında oturmuş qaraqaş-qaragöz bir kişiyə müraciət etdi:

- Məni Bakının flan küçəsindəki flan nömrəli evə yazın. Yaşamaq üçün.

Kişi barmaqları ilə stolu taqqıldadıb:

- İcazə yoxdur, heç cür yaza bilmərəm. Lap Allah da gəlsə!.. – dedi – yaza bilmərəm.

Oğlan ah çəkib küçəyə çıxdı: «Mən dərdimi kimə deyim?».

II

Göy gözlü, yad dilli, sarı saçlı, burnunun ucu göyə baxan bir adam milis idarəsinə girib həmin qaraqaş, qara göz kişiyə müraciət etdi:

- Məni Bakının flan küçəsindəki flan nömrəli evə yaz. Yaşamaq üçün. O yandan gəlmişəm.

Kişi ədəb-ərkanla ayağa qalxdı, baş endirib təzim etdi:

- Çox xoş gəlmisən, əzizim. Bizim borcumuz sizə xidmət etməkdir. Yazarıq, yazarıq.

Gələn adam gülə-gülə küçəyə çıxdı:

- «Nə qonaqpərvər adamdılar!»

*14.01.1959*

**Zəli**

Bu gün bir zəli gördüm. O, kişinin bədəninə yapışıb acgözlüklə onun qanını sorurdu. Sorduqca da şişib tuluğa dönürdü. Kişinin isə rəngi saralır, solurdu.

Bizim də qanımızı eləcə sorurlar, o zəli kimi… bizim də rəngimiz saralır, o kişi kimi…

… Bir az sonra həmin zəli yerə düşüb qusdu və öldü.

O günü biz də gözləyirik…

*15.01.1959*

**Məni siyahıya alma!**

- Adın nədir?
- Həsən.
- Millətin?
- Millətimi öldürdülər!

- Vətənin?

- Vətənimi də əlimdən aldılar!

- Bəs elə quru adın qalıb?

- Bəli, mənim də, millətimin də, vətənimin də quru adı qalıb. Ancaq quru adı qalıb.

Alma məni siyahiyə, qardaş, alma!

*16.01.1959*

## Ocaq və mən

Ocaq yanır. Acı, boğuq, tutqun tüstü burula-burula buxarıdan çıxıb çölə yayılır. Hamı görür ki, ocaq yanır. Tüstü də çıxır.

Lakin… mən! Tüstüsüz yanıram. Tüstüm heç yerə çıxmır… Məni yandıran budur ki, heç kəsin xəbəri yoxdur ki, mən yanıram.

Yan, ocaq! Sənə qibtə edirəm…

*17.01.1959*

## Gələcək

Otaq qaranlıq idi. Cansıxıcı idi. Adam darıxırdı. Qaranlıqda siçanlar, birələr, taxtabitilər o yan bu yana qaçır, insanlar bir-birini görmədən düşünürdülər.

Birdən işıq yandı. Siçanlar, birələr, taxtabitilər qaçıb gizləndilər.

İnsanların çatılmış qaşları açıldı:

İnsanlar bir-birini görüb sevindilər.

İnsanlar güldülər.

… O gün gələcək.

*18. 01.1959*

## Susun

- Yer üzündə artıq insan çoxdur. Gərək müharibə olsun, in-

sanların xeyli hissəsi qırılsın.

- Yaxşı, elə isə onda sizdən başlayaq, ağalar!

Onda susursunuz?! Susun, ağalar, susun!

*19. 01.1959*

**Deputat…**

Onun döşündə bayraq şəkilli «deputat nişanı» var. O, xalqın elçisidir. Onu biz seçmişik.

Bir gün bir kişinin küçədə onunla dalaşdığını gördüm. O dedi, kişi dedi. Camaat da oraya yığışdı. Hamı kişini müdafiə edirdi.

Deputat ona və camaata baxır və acıqlı sözlər deyirdi.

Camaat onun üzünə baxıb deyirdi:

-Günah bizdədir, sənin kimi adamları deputat seçmişik.

Deputat qah-qah çəkib güldü və dedi:

- Eh. Məni siz seçməyibsiniz. Heç sizin xəbəriniz də yoxdur ki, məni kim seçib.

… Qeybdən bir səs gəldi.

- Bəli, düz deyirsən, cənab deputat, düz deyirsən!

*20. 01.1959*

**İki ağa**

Sən mənim ağamsan, səni mənim ağam eləyiblər.

Kim eləyib? Sən özün. Mənim özümünkülər.

Mən ağzımın çörəyini də gətirib sənə verirəm, evimin işığını da, əynimin paltarını da…

Vermirəm. Alırsan.

Sonra… pulum olsa onlardan bir az mənə satırsan, olmasa yox.

Qəribə alverdir. Niqolay vaxtı hacı Rəsul da dədəmlə belə alver eləyirdi. Nə olsun ki, sən namaz qılmırsan, xaç çəkirsən!

Bunun eybi yox, «ağa!»

Hacı Rəsul da, sən də bir adamsan. Özünü çox tərifləmə!

*21. 01.1959*

**Böyüyürlər**

O, şəhər evlər idarəsinin müdiri idi. Oğurluq da eləyirdi, rüşvət də alırdı, adam da döyürdü, yalan da danışırdı. Kimin əli cibində idi, o, ona yaxşı qulaq asırdı. O, bir sözlə, yaxşı alver eləməyi bacarırdı.

Bu gün onun vəzifəsini böyütdülər. Alış-veriş naziri qoydular. Təəccüb eləmə, o ki, alver eləməyin bütün yollarını öyrənmişdi.

… Bəli, oğrular, əyrilər indi belə böyüyürlər.

*02. 01.1959*

**Qara saçlar, ağ üz**

Mən cavanam, cəmi iyirmi üç yaşım var. Mənim saçlarım şəvə kimi qara idi. Üzüm də ağ idi.

Lakin bu gün güzgüyə baxdım. Bu qara dövran mənim qara saçlarımı ağartmış, ağ üzümü kömür kimi qara eləmişdir.

Hərənin həyatda nəsibi bir şey olur. Mənimki də budur: cavan ikən ağ saçlar və gözəl ikən kömür kimi qara üz!

Aman, ya rəbbi! Mən qocalmışam!

*23. 01.1959*

**Güllü yorğan**

Ey mənim cırıq yorğanım. Sənin üzünə baxa bilmirəm, səndən də xəcalət çəkirəm

Sənə üz ala bilmirəm, yorğanım.

Ah, güllü üzə həsrət qalan yorğanım, ah, güllü yorğana həsrət qalan canım…

*24. 01.1959*

**Əbədiyyət yolunda**

Dahi bir sənətkarın anası oğlunun tunc heykəlinin yanına gəldi. Oğlu döşünü irəli verib gələcəyə baxırdı. Ana titrək əllərini heykələ toxundurub tunc soyuqluğunu hiss edəndə ah çəkdi və dedi:

-Bala, mən səni belə soyuq doğmamışdım.

Mən səni tunc deyil, insan doğmuşdum.

Ana oğlunun səsini eşidər kimi oldu:

-Sən məni insan doğdun, insan kimi yaşadım. Mən sənin doğduğun şəkildə ancaq bir ömrün yolunu gedə bildim.

Əbədiyyətin yollarını getmək üçün isə bax belə möhkəm tunc olmaq lazımdı.

*24. 01.1959*

**Yediyimiz**

Biz əsgərik. Əynimizdə əsgər paltarı, çiynimizdə tüfəng vətənin keşiyini çəkirik.

Səhər, günorta, axşam bizə yemək verirlər. Qabağımızdan qalır… Bu artığı yerlilər yığıb aparırlar.

Soruşdum:

- Qardaş, bunu neynəyirsiniz?

Dedi:

- Eşşəyimizə verirəm.

*25. 01.1959*

## Bizim yazıçılar

O, yazıçı idi. Oturub əsərlər yazırdı: «Biz xoşbəxtik, biz gözəl bir dövrdə yaşayırıq. Bizim hər şeyimiz var».

Arvadı gəldi:

- Kişi, bəs işə getmirsən? – O qələmi yerə qoyub dedi:

- Guya bilmirsən paltoum yoxdur! Lüt getməyəcəyəm ki?

*26. 01.1959*

## Əl qaldıracağam…

- Səni təbrik edirəm, qurultaya nümayəndə seçilmisən!

- Çox sağ ol.

- Yaxşı, soruşmaq ayıb olmasın, gedib orada neynəyəcəksən?

- Neynəyəcəm? Hamı neynəyir, mən də elə. Nə desələr əl qaldıracam də?!

*27. 01.1959*

## Həsrət və qorxu

Onun gül yarpağı kimi nazik, qırmızı dodaqları vardı. Oğlan bu dodaqları öpmək, bircə dəfə öpmək arzusu ilə yaşayırdı.

İllər beləcə gəlib keçdi. Bu xoşbəxtlik ona nəsib olmadı. Oğlan həsrətlə yaşadı.

Lakin bir gün o dodaqları ona öpmək nəsib oldu, tək bircə dəfə öpmək… İndi o dodaqların sahibi vardı. O bilsə…

Oğlan qorxu ilə yaşadı.

… Biz ömrümüz boyu xoşbəxtliyin həsrətilə, bədbəxtliyin, ölümün qorxusu ilə yaşayırıq.

*28. 01.1959*

## Tamahkar olma!

Sənin olmayan bir şeyə göz dikmə. Onun həsrətilə yaşa, yan, yaxıl, ancaq ona əl vurma.

Əgər əl vursan, onu özün üçün götürsən, sən oğrusan, quldursan. Oğrular, quldurlar həmişə cəzaya layiqdirlər.

*29. 01.1959*

## Tərbiyə

- Əgər o günah etmişsə, onu döymə, söymə, danlama. Əgər onu tərbiyə etmək istəyirsənsə bilirsənmi nə et?

- Yox?

- Onu bağışla. O özü xəcalət çəkib bir də belə işlər etməyəcək.

Tərbiyədə ən yaxşı yol budur.

*30. 01.1959*

## Ehtiras

Ehtiras ruhdur. Ehtirasın varsa insansan, yoxsa… Allah göstərməsin! Ancaq bir şeyi unutma: ehtiras insanı mənəviyyət aləminin «nəşə» adlı qızının yanına da qaldıra bilər, heyvanlığın çirkabına da ata bilər.

Amandır, özünü bu dünya gözəlindən qoru!

*30. 01.1959*

## Evimiz onda yıxıldı

Böyük ölkənin padşahı İmanı yanına çağırdı:

- Adın nədir?

- İman!

- Yox…Bu olmadı. Köhnə addır. Səni öz ölkənizə padşah qoyuram. Özünə yaxşı bir ad tap.

- İman – deyə o bir az düşündü, birdən sevincək – hə, hə, tapdım

- Nədir?

- İlan!

… Evimiz onda yıxıldı!

*31. 01.1959*

## Ayaqlar

*Tələbə dostum S.Arifə*

O ayaqlara vurulmuşdu. Bu gözəl gəlinin mütənasib ayaqlarına… Kapron corab içindəki ayaqlar, ipək kimi yumşaq, qara tüklü ayaqlar… O, bu ayaqlara baxanda ürəyi titrəyirdi.

O gəlin kitab mağazasında işləyirdi. Oğlan onun ayaqlarının həsrətilə hər gün buraya gəlirdi. Lakin bu mənfur piştaxta ona maneçilik törədirdi.

O, gəlinə kitab rəfinin lap yuxarı cərgəsini göstərib deyirdi:

- O kitabı xahiş edirəm.

Gəlin qalxırdı, ayağının altına nərdivan qoyub yuxarı çıxırdı. Oğlan onun ayaqlarını aydın görürdü.

- O kitabı yox, o birini.

- Onu da yox, o göy cildlini.

Beləliklə, oğlan onun ayağına doyunca tamaşa edib gedirdi. O, A.S.Puşkinin bu sözlərini tez-tez təkrar edirdi:

Bütün Rusiyanı dolaşıb gəzsən, Bir cüt gözəl ayaq tapa bilməzsən…

Oğlan deyirdi:

- Bizdə isə belə gözəl ayaqlar çoxdur.

… Bu da insan zövqünü oxşayan vasitələrdən biridir, oğlan, səni qınamıram.

*01.02.1959*

## Seçki

İclasdı. Oturmuşuq. Deputat seçirmişik. Yuxarıdan gəlmiş sədr deyir:

- Biz filankəsin namizədliyini irəli sürmüşük. O layiq adamdır…

Mən düşündüm: əgər belədisə daha bizi bura niyə yığıblar, qardaş?

Qeybdən bir səs gəldi:

- Rəsmiyyət üçün!

*02.02.1959*

## Burnu göyə baxan, yaxud padumaeş!

Könlüm elə yaman musiqi istəyir?! Qəzetə baxıram. Bah! 5 dəqiqədən sonra muğamat var! Muğamat. Mənim ruhum, canım, ürəyim həyatım, muğamat. Sevirəm.

5 dəqiqə keçir… Lakin…

Mənim muğamatımın səsi gəlmədi! Çünki axı yuxarıdan burnu göyə baxanın birinin səsi gəlirdi.

*04. 02.1959*

## Yaşamamışam

Bu gün-sabah ölüb bu dünyanı tərk edəcəyəm, ey Allah! Gəlib sənin hüzuruna çatanda deyəcəksən ki:

- O dünyada flan qədər yaşamısan. De görüm…

- Yox, ay Allah, mən bu dünyada bir gün də yaşamamışam, bircə gün də!

*04.02.1959*

## Soğan

*Ə.Ağacavada*

- Sən nə çox soğan yeyirsən, qardaş?
- Yanıram, ona görə.
- Soğan daha da yandırar ki?
- Bilirəm, ancaq heç olmasa bir anlığa öz dərdlərimi unudaram. Elə bilərəm ki, məni yandıran bu dərdlərim deyil, bu acı soğandır, gözümü yaşardan öz dərdlərim deyil, elə bu acı soğandır.

*05.02.1959*

## Yazığım gəlir

Yaxşı oğlansan, gözəl uşaqsan. Şirin-şirin yatırsan, başını ananın dizinin üstə qoyubsan, o da sənə lay-lay çalır. Hayıf, sənə ana layla çalmır, bir q….ə lay-lay çalır. Hayıf. Sən böyüyəcəksən, cavan olacaqsan, ancaq gözü kölgəli olacaqsan.

Düzü, sənə elə yazığım gəlir?!

*06.02.1959*

## Həyat özü

Başımın üstündən asılıb hey işləyirsən, sayğac. Hesab eləyirsən ki, nə qədər işıq yandırırıq. Bəli, sən işığın hesabını aparırsan.

Görəsən bəs bizim ömrümüzün hesabını kim aparır, sayqac?

-Həyat özü, həyatın öz səssiz-səmirsiz işləyən saatı!

*07.02.1959*

## Sevgi və oğru

Sevgi də oğru kimi gizlin gəlir. Onu heç kəs görmür. Oğru evə gəlir, onu qarət eləyir. Sevgi isə ürəyə gəlir, onu qarət eləyir.

Arada yalnız bir fərq var.

Oğru qarət edib gedir, sevgi isə qarət edib qalır, orada da yaşayır.

Belə oğrudan kim inciyər. Bədbəxt o adamdı ki, onun ürəyinə belə bir oğru girməyib.

*08.02.1959*

## Gözlər

- Sən gözlərini müharibədə itirdin, əzizim. Gəl gözümün birini sənə verim.

- Yox, lazım deyil, gülüm. Mən elə gözlərimi sənin o gözlərin üçün itirməmişəmmi?

*09.02.1959*

## İgidin başı

-İşim çox çətindi.

-Eybi yox, igidin başı qalda gərək.

-O misal köhnəlib bir az. İndi onu belə işlətsən daha yaxşı olar: igidin başı qalda gərək, əli də pulda!

*09.02.1959*

## Gözlə, gələcək

- Niyə yazmırsan?
- Gözləyirəm.
- Nəyi?
- İlhamı!

- Ha, ha… Gözlə, gələcək.

*09.02.1959*

**Qar**

Sən şirin-şirin yağırsan, qar… hər yan ağ-appaqdır. Sən yerin üzünü ağardırsan, qar. Ancaq sən bilirsənmi nə edirsən, qar?

Özün ağ da olsan, yoxsulların üzünü qara edirsən, qar!

*10.02.1959*

**Bağçada güllər**

Bağçada güllər qönçələndi, bağçada güllər açıldı, bağçada güllər ətir saçdı… bağçada güllər xəzəl olub töküldülər.

Biz də sizin kimiyik, güllər, lap sizin kimi!

*11.02.1959*

**Bədii gülüş**

Sən nə şirin-şirin gülürsən, gəlin?! Elə ürəklə, elə sevinclə gülürsən ki, aman Allah, mənim ruhum sənin o şən qəhqəhələrindən cana gəlir. Qara, atəşin gözlərin parlayır, qönçə dodaqların gül kimi açılır.

Gül, sən Allah, gülüşün elə xoşuma gəlir ki! Mən sənin gülüşünə bədii gülüş deyirəm. Çünki o gülüş ki, səndə var, mənə gözəl bir musiqi, gözəl bir şer təsiri bağışlayır.

Gül, sən Allah, gül!

*12.02.1959*

**Sənin üçün şer**

Yenə gülürsən. Bilirsən də ki, mən sənin o gülüşündən hədsiz zövq alıram, gəlin. Bunu bilə-bilə gülməyin də ayrı bir nəşə

verir.

Yenə deyirəm: Gül, sən Allah, gül. Çünki:
Ötdüsə ömrümün gözəl anları.
Gülüşün qaytardı bir də onları.

*12.02.1959*

**Səs**

- İndi Azərbaycan – filmin istehsal etdiyi yeni filmə baxdım.
- Yaxşıydımı?
- Yaxşıydı. Ancaq birisi məni açmadı.
- Nə?
- Artistlərin səsləri özlərinki deyildi.
- … Eh, yazıq, qardaş, harda öz səsimiz var ki, kinoda da olsun?!

*13.02.1959*

**Qorxu…**

- Bura bax, dərdin alım, ay Allah, o dünyada mənzil məsələsi nə təhərdir ey?! Əgər orda da kirayə yaşayacağamsa, heç getmirəm.

*14.02.1959*

**I**
**Cavab**

- Yox, - deyə qulağıma səs gəldi – torpağın qəlbi böyükdü.
Kim gəldi, özünə görə, tək otaqlı bir evim var.

**II**
**Düşüncə**

- Neyniyim, ay qardaş. Gözüm qorxub də. Burda indi bəzi adamların özləri bir yana, qohum-əqrəbası bir yana, itlərinin də ayrı otağı var. Bəzisinin də mənim kimi, başını soxmağa heç

kümәsi dә yoxdur.

- Vallah, gözüm qorxub, mәşәdi? Deyirsәn orda da elәdi, inanım dә.

- Ta sәn deyirsәn dә. Ayrı adam desәydi, inanmazdım. Genә dә inanmıram. Şeytan işidi, bilmәk olmaz!

*15.02.1959*

**Ötәn günlәr**

Bu 20 günü heç nә yazmadım. O günlәrdәn yadigar qala bilәcәk heç nә yoxdur.

Vay o adamın halına ki, yaşaya, ömrünün günlәrini mәnim kimi hәdәr verә. Vay o adamın halına. Vay, vay!

*06.03.1959*

**Bәzi yazıçılara**

-Bu әsәri özün yazmısan?
-Görmürsәn? Xәtt özümündü.

*06.03.1959*

**Alәmdә**

- Mәnim bir şüarım var: alәmdә yemәk.
- Pulum yoxdur.
- Onda alәmdә yatmaq.
- Yerim dә yoxdur, qardaş!

*07.03.1959*

**Durbin**

- Sәn qonaq getmişdin. Sәnә hәdiyyә olaraq bir yaxşı durbin verdilәr. Sәn bildinmi o nә demәk idi?

- Yox.

- O demək idi ki, burnunun ucundan uzağı görmürsən.
Al, bu durbini, bir az da uzaqlara bax.
Böyük adamlar həmişə uzaqgörən olublar.

*07.03.1959*

## Nə fərqi var ki?

- Belə-belə şeyləri yazma, səni tutarlar.
- Eh, qardaş, nə fərqi var ki?

*08.03.1959*

## Yuxular

Səni yuxuda gördüm. Sevindim. Səninlə danışdım, sevindim. Sən mənim sözlərimə cavab verdin, sevindim. Sən mənə baxıb gülümsündün, sevindim. Sənin həsrətini çəkdiyim o qara gözlərindən öpdüm, yenə sevindim. Nə etdimsə, sevindim, nə gördümsə, sevindim.

Lakin ayıldım; hər şey yoxa çıxdı: sən də yox oldun, sevinclərim də yox oldu. Mən məyus olub fikrə getdim.

… Ah, yuxular, yuxular. Səadət yalnız sizdədir, sizdə!

*08.03.1959*

## Kasıblıq

- İnsanı nə utandırar?
- Kasıblıq.
- İnsanı dost-düşmən yanında nə xəcalətli edər?
- Kasıblıq.
- İnsanı diriykən nə öldürər?
- Yenə kasıblıq.
- Kasıblıq, kasıblıq. Sənə nə deyim. Vallah, heç söz də tapmıram. Elə bu özü də bir kasıblıqdır.

*08.03.1959*

### Cavabsız sual

- Eşitdim deputat seçiblər.
- Bəli.
- Nə alacaqsan?
- Min beş yüz.
- Nə verəcəksən əvəzində xalqa?
- …

Eh… Qəribi bu yerdə ağlamaq tutdu.

*09.03.1959*

### Ağacavad kefimi soruşdu

- Necəsən, ay Əliş *(Şair dostum, bir evdə kirayənişin yaşadığım Ağacavad Əlizadə məni belə çağırırdı)*.
- Eh… Mən beləyəm, Ağacavad.

Mən eləyəm Ağacavad.
Bax, bu geniş vətəndə
Bir köləyəm, Ağacavad.

*10.03.1959*

### Kompas

- Səni əzizlədilər, sənə əl çaldılar. Sənə hədiyyə olaraq bir kompas da bağışladılar. Sən bildinmi bu nə demək idi?
- Yox!
- Bilməzsən. Bu o demək idi ki, yolumu azmısan, camaatı da dalınca salıb Allah bilir haraya gedib çıxacaqsan. Sənə yazıqları gəlməyib, camaata yazığı gəldi sənin «dostlarının».

*10.03.1959*

## Arvadımın xoşu gəlir

Küçədə bir tanışıma rast gəldim. Matros paltarı geydiyini görəndə ayağım yerə yapışdı.

- Ay kişi, bu nə dəm-dəstgahdı. Bu matros paltarı nədi.

- Neyniyim – dedi – arvadımın matroslardan xoşu gəlir.

*30.09.1961*

## Dəhşət

Bu gün başım yaman ağrıdı. Səbəbi budur ki, iki yazıçı ilə söhbət eləmişəm. Adlarını yazıçı qoyublar, amma çox nadandılar. Bu adamlar həyatda yaxşı şeydən yazmağı mənə tövsiyə edirdilər… Pisdən, nöqsandan, əyridən, oğrudan yazma deyirdilər. Ax, nə deyim, bunlar həddən artıq «partiyalı» adamlardır.

Dəhşət!

*30.09.1961*

## Sən niyə utanırsan?

Universitetdə 2-3 il eyni vaxtda oxuduğum, çox şirin və mehriban bir insan olan Bəkir Nəbiyevlə söhbət elədim: «Həblər və həqiqətlər»i vermişdim oxusun.

Dedi, görünür, iri əsər yazmaq üçün hələ hazırlığınız yoxdur… Sabirdən yazıbsan, amma bu yazıda Sabir yoxdur, müasirlik güclüdür. Göstərdiyin o Qeyrətzadənin iyirmisini sənə göstərə bilərəm.

Mən, adətim üzrə, qulaq asdım.

- Bağışlayın – dedim - Bəkir müəllim, vaxtınızı aldım.

- Yox, eybi yox… Bağışla ki… Amma dili çox yaxşıdır.

Hiss elədim o mənə «əsərin xoşuma gəlmədi, pisdir» – deməyə utanır.

- Sən niyə utanırsan, qardaş. Qoy mən utanım – dedim.

*30.09.1961*

## Narazıyam

Bərk dilxoram… Hər şeydən: işdən, evdən, dünyadan narazıyam… Hətta özümdən də narazıyam.

*30.11.1961*

## Ürəklə

Rəfiq Zəka Əbdülhəq Hamidin «Məqbər» poemasından bir parça əzbər dedi. Gözəl əsərdi, Rəfiq də gözəl dedi:

- Belə əsərlərə necə də ehtiyac duyulur.

Ürək sözləridir. Bəs bizimkilər nə zaman belə əsərlər yazacaqlar. Ürəklə! Hə?

*30.11.1961*

## Taleyim

Deyəsən mənim taleyim də öz Mirzə Yanarımın (irəlidə adı çəkilən «Həblər və həqiqətlər» povestinin əsas qəhrəmanı Mirzə Yanar idi) taleyinə oxşayacaq. Onda heyf, heyf, səd heyf.

*01.12.1961*

## Söhbət

Yazıçı dostum Vasif Əfəndiyevlə xeyli dərdləşdik. Ürəyim sakitləşdi. O gedəndən sonra «Həqiqət»ə bir əlavə fəsil yazdım. «Bir yüngülvari müqəddimə»…

*01.12.1961*

## Bəxtiyarla görüş

Bu axşam əziz müəllimim, ustadım Bəxtiyar Vahabzadəgilə getdim. Kişi əsil şairdi. Bu torpağı, bu xalqı çox sevir. Sabirin «Fəxriyyə»sini oxudu və dedi ki, bu «Hophopnamə» bizim quranımızdır.

Mən onunla hər görüşəndə ürəyimdə deyirəm ki, Allah onun ömrünü uzun eləsin, lap uzun…

*02.12.1961*

## Nə üçün?

«Heykəl gülür» satışa çıxıb. Amma heç sevinmirəm. Bilmirəm də nə üçün? Bəlkə, Allah mənim sevinmək qabiliyyətimi əlimdən alıb?

*03.12.1961*

## Başa düş!

Məni başa düş, əzizim, məni anla. Mən o zaman səni sonsuz bir məhəbbətlə sevərəm, əzizim… Anlaşılmazlıq olan yerdə əsl məhəbbətdən necə danışmaq olar? Bunu ki, sən özün yaxşı bilirsən?

*03.12.61*

## Sınaq

Çoxdan çox istədiyim bir adamı sınayırdım. Gözləyirdim ki, ona nə etsəm, hətta başını kəsməyə hazırlaşsam belə, sözü olmaz. Amma heyf… Tez təslim oldu və ürəyindəkiləri dedi…

Sən gözləmədiyin bir cavab alasan? Necə olarsan?

Başım bərk ağrıyır. Bu gecə elə qəmliyəm ki.

Ah… Mən onu dəyanətli adam bilirdim… İnsan yanılır…

*04.12.1961*

**Bir üzdə**

«Bir üzdə görün, bir ürəyin var!»

*04.12.1961*

**Ömür gedir**

İki gün boş idim. Deyirdim işlərəm. Heyif ki, işləyə bilmədim. Vaxt havayı getdi. Yox, vaxt yox, ömür havayı getdi, ömür.

*05.12.1961*

**Gülərüz**

Evdə xoş üz görmək, qayğına qalan bir adamla üz-üzə gəlmək nə gözəl nemətdir. İnsanın qəlbi cavanlaşır. Dərd-qəmini unudur. Bunu mən bu gün xüsusilə bir daha dərindən dərk etdim.

Kaş zaman bu növrağı pozmasın, mən onu həmişə belə gülərüz, mehriban görüm.

*06.12.1961*

**Rahatlıq**

Nə vaxtdan bəri yazmaq istədiyim «İki əsgər» hekayəsini nəhayət bu axşam yazdım. İstəyirəm müsabiqəyə göndərəm. İndi elə rahatam ki… Dünyada əsər yazıb qurtarandan sonra (əlbəttə, əgər yazdıqlarıma əsər demək mümkünsə) duyduğum rahatlığı heç vaxt, heç yerdə görə bilmərəm, qardaş.

*07.12.1961*

### Bədbəxt adam

Yer üzündə iki bədbəxt adam varsa, onun biri, özü də birincisi mənəm. Bədbəxt adam! Bu sözü izah etməyə nə ehtiyac?

*11.12.1961*

### Yaraşıq

Neçə gündür şəhərdəyəm. Amma evimizin qapısını indi açıb içəri girirəm.

Eh, sənsiz bu evin nə yaraşığı, Xanım? Sən mənim evimə də yaraşıqsan, ömrümə də, könlümə də!!!

Allah bizi bir-birimizə çox görməsin, Xanım, əzizim? Sən mənim ağıllı xanımımsan.

*12.12.1961*

### Yeni il

Bu il, 1962-ci il deyəsən mənim üçün çox bəd il olacaq. Mən səndən yaxşı bir şey gözləmirəm, yeni il! Bunu mənə ürəyim deyir. Ürəyim isə məni heç vaxt aldatmır.

*12.01.1962*

### Nadanlıq

Dünyada nadanlıqdan dəhşətli bir şey yoxdur. Allah heç kəsi nadana tuş eləməsin!

*13.01.1962*

## Ümidsizlik

Ümidsizliyə qapılan adam – ölmüşlərdən nəfəs almağı ilə fərqlənir. Əslində o da ölüdür.

## Müharibədən sonra…

Bu yazını 8.01.1960-ci ildən başlamışdım. Yarımçıq qalmışdı. 13-16 arasında (1962) yazıb qurtardım – ssenarisini.

*16.01.1962*

May ayında yazacağım hekayələr
1. Gözübağlıca.
2. Kişi
3. Uşaq
4. Ata hədiyyəsi
5. Bizim tramvay

*01.05.1962*

Bu hekayələrin heç birini yaza bilmədim. Xoşuma gəlmədilər.

*24.10.64*

Haçandı heç nə yazmıram. Zəmanəmizdə alçaq, nadan adamlar çoxdur. Xeyirxah adam çox azdır. Hamısı ruhdan salmağa, öldürməyə çalışır. Əlindən tutub qaldıran, demək olar ki, yoxdur.

Həvəsdən düşməmək və yazmaq! Vəssalam, yeganə yol budur. Nə tériflərə, nə tənqidlərə qulaq asmamaq!

Yazmaq! Yazmaq! Kim ki, könlünü bununla ovundura bilir, o, əsil sənətkar olacaqdır.

*01.05.1962*

### Yaza bilirəm

«Elxanın səhvi» hekayəsini yazdım. Axırı məni açmadı. «Daha yazabilmirsən!» – deyə hər an qulağıma pıçıldayıb üç ay məni narahat edən ümidsizliyə ağır bir zərbə endirdim.

Yaza bilirəm!.. Böhran keçdi.

*02.05.1962*

***QEYD:*** Heyf, bu hekayəni itirmişəm.

*24.10.1964*

Bu gün «Bəhanə» hekayəsini yazdım.

*02.05.1962*

### Qızım

Bu gün qızım anadan oldu. Adını Təranə qoyduq. Bu gündən atayam. Səni xoşbəxt olasan, qızım.

*19.06.1962*

### Yüngülqədəm

Qızım yüngülqədəm, xoşqədəmdir.

Bu ay iki hekayəm çıxdı.

*25.06.1962*

### Ev…

Bu gün ev aldım. Həyatımın ən böyük problemi həll olundu.

Bizdə adicə bir yaşayış yeri əldə etmək problemdir. Əhsən…

*14.07.1962*

## Səhv

İnsan səhv edər. Mən ilin əvvəlindən bu ilin – 1962-ci ilin mənə heç bir şey verməyəcəyini yazmışdım.

Amma bu il mənə çox şey verdi: qızım oldu, ev aldım, əsər yazdım, Yazıçılar İttifaqına üzv oldum. Mənə zəmanət verənlər böyük sənətkarlarımız – Mircəlal Paşayev, Ə.Əbülhəsən və B.Vahabzadə idi. Minnətdaram. Hələ ilin yarısı gedib… Sağlıq olsun…

*21.07.1962*

## «Unutmaq olmur»a düzəliş vermək

1. Camaatın Aydına münasibətində ikilik.
2. Məhəbbəti geniş.
3. Müşahidə.
4. Və… bütün əsəri yenidən, dərindən işləmək! Bəxtiyar Vahabzadənin qeydləri əsasında!

*23.12.1962*

## Ayrılıq

Bu gün Abbasəli Sarovlunun «Ayrılıq» mahnısını böyük sənətkarımız Zeynəb xanımın ifasında dinlədim. Ayrılıq! Səndən dəhşətli bir şey təsəvvür eləmirəm dünyada.

Abbasəli Sarovlu gözyaşardan şair imiş!

*05.05.1963*

## Oğul atası oldum

Bu gün oğlum Qüdrət anadan oldu. Xoşbəxt ol, oğul.

*05.11.1963*

## Unutmaq olmur

«Unutmaq olmur…» kitabımı bu gün nəşriyyatdan mənə verdilər.

Sevindim. O əsər üçün çəkdiyim əzabları bircə anda unutdum. Yox. Amma unutmaq olmur!

*09.05.1964*

## Alim

Bu gün müdafiə elədim. Borc idi, qurtardım. İndi sakit ola bilərəm.

Əslində, havayı söhbətdir. Şəxsən buna mən heç bir əhəmiyyət vermirəm.

*06.06.1964*

## Yazıçı otura bilməlidir

Dörd aydır düşünürəm; stoldan ayrılmışam, yaxın düşə bilmirəm. Hazır hekayələrdir, oturub yazmaq lazımdır. Ax, bircə otura bilsəydim.

*01.10.1964*

## Təzə insan öldürmək üsulu

Bu gün görkəmli ədibimiz Mehdi Hüseyni dəfn etdik. Hava tutqundu, qar yağırdı. Cənazə Akademiyadan çıxarılanda qar ara verdi. Eləbil göylər də faciəli surətdə, öz qələm yoldaşlarının soyuqqanlığı və bəlkə də vicdansızlığı nəticəsində həlak olmuş bu döyüşkən sənətkarın halına acıdı.

Məni onun ölümü yandırdı. Sevmirdim, ancaq böyük şəxsiyyət idi. Həddən artıq qanunpərəst olmağı onu çox quru və qorxaq, bəzən isə qəddar və cəsur göstərirdi. Onun düşmənləri məhz buna görə onunla düşmən olmuşdular.

Və onlar onu gündə bir az, tədricən zəhərləyirdilər. Bu, təzə adam öldürmək üsuludur. Belə cinayətkarları tutmaq olmaz, çünki ortada əşyayi-dəlil yoxdur.

Bu ağır günlərdə iki şey məni xüsusilə sarsıtdı. Mehdi vəfat edən günün səhəri mən Yazıçılar İttifaqına getmişdim. Asılqanda işləyən qoca rus arvadı mənə Mehdinin mıxçadan asılıb qalmış papağını və paltosunu göstərdi, ağlaya-ağlaya: «Bunlar Mehdi Əliyeviçindir, dünəndən qalıb. Axşam evə getmək istəmirdim, elə bilirdim o, yuxarıdan düşüb gəlib geyinəcək. Gəlmədi. Bir daha gəlməyəcəyinə inanmaq istəmirdim»…

Ah, yiyəsiz papaq, sahibsiz palto!

… Tabut qoyulmuş ağ maşının (kəfən geymiş adama oxşayır) qabağına mərhumun gülümsər şəkli vurulmuşdu. Mənə elə gəldi ki, o, qəbristanlığa gülə-gülə gəlir. Fəxri xiyabanın köhnə sakinlərindən onu ilkin qarşılayan köhnə dostu Səməd Vurğun oldu. Elə bil, Mehdi Səmədi görüb gülümsünürdü…

… Ağlamaya bilmirəm. Tək ölənə ağlamıram, öz bədbəxtliyimiz də məni ağladır...

*12.03.1965*

«İnciklik» hekayəsini başladım. Başlanğıcı xoşuma gəlmir. Neçə variant yazıb pozdum. Əl çəkməyəcəyəm. İstədiyimi tapmayınca pozacağam…

*16.03.1965*

«İnciklik»in 1-ci variantını yazdım. Neçə vaxtdı belə sevinməmişdim. Dünyada bu cür müqəddəs sevinc təsəvvür etmirəm. Yaşasın yaradıcılıq sevinci!

*17.03.1965*

## Gəmilər kimindir?

Bu gün Mehdi Hüseyn yenə yadıma düşdü. Təzədir, hələ tez-tez xatırlanacaq…

… 1958-ci ildi. Yazıçılar İttifaqında hekayə gecəsi keçirilirdi. Yazıçılar kiçik hekayələrini oxuyurdular.

Mən də Nəriman Nərimanova həsr elədiyim «Böyük dərd» hekayəsini çıxıb oxudum. Düşdüm, gəlib yerimdə oturdum. Bir də gördüm ki, qabaq cərgədə oturmuş Mehdi Hüseyn işarə ilə məni yanına çağırdı. Böyründəki boş yerdə əyləşdim.

- Hekayən yaxşıdır – dedi. Ancaq Bakının neftini daşıyan o gəmilərin kimin olduğunu demirsən. Kimindir?

Mən bunu qəsdən açıq şəkildə deməmişdim: «Sözü de, yiyəsi götürər».

Başa düşdüm dostum hansı nöqtəyə vurur, dedim:

- İngilisləri nəzərdə tutmuşam, Mehdi müəllim.

- Onu açıq yazmaq gərəkdir, yoxsa ayrı cür çıxır, cavansan…

- Baş üstə – dedim.

İndi düşünürəm: Mehdinin çox sevilməsinə mane olan bu cəhət eləbu ayıqlıq idi. Mən də onu buna görə az sevirdim.

*18.03.1965*

## Gürcüstan səfəri

Bu gün, aprelin 15-də Qədim gürcü torpağına qədəm basdım. Əvvəl darıxdım. Kürün üstünə gəldim. Elə bildim Azəri torpağından çıxmamışam. Kür yanımdadı, tək deyiləm. Qəribədir, körpünün üstündən maşınla keçəndə elə bildim bir asfalt yol köndələninə axıb gedir. Sonra gördüm, yox, su imiş, Kür imiş!

Səməd Vurğunun dediyi bu sözlər bu gün nədənsə heç yadımdan çıxmır:

Kiçik bir damladır yer üzündə Kür
Baxsan yer üzünün xəritəsinə.

Bəs niyə qəlbimdə ümman döyünür,
Mən qulaq asdıqca Kürün səsinə!..
Bu gün bir həqiqəti də dərk elədim ki, Kür təkcə bizim deyil.

*Tiflis, 15.04.1965*
*Rustavi mehmanxanası*

## Şah İsmayılın bir bəndi

Tiflisdə Kekelidze adına Əlyazmaları İnstitutunda işləyirəm. Nəsiminin farsca divanını (heyf ki, əvvəli itib, yoxdur) oxuyuram. Ölümündən 57 il sonra yazılıb…

Çap eləmək fikrindəyəm.

Sonra yenə orada Heyran xanımın 2200 misradan ibarət şerlər məcmuəsini tapmışam. O da çox maraqlıdır.

Şah İsmayıl Səfəvinin bir rübaisinə rast gəlmişəm:

Ta badeyi-xoşkvar var, ey saqi,
Ta vardu əlində ixtiyar, ey saqi.
Bir dövr elə kim, dövrü dolanmış dövran,
Nə badə qoyar, nə badəsar, ey saqi…

*6-9.04.1965, Tiflis*

## Qayçı

Məmməd Arif «İnam» povesti barədə mənə açıq məktub yazıb. Əsasən xoşuna gəlib. Ancaq iki İnamı bir-birinə qarışdırdığımı tənqid edir… Nə olar! Xəstə-xəstə oxuyub və məktub yazıb. Sağ olsun. Amma mən tamam ayrı şey nəzərdə tutmuşam: görünür istədiyimi ifadə edə bilməmişəm. Arif müəllimin çıxardığı nəticə heç ağlıma da gəlməyib! Həssas oxucudur və görünür, biz əsər yazarkən daha həssas və uzaqgörən olmalı, yüz ölçüb – bir biçməliyik.

*14 avqust, 1965*

## Anam mənim

Bu gün üçüncü evladım – Asya dünyaya gəldi. Anamın adını qoydum. Xoşbəxt ol, mənim son beşiyim.

*13.06.1965*

## Dodaqları tikilmiş şair

Fərruxi Yəzdi haqqında yazdığım monoqrafiya çapdan çıxıb – «siqnalnısını» dünən veriblər…

Ömrümün beş ilini sərf elədiyim kitab! Qoy bu,ömrü boyu əzab çəkmiş, dodaqları tikilmiş, damarlarına hava yeridilərək vəhşicəsinə öldürülmüş cəfakeş şairin xatirəsinə məndən kiçik bir əklil olsun!

*25.09.1965*

## M.Arifə məktub

Əziz Arif müəllim!

«İnam» povesti barədə Sizin mənə yazdığınız açıq məktubu həyəcanla oxudum. Ona görə həyəcanla deyirəm ki, biz cavanlar hörmətli, ağsaqqal böyüklərimizin öz yazılarımız haqda fikirlərini çox az hallarda eşidirik. Halbuki hər cavanın buna çox böyük ehtiyacı olduğu Sizə yaxşı məlumdur. Onların hər addımını izləmək, yaxşı cəhətlərini görüb təqdir etmək, yanlış fikir və mülahizələrini böyüyüb sağalmaz mərəzə çevrilməmiş göstərib düz yola çağırmaq, onların əlindən tutmaq həm ədəbiyyatımızın bu günü üçün, həm də gələcəyi üçün çox xeyirli və gərəkli bir işdir. Bu, böyük qayğıdır…

Sizin yazdığınız məktub məni hədsiz dərəcədə sevindirdi… Özü də söhbət məndən getdiyi üçün yox. Mən bu məktubu ədəbiyyatımızı öz həyatı qədər sevən, həmişə onun taleyini düşünən, sakit, təmkinli mülahizələri ilə hər vaxt ən mübahisəli məsələlərin necə deyərlər, üstünə su çiləyən bir alimin tək mənə yox,

bütün ədəbi gəncliyimizə qarşı böyük diqqəti və qayğısı kimi qiymətləndirirəm.

Arif müəllim, sizin istirahətə ciddi ehtiyacınız olduğu bir zamanda vaxt sərf edib yazımı oxumağınız, fikrinizi bildirməyiniz məni son dərəcə mütəəssir etdi. Bunun üçün çox sağ olun!

Mən Sizin məktubunuzdakı bir qeydin üzərində dayanmağı, öz fikrimi sizə bildirməyi lazım bilirəm. O da əsərdəki ikinci inam məsələsidir. Mən açığını deyim ki, Siz deyən mənada inam nəzərdə tutmamışdım: ümumiyyətlə, mən məsələnin siz deyən tərəfini heç ağlıma da gətirməmişdim. O məsələni qələmə alarkən ancaq belə düşünmüşdüm ki, sürücü Qulam da Əsgər kişi kimi öldürülmüş adamdır.

Düzdür, o, cismən sağdır, gəzir, maşın sürür, lakin ürəyindəki xeyirxahlıq hissi, insanlıq hissi öldürülmüşdür. Onu idrislər öldürüblər! Bu isə, görünür, əsərdə dəqiq və aydın şəkildə ifadə edilməyib.

P.S. Bu məktubu göndərmək istəmədim!

*12.10.1965*

Bu gün onuncu gündür ki, Kabil şəhərindəyik. Özümüzü yaxşı hiss edirik, hər şeyimiz var. Bu gün çoxdan məni düşündürən bir hekayə yazmışam. Adı «Həkim ürəyi»dir. Mənə elə gəlir ki, pis çıxmayıb. Hələ bir dəfə də əl gəzdirəcəyəm.

Bu gün növbətçi olduğum zaman yazmışam onu.

*28.10.1966*

# KİTABIN İÇİNDƏKİLƏR

## ROMAN

Vəfalım mənim ........................................................................ 10

Gündəliyimdən səhifələr ................................................................ 435

**ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ**

# Ə S Ə R L Ə R İ

## X CİLDDƏ

## V CİLD

Bakı – 2004


*Nəşriyyatın direktoru:* **Hafiz Abıyev**
*Nəşriyyat redaktoru:* **Qabil Xeyrullaoğlu**
*Korrektor:* **Nurlanə Qasımlı**
*Operator:* **İradə Həsənli**
*Cildçi:* **İlyas Cəlilov**
*Çapçı:* **Mircəlal Kazımov**

Çapa imzalanmışdır: 10.12.2004. Sifariş № 40. Formatı 84x108$^{1/32}$.
Həcmi 29,75 ç.v. Tirajı 1500 nüsxə.

*Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,*
*Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972*